AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

A.A.BAKIXANOV adına TARİX və ETNOLOGİYA İNSTİTUTU

# “AZƏRBAYCAN 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ”

## RESPUBLİKA ELMİ KONFRANSINININ MATERİALLARI

**05 may 2025-ci il**

**Bakı- 2025**

**AMEA A. A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi Şurasının qərarı ilə çapa məsləhət görülmüşdür**

Təşkilat komitəsi:

**KƏRİM ŞÜKÜROV**
tarix elmləri doktoru, professor,

**İLQAR NİFTƏLİYEV**
tarix elmləri doktoru, dosent,

**MAİS ƏMRAHOV**
tarix elmləri doktoru, professor,

**CƏBİ BƏHRAMOV**
tarix üzrə fəlsəfə doktoru, dosent,

**AYPARA RÜSTƏMOVA**
tarix üzrə fəlsəfə doktoru, dosent

"Azərbaycan 1941-1945-ci illər müharibəsində". Respublika elmi konfransınının materialları. 05 may 2025-ci il. Bakı, "Nəşriyyat" şöbəsi, 2025, - 432 s.

©AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, 2025

# MÜNDƏRİCAT


## PLENAR İCLAS

MAİS ƏMRAHOV
1941-1945-ci illər müharibəsi və 44 günlük II Qarabağ-Vətən müharibəsi: tarixi paralellər ........................................................ 9

MEHMAN SÜLEYMANOV
II Dünya müharibəsi illərində Azərbaycanda çağırış və səfərbərlik işinin nəticələri haqqında ......................................... 40

## I BÖLMƏ
## 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİ NƏSİLLƏRİN YADDAŞINDA

IRADA HUSSEINOVA
The role of the Azerbaıjanı people ın the vıctory over nazı Germany.......................................................................... 61

GÜLNARƏ ƏLİYEVA
İkinci dünya müharibəsində döyüş salnaməsi yazan Azərbaycan milli diviziyaları................................................... 86

RÖVŞƏN HƏTƏMOV
İkinci dünya müharibəsində Qafqaz uğrunda döyüşlərin rolu ................................................................... 101

ŞƏFA MÖVSÜMOV
1941-1945-ci illər müharibəsində azərbaycanlı qadınların iştirakı Azərbaycan sovet tarixşünaslığında........................... 124

GÜNEL MUSAYEVA
Faşist Njdenin Ermənistanda qəhrəmanlaşdırılması: tarixi və ideoloji aspektlər................................................................ 136

ZAKİR KƏRİMOV
Sındırılmış talelər............................................................... 148

VÜSALƏ ƏLLƏZOVA
İkinci dünya müharibəsində qərbi azərbaycanlıların iştirakı .... 165

NAZİM MƏMMƏDOV
Qarabağ döyüşçüləri İkinci dünya müharibəsində................. 179

RAHİM HƏSƏNOV
Şəki böyük vətən müharibəsi illərində.................................. 189

İKRAM AĞASİYEV
Azərbaycanda hərbi əsir düşərgələri və əsir məzarlıqları haqqında.................................................................................... 202

DİLQƏM ƏHMƏDOV
Azərbaycan milli birlik məclisinin ordenləri: Azərbaycan istiqlal yıldızı və Bozqurt.............................................................. 226

AQİL ƏHMƏDOV
II Dünya müharibəsi illərində azərbaycanlıların hərbi-siyasi emiqrasiyası ............................................................................ 240

QAŞQAY RAMAZANOV
1941–1945-ci illər müharibəsi dövründə azərbaycanda hərbi mətbuatın fəaliyyəti ............................................................ 256

**II BÖLMƏ**
**CƏMİYYƏT VƏ MÜHARİBƏ**

НУРУЛЛА АЛИЕВ
Участие Азербайджанцев в национальных воинских формированиях в годы великой отечественной войны..... 275

XALİDƏ İBRAHİMOVA
Müharibə ərəfəsində Azərbaycan SSR-də ictimai-siyasi və sosial-iqtisadi həyat.............................................................. 293

AFAQ PİRİYEVA
Azərbaycan iqtisadiyyatı cəbhənin xidmətində ...................... 306

ƏZİZAĞA ƏLƏKBƏRLİ
İkinci dünya müharibəsi illərində Azərbaycanda nəqliyyat və rabitə................................................................ 321

GÜLŞƏN XALIQOVA
Azərbaycan sənayesi cəbhənin xidmətində ............................ 340

ТАМИЛЛА КЕРИМОВА-КОДЖАЕВА
Основные направления научных исследований нефтехимиков Азербайджана по бесперебойному снабжению фронта военной техникой и боеприпасами в годы второй мировой войны................................................ 350

REYHAN ABBASOVA
Azərbaycan mədəniyyəti II Dünya müharibəsi illərində ........ 372

NİGAR AXUNDOVA
Ədəbiyyat və incəsənət cəbhənin xidmətində......................... 385

QƏNİRƏ QAFARLI
Akademik Yusif Məmmədəliyevin həyat və yaradıcılığı milli Azərbaycan tarixi muzeyi eksponatlarında............................. 399

MÜJKAN MƏMMƏDZADƏ
1941-1945-ci illər müharibəsi Azərbaycan filmlərində.......... 416

# PLENAR İCLAS

**MAİS ƏMRAHOV***

# 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİ VƏ 44 GÜNLÜK II QARABAĞ-VƏTƏN MÜHARİBƏSİ: TARİXİ PARALELLƏR

## XÜLASƏ

Məqalə tarix elminin problemli sahələrindən biri olan Sovet İttifaqının Böyük Vətən müharibəsinin müasir Azərbaycan tarixşünaslığı elminin inkişafına həsr olunub. 1941-1945-ci illərdə baş vermiş hadisələrin xatirəsi Azərbaycan xalqının mədəniyyətində xüsusi yer tutur, milli kimliyin əsas elementidir.

**Açar sözlər:** Böyük Vətən müharibəsi, Azərbaycan tarixşünaslığı, sosial tarix, fənlərarası yanaşma, kollektiv yaddaş, gündəlik həyatın tarixi

**Mövzunun aktuallığı.** 2025-ci ilin sentyabr ayında İkinci dünya müharibəsində faşism üzərində qələbənin 80 illiyi tamam olur. 6 il bir gün davam edən İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də faşist Almaniyasının Polşa üzərinə hücumu ilə başlanmış, 1945-ci ilin sentyabrın 2-də Yaponiyanın təslim olması ilə başa çatmışdır. 61 dövlətin, dünya əhalisinin 1.700 milyon nəfərinin və ya dörddə üçünün iştirak etdiyi XX əsrin ən dəhşətli müharibələrdən olan İkinci dünya müharibəsi 40 ölkənin ərazisində getmiş, 110 milyon adam, yaxud Birinci dünya müharibəsindəkindən 40 milyon nəfər artıq insan hərbi səfərbərliyə alınmışdı. Müharibədə 50 milyondan çox insan həlak olmuş, 100 milyondan çox insan yaralanmış və şikəst qalmışdı. Təkcə Sovetlər birliyi müharibədə 29 milyon nəfərə itki vermişdir [18, s.7].

---

* AMEA A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, tarix elmləri doktoru, professor

Avropada öz işğallarını həyata keçirən Hitler Almaniyasının 1941-ci il iyunun 22-də SSRİ üzərinə hücuma keçməsi ilə başlanan sovet-alman müharibəsi 1945-ci il mayın 9-da Hitler Almaniyasının məğlubiyyəti ilə nəticələndi. Sovet tarixşünaslığına bu müharibə Böyük Vətən müharibəsi, 9 may isə Faşizm üzərində Qələbə günü kimi düşmüşdür.

Müharibə haqqında danışarkən göz önündə məhv olmuş dinc həyat, sağ qalmaq üçün öldürülən insanlar, yolunu gözləyən və gəlib çıxmasından "hə" və "yox" xəbərini gətirən məktublar, həyat yoldaşı olmayan gəlinlər, yetim qalmış uşaqlar canlanır" [22, s.77]. Müharibənin tarixi yurdundan-yuvasından didərgin salınmış millətlərin faciəli həyat tarixidir. Soykökünə "vətən xaini" damğası vurulmuş, Vətən həsrəti ilə qəriblikdə yaşayan və dünyasını dəyişən, nəşinin vətənində dəfninə icazə verilməyən minlərlə insanın nisgilli tarixidir. Bu müharibədə hamını vətənə məhəbbət, öz xalqına sadiqlik və düşmənə nifrət birləşdirirdi [31, c.19].

Keçmiş SSRİ xalqlarının bioqrafiyasında Böyük Vətən müharibəsi kimi tarixləşmiş 1941-1945-ci illərdə baş vermiş faciəli hadisələrin Azərbaycan tarixşünaslığı həm zənginliyinə, həm də əhatə dairəsinə görə fərqlənir. Azərbaycan alimlərinin tədqiqat obyektini təkcə müharibədə baş verən hərbi əməliyyatlar deyil, həm də demoqrafiya, mədəniyyət, psixologiya, tarixi yaddaş, gündəlik həyatın tarixi, konkret insanların yaşam tərzi, duyğuları və arzuları, düşmən haqqında təsəvvürləri və gələcək haqqında düşüncələri təşkil etmişdir.

SSRI-nin süqutundan sonra postsovet respublikalarında, o cümlədən Azərbaycanda da toplanan milyonlarla fakt göstərir ki, "Döyüşdə qorxaqlıq göstərsəm ailəm, kəndim, rayonumun əhalisi mənim haqqımda nə fikirləşər, içdiyim suyu, udduğum havanı mənə halal edərlərmi?" fikri azərbaycanlı döyüşçünü bir an belə tərk etməmiş, vətən təəssübkeşliyini, Azərbaycan torpağına, doğma el-obaya olan məhəbbətini canından belə əziz tutmuşdur. Bu baxımdan müharibə faşizmə qarşı döyüşən Azərbaycan igidlərinin həyat salnaməsi, "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarına tabe olaraq gecə-gündüz işləyən, malını, pulunu,

yorğanındakı yununu, hətta nişan üzüyünü cəbhəyə verən Azərbaycan qadınının şərəfli həyat tarixidir. Ona görə də faşizm üzərində qazanılmış qələbədə nə Ali Baş Komandanın, nə sıravi döyüşçünün, nə də arxa cəbhədə çalışan hər bir kəsin rolunu azaltmadan qətiyyətlə deyə bilərik: Qələbənin həqiqi yaradıcısı və qəhrəmanı xalqlardır.

Müharibə tarixinə dair istər əcnəbi, istərsə rus, istərsə də milli tarixşünslığının, həmçinin sənədli və bədii filmlərin təhlili göstərir ki, kim daha çox düşmən əsgəri məhv edərsə ona qəhrəman adı veriləcəyi təbliğatı ağır nəticələrə səbəb olmuş, almanların əlinə keçməsin deyə şəhərlərin viran qoyulmasına, ən mühüm yaşam obyektlərinin yandırılması,yaxud, da əsgərlərin və komandirlərin yaşam yerinin ayrı olması, onları qidalanması üçün müəyyən edilən yeməkxanaların fərqliliyi, yalnız kapitanlar və yüksək vəzifəli zabitlərlə əsgərlərin eyni restoranda yemək yeməsinin qadağan edilməsi nədən irəli gəlirdi? sualına cavab bu gün də birmənalı qiymətləndirilmir. Lakin müharibənin başa çatmasından az sonra "qələbənin əsas təşkilatçısı və sahibi rus xalqıdır" tezisinin ortaya atılması, SSRİ-yə zorla müttəfiq respublika kimi "birləşdirilən" ərazilərin qəhrəmanlarının heç bir üstünlüyü olması üzə çıxdıqca insanların təfəkküründəki yenilməz ölkənin vətəndaşı olması fikrində də ciddi dəyişikliklər yaranmağa başladı.

XXI əsrin əvvəllərindən alovlanan "lokal müharibələr" müharibə dövrünün psixiatriyasının araşdırılmasını yenidən gündəmə gətirmişdir. İstər döyüş əməliyyatlarında, istərsə də cəbhə həyatının digər hadisələrdə güclü sarsıntılara məruz qalan əsgər və zabitlər "müalicədən conra döyüş cəbhəsinə qayıtmaq" təbliğatının nəticəsi idi ki, yenidən döyüşə qatılanlar az keçmədən təkrar psixoloji gərginlik yaşamış, əksər hallarda cəmiyyətin "yararsız üzvünə" çevrilmişlər. Ona görə də bəşəriyyətin qlobal müharibələrə sürükləndiyi indiki dövrdə müharibə haqqında tarixi tədqiqatlarda siyasi, statistik və ya hərbi aspektlərlə yanaşı sosial-psixoloji problemlər, kollektiv yaddaşın qorunması və təkamülü, milli kimlik məsələlərinin də araşdırılması sahəsində

kadrlar hazırlanması prioritet istiqamətlərədn biri olmalıdır.

**Müharibəyə aparan yolda paralellər.** Əvvəlcə İkinci dünya müharibəsinə aparan yola nəzər salaq. Məlumdur ki, 1914-1918-ci illər I Dünya müharibəsi Almaniyanın silahlı qüvvələrinin məğlubiyyəti ilə başa çatdı. Versal sülhünün nəticəsi olaraq Almaniyanın "həyat məkanı" daraldı, onun əsas rəqibləri olan İngiltərə və Fransa demək olar ki, dünyanın 1/3-nə nəzarət etməyə başladılar. Müharibədən sonrakı 10 ildə Almaniya böhran keçirdi. İstehsal azaldı, işsizlərin sayı artdı, xalq kütlələrinin həyat səviyyəsi aşağı düşdü. Veymar respublikasının liderləri 1929-cu il böhranı ilə mübarizədə köməksiz qaldılar. Alman millətinin "həyat məkanı"nın genişləndirilməsi uğrunda mübarizə Almaniyanın xarici siyasət strategiyasının mühüm sahəsinə çevrildi.

1929-1933-cü illərin dünya iqtisadi böhranı faşizmin inkişafına təkan verdi. Sosial çətinliklərdən istifadə edən alman nasistləri müxtəlif vədlərlə kütlələri öz tərəflərinə çəkməyə başladılar. Nasistlərə qarşı vahid cəbhə yarada bilməyən kommunistlərin və sosialistlərin təqsiri üzündən Hitlerin hakimiyyətə gətirilməsi asanlaşdı. Versal müqaviləsi buxovlarından azad olmaq və böhrandan çıxmaq yolunu faşist diktaturasının yaradılmasında görən orta təbəqələr Hitlerin yalançı təbliğatına uyaraq onu müdafiə etdilər. Veymar Respublikasından narazı olan sənayeçilər, bankirlər və hərbi bürokratik elita Hitleri müdafiə etdi. Onların təhriki ilə prezident Hindenburq 1933-cü il yanvarın 30-da A.Hitleri reyxkansler təyin etdi [17, s.147]. 1934-cü il avqustun 2-də Hindenburqun vəfatından sonra Adolf Hitler kansler və prezident vəzifəsini birləşdirərək özünü "fürer"- rəhbər adlandırdı. Nasist partiyası bütün kütləvi təşkilatlara, o cümlədən "Əmək cəbhəsinə", "Hitlerçi gənclər" və s. kimi təşkilatlara rəhbərlik etməyə başladı [17, s.18].

1933-1934-cü illərdə Almaniyanın sosial-iqtisadi stukturu formalaşdırıldı. Qərb dövlətlərinin müdafiə mövqeyi tutması, müharibədən yayınmağa cəhd etmələri Hitler siyasətinə yardımçı oldu. Hitlerin açıq antikommunizm mövqeyi, onun 1935-ci il dekabrın 18-də Berlindəki Polşa səfirinə "Rusiyanın Qərbə

irəliləməsinə mane olmaqda Avropa ölkələri ilə həmrəydir, ancaq bu Polşa-Sovet sərhədlərindən keçməlidir" [32, s.10-11] fikri qərb dövlətlərini "Sovet Rusiyasına qarşı "köklədi". Başqa sözlə, bolşevik Rusiyasına, yaxud SSRİ-yə nifrət də yeni dünya müharibəsinin başlanma səbəbləri sırasına daxil oldu.

Böyük Britaniyanı "təbii müttəfiq" sayan Adolf Hitlerin antisovet təbliğatında İngiltərə xüsusi yer tuturdu. Bu ondan irəli gəlirdi ki, İngiltərə SSRİ qarşısında güclü Almaniya görmək istəyirdi. Böyük Britaniyadan fərqli olaraq Fransa və Çexoslovakiya Avropanın "bolşevizm təhlükəsindən" xilaskarına az inanırdı. Bu səbəbdən də, onlar Almaniyada ümumi hərbi mükəlləfiyyət elan edildikdən sonra yeni müttəfiqlər axtarmağa başladılar və həmin ildə SSRİ ilə qarşılıqlı yardım haqqında müqavilə imzaladılar.

A.Hitler Almaniyanın təcavüzkar kursunun aparıcı Qərb dövlətləri tərəfindən dəstəyinə nail olduqdan sonra özünün ərazi iddialarını praktiki olaraq reallaşdırmağa başladı. 1935-ci il martın 1-də Saar vilayətinin Reyxə birləşdirilməsi ilə mühüm kömür – metallurgiya rayonu Almaniyanın sərəncamına keçdi. 1935-ci ilin yazında Almaniya artıq rəsmi olaraq Versal sazişinin bütün hərbi maddələrinə riayət etməkdən imtina etdi. 1936-cı ilin martında Almaniya birtərəfli qaydada Lozanna müqaviləsini pozaraq delimitarizasiya olunmuş Reyn zonasını işğal etdi. Fransanın şərq sərhədlərində yenidən alman süngüləri görünməyə başladı və Reyn zonası faşist platsdarmına çevrildi [25, s.20]. Reyn vilayətinin Almaniya qoşunları tərəfindən tutulması Avropada qüvvələrin balansını dəyişdi. Dünya ağalığı iddiasında olan Almaniya 1936-cı ildə Yaponiya ilə antikomintern paktı imzaladı və bu pakta 1937-ci ildə İtaliya da qoşuldu.

Böyük alman imperiyasının qurulmasına Adolf Hitler Avstriyadan başladı. Almaniya Avstriyanın 300 milyon alman markası təşkil edən qızıl ehtiyatını ələ keçirmək istəyirdi. Böyük Britaniyanın Avstriya ilə bağlı mövqeyi Hitleri fəal hərəkət etməyə təhrik etdi. O, 1938-ci il fevral ayının 7-də Avstriya kansleri Şuşinqi Berxtesqadendəki iqamətgahına dəvət etdi.

Görüş fevral ayının 12-də baş tutdu. Görüşdə fürer ultimativ formada Avstriyada nasist partiyasının fəaliyyətinə qoyulan qadağanın götürülməsini, həbsdə olan nasistlərə amnistiya verilməsini, aparıcı dövlət vəzifələrinə nasist liderlərinin təyin edilməsini kanslerdən tələb etdi. Hitlerin ultimatumunda, həmçinin alman və Avstriya ordusu arasında zabit mübadiləsi də daxil olmaqla sıx münasibətlər yaradılması nəzərdə tutulur, Avstriya Almaniya "iqtisadi sisteminə" daxil edilirdi. A.Hitlerin təzyiqi ilə Şuşinq "… öz ölkəsinin ölüm hökmünü imzaladı" [32, s.15].

Avstriyaya qoşun yeridilməsindən iki ay sonra Almaniyanın hədəfi Çexoslovakiya oldu. Çexoslovakiyanı tutmağı planlaşdıran Almaniya öz qonşuları ilə də fəal xarici siyasət apararaq Çexoslovakiyaya qarşı ərazi iddiaları olan Polşanı və Macarıstanı da ona qarşı hazırlaya bildi. Polşa Çexoslovakiyanın Teeşinsk vilayətini, Macarıstan isə Slovakiyanın cənub rayonlarını və Zakarpat Ukraynasını almağa can atırdı.

1938-ci il sentyabrın 29-da Münhendə 4 dövlətin – Almaniya, İtaliya, Böyük Britaniya və Fransanın iştirakı ilə konfrans açıldı. Sovet İttifaqı və Çexoslovakiya danışıqlara dəvət olunmamışdılar. N.Çemberlen və E.Daladye A.Hitlerin şərtlərini qəbul etdilər.

Konfransda Çexoslovakiyanın Sudet vilayətinin 10 gün (1-10 oktyabr 1938-ci il) müddətində bütün qurğular, fabriklər, zavodlar, xammal ehtiyatları, dəmir yolları ilə birlikdə Almaniyaya verilməsi məsələsinə baxıldı və razılaşma əldə olundu. 1938-ci il oktyabrın 1-də gecə alman qoşunları Sudet vilayətinə daxil oldu.

Münhendən sonra Almaniyanın dəstəyi ilə 1938-ci ilin oktyabr-noyabr aylarında Polşa və Macarıstan Çexoslovakiyadan iddia etdikləri əraziləri - Polşa sənayecə inkişaf etmiş Teeşinsk vilayətini, Macarıstan isə Slovakiyanın cənub rayonunu və Zakarpat Rusunu aldı. Çexoslovakiyanın işğalı ilə A.Hitler geosiyasətçi Bismarkın birbaşa davamçısı olaraq: "…kim Çexiya üzərində hakimdirsə, Avropa üzərində hakimdir" vəsiyyətini həyata keçirmək yolunda mühüm addımı atmış oldu. 1939-cu il martın 15-də alman qoşunları Çexoslovakiya torpaqlarını işğal

etdilər. Çexoslovakiyanın tutulması nəticəsində faşist Almaniyası 1.582 təyyarə, 500 zenit qurğusu, 2.175 top, 469 tank, 1 milyondan çox tüfəng, 1 milyon patron, 3 milyon mərmi ələ keçirdi. Çexoslovakiyanın tutulması ilə Avropada strateji çəki dəyişdi [32, s.21].

1939-cu il martın 23-də Rumıniya faşist Almaniyasının vassallığına keçdi. Almaniya Dansiqin ona verilməsini və Polşa dəhlizinin yaradılmasına imkan verilməsini Polşa dövlətindən tələb etdi [23, s.34].

II Dünya müharibəsinin başlanmasında Almaniya, İtaliya, ABŞ, İngiltərə, Fransa və Yaponiyanın bilavasitə günahı vardır.

1 sentyabr 1939-cu ildə faşist Almaniyasının Polşaya hücumu ilə 2194 gün (6 il) davam edən II Dünya müharibəsi II dünya müharibəsi başlandı. Polşaya hücum edən alman ordusunun şəxsi heyətini 1,6 milyon nəfər təşkil edirdi [25, s.31]. Almaniyanın 62 hərbi birləşməsi, 2.800 tankı, 6.000 top və minomyotu, 2.000-ə yaxın döyüş təyyarəsi vardı [28, s.50].

Polşa Ordusunun şəxsi heyəti 1 milyon nəfər idi. Polşanın 55 hərbi birləşməsində 870 tank, 4.300 top və minomyot, 824 döyüş təyyarəsi vardı. Tankların 1/4-ni yüngül tanklar təşkil edirdi. Döyüş təyyarələrinin təxminən yarısı döyüş əməliyyatları üçün yararsız idi [29, s.26].

1939-cu il sentyabr ayının 3-də səhər İngiltərə və Fransa Polşa ilə bağladıqları qarşılıqlı yardım haqqında müqaviləyə uyğun olaraq Almaniyaya müharibə elan etdilər. Sentyabrın 3-10 arasında Böyük Britaniya dominionları Avstraliya, Yeni Zelandiya, Hindistan və Kanada da Almaniyaya müharibə elan etdilər [23, s.41]. Ancaq döyüş əməliyyatları hələlik Polşa ərazisində gedirdi. SSRİ isə Almaniya ilə bağladığı 1939-cu il 23 avqust müqaviləsinə əsasən bitərəfliyini saxlayırdı. Qərb cəbhəsində “Qəribə müharibə” davam edirdi. Sentyabrın 27-də Hitler silahlı qüvvələrin Baş komandanlarının Qərargah rəislərinin müşavirəsində tezliklə qərbə hücuma hazırlıq haqqında əmr verdi: “…müharibənin məqsədi: İngiltərəni diz çökdürmək” idi [26, s.138].

Qüvvələrin qeyri-bərabərliyi, Polşa hökuməti və komandan-

lığın ölkənin silahlı qüvvələrinə rəhbərlikdə yol verdiyi səhvlər nəticəsində alman faşist orduları Qərbi və Mərkəzi Polşanı tutdu, Narev, Visla, San, bəzi yerlərdə isə Buq çayında dislokasiya olundular [23, s.41].

Almanya-Polşa müharibəsi SSRİ-nin dövlət sərhədlərinin yaxınlığında getdiyini dəyərləndirən Sovet rəhbərliyi almanların gizli protokolla müəyyənləşdirilmiş Pissa, Narev, Visla və San çayları xəttində dayanacaqlarına o qədər də əmin deyildi [23, s.41]. Ona görə də, necə və hansı bəhanələrlə qoşunların Polşa ərazisinə yeridilməsini, bunun sovet xalqına və bütün dünyaya necə izah olunacağını [24, s.11] götür-qoy etməyə başladı, nəhayət sentyabrın 17-də saat 540 dəqiqədə Qırmızı Ordu hissələri sovet - Polşa sərhəddini keçmək və Pissa, Narev, Visla və San çayları istiqamətində irəliləmək göstərişi aldı [23, s.41].

1939-1941-ci illərdə Avropanın işğalı məqsədilə faşist Almaniyanın həyata keçirdiyi hərbi əməliyyatlarına oxşar əməliyyatlar Ermənistan Respublikasının hərbi-siyasi rəhbərliyi tərəfindən təkrar olunmuşdur. 1994-cü ildə əldə olunan atəşkəsdən sonra Qafqazda möhkəmlənmək arzusunu həyata keçirmək istəyən Rusiyadan, ABŞ və Qərb ölkələrindəki erməni lobbilərində dəstək alan Ermənistanın hərbi-siyasi rəhbərliyi “14 illik nisbi sakitliyi” pozaraq 2008-ci ilin əvvəlində vəziyyətin yenidən gərginləşdirdi. Həmin ilin mart ayında Ermənistan silahlı qüvvələri Tərtərdə hərbi təxribat törətdi. 2010-cu il iyunun 18-19-da Çaylı yaxınlığında toqquşmaların baş verdi, 2014-cü il noyabrın 12-də Ağdam rayonunun Kəngərli kəndi yaxınlığında Azərbaycan silahlı qüvvələri ilə Ermənistan silahlı qüvvələri arasında hərbi insident yaşandı. Təbii ki, bütün bunlar Ermənistanın Azərbaycan Respublikasından yeni ərazilər ələ keçirilməsinə cəhdinin nümunələri idi.

Törətdiyi hər bir təxribata layiqli cavabını alan Ermənistan Respublikası hərbi-siyasi rəhbərliyi baş verənlərdən nəticə çıxarmaq əvəzinə 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq yenidən təxribatlara başladı. 2016-cı il aprelin 2-də səhər erkən saatlardan başlayaraq Ermənistan münaqişə

zonasında hərbi fəaliyyətini gücləndirərək, mülki əhaliyə qarşı bəşəriyyət əleyhinə cinayətlərə bərabər tutulan çoxsaylı aktlar törətdi. Ermənistan tərəfi təmas xətti boyunca sıx məskunlaşmış ərazilərdə yaşayan, aralarında qadınlar, uşaqlar və ahılların da olduğu qeyri-döyüşçü mülki əhaliyə qarşı qəsdən, sistematik və hədəflənən hücumlar etdi. 32 yaşayış məntəqəsinin bombalanması nəticəsində aralarında 16 yaşdan kiçik 2 uşaq olmaqla 6 mülki şəxs həlak oldu, 26 şəxs ağır yaralandı. Hücumlar nəticəsində 232 fərdi yaşayış evi, 99 elektrik dirəyi, 3 elektrik yarımstansiyası, kilometrlərlə su və qaz boruları dağıdıldı. Əməliyyatların başlandığı ilk dəqiqələrdən etibarən hərbi vəziyyəti və döyüşlərin idarə edilməsini Ali Baş Komandan İlham Əliyev öz üzərinə götürdü. Prezident həmin gecə Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitindən qayıtdı. Aprelin 2-də Təhlükəsizlik Şurasının iclasını çağıraraq göstərişlər verdi. Döyüşlər zamanı Ermənistan Ordusunun şəxsi heyəti çoxsaylı itki verdi, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi [8]. Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Çocuq Mərcanlı kəndi, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində yollar düşməndən azad olundu [5]. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətinin verdiyi məlumata görə, Aprel döyüşlərində 320-dən artıq düşmən məhv edildi və 500-dən artıq erməni hərbi qulluqçusu yaralandı. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsində yerləşən qərargah və əsas hərbi hissələr məhv edildi. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı əldə edildi [5].

Bir nüansa diqqəti yetirək. 1941-1945-ci illər müharibəsi ərəfəsində və müharibənin ilk günlərində sovet qoşunları Xalxin Qolda, Xasan gölündə döyüşlərdə, sovet-fin müharibəsində böyük itkilər hesabına olsa da, uğurlar əldə etmişdi. Lakin dünyanın müxtəlif ölkələrində yaşayan ruslar və SSRİ-nin digər xalqları həmrəyliklərini demək olar ki, ifadə etmədilər. II

Qarabağ-Vətən müharibəsi ərəfəsində, xüsusilə Aprel döyüşlərin günlərində Azərbaycan Respublikasının və dünyanın bir sıra şəhərlərində aprelin 4-də Amerika Birləşmiş Ştatlarının Çikaqo və Nyu-York şəhərlərində, aprelin 5-də Avstraliyanın Kanberra, aprelin 6-da Almaniyada yaşayan azərbaycanlılar Berlində, Roma şəhərində İtaliya Parlamentinin önündə, Bakıda minlərlə gənc cəbhə bölgəsindəki əsgərlərə dəstək məqsədilə küçələrə çıxaraq Şəhidlər xiyabanından Fəvvarələr meydanına kimi yürüş edərək orduya dəstək nümayiş etdirdilər. Aprelin 7-də Riqada azərbaycanlı tələbələr orduya dəstək məqsədi ilə aksiya keçirdilər. Vilnüsdə və Kaunas şəhərlərinin mərkəzində, Ermənistan Respublikasının Niderland Krallığındakı səfirliyinin önündə, Danimarkada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatı "Vətən" Cəmiyyətinin təşkilatçılığı ilə Kopenhagendə, İstanbulun Taksim meydanında, aprelin 8-də Dağıstan Respublikasının Dərbənd şəhərində, aprelin 11-də Sankt-Peterburq şəhərində, Polşada yaşayan azərbaycanlılar tərəfindən bu ölkənin paytaxtı Varşava şəhərində, Kanadada Torontonun mərkəzində, aprelin 15-də Netanya şəhərinin Mədəniyyət Mərkəzi qarşısında, aprelin 16-də Çexiyada fəaliyyət göstərən Azərbaycan Tələbə Şəbəkəsi, Azərbaycan icmasının üzvlərinin iştirakı ilə Praqanın mərkəzində Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyulmasını tələb edən sülhməramlı aksiya keçirildi. Aprel döyüşləri bütün dünyaya Azərbaycan ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə xatırlatdığı kimi, Azərbaycan bayrağının tezliklə Şuşada, Xankəndində dalğalanacağına inamı qüvvətləndirdi. Bu inam öz təsdiqini 2018-ci il mayın 2-dən 27-dək davam edən növbəti erməni təxribatına cavabda-Naxçıvan Muxtar Respublikasında keçirilən Günnüt əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndi, Ağbulaq, Qızılqaya və Qaraqaya yüksəklikləri, ümumilikdə 11 min hektardan artıq ərazi azad olunmasında, Dərələyəz mahalının Arpa kəndinin, dövlət sərhədi boyunca əlverişli mövqelərin Azərbaycan ordusunun nəzarəti altına keçməsində, 1683 metr hündürlüyündə yerləşən Qızılqaya

yüksəkliyinin azad olunması nəticəsində böyük əhəmiyyətə malik İrəvan-Yegeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yolunun, yəni böyük Zəfərədək işğal altında olan Qarabağ ərazisi ilə Ermənistanın cənubunu birləşdirən əsas magistral xəttin mühüm hissəsi nəzarət altına keçməsində, nəhayət 2020-ci il iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimi pozulması səbəbli Ermənistan-Azərbaycan dövlət sərhədinin Tavuş mərzi və Tovuz rayonu əraziləri boyunca başlayan və iyulun 23-dək davam edən, 44 günlük Vətən müharibəsinin başlanğıcı hesab edilən Tovuz döyüşləri [20]. Azərbaycan Respublikası əhalisi arasında yaranan ciddi narahatlıqda tapdı.

Müharibələr tarixində, o cümlədən 1941-1945-ci illər müharibəsi dövründə baş verməyən bir hadisə baş verdi. İyulun 14-dən 15-ə keçən gecə on minlərlə gənc Bakıda yürüş edərək Azərbaycan Prezidentinə və orduya dəstək nümayiş etdirdilər. Doğrudur, oxucu deyə bilər ki, 1941-1945-ci illərdə də əsgərlərin nizamlı sıralarla, mahı oxuya-oxuya döyüşə getdiklərinə dair çöxlu kadrlar izləmişlər. Ancaq bu gediş orduya səfərbər olunmuş əsgərlərin hazırlığından sonra təşkil olunurdu. II Qarabağ-Vətən müharibəsi ərəfəsində isə gənclər könüllü olaraq səfərbər olunmalarını tələb edirdilər.

**Müharibənin başlanması.** 2025-ci ilin sentyabr ayında İkinci dünya müharibəsinin tamam olmasının 80 ili, 2020-ci ilin 27 sentyabrında başlanan və 44 gün davam edən II Qarabağ-Vətən müharibəsinin başlanmasının isə 5 ili tamam olur. Birincisi müharibə Sovet İttifaqının Böyük Vətən müharibəsi, ikincisi isə II Qarabağ-Vətən müharibəsi kimi tarixə düşmüşdür. Bu iki müharibədə paralellik təşkil edən nüanslardan biri hər ikisinin bazar günü başlanmasıdır.

Azərbaycan Prezidentinin sentyabrın 27-də Azərbaycan xalqına müraciəti ilə tanış olan rusiyalı politoloq Oleq Kuznetsov “bazar günü səhər tezdən baş verənləri müasir Ermənistanda mövcud olan açıq-aşkar nasist rejimin mahiyyətinin qanuna-

uyğun ifadəsi" adlandırmış, bazar günü səhər tezdən Ermənistan ordusunun Azərbaycanın dinc əhalisinə raket-artilleriya zərbələri endirməsinin ona 1941-ci il 22 iyun gününü xatırlatdığını, o vaxt Hitler Almaniyasının qoşunlarının da eynilə indiki kimi - istirahət günü, xaincəsinə və müharibə elan etmədən Sovet İttifaqına hücum etdiyini, nasist Qaregin Njdenin ideyasının davamçılarının başqa cür hərəkət edəcəyini gözləmədiyini bildirmişdi [2, s.11].

Yaxud, hər iki müharibənin başlanmasına dünya dövlətlərinin reaksiyalarına nəzər salaq. 1941-ci ildə Adolf Hitler SSRİ-yə qarşı müharibəyə başlayanda müharibənin xarakterinə qarşı dünya dövlətlərinin müsbət və ya mənfi reaksiyası demək olar ki, eşidilmədi. II Qarabağ-Vətən müharibəsinin ilk dəqiqələrindən isə münaqişənin həlli məqsədilə yaradılan ATƏT-in Minsk qrupu susanda Türkiyə Cümhuriyyəti öz mövqeyini ortaya qoyaraq Azərbaycanın yanında olduğunu bəyan etdi. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə açıqlamasında hücumun Qarabağın dağlıq hissəsində deyil, iki dövlət arasındakı sərhədlərdə, ağır silahlarla həyata keçirilməsini şiddətlə pisləyərək bu hadisənin Azərbaycan Respublikasına qarşı qəsdən edilən hücum olduğunu bildirdi, Türkiyənin Azərbaycanın haqqına, hüququna, torpaqlarına qarşı hər cür hücumun qarşısının alınmasında yanında olmaqda tərəddüd etməyəcəyini bəyan etdi.

Burada bir nüans nəzərdən qaçmamalıdır. 1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə hücum edəndə SSRİ-nin rəhbəri İ.Stalin bir həftə gözə görünmədi. Yalnız iyunun 30-da Dövlət Müdafiə Komitəsi yaradıldı. İ.Stalin iyulun 3-də radio ilə sovet xalqına müraciət etdi.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq, təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini, Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı, Şükürbəyli və Cəbrayıl rayonunun Çocuq Mərcanlı kəndlərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutdular. Sentyabrın 27-də

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edərək [2, s.2]. Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizin, eyni zamanda, hərbi mövqelərimizin atəşə tutulduğunu, mülki əhali və hərbçilər arasında itkilər, yaralananlar olduğunu, Azərbaycan Ordusunun da düşmənin hərbi mövqelərinə endirdiyi zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikası sıradan çıxdığını bildirdi. Azərbaycan Prezidenti Müraciətlə tanışlıq göstərir ki, Azərbaycan Prezidenti Ermənistanın bu hərəkətini erməni faşizmi ilə müqayisə etmiş, növbəti təxribatın törədilməsinin Ermənistanda mövcud olan ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq məqsədləri güddüyünü bildirmişdi [21, s.12-13].

1941-1945-ci illər müharibəsi ilə 44 günlük II Qarabağ-Vətən müharibəsində paralellik təşkil edən məslələrdən biri tərəflər məsələsidir. Müharibə dövründə Sovet İttifaqı faşist blokuna qarşı mübarizəsində müharibənin başlanmasından xeyli sonra 26 dövlət tərəfindən dəstəkləndi, yəni güclü antihitler koalisiyası ortaya çıxdı. Eyni proses 44 günlük müharibənin əvvəlində özünü tamamilə başqa bir istiqamətdə biruzə verdi. Türkiyə Cümhuriyyəti, Azərbaycanın yanında olmaqda davam edəcəyini bildirdi [2, s.10]. Pakistan və Əfqanıstan Azərbaycana açıq dəstək nümayiş etdirdi. Malaziya, Mərakeş, Səudiyyə Ərəbistanı, Azərbaycanı qismən dəstəklədilər.

Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi 4 qətnaməni yerinə yetirməyən BMT, Təhlükəsizlik Şurasının əsirinə çevrilmiş təşkilatın Baş katibi həmişə təkrarladığı "hər iki tərəf dərhal döyüşləri dayandırmalı, gərginliyi azaltmalı və təxirə salınmadan danışıqlara qayıtmalıdır" sözlərindən başqa heç nə deyə bilmədi.

Avropa İttifaqının döyüş əməliyyatlarını dayandırmağa, gərginliyi azaltmağa və atəşkəsə ciddi əməl etməyə çağırışı, İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali nümayəndəsi Cozef Borrellinin bəyanatı Azərbaycanda formalaşan "Arxadan

atılan daş topuğa dəyər" zərb-məsəlini xatırlatdı.

30 ildir hər iki tərəfi hərbi əməliyyatları dayandırmağa və danışıqlara qayıtmağa çağıran Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) heç bir problemi həll etmək qabiliyyətində olmadığını bilə-bilə, yenə də ikili standartlarını ortaya qoydu.

Bir sıra dövlətlərin və beynəlxalq təşkilatların mövqeyi Azərbaycan xalqının maraqları ilə üst-üstə düşmədi. Kipr Respublikasının Xarici İşlər Nazirliyinin 27 sentyabrda cəbhə bölgəsində yaşanan gərginliklə bağlı yaydığı bəyanat birtərəfli xarakter daşıyırdı və qərəzli idi. Çox təəssüf ki, İran İslam Respublikası hər zaman Azərbaycanın ərazi bütövlüyünə tərəfdar olduğunu deməsinə baxmayaraq, 44 gün sürən müharibənin ilk vaxtlarında səssizliyini qorudu. Türkiyə, hətta lazım olarsa ordu ilə köməyə gələ biləcəklərini deyəndə İrandan səs çıxmadı. 44 gün davam edən qanlı müharibə zamanı, dünyanın ən böyük müsəlman ölkəsi olan İndoneziyadan dəstək almamaq, bir müsəlman olaraq bizi üzdü. Misir Ərəb Respublikası Ermənistan ordusu Tovuz rayonuna hücum edəndə, Azərbaycanı dəstəkləyən bəyanatla çıxış etsə də, 44 günlük müharibə günlərində səssiz qaldı. Yunanıstan, Fransa, Kanada, Rusiya, ABŞ Ermənistanı müdafiə etdilər. Suriya və İslandiya Ermənistana açıq dəstək verdilər.

İkinci dünya müharibəsi iştirakçıları müharibə başlayanda susmağı üstün tutsalar da, 44 günlük Vətən müharibəsinin gedişində Azərbaycanın siyasi partiyaları birgə bəyanatla milli və siyasi həmrəyliyin parlaq nümunəsini göstərdilər. Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair ölkədə fəaliyyət göstərən 52 siyasi partiyadan 50 partiyanın [20]. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycandakı yəhudi icmaları, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycandakı Katolik dini icması və Yevangelist-Xristian protestant dini icmaları tərəfindən rus və ingilis dillərində verilən bəyanatlarında erməni vandalizmi pislənildi, Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirildi. Sentyabrın 27-də Respublika rus

İcması Şurası [2,s.8]. Azərbaycanda yaşayan etnik icma rəhbərləri [6]. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və üzvləri Ermənistanın törətdiyi son hərbi təxribatları pisləyən bəyanat [15] imzalamışdılar [2, s.11].

Ermənistan-Azərbaycan döyüş bölgəsində baş verən hadisələr xalq tərəfindən diqqətlə izlənilirdi. Xarici ölkələrdə yaşayan azərbaycanlıların bəyanatını Avropa Azərbaycanlıları Koordinasiya Şuraları adından Avstriya, İsrail, Gürcüstan, Ukrayna, Rusiya Federasiyası, Qazaxıstan, Özbəkistan, Qırğızıstan Respublikası, Türkiyə Cümhuriyyəti, Avstraliya İttifaqı, Yeni Zelandiya, Misir Ərəb Respublikasında yaşayan azərbaycanlılar imzalamışdılar. Rusiya Federasiyasının Vladimir şəhərindən Təranə Xəlilova, Almaniyanın Köln şəhərindən Rəşad Quliyev, Qazaxıstan Respublikasının Almatı şəhərindən Qəhrəman Sadıyev, İsrailin paytaxtı Təl-Əvivdən David Rafaeli [11]. Bakı şəhər sakinləri İltifat Muradov, Məmməd Omarov, Ceyhun Məmmədov və İbrahim Abbaszadə, Cəbrayıl rayon sakinləri Rövşən Məmmədov və Vəli Şahverdiyev, Saatlı rayonundan Əjdər Əliyev, Salyan rayon sakini Məhəmməd Ağayev, Masallıdan Rəcəb Ağayev, Beyləqan rayonundan Mirmehdi Məmmədov, Biləsuvardan Babək Hüseynov, Mingəçevir şəhərindən Elşad Qazıyev, Füzuli rayon sakinləri Ceyhun Məmmədov və Alagöz Cəfərova, Qubadan Sahib Kərimov, Qobustan sakini Elçin Əmiraslanov, Ağdaş rayon sakini Taleh Yunusov, Astara rayon sakini Ağamirzə Əkbərov, Gəncə şəhər sakini Gülşən Məmmədzadə məktublarında ordumuzun uğurlarını alqışlamış və Qarabağın işğaldan azad olunacağı günün uzaqda olmadığına inandıqlarını və ordunun arxasında olduqlarını ifadə etmişlər [4].

**Çağırış və səfərbərlik işinin təşkili.** Məlumdur ki, müharibənin başlanması ilə hərbi səfərbərlik elan edildi. 1941-ci ildə Azərbaycan SSR-in əhalisi 3.331.8 min nəfər idi. Müharibə ərəfəsində Azərbaycan SSR-də 50 yaşına qədər olan hərbi vəzifəlilərin sayı 335.378 nəfər olmuşdu. Əvvəlki illərdən fərqli olaraq 1941-ci ildə çağırışın keçirilməsi ilin birinci yarısına

planlaşdırılmış, 1941-ci ildə çağırışa düşən 1921-23-cü illər təvəllüdlü gənclərin çağırış məntəqələrində qeydiyyata alınması həmin il yanvarın 5-də başlamış, 25.788 nəfər hərbi qeydiyyatdan keçirilməsi müəyyənləşdirilmişdi. Qeydiyyatdan keçənlərin 2089 nəfəri savadsız, 6283 nəfəri az savadlı olmuşdur [19, s.371]. Respublika rəhbərliynin tələbi əsasında 1941-ci ilin dekabrında bütün respublika üzrə hərbi mükəlləfiyyətlilərin yenidən qeydiyyatının aparılmasına başlanılmış, 1942-ci ilin mart ayının 1-dək yeni təşkil olunan hərbi birləşmələrə 247.043 nəfər çağırılmışdır. Ümumilikdə müharibənin başladığı gündən 1942-ci ilin sonuna kimi Azərbaycan SSR-dən 464.468 nəfər hərbi hissə və birləşmələrin komplektləşdirilməsinə yönəldilmiş, respublikanın xalq təsərüfatından 6948 avtonəqliyyat vasitəsi - 528 minik və 5140 yük maşını, 301 xüsusi avtomobil, 471 traktor, 238 motosiklet və 265 yedək cəbhənin sərəncamına verilmişdir [19, s.410].

1943-cü ilin yanvarında 1925-ci il təvəllüdlü vətəndaşların hərbi xidmətə çağırılması haqqında qərar qəbul edildi və yanvar ayının 15-nə qədər başa çatdırılması müəyyənləşdirildi. Zaqafqaziya Cəbhəsi komandanlığından 1922-25-ci illərdə anadan olmuş vətəndaşlardan səfərbərlik üçün 19.382 nəfər sifariş verildi. 1925-ci il təvəllüdlü vətəndaşların çağırışı ilə bərabər, ötən illərdən çağırışdan möhlət verilmiş çağırışçılar da xidmətə cəlb olundular. Respublika Hərbi Komissarlığı çağırış planı 98,6 faiz yerinə yetirdi [19, s.419].

1943-cü ildə hərbi komissarlıqlar 1926-cı il təvəllüdlü çağırışçılardan bir qrupunu-3450 nəfəri qeydiyyata alaraq hərbi çağırışa cəlb etdilər. 1943-cü ilin avqustunda hərbi komissarlıqlar 1926-cı il təvəllüdlü bütün vətəndaşların qeydiyyatını keçirdi. Qeydiyyata alınan 22.219 nəfərdən 18.518 nəfəri nizami xidmətə yararlı, 1.164 nəfəri qeyri-nizami xidmətə yararlı, 46 nəfəri fiziki əməyin icarısına yararlı oldu. 46 nəfərin müalicəyə ehtiyacı olduğu müəıyyən edildi. 886 nəfər xidmətə yararsız olduğu üçün qeydiyyatdan çıxarıldı [19, s.421-422].

Ümumilikdə müharibənin başladığı gündən 1945-ci il də daxil olmaqla respublika hərbi komissarlığı tərəfindən faşizmə qarşı

mübarizəyə 623.096 nəfər səfərbər edildi. Onlardan 48.2581 nəfəri hissələrin komplektləşdirilməsinə, 43.893 nəfəri müdafiə əhəmiyyətli sənayedə işləməyə göndərildi. Bunlardan başqa 14.789 nəfər ehtiyatda olan zabit, 6.254 nəfər ehtiyatda olan HDQ zabiti, müharibə ərəfəsində xidmətə yollanmış 75.579 nəfər də Azərbaycandan müharibəyə səfərbər olunanlar arasında idi [7]. Beləliklə 1941-1945-ci illərdə Azərbaycan SSR-dən 719.718 nəfər faşizmə qarşı mübarizəyə cəlb olunmuşdu.

Azərbaycan Respublikasında isə səfərbərlik tamamilə başqa istiqamətdə həyata keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi sentyabrın 27-də keçirilən Təhlükəsizlik Şurasının iclasında da cəbhədəki vəziyyət ciddi müzakirə olundu. İclasda Müdafiə naziri Zakir Həsənov əks-hücum əməliyyatı nəticəsində düşmənin müdafiə xəttinin yarılması, yeddi kəndin işğaldan azad edilməsi, Azərbaycan ordusunun digər istiqamətlərdə uğurlu əks-hücum əməliyyatı keçirməsi və düşmənin böyük itki verərək geri çəkildiyi haqqında məlumat verdi [4, s.2]. Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Hərbi vəziyyət elan edilməsi haqqında" Fərman imzaladı [9]. Fərmana əsasən, Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonları işğal etməsi, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan olundu, Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət dövründə saat 2100-dan 0600-dək komendant saatı tətbiq edildi [4, s.3]. Bu tədbirlər göstərir ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı səfərbərlikdə kütləviliyə deyil, ancaq hərbi biliklərə malik şəxslərin qismən səfərbərliyinə üstünlük verdi. Bu, əlbəttə lüzumsuz insan itkisinin qarşısının alınmasına yönəldilmişdi.

**Döyüşlərin gedişi.** Hər iki müharibənin oxşar hadisələrini azərbaycanlıları döyüş cəbhələrində qəhrəmanlığı təşkil edir. Bu gün Azərbaycan xalqı Brest qalasının müdafiəsinin əfsanələrə bənzər qəhrəmanlıq nümunələri göstərən Azərbaycanın 44 gəncini (İ.Səfərov, A.İmanov, M.Məmmədov, M.İbrahimov, H.Haqverdiyev, M.Qədirov, Ə.Əliyev, D.Abdullayev və başqaları), Leninqradın alman-faşist işğalçılarından 900 günlük müdafiəsinin qəhrəmanlarını ("Lenin" ordeni ilə təltif edilmiş Hüseyn Balaəmi oğlu Əliyev, Bakı aeroklubunun yetişdirmələri Hüseyn Bağırov, Asəf Səmədov, Aleksandr Şitov, snayperçi Məmmədəli Abbasov, qvardiya baş leytenantı Volodya Bağırovun, Lenin" ordeni ilə təltif edilmiş İlyas İsmayılov, Məhərrəm Bayramov, Ələkbər Nadirov, sualtı qayıqçılarından biri 2-ci ranq kapitan M.İ.Hacıyev və b.), Moskva uğrunda döyüşlərin qəhrəmanlarını (1941-ci ilin dekabrında Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən ilk azərbaycanlı İsrafil Məmmədovu, Moskvanın səmasını qoruyan zenit batareyasının komandiri leytenant Məmmədrəsul Paşayev, pulemyotçu İdris Vəliyev, zenitçi serjant Seyfəli Əlibalayev, Bakıda təyyarəçilik kursunda təhsil almış Leyla Ələsgər qızı Məmmədbəyova, Zülexa Seyidməmmədova, həkim və tibb bacıları Aliyə Rüstəmbəyova, S.Qarayeva və b.), hörmətlə yad edir. Azərbaycanlı müharibə veteranları, Azərbaycan ordusunun əsgər və zabitləri Sevastopolun müdafiəçiləri qvardiya yefreytoru Həsən Həsənov, Nurəli Mirzəyevtop nişançısı Fəzli Əhmədov, batalyonun kəşfiyyatçısı Aslan Vəliyev, top nişançısı Denis Baxışov, doldurucu İsmayıl Məmmədov, yüzlərlə yaralını ölümün pəncəsindən alan hərbi həkim Sara İbrahimova, tibb bacıları Pakizə Manafova, Ə.Həsənova, B.Mircavadova, R.Əhmədova, Ş.Əsgərova, R.Gözəlova və onlarla başqalarının xatirəsini əziz tutulur.

Azərbaycan xalqı Moskva ətrafındakı vuruşmalarda göstərdiyi hərbi təşkilatçılıq və şəxsi igidliyinə görə podpolkovnik rütbəsi almış 55-ci əlahiddə tank alayının komandiri, Stalinqrad vuruşmasında feldmarşal Manşteynin ordusunun darmadağın edilməsində yüksək hərbi məharət göstərən, Stalinqraddan Baltik sahillərinə qədər döyüş yolu keçən Həzi Aslanov 1945-ci il

yanvarın 24-də Mitava şəhəri yaxınlığında qətlə yetirilən iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun Azərbaycanın Dağüstü parkındakı abidəsini hər il mayın 9-da ziyarət edirlər.

1941-1945-ci illər müharibəsində Azərbaycan qadınları kişilərlə çiyin-çiyinə döyüşdülər. Azərbaycan xalqı döyüş cəbhələrində qəhrəmanlıq göstərən Məryəm İbrahimova, Leyla Məmmədova, Dilbər Təhməzbəyova, Müslümat Azaddinova, Nabat Ağayeva, Nigar Məmmədova, Qumru Teymurova, Nadejda Gülməmmədova, Pakizə Hacıyeva, Səkinə Vəliyeva, Zinaida Səlimova, Məryəm Bağırova, Sara Məmmədova, Taciyə Qazıyeva, Aida Məmmədova, Qalina Səfərova, Firuzə Günəşli, Nabat Həşimova, Məryəm Göyçayeva, Səfiyyə Sultanova, Xalidə Məmmədova, Xədicə Əsgərova, Şeyda Səmədova, Südabə Məmmədova və Firuzə Seyidovanın, döyüş yolunu Berlində başa vurmuş Həlimə Rzayeva, Səlimə Əlizadə və anası Bəyim Əlizadə, Səkinə Bayramova, Nəsibə Qayibova, Zəhra Səlimova, Sona Ağayeva, Məryəm Bağırova, Zərifə Camalbəyova, Bikə Gözəlova, Suğra Rəcəbova, Zöhrə Səlimova, Böyükxanım Bağırova, Əminə Xəlilova və onlarca başqalarının xatirəsini hörmətlə yad edir. Mərd Rusiya Federasiyasının, Avropanın ayrı-ayrı bölgələrində uyuyan Azərbaycan qızlarının xatirəsini yerli əhali səmimi hisslərlə yad edir.

Azərbaycan xalqı öz şanlı qızlarının - partizan Aliyə Rüstəmbəyova, pilot Züleyxa Seyidməmmədova, snayper Ziba Qəniyeva, zenitçi Almas İbrahimova, rəbitəçi Suğra Paşayeva, baş leytenant Rəqimə Babayeva, Şəfiqə Əhmədova, Züleyxa Rzayeva, Şəfiq Əhədova, Mədinə Əhmədova, Lidiya Nəzərova, Mədinə Hacıyev, Zəhra Səlimova, Səkinə Bayramova, Böyükxanım Mircavadova, Bikə Gözəlova, Səkinə Əliyeva, Suğra Tağıyeva, Səlimə Əlizadə, Şuriya Əlizadə, Dürrə Məmmədova - Kosmodemyanskaya, Fəridə Vəzirova, Qumru Teymurova, Raifə Həsənova, Tamara Əfəndiyeva, Sara Talışxanova, Rəşidə Qasımzadə və başqalarının xatirəsini daim əziz saxlayır.

Azərbaycan qadınları 2020-ci ildə 44 günlük II Qarabağ-Vətən müharibəsində işğal altında olan torpaqların düşməndən azad olunmasına öz layiqli töhfələrini vermişlər. Azərbaycanın

Milli Qəhrəmanları - Qarabağ cəbhəsində həlak olan jurnalist Salatın və həkim Gültəkin Əsgərovaların, Qarabağ müharibəsi şəhidi - Qaratel Şəmi qızı Hacımahmudovanın, I Qarabağ müharibəsinin döyüşçü qadınları Vəfa Mansurova, Aliyə Piriyeva, Aygün Şirinova, Cəvahir Abdullayeva, Dilarə İbadova, Diləfrusz Hidayətova, Elmira Rəsulova, Firəngiz Səttarova, Gülarə Musayeva, Gülbahar Heydərova, Mərziyə Piriyeva, Mina Məmmədova, 44 günlük II Qarabağ-Vətən müharibəsinin ilk qadın hərbçisi Arəstə Baxışova və başqalarının qəhrəmanlığı Azərbaycan qadınlarının vətən sevgisinin zirvəsi idi.

83 il bundan əvvəl baş vermiş Moskva uğrunda döyüşlərə və onunla paralellik təşkil edən Şuşa uğrunda döyüşlərinə təhlil edək. Hər iki döyüşü miqyas baxımından deyil, zaman və məna baxımından, dözümlülük və birlik, təşkilat və quruluş baxımından oxşar olsa da, amal başqa olsa da, bütövlükdə Moskva döyüşünün, onun səksən illik dərsləri və nəticələrini Qarabağ müharibəsinin ayrı-ayrı məqamları və nəticələri ilə qismən müqayisə etmək olar.

Əvvəlcə Moskva döyüşlərinin əhəmiyyətini müəyyənləşdirək. 1941 və 1942-ci illərin qovşağında Moskva döyüşü təkcə Böyük Vətən müharibəsinin ən mühüm hadisəsi deyil, həm də bütün İkinci dünya müharibəsinin gedişində dönüş nöqtəsi kimi faşist blokunun birləşmiş qüvvələrinə qarşı mübarizədə həlledici dönüşün başlanğıcı oldu. Moskvanın qəhrəmancasına müdafiəsinin ən mühüm nəticəsi nasist ordusunun əsas zərbə qrupunun zəiflədilməsi və onu hücumu davam etdirmək imkanından məhrum etdi. Sovet qoşunlarına Moskva bölgəsində böyük strateji ehtiyatları cəmləşdirmək üçün vaxt qazanaraq hücuma keçid üçün şərait yaratdı.

1941-ci il sentyabrın 30-da Moskvaya başlayan hücum bütün istiqamətlərdə inadkar, qanlı müdafiə döyüşləri ilə dayandırıldı. Nasistlərin Moskvaya hücumu uğursuz oldu. Çoxdan gözlənilən an gəldi və Sovet İttifaqı bütün gücü ilə zərbə endirdi. 1941-ci il dekabrın 5-6-da sovet qoşunları əks hücuma keçdi və düşməni geri itələyərək onu geri çəkilməyə məcbur etdi.

II Qarabağ-Vətən müharibəsində də dünya ictimaiyyəti eyni

proseslərin şahidi oldu. 90-cı illərin əvvəllərində Qarabağ müharibəsində Azərbaycan ərazilərinin 20 faizinin itirilməsi ilə bağlı Ermənistanın simasında gizlənən ən güclü Qərb dövlətləri blokunun hücumuna məruz qaldı. Çoxlu itkilər və şiddətli müqavimət bahasına düşmən zəiflədi və 1994-cü ildə dayandırıldı. Düşmən hücumu davam etdirmək imkanını itirdi və müdafiədə olan otuz il ərzində bu xətt müasir dövrdəki "Mannerheym xətti"nə bənzər müdafiə "Oqonyan xətti"nə çevrildi.

Azərbaycan qiymətli vaxtdan məqsədyönlü istifadə edərək, vətənpərvər gənclər yetişdirdi, tərbiyə etdi, xalqı işğal altında olan Vətən torpaqlarının azad edilməsi ideyası ətrafında birləşdirdi, əhalinin mənəvi-psixoloji vəziyyətində baş verən dəyişikliklər həmrəyliyinin yüksəldilməsinə təkan verdi, siyasi-diplomatik vasitələr və "yumşaq güc" dən istifadə etməklə beynəlxalq dəstəyə nail olundu və müttəfiqlər qazanıldı. Silahlı qüvvələrin yenidən təşkili, idarəetmə sisteminin təkmilləşdirilməsi məxfi idarəçilik rejimini gücləndirdi. Azərbaycan müttəfiq dövlətlərlə hərbi əməkdaşlığı inkişaf etdirərək müasir tələblərə cavab verən və silahlı qüvvələrin zəruri ehtiyaclarını ödəyən hərbi-sənaye kompleksi yaratmağa müvəffəq oldu. Nəticədə əldə olunan müasir silahlara, dəqiq raket və sursatlara, avadanlıqlara, alətlərə və sistemlərə malik ordu. Hərbi təlimlər və manevrlər keçirərək, silahlı qüvvələrin döyüş hazırlığını, döyüş hazırlığını və hazırlığını yüksəldi, ən son elektron qoşun idarəetmə sistemlərini təqdim etdi. Azərbaycanın əldə etdiyi uğurlardan ən vacibi yeni nəsil ordu yaratması və tammiqyaslı orduya keçid üçün əlverişli şəraitin yaradılması məqamını gözləməsi oldu. Ermənilərin növbəti təxribatından sonra isə əhalinin vətənpərvərlik əhval-ruhiyyəsini yüksəldən Azərbaycan Silahlı qüvvələrinin Ali Baş Komandanı, mülki müdafiənin zəruri məsələlərini həll edərək, ehtiyatda olan ordu korpusunu gizli və çevik şəkildə səfərbər etdi, 27 sentyabr 2020-ci il tarixində bütün var gücü ilə zərbə endirdi.

Yaxud, Moskva uğrunda döyüşlərin nəticələri ilə Şuşa uğrunda döyüşdə əldə edilən qəti qələbənin nəticələrinə nəzər salaq. Moskva uğrunda döyüşdə əldə olunan qələbə hələ Sovet

Ordusunun və müttəfiqlərin tam qələbəsi demək deyildi. Şuşa döyüşünün erməni ordusu üzərində qələbəsi isə ATƏT-in Minsk Qrupunun təmsil etdiyi birgə qüvvələrin Cənubi Qafqazı təcrid etmək planlarının başlanğıcının ismarıcı idi. Moskva döyüşündə düşmən ordusunun məğlubedilməzliyinə əminlik yaranmasa da, Şuşa döyüşləri Ermənistan Ordusunun məğlubedilməzliyi mifini darmadağın etdi.

Qarabağdakı hücum Qərblə Şərqin, Şimalla Cənubun mübarizəsində dönüş nöqtəsi oldu və Azərbaycan fövqəlgüclərin yeni dünya nizamını müəyyən etmək uğrunda mübarizəsinin önündə getdi və qalib gəldi. Nəticələrə əsasən müharibələrdən sonra dünyada qütbləşdmə gücləndi.

1941-1945-ci illərdə SSRİ-də formalaşdırılan milli atıcı diviziyaların taleyi ilə 44 günlük müharibədə iştirak edən ordu birləşmələrinin təşkilindəki paralelləri müqatisə edək. Azərbaycanda formalaşdırılan milli hərbi hissələr - 77, 223, 402 və 416-cı, 242, 392, 394 və 414-cü qırıcı atıcı və dağ-atıcı diviziyalar şanlı döyüş yolu keçsələr də, diviziyaların daxil olduğu ordu birləşmələrində ayrı-seçkilik hökm sürmüş, milli və etnik münaqişələr diviziyaların döyüş qabiliyyətini zəiflətmiş, bütün müttəfiq respublikalarda antisovet əhvali-ruhiyyənin güclənməsinə təkan vermişdir. Milli diviziyaları əldə etdiyi qələbələr sovet ordusunun adına yazılmış, milli diviziyaların döyüşçülərini qəhrəmanlığı dini mənsubiyyət yönümündə qiymətləndirilmişdir.

Azərbaycan sovet tarixşünaslığında “ağ ləkələr” hesab olunan azərbaycanlı döyüşçülərin Berlin əməliyyatında iştirakına nəzər salaq.

Faşist Almaniyasının məğlubiyyətindən 80 il vaxt keçsə də, Qələbə bayrağını Berlində Reyxstaq üzərinə kimin sancması mübahisəli olaraq qalmaqdadır. “Qələbə bayrağını Berlində Reyxstaq üzərinə sancmış SSRİ Silahlı Qüvvələrinin zabit və serjantlarına Sovet İttifaqı Qəhrəmanı adı verilməsi haqqında” SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanında M.Yeqorov və M.Kantariyadan əlavə daha 3 nəfərin də adının olması mübahisələri bir az da qızışdırmışdır. Fərmanda oxuyuruq:

Aşağıdakılara “Lenin” ordeni və “Qırmızı Ulduz” medalı

verilməklə Sovet İttifaqı Qəhərmanı adı verilsin:

Kapitan Vasili İnnokentyeviç Davudova
Serjant Mixail Alekseyeviç Yeqorova
Kiçik serjant Meliton Varlamoviç Kantariyaya
Kapitan Stefan Andreyeviç Nestoryevə
Baş leytenant Konstantin Yakovleviç Samsonova
SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.Şvernik
SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi A.Qorkin
Moskva, Kreml, 8 may 1946-cı il [1].

Reyxstağın alınmasında iştirak edən azərbaycanlı müharibə veteranları bildirirlər ki, Reyxstağa daxil olanlar içərisində kapitan Mirzə Hüseynov, onun müavini Şahbaz Hüseynov və onların başçılıq etdikləri kəşfiyyat qrupu da olmuşdu. Məsələnin maraqlı tərəfi odur ki, Mirzə Hüseynov Reyxstağın günbəzinə Qələbə bayrağını sancdıqdan sonra binaya daxil olan polkovnik bunu görür və onu tapança ilə vurub öldürərək yerə salır. Mirzə Hüseynovun müavini Şahbaz Hüseynov bu haqsızlığa dözməyərək belindəki qumbaranı polkovnikin ayaqları altına atır və qumbaranın partlaması nəticəsində o həlak olur. Şahbaz Hüseynov komandiri M.Hüseynovu yaxınlıqda dəfn etdikdən sonra həbs olunur və Hərbi Tribunalın qərarı ilə ömürlük azadlıqdan məhrum edilir. Yalnız 50-ci illərin ikinci yarısında Azərbaycan SSR DTK-nin şöbə müdiri H.Ə.Əliyevin təqdimatına əsasən Şahbaz Hüseynov həbsdən azad olunur və doğulduğu Yardımlı rayonuna qayıdır. Bu tarixi hadisələr Şahbaz Hüseynov haqqında çəkilmiş "Demona gedən yol" adlı sənədli filmdə öz əksini tapmışdır.

İkinci dünya müharibəsi illərində Azərbaycan döyüşçülərinin qəhrəmanlığı əsgəri şücaət olsa da, 44 günlük müharibəni qəhrəmanlarının döyüş cəbhələrindəki qəhrəmanlığında əsas yeri 30 illik işğal altında qalan torpaqların azad edilməsi dayanırdı. Oxşar paralellik yalnız ondan ibarətdir ki, hər ikisində cəbhəyə üç demoqrafik qrup - gənclər (18 yaşdan 32 yaşadək), orta nəsil (yaşı 32-dən 45-ə), yaşlı nəsil (yaşı 45-dən 55-ə qədər) səfərbər olunmuşdu. Lakin müharibə illərində sovet ordusuna səfərbər olunanların əksəriyyəti birbaşa döyüş bölgələrinə göndərilmiş,

1941-ci il iyunun 22-də nasistlərin ilk qəfil güclü zərbəsində, eləcə də müharibənin ilk aylarının ən ağır döyüşlərində 18-23 yaşlı şəxsi heyətin, demək olar ki, hamısı iştirak etmişlər. 44 günlük müharibədə isə cəbhəyə hərbi işi bilənlər səfərbər olunmuşlar. Daha bir fərq də vardır: 1941-1945-ci illərdə cəbhədə əldə olunan "qələbə"lər insanların kütləvi surətdə həlak olunması nəticəsində əldə olunmuş, 44 günlük müharibədə isə qələbədə əsas məsuliyyət Xüsusi Təyinatlıların üzərunə düşmüşdür.

1941-1945-ci illər müharibəsi ilə 44 günlük II Qarabağ-Vətən müharibəsində paralellik təşkil edən və bir-birindən fərqlənən məsələlərdən biri də müharibə dövründə dövlət rəhbərlərinin informasiya cəbhəsindəki fəaliyyətidir.

Məlumdur ki, 1941-1945-ci illərdə müharibədə iştirak edən dövlərlərin başçıları, həmçinin xarici işlər nazirləri və digər qurumların rəhbərləri arasında yazışmalar olmuşdur. Lakin bu yazışmaların məzmunu və icrasında ancaq adları qeyd olunan qurumları xəbərdar olmuş, əhali isə xəbərsiz olmuşlar. Müharibə illərində çap olunan "Pravda", "İzvestiya" , o cümlədən Azərbaycanda nəşr olunan "kommunist", Bakinskiy raboçi" qəzetlərində isə əhaliyə çox cüzi məlumatlar verilmişdir.

44 günlük II Qarabağ müharibəsi isə tarixə həm də informasiya müharibəsi kimi düşmüşdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 44 günlük Vətən müharibəsi dövründə dünyanın 30-a yaxın televiziya və mətbuat orqanlarına, o cümlədən 2020-ci il sentyabr ayının 29-da "Rossiya -1", sentyabrın 29-da "Rossiya 1" telekanalında yayınmlanan "60 dəqiqə" proqramına, oktyabr ayının 2-də "Əl-Cəzirə", oktyabrın 5-də Türkiyənin "TRT Haber", oktyabr ayının 6-da Rusiyanın "Perviy Kanal" telekanallarına, oktyabrın 9-da "CNN İnternational" televiziya kanalının "Conneot theWorld" verilişinə, oktyabrın 10-da Rusiyanın RBK, oktyabrın 12-də Türkiyənin "Haber Qlobal", oktyabrın 14-də "France 24" telekanallarına, oktyabrın 21-də Yaponiyanın "Nikkel" qəzetinə, oktyabrın 28-də İtaliyanın "Rai-1" televiziya kanalına, noyabrın 2-də İtaliyanın "La Republika" qəzetinin müxbirinə verdiyi müsahibələrində, dövlət və hökumət başçıları ilə telefon danışıqlarında, qəbul etdiyi nümayəndə heyətləri ilə görüşlərində

beynəlxalq ictimaiyyəti Azərbaycanın haqq işinə inandıra bildi.

**Müharibənin iqtisadiyyatı.** Azərbaycan xalqı1941-1945-ci illərdə cəbhəyə yardım hərəkatında, müdafiə fondunun formalaşmasında fəal iştirak etmişdir. 1944-cü il yanvarın 1-dək dövlətə 83.254 baş qaramal, 57.804 pud taxıl, 11.793 kq yağ, 1.596 kq bal və digər məhsullar verildi, 1,6 milyon ədəd müxtəlif əşya, 125 vaqon isti paltar göndərildi. Respublika zəhmətkeşləri 1942-ci ildə dövlətə 237 milyon manat, 1943-cü ildə 166 milyon manat məbləğində pul [13] ümumilikdə müdafiə fonduna nağd şəkildə 317.56 min rubl, 14.872 qram qızıl, 985.943 qram gümüş, 311 milyon manatlıq istiqraz verildi. Cəbhəyə Azərbaycan dilində 3 milyondan çox siyasi, hərbi və bədii ədəbiyyat, hər gün 14 min nüsxə "Kommunist" (Azərbaycan dilində), 18 min nüsxə "Bakinskiy raboçiy" və "Vışka" qəzetləri göndərildi [12, s.68].

44 günlük müharibə dövründə respublika iqtisadiyyatı tamamilə fərqli bir istiqamətdə təşkil olundu. Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev dəfələrlə xalqa müraciətində xatırlatdı ki, Azərbaycan xalqı əmin olmalıdır ki, respublikanın iqtisadiyyatı müharibənin bütün tələblərinin ödəməyə qadirdir və əhali heç bir sıxıntı ilə üzləşməyəcəkdir.

**Müharibənin nəticələri.** 1941-1945-ci illər müharibəsi nasist Almaniyası ilə, 44 günlük müharibə isə 1941-1945-ci illərdə nasist Almaniyası ilə həmrəy olan erməni nasistləri ilə aparılan müharibə oldu. Hər iki müharibənin başlanmasında "erməni amili" olsa da, 1941-1945-ci illər müharibəsi 1418 gün və gecə davam etdi. II Qarabağ – Vətən müharibəsi isə 44 gündə başa çatdırıldı. Hər iki müharibə kaputiliyası aktı ilə başa çatdı.

1945-ci ilin iyulun 17-dən avqustun 2-dək Berlin yaxınlığında yerləşən Potsdamda "böyük üçlüyün" görüşündə 3 lider-SSRİ-dən İosif Stalin, Böyük Britaniyadan Klement Ettli, ABŞ-dən Harri Trumen iştirak edirdi. Konfransın əsas məqsədi Almaniyaya münasibətdə müttəfiqlərin siyasətini müəyyənləşdirmək idi. Almaniya ərazisi SSRİ, Böyük Britaniya, ABŞ və Fransa işğal zonalarına bölündü. Ələ keçmiş faşist rəhbərləri beynəlxalq tribunala verildi. Ölkənin paytaxtı Berlin də 4 zonaya bölündü.

Konfransda Almaniyanın dövlət sərhədləri müəyyənləşdirildi. Almaniya öz ərazisinin 4/1-ni itirdi. Almaniyadan alınacaq təzminatın miqdarı 20 milyard dollar müəyyən edildi. Onun 50%-i SSRİ-yə çatmalı idi [16].

44 günlük müharibəsi də 3 liderin imzaladığı sənədlə yekunlaşdı. 2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan Üçtərəfli Bəyanat imzaladılar. Bu Ermənistanın İkinci Qarabağ müharibəsinin gedişində təslim olmasına dair kaputiliyası aktı idi [14]. Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin yekununda -noyabrın 10-da imzalanmış Üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcərin işğaldan azad edildi.

Nəticə. Azərbaycan 2020-ci il sentyabrın 27-də başlamış və 44 gün davam etmiş II Qarabağ-Vətən müharibəsi qlobal pandemiyanın baş verdiyi şəraitdə böyük zəfərlə başa çatdırıldı. Son 200 illik tarixdə Azərbaycan müharibədən ərazi itkisi ilə deyil, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd, o cümlədən Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində strateji yüksəklik, Zəngilanda Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olundu.

2020-ci il noyabr ayının 10-da Üçtərəfli bəyanatı imzalayan Ermənistanın Baş naziri Nikol Paşinyan imzasına hörmət etməyərək öhdəliklərini yerinə yetirmək əvəzinə, Qarabağda qalmış separatçıları silahlandırmaqla məşğul oldu. Ermənistanın döyüş mövqeləri şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirildi, bölmələr yüksək döyüş hazırlığına gətirildi, səfərbərlik üzrə əlavə bölmələr yaradıldı,

Azərbaycan Ordusunun bölmələrinə qarşı kəşfiyyat-diversiya fəaliyyətlərinin genişləndirildi, mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanması həyata keçirildi. Qaregin Nijdenin faşist dəstəsində vuruşan babasının yolunu davam etdirən, xarici havadarlarına arxalanaraq, “gah nala, gah da mıxa vuran” Nikol Paşinyan döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsinə, eləcə də səngər və sığınacaqların sayının artırılmasına cəhd göstərdi. Azərbaycanın Qarabağ bölgəsində Azərbaycan Ordusunun mövqelərinə qarşı sistemli şəkildə təxribatla törədildi. Azərbaycan tərəfinin dəfələrlə xəbərdarlığına baxmayaraq 10 noyabr 2020-ci ildə imzalanmış Üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan Silahlı Qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyinə çevrildi. Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan Silahlı Qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə sentyabrın 19-da Azərbaycan bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlamağa məcbur oldu. Tədbirlər çərçivəsində Ermənistan Silahlı Qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarıldı. Azərbaycan tərəfi Ermənistandan fərqli olaraq, heç bir halda mülki əhalini hədəfə almadı. Antiterror tədbirləri bir daha təsdiqlədi ki, bölgədə sülh və sabitliyin bərqərar olmasının yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, Azərbaycanın ərazi bütövlüyünə hörmət olunması və separatçı rejimin buraxılmasıdır.

Bir çox müşahidəçilər ilk dəfə olaraq pilotsuz uçuş aparatlarından istifadə olunmaqla cəmi altı həftə davam edən müharibəni hərbi strategiyada çoxdan gözlənilən bir inqilab kimi xarakterizə etdilər. 44 gündə əldə olunan qələbə bizi gözükölgəlilikdən, baş qaxıncından, "qorxaq millət", "torpağını qoruya bilməyən xalq", "torpaq itirən dövlət"töhmətindən də xilas etdi.

44 günlük müharibə və 20 günlük müharibəsiz, itkisiz, qalan torpaqların geri qaytarılması XXI əsrin qələbəsidir. Bununla da, Ermənistanın uzun illər boyu arzusunda olduğu Dağlıq Qarabağın statusu məsələsinə, "qaçqın", "köçkün" kəlmələrinin gündəmədə işlədilməsinə son qoydu. Torpaqlarımız uğrunda aparılan müharibənin ilk günlərindən söylənilən "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! deyimi 44 gündə reallığa çevrildi. Son 200 illik tariximizdə Prezident İlham Əliyev yeganə şəxsiyyət, ilk liderdir ki, itirilmiş, düşmən tərəfindən işğal olunmuş ərazilərin azad edilməsinə və xalqa qaytarılmasına nail oldu. Bu tarixi qələbə millətimizin silinməz imzası kimi tarixə düşdü.

**Маис Амрахов**

## РЕЗЮМЕ

## ВОЙНА 1941-1945 ГОДОВ И 44-ДНЕВНАЯ II КАРАБАХСКАЯ ОТЕЧЕСТВЕННАЯ ВОЙНА 2020 ГОДА: ИСТОРИЧЕСКИЕ ПАРАЛЛЕЛИ

Статья посвящена развитию современной российской историографии Великой Отечественной войны Советского Союза – одного из активно развивающихся проблемных полей исторической науки. Память о событиях 1941-1945 гг. занимает особое место в культуре Азербайджанского народа, выступая ключевым элементом национальной идентичности.

**Ключевые слова:** Великая Отечественная война; Азербайджанская историография; социальная история; междисциплинарный подход; коллективная память; история повседневности.

**Mais Amrahov**

## SUMMARY

## THE 1941-1945 WAR AND THE 44-DAY II KARABAKH PATRIOTIC WAR OF 2020: HISTORICAL PARALLELS

Current Azerbaijan historiography of the great patriotic war: trajectories and tendencies of development article is devoted to development of current Azerbaijan historiography of great patriotic war – one of the most active improving fields of historical science. memory of 1941-1945 has a special place in the culture of Azerbaijan nationalities being a key element of national identity.

**Keywords:** The Great Patriotic War, Azerbaijan historiography, social history, interdisciplinary approach, collective memory, daily history.

## ƏDƏBİYYAT

***Azərbaycan dilində***

1. "Azərbaycan gəncləri" qəzeti, 1946, 9 may.
2."Azərbaycan" qəzeti, 2020, 29 sentyabr.
3."Azərbaycan ordusu" qəzeti, 2020, 30 sentyabr.
4."Azərbaycan ordusu" qəzeti, 2020, 21 oktyabr.
5.Aprel döyüşləri – böyük zəfərin başlanğıcı. https://mod.gov.az/az/pre/ 21662.html
6.Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri bəyanat imzalayıb. https://ordu. az/az/ news/ 172289/ azerbaycandaki-etnik-icma-rehberleri-beyanat-imzalayib; "Azərbaycan" qəzeti, 2020, 29 sentyabr. – s.11.
7.Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, Fond №1, siyahı № 26, iş№ 239, vərəq-1-3
8.4 aprel Azərbaycan üçün dörd günlük şərəfli müharibənin ildönümüdür.https://www.trt.net.tr/azerbaycan/turk-dunyasi /2020/04/03/4-aprel-az-rbaycan-ucun-dord-gunluk-s-r-fli-muharib-nin-ildonumudur-1176710
9.Hərbi vəziyyət elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.https://president.az/az/ articles/ view/ 40979

10.“Xalq qəzeti”, 2020, 4 oktyabr. – s.6
11.“Xalq qəzeti”, 2020, 10 oktyabr. – s. 4.
12.Kərimov, Əziz. Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi. Bakı : Azərnəşr, - 1962. - 68 s.
13.“Kommunist” qəzeti, 1944, 12 fevral.
14.Qarabağ atəşkəs bəyanatı (2020) — Vikipediya
15.Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və üzvləri Ermənistanın hərbi təxribatlarını pisləyən bəyanat yayıblar.-https:// azertag.az/xeber/ Nizami_Gencevi_ Beynelxalq_ Merkezinin_hemsedrleri_veuzvleri_Ermenistanin_herbi_ texribatlarini_pisleyen_beyanat_yayiblar-1597559
16.Potsdam konfransı -Vikipediya
17.Siyasi tarix. II hissə. Dərs vəsaiti. Bakı: ”Azərbaycan Ensiklopediyası” NPB, - 1998. - 420 s.
18.Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə. Behbudov. – Bakı, 2016. – 564 s.
19.Süleymanov, Mehman. Azərbaycan Ordusunun tarixi. IV cild. Bakı: Maarif, - 2018. – 800 s.
20.Tovuz döyüşlərindən bir il ötür - https://news.day.az/azerinews/1360749.html
21.Zəfər Yolu: Qarabağ savaşından Şuşa Bəyannaməsinədək. Bakı: “Elm”, – 2021. – 904 s.

***Rus dilində***

22.Абасов, М.Г. Через всю войну (А. Везиров) /М. Г.Абасов. -Баку: Азернешр, - 1983. - 83 с.. – s.77.
23.Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П.Рудаков. – СПб.: Питер. - 2005. - 464 с.: ил.
24.Война и общество. 1941-1945 в двух книгах. (Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. М.: Наука, - кн.1, 2004. – 479 с.
25.Вторая Мировая война: Итоги и уроки. М., Издательство: Воениздат, - 1985, – 447 с.
26.Галдер, Ф. Военный дневник. / Ф. Галдер. Том 2. 1940-1941. - М.: Воениздат, 1969. — 633 с.
27.История Великой Отечественной войны, 1941-1945 / А. И.

Балашов, Г. П. Рудаков.- М. [и др.]: Питер, 2005 (ГП Техн. кн.). - 456с.
28.История второй мировой войны. М., 2005.
29.История второй мировой войны. 1939-1945. В 12 т. М.: Воениздат, - 1975, т.3, - 503 с.
30.Советская военная энсиклопедия. Т. 2. М.: Военное издательство министерства обороны ссср, 1974. – 640 с.
31.Тюленов И. Битва за Кавказ // Военный вестник, 1974, №7, s. 19.
32.Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой войны / Н.А. Шефов. – М.: «Вече» 2005. – 384 с.

**MEHMAN SÜLEYMANOV***

# II DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCANDA ÇAĞIRIŞ VƏ SƏFƏRBƏRLİK İŞİNİN NƏTİCƏLƏRİ HAQQINDA

## XÜLASƏ

Sovet İttifaqının tərkibinə daxil olan respublikalardan biri kimi, Azərbaycanın da vətəndaşları II Dünya Müharibəsinin aparılmasına fəal şəkildə cəlb olundular. Bu müharibə SSRİ sərhədini aşanda Böyük Vətən Müharibəsi adlandırıldı. Həmin müharibənin aparılmasına Azərbaycandan da böyük insan ehtiyatları ordu sıralarına çağırıldılar. Təqdim olunan məqalədə müharibənin başlaması ərəfəsində və gedişində Azərbaycanda insan ehtiyatlarının qeydiyyata alınması və orduya çağırılması təhlil olunmuşdur. Elmi-tarixi ədəbiyyatda bəzən Azərbaycandan müharibəyə çağırılanların sayı barəsində fərqli rəqəmlərlə rastlaşmaq mümkündür. Bu məqalədə mənbələrə istiand etməklə Azərbaycandan müharibəyə çağırılanların dəqiq rəqəmi göstərilmişdir. Həmin rəqəm də göstərir ki, müharibə illərində çağırış və səfərbərlik işinin qurulması üçün çox geniş təşkilati işlər aparılmışdır. Məqalə Azərbaycan əhalisinin İkinci dünya Müharibəsində iştirakının öyrənilməsi baxımından elmi-tarixi əhəmmiyyət kəsb edir.

**Açar sözlər**: İkinci Dünya müharibəsi, hərbi mükəlləfiyyət, hərbi çağırış, səfərbərlik, hərbi qeydiyyat

1939-cu ilin sentyabrında II Dünya Müharibəsinin başlanması faşizm təhlükəsini Sovet İttifaqının sərhədlərinə daha da yaxınlaşdırdı. Əslində, Avropa ölkələrinin də siyasəti buna yönəlmişdi ki, Almaniya SSRİ-yə qarşı müharibəyə başlasın və bununla sovet dövlətinə ciddi bir zərbə vurulsun.

---

* Müdafiə Nazirliyi Milli Müdafiə Universiteti, Hərbi Elmi-Tədqiqat İnstitutu, tarix elmləri doktoru, professor.

Sovet rəhbərliyi belə bir təhlükənin qarşısının alınması üçün dərhal əməli tədbirlərin həyata keçirilməsinə başlandı. Elə müharibənin başlandığı gün, yəni 1939-cu il sentyabr ayının 1-də "Ümumi hərbi mükəlləfiyyət haqqında" SSRİ qanunu qəbul edildi. Bu qanunla sovet qırmızı ordusuna çağırışla bağlı yeni tələblər qüvvəyə minmiş oldu. Həmin qanuna əsasən, hərbi xidmət keçmənin, ehtiyatda olmanın, xidmətə çağırışın, ibtidai və xidmətəqədərki hərbi hazırlığın yeni qaydaları müəyyən edildi. Qanunda əvvəllər sovet cəmiyyətinə ictimai-yad element kimi çağırışa cəlb edilməyənlərin də çağırışdan kənar qalmaması öz əksini tapdı. Bu qanuna əsasən çağırış yaşı və xidmətdə olmanın müddəti, hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması qaydası, müharibə dövründə səfərbərlik məsələləri və s. məsələlər təsbit edildi (6).

II Dünya Müharibəsinin başlaması ərəfəsində Azərbaycanda da hərbi mükəlləfiyyətlilərin qeydiyata alınması və hərbi xidmətə çağırılması bu qanun əsasında yenidən qurulmalı idi. Bununla bağlı və bütünlükdə respublikada hərbi çağırışın sovet dövlətinin tələb etdiyi səviyyədə keçirilməsi üçün Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin bürosunda xüsusi qərar qəbul olundu. Bu qərarda hərbi vəzifəlilərin qeydiyyata alınması, ehtiyatda olan siyasi heyətə təlim keçilməsi, çağırışçılar arasında rus dilinin öyrədilməsi, hərbi məktəblərin komplektləşdirilməsi, Bakı şəhərinin hava hücumundan müdafiə vəziyyəti və s. məsələlər öz əksini tapdı. İlin sonunda Azərbaycan Kommunist (bolşeviklər) Partiyasnın Mərkəzi Komitəsinin və Bakı şəhər komitəsinin plenumlarında 1939-cu ildə keçirilmiş hərbi çağırışın nəticələri və 1940-cı ildə keçiriləcək hərbi çağırış üçün hazırlıq tədbirləri müzakirə olundu [7, v.19]

1940-cı ildə də "Ümumi hərbi mükəlləfiyyət haqqında" SSRİ qanununa əsasən Azərbaycanda hərbi vəzifəlilərin yenidən qeydiyyatı keçirildi. Belə bir qeydiyyata başlanması haqqında SSRİ Xalq Müdafiə komissarı Timoşenkonun bütün respublikaların Hərbi Komissarlıqlarına xüsusi bir əmri göndərilmişdi. Azərbaycanda bu əmrin icrası respublika

rəhbərliyinin ümumi rəhbərliyi altında hərbi komissar polkovnik Şilovun üzərinə qoyulmuşdu. Onun Azərbaycan K(B)P Mərkəzi Komitəsinə təqdim etdiyi məruzəyə görə, respublikada ilk ümumi hərbi qeydiyayt 1927-ci ildə aparılmışdı. Müharibə təhlükəsi ərəfəsində hərbi qeydiyyat işlərinin qeyri-qənaətbəxş olduğu bildirilirdi. Bunun nəticəsində həm respublikada hərbi xidmətə real şəkildə yararlı olanların sayı dəqiq bilinmir, həm də hərbi vəzifəlilərə hərbi ixtisasın müəyyənləşdirilməsində nöqsanlara yol verilirdi. Hərbi ixtisas alanların isə təkrar hərbi hazırlıqları vaxtlı vaxtında aparılmırdı [5, v.18].

Azərbaycanda hərbi vəzifəlilərin yenidən qeydiyyatının keçirilməsi üçün Azərbaycan SSR Xalq Komissarları Şurasının iclasında xüsusi bir plan qəbul edildi. Respublikanın bütün hərbi komissarlıqlarına göndərilən həmin planda ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xidmət edən yenidən qeydiyyatın əhəmiyyəti haqqında əhali arasında təbliğat işlərinin aparılması, bütün hərbi vəzifəlilərin yenidən qeydiyyat məntəqələrinə vaxtında gəlməsinin təşkil edilməsi, yenidən qeydiyyat keçirilməsi üçün uyğun binaların ayrılması və onların təchiz edilməsi, yenidən qeydiyyat məntəqələrində siyasi və mədəni xidmətin göstərilməsi, milis orqanlarına yenidən qeydiyyat işlərinin normal şəkildə keçirilməsi üçün kömək göstərmələrinə göstəriş verilməsi öz əksini tapmışdı. Yenidən qeydiyyatın keçirilməsi müharibənin başlanacaı təqdirdə ölkə ərazisində çağırış ehtiyatlarının sayının müəyyənləşdirilməsi ilə bağlı idi. Moskvadan göndərilən tələblər əsasında respublika daxilində aparılan yenidən qeydiyyat məsələsinə güclü bir ideoloji dəstək verildi, partiya və sovet işçliləri davamlı olaraq sovet təbliğatının aparılamsı üçün səfərbər edildilər və bununla bu kampaniyaya ümumdövlət və ümumpartiya görüntüsü verildi [5, v.19].

Bu təbliğat işləri Bakıda xüsusi bir vüsət aldı. Şəhərin əksər müəssisələrində çalışan hərbi vəzifəlilər təbliğat toplantılarına cəlb edildilər. Şəhərin müəssisə və təşkilatlarının mədəniyyət sarayları, klubları və digər ictimai məkanları təbliğatçıların ixtiyarına verildi. Həmin məkanlar aparılan kampaniyanın

mahiyyətinə uyğun plakatlarla, şüarlarla və sovet dövlətinin rəhbərlirinin portretləri ilə bəzədildi. Bütünlükdə, Bakı şəhərində yenidən qeydiyyat üçün 57 məntəqə yaradıldı. Bu iş respublika miqyasında da davam etdirildi. Azərbaycan üzrə isə 183 məntəqə fəaliyyətə başladı. Onlardan da 135-i sabit, 48-i isə səyyar məntəqələr idi. Rayon yerlərində yenidən qeydiyyat məntəqələri elə yaradıldı ki, bu məntəqələrlə ən uzaqda yaşayan hərbi vəzifəli arasında məsafə 15 kilometrdən çox olmasın. Eyni zamanda qeydiyyat məntəqəsində qeydiyyat işləri aparmalı olan heyət xüsusi olaraq seçildi. Ona diqqət yetirilirdi ki, bu məntəqələrin fəaliyyətinin qurulmasına hərbi, texniki adminstrativ iş təcrübəsi olan adamlar cəlb edilsin. Bu qeydiyyat məntəqələrinin fəaliyyətinə rəhbərlik edənlərin rus dilini bilməsi məcburi idi. Bəzi rayonlarda, o cümlədən Ağcabədi, Qonaqkənd, Qasım-İsmayılov, Samux və Masallı rayonlarında yenidən qeydiyyat məntəqələrinə rəhbərlik üçün rus dilini bilən adamlar tapılmadı. Bu rayonlar üçün beləələri Bakıdan, Kirovabaddan, Nuxadan, Yevlaxdan, Lənkərandan ezam edildilər. Məntəqə sədrlərinin müavini vəzifəsinə isə yerli partiya orqanlarının nümayəndələri cəlb edildilər. Bu adamlar yenidən qeydiyyatın aparılması üçün təbliğat və ideoloji işlərə rəhbərlik etməli idilər [5, v.19-21].

Yenidən qeydiyyat işinin düzgün aparılması üçün rayon hərbi komissarlarının və hərbi komissarlıqların 1-ci şöbə rəislərinin Bakı şəhərində toplantısı keçirildi və yenidən hərbi qeydiyyatın keçirilməsi üçün rəhbər sənədlərin tələbləri onlara çatdırıldı. Yenidən hərbi qeydiyyat məntəqələrinin yerində təlimatlandirilməsı üçün isə respublika Hərbi Komissarlığının nümayəndələri rayonlara ezam olundular. Bəzi rayonlarda yaradılmış məntəqələrin əməkdaşları da sərbəst attestasiyaya cəlb olundular. Yenidən hərbi qeydiyyatın aparılmasına qabil olmayanlar dərhal yeniləri ilə əvəzləndilər. Hərbi komissarlığın nümayəndələri qeydiyyat dövründə davamlı olaraq qeydiyyat məntəqələrinin fəaliyyətini yoxladılar. Respublika hərbi komissarı etraf edirdi ki, aparılan hazırlıq işlərinə baxmayaraq heç də bütün yenidən qeydiyyat məntəqələrinin fəaliyyətini

yüksək səviyyədə qurmaq mümkün olmadı. Sovet rəhbərliyi tərəfindən yenidən qeydiyyat məsələsinə ölkə əhəmiyyətli bir kampaniya kimi yanaşdığından Azərbaycan K(b)P Mərkəzi Komitəsinin Hərbi şöbəsi də bu işə cəlb edildi. Bu şöbənin əməkdaşları rayonlara ezam olundular və yenidən qeydiyyatın aparılmasına hazırlıq işləri ilə tanış oldular. Yenidən qeydiyyat məntəqələrində kampaniya dövründə divar qəzetlərinin buraxılması da təşkil olundu. Bu divar qəzetlərində yenidən qeydiyyatdan keçənləri qeydiyyatla bağlı partiyanın ideoloji əhval-ruhjiyyəsini əks etdirən fikirləri əks olundu[5, v.21-22].

Azərbaycan üzrə hərbi vəzifəlilərin yenidən qeydiyyatdan keçirilməsi 1940-cı il oktyabr ayının son üç gününə təyin edilmişdi. Həmin ilin avqustuna olan hesablamalara görə, yenidən qeydiyyata 369157 nəfər hərbi vəzifəli gəlməli idi. Bütünlükdə, respublikada yenidən qeydiyyatın keçirilməsi statistikası belə idi:

- 1940-cı il avqustun 1-nə hərbi qeydiyyatdan keçməli olanları sayı – 369157 nəfər
- yenidən qeydiyyata gələnlərin sayı - 382906 nəfər
- qeydiyyata gələnlərdən hərbi xidmətə yararsız sayılanlar – 21836 nəfər
- düzgün hərbi ixtisas (VUS) verilməyənlərin sayı – 19088 nəfər
- hərbi ixtisası yenidən təyin olunanların sayı – 24897
- hərbi qeydiyyatdan çıxmadan respublikanı tərk edənlər – 6287 nəfər
- hərbi qeydiyatda olmayanların sayı – 11044 nəfər
- hərbi qeydiyyatda olan lakin hərbi biletsiz gələnlərin sayı – 15077
- yenidən qeydiyyata alınanlar arasında partiya üzvü və üzvlüyə namizədlər – 10,6 %
- yenidən qeydiyyata alınanlar arasında ali və orta ixtisas təhsilli – 5,9 %
- yenidən qeydiyyata alınanlar arasında fəhlələrin sayı – 17, 5%
- yenidən qeydiyyata alınanlar arasında qadın hərbi

vəzifəlilər – 0,7 % [7, v.23].

Yenidən qeydiyyatın aparılmasından əvvəl təlim keçilmiş hərbi vəzifəlilərin sayı 81120 nəfər idi. Yenidən qeydiyyat aparıldıqdan sonra hərbi vəzifəlilər arasında hərbi təlim keçirildi və onlara hərb işinin müxtəlif ixtisasları üzrə ilkin biliklər verildi. Belələrinin sayı 131907 nəfər idi. Nəticədə Azərbaycanda hərbi təlim keçmiş hərbi vəzifəlilərin sayı 61,3 % artı. Kampaniyaya kütləvi xarakter verilməsinə baxmayaraq, yenidən qeydiyyata gəlməyənlər də oldu. Onların sayı 1621 nəfər idi. Bildirilirdi ki, onlardan yalnız 582 nəfər üzürsüz səbəbə görə (köçəri olduqalrı üçün) yenidən qeydiyyata gəlməmişdilər. Qalanları isə üzürlü səbəb görə bu kampaniyaya qoşula bilməmişdilər [5, v.23].

İkinci Dünya Müharibəsinin SSRİ ərazisinə keçməsinə qədər, yəni 1939, 1940 və 1941-ci ilin birinci yarısında ölkə ordusu sıralarına Azərbaycandan 75579 nəfər çağırılmışdı və onlar da II Dünya Müharibəsinin "Böyük Vətən Müharibəsi" dövründə qırmızı ordu sıralarında öz xidmətlərini davam etdirmişdilər [15, v.3].

Yenidən qeydiyyata alınanlarla aparılan hərbi təlimin bir istiqamətini də onlara rus dilinin öyrədilməsi təşkil edirdi. Məlumdur ki, Azərbaycan əhalisinin böyük bir hissəsi rus dilini bilmirdi və belələri üçün qırmızı sovet ordusu sıralarında xidmət keçmək də asan olmayacaqdı. Böyük Vətən Müharibəsinin başıanması ərəfəsində bu məsələyə də böyük diqqət yetirilirdi. Digər respublikalarda olduğu kimi Azərbaycanda da hərbi vəzifəlilərin rus dilinin öyrdilməsinə cəlb edilməsi kütləvi xarakter aldı. 1941-ci il may ayının 15-də hərbi xidmətə cəlb edilməli olan çağırışçılardam 21350 nəfəri rus dilini bilmirdi. Onlardan 19859 nəfəri rus dili dərnəklərinə cəlb olundular. 1491 nəfər bu dərnəklərdən kənarda qaldılar. Rus dilinin öyrədilməsi ilə bağlı axşam dərnəkləri respublikanın bütün rayonlarında təşkil edildilər. Bir çox rayonlarda bu işə ciddi diqqət ayrıldı. Dövrün hesabat sənədlərindəki məlumata görə, çağırışçıların rus dili dərnəklərinə cəlb edilməsi Qasım İsmayılov, Qaryagin, Lənkəran, Tərtər, Nuxa rayonlarında daha yaxşı idi. Xaçmaz,

İmişli, Qusar, Quba, Qonaqkənd, Ağdaş, Qutqaşen, Masallı və Ağcabədi rayonlarında isə bu davamiyyət xeyli aşağı idi. Aparılan təhlillərdən sonra çağırışçılar arasında rus dilinin tədrisinin zəif olmasının bir sıra səbəbləri də müəyyənləşdirilmişdi. Belə səbəblərdən biri rayonlarda rus dili müəllimlərinin az olması ilə bağlı idi. Rus dili müəllimləri çatışmadığı üçün dil tədrisi rus dilini bilməyən təsadüfi adamlara tapşırılırdı. Bu da gözlənilən nəticəni vermirdi. Bəzi rayonlarda, o cümlədən Bakının Dzerjinski, Şaumyan və Caparidze rayonlarında rus dili dərnəkləri yaşayış məhəllərindən xeyli uzaqda idi. Rus dili dərnəklərində dərsliklər və uyğun kitablar da tələbləri ödəmirdi [14, v.174-177].

Böyük Vətən Müharibəsinin başlanmasına qədər hərbi vəzifəlilərin qeydiyyatının aparılması kənd yerlərində kənd sovetlərinə, şəhər yerlərində isə milis şöbələrinə tapşırılmışdı. Müharibənin başlanması ilə kənd soveti əməkdaşlarının böyük bir hissəsi cəbhəyə səfərbər edildilər. Onların yerində qalmış hazırlıqsız insanlar və xanımlar isə bu işin öhdəsindən gələ bilmədilər. Ona görə respublika Hərbi Komissarlığının təşəbbüsü ilə hərbi vəzifəlilərin qeydiyyatı və xidmətə çağırılması rayonların hərbi komissarlıqlarına və ya da rayonlarda məvacib alan xüsusi müvəkkillərə tapşırıldı [16, v.154].

1941-ci ildə hərbi xidmətə çağırış iyun ayının 8-13-ü arasında aparılmalı idi. May ayınnı 19-da Azərbaycan K(b)P MK katibi M.C.Bağırov rayonların partiya komitələrinin rəhbərlərinə məktub göndərdi və onlardan tələb etdi ki, çağırışın yüksək səviyyədə keçməsi və çağırış kvotalarının ödənməsi üçün ciddi təşkiltçılıq və tələbkarlıq nümayiş etdirsinlər. Bu məktubdan sonra respublika ərazisində çağırışa hazırlıq işlərində bir canlanma hiss edilməyə başladı. Çağırışa hazırlıq məsələləri AK(b)K MK bürosuna çıxarıldı və bu iclasda çağırışa hazırlığın necə aparılması məsələləri müzakirə olundu. Bu iclasdan sonra isə AK(b)P MK-nın 32 nəfər məsul işçisi çağırışa hazırlıq işlərinin yoxlanması üçün rayonlara göndərildi [2, s. 333].

Böyük Vətən Müharibəsinin başlanmasına bir neçə gün qalmış respublikaya çağırış üçün ayrılmış kvota yerinə yetirildi. Əvvəlki çağırışlardan fərqli olaraq 1941-ci ilin iyim ayının çağırış kontingentinin keyfiyyəti də yaxşılaşdı. Çağırışçılar arasında savadsızların sayı azaldıldı, rus dilini bilməyənlərin sayı daha da yüksəldi. Respublikanın hərbi komissarı polkovnik Şilov da hazırladığı hesabat sənədlərində iyun çağırışının uğurla təşkil edildiyi bildirirdi. Onun fikrincə bu kampaniyanın uğurla aparılmasında Tərtər, Kirovabad, Nuxa, Göyçay və Bakının bir neçə rayonu xüsusi fəallıqları ilə seçildilər. Bir neçə rayonda isə bu iş tələb olunan səviyyədə qurulmadı. İyun ayının sonlarına yaxın Böyük Vətən Müharibəsinin başlanması isə hərbi komissarlıqların çağırış-səfərbərlik sahəsindəki fəaliyyətinə bir gərginlik gətirdi. Çünki yeni şəraitdə çağırış-səfərbərlik işlərinin çox böyük sürətlə aparılması zərurəti ortaya çıxdı. İyun ayının 22-də SSRİ Ali Soveti Rəyasət Heyəti də bir sıra hərbi dairələrdə, o cümlədən də Zaqafqaziya hərbi dairəsində əhalinin kütləvi səfərbərliyinin keçirilməsi barəsində qərar verdi. 1941-ci il iyun ayının 23-ü səfərbərliyə başlanmasının ilk günü olmalı idi. Həmin səfərbərliyin yerlərdə dərhal təşkil edilməsi üçün Zaqafqaziya hərbi dairəsinin qərargah rəisi general Tolbuxin də Azərbaycana məktub göndərdi[17, v. 129].

Bu səfərbərliyin aparılması ümumdövlət əhəmiyyəti kəsb etdiyindən onun icrası respublika rəhbərliyinin ciddi nəzarəti altına alındı. Belə kütləvi bir kampaniyanın aparılmasına gözlənilmədən göstəriş verilməsi müəyyən çətinliklər yaratsa da, Azərbaycanın o zamankı rəhbərliyi bu istiqamətdə geniş təşkilatçıqlı işi nümayiş etdirə bildi. Nəticədə respublikanın əksər rayonlarının hərbi komissarlıqları, partiya komitələri hərbi səfərbərik sahəsində lazım olan nəticələri əldə edə bildilər. Aparılan ideoloji təbliğat işlərinin nəticəsində Azərbaycanda çoxlu sayda adam könüllü şəkildə cəbhəyə yollanmaq barəsində öz arzularını bildirdilər. Mövcud məlumata görə, müharibənin elə ilk günlərində Azərbaycandan 6725 nəfər könüllü şəkildə cəbhəyə göndərilmək üçün hərbi komissarlıqlara müraciət

etdilər. Bu rəqəm Gürcüstanda və Ermənistanda qeydə alınan könüllülərin sayından yuxarı idi [2, s. 336-337].

Bununla belə, müharibənin başlamasından bir neçə gün sonra Azərbaycanın hərbi komissarı polkovnik Şilov respublika rəhbərliyindən xəbərsiz Zaqafqaziya hərbi dairəsinə teleqram göndərərək Azərbaycanda çağırış-səfərbərlik işinin aparılması üçün çətinliklər olduğunu bildirdi. Onun yazdığına görə, xüsusilə səfərbərlik yolu ilə atların və avtotexnikanın toplanmasında çətinliklər var idi. Zaqafqaziya hərbi dairəsindən dərhal respublika rəhbəri M.C.Bağırovun adına teleqram göndərildi. Razılaşdırılmadan belə bir teleqramın Zaqafqaziya hərbi dairəsinə göndərilməsi M.C.Bağırovun qəzəbi ilə qarşılaşdı. Bu məsələ ilə bağlı dərhal Azərbaycan K(b)P MK-nın operaiv bürosu çağırıldı, Şilovun teleqramında yazılanlar orada müzakirə edildi. Büronun iclasında polkovnik Şilov, onun göndərdiyi teleqramı imzalamış Bakı şəhər hərbi komissarı mayor Nəcəfəliyev və digər vəzifə sahibləri çıxış etdilər. Müzakirələrin gedişində aydın oldu ki, respublikada çağırış-səfərbərlik işinin gedişi heç də polkovnik Şilovun təsəvvür etdiyi qədər acınacaqlı deyil. Büronun iclasında M.C. Bağırov da çıxış etdi. O tələb etdi ki, göndərilən teleqramın məzmunundan asılı olmayaraq səfərbərlik işində mövcud olan nöqsanlar həm Bakıda, həm də rayonlarda dəqiqləşdirilsin. Üzə çıxarılan nöqsanlar isə 3 saat ərzində aradan qaldırılmalı idi. Ancaq M.C.Bağırov onu da etraf etdi ki, avtotexnika üçün ayrılmış kvota norması doldurulmaya da bilər. Çünki respublikada avtotexnika ehtiyatları elə də çox deyildi. Bundan əlavə, M.C.Bağırov polkovnik Şilovun nəzərinə çatdırdı ki, səfərbərliyin aparılmasında aydınlıq, operativlik və dəqiqlik çox lazımdır, burada heç bir səhvin üstündən keçilməməli və onlar aradan qaldırılmalıdır. Respublikanın rəhbərinin sözlərinə görə, nöqsanlar mövcud olsa belə, onlar təlaş və mənasız hay-küyə səbəb olmamalıdır: "*Çatışmayanları gizlətmək lazım deyil və yalançı "mürəkkəb" vəziyyət yaratmaq, işlərin başa çatdığını demək də lazım deyil.Ona görə ki, bu mənasızdır. İş düzgün*

*təşkil edilsəydi bütün bu çatışmazlıqları aradan qaldırmaq olardı. Və nəhayət, siz məruzə etməyə və respublika təşkilatlarını məlumatlandırmağa borclusunuz*" [3, s. 382-383].

Səfərbərlik sifarişlərinə əsasən, respublika ərazisindən avtomobil və traktor texnikasının toplanıb təhvil verilməsində doğrudan da çətinliklər mövcud idi. Məsələn, Dəvəçi, Şamxor, Cəbbrayıl, Zəngilan fayonlarında avtomobil, traktor texnikasının və atların toplanmasında sifarişlər yerinə yetirilməmişdi. Toplanan avtotexnikanın xeyli hissəsi isə qeyri-işlək vəziyyətdə idi. Mövcud olan bu vəziyyət respublika rəhbəri M.C.Bağırov tərəfindən də araşdırıldı və onun qərarı belə oldu ki, avtotexnika, traktor və atların səfərbərliyə alınması üçün dövlət sifarişlərinin yerinə yetirilməməsinə məsuliyyət respublikanın hərbi komissarı polkivnik Şilovun üzərinə düşür. Onun tərəfindən təşkilatçılıq işinin düzgün qurulmaması sifarişlərin icrasını da mümkünsüz etmişdi. Ona görə də polkovnik Şilovun fəaliyyəti 1941-ciil iyul ayının 31-də Azərbaycan K(b)P MK-nın bürosunun müzakirəsinə çıxarıldı. Büro iclasının M.C.Bağırov tərəfindən imzalannmış qərarında deyilirdi: "*Azərbaycan K(b)P MK qeyd edir ki, respublika hərb komissarı polkovnik Şilova respublika, yerli partiya və sovet təşkilatları tərəfindən böyük kömək göstərilməsinə baxmayaraq, o, həvalə olunmuş vəzifələrin öhdəsindən gələ bilmir, respublikanın və rayonların hərbi komissarlıqlarıın fəaliyyətini təmin edə bilmir. Azərbaycan Hərbi Komissarlığının səfərbərik fəaliyyətinin qeyri-qənaətbəxş olması və Hərbi Komissarlığın aparatının işində qarışıqlığın və anlaşılmazlığın olması da bununla izah edilir. Polkovnik Şilov tərəfindən intizamın zəifləməsi, məsuliyyətsizlik və yumşaqlıq göstərilməsi nəticəsində bir sıra rayon hərbi komissarlıqları (İsmayıllı, Samux, Dəvəçi, Nuxa, Bərdə, Aqdam və digərləri) səfərbərliyin keçirilməsində qanunsuz hərəkətlərə yol vermiş, tapşırığın icrasına məsuliyyətsiz yanaşılmış, yerli partiya və sovet təşkilatları ilə əlaqələr qırılmış, respublika Hərbi Komissarlığnğn aparatının şübhəli, insanlara yad elementlərlə zibillənməsinə yol açmışdır.*

*Bu yolverilməz fakrlardan xəbərdar olduğu halda polkovnik Şilov onların aradan qaldırılmasına və respublika Hərbi Komissarlığının aparatında həqiqi hərbi qayda-qanunun yaradılmasına qətiyyət göstərmir*" [9, v.130].

Azərbaycan K(b)P MK bürosunun bu qərarlnndan sonra Zaqafqaziya hərbi dairəsi komandanlığı polkovnik Şilovu vəzifəsindən azad etdi. 1941-ci ilin oktyabr ayının 20-27-də isə Zaqafqaziya hərbi dairəsi komandanlığının xüsusi komissiyası Azərbaycanda çağırış-səfərbərlik işinin gedişini yoxladı. Avtotexnikanın və traktorların səfərbərliyə alınması üzrə dövlət sifarişi lazımınca yerinə yetirilməsə də, komissiya çağırış sahəsində respublikada müsbət işlərin aparıldığını qeyd etdi. Komissiyanın da qeyd etdiyi kimi, çağırış üzrə dğvlət sifarişinin yerinə yetirilməsi üçün böyük təşkilati iş görülmüşdü. Belə ki, 1941-ci ilin iyul-oktyabr aylarında, yəni cəmi dörd ay ərzində 30480 çağırışçı xidmətə yararlı bilinmiş, onlardan 2827 nəfər hərbi məktəblərə, 3165 nəfər qvardiya diviziyalarına və 22310 nəfəri isə döyüş hissəslərinin komplektləşdirilməsi üçün ehtiyata alınmışdı [4, v.149].

1941-ci ilin sonlarında Azərbaycandan çox böyük sayda çağırışçı ehtiyatı döyüşən hərbi hissələrə göndərildi. Belə ki, 1941-ci il dekabr ayının 1-nə olan məlumata görə, 1939-1940-cı illərin çağırışçıları da daxil olmaqla qırmızı ordu sıralarında Azərbaycandan çağırılmış 242884 nəfər, Xalq Daxili İşlır Komissarlığı tərkibində 5945 nəfər, Hərbi Dəniz Qüvvələri sıralarında 6330 nəfər var idi. Bütünlükdə göstərilən müddət ərzində Azərbaycandan 255159 nəfər çağırılmışdı [11, v.104].

1942-ci ildə hərbi çağırış sahəsində gərgin fəaliyyət davam etdirildi. Dövlət sifarişlərinin icra edilməsi respublika daxilində günün mühüm tələbinə çevrildi və bu iş il boyu xüsusi gərginliklə davam etdirildi. Nəticədə 1942-ci ilin sonunda Azərbaycandan çağırılan çağırışçıların sayı 464468 nəfərə çatdırıldı [10, v.133].

1942-ci ildə gənc xanımların da hərbi hissələrə səfərbər edilməsi istiqamətində geniş işlər aparılırdı. Gənc xanımların

seçilməsi və xidmətə cəlb edilməsi sahəsində komsomol təşkilatlarına xüsusi tapşırıq verilmişdi. Bu istiqamətdə görülən işlər 1942-ci il iyul ayının 6-da Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsininin büro iclasında müzakirəyə çıxarıldı. Orada aparılan müzakirələr zamanı bildirildi ki, arxa cəbhədə yerləşən hərbi hissəslərdə çatışmayan kadrların xanımlarla əvəz edilməsi aparılmaqdadır. Həmin hissələrdə xanımlar kargüzar, kitabxanaçı, mühasib, xəzinədar, hesablayıcı, sanitar, sanitar-təlimatçı, teleqrafist, telefonçu, kino-mexanik kimi vəzifələrdə xidmət edə bilərdilər. Büro iclasında Naxçıvan MSSR, Dağlıq Qarabağ Muxtar Vilayəti, Bakı və Kirovabad şəhər komsomol komitələrinə tapşırıq verildi ki, gənc xanımların xidmətə cəlb edilməsi istiqamətində işlərini gücləndirsinlər. 1942-ci ilin aprel ayı da daxil olmaqla Hava Hücumundan Müdafiə Qoşunlarının 3-cü korpusuna 4975 gənc xanım göndərilmişdi. Onlardan 4032 nəfəri Bakı şəhərindən seçilmişdi. Respublika komsomolu Mərkəzi Komitəsinin bürosunın qərarına əsasən 1942-ci ilin sonuna kimi Bakıdan daha 400, Kirovabaddan 40, Naxçıvandan 30 və Dağlıq Qarabağdan 30 gınc xanım xidmətə cəlb edilməli idi [12, v.1-2]. Bütünlükdə isə müharibə illərində Azərbaycandan 11256 qadın çağırışa və səfərbərliyə cəlb edilmişdi [1, s.158].

1943-cü ildən etibarən 1925-1926-cı illərdə anadan olanların da xidmətə çağırılması başlandı. Bunu nəzərə almaqla 1943-cü illərdə çağırış və səfərbərlik sahəsində Azərbaycana 65406 nəfər üçün naryad verilmişdi. İlin sonunda Azərbaycandan 64426 nəfər çağırışa cəlb edilməklə dövlət sifarişi 98,5 faiz yerinə yetirildi. Dövlət sifarişinin azacıq kəsirlə yerinə yetirilməsi xüsusi ixtisaslar üzrə kontingentin Azərbaycanda az olması ilə bağlı idi. Məsələn, Hərbi Dəniz qüvvəlrəinə 227 nəfər göndərilməli olduğu halda 134 nəfər göndərilmişdi. Xalq Müdafiə Komissarlığının ehtiyatına 1114 nəfər göndərilməli olduğu halda 1036 nəfər göndərilmişdi. 1926-cı il təvəllüdlü gənclərdən 1674 nəfər göndərilməli olduğu halda 937 nəfər göndərilmişdi. Digər beş kateqoriya üzrə isə sifarişlər icra olunmuşdu. Sıravi və serjant heyəti üzrə

dövlət sifarii 39296 nəfər olduğu halda, Azərbaycandan 39495 nəfər xidmətə çağırılaraq hərbi hissəslərə göndərilmişdi. Bütünlükdə isə 1943-cü il dekabr ayının 1-nə qədər Azərbaycandan ximətə çağırılanların sayı 549573 nəfərə çatdı [8, v.26-27, 39].

Təxminən ay yarımdan sonra, yəni 1944-cü il yanvar ayının 15-də Azərbaycandan xidmətə çağırılanların sayı 569357 nəfər oldu [13, v.8]. Böyük Vətən Müharibəsinin başlanmaslna qədər xidmətə çağırılanların sayı da bu rəqəmə daxildir.

Göründüyü kimi, 1944-cü ilin əvvəlində Azərbaycandan xidmətə çağırılanların sayı artıq 600 min nəfərə çatmışdı. 1944-cü ildə və 1945-ci ilin birinci yarısınnda isə xidmətə çağırışla bağlı gərginlik bir qədər azalmağa başladı. Çünki sovet ordusunun uğurlu hücumları həm cəbhə xəttinin daralmasına, həm də xidmətə çağırışın azalmasına səbəb olmuşdu. Bütünlükdə, isə müharibə dövründə Azərbaycandan xidmətə çağırılanların ümumi sayı haqqında elmi-tarixi ədəbiyyatda müxtəlif rəqəmlərlə rastlaşmaq mümkündür. Hətta tərəfimizdən aparılmış və artıq işıq üzü görmüş tədqiqatda da ümumi sayla bağlı aparılmış hesablamada texniki xətaya yolverilmişdir [72 s. 386-387; 3, s.432].

İkinci Dünya Müharibəsinin gedişində Azərbaycandan xidmətə çağırılanların ümumi sayının dəqiqliklə müəy-yənlşdirilməsi üçün ən yaxşı mənbə respublikanın hərbi komissarı polkovnik İsmayılov 1946-cı il mart ayını 2-də Azərbaycan K(b)P MK katibi M.C.Bağırovun adına göndərdiyi arayış ola bilər. Həmin arayışda Böyük Vətən Müharibəsinin başlanmasından 1946-cı il fevral ayının 25-nə kimi, habelə Böyük Vətən Müharibəsinin başlanması ərəfəsində, yəni 1939-1940 və 1941-ci ilin birinci yarısında xidmətə çağırılan və müharibənin gedişində iştirak edən çağırışçıların ümumi sayı göstərilmişdir. Arayışda respublikanın hər bir rayinu üzrə çağırış göstəriciləri ayrıca verilmiş və sonra da onları cəmi arayışda göstərilmişdir. Bu arayəşa görə, rayonlarda çağırışın vəziyyəti belə idi:



НКО – СССР
…ый комиссариат
…айджанской ССР
1-я. часть
Марта 1946 г.
г. Баку
Коммунистическая, № 11/13.
Телефон № 3-11-46

экз. №

СЕКРЕТАРЮ ЦК КП/б/ АЗЕРБАЙДЖАНА
тов. Б А Г И Р О В У М.Д.

С П Р А В К А

1. Призвано и отправлено в армию и промышленность военнообязанных рядового и сержантского состава и призывников за период с первых дней Отечественной войны по 25-е февраля 1946 года:

а) В армию ........................ - 482.581 чел.
б) В промышленность ................... - 43.893 -"-

И т о г о :........ - 526.474 чел.

2. Из числа призванных в армию и промышленность возвращено по демобилизации и другим причинам:

а) Из армии ........................ - 136.547 чел.
б) Из промышленности ................... - 5.180 -"-

И т о г о :....... - 141.727 чел.

3. Количество призванных в армию и промышленность и возвращенных по Райвоенкоматам выражается в следующем:

| №№ пп | Наименование Военкоматов | Всего призвано | | Всего возвращено | |
|---|---|---|---|---|---|
| | | В армию | В промышленность | Из армии | Из промышленности |
| 1. | Агдамский | 7.953 | 900 | 1.435 | 194 |
| 2. | Агдашский | 6.168 | 710 | 706 | - |
| 3. | Агджабединский | 4.873 | 423 | 885 | 23 |



| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| 43. | Сафаралиевский | 2.892 | 130 | 753 | 3 |
| 44. | Сальянский | 5.076 | 461 | 839 | 41 |
| 45. | Самухский | 1.789 | 128 | 347 | - |
| 46. | Таузский | 5.015 | 601 | 1.517 | 60 |
| 57. | Тертерский | 2.869 | 478 | 937 | 128 |
| 48. | Ханларский | 6.415 | 791 | 1.646 | 42 |
| 49. | Хачмасский | 13.616 | 357 | 2.150 | 15 |
| 50. | Хизинский | 3.934 | 284 | 348 | - |
| 51. | Хиллинский | 4.718 | 664 | 859 | 25 |
| 52. | Шаумяновский | 2.260 | 119 | 864 | 12 |
| 53. | Шамхорский | 9.856 | 1.520 | 2.407 | 103 |
| 54. | Шемахинский | 10.441 | 1.149 | 2.915 | 53 |
| 55. | Ярдымлинский | 3.705 | 597 | 1.350 | 65 |
| | И т о г о: | 482.581 | 43.893 | 136.547 | 5.180 |

4. Кроме того, в период Отечественной войны призвано в армию:

а) Офицерского состава запаса НКО. - 14.789 чел.
б) Военнообязанных запаса Военно-Морского флота .................. - 6.254 чел.

И т о г о :..... - 21.043 чел.

5. В 1939, 1940 и в 1-м полугодии 1941 года призывников, оставшихся в армии вследствие об"явления войны ...... - 75.579 чел.

6. Всего призывано в армию и мобилизовано в промышленность ............ - 623.096 чел.

ВОЕНКОМ АЗЕРБАЙДЖАНСКОЙ ССР
П О Л К О В Н И К
(ИЗМАЙЛОВ)

2 экз.
.46 г.
.п.

**Respublikanın hərbi komissarı polkovnik İsmayılovun 1946-cı il mart ayının 2-də Azərbaycan K(b)P MK katibi M.C.Bağırovun adına göndərdiyi arayış**

Ağdam – 7.953 (sənaye müəssisələrinə göndərilib – 900), Ağdaş – 6.168 (710), Ağcabədi – 4.873 (423), Əli Bayramlı – 571 (630), Astara – 3.589 (858), Astraxanbazar – 5.498 (745), Bakı – 123.806 (4485), Bərdə - 5.105 (432), Balakən – 5.866 (680), Vartaşen – 3.704 (208), Göyçay – 11.399 (1069), Dəstəfyur – 2.010 (356), Cəbrayıl – 3.749(514), Dəvəçi – 5.202 (809), Yevlax – 5.610 (455), Zaqatala – 5.922 (510), Zərdab – 3.429 (275), Zəngilan – 2.280 (488), İmişli – 4.095 (514), İsmayıllı – 8.140 (705), Qazax – 8.410 (1.968), Kirovabad – 17.584 (1.482), Karyagin – 7.947 (1.246), Qax – 3.389 (414), Gədəbəy – 6.315 (399), Kəlbəcər – 2.822 (288), Qonaqkənd –

3.549 (274), Qubadlı – 3.452 (391), Quba – 10.489 (792), Qusar – 8.064 (533), Qasım İsmayılov – 4.669 (382), Qutqaşen – 6.428 (399), Kürdəmir – 7.661 (692), Laçın – 3.513 (562), Lənkəran – 8.393 (1.169), Lerik – 4.610 (577), Masallı – 8.298 (1.569), Nuxa – 11.976 (1.185), Dağlıq Qarabağ Muxtar Vilayəti – 29.343 (3.752), Naxçıvan MSSR – 16.113 (1.761), Puşkin – 2.321 (240), Sabirabad – 7.772 (633), Səfərəliyev – 2.892 (130), Salyan – 5.076 (461), Samux – 1.789 (128), Tovuz – 5.015 (601), Tərtər – 2.869 (478), Xanlar – 6.416 (791), Xaçmaz – 13.616 (357), Xızı – 3.934 (284), Xilli – 4.718 (664), Şaumyan – 2.260 (119), Şamxor – 9.856 (1.520), Şamaxı – 10.441 (1.149), Yardımlı – 3.705 (597). Respublika üzrə cəmi – 482.581 (48.893) = 526.474 [15, v.1, 3].

Bu arayışdan görünür ki, xidmətə 482581 nəfər, xalq təsərrüfatının mühüm sahələrində çalışmaq üçün 43893 nəfər, cəmi 526474 nəfər çağırılmışdı. Bu rəqəmə əlavə olaraq Xalq Müdafiə Komissarlığının ehtiyat zabitlərindən 14789 nəfər və Hərbi Dəniz Qüvvələrinin ehtiyat hərbi vəzifəlilərindən 6254 nəfər cəmi 21043 nəfər də çağırılmışdı. 1939-1940-cı illərdə və 1941-ci ilin birinci yarısında çağırılanların sayı isə 75579 nəfər idi. Bu rəqəmi 21043 nəfərlə birlikdə yuxarıda göstərilən 526474 nəfərin üstünə əlavə etdikdə ümumi rəqəm 623096 nəfər alınır. Yəni müharibə illərində Azərbaycandan bu qədər adam xidmətə çağırılmışdı [15, v.1, 3].

Nəzərə alınsa ki, 1941-ci ildə Azərbaycan SSR-in əhalisi 3 milyon 331 min nəfər idi [1, s.158], onda demək olar ki, respublika əhalisinin təxminən 19 faizi xidmətə və səfərbərliyə cəlb edilmişdi.

**Nəticə**. Aparılan təhlillər göstərir ki, hələ II Dünya Müharibəsinin başlanmasından sonra SSRİ tərkibinə daxil olan respublikalardan biri kimi, Azərbaycanın da əhalisi bu müharibənin aparılmasına ciddi şəkildə cəlb olunmuşdu. Moskvadan alınan göstərişlər əsasında 1939-cu ildə Azərbaycandakı çağırış ehtiyatlarının yenidən qeydiyyatı aparıldı, müharibənin aparılmasına cəlb oluna biləcək insan ehtiyatları dəqiqləş-

dirildi. Böyük Vətən Müharibəsinin başlanması ilə isə Azərbaycanda da bütün həyat müharibə tələbləri üzərində quruldu. Bütün istiqamətlərdə oduğu kimi, hərbi çağırış və səfərbərlik sahəsində də çox geniş təşkilatı işlər aparıldı. Yerli partiya və sovet təşkilatları hərbi komissarlıqlarla birlikdə hərbi çağırışın və səfərbərıiyin aparılmasına cəlb olundular. Nəticədə müharibənin bitməsinə qədər Azərbaycandan 623096 nəfər müharibənin aparılmasına cəlb olundu.

**Мехман Сулейманов**

## РЕЗЮМЕ

## ОБ ИТОГАХ ПРИЗЫВА И МОБИЛИЗАЦИИ В АЗЕРБАЙДЖАНА В ПЕРИОД II МИРОВОЙ ВОЙНЫ

Как одна из республик, входивших в состав Советского Союза, граждане Азербайджана активно участвовали в ведении Второй мировой войны. Когда война перешла границу СССР, ее назвали Великой Отечественной войной. Большое количество людей из Азербайджана было призвано в армию для участия в этой войне. В представленной статье проанализирован учет человеческих ресурсов в Азербайджане до и во время войны. В научно-исторической литературе иногда можно встретить разные цифры о количестве людей, призванных на войну из Азербайджана. В этой статье со ссылкой на источники показано точное количество призванных на войну из Азербайджана. Эта цифра также свидетельствует о том, что за годы войны была проведена большая организационная работа по налаживанию призывной и мобилизационной работы. Статья имеет научно-историческое значение с точки зрения изучения участия населения Азербайджана во Второй мировой войне.

**Ключевые слова**: Вторая мировая война, военная повинность, воинский призыв, мобилизация, воинский учет.

**Mehman Suleymanov**

## SUMMARY

## ON THE RESULTS OF CONVICTION AND MOBILIZATION WORK IN AZERBAIJAN DURING WORLD WAR II

Azərbaycanın cəbhənin strateji dəstəyinə verdiyi töhfə də az əhəmiyyət kəsb etmir. Azərbaycan neft sənayesi Sovet İttifaqında ən mühüm sənayelərdən biri olmaqla Qızıl Ordunun yanacaqla təmin edilməsində həlledici rol oynamışdır. Azərbaycanda hasil edilən neft hərbi texnika və aviasiyanı gücləndirmək, silah-sursat sənayesinin tələbatını ödəmək üçün istifadə olunurdu. Bu, gərgin döyüş əməliyyatları şəraitində sovet qoşunlarının hərəkətliliyini və döyüş qabiliyyətini əhəmiyyətli dərəcədə artırmağa imkan verdi. Bundan

əlavə, məqalədə evakuasiya və gərgin hərbi vəziyyət şəraitində istehsal prosesində fəal iştirak edən mülki şəxslərin əmək şücaəti təhlil edilir.

Məqalədə vurğulanır ki, azərbaycanlıların faşizm üzərində qələbədə iştirakı təkcə hərbi töhfə ilə kifayətlənməyib, həm də cəbhənin dəstəklənməsi və qələbənin möhkəmləndirilməsinə yönəlmiş bütün tədbirlər kompleksini təmsil edib.

**Açar sözlər:** İkinci dünya müharibəsi, Azərbaycan, cəbhə, neft, qələbə.

**Ирада Гусейнова**

**РЕЗЮМЕ**

## РОЛЬ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА В ПОБЕДЕ НАД ФАШСТСКОЙ ГЕРМАНИЕЙ

Статья посвящена глубокому исследованию вклада азербайджанского народа в победу над гитлеровской Германией в ходе Второй мировой войны, подчеркивая многогранность этого вклада, который охватывает как военные действия, так и тыловую поддержку. Важное внимание уделяется подвигам солдат и офицеров азербайджанской армии, чьи героические действия на фронте не только способствовали успешным операциям, но и стали частью общей победы антигитлеровской коалиции.

Не менее значимым является вклад Азербайджана в стратегическое обеспечение фронта. Азербайджанская нефтяная отрасль, являясь одной из важнейших в Советском Союзе, сыграла решающую роль в снабжении Красной армии топливом. Нефть, добываемая в Азербайджане, использовалась для обеспечения работы боевой техники и авиации, а также для нужд промышленности, производящей вооружение и боеприпасы. Это позволило существенно повысить мобильность и боеспособность советских войск в условиях интенсивных боевых действий. Кроме того, статья анализирует трудовой подвиг мирных жителей, которые в условиях эвакуации и напряженной военной обстановки активно участвовали в производственном процессе.

Статья акцентирует внимание на том, что участие азербайджанцев в победе над фашизмом не ограничивалось лишь

военным вкладом, но и представляло собой целый комплекс действий, направленных на поддержку фронта и укрепление победы.

**Ключевые слова:** Вторая мировая война, Азербайджан, фронт, нефть, победа.

## BIBLIOGRAPHY

1.Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1941-1945-ci illər müharibəsinin Qələbə ilə başa çatmasının 49-cu ildönümü münasibətilə Şəhidlər Xiyabanında müharibə veteranları ilə görüşdə çıxışı - 9 may 1994-cü il. https://lib. aliyevheritage. org/az/ 4029279. html (03.03.2025)

2.Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin General C.Naxçıvanski adına İxtisaslaşdırılmış Hərbi Məktəbdə təntənəli mitinqdə çıxışı - 9 may 1994-cü il. https://lib. aliyevheritage. org/az/ 2487229.html (03.03.2025)

3.Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin faşizm üzərində Qələbənin 50 illiyinə hazırlıqla əlaqədar müharibə, əmək və silahlı qüvvələrin veteranları ilə görüşdə çıxışı - Prezident Sarayı, 7 aprel 1995-ci il https://lib.aliyevheritage. org/az/4029279.html (03.03.2025)

4.Əmrahov M. Erməni faşizmi Hitler faşizminin xidmətində. (1939-1945-ci illər) Bakı, “Turxan”,NPB, 2020, 408 səh.

5.Əliyev Q, Musayeva Ə. Bakı neftinin İkinci Dünya müharibəsində qələbəyə töhvəsi. İpək Yolu, № 2, 2022, səh.161-166

6.Mədətov Q.Ə. Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində. (Yenidən işlənmiş və təkmilləşdirilmiş nəşri). Bakı: "Turxan" NPB, 2018. -544 s. (32 s. ill.)

7.Moskvada MDB Dövlət Başçıları Şurasının iclasında İlham Əliyevin nitqi. https://president.az/az/articles/view/67159 (03.03.2025)

8.Sadıqlı F. (2015), Bakı nefti olmasaydı... Azərbaycan qəzeti, 22 aprel. http://www.anl. az/down/meqale/ azerbaycan/2015/aprel/ 431835.htm (03.03.2025)

9."Şərq-Qərb enerji dəhlizi reallıqdır" mövzusunda beynəlxalq konfransda Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi - Vaşinqton, 25 fevral 2003-cü il. https://lib.aliyev-heritage. org/az/4312817.html (03.03.2025)

10.Абасов М. Баку в годы Великой отечественной войны. Баку, 1967.

11.Гусейнова И., Алиев Н. Азербайджан и Кавказско-Каспийский регион в период Второй мировой войны (1939-1945). Баку: «Афполиграф», 2019, - 230с.

12.Гусейнова И. История Кавказских народов Баку, Elm və Təhsil,2019,1248 с.

13.Гусейнова И. Историческая энциклопедия Кавказа. Баку, «Чышыоглу», 2010,956 стр.

14.Ибрагимова Х. «Роль Бакинской нефти в победе над фашисткой Германией и отношение руководства СССР к Азербайджану двойным стандартом (1941-1945). Том 30 (69) № 3 Вчені записки ТНУ імені В.І. Вернадського. Серія: Історичні науки. 2019

15.Переписка Председателя СМ СССР с президентом США и премьер-министром Великобритании во время Великой отечественной войны 1941-1945 гг. РГВИА.Т/м1957, С.

16.Султанов С. Нефть. — Баку, 2000 https://sultanov. azeriland. com/books/oil/book.php (03.03.2025)

17.https://1905.az/ru/%d0%b2%d0%ba%d0%bb%d0%b0%d0%b4%d0%b0%d0%b7%d0%b5%d1%80%d0%b1%d0%b0%d0%b9%d0%b4%d0%b6%d0%b0%d0%bd%d0%b0-%d0%b2 % d0 % bf%d0%be%d0%b1%d0%b5%d0%b4%d1%83-%d0% b2-%d0% b2% d0%b5% d0%b b%d0% b8%d0% ba%d0% be %d0%b9/ (03.03.2025)

18.https://report.az/analitika/qehreman-seherler-hansilar-ola-biler (03.03.2025)

19.https://1news.az/news/20210508042811990-Odna-na-vsekh-V-Azerbaidzhane-otmechayut-Den-Pobedy-nad-fashizmom (03.03.2025)

**GÜLNARƏ ƏLİYEVA***

# İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ DÖYÜŞ SALNAMƏSİ YAZAN AZƏRBAYCAN MİLLİ DİVİZİYALARI

## XÜLASƏ

İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqı böyük əzmlə faşist işğalçılarına qarşı mübarizəyə qatılmış, müharibənin müxtəlif cəbhələrində azərbaycanlı hərbçilər və döyüşçülər fəal iştirak etmişlər. Bu məqalə, Azərbaycanın İkinci Dünya müharibəsində iştirakını, xüsusən də milli diviziyalarin yaradılmasını, hərbi-təşkili işin qurulması, milli kadrların yetişməsi, azərbaycanlıların döyüş keyfiyyətinin üzə çıxarılmasını, azərbaycanlı əsgər və zabitlərin bu müharibədə qələbənin qazanılması uğrunda göstərdikləri şücaət və qəhrəmanlıq fəaliyyətini əhatə edir. Məqalədə Sovet Ordusu tərkibində yaradılan milli diviziyaların müharibənin başlanğıcında, müharibə dönəmindəki apardığı döyüş və əməliyyatları, müharibənin dəyişən mənzərəsi fonunda bu milli diviziyaların qələbənin qazanılmasına verdiyi töhfələr təqdim olunur.

**Açar sözlər**: Müharibə, hərbi-təşkili iş, milli diviziyalar.

**Giriş.** XX əsrin ən qanlı faciələrindən biri olan İkinci Dünya müharibəsi, milyonlarla insanın həyatına son qoymuş, xalqların taleyinə dərin izlər buraxmışdır. Bu müharibə, sadəcə hərbi döyüşlərlə, silahların səsləri ilə yadda qalmamış, həm də insanlığın və xalqların mədəniyyətini, sosial strukturunu və gələcəyini əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Milyonlarla insanın həyatını itirməsi, şəhərlərin dağıdılması, iqtisadi və sosial təlatümlər bunlar yalnız müharibənin gözlə görülən nəticələri idi. Lakin bu müharibə həm də xalqların öz milli kimliklərini

* Müdafiə Nazirliyi Milli Müdafiə Universiteti, Hərbi Elmi-Tədqiqat İnstitutu.

tapmaları, vətənlərini müdafiə etmək uğrunda apardıqları mübarizə ilə də yadda qaldı. Azərbaycan xalqı da bu böyük faciənin içərisində həm Sovet İttifaqının bir parçası, həm də öz milli kimliyi uğrunda mübarizədə xüsusi rol oynamışdır.

Azərbaycanlıların İkinci Dünya müharibəsində iştirakı, yalnız Sovet Ordusunun tərkibində vuruşmaqla məhdudlaşmamış, milli diviziyalarda, partizan və müqavimət hərəkatlarında mübarizə aparmaqla davam etmişdir. Müharibə illərində Azərbaycanlı döyüşçülər, həm Sovet ordusunun sıralarında, həm də xalq arasında öz milli kimliyini qoruyub saxlamaq və öz hüquqlarını müdafiə etmək üçün mübarizə aparmışdır. Eyni zamanda Azərbaycanlı döyüşcülərin başqa cəbhələrdə də mübarizələrə qatılması, milli diviziyalar və partizan dəstələrində öz mübarizə əzmini göstərməsi xüsusi qeyd edilməlidir.

İkinci Dünya Müharibəsində döyüşlərdə iştirak edən Azərbaycanlılar yalnız vuruşlarda iştirak etməklə deyil, həm də döyüşlərə psixoloji, ideoloji və mənəvi dəstək verərək, hərbi fəaliyyətin müxtəlif sahələrində mübarizə aparmışlar. Sovet ordusu sıralarında vuruşan azərbaycanlıların çoxu Ukrayna, Belarusiya, Baltikyanı ölkələrdə, Qafqaz və Şərqi Avropada milli diviziyalarda, partizan və müqavimət hərəkatlarında döyüşlərə qatılmışdır. İninci Dünya Müharibəsindən yarım əsrdən çox vaxt keçsə də, bu günə qədər Azərbaycanlı döyüşçülərin böyük çətinliklə qazanılan bu qələbədə fəaliyyəti tam araşdırılmamışdır. Bu baxımdan həmin dövrdə azərbaycanlıların üzləşdiyi çətinlikləri və qəhrəmanlıqları təhlil etmək çox vacibdir.

Bu məqalənin məqsədi, azərbaycanlıların İkinci Dünya müharibəsindəki fəaliyyətlərini kompleks şəkildə araşdırmaq, onların milli diviziyalarda fəaliyyətini tarixi mənbələrə əsaslanaraq təqdim etməkdir. Müharibə zamanı milli kimliyin qorunması, mübarizə əzmi, vətənə olan sevgi və milli şüurun formalaşması, həm də müharibənin azərbaycanlıların gələcəkdəki sosial və siyasi həyatına təsiri nəzərə alınaraq, bu mövzu həm hərbi tarix, həm də siyasi və mədəni baxımdan əhəmiyyət daşıyır. Azərbaycanlıların müharibəyə verdiyi töhfələr, həmçinin onların

böyük qələbə üçün göstərdikləri əzm və fədakarlıq, indiki nəsil üçün mühüm bir dərs təşkil edir.

Metodoloji olaraq, işdə tarixi mənbələrin təhlili, elmi tədqiqatların müqayisəsi və arxiv sənədlərinə əsaslanan faktların ümumiləşdirilməsi əsas götürülmüşdür. Mənbələr arasında sovet və qərb tarixçilərinin əsərləri, döyüş iştirakçılarının xatirələri, arxiv sənədləri və rəsmi hesabatlar istifadə olunmuşdur. Bununla yanaşı, müharibə dövründə fəaliyyət göstərən müxtəlif milli birliklər, partizan dəstələri və müstəqil döyüşçülərin rolu, eləcə də onların qarşılaşdığı çətinliklər və uğurlar, ətraflı şəkildə araşdırılmışdır. Bu yanaşma, müharibə tarixində azərbaycanlıların rolunu tam şəkildə anlamağa və onların göstərdikləri qəhrəmanlığı təhlil etməyə imkan verir.

Beləliklə, bu məqalə Azərbaycan xalqının İkinci Dünya müharibəsindəki əvəzsiz xidmətlərini, fədakarlığını həm Sovet İttifaqı tərkibində, həm də müstəqil Azərbaycan üçün daşıdığı böyük tarixi əhəmiyyəti araşdırmaq məqsədini daşıyır.

**Azərbaycanlıların Sovet Ordusundakı milli diviziyaları.** İkinci Dünya müharibəsində Sovet Ordusunda döyüşən Azərbaycanlıların iştirakı, əsasən, milli diviziyalarda həyata keçirilmişdir. Sovet ordusunun müxtəlif cəbhələrində döyüşən bu diviziyalar həm döyüş bacarıqları, həm də milli tərkibləri ilə diqqət çəkmişdir. Hər bir diviziya, müharibənin müxtəlif mərhələlərində öz qəhrəmanlıq nümunələrini ortaya qoymuş və Sovet İttifaqı ilə yanaşı, Azərbaycanın şərəfini də qorumuşdur. Azərbaycanlı çağırışçı və könüllülərindən formalaşdırılmış 77-ci dağ-atıcı diviziyası, 223-cü Azərbaycan milli diviziyası, 416-cı Taqanroq milli diviziyası, 336-cı milli atıcı diviziyası və 402-ci milli atıcı diviziyası döyüşlərdə misilsiz igidlik və qəhrəmanlıq nümayiş etdirərək həm özlərinin həm də Azərbaycanın adını tarixin səhifələrinə qızıl hərflərlə həkk etdirmişlər.

**77-ci Dağ-Atıcı Diviziya.** 77-ci dağ-atıcı diviziyası 1930-cu illərin sonunda yaradılmış və müharibənin başlanğıcında, əsasən, azərbaycanlı döyüşçülərdən təşkil olunmuşdur. Əsası Azərbaycan Xalq Cümhuriyyətinin süquta yetməsindən sonra qoyulmuş

bu diviziya 1938-ci ilə kimi milli tərkibini qoruyub saxlaya bilmişdi. Həmin ildən Sovet hökümətinin qərarı ilə bu diviziyanın milli tərkibi dəyişdirilərək coxmillətli birləşməyə çevrildi və S. Orconikidze adına 77-ci atıcı diviziya adlandırıldı. Artıq ikincui Dünya Müharibəsinin başlanması ilə milli diviziyaların təşkilat məsələsi ortaya qoyulduqda 77-ci diviziyanın şəxsi heyətinin tərkibində Azərbaycanlı döyüşçülərin sayı artırıldı. Bu diviziyanın cəbhə yolu İrandan başlamışdı. Müharibənin ilk günlərindən İran ərzisində geniş fəaliyyətlərə başlamış alman ordusu SSRİ-nın cənudunda bir təhlükə mənbəyi yaratmışdılar. Bu baxımdan Sovet dövləti İrana hərbi qüvvələr salmaqla yaranan bu təhlükəyə qarşı bir müdafiə zolağı yaratmaq qərarına gəldilər. Bu məqsədlə 1921-ci il fevralın 26-da Moskvada bağlanan müqavilə əsas götüruldü ki, bu sazişə əsasən İran ərazisindən öz təhlükəsizliyinə təhdid hiss etdiyi təqdirdə ərazi bütövlüyünə toxunmamaq şərtilə ora öz qoşunlarını yeritmək səlahiyyətinə malikdir. 77-ci diviziya 31 avqust 1941-ci il tarixli 44-cü ordu komandanlığının verdiyi əmrə əsasən İran Azərbaycanı ərazisində Gilan, Rəşt və Pəhləvi ətrafında mövqelər tutaraq 24-cü süvari diviziyası ilə bərabər Sovet qoşunlarına qarşı göstərilən müqavimətin qırılmasında iştirak etmişdir. [12, s. 500]

Qısa zamandan sonra bu diviziya İran ərazisindən geri çağırılaraq Krim ətrafında yaranmış mürəkkəb vəziyyətlə bağlı ora göndərildi. Almanların Qafqaza doğru hücum planları reallaşmadığından onlar Krım ətrafını ələ keçirməklə burada möhkəmlənmək və sonra da Qara dəniz boyunca Cənubi Qafqaza doğru irəliləmək niyyətində idilər. Məhz bu baxımdan Qara dəniz donanması ilə birlikdə Zaqafqaziya cəbhə qoşunları birgə əməliyyat keçirərək Kerç yarımadasını nəzarət altında saxlamalı idilər. Kerçin tutulması Sevastopol ətrafında olan alman qüvvələrinin diqqətini cəlb etməklə şəhərin vəziyyətini yüngülləşdirmək məqsədini daşıyırdı. Bununla bərabər Krımın azad edilməsi üçün əlverişli platsdarm yaradıla bilərdi.[6, s.163]

77-ci diviziyanın 105-ci alayı 1941-ci il dekabr ayını 29-da desant dəstəsinə daxil edilmiş digər alaylarla birlikdə Ak-Monay

ətrafında mövqe tutdu. Bu əməliyyatın həyata keçirilməsi elə sürətlə oldu ki, onun qarşısının alınmasında almanlar çətinlik çəkdilər. Bununla da, Ak-Monay ətrafında mövqelərin ələ keçirilməsi hücumun genişləndirilməsi üçün əlverişli zəmin yaratdı. Nəticə etibarilə dekabrın 30-da alnman qoşunlarının Kerçdən çıxarılması mümkün oldu. Sonrakı gün isə Feodosiya almanlardan tam təmizləndi. [4, s. 292]

Bu vuruşların gedişində azərbaycanlı döyüşçü Çingiz Mənsurov öz igidliyi və qorxmazlığı ilə döyüşçü yoldaşlarının dərin hörmətini qazanmışdı. Toplardan açdığı sərrast atəşlər hətta düşmənlə apardığı əlbəyaxa döyüşlər onun istedadının əməli ifadəsinə çevrildi. Ən çətin şəraitdə belə soyuqqanlıq nümayiş etdirən leytenant Ç. Mənsurov həm də öz döyüşçü yoldaşlarına nümunə olmağı bacardı. Bununla yanaşı digər Azərbaycanlı döyüşçülər – Ə. Əliyev, Y. Cavadov, E. Ələsgərov həmçinin onlarca və yüzlərcə başqaları da igidlik və qorxmazlıqları ilə Kerçin və Feodosiyanın azad olunmasında öz xidmətlərini göstərmişlər. [12, s. 503]

51-ci ordunun tərkibinə verilən 77-ci diviziya 1942-ci il fevral ayında Ak-Monay ətrafında möhkəmləndirici əməliyyatın aparılması əmrini alaraq dislokasiya olundu. Bu əməliyyatda diviziya çətin hava şəraitinə baxmayaraq mövqelərini ciddi-cəhdlə qoruyan alman qoşunlarının müqavimətini qırdılar. Diviziya şaxtalı havada buz üzərində hərəkət edərək təyin edilmiş vaxtda Ak-Monay ətrafındakı mövqelərə çıxaraq müdafiə zolağı yarada bildi. Lakin fevralda aparılan döyüşlər bununla bitmədi. Alman ordusunun tərkibində olan 18-ci rumın diviziyasının nəzarəti altında olan Cantera, Tulumçuq, Kiet məntəqələrinin azad edilməsi əmrini alan diviziya təşkil edilmiş düzgün döyüş, seçilmiş əlverişli mövqe, komandir heyətinin təşkilatçılıq qabiliyyəti və döyüşçülərin göstərdikləri əzm və iradə sayəsində bu tapşırığın da öhdəsindən qələbə ilə gəldilər. [6, s172]

Bununla delə, almanlar yeni qüvvələr cəlb etməklə bölgədəki mövqelərini mökkəmləndirdilər və qüvvə üstünlüyü yaratdılar. Ona görə də Kerç yarımadasında, 77-ci diviziyanın müdafiə

olunduğu ərazidə sovet qoşunları üçün ağır vəziyyət yarandı. Belə vəziyyətdə fəal döyüşlərin keçirilməsi qeyri-mümkün olduğundan 77-ci diviziya yalnız müdafiədə dayanmaq və öz mövqelərini qorumaq məcburiyyətində qaldı.

Krımın alınması üçün böyük sürətlərlə müxtəlif mövqelərdə hücumlarını davam etdirən alman qoşunlarının Krasnodarı ələ keçirməsi Novorossiysk şəhərinin vəziyyətini ağırlaşdırdı. Bu baxımdan Novorossiysk ətrafında güclü müdafiə zolağı yaratmaqla almanların bu şəhərə doğru irəliləməsinin qarşısını almaq üçün şəhər ətrafına əlavə qüvvələr dislokasiya edildi. 77-ci diviziya da bu müdafiəyə qatılmaq barədə əmr aldı. Ona görə də 1942-ci ilin avqustunda Vladimirovka, Jeltobryux, Yuxarı Bakanskaya, Krasho-Medvedskaya rayonlarına çatan diviziya avqust ayının 16-da Babiç, Şapsuqskaya, Neberdjayevskaya, Yuxarı Bakanskaya, Krasno-Medvedskaya məntəqələri boyunca 80 km cəbhə boyu müdafiıyə keçdilər. Verilmiş tapşırığa əsasən diviziya tərəfindən alman qoşunlarının şimaldan və şimali-şərqdən Novorossiyskə girməsinin qarşısı alınmalı idi. Çox gərgin aparılan bu döyüşlərdə vaxtaşırı alman qüvvələrinin və diviziyanın hücum və mövqe dəyişmələri ilə keçirdi. Avqustun 21-dən 77-ci diviziya və qüvvə üstünlüyü olan almanlar arasında ağır zərbə endirişləri ilə döyüşlər aparıldı, xüsusən də 204.3 yüksəkliyi ətrafında gedən döyüşlər həmin yüksəkliyin təkrar-təkrar bir əldən başqasına kecməsi ilə nəticələnirdi. Almanlar döyüşə yeni qüvvələr cəlb etməklə və tanklarla himayə oluna iki piyada alayını 77-ci diviziyanın mövqelərinə gətirməklə Neberdjayevski və Bakansk məntəqələrini ələ keçirsə də qısa müddətli fasilədən sonra bu məntəqələr uğrunda döyüşlər yenidə qızışdı və aparılan gərgin döyüşlərin nətıcəsi olaraq diviziya tərəfindən həmin mövqelər qoruna bildi. [12, s. 507]

1942-1943 cu illər arasında mütəmadi aparılan ağır döyüşlər nəticəsində 77-ci diviziya böyük itkilərə məruz qalır və 58-ci ordu komandanlığının 16 aprel 1943-cü il tarixli əmrinə əsasən diviziya Petrovsk stansiyasına dislokasiya edilir. Burada diviziyanın şəxsi heyəti tam kompleksləşdirilməli həm də Taqanroq

buxtasının müdafiəsini təşkil etməli idi. Diviziyanın kəşfiyyat bacarıqları da mükəmməlləşdirildi. 1943-cü il avqust ayının 30-da 58-ci ordu qərargahının əmrinə əsasən diviziyanın tərkibindən 44 nəfərlik bir kəşfiyyat qrupu təşkil edilərək Taqanroq şəhərinə atıldı. Onlar qarşıya qoyulan tapşırığa yerinə yetirərək geri çəkilməkdə olan almanların yolunu kəsməyi və geri qayıdarkən 7 alman hərbçisini əsir alaraq gətirməyə müvəffəq oldular. Daha sonra diviziya müdafiə mövqelərin təhfil verərək yeni mövqelərə yola düşdü. Süntyabr ayı boyunca diviziya döyüşlər aparmaq şərtilə Rovenski, Pavlovka, Novo-İqnatyevka, Yeqorovka, Raskoşnoye, Blyumental istiqamətində 240 km-lik marş qət edərək cəbhə xəttinə çıxdı. Burada Cənub Cəbhəsinin 44-cü ordusunun 63-cü atıcı korpusunun tərkibinə verilərək Neydel rayonuna çıxarıldı və yenidən ağır və gərgin döyüşlərə qatılaraq düşmənin möhkəmləndirilmiş müdafiə xəttinin yarmağa müvəffəq oldu. Nəticə etibarilə aparılan bu döyüşlərdə Neydolf, Viçnevsk, Novolyubimovka məntəqələri nəzarətə alındı. [7, s. 224]

1943-1944-cü ilin yanvar ayına qədər yenidən ağır, çətin döyüşlərə qatılan diviziya böyük hərbi uğurlarla dolu olan bir döyüş yolu keçdi. 77-ci diviziya Dnepr çayının sol sahili daxil olmaqla Çornaya Polyana, Solomovka, Zavidovka məntəqələri uğrunda alman qruplaşmaları ilə gərgin döyüşlər apardı. Alman qüvvələrindən Dnepr cayının sol sahilinin təmizlənməsi ilə bağlı verilən tapşırıq diviziyanın şəxsi heyəti tərəfindən böyük əzm və şücaətlə yerilə yetirələrək uğurla başa çatdırıldı. Bu döyüşlərdə almanların 3 alay miqdarında piyada qüvvəsi, 9 topu, 23 tankı, xeyli sayda minaatanları həmçinin 135 hərdiçisi əsir alınmaqla birləşmənin döyüş yoluna yeni qələbə səhifəsi yazdı. 77-ci diviziya 1944-cü ilin aprelində yenidən Krım uğrunda aparılan döyüşlərə cəlb edildi. 51-ci ordunun tərkibində olan diviziya birləşmələrlə bərabər Simferopol-Sevastopol istiqamətində böyük zərbə qüvvəsi olan əməliyyatda iştirak etməli idi. Güclü artilleriya hazırlığı və aviasiya zərbələri ilə başlanan hücumun qarşısını saxlamaq mümükün olmadı. Almanların hər hansı bir manevr imkanının qarşısı alınaraq aprelin 12-də gecə mövqelər

Simferopol-Sevastopol istiqamətində sıxışdırıldı və nəticə etibarilə qüşmən qüvvələri geri çəkilmək məcburiyyətində qaldı. [12, s 519]

1944-cü il 13 aprel tarixli əmrə əsasən Simferopolun azad edilməsində göstərdiyi fədakarlıq və xidmətlərə görə 77-ci diviziyanın şəxsi heyətinə təşəkkür elan edildi. Sevastopol uğrunda aparılan döyüşlərdən sonra diviziya Qomelə dislokasiya edildi. Daha sonra diviziya Bauska uğrunda, Dobele-Kruşkalnaz rayonu, Jaqare məntəqəsi və Skoudas məntəqəsi uğrunda aparılan gərgin döyüşlərdə qələbər qazanaraq mövqeləri bütünlüklə nəzarət altına aldılar. 1945 ci ildə yanvardan başlayaraq diviziya yeni döyüşlərə qatıldılar və Dije-Qramzda-Skolini-Auderi-Şpuri-Mayauşi xətti üzrə 42.9 yüksəkliyinin ələ keçirilməsi uğrunda aparılan döyüşlərdə itkilərə məruz qalsalar da qələbə qazandılar. [7, s.263]

Müharibə başlanan gündən son qununə qədər 77-ci Dağ-Atıcı diviziyası bir çox döyüşlərdə mili tərkibdə, milli ruhu və əzmkarlığı nümayiş etdirərək bir çox qələbələrə imza atmışdır. Döyüşlərdə göstərilən əsgəri şücaətlərə görə diviziyanın şəxsi heyətindən 11237 nəfəri müxtəlif orden və medallarla təltif edilmişlər.[3, s 592]

**416-cı Azərbaycan milli diviziyası**. Şərəfli döyüş yolu keçmiş diviziyalardan biri də Azərbaycan ərazisində yaradılmıç 416-cı atıcı diviziyadır. Əsası 22 fevral 1942-ci il Zaqafqaziya hərbi dairəsinin komandanının əmrinə əsasən qoyularaq onun formalaşması respublikanın bir neçə rayonunun ərazisində aparılmışdır. İlk dövrlərdə müharibənin çətinlikləri 416-cı atıcı diviziysı üçün xas idi. Diviziyanın komplektləşdirilməsi, nizamlanması, onun bölmələrinin komandir heyəti ilə dəstləşdirilməsi, silah və texnika ilə təmin edilməsi Zaqafqaziya hərbi dairəsi komandanlığının səlahiyyətində idi.

İlk olaraq Tərlan Əliyarbəyovun komandanlığına verilən diviziya sonradan polkovnik Karakoz Mark Timofeyeviçin komandanlığına keçirdilir və diviziya ilk döyüşlərinə də onun komandanlığı altında girir. Həmin dövrlərdə 44-cü ordunun tabeliyinə verilən 416-cı atıcı diviziya ilk döyüşlərə Şimali Qafaz

üçün xüsusi əhəmiyyət kəsb edən noyabr-dekabr əməliyyatlarında qatıldı. 1942-ci il noyabr ayının 27-də 44-cü ordu qərargahından alınan tapşırığa əsasən, 416-cı diviziya da noyabr ayının 30-da döyüşlərə qoşulmalı və 9-cu atıcı korpusla qarşılıqlı əlaqədə Stalinqrad istiqamətində hücuma başlamalı və onun Kapustino məntəqəsinə doğru inkişaf etdirməli idi. [12, s. 576]

416-cı diviziyanın apardığı döyüşlərin hər saatı, hər günü onun şəxsi heyətinin döyüş təcrübəsini artırırdı. Qarşıya çıxan çətinliklərə baxmayaraq, 416-cı diviziya döyüşün ilk saatlarından irəliləmək imkanını əldən verməyərək gün ərzində 101.0 yüksəkliyini ələ keçirir. Dekabr ayının 2-də isə qarşılıqlı fəaliyyətə girdiyi 9-cu atıcı korpusu ilə bərabər Kapustino və Novo-Ledenovo məntəqələrini ələ keçirdilər. Sürətlə irəliləyən 416-cı diviziyanın hissə və bölmələri ertəsi gün dekabrın 3-də böyük qüvvəyə malik olan alman ordusunun hərbi təşəbbüsü ələ almaq cəhdlərini əzm və şücaətlə dəf edərək Sbornı məntəqəsinin ətrafına yetişdilər. Həmin gün döyüşlərin müvəffəqiyyətlə başa çatdırılması münasibəti ilə diviziya Ali Baş Komandanın qərargah nümayəndələrinin və Zaqafqaziya Cəbhə komandanı, ordu generalı Tülenevin göndərdiyi təbrik teleqramını aldılar. [4, s.337]

Daha sonra dekabrın 4-də yeni tapşırıq alan diviziya ələ keçirilmiş mövqeləri möhkəmlətmək əmrini alaraq İşşersk stansiyası uğrunda alman qüvvələri ilə bir həftə qanlı döyüşlər apardılar. Güclü əks hücumlarla 416-cı diviziyanın müqavimətini qıracağını qət edən almanların göstərdikləri cəhd nəticəsiz qaldı. Dekabr ayının 10-da 416-cı diviziyanın hissələri Nazarova, Yama, Koçetov məntəqələrini azad edərək almanları geri çəkilməyə məcbur etdilər. İki gün sonra dekabrin 12-də alman qüvvələrinin təqibini davam etdirən diviziya Bezrukino və Sorokino məntəqələrini də ələ keçirdilər.[2, s.114]

1942-ci ilin dekabrında polkovnik Sizranovun komandanlığı altına verilən 416-cı atici diviziya 44-cü ordunun digər birləşmə və hissələri ilə yenidən ağır döyüşlərə qatilaraq cəbhə boyu alman qoşunlarının üzərinə güclü hücumlara başladılar. Bu ümumi hücumda qarşıya qoyulan məqsəd alman qoşunlarının müqavi-

mətini qirmaqla hərbi təşəbbüsü ələ keçirmək və irəli hərəkət etmək idi. Digər hissə və birləşmələrlə bərabər diviziya döyüşlərin yeni dövrəsinin ağırlığını öz üzərinə götürməkdən çəkinmədi, nəticə etibarilə 1943-cü ilin yanvarın əvvələrinə qədər davamlı hücumlar edərək Azov dənizinin sahillərinə qədər 1000 km-lik bir məsafə qət edərək 135.2 yüksəkliyini alaraq alman qüvvələrini qərbə doğru geri çəkilməyə məcbur etdilər. Keçirilən ağır döyüşlərdə 416-cı diviziyanın tərkibi böyük itkilərə məruz qalmışdılar. Buna baxmayaraq, diviziyanın şəxsi heyəti bütün çətinlikləri dəf edərək Azov dənizi sahillərində həmçinin müdafiə mövqelərində öz döyüş vəzifələrini yerinə yetirməkdə davam edirdi. Azərbaycan respublikasının bu diviziyaya göstərdiyi qayğı şəxsi heyətə göndərilən hədiyyələrdə öz təzahürünü tapırdı. Bu baxımdan ordu komandanının 1943-cü ildə Azərbaycan KP.MK-ə göndərdiyi məktubunda göstərilən qayğıya görə öz təşəkkürünü bildirməklə 416-cı diviziyanın 44-cü ordunun ən yaxşı birləşməlrindən biri olduğunu qeyd etmişdir. [12, s.580]

Qarşıda duran əsas vəzifə almanların Taqanroq ətrafında olan qruplaşmasının məhv edilərək şəhərin azad edilməsi məsələsi idi. Almanların Azov dənizinə çıxışının qarşısını almaqla digər birlik və birləşmələrə Taqanroqa doğru irəliləmək üçün əlverişli şərait yaratmaq diviziyanın üzərinə düşən əsas vəzifə idi. Bunun üçün isə diviziya heyəti almanların olduğu Sambek müdafiə zolağını keşməli idilər. Almanlar tərəfindən çox ciddi istehkam və təchizat işləri aparılaraq ən möhkəm müdafiə zolaqlarından birinə çevrilən bu zolağa hətta qış ayları ərzində dəfələrlə edilən hücuma baxmayaraq onu yarmaq mümükün olmurdu. Qeyd etmək lazımdır ki, müdafiə zolağının sərt hündürlükdə yerləşməsi də onun xüsusi müdafiə imkanlarını genişləndirirdi həmçinin bu zolaqda almanlar tərəfindən 10-11 müdafiə xətti qurulmuşdu ki, onların da hər birini dəf etmək böyük qüvvə və bacarıq tələb edirdi.

Diviziyanın döyüş tarixində əldə etdiyi ən böyük uğurlardan biri də, məhz belə möhkəm müdafiə zolağının dəf edilməsi idi. Yüksək hazırlıqlı döyüçlərin keçirilməsi nəticəsində nəhayət ki, diviziya bu çətin əməliyyatı müvəffəqiyyətlə yerinə yetirdi.

Döyüşlər əsnasında diviziya Boqaçevska, Krasnaya Polyana, Pervomaysk, Anastasyevka, Vasilyevka və bir sıra məntəqələri alman işğalçılarından təmizlədi. Həmin döyüşün nə qədər gərgin keçdiyini topçu Şabanovun nümunəsində görmək mümükündür. Cəsur topçü öz yoldaşlarını itirsə də, topu təkbaşına hərəkətə gətirərək mərmiləri özü yükləyib özü nişan alaraq özü atəş açırdı. Şabanov təkbaşına topundan 30 mərmi atəşi açaraq əks-hücuma keçmək istəyən alman qüvvələrini məhv etməklə öz adını tarixə həkk edə bildi. [12, s.583]

416-cı diviziyanın qarşısına Taqanroqa girmək vəzifəsi əsas məqsəd kimi qoyulmasa da lakin tapşırığın yerinə yetirilməsi üşün bu qaçılmaz bir şərt oldu. Avqust ayında almanların bütün cəhdlərinə baxmayaraq onlar öz mövqelərini qoruyub saxlamağa müvəffəq olmadılar və 416-cı diviziya güclü zərbələr endirərək Rodionovski, Maryevka, Nogin, Aleynikov məntəqələrini düşmən qüvvələrindən təmizlədi və elə həmin gün diviziyanın bəzi bölmələri, 130-cu atıcı diviziyası və digər qüvvələr Taqanroqa daxil oldular. Şəhəri tərk etmək məcburiyyətində qalan almanlar qərb istiqamətində geri çəkilmək istəyərkən 416-cı diviziyanın aramsız atəşləri nəticəsində böyük sayda itkilər verərək məhv edildilər. Məhz Taqanroq şəhərinin azad edilməsində göstərdikləri şücaət və qəhrəmanlıqlarına görə diviziyaya Ali Baş Komandanın əmri ilə Taqanroq adı verildi və tarixə Taqanroq Diviziyası adı ilə həkk olundu. [4, s.338]

Sonrakı illərdə diviziyanın keçdiyi döyüş yolunda cənub-qərb istiqamətində Mariupol ilə Stalino şəhərlərinin, Dnepryanı ərazilərin, Nikolayevsk şəhərinin, Odessa şəhərinin azad edilməsi kimi qəhrəmanlıq salnaməsinə imza atdılar. Qəhrəman döyüş yolu keçmiş 416-cı diviziyanın 1388 azərbaycanlı döyüşçüsü ölkənin müxtəlif orden və medallarına layiq görülmüş, onlardan 616 nəfəri sıravi, 457 nəfəri serjant və 315 nəfəri zabit rütbəsində idi. Verilən mükafatlar arasında 17 “Qirmızı Bayraq” ordeni, 5 “Aleksandr Nevski” ordeni, 12 birinci dərəcəli “Böyük Vətən Müharibəsi” ordeni, 157 “Qirmızı Ulduz” ordeni, 8 üçüncü dərəcəli “Şöhrət” ordeni, 666 “İgidliyə görə” medalı, 438 “Hərbi

xidmətlərinə görə" medalı və 11 Sovet İttifaqı Qəhrəmanı ulduzu var idi. [3, s.643]

**223-cü Azərbaycan milli diviziyası.** Şərəfli və qəhrəman döyüş yolu keşmiş milli diviziyalarımızdan biri də 223-cü atıcı diviziyasıdır. Onun yüksək döyüş qüvvəsinə malik bir hərbi vahidə çevrilməsi Azərbaycan xalqı ilə bərabər Azərbaycan rəhbərliyinin alman faşizminə qarşı mübarizə yolunda əldə etdiyi konkret nəticələrdən biri idi. 18 oktyabr 1942-ci il tarixli Ali Baş Komandanın əmri ilə Gürçüstanın Surami məntəqəsində yerləşən 168-ci ehtiyat atıcı alayının bazasında 223-cü milli atıcı diviziyanın təşkili başlanıldı.[12, s.591]

Təşkil olunduğu dövrdən respublika daxilində 223-cü diviziyaya yardım və qayğının gücləndirilməsi məqsədilə Azərbaycan KP MK-nın qəbul etdiyi qərara əsasən bir sıra məsul vəzifəli şəxsləri o cümlədən Xalq Komissarları Şurasının sədr müavini Əzizbəyov, Azərbaycan KP MK katibləri Məmmədov, Zamanov, Bakı şəhəri partiya komitəsinin katibi Hacıyev və Quba rayon partiya komitəsinin katibi Əliyev təhkim edildi. Azərbaycan hökümətinin dəstəyi və qayğısı altında olan 223-cü milli diviziya 1942-ci ilin sonunda ilk döyüşlərə qatıldığı məntəqədən müxtəlif döyüşlərdə iştirak edərək 1945-ci ilin aprel ayına qədər ümumilikdə 3600 km-lik bir qələbə yolu qət etmişdilər. Kecdiyi döyüş yolunda diviziya böyüklü-kiçikli 50-yə qədər cayı adlayaraq Böyük Vətən Müharibəsinin tarixində özünəməxsus yer tutdu.[9, s.128]

223-cü milli atıcı diviziyanın hissə və bölmələrinin yaxından iştirak etdiyi döyüşlərə Qafqazın azad edilməsi, 1943-cü ildə Dones çayı ətrafında alman müdafiəsinin yarılması, Dnepr çayının keçilməsi, Cənubi Buqa royonu ətrafında alman qüvvələrinin darmadağın edilməsi, Yassa-Kişinyov əməliyyatı, Budapeştin azad edilməsi daxildir. 1944-cü ilin 13 oktyabrında Morova çayının sağ sahilinə çıxan 223-cü atıcı diviziya Çupriya, Paraçin, Yaqobina məntəqələrini alaraq Belqradı nəzarət altında saxlayan düşmən qüvvələrinə güclü cinah zərbələri endirərək almanları geri cəkilməyə məcbur etdilər. [4, s.304-310]

Yuqoslaviyanın azad edilməsi üçün böyük əhəmiyyət daşıyan paytaxt Belqradın azad edilməsi böyük əhəmiyyət daşıyırdı. Bu tapşırığı qələbə ilə başa vuran diviziyaya Ali Baş komandanın əmri ilə “Belqrad diviziyası” adı verilməklə şəxsi heyətə təşəkkür elan edildi. 1945-ci ildə aparılan döyüşlərə SSRİ ərazisində Mozdok, Xarkov, Dneproderjinsk, Kirovqrad, Benderi, Kişinyovun azad edilməsi daxil idi. 1945-ci il mart-aprel aylarında diviziya Vyana ətrafında yerləşən məntəqələrin azad edilməsi uğrunda döyüşlərdə iştirak etmişdir. Vyana yaxınlığında yerləşən Korneyburq və Floridstorf şəhərlərinin alman işğalçılarından azad edilərək nəzarət altına alınmasına görə 223-cü diviziyaya Ali Baş Komandan tərəfindən təşəkkür elan edildi. Apardıqları döyüşlərdə göstərilən qəhrəmanlıqlara görə diviziyanın alayları Suvorov, Kutuzov, B. Xmelnitski ordenləri ilə təltif edildilər. Elə 1945-ci ildə Avstriyanın ərazisində diviziya Böyük Vətən Müharibəsində İştirakını qələbə ilə başa vurdu. [12, s. 617]

**Nəticə.** İkinci Dünya müharibəsi azərbaycanlılar üçün təkcə cəbhədə vuruşmaqla deyil, həm də işğal olunmuş ərazilərdə göstərdikləri iradə, qəhrəmanlıq və şücaətlə yadda qalmışdır. Azərbaycanlılar bu müharibədə müxtəlif formalarda, SSRİ ordusunun tərkibində döyüşən milli diviziyalarda, partizan və müqavimət hərəkatlarında fəal iştirak edərək döyüşmüşlər

Azərbaycan diviziyaları müharibənin ən qanlı döyüşlərində iştirak edərək xalqın qəhrəmanlıq salnaməsini yazmışlar. Partizan və müqavimət hərəkatında isə azərbaycanlıların göstərdiyi fədakarlıq və dözüm müharibənin gizli, lakin həlledici cəbhələrindən biri olmuşdur.

Məqalə boyu toxunulan məsələlər və qeyd olunan faktlar göstərir ki, azərbaycanlıların İkinci Dünya müharibəsindəki iştirakı birbaşa və dolayı yolla geniş miqyas almış, bu iştirak onların həm milli kimliyinin qorunması, həm də qlobal proseslərə təsiri baxımından mühüm olmuşdur. Bu tarixi irsin öyrənilməsi gələcək nəsillərə həm milli qürur, həm də tarixi reallıqları dərk etmək imkanı verəcəkdir.

**Гюльнара Алиева**

**РЕЗЮМЕ**

**АЗЕРБАЙДЖАНСКИЕ НАЦИОНАЛЬНЫЕ ДИВИЗИИ НАПИСАВШИЕ ЛЕТОПИСЬ СРАЖЕНИЙ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ**

В ходе Второй мировой войны азербайджанский народ с большой решительностью участвовал в борьбе с фашистскими захватчиками, а азербайджанские солдаты и бойцы принимали активное участие на различных фронтах войны. В данной статье рассматривается участие Азербайджана во Второй Мировой Войне, в частности, создание национальных дивизий, налаживание военно-организационной работы, подготовка национальных кадров, выявление боевых качеств азербайджанцев, а также храбрость и героическая деятельность азербайджанских солдат и офицеров в достижении победы в этой войне. В статье рассматриваются бои и операции национальных дивизий, созданных в составе Советской Армии в начале войны, в ходе войны, а также вклад этих национальных дивизий в победу на фоне меняющегося облика войны.

**Ключевые слова**: Война, военно-организационная работа, национальные дивизии.

**Gulnara Aliyeva**

**SUMMARY**

**AZERBAIJANI NATIONAL DIVISIONS THAT WROTE THE BATTLE CHRONICLE IN WORLD WAR II**

During the Second World War II, the Azerbaijani people joined the struggle against the fascist invaders with great determination and Azerbaijani soldiers and fighters actively participated in various fronts of the war. This article covers Azerbaijan`s participation in World War II, in particular the creation of national divisions, the establishment of military-organizational work, the training of national cadres, the revealing of the fighting qualities of Azerbaijanis, and the bravery and heroic activities of Azerbaijani soldiers and officers in achieving

victory in this war. The article presents the battles and operations conducted by the national divisions created within the Soviet Army at the beginning of the war, during the war, and the contributions made by these national divisions to victory against the backdrop of the changing landscape of the war.

**Keywords:** War, military-organizational work, national divisions.

## ƏDƏBİYYAT

1.AMEA A. A. Bakıxanov adına Tarix İnstitutu Azərbaycan 1941-1945- ci illər müharibəsində (məqalələr toplusu) / AMEA. – Bakı: Elm – 2008. – 113 s.

2.Боков Ф. Е. Бессмертный подвиг сынов Азербайджана / Ф.Е. Боков. – Баку: Гянджлик – 1990. – 221 с.

Бабаков А. А, Агеев. Т. Н., Борисов. Н. В. Кавалеры Ордена Славы Трех Степеней / А. Бабаков., Т. Агеев., Н. Борисов. – Москва: Воениздат – 2000 - 735 с.

3.Əmrahov M. Azərbaycan SSR İkinci Dünya Müharibəsində (1939-!945- ci illər) / M. Əmrahov. – Bakı: “İdeal-Print” MMC – 2021 – 969 s.

4.İsmayılov S. Azərbaycanlıların müharibə dövründə mübarizə yolu / S. İsmayılov.- Bakı: Azərbaycan Universiteti.- 2007.- 211s.

5.Горшков С. Г. На южном приморском фланге (осень1941г. – весна 1944г.) / С.Г. Горшков. – Москва: Воениздат – 1989 – 286с.

6.Гречко А. А. Битва за Кавказ / А. А. Гречко. – Москва: Воениздат – 1967. – 424 с.

7.Məmmədov H. Azərbaycanlıların İkinci Dünya Müharibəsində iştirakı / H. Məmmədov.- Bakı: Elm və Təhsil Nəşriyyatı. -1998. - 314 s.

8.Мехтиев Б. М. 223-я Краснознаменная Белградская / Б. М. Мехтиев. - Баку: Азернешр – 1983 – 286 с.

9.Nəzirli Ş. Azərbaycan generalları / Ş. Nəzirli. - Bakı: Gənclik – 1991. – 208 s.

10.Rzayev, B. Azərbaycanın dünya müharibəsindəki rolu / V. Rzaev. - Bakı: Ziya Nəşriyyatı.- 2002.- 267 s.

11.Süleymanov. M. S. Azərbaycan Ordusu Tarixi IV cild / M. S. Süleymanov - Bakı: Maarif - 2018 – 801s.

**RÖVŞƏN HƏTƏMOV***

# İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ QAFQAZ UĞRUNDA DÖYÜŞLƏRİN ROLU

## XÜLASƏ

Almaniyanın hərbi-siyasi ekspansiyasında duru yanacaq amili artıq müharibənin ilk günlərindən etibarən istər ölkənin iqtisadi həyatı üçün, istərsə də vermaxtın tələbatının təmin edilməsi üçün böyük əhəmiyyət kəsb etməyə başlamışdı. 1942-ci ilin yayında alman qoşunlarının hücum əməliyyatlarının əsas məqsədi Qafqazın işğalı idi. Stalinqrad ətrafında məğlubiyyətə uğrayan və Şimalı Qafqazdan geri çəkilən Almaniya 1943-cü ilin əvvəllərində neft uğrunda döyüşü uduzdu.

Məqalədə belə bir müddəa əsaslandırılır ki, 1941–1945-ci illər Almaniya–SSRİ müharibəsində Qafqaz bölgəsinin hərbi-strateji və iqtisadi əhəmiyyətinin formalaşdırılmasının əsasını təşkil edən amillər sırasında neft amili həlledici rol oynamışdır. Qeyd edilmişdir ki, alman qoşunlarının müharibənin sonrakı dövrlərində hərbi fəaliyyətinin uğurunun əsas amili onların duru yanacağa tələbatının təmin edilməsi və münasib neft yataqlarının, o cümlədən, Qafqazın neft rayonlarının ələ keçirilməsi ilə bağlı idi. Bu mənada, Almaniyanın 1942–1943-cü illərdə Qafqazda göstərdiyi hərbi fəaliyyəti, ilk növbədə, neft uğrunda müharibə idi. Hücum əməliyyatlarının ilk mərhələsində alman qoşunlarının Qafqaza sürətlə yaxınlaşmasına baxmayaraq, gözlənilənlərin əksinə olaraq, burada sovet qoşunlarının şiddətli müqaviməti ilə üzləşdi. Azərbaycanın milli diviziyalarının da tərkibinə daxil olduqları sovet ordu birlikləri alman qoşunlarına Qafqazı keçməyə imkan vermədi. Almaniyanın Qafqazda uğursuzluğu son nəticədə onun müharibədə məğlubiyyətini qacınılmaz edən amillərdən biri oldu.

**Açar sözlər:** İkinci dünya müharibəsi, Qafqaz, neft, “Blau” planı, Bakı, milli diviziyalar

---

* Bakı Dövlət Universiteti, tarix üzrə fəlsəfə doktoru, dosent.

**Giriş.** XX əsrin əvvəllərindən etibarən neft müharibədə qələbənin həlledici amillərindən birinə çevrilmişdi. “Mühərriklər müharibəsi” döyüşən tərəflərdən duru yanacaq təchizatını daim diqqətdə saxlamağa vadar edirdi. Almaniyanın Birinci Dünya müharibəsinin sonlarında Bakı neftinə doğru irəliləmək cəhdləri məhz “neft qıtlığı” ilə bağlı idi. Neft yataqlarına zamanında yetişməyən Almaniyanın siyasi-hərbi elitası tarixin verdiyi bu dərsdən lazımi nəticələr əldə etmək məcburiyyətində qaldı. İkinci Dünya müharibəsinin əsas hərbi qarşıdurma mərhələsi olan Almaniya–SSRİ müharibəsinin hərbi-strateji hədəfləri sırasında Qafqazın, xüsusilə, Bakının neft yataqlarının ələ keçirilməsi bəlkə də, həlledici rol oynamışdır. Duru yanacaq qıtlığı ilə üzləşən Almaniya müharibənin gedişini əsaslı olaraq dəyişməyə və qələbəyə nail olmaq üçün Qafqaz bölgəsini 1942-ci ilin yazında hərbi əməliyyatlarının əsas istiqaməti qismində müəyyən etməli oldu. Almaniyanın bütün hərbi və maddi resursları bu vəzifənin yerinə yetirilməsinə yönəldildi. Alman qoşunlarının Qafqaz əməliyyatı nasist rejimini lideri A.Hitlerin ölkənin hərbi elitasına özünün mahir hərbi strateqliyini sübuta yerimək üçün mükəmməl fürsət hesab edilirdi.

**Almaniyanın Qafqazın neft rayonlarını işğal etməsini zəruri edən amillər.** Almaniyanın Silahlanma üzrə naziri Albert Şpeyer müxtəlif mərhələlərdə alman hərbi strategiyasına iqtisadi mülahizələrin təsiri ilə bağlı 1945-ci ildə qalib dövlətlərin hakimlərini verdikləri suala cavabında bildirmişdi ki, SSRİ-yə qarşı müharibənin aparılması üçün tərtib olunmuş “Barbarossa” planının meydana çıxmasında neft həlledici amil olmuşdur [29]. Sovet İttifaqı üzərinə hücum planının ilkin müzakirələri dövründə Hitler Qafqazın zəngin neft mənbələrinin mütləq ələ keçirilməsinin vacibliyini qeyd edirdi. 1940-cı il iyulun 31-də Berqhofda ali hərbi komandanlıq nümayəndələri ilə görüşündə Hitler bəyan etdi ki, “bir zərbə ilə” SSRİ-nin dağıdılmasından sonra alman qoşunları Qafqazın ən zəngin və dünyanın ən məhsuldar neft mənbəyi olan Bakıya doğru irəliləməlidirlər. Bakı SSRİ-də hasil olunan neftin 80%-ni, Maykop və Qroznı isə 10%-ni verirdi. Hitlerin yalnız Bakının neft rayonunu ələ keçirilməsi üçün ayrıca əməliyyatın

keçirilməsinin vacibliyi haqqında fikri diqqətə layiqdir [2, 137-138].

1941-ci ilin martında Almaniya Ordusunun Baş Qərargahının İqtisadiyyat və silahlanma hərbi idarəsinin rəisi general Geor Tomas hərbi komandanlığa xəbərdar edərək bildirmişdi ki, neft məhsullarının ehtiyatı 1941-ci ilin oktyabrın sonlarına kimi tükənəcəkdir. Müharibənin uzanacağı halda yaranacaq neft qıtlığının qismən təmin edilməsi üçün çıxış yolu kimi o, Qafqazın neft yataqlarını hücum əməliyyatlarının ikinci ayının sonundan gec olmayaraq, ələ keçirilməsində və istismar edilməsində israr edirdi. O, qeyd edirdi ki, əgər buna nail olunmasa 1941-ci il sentyabrın 1-dən etibarən həm hərbi əməliyyatların aparılması, həm də iqtisadiyyatın sabitliyi üçün böyük təhlükələr meydana çıxacaqdır [29].

SSRİ-yə qarşı həyata keçirdiyi "Barbarossa" planı Almaniyanın neft ehtiyatlarına ciddi zərər vurdu. Müharibənin başlanması ilə Almaniya özünün və müttəfiqlərinin hücum əməliyyatlarında iştirak edən (Finlandiya, İtaliya, Macarıstan, Slovakiya, Rumıniya) 3,6 mln nəfərlik ordusunu, 600 minə qədər nəqliyyat vasitəsini, 3600 tankını və 2700-dən çox təyyarəsini neft məhsulları ilə təmin etməli idi. Almaniyanın hərbi iqtisadiyyatı yalnız blitskriq hərbi əməliyyatlarının ehtiyacını təmin etmək bacarığında olduğu üçün SSRİ-nin bir neçə həftə ərzində gözlənilən süqutu baş vermədikdə uzun müddətli müharibə şəraitində iqtisadi tükənmək təhlükəsi ilə üzləşmişdi. Təxirəsalınmaz hərbi məhsulların, ö cümlədən neft məhsullarının tədarükü sürətlə artmaqda olan tələbatı ödəyə bilmirdi. Vermaxt hissələrinin SSRİ ərazisində ələ keçirdikləri duru yanacağın tələbatı ödəmək məqsədi ilə istifadəsini çətinləşdirən əsas səbəb onun oktanlığının alman avtomobilləri üçün xeyli az olması idi. Onu yalnız xüsusi olaraq quraşdırılmış xüsusi mürəkkəb avadanlıqlarda tərkibinə benzol əlavə etməklə istifadə etmək olardı [26; 3, s.422]. Bir müddətdən sonra Almaniyanın Şərq cəbhəsində vuruşan ordularının neft ilə təchizatı son dərəcə təhlükəli hal almağa başladı. Avqustun 30-da alman ordularının baş intendantı general-mayor Eduard Vaqner bildirdi ki, 1942-ci ilin əvvəllərində neft tədarükü tükənəcəkdir və buna görə yeni neft yataqlarının ələ keçirilməsi imkanı yarandıqda dərhal bundan

yararlanmaq lazımdır [ 29].

1941-ci ilin iyulunda alman hərbi komandanlığı tərəfindən tərtib olunmuş "Qafqazdan hücum əməliyyatı planı"nda, alman qoşunlarının Şimali Qafqazdan hücuma başlayaraq Qafqaz dağ keçidini və İranın şimal-qərbini keçməklə 1942-ci ilin sentyabrında Bağdada doğru irəliləmək məqsədi ilə İran-İraq sərhədində Rəvandüz və Xanaqan aşırımlarının ələ keçirilməsi nəzərdə tutulmuşdu. Plana əsasən, 1941-ci ilin noyabrından 1942-ci ilin sentyabrına kimi keçirilməsi nəzərdə tutulan bu əməliyyatın 6 mərhələdə aparılmasının mümkünlüyü irəli sürülürdü. 1941-ci ilin noyabrından başlanacaq birinci mərhələdə alman qoşunlarının strateji yerləşdirilməsi məqsədi ilə Şimali Qafqazda ərazilərin ələ keçirilməsi, 1942-ci ilin mayın sonuna kimi isə Qafqazı keçərək hücuma keçəcək qüvvələrin cəmlənməsi ehtimal edilirdi. Qafqaza hücum iki mərhələdə 1942-ci ilin iyulunda baş verməli idi. İkinci və üçüncü mərhələlər üçün ilkin şərt 1941-ci ilin qışına kimi alman qoşunlarının Volqa çayına çıxışının təmin edilməsi olmalı idi. Dördüncü mərhələdə Araz çayına kimi Cənubi Qafqazın işğalı müəyyən edilirdi. Beşinci mərhələdə alman qoşunları İran-İraq sərhədinə hücuma keçmək məqsədi ilə Təbriz və Kirmanşah rayonunda əsas mövqeləri ələ keçirməli, Türkiyə üzərinə hücuma hazırlaşmalı idilər. 1942-ci ilin iyulun 4–6-dan 1942-ci ilin sentyabrın əvvəllərinə kimi müəyyən edilmiş sonuncu, altıncı mərhələdə alman qoşunlarının hücumu Rəvandüz və Xanəgan aşırımlarının ələ keçirilməsi ilə yekunlaşmalı idi.

1941-ci il noyabrın 3-də fon Brauxiç ali baş komandanlıq qərargahına və vermaxtın ali komandanlığına bildirdi ki, Qafqaz neft yataqlarından ən şimalda olan Maykop və SSRİ-nin şimal bölgələri ilə cənubunu birləşdirən Stalinqrad "bu qışda nəyin bahasına olursa-olsun işğal edilməlidir" [28, s. 107].

Alman qoşunları tərəfindən Qafqazın işğal olunması təhlükəsi ilk dəfə onların 1941-ci il noyabrın 21-də SSRİ-nin cənubunda iri nəqliyyat qovşağı olan və "Qafqazın qapıları" hesab edilən Rostovu ələ keçirmələri ilə əlaqədar yaranmışdı. Həmin gün feldmarşal fon Kleystin Birinci Tank ordusuna daxil olan general

fon Makkenzenin 3-cü ordu korpusu Rostovu ələ keçirdi [17]. Fon Makenzen hesab edirdi ki, o bununla SSRİ-nin Qafqaz ilə əlaqələrini kəsmişdir və sovet hərbi qüdrə-tinə sarsıdıcı zərbə vurmuşdur. Onun həmin gün şəhərin alınması ilə əlaqədar verdiyi əmrdə bu fikir qeyd edilməklə yanaşı bildirilirdi ki, Rostovu əldə saxlamaqla yeni qələbələr üçün qapı açılacaqdır [28, s.107-108].

"Cənub" orduları qrupunun uğurları və xüsusilə, Rostovun ələ keçirilməsi sovet hərbi strateqlərini ölkənin neft yataqlarını daha ciddi mühafizə etmək üçün təxirə salmaz tədbirləri görməyə vadar etdi. Marşal Timoşenko Moskvada Ali müdafiə şurasında çıxışı zamanı bildirdi ki, cari dövrdə neft mühüm əhəmiyyət kəsb etdiyindən bir tərəfdən Almaniyanı daha çox neft istehlak etmək məcburiyyətində qoymaq, digər tərəfdən isə alman qoşunlarını Qafqaz hüdudlarından kənarda saxla-maq lazımdır [29]. Noyabrın 29-da sovet qoşunları düşmənin müdafiə xəttinin sol cinahında duran zəif macar qoşunlarına qarşı əks hücuma keçərək Rostovu azad etdilər [16, s.117]. Bu İkinci Dünya müharibəsində alman ordusunun ilk dəfə geri çəkilməsi halı idi. Xarkovdan ehtiyat hissələrini gətir-məklə alman qoşunları sovet qoşunlarının əks hücumunu dayandırsa da, sovet qoşunlarının əks hücumu alman qoşunları tərəfindən 1941-ci ildə Qafqazın işğal edilməsi təhlükəsini aradan qaldırdı. Alman qoşunlarının geri çəkilməsi A.Hitlerin çox ümid etdiyi kimi Qafqazın neft mənbələrini ələ keçirmək planını növbəti ilə kimi təxirə salmağa məcbur etdi.

A.Hitler "Barbarossa" planının tərtib olunması dövründə əsas götürülmüş hərbi-strateji müharibə qaydasının özünü doğrultmadığını yəqin etdi. Alman hərbi strateqi fon Klauzevitsin belə bir fundamental müharibə qaydasına görə, müharibənin gözlənilən yekunu düşmənin silahlı qüvvələrini yerində məhv etdikdən sonra iqtisadi və siyasi məqsədlərə nail olmaqdır. Hitler bu qaydadan imtina edərək 1941/1942-ci ilin qışında sovet qoşunları ilə həlledici döyüşə girmədən Qafqazın neft yataqlarını ələ keçirmək haqqında qərara gəldi. Onun bu qərarına etiraz edən generallara Hitler bəyan etdi ki, qərarı dəyişməzdir və hökmən icra edilməlidir [28, s.108-109].

1941-ci il noyabrın 19-da özünün baş məsləhətçiləri ilə görüşündə A.Hitler bəyan etdi ki, 1942-ci ildə ən birinci məqsəd Qafqazın neft yataqlarının ələ keçirilməsi olacaqdır və həmin ilin mart və ya aprel ayında başlanacaq hücum əməliyyatı zamanı alman qoşunları "Rusiyanın cənub sərhə-dinə", yəni SSRİ–İran sərhədinə kimi irəliləyəcəklər [28, s.110]. 1942-ci il yanvarın 3-də A.Hitler Yaponiyanın Berlində səfiri Osima Hiroşiyə bildirdi ki, Şərq cəbhəsinin mərkəzi hissəsində hücum əməliyyatı aparılmayacaq və hava şəraiti imkan verən kimi Qafqaza doğru hücumu bərpa edəcəkdir. O, bunun yekununda Qafqazın neft yataqlarının ələ keçirilməsi ilə yanaşı daha sonra həm də İrana və İraqa yetişməyin vacibliyini qeyd etmişdi. 1942-ci il yanvarın 18-də Hitler bu planını həmçinin "Cənub" ordular qrupuna təyin olunmuş yeni komandanı fon Boka da bildirdi [28, s.113].

Alman ordularının ali baş komandanlığındakı və Quru qoşunların ali komandanlığındakı zabitlərin bir hissəsi Qafqazın neft yataqlarının ələ keçirilməsi üçün hazırlanan hərbi kampaniyanın uğuruna şübhə ilə yanaşsalar da, fon Brauxiçin və fon Rundştedtin istefaya göndərilmələrindən sonra bunu açıq-aşkar bildirməkdən çəkinməyə məcbur oldular. Digər tərəfdən, məhdud cəbhə zolağında keçiriləcək hücum əməliyyatının uğurlu sonluğu Şərq cəbhəsində qüvvələr tarazlığını vermaxtın xeyrinə dəyişə bilərdi. General Halder də hesab edirdi ki, Almaniyanın hərbi əməliyyatları davam etdirə bilməsi üçün Qafqazın ələ keçirilməsi mühüm həyati əhəmiyyət kəsb edir. Halderə görə bir vaxtlar Sileziya Prussiya üçün hansı əhəmiyyətə malik idisə, Qafqaz da eyni əhəmiyyətə malikdir [28,s.120].

Qafqaza hücum planının hazırlanması zamanı əsas şərtlərdən biri kimi onun sürətli həyata keçirilməsi idi. Bu halda oradakı neft mədənlərinin və emal zavodlarının, habelə neft sənayesi ilə bağlı digər müəssisələrin sovet hakimiyyəti orqanları tərəfindən yararsız hala salınmasının qarşısı alına bilərdi. Dağıntıların baş verəcəyi halda onun dərhal aradan qaldırılması məqsədi ilə 1941-ci ilin martında "Qafqaz neft dəstəsi" yaradılmışdı. 1942-ci ilin əvvəlində Qafqazın neft yataqlarının ələ keçirilməsi əsas hədəf olaraq müəy-

yən edildikdən sonra həmin dəstə genişləndirilərək "Qafqazın neft briqadası" adlandırıldı. Hərbiləşdirilmiş briqadanın şəxsi heyəti 10.794 nəfər idi və onun sərəncamına 1142 ədəd nəqliyyat vasitəsi və 6 təyyarə verilmişdi. Briqada döyüş əməliyyatlarından kənarda saxlanılsa da, qoşunların ardınca dərhal Qafqaza daxil olmağa hazır vəziyyətdə dayanmalı idilər [28, s.122].

ABŞ tarixçiləri D,Qlants və D.Haus hesab edirlər ki, almanların Qafqaz hücumu həmçinin, müttəfiqləri SSRİ-yə yardım göstərmək imkanından məhrum edə bilərdi [9, s.138]. İngilis tarixçisi və jurnalisti K.Bellami də hesab edir ki, 1942-ci ilin yayında Hitlerin məqsədləri sırasında neft mənbələrinin əldə edilməsi və B.Britaniyanın Yaxın Şərqdəki mülklərini mühasirəyə almaq üçün Türkiyənin müharibəyə cəlb edilməsi ilə yanaşı SSRİ-yə müttəfiqlərin yardımının əsas yollarından birini bağlamaq da daxil idi. 1941-ci ildə SSRİ-yə lend-liz üzrə yüklərin daşınmasında "cənub dəhlizi"nin payı 3,7% idisə, 1942-ci ildə bu rəqəm 28,8%-ə, 1943-cü ildə isə 33,5%-ə çatmışdı [25, s.503-504]. Ümumilikdə, 1941-1945-ci illərdə SSRİ Qərb müttəfiqlərindən 18 mln. ton həcmində müxtəlif təyinatlı yük almışdıki, onun 23,8%-i İran körfəzi vasitəsi ilə daşımışdı [22, s. 285].

Alman tədqiqatçısı V.Tike də hesab edir ki, 1942-ci ilin yay hərbi kampaniyasının planının müəyyən edilməsində neft və Qafqaz əsas amillər idi. Lakin "cənub dəhlizi" ilə müttəfiqlərin yardımının qarşısının alınması da əsas hədəflərdən idi. "Bir zərbə ilə müttəfiqlərin İran vasitəsi ilə yardım daşınması yolunu bağlamaq lazım idi... "Edelveys" əməliyyatının gedişində neft yataqlarının ələ keçirilməsi ilə yanaşı alman komandanlığının başlıca səyləri bu materialların axınını dayandırmaq idi" [23].

**Qafqazın işğalı haqqında hərbi planın qəbul edilməsi.** 1942-ci il martın 28-də alman Quru qoşunlarının Baş Qərargahı (OKH) "Blau" planı adı ilə Qafqaza hücum planı haqqında sənədi Hitlerə təqdim etdi. SSRİ-nin cənubunda alman qoşunlarının başlıca hücum əməliyyatı planı ilk əvvəl "Ziqfrid" adlanırdı. Plan alman ordusunun Baş komandanlıq qərargahı (OKV) rəhbərliyi tərəfindən təkmilləşdirildikdən sonra aprelin 5-də Hitler 41 saylı

əmri imzaladı [11; 2, s.321]. Əmrdə, hücumun əsas məqsədi kimi təkcə sovet hərbi potensialının məhv edilməsi deyil, həmçinin SSRİ-ni ən mühüm hərbi-iqtisadi güc mənbələrindən məhrum edilməsi göstərilirdi. Burada Stalinqradın ələ keçirilməsi əsas məqsəd kimi göstərilmir və Qafqazın neft mədənlərindən daha az əhəmiyyətli hesab edilirdi. Hitler alman ordularına Stalinqrada daxil olmaq üçün cəhd etmələrini, əgər bu baş tutmazdısa şəhəri ağır bombardmana məruz qoyaraq hərbi və nəqliyyat mərkəzi kimi sıradan çıxarmağı əmr etmişdi [ 28, s.123].

Feldmarşal Paulyus 1954-cü il mayın 25-28-də Drezdendə ali hərbi məktəbin dinləyiciləri qarşısında məruzəsində qeyd etmişdi ki, 1942-ci ilin əsas hərbi əməliyyatının strateji məqsədi Almaniyanın və onun müttəfiqlərinin müharibəni davam etdirmələri üçün həyatı zərurət kəsb edən Qafqazın neft mənbələrinin ələ keçirilməsi idi. O, alman qoşunlarının Stalinqrad ətrafında Volqa çayına çıxmaları üçün apardığı döyüşlərin məqsədinin Qafqazda hərbi əməliyyatlar aparan alman hərbi qüvvələrinin cinahlarının müdafiəsi və arxa mövqelərinin qorunması olduğunu bildirmişdi [14, s.81-82 ].

SSRİ-ni Qərb müttəfiqləri Almaniyanın Qafqaza doğru fəal səylərindən ciddi narahatlıq keçirirdilər. 1942-ci ilin yazında B.Britaniyadakı sovet kəşfiyyat rezidenturasından əldə edilmiş məlumatda qeyd edilirdi ki, Bakının neft mədənlərinin alman qoşunları tərəfindən ələ keçirilməsi təhlükəsi yarandığı zaman ingilis-amerikan qüvvələri tərəfindən dağıdılması haqqında razılıq əldə edilmişdir. Sovet kəşfiyyatı ABŞ-nin və B.Britaniyanın dağıdılmış neft mədənləri əvəzində müharibə dövründə və ondan sonra Sovet İttifaqına oradakı hasilatın miqdarda neft tədarük edəcəkləri ilə bağlı üzərlərinə öhdəlik götürmək niyyətində olduqlarını barəsində məlumat vermişdi [21].

1942-ci il iyunun 1-də A.Hitler "Cənub" orduları qrupunun mənzil-qərargahının yerləşdiyi Poltava şəhərinə gəldi. Burada keçirilən müşavirədə A.Hitler Stalinqradın adını demək olar ki, çəkmədi və onun ələ keçirilməsini vacib hesab etmədi. General Paulyusun komandanlıq etdiyi 6-cı ordu digər ordu birlikləri ilə

Don çayının qərbində sovet qoşunlarının mühasirəyə alınmasında iştirak etdikdən sonra Qafqaza doğru hücuma keçən hərbi qüvvələrin şimal-şərq cinahın təhlükəsizliyini təmin etmək məqsədi ilə Stalinqrada hücum etməli idi. Müşavirədə A.Hitler əsas diqqəti Qafqazın neft yataqlarının ələ keçirilməsinin vacibliyinə yönəltdi. Onun işğalı 1-ci tank ordusuna və 17-ci orduya həvalə olundu [1, s.26]. 1942-ci il iyunun 5-də 6-cı ordunun bir çox əsgər və zabitləri yay hərbi kampaniyası ərəfəsində Xarkov opera və balet teatrında "Qu quşu gölü" baletinə tamaşa etdilər. Tamaşada yaramaz cadugər Rotbartın fitnələrindən iztirab çəkən şahzadə Ziqfridin hekayəsi çoxları-na rəmzi görünürdü. Belə ki, "Blau" planının digər adı "Ziqfrid" idi, "Rotbart" isə almanca "qımızı saqqal", yəni "Barbarossa" adlanırdı [4, s. 90-91].

Lakin iyunun 19-da "Blau" planının həyata keçməsinə mane ola biləcək hadisə - "Reyxel insindenti" baş verdi. Sovet hərbi komandanlığı vermaxtın hücum planı haqqında müxtəlif kəşfiyyat mənbələrindən məlumatlar alsa da, ələ keçirilən portfel onun əsas cəhətlərini tam olaraq aşkar edirdi. Sovet Cənub-qərb cəbhəsinin komandanı marşal Timoşenko vurulmuş təyyarə və tapılmış sənədlər barəsində Stalinə məlumat verərək, sənədlərin həqiqiliyini və gözlənilən hücumun qarşısını almaq üçün təxirəsalınmaz tədbirlər barəsində məlumat verdi. Stalin, Jukov və digər sovet hərbi rəhbərləri isə sənədlərin şaxta olmasına və vermaxtın əsas hücum hədəfi kimi cəbhənin mərkəz hissəsini müəyyən etməsinə əmin idilər. Onlar vurulmuş təyyarənin düşmən tərəfindən Moskvaya gözlənilən hücumdan diqqəti yayındırmaq üçün bir hiylə hesab edirdilər. Buna görə də Sovet ordularının ali Baş Komandanlıq qərargahı qoşunların bir hissəsinin cəbhənin qərb hissəsindən çıxarılaraq cənub hissəsinə göndərilməsinə dair qərar vermədi.

**Alman qoşunlarının Qafqaz əməliyyatı.** 1942-ci il iyunun 28-də alman qoşunları tərəfindən "Blau" planının icrasına başlanıldı. 1942-ci il iyunun 30-dan etibarən hücumun ikinci mərhələsi "Braunschweug" ("Braunşveyq") planı adlandırıldı. Şərq cəbhəsində alman qoşunlarının yay hücum əməliyyatının 3-cü

mərhələsi isə “Dampfhammer” (“Buxar çəkici”) adlanırdı. Eyni zamanda, sovet komandanlığının diqqətini “Blau” planından yayındırmaq məqsədi ilə alman hərbi komandanlığının 1942-ci ilin may-iyul aylarında “Kreml” planı adlandırılmış dezinformasiya tədbirləri həyata keçirdi.

Qafqaz uğrunda 442 gün davam etmiş döyüşlər vuruşan tərəflər üçün yalnız növbəti strateji əməliyyat deyildi. Alman ali hərbi komandanlığı 1942-ci ilin yayında özünün əsas qüvvələrini və ehtiyatlarını sovet-alman cəbhəsinin cənub qanadında cəmləşdirərək, burada bütün müharibənin taleyini, nəhayət, öz xeyrinə həll etmək istəyirdi. Tank diviziyalarının yanacaq qıtlığı səbəbindən hücumu dayandırmaq məcburiyyətində qalmaları Hitleri nəyin bahasına olursa-olsun Qafqazın neft yataqlarını tez bir zamanda ələ keçirilməsini sürətləndirməyə vadar edirdi.

1942-ci ilin iyulunda Hitler hücumda ləngimələrdən hiddətlənərək planda əsaslı dəyişiliklər etdi. İyulun 16-da Hitler Ukraynanın Vinnitsa şəhəri yaxınlığında inşa olunmuş “Vervolf” adlı yeni qərargahına gəldi. İyulun 23-də onun imzaladığı 45 saylı sərəncam ilə orduların qarşısında yeni vəzifə qoyulurdu ki, bu da “Blau” planının əsaslı şəkildə dəyişdirilməsi anlamına gəlirdi [4, s.101-103]. 1942-ci ilin aprelində Bakı-Batumi neft kəmərinin sökülməsi haqqında sovet rəhbərliyinin qərarı Almaniya üçün ciddi problem yaradırdı. Belə ki, kəmərin sıradan çıxarılması Almaniyanı Bakı neftinin ən əlverişli vasitə ilə daşıyıb aparmaq imkanından məhrum edirdi. Bu halda alman qoşunlarının əsas qüvvəsinin Qafqaz dağ silsiləsindən cənuba doğru hücumu məqsədəuyğun deyildi. Hətta Bakı və onun neft mədənlərinin ələ keçiriləcəyi zaman, dağıdılmış nəqliyyat və liman infrastrukturunun bərpası xeyli vaxt aparacağından, neft və neft məhsullarının dərhal buradan Almaniyaya daşınması mümkün deyildi. Alman komandanlığı bu səbəbdən dənizə daha yaxın yerləşən Qafqaz dağ silsiləsinin şimalındakı Maykop və Qroznı neft mənbələrinin ələ keçirilməsini daha vacib hesab etdi [6, s.157].

1942-ci il iyulun 25-də vermaxtın 45 saylı əmrində şərh olunan bu plana əsasən, ilk əvvəl Şimali Qafqazın, daha sonra Baş

Qafqaz dağ silsiləsini eyni zamanda həm qərbdən, həm şərqdən yan keçməklə və dağ aşırımlarını ələ keçirməklə istila olunması müəyyən edilmişdi. "Blau" planına əsasən, 6-cı ordu və 4-cü tank ordusu sürətlə irəliləyərək Stalinqrada çatmalı və geri çəkilən sovet ordusunu mühasirəyə almalı idi. Bundan sonra isə Qafqaza doğru hücum başlamalı idi. Hitler iki mərhələdən ibarət hərbi planı eyni vaxtda həyata keçirilən 2 hərbi əməliyyat planı ilə əvəz etdi. Feldmarşal Listin başçılıq etdiyi "A" ordular qrupu Qafqaza ("Edelveys"), feldmarşal fon Veyhsin komandanlıq etdiyi "B" ordular qrupu Stalinqrada ("Fişrayer") doğru irəliləmək əmrini aldılar. Hitler orduların qarşısında döyüş tapşırığının yerinə yetirilməsi üçün tamamilə yeni müddət qoysa da, onlara heç bir yardım vermədi. Hitlerin digər bir səhvi isə bu əməliyyatda müttəfiq qoşunlarının döyüş qabiliyyətinə qeyri-real yanaşması idi. Halbuki, alman generalları onların etibarlığına və döyüş bacarıqlarına böyük şübhə ilə yanaşırdılar.

"B" ordular qrupunun hissələri Stalinqrada yaxınlaşdıqları halda "A" ordular qrupu alman qoşunlarının Qafqaza yolunu bağlamış sovet qoşunlarına qarşı hücumu davam etdirməkdə idi. Qafqaz uğrunda döyüşlər 1942-ci il iyulun 25-dən 1943-cü il oktyabrın 9-a kimi davam etmişdir. Alman-rumın qoşunlarının hücum əməliyyatı 1942-ci il iyulun 25-dən dekabrın 31-ə kimi, sovet qoşunlarının əks-hücumu isə 1943-cü il yanvarın 1-dən oktyabrın 9-a kimi dövrü əhatə edir. Məhz bu zaman Hitler alman qoşunlarının strateji əməliyyat istiqamətini müəyyən etməkdə ciddi çətinliklər ilə üzləşdi. Lakin alman qoşunlarının Baş Qərargahının əməliyyat şöbəsinin rəisi general A.Yodlun məsləhəti ilə iyulun 31-də "B" ordular qrupunun Stalinqrada hücumuna dəstək məqsədi ilə "A" ordular qrupuna daxil olan 4-cü tank ordusunun göndərilməsi haqqında əmr verdi. 40-cı tank korpusunu isə 6-cı ordu-dan alaraq cənub istiqamətində istifadə etdi. Bu isə öz növbəsində, Stalinqrada doğru hücumun sürətinə mənfi təsir göstərdi. Bu qərar Almaniyanın 1942-ci ildə SSRİ-ni Qafqazın neft mənbələrin-dən məhrum etmək haqqında başlıca strateji hədəfinin iflasına səbəb oldu [18, s.223]. İngilis tarixçisi

M.Arnold-Forster hesab edir ki, Hitlerin “tarixin gedişini dəyişdirmiş” ən fəlakətli qərarı onun 1942-ci il iyulun 31-də “A” ordular qrupundan 4-cü tank diviziyasının “B” ordular qrupuna göndərilməsi haqqında əmri olmuşdur. Bu əmr Almaniyanın 1942-ci ildə Qafqaz neft yataqlarının ələ keçirilməsi haqqında əsas strateji məqsədini iflasa uğramasına səbəb olmuşdu [7, s.190]. Alman tarixçisi B.Vaqner də qeyd edirdi ki, alman hərbi komandanlığının SSRİ-ni Qafqaz neft yataqlarından məhrum edilməsi səylərinin boşa çıxması “bütün müharibənin taleyinə” təsir göstərmişdir [24, s.138].

**Qafqazın müdafiəsində milli diviziyaların iştirakı.** Qafqaz uğrunda döyüşlər sovet qoşunlarının ağır müdafiə döyüşləri ilə başladı. Bu ilk növbədə, 1941-ci ilin hərbi əməliyyatlarının yekunu ilə bağlı idi. 1941-ci ildə sovet ordusunun gerçək döyüş itkiləri müharibə ərəfəsində onun baş qərargahının müəyyən etdiyi ehtimal olunan miqdardan xeyli çox idi. 1941-ci ilin yayı və payızında sovet ordusunun canlı qüvvə itkiləri – döyüşdə və xəstəlikdən, yaradan ölənlər, yaralananlar, itkin və əsir düşənlər və s., təqribən 5 mln. nəfər hesab olunurdu. 1941-ci ilin dekabrına kimi alman qoşunları Sovet İttifaqının 1,5 mln. kv.km ərazisini işğal etmişdi ki, burada da müharibədən əvvəl 74,5 mln. nəfər əhali yaşayırdı [15, s.47]. Bu əhalinin yalnız bir hissəsini təxliyə edilməsinə və orduya səfərbər olunmasına nail olunmuşdu. SSRİ-nin qərb bölgələrinin tez bir zamanda alman qoşunları tərəfindən işğalı ilə əlaqədar orduya çağırışçıların sayının kəskin azalması ölkə rəhbərliyini səfərbərliyin bütün strategiyasını dəyişməyə vadar etdi. Qazaxıstan, Orta Asiya və Şimali Qafqazın əhalisinin mentalitet xüsusiyyətləri və rus dilini zəif bilmələri səbəbindən bu bölgələrin hərbi-səfərbərlik potensialının zəif olması ilə əlaqədar 1941-ci ildə hərbi səfərbərlik tamamilə Rusiyanın mərkəz, cənub və şərq rayonlarının, Azərbaycanın, Gürcüstanın və Ermənistanın üzərinə düşmüşdü [15, s. 428-429].

Müharibənin ilk aylarında sovet hakimiyyəti üçün ən başlıca məqsədlərdən biri hərbi əməliyyatlarda qeyri-rus xalqlarının

daha fəal iştirak etməsinin formalarının müəyyən olunması idi. Belə formalardan biri milli atıcı diviziyaların yaradılması idi. Zaqafqaziya Hərbi Dairəsində ilk olaraq, 1941-ci ilin dekabrında, 89-cu Ermənistan atıcı diviziyasının yaradılmasına başlanıldı. 1942-ci il fevralın 3-də ZHD-nin komandanının əmri ilə 223-cü və 402-ci Azərbaycan, 392-ci və 406-cı Gürcüstan və 408-ci Ermənistan atıcı diviziyalarının formalaşdırılmasına başlanıldı. Bir ay sonra 414-cü Gürcüstan və 416-cı Azərbaycan atıcı diviziyalarının formalaşdırılmasına başlanıldı. Qafqaz uğrunda döyüşlər başlayarkən Şimali Qafqaz və Zaqafqaziya cəbhələrinin sərəncamlarında 12 milli hissə və birliklər var idi. Əməliyyatın ilk həftələrində milli birliklərin əsas hissəsi yaranmış şərait səbəbindən Qroznı-Bakı istiqamətində və baş Qafqaz dağ silsiləsində cəmləşmişdilər və ZC qoşunlarının Şimal Qrupuna daxil idilər. ZC qoşunlarının Şimal qrupunda 2 gürcü, 4 Azərbaycan və 2 erməni milli diviziyaları vuruşurdu. Digər hərbi hissələrdə isə şəxsi heyətin 42%-dən çoxu Qafqaz xalqlarından səfərbər olunmuşdu [3, s.9].

Alman hərbi komandanlığı Qafqaz uğrunda müdafiə döyüşlərində iştirak edən QO-nun milli diviziyalarının döyüş qabiliyyəti barəsində elə də yüksək fikirdə deyildilər və burada ciddi müqavimət ilə üzləşməyəcəklərini düşünürdülər. Bu mövqe səbəbindən 4-cü alman tank ordusunun əsas hissələri Şimali Qafqazda döyüşlərin ərəfəsində Stalinqrad istiqamətinə göndərildi. Alman qoşunlarının qafqazlıların hərbi hissələrinə qarşı bu yanaşması səbəbindən dərin kəşfiyyat aparılmadan irəliləməyə üstünlük verirdilər. Lakin 1942-ci ilin avqustunda alman qoşunları sovet hərbi birliklərinin şiddətli müqaviməti ilə üzləşdilər.

Sovet hərbi komandanlığının, xüsusilə, Zaqafqaziya Cəbhəsi qoşunlarının Şimal qrupunun komandanı general-leytenant İ.İ.Maslennikovun etimadsızlığı səbəbindən milli hissələr ikinci eşelonda müdafiə mövqeyində yerləşdirildiyi üçün, cəbhə komandanlığı əsasən, slavyanlardan ibarət diviziyalardan istifadə edilməsinə üstünlük verirdi. Baş komandanlığının cəbhədə tam səlahiyyətli nümayəndəsi olan Beriyanın göstərişi ilə ön cəbhəyə yola salınmış hərbi hissələrdən qafqazlılar

çıxarılırdı. Onun təklifi ilə dağ silsiləsini müdafiə edən 351 və 242-ci diviziyalardan azərbaycanlılar və özbəklər guya iqlim və dağ landşaftı bəhanəsi ilə çıxarılmışdı. Lakin bu səbəblə həmin diviziyalarda gürcülər saxlanılmışdı.

General-leytenant İ.İ.Maslennikov onun tabeliyinə verilmiş milli diviziyaları hazır şəkildə ZC-dən aldığı üçün onların keyfiyyətləri barəsində açıq etirazını bildirirdi. Şimal qrupu qoşunlarında qafqazlıların sayı şəxsi heyətin 42,5% qədər idi. O, əvvəl 89-cu erməni, sonra isə 402,416 və 223-cü Azərbaycan diviziyalarının ləğv edilməsini tələb edirdi. ZC komandanlığı və yerli respublikaların partiya rəhbərləri onun bu davranışına qarşı birgə etirazlarını bildirdilər. Onlar 1942-ci il oktyabrın 9-da Stalinə bununla bağlı birgə məktub göndərdilər.

1942-ci ilin avqustun əvvəlində feldmarşal Vilhelm Listin komandanlıq etdiyi 167 min nəfərlik “A” ordular qrupuna qarşı Don çayından cənubda cəmi 24 min nəfərlik sovet qoşunu vuruşurdu. Almanların 1000 qırıcı təyyarəsinə qarşı sovet qoşunları yalnız 95 qırıcı təyyarə ilə çıxa bilirdilər. Almanlar 1130 tank ilə irəliləyirdilər [30]. Avqustun 9-da alman qoşunları Maykopa daxil oldular. Burada neft mədənləri sovet orqanları tərəfindən ciddi şəkildə dağıdılsa da [8, s. 3], bəzi quyuları bərpa etmək mümkün oldu. “Neft briqadası” 1942-ci il noyabrın 21-də Maykopda hasilata başladığı zaman Stalinqrad ətrafında alman qoşunlarının mühasirəyə alınması başa çatdırıldı. Mütəxəssislər hesab edirdilər ki, ilk əvvəl bu mədəndən ayda 6-10 min barel neft hasil etmək mümkündür. Ayda 50-70 min barel həcmində neftin hasilatı yalnız 1943-cü ilin sonlarında mümkün ola bilərdi. Lakin sovet qoşunlarının əks-hücumlarının başlanması ilə əlaqədar 1942-ci ilin dekabrında Maykopda çalışan “Neft briqadası” oradan təxliyə edildi, avadanlıqlar isə daşındı. Alman tank qoşunları Orcanikidze şəhərindən 7 km və Tuapse şəhərindən 18 km aralıda hücumlarını dayandırmalı oldular [10, s.260].

1942-ci il oktyabrın 1-ə kimi alman hərbi komandanlığı Zaqafqaziya cəbhəsi istiqamə-tində 26 diviziya cəmləşdirmişdi

[3, s. 8]. Hitlerin bütün Qafqazı ələ keçirmək üçün 1942-ci ilin oktyabrında bütün səyləri uğursuz nəticələndi.

Bu "Edelveys" əməliyyatının iflası demək idi. Halder gündəliyində yazırdı: "Acı istehza bundadır ki, biz neftə yaxınlaşarkən onu daha çox qıtlığını hiss edirdik". Feldmarşal fon Kleyst kapitan Liddel Qart ilə söhbətində də bildirdi ki, "biz yanacağı sərf edib qurtardıq və dayanmalı olduq. Gətirilən yanacaq isə kifayət etmirdi" [27, s.185].

1942-ci ilin noyabrın 27-də Şimal qrupu qoşunlarının başladıqları hücum əməliyyatları planın yetkin olmaması və hazırlığın tam başa çatdırılmaması səbəbindən uğursuzluğa düçar oldu. Dekabrın 7-də Stalinqrad cəbhəsi qoşunlarına yardım məqsədi ilə düşmənin 1-ci tank ordusunun məhv edilməsi və alman qoşunlarının Qafqaz qruplaşmasının darmadağın edilməsi məqsədi ilə nəzərdə tutulmuş hücum əməliyyatı da dayandırıldı. Hücum ərəfəsində Şimal qrupu piyada sayına görə almanlardan 3 dəfə, artilleriyaya görə 2 dəfə, minomyotlara görə 4 dəfə üstün idi. Dekabrın 11-də hücum əməliyyatı yenidən bərpa olundu və dekabrın 31-ə kimi davam etdi. 44-cü ordunun tərkibinə 402, 416, 223-cü Azərbaycan, 409-cu erməni, 414-cü gürcü, 320-ci və 151-ci (əsasən, ermənilərdən), 271-ci (əsasən, azərbaycanlılardan) və 347-ci diviziyalar daxil idilər. Beləliklə, 1941–1945-ci illər müharibəsi dövründə yeganə hal idi ki, milli hərbi birliklərdən hərbi əməliyyatlarda kütləvi istifadə olunurdu və ilk dəfə hücum əməliyyatlarının əsas ağırlığı Zaqafqaziyanın milli diviziyaların üzərinə düşürdü.

Zaqafqaziya Cəbhəsinin Hərbi Şurasının 11 dekabr 1942-ci il tarixli 001245/OP saylı əmrində cəbhənin qoşunlarının şimal qrupunun qüvvə cəhətdən düşməndən üstün olmasına baxmayaraq noyabrın 27-dən dekabrın 7-ə kimi 10 gündən artıq davam edən hücum əməliyyatlarının əsaslı dəyişiliklərin əldə olunması ilə nəticələnmədiyi qeyd olunur və uğursuzluğun səbəbləri göstərilirdi. Burada qeyd edilirdi ki, uğursuzluğun əsas səbəblərindən biri ordu və korpus komandanlarının ön xəttə

gəlmədikləri üçün döyüşü yarıtmaz şəkildə idarə etmişdilər. Ordu hissələrində, xüsusilə, Azərbaycan milli diviziyalarının daxil olduqları 44-cü orduda təchizat işi yarıtmaz təşkil olunmuşdu. Döyüş aparıldığı zaman hərbi hissələrin ərzaq və sursat ilə təminatı uzun fasilələr ilə həyata keçirilmiş, su ilə təmin olunmaları isə ümumiyyətlə nəzərdə tutulmamışdı [20]. Zaqafqaziya cəbhəsinin hərbi şurası 1942-ci il dekabrın 25-də cəbhə qoşunlarının şimal qrupunun hücum əməliyyatının uğursuzluğu ilə bağlı məsələni bir daha müzakirə etdi. Qrupun komandanı general-leytenant Maslennikova göndərilən 001323 saylı qərarda qrup komandanlığının uğursuzluğun başlıca səbəbi kimi milli diviziyaların bacarıqsızlığını qeyd etməsinə etiraz edən Zaqafqaziya cəbhəsinin hərbi şurası bunu siyasi cəhətdən böyük səhv hesab edirdi. Qərarda xüsusi olaraq qeyd edilirdi ki, qrup komandanlığının milli diviziyaların döyüş bacarığına şübhə ilə yanaşması son nəticədə hücum əməliyyatı dövründə qətiyyətsizlik mühiti yaratdığından əməliyyatlar uğursuzluqla yekunlaşmışdı.

ZC-nin qoşunlarının Şimal qrupunun komandanlığının milli diviziyalara qarşı mənfi münasibəti Azərbaycan rəhbərliyini narahat etməyə bilməzdi. Vəziyyəti yerində araşdırmaq məqsədi ilə 1943-cü ilin yanvarın əvvəllərində respublikanın bir qrup məsul vəzifəli şəxsləri respublika rəhbərliyinin tapşırığı ilə Şimal qrupunun tərkibində vuruşan Azərbaycan milli diviziyalarında oldular. Onların respublika rəhbərliyi üçün hazırladıqları hesabatda qrupun komandanlığının səriştəsizliyi, milli hərbi hissələrə qarı laqeydlikləri və məsuliyyətsizlikləri ilə bağlı faktlar qeyd edilmişdi. Hesabatda bildirilirdi ki, qrupun komandanlığı nadir hallarda hərbi hissələrdə olurlar və bu səbəbdən gerçək vəziyyət haqqında kifayət qədər məlumatlı deyildilər [12, v.1]. Hesabatda qeyd edilirdi ki, 223-cü diviziya İşerskaya, Stoderevskaya. Mozdok və Georgiyevsk yaxınlığında, 416-cı diviziya İşerskayanın şimalında gedən döyüşlərdə şəxsi heyətlərinin 30%-ə qədərini itirmişdilər [12, v.5]. Qrup komandanlığının rəsmi sənədlərində bu diviziyaların

hərbi əməliyyatlarda fəal iştirakı qeyd olunmamışdı. Əksinə, qrup komandanlığı sənədlərdə onları heç bir döyüş bacarığı olmayan, səbatsız, Vətənə xəyanət hallarının kütləvi xarakter daşıdığı birliklər kimi təqdim etməyə üstünlük verirdilər. Əslində, milli diviziyalarda Vətənə xəyanət hallarına nadir hallarda rast gəlinirdi. Qrup komandanlığı səthi məlumatlar əsasında milli diviziyalar barəsində saxta ittihamlar tərtib edərək yuxarı instansiyalarda onların barəsində mənfi təsəvvür formalaşdırmağa çalışırdılar.

1943-cü ilin yanvarında Hitler alman qoşunlarının sovet-alman cəbhəsinin cənub cinahında qarşılaşdıqları ağır vəziyyətə baxmayaraq Qafqazdan birdəfəlik əl çəkmək niyyətində deyildi. Maynşteyn yazırdı ki, Hitler heç olmasa Maykop neft rayonunu əldə saxlamağa və yaxud ən son halda fürsət yarandıqda yenidən Qafqazın neft rayonlarını ələ keçirmək üçün hücuma başlamaq məqsədi ilə Kubanda böyük platsdarmı əldə saxlamağa çalışırdı [19, s. 434-435].

Bakının neft mədənlərinin ələ keçirilməsi məqsədi ilə alman hərbi komandanlığı 1942-ci ilin mayından etibarən kəşfiyyat təyyarələrinin müntəzəm uçuşlarını həyata keçirirdi. Mayın 7-də 1 ədəd He-111 təyyarəsi 4000-5000 m yüksəklikdə Ermənistan istiqamətindən Azərbaycan səmasına daxil olaraq Xoşbulaq, Dəstəfur, Bərdə, Ələt, Səngəçal, Puta, daha sonra Xəzər dənizi üzərindən Mahaçqala istiqamətində kəşfiyyat uçuşu aparmışdır [13]. Sovet hərbi aviasiyasının məhdud uçuş imkanları və zenit artilleriyasının zəifliyi səbəbindən alman təyyarələrinin uçuşlarının qarşısının alınması mümkün olmurdu. Sovet qoşunlarının Stalinqrad ətrafında və Şimali Qafqazda sürətli əks-hücum əməliyyatına başlaması səbəbindən alman qoşunlarının geri çəkilməsi Almaniyanı Bakı neftinə yetişməkdən məhrum etdi. Bu halda A.Hitlerin SSRİ-ni mühüm duru yanacaq mənbəyindən məhrum etmək üçün Bakının bombardman edilməsi haqqında planının icrası da qeyri-mümkün oldu.

**Nəticə.** Alman ordularının Qafqaza hücum əməliyyatı İkinci

Dünya müharibəsi tarixində ilk dəfə iqtisadi məqsədlərin hərbi-strateji məqsədləri üstələdiyini nümayiş etdirdi. XIX əsrin 20-ci illərində Prussiyanın müharibədə hərbi strategiyasını əsaslandıran fon Klauzevitsdən fərqli olaraq Hitler mexanikləşdirilmiş ordular ilə vuruşduğunu nəzərə alır və sənaye cəhətdən güclü inkişaf etmiş dövlətlər ilə müharibədə iqtisadi məqsədlərin daha vacib olduğunu dərk edirdi. Hitler düzgün olaraq hesab edirdi ki, Qafqazın neft yataqlarının ələ keçirilməsi təkcə Almaniya iqtisadiyyatının neft problemini həll etməyəcəkdir, eyni zamanda SSRİ-nin hərbi iqtisadiyyatına ölümcül zərbə vuracaqdır.

Qarşıya qoyulan hədəflərin prioritetliyinin müəyyən edilməsində Almaniyanın hərbi-siyasi dairələrində mövcud olan fikirayrılığı, bölgənin coğrafi, etnik və sosial-iqtisadi xüsusiyyətlərinin tamamilə nəzərə alınmaması, resurslarının məhdudluğu şərtləri daxilində qarşıya miqyasına görə mürəkkəb vəzifələrin qoyulması və digər amillər alman qoşunlarının 1942–1943-cü illərdə Qafqazda hərbi kampaniyasının uğursuzluğuna və bölgənin neftinə sahib olmaq ümidlərinin puç olması ilə nəticələndi. Almaniya nəinki Qafqazın neft yataqlarını ələ keçirməyə və istismar etməyə müvəffəq ola bilmədi, həmçinin, müharibənin davam etdirilməsi üçün zəruri olan kifayət həcmdə neft və neft məhsullarını əldə etmədi.

Alman qoşunlarının Qafqaza geniş miqyaslı hücum əməliyyatları dövründə bölgənin müdafiəsinin çətinliyini diqqətə alan sovet rəhbərliyi müharibənin gedişində ilk dəfə buna qədər cəsarət etmədikləri qərarı qəbul etdi – Qafqaz xalqlarından təşkil olunmuş milli hərbi birliklərdən hərbi əməliyyatların keçirilməsində geniş istifadə etdi. Azərbaycan milli diviziyalarının da fəal iştirak etdikləri bu döyüşlər İkinci Dünya müharibəsinin tarixində şərəfli yer tutur. Əldə edilən qələbələrin SSRİ-nin qeyri-rus xalqlarının milli özünüdərkinin canlanmasından ciddi narahatlıq keçirən sovet rəhbərliyi milli diviziyaların ləğvinə qərar verdi. Milli diviziyaların ləğvi ilə həm də onların keçdikləri döyüş yolları özgələri tərəfindən mənimsənildi.

**Ровшан Атамов**

## РЕЗЮМЕ

# РОЛЬ БИТВ ЗА КАВКАЗ ВО ВТОРОЙ МИРОВОЙ ВОЙНЕ

Фактор жидкого топлива в военно-политической экспансии нацистской Германии начал приобретать большое значение уже с первых дней войны, как для экономической жизни страны, так и для обеспечения потребностей вермахта. Главной целью наступательных операций немецких войск летом 1942 года был захват Кавказа. Потерпев поражение под Сталинградом и отступив с Северного Кавказа, Германия проиграла битву за нефть в начале 1943 года.

В статье обосновывается вывод о том, что в германо-советской войне 1941-1945 годов среди факторов, заложивших основу для формирования военно–стратегического и экономического значения кавказского региона, решающую роль сыграл именно нефтяной фактор. Было отмечено, что главным фактором успеха военных действий немецких войск на последующие периоды войны было удовлетворение германским спросом на нефть и захват доступных для нее нефтяных месторождений, в частности нефтяных районов Кавказа. В этом смысле военные действия Германии на Кавказе в 1942-1943 годах были, прежде всего, войной за нефть. Несмотря на быстрое приближение немецких войск к Кавказу на его первом этапе, вопреки ожиданиям, они столкнулись с ожесточенным сопротивлением советских войск. Советские армейские соединения, в состав которых входили также азербайджанские национальные дивизии, не позволили немецким войскам преодолеть горы Кавказа. Неудача Германии на Кавказе в конечном итоге стала одним из факторов, которые сделали ее поражение в войне необратимым.

**Ключевые слова:** Вторая Мировая война, Кавказ, нефть, план “Блау”, Баку, национальные дивизии

**Rovshan Hatamov**

**SUMMARY**

## THE ROLE OF THE BATTLES FOR THE CAUCASUS IN WORLD WAR II

The constant role of fuel as a strategic factor in the military-political expansion of Nazi Germany gained considerable importance from the very beginning of the war, both for the country's economic stability and for meeting the operational needs of the Wehrmacht. The main target of the offensive operations conducted by the German troops in the summer of 1942 was the capture of the Caucasus. Having suffered a defeat around Stalingrad and retreating from the North Caucasus, Germany lost the battle for oil in early 1943.

The article substantiates that the oil factor played a decisive role among the factors that contributed to the formation of the military–strategic and economic significance of the Caucasus region in the German-USSR war of 1941-1945. It was emphasized that the main factor of the success of the military operations carried out by the German troops for the subsequent periods of the war depended on the satisfaction of German demand for oil and the seizure of oil fields accessible to it, in particular, the oil regions of the Caucasus. From this perspective, Germany's campaign in the Caucasus during 1942-1943 can be characterized primarily as a war for oil. At its first stage, despite the rapid approach of German troops towards the Caucasus, they encountered unexpectedly fierce resistance from Soviet forces. Soviet army units, which included Azerbaijani national divisions played a critical role in preventing the German army from crossing the Caucasus Mountains. Germany's failure in the Caucasus campaign became one of the key factors contributing to its overall defeat in the war.

**Keywords:** World War II, Caucasus, oil, “ Blau” plan, Baku, national divisions

# ƏDƏBİYYAT

***Azərbaycan dilində.***

1.Zeynalov Rizvan, Borodetski Lev. Qafqaz dağlarının ətəklərindən Berlinədək (hərbi-tarixi oçerk). – Bakı: Təhsil, – 2011. – 608 s.

***Rus dilində.***

2.1941 год: В 2 кн. Кн. 1 / Сост. Л.Е.Решин и др.; Под ред. В.П.Наумова; Вступ. ст. акад. А.Н.Яковлева. – Москва: Междунар. фонд «Демократия», – (Серия «Россия. XX век. Документы»).1998. – 832 с.

3.Батыров, У.А., Гребенюк, С.В., Матвеев, В.Г. Битва за Кавказ.– Москва: Триада-ф, –2002.–411 с.

4.Бивор, Э. Сталинград. – Смоленск.: Русич, – 1999, – 670 с.

5.Великая Отечественная война 1941–1945 годов. В 12-ти т. Т. 1. Основные события войны. —Москва: Воениздат, –2011. – 846 с.

6.Верхотуров Д.Н. Крым. Военная история. От Ивана Грозного до Путина. –Москва: Эксмо, –2014 – 288 с.

7.Вторая мировая война. Взгляд из Германии: сб. статей. Пер. с нем. – Москва: Эксмо– 2005. –416 с.

8.Гехт, Е. В. Нефть в политике Германии (1933-1943 гг.). Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. –Екатеринбург: – 2007. –22 с.

9.Гланц Девид., Хаус Джонатан. Битва титанов. Как Красная Армия остановила Гитлера. – Москва: Издательство Астрель АСТ, – 2007. – 463 с.

10.Гучмазов, А., Траскунов, М., Цкитишвили, К. Закавказский фронт великой отечественной войны. –Тбилиси, ЦК КП Грузии, – 1971. –312 с.

11.Дашичев, В.И. Банкротство стратегии германского фашизма: Исторические очерки. Документы и материалы: В 2 т. Т. 2. Агрессия против СССР. Падение "третьей империи" (1941-1945 гг.). – Москва: Наука, – 1973. – 664 с.

12.Докладная записка командующего Бакинской Армии ПВО, генерал-майора Бескровного и зам. Наркома внутренних дел, ст. майора госбезопасности Маркаряна секретарю ЦК КП(б) Азербайджана и члену Военного Совета Закфронта М.Д.Багирову об отрицательных фактах в частях Северной группы войск Закфронта (по личному наблюдению). 16 января 1943 года. Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin İctimai-

Siyasi Sənədlər Arxivi, fond1, siy.27, iş 79, vv.1-8

13.Журнал боевых действий Закавказской зоны ПВО: 30.06.1942 г. / ЦАМО, Ф.13603, Оп.20382, Д.24, Л. 109

14.Из личного архива фельдмаршала Паулюса // – Москва, Военно-исторический журнал. –1960. № 2. 128 с. (с.81-95)

15.История Второй мировой войны 1939-1945. В 12 томах. Т. 4. Фашистская агрессия против СССР. Крах стратегии «молниеносной войны». Москва: Воениздат. – 1975. – 536 с.

16.Краснознаменный Закавказский. Москва, 1981. Изд-во «Сабчота Сакартвело». Тбилиси, 1981. Краснознамённый Закавказский / под ред. А. Оверчука, К. Демирчяна, О. Кулишева. — Тбилиси: Сабчота Сакартвело, – 1981. – 400 с.

17.Кринко, Е.Ф., Безугольный А.Ю. Битва за Кавказ и ее значение в истории Великой Отечественной войны. /https://cyberleninka.ru/article/n/bitva-za-kavkaz-i-ee-znachenie-v-istorii-velikoy-otechestvennoy-voyny-müraciət tarixi: 02.04. 2025

18.Кульков, Е. Н. Зарубежные историки о Сталинградской битве. / в кн. Великая Победа: т. 11: Сражения за Москву и Сталинград / под общ. ред. С. Е. Нарышкина, А. В. Торкунова; - Москва: МГИМО, – Университет, – 2015. – 496 с.

19.Манштейн Э. Утерянные победы. М.: АСТ; СПб Terra Fantastica, 2002. -896 с. // https://militera. lib.ru/memo/ german/manstein/index.html

20.Приказ войскам Закфронта № 001245/ОП от 11 декабря 1942 года. О недочетах в организации и управлении наступательной операцией Северной Группы Войск Закфронта в период с 27.11. по 07 декабря 1942 года. Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi, fond 1, siy.27, iş 45.v.18-21

21.Разведсводка 1 Управления НКВД СССР. 15-е марта 1942 года // Архив Службы внешней разведки РФ // https:// docs.historyrussia.org/ru/nodes/111469-razvedsvodka-1-upravleniya-nkvd-sssr-15-e-marta-1942-goda#mode/inspect/ page/1-22/zoom/4

22.СССР и страны Востока накануне и в годы Второй Мировой войны / отв. редактор В.В.Наумкин. – Москва: Институт Востоковедения, – 2010. – 460 стр.

23.Тике, В. Марш на Кавказ. Битва за нефть. 1942/1943/пер. с нем. М., Эксмо, 2005. http://needlib.com/bibl/ index.php? page= 4&Id=59926 – müraciət tarixi: 24.02.2025

***İngilis dilində***

24.Arnold-Forster M. The World at War. – London: Mass Market Paperback. – 1974. – 373 pp/

25.Bellamy Chris. Absolute War. Soviet Russia in the Second World War: a modern history. Pan Books, London: Macmillan, –2007. –813 pp.

26.F.Halder (Generaloberst), Kriegstagebuch: Tägliche Aufzeichnungen des Chefs des Generalstabes des Heeres, 1939-1942. 3 Bände. Kohlhammer, Stuttgart Hrsg. vom Arbeitskreis für Wehrforschung, 1962–1964. Band 2: Von der geplanten Landung in England bis zum Beginn des Ostfeldzuges. 1. Juli 1940–21. Juni 1941. –Stuttgart: W. Kohlhammer Verlag, – 1963, –503 p.

27.Fuller, J.F.C. The Second World War 1939-1945. A Strategical and Tactical History. — London: Eyre & Spottiswoode. –1948. – 431 pp.

28.Joel Hayward, 'Hitler's Quest for Oil: The Impact of Economic Considerations on Military Strategy, 1941–1942 // –London: Journal of Strategic Studies, – december 1995, №18 pp.94–135.

29.Jonathan Morales. "Oil and World War II in the Eastern front". // https://www.academia.edu /4082010/Oil and WWII on the Eastern Front – müraciət tarixi: 11.03.2025

30.Klussmann, Von Uwe. Schlacht am Thron der Götter. //https://www.spiegel.de/spiegel/ spiegelspecial/d-39863527.html – müraciət tarixi: 11.03.2025

**ŞƏFA MÖVSÜMOV***

# 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ AZƏRBAYCANLI QADINLARIN İŞTİRAKI AZƏRBAYCAN SOVET TARİXŞÜNASLIĞINDA

**XÜLASƏ**

Məqalədə 1941-1945-ci illər müharibəsi zamanı Azərbaycan qadınlarının faşizmə qarşı müxtəlif istiqamətlərdə apardığı mübarizə və onların fəaliyyətinin Azərbaycan sovet tarixşünaslığında necə əks olunduğu araşdırılır.

Müəllif Azərbaycanda sovet dövründə yazılmış elmi ədəbiyyatın ümumi təhlilini vermiş, bəzi müasir tədqiqatçıların əsərlərinə də toxunmuşdur.

Məqalədə 2020-ci il Vətən Müharibəsindən sonra 1941-1945-ci illər müharibəsi zamanı Azərbaycan qadınlarının müxtəlif sahələrdə göstərdikləri qəhrəmanlıqların yenidən nəzərdən keçirilməsinin aktuallığı verilmişdir.

**Açar sözlər:** 1941-1945-ci illər, müharibə, azərbaycanlı qadınlar, ön cəbhə, arxa cəbhə, tibb xidməti, partizan hərəkatı.

**Giriş.** 1941-1945-ci illər müharibəsində alman faşizminə qarşı mübarizədə Azərbaycan xalqının iştirakından danışarkən Azərbaycan qadınlarının ön və arxa cəbhədə qəhrəmanlığını da qeyd etmək vacibdir. Azərbaycan sovet tarixşünaslığında 1941-1945-ci illər müharibəsinin tarixinə aid elmi ədəbiyyatlarda azərbaycanlı qadınların müharibədə iştirakına rast gəlmək mümkündür. Lakin sovet dövründə azərbaycanlı qadınların müharibədə fəaliyyətlərinə aid xüsusi araşdırmalar aparılmayıb. Belə ki, bəzi müəlliflərin əsərlərinin müəyyən hissələrində

* Milli Azərbaycan Tarixi Muzeyi.

azərbaycanlı qadınların iştirakı da verilmişdir. Sovet dövrünün mətbuat səhifələrində də belə yazılara rast gəlmək mümkündür ki, bu da problemin öyrənilməsinə o qədər də kömək etmir. Əksər əsərlər isə problemə ümumi yanaşıldığından azərbaycanlı qadınların müharibə illərində fəaliyyəti tam əhatə edilmir. Odur ki, bu mövzunun müstəqillikdən sonra yenidən araşdırılması aktual əhəmiyyət kəsb edir və tarixşünaslığımızda,eləcə də,Vətən tarixinin öyrənilməsində xüsusi yer tutur.

Azərbaycanlı qadınların müharibə illərində fəaliyyətini aşağıdakı kimi qruplaşdırmaqla tədqiqatlar aparılması məqsədəuyğundur:

a) Azərbaycan qadınlarının müxtəlif cəbhələrdə hərbi əməliyyatlarda iştirakı,

b) Azərbaycan qadınlarının müharibə illərində səhiyyə sahəsində fəaliyyəti,

c) Hərbi və digər sənaye müəssisələrində çalışan azərbaycanlı qadınlar,

ç) Arxa cəbhədə azərbaycanlı qadınların əmək qəhrəmanlığı.

Qeyd edilən qruplaşdırma üzrə tədqiqatlara müxtəlif müəlliflərin əsərlərində müəyyən faktlar yer almışdır. Mövzunun daha dərindən tədqiqi üçün arxiv materiallarının və müasir internet resurslarındakı faktlar da mühüm elmi-metodiki rol oynayır.Həmin məlumatlar müasir tarixşünaslığımız baxımından mənbə kimi əhəmiyyətlidir.

Azərbaycan sovet tarixşünaslığında azərbaycanlı qadınların müharibədə iştirakına aid ilk məlumata H. Araslının kiçik həcmli əsərində rast gəlmək olur. 1942-ci ildə yazılmış bu əsərdə arxa cəbhədə çalışan Azərbaycanlı qadınların orduya köməyinə ümumi toxunulur. Əsərin sonunda müəllif qeyd edir ki, oğlunu cəbhəyə göndərən azərbaycanlı qadınlar ordudakı doğmalarına yazdıqları məktubda onları ruhlandırır, qələbəyə səsləməklə mənəvi dəstək olurlar. Həmçinin əsərdəgöstərilir ki, pambıq tarlasında normanı 300-400 faiz yerinə yetirən, zavodda mühəndis, buruqlarda fəhlə işləyən azərbaycanlı qadınlar orduya öz köməklərini verməklə fədakarlıq göstərirdilər [1., s.16]. Qeyd

olunan əsərdə müəllifin kommunizmin təbliğatı baxımından fikirləri əks olunmuş, arxa cəbhədə azərbaycanlı qadınların qəhrəmanlığına aid dəqiq faktlar verilməmişdir.

Müharibə dövründə yazılmış belə kiçik həcmli əsərlərdən birində Azərbaycanlı qadınların partizan hərəkatında iştirakından bəhs edilir. Müəllif M. Cabbar 1943-cü ildə nəşr etdirdiyi bu kitabçada Mozdok ətrafında Səkinə və Suqra bacılarının qəhrəmanlıqlarını göstərir, Moskva ətrafında snayperçi Ziba Qəniyevanın hitlerçilərə vurduğu itkiləri verir [3, s.9 ].

Həmçinin burada Ukrayna ərazisində döyüşlərdə fərqlənən 416-cı Taqanroq milli atıcı diviziyasının azərbaycanlı qadınları Tahirə Abbasovanın, Şükufə Əsgərovanın və Rübabə Əhmədovanın cəbhədəki fəaliyyətinə də toxunulub. Eyni zamanda, Rəşidə Qasımzadə və Şükufə Əsgərovanın faşistlərə qarşı igidliyi barədə ümumi məlumat verilmişdir. Əsər həcmcə kiçik olmaqla yanaşı qəhrəmanların fəaliyyətini tam əks etdirmir. Müəllif yalnız qeyd olunan qadınların adlarını və iştirak etdikləri döyüş cəbhələri barədə yazmışdır [3].

Azərbaycanlı qadınların adlarına “Azərbaycanın şanlı oğulları “ adlı nəşr edilmiş 3 hissəli kitabda da rast gəlmək olur. Birinci kitabda snayper Ziba Qəniyeva və tibb bacısı Böyükxanım Bağırova haqqında məlumat əks edilib (2). 1945-ci ildə nəşrə gedən 3-cü kitabda isə döyüş meydanlarında qəhrəmanlıq göstərən azərbaycanlı qadınlardan partizan - həkim Aliyə, Pakizə və başqalarının igidliyi qısa təsvir edilib. Bu kitablar Kommunist Partiyası rəhbərliyinin göstərişi əsasında yazıldığından daha çox ideoloji-siyasi baxımından təbliğat rolunu oynayır. Müəllif qeyd olunan kitablarda azərbaycanlı qadınların adlarını çəkməklə kifayətlənmişdir [2].

M. Qurbanovun “Bir atıcı hissənin qələbə yolu” adlı əsərinin “Mozdokdan Çuquevədək" adlı hissəsində azərbaycanlı qadın tibb işçiləri Xanım Hənifəzadə,Cavahir Əliyeva, Ceyran Əliyeva, Kübra Əsədullayeva və b. döyüş meydanlarında şücaətlərinə toxunulmuşdur. Lakin müəllif burada azərbaycanlı qadınların keçdikləri döyüş yolu barədə ətraflı məlumat verməyib [9].

Tədqiqatçı S. Heydərov 1957-ci ildə nəşr etdirdiyi əsərində müxtəlif sahələrdə çalışan azərbaycanlı qadınların – zəhmətkeşlərin, həkimlərin, tibb işçilərinin və ziyalıların müharibədə iştirakını və fəaliyyətini göstərmişdir. Azərbaycan qadınlarının ön cəbhədə, hərbi əməliyyatlarda və partizan hərəkatındakı iştirakını vurğulayan müəllif bununla da xalqımızın müharibədə iştirakını önə çəkmişdir. Ancaq müəllif Azərbaycan qadınlarının müharibə zamanı müxtəlif peşə sahələrində bu cür qəhrəmanlığını Kommunist Partiyasının və sosializm quruluşunun qadınların cəmiyyətin inkişafında oynadığı rolun təsiri nəticəsində mümkün olması kimi önə çəkmişdir [6, s. 66].

Bununla belə, müəllif ön cəbhədə vuruşan qadınların adlarını çəkir, neftçi qadınların, fabrik və zavodlarda işləyən mühəndis və fəhlə qadınların cəbhəyə yardımı qüvvətləndirmək sahəsində orden və medallara layiq görüldüyünü qeyd edir. Adı çəkilən əsər müharibə illərində azərbaycanlı qadınların çoxtərəfli fəaliyyətini öyrənmək baxımından əhəmiyyətidir.

Ayro Sərkisovun yazdığı "Qafqazın qəhrəman qızları" (rus dilində) adlı əsərdə 1941-1945-ci illər müharibəsində alman faşistlərinə qarşı ön cəbhədə hərbi əməliyyatlarda iştirak edən qafqazlı qızlardan danışılır. Bunların arasında azərbaycanlı qadınlar da olduğundan əsər tarixşünaslığımız üçün dəyərlidir. “Sevastopolun müdafiəsinin iştirakçıları” bölməsində Əsmər Həsənova, “Paytaxtımız uğrunda” bölməsində snayperçi Ziba Qəniyeva, “Kiçik torpaq” bölməsində Suqra Paşayeva və Səkinə Əliyevanın müharibədə iştirakına aid qısa məlumatlar verilmişdir. “İtkin düşmüşlər” bölməsində Mədinə Əhmədova-nın və onun digər azərbaycanlı xanımlarla birlikdə müharibədə qəhrəmanlığından bəhs edilmişdir [17, s.99]. Həmin əsərin “Qanadlı qızlar” bölməsində azərbaycanlı təyyarəçi qadın Züleyxa Seyidməmmədovadan yazılır. Əsərdə müəllif azərbaycanlı qadın döyüşçülər haqqında qısa məlumat verməklə kifayətlənmişdir. Qeyd edilən məlumatlara digər əsərlərdə də rast gəlindiyindən elmi yeniliyi ilə fərqlənmir. Bununla belə,

azərbaycanlı qadınların 1941-1945-ci illər müharibəsində rolunu öyrənmək baxımından həmin əsərlərin də əhəmiyyəti vardır.

Q. Mehdiyevin əsərində müharibə illərində Bakıda qadınların hərbi-tibbi xidmət sahəsində hazırlıqlarını görmək mümkündür. Müəllif yazır ki, müharibə vaxtı Bakıda Qızıl Aypara Cəmiyyəti 6 min şəfqət bacısı və 13 min sanitar xidmətçisi təlim keçmişdi. Müharibə ərzində rayon hərbi komissarlıqlarında 51.254 atıcı, pulemyotçu, minaatan, snayper və paraşütçülər yetişdirilmişdir. Bakıdan müharibənin ilk aylarında 3500 tibb bacısı və sanitar dəstələr Aviasiya, Müdafiə və Kimya Quruculuğuna Yardım Cəmiyyətində hazırlanmışdı [15, s.38]. Lakin müəllif bu işlərin həyata keçirilməsini Kommunist Partiyasının fəaliyyəti nəticəsində mümkün olmasını vurğulamışdır. Qadınların müharibə illərində hazırlıq proseslərini tam göstərməmişdir.

Müharibə illərində 416-cı Taqanroq milli atıcı diviziyasının tərkibində azərbaycanlı qadınların şücaətinə yalnız R.Zeynalov və L. Borodetskinin birgə yazdıqları əsərdə rast gəlinir. Əsərin "Döyüşlərin qurtarma ərəfəsində" adlanan hissəsində müəlliflər 416-cı milli atıcı diviziyanın Kişinyov ətrafındakı qələbəsindən və 100 km irəliləyərək yeni rayonları azad etməsindən bəhs edir. Həmin diviziyanın hərbi əməliyyatlarda iştirak edən tibb batalyonlarının tibb bacıları S.Bayramova, A. Rasulova, R. Babayeva, B. Mircavadova, T. Dadaşova, R. Qasımzadə və b. haqqında az məlumat verirlər. Burada həmin azərbaycanlı qadınların Ukrayna, Moldova və Polşa ərazilərində şücaət göstərdiklərinə ümumi nəzər salınmışdır [12, s. 160]. Əsərdə həmin azərbaycanlı qadınların döyüş yolu ətraflı verilməmiş, yalnız onların adları və iştirak etdikləri hərbi əməliyyatlar göstərilmişdir.

A.Qritçenkonun 1973-cü ildə qələmə aldığı "Azərbaycanın şanlı vətənpərvər qadınları" adlı kiçik həcmli əsərdə 1941-1945-ci illər müharibəsində ön cəbhədə azərbaycanlı qadınlardan ilk təyyarəçi qadın Leyla Məmmədbəyovanın, ilk gəmi kapitanı Şövkət Səlimovanın və Katyuşa Mixaylovanın həyat və döyüş yolu qısaca işıqlandırılır. Burada müəllifin işlətdiyi *"Sovet*

*qadınlarının hünərini Kommunist Partiyasının tələblərinin yerinə yetirilməsi*" ifadəsi dövrün ideoloji yanaşmasını göstərir. Həmçinin qeyd olunur ki, 30 mindən çox azərbaycanlı qadın şəfqət bacısı kimi cəbhəyə yola düşmüşdü [8, s. 15].

Müharibə vaxtı Leyla Məmmədbəyovanın Bakıda paraşütçü desant klubunu açaraq 800 nəfəri cəbhə üçün paraşütçü hazırladığı göstərilir [8,s. 20].

Əsərin "Qəlbin tələbi ilə" başlığında ilk qadın gəmi kapitanı Şövkət Səlimovadan bəhs edilir. Müəllif onun "Dnepr" gəmisinə kapitan təyin edilməsini, Stalinqrad döyüşlərində iştirakını vurğulayır və "Qırmızı Ulduz" ordeninə layiq görülməsini qeyd edir. Əsərdə Xəzər Hərbi Dəniz Donanmasının şəfqət bacısı Katyuşa Mixaylova haqqında məlumat verilərək onun Smolenskdən Xəzər dənizi,Şimali Qafqazdan Kerç boğazına kimi, Rumıniya, Bolqarıstan, Macarıstan, Avstriya və Berlinədək çətin döyüş yolu keçdiyi göstərilir [8.,s.24]. Bu əsər müharibə illərində azərbaycanlı qadınların döyüş yolunu öyrənmək üçün əhəmiyyətli olsa da həcmcə kiçikdir və daha çox faktları əhatə etmir. Müəllif əsəri yazarkən daha çox qəzet materiallarına istinad etmişdir. Əsərdə azərbaycanlı qadınların müharibə illərində müxtəlif sahələrdə fəaliyyətləri əks olunmamışdır.

Həmin müəllifin "Müharibə yollarında" adlı rusca yazdığı kiçik əsərin "Səmanın sahibi" adlanan hissəsində Novorossiysk torpağında şücaət göstərmiş azərbaycanlı qadın Dürrə Məmmədovun igidliyi və hitlerçilərə qarşı döyüşlərdə iştirakı verilmişdir [11, s.28]. Müəllif bununla kifayətlənmiş və Dürrə Məmmədovanın döyüş yolu barədə geniş məlumat verməmişdir.

Azərbaycanlı qadınların müharibə illərində qəhrəmanlığına aid Z.Quliyevanın dissertasiyası da tarixşünaslıq baxımından əhəmiyyətlidir. Müəllif azərbaycanlı qadınların ön və arxa cəbhədə şücaətini, partizan hərəkatında iştirakına toxunmuşdur [13].

Sabir Məmmədov "Azərbaycanın qəhrəman qızları" adlanan əsərində 1941-1945-ci illər müharibəsində ön cəbhədə hərbi

əməliyyatlarda fərqlənən azərbaycanlı qadınlar barədə ümumi məlumat verir. “Azərbaycanın ilk şahin qadınları” başlığı altında Leyla Məmmədbəyova, Sona Nuriyeva və Züleyxa Seyidməmmədova haqqında bəhs edilmiş,lakin onların döyüş yolları geniş təsvir edilməmişdir. “Krımın dastanı” adlanan hissədə Sevastopol uğrunda igidlik göstərən Əsmər Həsənova,"Üç rəfiqə" başlığı ilə Kübra Məmmədova, Lətafət Məmmədova və Pakizə Vahabovanın 44-cü diviziya tərkibində qəhrəmanlığı haqqında qısa yazılmışdır [10,s.27-29]. Qeyd olunan əsərin sonrakı bölmələrində müəllif ön cəbhədə tibb xidməti göstərən azərbaycanlı qadınlardan Züleyxa İsmayılova, Zinyət Manafova, Dürrə Məmmədova, Lyudmila Kərimova və bir çoxlarının adlarını çəkmişdir. “416-cı diviziyanın qızları” adlı hissədə müəllif SSRİ və Avropanın bir çox şəhərlərində döyüşən azərbaycanlı qadınları təqdim etmiş, diviziyanın 152 döyüşçü qadınından 45 nəfərinin “Qırmızı Ulduz” ordeni, 42 nəfərinin isə “İgidliyə görə” və “Döyüş xidmətlərinə görə” medalları ilə təltif edildiyini göstərir [10,s.61]. Həmçinin əsərdə ilk “Qırmızı Ulduz” ordeni ilə təltif edilmiş şəfqət bacısı Böyükxanım Mircavadova, tibb bacısı Zəhra Səlimova haqqında da yazılmışdır. “Müxtəlif cəbhələrdən soraqlar” başlığı ilə müəllif azərbaycanlı döyüşçü qadınlardan bəhs edir. Snayperçi Ziba Qəniyeva, Aliyə Azərli, 56-cı ordunun 17-ci atıcı diviziyasının həkimləri Qumru və Qönçə Qaragözova bacılarının şücaəti barədə dəyərli məlumatlar vermişdir. “Düşmən arxasında” adlanan fəsildə partizan hərəkatında iştirak edən qadınlarımızdan Aliyə Rüstəmbəyova, Krımda Fatma Səlimova və Gülsüm Əliyeva, İtaliyada Mədinə Əhmədova və digər cəbhələrdə antifaşist hərəkatında iştirak edən cəsur xanımlarımız haqqında əsərdə geniş məlumat verilmişdir. “Azərbaycan qadınları Uzaq Şərq cəbhəsində” başlığı və Sovet qoşunlarının tərkibində Yaponiyaya qarşı döyüşən azərbaycanlı xanımlardan - Təzəxanım Əzimzadə, Cəvahir Abbasova, Mülayim Cəfərova və Fəridə Vəzirovanın igidliyinə həsr olunmuşdur ki, bu fakt digər tədqiqatlarda rast gəlinmir [10,

s.111]. Qeyd edilən əsər azərbaycanlı qadınların müharibə illərində döyüş əməliyyatlarında iştirakını araşdırmaq baxımından əhəmiyyətlidir.

Qeyd edilən əsərlər Azərbaycan sovet tarixşünaslığında azərbaycanlı qadınların müharibə illərində fəaliyyətlərini öyrənmək üçün kifayət etmir. Odur ki, müstəqillikdən sonra bu mövzunun araşdırılması ilə əlaqədar yeni tədqiqatlarda maraqlı faktlara rast gəlinir. Müasir tədqiqatçılar qeyd edilən mövzuya milli tarixşünaslıq baxımından yanaşmış, arxiv materiallarına istinad edərək elmi-nəzəri baxımdan yeniliklərlə çıxış etmişlər. Tarix elmləri doktoru, professor Mais Əmrahovun əsərində müharibə illərində mədəniyyət sahəsində azərbaycanlı qadınların töhfələri verilmişdir ki, bu sahəyə Azərbaycan sovet tarixşünaslığında çox rast gəlinmir [5].

Müasir dövrün araşdırmalarından olan Ramin Məmmədovun yazdığı əsərin "Döyüşən rəfiqələr" adlı hissəsində müəllif müxtəlif cəbhələrdə və döyüş meydanlarında qəhrəmanlıq göstərmiş Züleyxa Seyidməmmədova, Leyla Məmmədbəyova, Aliyə Rüstəmbəyova, Şəfiqə Əhədova, Züleyxa Rzayeva, Pakizə Manafova və Ziba Qəniyeva haqqında ümumi olaraq bəhs olunur [14, s. 14].

Azərbaycan Mülki Aviasiya Muzeyinin tərtib etdiyi "Azərbaycanın təyyarəçiləri Böyük Vətən müharibəsində" adlı kataloq faşizm üzərində qələbənin 70 illik yubileyinə həsr edilmişdir. Burada azərbaycanlı qadın aviatorlar barədə maraqlı məlumatlar, şəkillər və sənədlər yer almışdır. Kataloqda ilk təyyarəçi qadın Leyla Məmmədbəyovanın rəhbərliyi ilə 4 mindən çox planerçi-paraşütçü, yüzlərlə təyyarəçi hazırlandığı qeyd olunur. Leyla Məmmədbəyovanın döyüş uçuşları və müharibə dövründə Azərbaycanda fəaliyyət göstərmiş aviasiya zavodlarında qadınlarımızın əmək qəhrəmanlığı yer almışdır [7, s. 9].

Azərbaycanlı qadınların müharibədə iştirakı A.Cəfərovun əsərində də verilmişdir ki,burada naxçıvanlı qadınların şücaətinə toxunulmuşdur **[4].**

Müasir tarixşünaslığımızda azərbaycanlı qadınların müha-

ribə zamanı bütün sahələrdə iştirakına Almas Muradovanın monoqrafiyasında daha geniş yer verilmişdir. Əsərin birinci hissəsi azərbaycanlı qadınların hərbi əməliyyatlarında iştirakına, ikinci hissəsi isə azərbaycanlı qadınların arxa cəbhədə fəaliyyətinə aiddir. Müəllif monoqrafiyanın yazılmasında arxiv materialarından və sənədlərdən istifadə etmişdir ki, bu da monoqrafiyanın elmi baxımdan zənginliyini göstərir [16].

Beləliklə, qeyd edilən mövzu Azərbaycan sovet tarixşünaslığında təbliğat xarakterli yazılmış, müxtəlif müəlliflərin əsərlərində ümumi məlumatlar verilmişdir. Müasir dövr tarixşünaslığında isə məsələyə daha geniş və elmi-metodiki cəhətdən yanaşılmışdır.

Hazırda azərbaycanlı qadınların qeyd olunan müharibədə iştirakına aid yeni faktlar üzə çıxmaqdadır. Bu faktlar əsasında yeni əsərlər və elmi məqalələr yazılmış, internet saytlarında əks olunmuşdur (məsələn : www.savash-az.com ).

Müharibə illərində faşizmə qarşı mübarizədə doğmalarını və yaxınlarını itirən azərbaycanlı qadınların mənəvi-psixoloji hazırlıqları və hərbi vətənpərvərlik ruhunu bu araşdırmalardan az da olsa görmək mümkündür. Müstəqillikdən sonra erməni işğalına məruz qalan xalqımızın 2020-ci ilin 44 günlük Vətən müharibəsində qazandığı tarixi qələbədə Azərbaycan qadınlarının da böyük xidmətləri vardır. 1941-1945-ci illər müharibəsində olduğu kimi doğmaları Vətən müharibəsində və antiterror əməliyyatlarında şəhid olan azərbaycanlı qadınların mənəvi-psixoloji hazırlıqları və hərbi vətənpərvərlik ruhlarının yüksək olması Azərbaycan qadının gücünün göstəricisidir. Məhz Vətən müharibəsindən sonra Azərbaycan qadınlarının 1941-1945-ci illər müharibəsində iştirakına yeni siyasi və hərbi baxışdan yanaşılması formalaşmışdır.

Odur ki, bunları nəzərə alaraq azərbaycanlı qadınların 1941-1945-ci illər müharibəsində müxtəlif cəbhələrdə iştirakının öyrənilməsi erməni faşizminə qarşı mübarizədə Azərbaycan qadınların rolununun araşdırlması istiqamətində də mühüm tarixi və elmi təcrübədir.

**Шафа Мовсумов**

## РЕЗЮМЕ

## УЧАСТИЕ АЗЕРБАЙДЖАНСКИЕ ЖЕНЩИНЫ В ГОДЫ ВОЙНЫ 1941-1945 ГГ. В АЗЕРБАЙДЖАНСКОЙ СОВЕТСКОЙ ИСТОРИОГРАФИИ

В статье рассматривается борьба азербайджанских женщин против фашизма на различных направлениях в годы войны 1941-1945 годов и то, как их деятельность нашла отражение в азербайджанской советской историографии. Автор дал общий анализ научной литературы, написанной в советский период в Азербайджане, а также затронул труды некоторых современных исследователей.

Показана актуальность переосмысления героизма азербайджанских женщин в различных сферах в годы войны 1941-1945 годов после Отечественной войны 2020-ом года.

**Ключевые слова**: 1941-1945 гг., война, азербайджанские женщины, фронт, тыл, медицинское обслуживание, партизанское движение.

**Shafa Movsumov**

## SUMMARY

## PARTICIPATION OF AZERBAIJANI WOMEN DURING THE WAR OF 1941-1945 YEARS IN AZERBAIJANI SOVIET HISTORIOGRAPHY

The article examines the struggle of Azerbaijani women against fascism in various directions during the war of 1941-1945 years and how their activities were reflected in Azerbaijani Soviet historiography. The author gave a general analysis of scientific literature written during the Soviet period in Azerbaijan, and also touched upon the works of some modern researchers.

The relevance of rethinking the heroism of Azerbaijani women is shown. in various sphere during the war of 1941-1945 years after the Patriotic War of 2020 year.

**Key words:** 1941-1945, war, Azerbaijani women, front, rear front, medical services, partisan movement.

## ƏDƏBİYYAT

1. Araslı, H. Vətənpərvər qadınlar/ H. Araslı. -Bakı: Azərnəşr,-1942, -16 s.
2. Azərbaycanın şanlı oğulları / Buraxılışa məsul: S.Rəhimov, S.Məmmədov. Bakı, 1942–1945: I kitab, Azərnəşr,- 1942.-102 s.; II kitab,Azərnəşr,- 1944.-160 s.; III kitab, Azərnəşr,-1945,-166 s;
3. Cabbar, M. İgid qızlar/ M. Cabbar. - Bakı: Azərnəşr, 1943,- 17 s.
4. Cəfərov, F. A. Naxçıvan İkinci dünya müharibəsi illərində/ F. A. Cəfərov. - Bakı: ADPU nəşriyyatı, 2015. -304 s.
5. Əmrahov, M. İ. Azərbaycan mədəniyyəti İkinci Dünya müharibəsi illərində/ M. İ. Əmrahov.-Bakı: Elm, 2004,-336 s.
6. Heydərov,S. Azərbaycan Kommunist Partiyası Böyük Vətən Müharibəsi dövründə/ S. Heydərov.- Bakı: 1957,-94 s.
7. Hüseynova, F. Muradova, Y. Azərbaycanın təyyarəçiləri Böyük Vətən Müharibəsində (1941-1945)/ F. Hüseynova, Y. Muradova. – Bakı: Azərbaycan Hava Yolları, 2015, -79 s.
8. Qritçenko, A. Azərbaycanın şanlı vətənpərvər qadınları/ A. Qritçenko.-Bakı: Elm, 1973.- 28 s.
9. Qurbanov, M. Bir atıcı hissənin qələbə yolu/ M. Qurbanov. - Bakı,Azərnəşr,1954,-150 s.
10. Məmmədov, S. Azərbaycanın şanlı qızları/S. Məmmədov. - Bakı: İşıq, 1988,-114 s.
11. Гритченко, А. По дорогам войны/ А.Гритченко.-Баку: Знание,1981.-34 с.
12. Зейналов, Р. Бородецкий, Л. 416-я Таганрогская (военно-исторический очерк)/ Р. Зейналов, Л. Бородецкий. – Баку: Азербайджанское государственное издательство,1969.-254 с.
13. Кулиева, З. Г. Женщины Советского Азербайджана в годы Великой Отечественной войны (1941-1945 гг.) /Автореферат канд. Дисс.Баку:1987.
14. Мамедов, Р. Не война, а мир/ Р. Мамедов.-Баку: Зия, 2010.-160 с.

15. Мехтиев, Г. Г. Деятельност коммунистической партии Азербайджана в период Великий Отечественный Войне 1941-1945 гг./ Г. Г. Мехтиев. - Баку, 1967,-218 с.

16. Мурадова, А. Женщины Азербайджанской ССР в период войны 1941-1945 гг./А. Мурадова. – Баку: Elm və təhsil, 2016.- 94 с.

17. Саркисов, А. Героические дочери Кавказа/ А. Саркисов.- Баку:Азернешр ,1965. -179 с.

**GÜNEL MUSAYEVA***

# FAŞİST NJDENİN ERMƏNİSTANDA QƏHRƏMANLAŞDIRILMASI: TARİXİ VƏ İDEOLOJİ ASPEKTLƏR

## XÜLASƏ

Bu məqalədə İkinci Dünya Müharibəsi zamanı nasistlərlə əməkdaşlıq etmiş Garegin Njde-nin Ermənistanda qəhrəmanlaşdırılması məsələsi nəzərdən keçirilir. Tarixi faktlar əsasında onun ideoloji baxışları və nasizm ilə əlaqəsi təhlil olunur. Həmçinin onun kultunun yaradılmasının siyasi və ideoloji səbəblərinə, eləcə də bu təbliğatın regional və beynəlxalq nəticələrinə diqqət yetirilir.

**Açar sözlər:** Nasizm, tsegakron, ideologiya, Ermənistan, Njde, tarix, siyasət

**Giriş.** XX əsrin siyasi və ideoloji təlatümləri bir çox millətçi hərəkatların formalaşmasına və radikallaşmasına səbəb olmuşdur. Bu dövrdə erməni millətçiliyinin ideoloji əsaslarının təşəkkül tapmasında və sonrakı mərhələdə təhlükəli yönlərə inkişaf etməsində əsas simalardan biri Qaregin Njde olmuşdur. Erməni millətçisi və terrorçusu, həmçinin İkinci Dünya Müharibəsi zamanı nasist Almaniyası ilə əməkdaşlıq etmiş şəxs, sadəcə Ermənistanın deyil, ümumilikdə erməni diasporasının milli kimlik və ideoloji oriyentasiyasına ciddi təsir göstərmişdir. Onun yaratdığı "Tsehakron" ideologiyası xarici görünüşdə mədəni və mənəvi dəyərlərə əsaslansa da, mahiyyət etibarilə irqçi, ekspansionist və nasist ideologiyasının əsas elementlərini özündə ehtiva edir.

* AMEA A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, tarix üzrə fəlsəfə doktoru.

Bu məqalədə Qaregin Njdenin siyasi və ideoloji fəaliyyətinin tarixi kontekstdə təhlili aparılır, onun nasist Almaniyası ilə əməkdaşlığı, “Tsehakron” nəzəriyyəsinin ideoloji strukturu və bu nəzəriyyənin müasir Ermənistanda dövlət ideologiyası səviyyəsində tətbiqi məsələləri araşdırılır. Eyni zamanda, Njdenin Ermənistanda rəsmi səviyyədə qəhrəmanlaşdırılması, bu siyasətin beynəlxalq hüquq və insan haqları prinsipləri ilə ziddiyyət təşkil etdiyi faktlarla göstərilir. Məqalə, həmçinin Ermənistanın monoetnik dövlətə çevrilməsi prosesinin ideoloji və praktik əsaslarını ifşa edərək, müasir regional təhlükəsizlik kontekstində bu tendensiyaların doğura biləcəyi nəticələri qiymətləndirməyə çalışır.

**Kimdir Qaragin Njde?** Qaregin Njde (əsl adı Ter-Arutyunyan), erməni millətçisi və terrorçusu, həmçinin İkinci Dünya Müharibəsi zamanı nasist Almaniyası ilə əməkdaşlıq etmiş şəxsdir. 1908-ci ildə “Daşnaksütyun" (ARF) partiyasına qoşulub və erməni millətçiliyini və müstəqilliyini təbliğ edirdi. 1912-ci ildə Balkan müharibələrində bolqar ordusunda erməni könüllülərinə rəhbərlik edib. Birinci Dünya Müharibəsi zamanı ruslar tərəfindən Osmanlıya qarşı döyüşən erməni silahlı dəstələrində komandir olub [1, s.4].

1918–1921-ci illərdə Njde Azərbaycanla münaqişələrdə fəal rol oynayıb. Zəngəzur və Göyçə bölgələrində azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə və soyqırımlarda iştirak edən Njde sovet ordusunun Zəngəzura daxil olmasından sonra öz dəstələri ilə İranın Culfa bölgəsinə keçib [4, s.22]. Buradan həm siyasi fəaliyyətini davam etdirir, həm də ermənilərin yerləşdirilməsində rol oynayır. İrandan sonra Bolqarıstana, sonra isə Fransaya gedir. Burada erməni diasporası ilə sıx əlaqədə olur, “Tsehakron” ideologiyasını inkişaf etdirir, müxtəlif erməni təşkilatlarında çıxışlar edir, yazılar yazır.

1932-ci ildə Bolqarıstanda yaşayan ermənilər, həmin vaxt Sofiyada yaşayan Qaregin Njdeni “Daşnaksütyun” partiyasının XII qurultayına öz rəsmi nümayəndələri olaraq seçdilər. Bu hadisə Njdeni daşnak partiyasını ideoloji baxımdan islah etmək

məqsədi ilə özünün sağçı radikal millətçi ideologiyası olan Tsehakron nəzəriyyəsini yaratmağa təkan verdi.

Öz nəzəriyyəsini təbliğ etmək məqsədilə Njde, uzun müddət Bolqarıstandakı erməni diasporasının lideri kimi Sofiyada "Xrovk" adlı millətçi jurnal nəşr edirdi. Daha sonra isə maliyyə baxımından daha az xərcli olan "Razmig" qəzetini dərc etməyə başladı. Hər iki nəşrin dəyişməz redaktoru Njdenin həmfikri və silahdaşı Hayk Asatryan idi. Onun 1943-cü ildəki ölümündən sonra bu vəzifəni Garo Gevorkyan icra etdi [3, s.57].

Məhz 1932-ci ildə Njde bu jurnalda özünün "Tsehakron zəfərin təminatıdır" adlı ilk məqaləsini dərc etdirdi. Bu məqalədə o, "tsehamard" – yəni ariyalı erməni anlayışını təqdim edərək Tsehakron nəzəriyyəsinin əsaslarını izah etdi. "Tsehamard" – sözün əsl mənasında "irq insanı", yəni erməni millətinin qan və ruh etibarilə təmiz, ali təmsilçisi deməkdir. Və bu ideologiyanın əsasında türk-müsəlmanlara qarşı nifrət dayanırdı. Qeyd etmək lazımdır ki, ari irqin üstünlüyü, "Ubermensch" (üstün insan) nəzəriyyəsi yəhudilərə, slavyanlara qarşı irqçi münasibət, qarışıq evliliklərin qadağası nasist ideologiyasında da öz əksini tapmışdır [6, s.546].

Digər tərəfdən alman torpağının (Heimat) müqəddəsliyi və müdafiəsi əsas şərt idisə, Tseqakron ideologiyasında Ermənistan torpağı müqəddəs sayılır, torpaqla ruhani bağlılıq öz əksini tapır. Njde özünü erməni xalqının ali lideri, "Sparapet" adlandırırdı eyni Hitlerin "Führer" xalqın mütləq rəhbəri adlandırması kimi.

Beləliklə, Njdenin fəal publisistik və nəşriyyat fəaliyyəti nəticəsində Bolqarıstan, erməni millətçiliyinin ən radikal və təhlükəli ideoloji forması olan məkan kimi tarixə düşdü. Bu məqalənin həmin dövrdə dərc olunması təsadüfi hadisə deyil, əksinə, Qaregin Njdenin alman nasizminin rəhbəri Adolf Hitlerin simasında özünə nümunəvi bir ideal tapmasının qanunauyğun nəticəsi idi.

Həmin il – 7 iyulda keçirilmiş parlament seçkilərində NSDAP (Almaniya Milli Sosialist Fəhlə Partiyası) qətiyyətli qələbə qazanaraq Reyxstaqda çoxluq əldə etmiş, Adolf Hitler isə

10 aprel tarixində keçirilmiş Almaniya reyxsprezidenti seçkilərində səslərin üçdə birini toplayaraq ikinci yeri tutmuş və reyxskansler vəzifəsinə əsas namizədə çevrilmişdi.

Almaniyada və onun qonşuluğunda yerləşən ölkələrdə nasizmin nüfuzunun artmasını, eyni zamanda Böyük Britaniya və ABŞ-ın mühafizəkar dairələrinin bu ideologiyaya marağını müşahidə edən Njde intuitiv olaraq hiss etmişdi ki, erməni diasporası üçün hazırladığı yeni ideologiya da nasizmə bənzər xarakter daşımalıdır – çünki bu cür ideologiyalar bir sıra Avropa ölkələrində böyük populyarlıq qazanırdı. Buna görə də o, nasist ideologiyasının bir çox əsas prinsiplərini öz nəzəriyyəsinə daxil etmişdir.

Nasizm və faşizm iki avtoritar ideologiyalar, hər ikisi güclü liderə itaət, demokratik prinsiplərin rədd edilməsi və milli birliyin önə çəkilməsi kimi oxşar cəhətlərə malik olsa da, onların arasında mühüm fərqlər mövcuddur. Faşizm ilk olaraq İtaliyada Benito Mussolini tərəfindən yaradılmış və dövlətin hər şeydən üstün tutulduğu, millətin birləşməsi və imperiya quruculuğu ideyalarına əsaslanmışdır. Faşist ideologiya irqçiliyə ilkin mərhələdə önəm verməmiş, daha çox dövlətin gücləndirilməsi və sosial siniflərin korporativ əməkdaşlığına yönəlmişdir. Nasizm isə Almaniyada Adolf Hitler tərəfindən formalaşdırılmış və irqçilik, xüsusilə də antisemitizm ideologiyanın əsas sütununa çevrilmişdir. Nasistlər yəhudiləri, çingenələri və digər azlıqları “aşağı” irq kimi görərək onların sistemli şəkildə məhv edilməsini planlamış və həyata keçirmişlər. Faşizm dinlə müəyyən əməkdaşlıq içində olsa da, nasizm dinə qarşı daha şübhəli və düşmən münasibət sərgiləmiş, ari irq mifi əsasında yeni ideoloji sistem yaratmağa çalışmışdır [5, s.3]. Həm faşizm, həm də nasizm iqtisadiyyatda dövlət nəzarətini təbliğ etsə də, nasizmdə bu nəzarət əsasən irq baxımından “təmiz” cəmiyyət yaratmaq məqsədi daşıyırdı. Beləliklə, nasizm faşizmdən daha radikal, daha aqressiv və irqçi mahiyyət daşıyırdı.

Njde alman nasizminin ideologiyasından öz Tsehakron

nəzəriyyəsinə yeddi əxlaqi dominant (və ya kult) konsepsiyasını birbaşa köçürmüşdür: Vətən kultu, Qan kultu, Dil kultu, Millət uğrunda ölənlərin kultu, Əcdad kultu, Güc kultu, Lider kultu.

1991-ci ildən Ermənistanın Respublika Partiyasının ideoloji tezisləri, əgər məsələnin mahiyyətinə baxılsa, Qaregin Njdenin Tsehakron nəzəriyyəsinin qanunları formasında təqdim edilərək bənzər məqsədli ideoloji üçlüyü əhatə edirdi: partiya dövlətinin qurulması, burada bütün əsas vəzifələri Respublika Partiyasının nümayəndələri və ya Njdenin ideoloji davamçıları tutmalı idi. Erməni xalqı üçün "yaşamaq üçün yer"in (Lebensraum) əldə edilməsi – bu məqsədlə qonşu ölkələrin, yəni Türkiyənin, Gürcüstanın və Azərbaycanın ərazilərinin bir hissəsinin ilhaq olunması nəzərdə tutulurdu. "Türk məsələsinin" həlli – yəni Ermənistan ərazisindəki ermənilərlə digər türk-müsəlman xalqları arasında tam ayrılıq yaradılması və bu xalqların ölkə ərazisindən tam şəkildə qovulması siyasəti əsasını təşkil edir.

Göründüyü kimi, alman nasizmi ilə erməni millətçiliyi arasındakı əsas fərq yalnız birinci dərəcəli düşmənin kim sayılması məsələsində idi. Qalan bütün ideoloji prinsiplərdə isə iki ideologiya arasında yüksək səviyyədə uyğunluq və oxşarlıq mövcuddur.

Bu planların həyata keçirilməsində alman nasistləri ilə erməni millətçiləri arasında da yalnız bəzi fərqlər mövcud idi. Hitler və onun tərəfdarları əvvəlcə altı il ərzində öz partiya dövlətlərini qurmuş, dünya hökmranlığı uğrunda müharibəyə hazırlaşmış, sonra isə altı il müharibə apararaq tam hərbi-siyasi məğlubiyyətə uğramışdılar.

Erməni millətçiləri isə əksinə, ilk olaraq Sovet İttifaqının dağılmasından sonra – 1988–1994-cü illərdə tarixə Qarabağ müharibəsi kimi düşmüş – "yaşamaq üçün yer" uğrunda müharibəyə başladılar, Ermənistan və işğal edilmiş Azərbaycan torpaqlarından 1,2 milyonadək etnik azərbaycanlını qovdular, və yalnız bundan sonra partiya dövlətinin qurulmasına keçdilər. Bu, Ermənistanda 1999-cu ilin noyabrında baş vermiş dövlət çevrilişi nəticəsində hakimiyyətə gəlmiş Qarabağ ermənilərin-

dən ibarət qeyri-qanuni silahlı birləşmələrin sahə komandirlərinin xuntası dövrü idi. Bu xuntaya Azərbaycan vətəndaşı olmuş və orada doğulmuş Robert Koçaryan və Serj Sarqsyan rəhbərlik edirdi. Onların hakimiyyət ehtiraslarını və şəxsi mənfəət arzularını ifadə edən əsas siyasi alət isə Ermənistanın Respublika Partiyası oldu.

Nasist Almaniyasında NSDAP partiyası necə fəaliyyət göstərirdisə, Ermənistanda da hakim partiya eyni şəkildə özünə mühafizə dəstələri yaratmışdı – bu funksiyanı "Könüllülər İttifaqı" (Yerkrab) yerinə yetirirdi [10]. Bu ittifaqın üzvü yalnız Qarabağ döyüşlərində iştirak etmiş veteranlar və ya Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirilmiş Ermənistan Silahlı Qüvvələrinin – "Artsax Müdafiə Ordusu" adlanan işğalçı korpusunun ehtiyata buraxılmış hərbçiləri ola bilərdi.

Könüllülər İttifaqı, yarıhərbi təşkilat olaraq Ermənistan Silahlı Qüvvələrinin sisteminə inteqrasiya olunmuş, xüsusi hüquqi statusa, öz mülkiyyətinə (o cümlədən hərbi əmlaka) və fərdi rəmzlərə malik idi. Bu xüsusiyyətlərinə görə nasist Almaniyasında NSDAP-ın SA və SS dəstələrinə çox bənzəyirdi. Yerkrabın struktur bölmələrinə rəsmi qaydada təbliğat aparmaq, çağırışa qədər və sonra gənclərin hazırlanması, mülki müdafiə, müharibə və fövqəladə hallarda əhali üçün əmək mükəlləfiyyəti təşkil etmək və digər bu tipli fəaliyyətlər həvalə olunmuşdu – yəni, 1934-cü ildən sonra Almaniyada yenidən təşkil olunmuş SA-nın funksiyalarına tam uyğun gələn vəzifələr icra edirdi.

Müasir erməni millətçiləri, alman nasistlərindən fərqli olaraq, SSRİ-nin dağılmasından sonra nəzarət etdikləri ərazilərdə, o cümlədən Azərbaycanın işğal olunmuş rayonlarında, Qaregin Njdenin Tsehakron nəzəriyyəsinin – hitlerizm ideyalarına çox bənzəyən bir ideologiyanın – əsas müddəalarını demək olar ki, tam şəkildə həyata keçirməyə nail olublar. Son otuz il ərzində məqsədyönlü və planlı şəkildə aparılmış bu siyasətin nəticəsi olaraq Ermənistan faktiki olaraq monoetnik dövlətə çevrilmişdir. Hazırda ölkə əhalisinin

strukturunda etnik azlıqların payı 1%-dən artıq deyil.

Bu yolda ilk addım 1988–1992-ci illərdə atılıb – həmin dövrdə Ermənistandan və Azərbaycanın işğal olunmuş ərazilərindən bütün azərbaycanlı əhali qovulub. Onların ardınca ölkəni yəhudilər və ruslar da tərk ediblər. Hazırda Ermənistandakı yəhudi icmasının sayı 100 nəfərdən az, rus icmasının isə təxminən 5 min nəfər olduğu bildirilir və onların da əksəriyyəti qarışıq nikahda olan şəxslərdən ibarətdir.

Bu proses rus dilində tədris aparılan məktəblərin əksəriyyətinin [7, s.67-83], azərbaycandilli məktəblərin isə tamamilə bağlanmasına gətirib çıxarıb. Təhsil dilinin seçilməsi imkanının olmaması, digər etnik azlıqların – asorilərin və yezidi kürdlərinin – assimilyasiyasına və ya erməniləşdirilməsinə şərait yaradır.

Bu siyasətin Ermənistanın rəsmi hakimiyyətləri tərəfindən həyata keçirilməsi, Avropa Şurasının 1 fevral 1995-ci il tarixli Milli azlıqların hüquqlarının müdafiəsinə dair Çərçivə Konvensiyasının əsas müddəalarına kökündən ziddir [9].

Müasir Ermənistanın demək olar ki, tamamilə monoetnik olması faktı Ermənistanın xarici işlər nazirinin müavini Aşot Hovakimyan tərəfindən BMT Baş Assambleyasının Üçüncü Komitəsində 25–28 aprel 2017-ci il tarixlərində keçirilən dinləmələr zamanı, irqi ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair Beynəlxalq Konvensiyanın yerinə yetirilməsi üzrə hesabatın müzakirəsi zamanı etiraf edilmişdir [3, s.63-64]. O, suala cavab olaraq ölkədə bir dənə də olsun etnik azərbaycanlının qalmadığını səmimi şəkildə bildirmişdir. Halbuki SSRİ-nin dağılmasından əvvəl Ermənistanda yarım milyondan çox azərbaycanlı yaşayırdı.

Beləliklə, nazir müavini, əslində, Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın 30 yanvar 2003-cü ildə Avropa Şurası Parlament Assambleyasının 1-ci sessiyasında səsləndirdiyi fikirləri - yəni ermənilərlə azərbaycanlıların "genetik uyğunsuzluğu" kimi açıq-aşkar rasist və Qaregin Njde tərəfindən irəli sürülən tsexakron nəzəriyyəsinin ruhunda olan

tezisi - bir daha təkrar etmiş oldu [2, s.18].

Erməni millətçiliyinin ideologiyasını praktikada həyata keçirmək baxımından bəzi məsələlərdə alman nasizmindən də irəli getdiyini sübut edən başqa bir məqam da mövcuddur. Nasistlər “yaşayış məkanı”nı ələ keçirdikdən sonra onun tam almanlaşdırılmasını, o cümlədən bütün coğrafi adların dəyişdirilməsini planlaşdırırdılar, lakin bunu həyata keçirə bilmədilər. Ermənistanda isə bu praktika artıq reallığa çevrilmişdir – bütün toponimlərə və hidronimlərə erməni dilində yeni adlar verilib.

Üstəlik, bu dəyişiklik tərkibində türk, fars və ya rus mənşəli ənənəvi adların erməni dilinə tərcüməsi yolu ilə deyil, həmin coğrafi ərazilərin qədim (ermənilərdən əvvəlki) tarixi ilə heç bir əlaqəsi olmayan, prinsip etibarilə 2000-ə yaxın tamamilə yeni toponim və hidronimin yaradılması ilə həyata keçirilmişdir. Bu isə BMT-nin bir hissəsi olan YUNESKO-nun prinsiplərinə tamamilə ziddir. Təbii ki, Ermənistanın hüdudlarından kənarda bu yeni coğrafi adlar heç bir rəsmi dairə tərəfindən tanınmır. İşğaldan azad edilmiş ərazilər Azərbaycanın yurisdiksiyasına qayıtdıqdan sonra bütün əvvəlki adlar bərpa olunmuşdur.

BMT Baş Assambleyasının 21 dekabr 1965-ci il tarixli 2106 saylı qətnaməsində qeyd olunur ki, irqi fərqlərə əsaslanan hər hansı üstünlük nəzəriyyəsi elmi baxımdan əsassız, mənəvi baxımdan qınanmalı, sosial baxımdan isə ədalətsiz və təhlükəlidir və irqi ayrı-seçkiliyin harada, hansı formada – nə nəzəriyyədə, nə də praktikada – heç bir əsaslandırması ola bilməz [8].

Lakin müasir Ermənistanda Tsexakron-Njde nəzəriyyəsi kimi millətçi önyarğı rəsmi dövlət ideologiyası səviyyəsinə qaldırılmışdır. Bu gerçəkliyi sübut edən faktlardan biri həmin nəzəriyyənin müəllifi olan şəxsin Ermənistanda ictimai yerlərdə abidələrinin ucaldılmasıdır. Bu, erməni cəmiyyətinin şüurunda bu önyarğının qələbəsi ideyasının monumental şəkildə təbliğinə xidmət edir. Həmçinin, Ermənistan hakimiyyəti xaricdəki erməni diasporası nümayəndələrini də digər ölkələrdə oxşar addımlar atmağa təşviq edir.

Ermənistan dövləti tərəfindən Njde-nin abidəsinin qəhrəmanlaşdırılması məqsədilə dövlət səviyyəsində bir sıra addımlar atılmışdı. 2001-ci ildə Ermənistan Mərkəzi Bankı tərəfindən 100 dram dəyərində “Qaregin Njde” xatirə gümüş pulun (170 ədəd tirajla) və onun qızıl suyuna çəkilmiş analoqunun (30 ədəd tirajla) buraxılması həyata keçirilmişdir. Həmçinin həmin ildə Ermənistan Respublikasının Silahlı Qüvvələri tərəfindən “Qaregin Njde” medalı təsis edilmişdir. Təltifetmə Ermənistan müdafiə nazirinin əmri ilə həyata keçirildi.

2002-ci ildə Ermənistan hökuməti tərəfindən Zəngəzur (Sünik) vilayətinin inzibati mərkəzi olan Qafan (Kapan) şəhərindən bir neçə kilometr məsafədə, Xustup dağlarının ətəyindəı Njdeyə abidə ucaldılmışdır. 2013-cü ildə Rejissor Q. Keşişyanın “Qaregin Njde” bədii filminin dünya premyerası Yerevanda yerləşən “Moskva” kinoteatrında baş tutmuşdur. Film Ermənistan Mədəniyyət Nazirliyinin sifarişi ilə çəkilmişdir.

2016-cı ildə isə Ermənistan Hökumət Evinin qarşısında, Yerevanın mərkəzi meydanında Njdeyə ucaldılmış abidənin təntənəli açılışı həyata keçirilmişdir. Açılış mərasimdə Ermənistan hökümətin o zamanki prezidenti Serj Sarkisyan, hökumət nümayəndələri iştirak etmişdilər.

İlk dəfə bütün bunlara siyasi qiyməti Azərbaycan Prezidenti İlham Əliyev Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyi ərəfəsində, 2019-cu il 11 oktyabr tarixində MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində Ermənistanda faşistlərin qəhrəmanlaşdırıldığını bildirib. O qeyd edib ki, MDB ölkələrinin rəhbərləri dəfələrlə faşizmin qəhrəmanlaşdırılmasına qarşı çıxıblar, –“Təəssüf ki, belə hallar MDB məkanında, xüsusilə Ermənistanda baş verir. Belə ki, əvvəlki hakimiyyət Yerevanın mərkəzində nasist cəlladı və satqın Qaregin Ter-Arutyunyana – alman faşistlərinə 'Qaregin Njde' ləqəbi ilə xidmət etmiş şəxsə abidə ucaldıb" [11], – deyə Prezident İlham Əliyev bəyan edib.

**Nəticə.** Qaregin Njdenin siyasi və ideoloji fəaliyyəti, onun irəli sürdüyü "Tsehakron" nəzəriyyəsi və bu ideologiyanın Ermənistan cəmiyyətində və dövlət strukturlarında rəsmi və qeyri-rəsmi səviyyədə tətbiqi faktları göstərir ki, Ermənistan milli kimliyi və dövlətçilik ideyasını irqçi və terrorçu dünyagörüş üzərində formalaşdırmağa çalışmışdır. Njdenin nasist Almaniyası ilə əməkdaşlığı və ariyalı irqə əsaslanan ideoloji baxışları onun sadəcə bir tarixi şəxsiyyət olmadığını, eyni zamanda müasir erməni millətçiliyinin və monoetnik dövlət quruculuğu strategiyasının simvoluna çevrildiyini nümayiş etdirir.

Ermənistanda onun qəhrəmanlaşdırılması, abidələrinin ucaldılması və ideoloji fikirlərinin təbliğ olunması beynəlxalq hüquq və insan haqları prinsipləri ilə ziddiyyət təşkil etməklə yanaşı, regional sülhə və etnik azlıqlara da ciddi təhlükə yaradır. Azərbaycanın 30 il ərzində işğal olunmuş ərazilərində həyata keçirilmiş etnik təmizləmə, toponimlərin dəyişdirilməsi və digər assimilyasiya siyasətləri də bu ideologiyanın praktik nəticələridir.

Bu kontekstdə Njdenin irsinin tənqidi yanaşma ilə yenidən qiymətləndirilməsi, regionda davamlı sülhün və birgəyaşayışın bərqərar olunması üçün zəruri addımlardan biri kimi çıxış etməlidir. Beynəlxalq təşkilatlar və xüsusilə insan haqları institutları bu cür irqçi ideologiyaların dövlət səviyyəsində təbliğinə qarşı prinsipial mövqe sərgiləməli, bu tendensiyaların qarşısının alınmasına yönəlmiş real mexanizmlər işə salmalıdır.

**Гюнель Мусаева**

**РЕЗЮМЕ**

**ГЕРОИЗАЦИЯ НАЦИСТА НЖДЕ В АРМЕНИИ: ИСТОРИЧЕСКИЕ И ИДЕОЛОГИЧЕСКИЕ АСПЕКТЫ**

В данной статье рассматривается героизация Гарегина Нжде, сотрудничавшего с нацистами во время Второй мировой войны, в Армении. На основе исторических фактов анализируются его

идеологические взгляды и связь с нацизмом. Также внимание уделяется политическим и идеологическим причинам создания его культа, а также региональным и международным последствиям этой пропаганды.

**Ключевые слова**: нацизм, цехакрон, идеология, Армения, Нжде, история, политика

**Gunel Musayeva**

**SUMMARY**

**THE GLORIFICATION OF NAZI NZHDEH IN ARMENIA: HISTORICAL AND IDEOLOGICAL ASPECTS**

This article studies the glorification of Garegin Nzhde, who collaborated with the Nazis during World War II, in Armenia. Based on historical facts, it analyzes Nzhde's ideological views and his association with nazists. The study also focuses on the political and ideological reasons behind the creation of his cult, as well as the regional and international implications of this propaganda.

**Key words:** Nazism, Tseghakron, ideology, Armenia, Nzhdeh, history, politics

**ƏDƏBİYYAT**

***Rus dilində:***

1. Гарагин Нжде и его учение, Ереван 2004: Республиканская партия Армении
2. Кузнецов О. Аллюзии современной государственной идеологии Армении/ ВМТМ, 2021
3. Кузнецов О. Практика героизации нацизма в Армении. политико-правовой анализ, Qafqazşünaslıq jurnalı, № 1, s.41-67
4. Овсепян В. Гарегин Нжде И КГБ воспоминания разведчика, Ереван 2007,

***İngilis dilində:***

5. Elewomawu A.R. Fascism and Nazism: The similarities and

differences examined/ International Journal Advances in Social Science and Humanities, p. 3 (1-7)

6. Holborn H. Origins and political character of Nazi ideology / Political Science Published By: Oxford University Press, Vol. 79, No. 4 (Dec., 1964), p.546 (542-554)

7. Musayeva G. SOCIO-POLITICAL STRUGGLE CONCERNING THE RUSSIAN LANGUAGE IN ARMENIA, Review of Armenian Studies, Issue 46 (2022): 67-83.

***İnternet resursları:***

8. https://legal.un.org/avl/pdf/ha/cerd/cerd_ph_r.pdf Конвенция о ликвидации всех форм расовой дискриминации

9. https://rm.coe.int/168007cddc Рамочная конвенция о защите национальных меньшинств

10. https://www.spyur.am/ru/companies/union-of-yerkrapah-volunteers/1143/ Союз добровольцев «Еркрапа» Армения

11. https://president.az/az/articles/view/34418/videos MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında İlham Əliyevin nitqi, 11 oktyabr 2019.

**ZAKİR KƏRİMOV***

# SINDIRILMIŞ TALELƏR

## XÜLASƏ

Bəşəriyyət tarixinin ən dəhşətli və dağıdıcı müharibəsi olan II Dünya müharibəsi və onun üzvi hissəsi olan 1941-1945-ci illər müharibəsinin 80 illiyi bu il tamam olur. Bu müharibənin ayrı-ayrı aspektlərinə dair Azərbaycan tarixşünaslığında müxtəlif səpkili əsərlər yazılmışdır. Lakin bu müharibə haqqında elə məqamlar vardır ki, müharibə veteranlarının yaddaşlarındakı xatirələrdə yaşamışdır. Sovet sisteminin yasaqlarına baxmayaraq bu xatirələr vasitəsi ilə müharibə həqiqətləri ictimaiyyətə bəlli olmuşdur. Göstərilən məqalə həm xatirələr, həm də yazılı tarixi ədəbiyyatın işığında müharibənin ən ağrılı problemlərindən biri olan hərbi əsirlərin taleyinə həsr olunmuşdur. Bu barədə məlumatlar həm müharibə veteranlarının dilindən eşidilmiş, həm də tarixi ədəbiyyatdan toplanmışdır. Məqalədə göstərilmişdir ki, sovet əsgərlərinin əsir düşməsinin əsil səbəbi İ.V.Stalin başda olmaqla SSRİ-nin ali hərbi-siyasi rəhbərliyinin ölkənin müdafəsi üçün vaxtında lazımi tədbirləri görməməsi və sovet komandanlığının müharibənin əvəlində yol verdiyi strateji və taktiki səhvlər idi. Bunun acısını isə milyonlarla sovet əsgəri dadmışdır, onlar həm alman, həm də bolşevik həbs düşərgələrində işgəncələrə məruz qalmış,bir çoxları həyatlarını itirmişlər.

**Açar sözlər**: müharibə, sovet əsgəri, əsir, cəza, əfv

Xatirələr tarixi proseslər barədə informasiya əldə etmək üçün mühüm mənbələr sayılır.Bəzən yazılı sənədlərdə öz ifadəsini tapmamış və ya baxılması "əlçatmaz" olan sənədlərdən məlumatları əldə etmək mümkün olmadıqda belə informasiyaları xatirələrdən əldə etmək mümkün olur. Başa çatmasının 80 illiyi bu il tamam olan II Dünya müharibəsi və onun tərkib hissəsi olan

* Azərbaycan Dövlət Peqaqoji Universiteti, tarix üzrə fəlsəfə doktoru, dosent.

1941-1945-ci illər müharibəsi haqqında da bunu demək olar. Sovet dövründə bir məktəbli, sonra isə bir tələbə olaraq bu müharibə haqqında dəsliklərdə və tarixi ədəbiyyatda rast gəlmə-diyim bəzi məlumatları o zaman həyatda olan müharibə veteran-larının dilindən eşitdim. Hansı ki, biz yalnız indi bu məlumatlarla tarixi və siyasi ədəbiyytda rastlaşırıq. Bunların bəzisini diqqətinizə çatdırım.

V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitunun tarix fakül-təsinin ikinci kursunda oxuyarkən (1975-ci il mayı) bizə verilən qisamüddətli tətildən istifadə edərək doğma rayonuma getmək üçün Bakı şəhər avtovağzalına gəldim. Avtobusun yola düşməsinə xeyli qalmışdı, gözləmə salonunda skamyada oturmuş, səliqəli geyinmiş, yaxası orden-medallarla dolu bir şəxsi gördüm. Hiss olunurdu ki, veterandır. Salam verib, yanında oturdum. Dayı, maşallah gör nə qədər orden-medalın var, - dedim. Bəlli oldu ki, Şamaxıdandır, Bakıya yeni bir medalla təltif etmək üçün çağrılıb-mış. Mən ona döyüş yolu ilə bağlı suallar verdim. Aydın oldu ki,müharibənin əvvəlində cəbhəyə çağrılıb. Döyüş yoldaşlarının əksəriyyəti azərbaycanlılar olub, komandirləri də ruslar imiş. Döyüş tapşırıqları bizə rus dilində verilirdi, biz isə heç nə başa düşmürdük. Məsələn,"uzan" deyəndə qalxırdıq, "qalx" deyəndə uzanırdıq və s. yaxud da, rus komandirləri elə başa düşürdü ki, guya biz əmrləri qəsdən yerinə yetirmirik və ya guya biz ayağa durub almanlara işarə veririk bu istiqamətə atəş açsınlar. Nizam-naməni pozduqları adı altında komandirlər onları hərbi tribunala verirdilər. Bəzi generallar isə əmri yerinə yetirməyən azərbay-canlıları yerindəcə güllələyirdilər. Başqa bir məsələ o idi ki, ruslar hücum zamanı bizi önə salır, özləri arxamızdan gəlirdilər. Almanların güclü təzyiqi altında geri çəkilmək istəyəndə bizi güllələyirdilər. Deməli,biz iki od arasında qalırdıq, ön tərəfdən bizi almanlar,arxadan isə ruslar güllələyidilər. Haqsızlığın biri də bu idi ki, hər hansı bir məntəqəni, ərazini düşməndən azad edəndə qələbə rus və gürcülərin adına yazılır, əsasən onlar mükafatlandırılırdı. Biz bununla bağlı Azərbaycan hökumətinə şikayət etdik. Hökumətin başçısı Mir Cəfər Bağırov cəbhəyə gəldi, bizimlə görüşdü, biz qarşılaşdığımız çətinlikləri ona

çatdırdıq. O, bir neçə rus zabitini cəzalandırdı. Onun səyi nəticəsində bizə münasibət yaxşıiya doğru dəyişdi.

Xatirələrdə yaşayan bu cür həqiqətlər yalnız SSRİ-nin süqutundan sonra işıq üzü gördü. Tarixi ədəbiyyatda, Kütləvi İnformasiya Vasitələrində(KİV) öz ifadəsini tapdı. Maraqlıdır ki, bu faktlar da xatirələrdəki həqiqətləri təsdiq edir. Məsələn, həmin mənbələrdən birində oxuyuruq: Həmin vaxt bu xəbər (azərbaycanlıların incidilməsi) Zaqafqaziya Müdafiə Şurası üzvü olan M.C.Bağırova çatdırılır, və o,dərhal azərbaycanlılara qarşı zorakılıq hallarının daha çox baş

verdiyi cəbhənin cənub bölgəsinə gedir. Azərbaycanlı döyüşçülər Bağırova Yevgeni Xruşşov adlı zabitin özbaşınalığından və rus dilini bilməyən azərbaycanlıları "dezertir" adı ilə güllələtməsindən şikayətlənirlər. Bağırov Xruşşovu sual-sorğu edir və ona deyir ki,azərbaycanlılar rus dilini bilmədikləri üçün çətinliklərlə üzləşirlər. Xruşşov deyir ki,bu heyvanlara rus dilini mən öyrətməli deyiləm. Bu sözə görə Bağırov onu yanında gəzdirdiyi "Mauzer" tapançası ilə alnından güllələyir. Sonra Moskvaya, İ.V.Stalinin yanına gedib öz addımını əsaslandırırır. L.Beriya da onu müdafiə edir. Bu görüşdən sonra azərbaycanlılardan ibarət milli hissələr yaradılmasına icazə verilir.

Ordu generalı S.M.Ştemenko öz xatirələrində yazır: "Müharibənin ilk günləri Baş ştabın bir çox həlqəsində təşkılat quruluşunun mükəmməl olmadığını aşkara çıxardı. "Öz qoşunlarımız haqqında kifayət dərəcədə məlumatın olmaması, bizim təqsirimiz yox,bədbəxtiyimiz idi" [4, s.30-31]. Böyük Vətən müharibəsinin ilk aylarında Sovet ordusunun bir sıra uğursuzluqları nəticəsində xeyli sovet döyüşçüsü əsir düşmüşdü [1, s.70 ].

Mən Cəlilabad şəhərində Nizami adına 1№-li məktəbin 10-cu sinifində oxuyarkən vaxtilə almanlara əsir düşmüş Bəndalı kişi hərdənbir müharbə xatirələni bizə danışırdı. Nəql edirdi ki, Sovet ordusu müharibənin əvvəlində almanların qarşısında dayana bilmirdi. Alman tanklarının, toplarının açdığı atəş nəticəsində sovetin tankları ot tayası kimi alışıb yanırdı.Bu tankların bir hissəsini Amerika vermişdi. Belə bir vəziyyətdə almanlara əsir

düşdük. Bizi ölümdən türklər xilas etdi, - deyirdi.Lakin ölmdən xilas olsada, taleyi üzünə gülmədi. Sovet hökuməti alman əsirliyində olduğu üçün ona doğma rayonunda nəinki yaşamasına ,hətta oraya ayaq basmasına icazə vermədi. O, xeyli müddət ailəsi ilə Salyan rayonunda yaşayıb işlədi. Bir müddət sonra doğma rayonu Astraxanbazarda (indiki Cəlilabad) yaşamasına icazə verildi.

Atam Hafis Tərlan oğlu Salmanov ( yeri gəlmişkən Tərlan kişi də 1941-1945-ci illər müharibəsində həlak olmuşdur) yaşadığımız Cəlilabad rayonunda Cəngan kəndində öz həyətində təsərrüfat tikilisi inşa etmək üçün qonşu Yardımlı rayonundan dülgər çağırmışdı. Atam kolxozda sürücü kimi çalışdığı üçün hər gün işə gedirdi. Ona görə də məktəbə gedənə qədər bəzi yüngül işlərdə ustaya mən kömək etməli olurdum. Usta qarayanız, acıqlı bir adam idi. Alətləri ona gec ötürəndə hirslənib anlamadığım əcnəbi dildə mənə nəsə deyirdi. Bir dəfə atamdan dedim ki, ustadan hansı dildə danışdığını soruşsun. Atam da ordan-burdan söhbət salıb onun hansı əcnəbi dildə danışdığını soruşdu. O, da alman dilində ,-dedi. Bu dili alman əsirliyində olduğu zaman az da olsa öyrəndiyini dedi. Öz cəbhə hekayəsini danışdı. Belə məlum oldu ki, o Leninqad ətrafında döyüşmüş (1941-1942-ci illər) və əsir düşmüşdür. O,bildirdi ki, ordu generalı Vlasov bizə silahı yerə qoymağı, təslim olmağı əmr etdi. Onun söylədiklərini sonralar açıqlanan, sovet cəmiyyətinə bəlli edilən tarixi faktlar da təsdiq etdi.

Tarixi ədəbiyyatda göstərilir ki, 1942-ci ilin yazında Leninqrad şəhərinin alman-fasiştlərindən mühasirəsdəndən çıxarmaq üçün Leninqrad və Volxov cəbhələrinin orduları hücuma keçməli və Lyuban qəsəbəsində birləşməli idilər. Bu əməliyyatda əsas rol Volxov cəbhəsindəki 2-ci Zərbə Ordusuna ayrılmışdır. Lakin bu hücum əməliyyatını həyata keçirmək üçün Leninqrad cəbhəsinin kifayət qədər gücü yox idi. 2-ci ordu özünün də mühasirə həlqəsini yarmaq üçün kifayət qədər üstün hərbi qüvvəyə malik deyil idi. Buna baxmayaraq hücum başlandı. Lakin Zərbə Ordusu bataqlığa batıb qaldı. Yeni canlı qüvvə,

ərzaq, döyüş sursatı almayan döyüşçülər mərdliklə vuruşdular. Baş Qərargah real kömək göstərmədi. Yalnız iki cəbhəni vahid Leninqrad cəbhəsində birləşdirməklə kifayətləndi. Bu da əslində qoşunların idarəsini çətinləşdirdi, rəhbərlikdə başıpozuqluqa səbəb oldu. 1942-ci ilin mayında düşmən 2-ci Zərbə ordusunun yaratdığı "kisəyə" (mühasirəyə-Z.K) salmağa başladı. Mühasirədən xilas olmaq çox az əsgərə nəsib oldu. Zərbə Ordusunun komandanı ordu generalı Vlasovun könüllü olaraq alman-fasiştlərinə təslim olmasa vəziyyəti daha da ağırlaşırdı. Vlasov Stalinin bir zaman himayə etdiyi siyasi və əxlaqi keyfiyyəti olmayan vəzifəpərəst bir general idi. O, hitlerçilərin xidmətinə keçdi və almanların yaratdığı Rusiya azadlıq ordusuna başçılıq etdi. Onun xəyanəti Vətən uğrunada vicdanla vuruşmuş 2-ci Zərbə Ordusunun əgər və komandirlərinin taleyinə faciəvi təsir etdi.

Usta (təəssüf ki, mən onun ad və familiyasını, kəndinin adını yazıb götürmədim) danışırdı ki,Vlasovun komandanlıq etdiyi orduda silah çatmırdı, hər 3-4 əsgərə bir ədəd təklülə və ya qoşalülə tüfəng verilmişdi. Kimsə yaralansa, ya da ölsəydi sağ qalanlar silahdan növbə ilə istifadə etməli idi.

Komandirimiz düşmənə guya əlimizdə tüfəng var görüntüsü yaratmaq üçün məni bir neçə əsgərlə meşəyə göndərdi ki, ağacdan yalançı tüfənglər düzəldək. Əsgərimiz də bu yalançı tüfəngləri bəzən başımızın üstündən alçaqdan uçan alman təyyarələrinə tuşlayırdılar. Alman təyyarəçiləri bizim acınacaqlı vəziyyətimizə gülüb, atəş açmadan uçub gedirdilər. Mühasirə müddətində vəziyyətimiz daha da ağırlaşdı. Mühasirə olarkən günlərlə ac qaldıq, acından ölməmək üçün həşəratdan tutmuş heyvan leşlərinədək hər şeyi yeyirdik. Aylarla hamam görmədiyimiz üçün üst-başımızı bit basmışdı. Üstümüzdə gəzən bit sürülərini əlimizlə sıyırıb yerə tökürdük. Nəhayət, almanlar mühasirəyə alınmış sovet hərbi hissələrini tərkisilah etdilər. Primitiv olan silahları qırıb atır, sovet hərbi əsirlərini heyvan sürüsü kimi əhayəyə alıb "ovçarka" itlərinin müşayəti ilə toplanış məntəqəsinə aparırdılar. Taqətdən düşüb yeriyə bilməyənləri yerindəcə güllələyirdilər. Mənimdə belə bir aqibətlə üzləşəcəyimi düşündüm, nə qədər

gücüm var qaçmaq qərarına gəldim. Bir dəfə alman əsgərləri mənim də daxil olduğum böyük əsir dəstəsini sıx qarğıdalı sahəsinin lap yaxınlığında saxlayıb nahar etməyə başladılar. Bu vaxt bizə də oturmağı əmr etdilər.

Nə qədər riskli,qorxulul olsa da qaçmağı artıq qət etmişdim. Müşahidə etmişdim, " Qalx!" komandası veriləndə əsirlərin səfi bir qədər pozulur, qarışıqlıq yaranırdı. Mən də bundan istifadə etdim. Əsirlər ayağa qalxanda yaranan qarışıqlıqdan istifadə edib, özümü bir- iki addımlıqdakı qarğıdalı tarlasına atıb gizləndim. Almanlar görmədi. Əsir dəstəsi çıxıb getdi, itlərin səsi uzaqdan gəlirdi. Bir qədər rahatlandım. Lakin, qorxduğum üçün gizləndiyim yerdən hələ çıxmırdım. Birdən yaxınlıqdan qadın və uşaq səsləri eşitdim. Onlar "soldat, soldat",- deyə çağırırdılar. Görünür tarlanın yaxınlığındakı kənddən idilər. Kənd hündürlükdə, tarla nisbətən aşağıda olduğu üçün kənd camaatı mənim gizləndiyimi görmüşdülər. İndi almanlar getdiyi üçün onlar məni tapıb evlərinə aparmaq istəyirdilər. Mən gizləndiyim yerdən çıxdım. Bir nənə nəvəsi ilə məni evə apardı. Əvvəlcə hamama saldılar. Sora da qarşıma çörəklə qaymaq qoydular. Mən açgözlüklə yeməyə başladım. Mənə birdən-birə çox yeməyin ağır fəsadı olacağını görüb, nənə nəvəsinə yeməyi götürməyi tapşırdı. Mən sovet hissələri gələnə qədər burada gizləndim. Sovet hökuməti məni SSRİ-nin Şərqinə sürgün etdi. Mən burada yerli xaldan olan bir qadınla ailə qurdum, sonra Sovet böküməti məni əfv etdiyi üçün Yardımlıya qayıtdım.

Azərbaycanlı əsirlərin faciəvi taleyi olmuşdur.Onların bir hissəsi alman əsirliyində ölmüşdür.Bir hissəsi almanlara xidmət etmiş,bir hissəsi isə Polşa, Çexoslovakiya, İtaliya,Yuqoslaviya, Fransa kimi ölkələrin partizan və antifaşist müqavimət hərakatında iştirak etmişdir [ 2, s.273-277].

Əslən Şəkidən olan 1943-cü ildə əsir düşərgəsindən qaçaraq Fransa müqavimət hərəkatına qoşulan "Xarqo", "Fraji", "Qoçaq", "Ryus Armed" ,"Armed Mişel" və başqa ləqəblərlə tanınan canlı əfsanə Əhmədiyyə Cəbrayılovun başına 10 min alman markası məbləğində mükafat təyin edirlər.

Müharibə qurtardıqda hamının "Armed Mişel" kimi tanıdığı Əhmədiyə əsl qəhrəmana çevrilir. Hər kəs Əhmədiyyənin onun ölkəsinin vətəndaşı olmasını arzulayır. Fransa Müqavimət Hərəkatının lideri və Müvəqqəti rejimin başçısı və Fransanın prezidenti olmuş Şarl de Qollda Armed Mişelə Fransada qalıb yaşamaq, ABŞ səfirliyi isə ona Amerikanın vətəndaşı olmasını təklif edir. Fransada onun hərbi şücaətini layiqincə qiymətləndirdilər. Ona Fransanın Milli Qəhrəmanı adı verilir. O, bu dövlətin "Fəxri legion" ordeni ilə təltif olunur.

Ancaq Vətən həsrəti onu Azərbaycana çəkib gətirir. O, bu arzusunu 1946-cı il noyabrın 25-də Fransa Preidenti Şarl de Qollun köməkliyi ilə həyata keçirir. Lakin SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) cəlladları onu burada rahat buraxmırlar. Moskvada yoxlama zamanı onun mükafatının bir hissəsini əlindən alır, hətta onu "Vətən xaini" də adlandırırlar. Lakin 1966 cı ildə Fransa prezidenti Şarl de Qollun Mosvada dostu Əhmədiyyə ilə görüşməsi DTK-nın işgəncələrindən xilas edir. 1968-cı ildə Sovet hökuməti"vətən xaini" adını onun üstündən götürür [ 10].

Müharibədən əvvəlki dövrdə Stalin təmizləmələri nəticəsində Qırmızı Ordu komandanlığının səmərəliliyi və mənəvi-psixoloji səviyyəsi aşağı idi. 1941-ci ilin avqustuna qədər Almaniya orduları Sovet ərazisinin dərinliklərinə doğru irəliləməkdə böyük uğurlar əldə etdilər. Onların uğurlu "Blitskriq" strategiyası Sovet müdafiə sistemini pərakəndə hala saldı, çoxsaylı sovet bölmələrinin, o cümlədən bütün səhra ordularının mühasirəyə alınmasına səbəb oldu. Müharibənin başlanmasından etibarən, SSRİ hökuməti bilərəkdən və ya bilməyərəkdən sovet əsgərlərinin əsir düşmənin qarşısını almaq üçün xüsusi siyasət yürütməyə başladı. Stalin Xalq Müdafiə Komissarı kimi bu əmri verdi. Sərəncam ilk növbədə zabitlərin operativliyini və mənəvi-psixoloji hazırlığını sürətlə yüksəltmək məqsədi daşıyırdı. Qərara görə, əgər bir döyüşçü əsir düşərdisə bu, dövlətə qarşı xəyanət hesab ediləcək, xəyanət edənlər edama məhkum olmaqla yanaşı , əmlakları müsadirə ediləcək, ailəsinə qarşı repressiya həyata keçiriləcəkdir [6, s 381, 7, s 41]. 1941-ci ilin avqustunda İ.V.Stali-

nin verdiyi 270 saylı Sərəncam təslim olan bütün komandirləri və siyasi zabitləri təqsirli fərarilər kimi təsnif etdi, sərəncama əsasən onlar dərhal edam edilməli, ailələri həbs olunmalı idi. Sərəncamın birinci maddəsində deyilirdi ki, hər hansı bir komandir və ya komissar “işarələrini qoparıb fərarilik edir və ya təslim olurdusa” o, fərari hesab edilirdi. Əmr rəislərdən bu fərariləri yerindəcə vurmağı tələb edirdi. 270 saylı əmr mühasirəyə alınmış əsgərlərdən döyüşə davam etmək üçün bütün imkanlardan istifadə etmələrini və komandirlərindən düşmənə qarşı vuruşmağı və müqaviməti təşkil etməyi tələb etmələri tapşırılırdı Bu qərarla bağlı şərh verərkən Stalin bildirmişdi: Sovet hərbi əsirləri yoxdur, yalnız satqınlar var. Beləliklə,Ali Baş komandan Stalinin 270 saylı xüsusi əmri ilə əsir düşmüş bütün hərbi qulluqçulara "vətən xaini" damğası vurulmuşdu.

Bəzən Qırmızı Ordu əsgərlərinə deyirdilər ki, qaçanların ailələri güllələnəcək; minlərlə insan həbs olunsa da, belə edamların olub-olmadığı məlum deyil. Müharibə davam etdikcə sovet rəhbərləri başa düşdülər ki, SSRİ vətəndaşlarının əksəriy-yəti könüllü olaraq almanlarla əməkdaşlıq etməyiblər. 1944-cü ilin noyabrında SSRİ Dövlət Müdafiə Komitəsi qərara aldı ki, azad edilmiş hərbi əsirlər orduya, alman hərbi hissələrində və ya polisində xidmət edənlər isə NKVD-yə (yəni Xalq Daxili İşlər Komissarlığına, qısaca XDİK-ə) təhvil verilsin. Yalta konfran-sında (1945-ci il,fevral) Qərb müttəfiqləri sovet vətəndaşlarını onların istəklərindən asılı olmayaraq vətənə qaytarmağa razı oldular. Sovet rejimi azad edilmiş hərbi əsirlər üçün bir çox NKVD-nin süzgəc (filtrasiya) düşərgələrini, xəstəxanalar və reabilitasiya mərkəzlərini yaratdı, onların əksəriyyəti burada orta hesabla bir və ya iki ay qaldı. Bu filtrasiya düşərgələri sayca azlıqda olan faşistlərlə könüllü əməkdaşlıq edənləri ayırmaq üçün nəzərdə tutulmuşdu, lakin o qədər də effektiv deyildi. Alman-larla əməkdaşlıq edənlərin əksəriyyti təqiblərdən yayındılar. Bəzi ələ keçənlər (travniklər) Baş Həbsxanalar Düşərgəsində (QULAQ) 10 illə 25 il arasında həbs cəzası alırdılar və almanlarla hərbi əməkdaşlıq edənlər isə çox vaxt xüsusi yaşayış məntəqə-

lərində altı il həbs cəzası alırdılar. Rəsmi statistikaya görə, sovet əsirlərinin 57,8 %-i evə göndərilmiş, 19,1 %-i ordu sıralarına qaytarılmış, 14,5 %-i Xalq Müdafiə Komissarlığının əmək batalyonlarına keçirilmiş, 6,5 %-i “utilizasiya üçün” NKVD-yə verilmişdir. 2,1 %-i isə xaricdəki sovet hərbi idarələrində yerləşdirilmişdi”. 1946-cı ilin mart ayına qədər geri qayıdan 1,5 milyon sovet əsirinin 43 %-nin hərbi xidmətini davam etdirdiyi, 22 %-nin iki il müddətinə əmək batalyonlarına çağırıldığı, 18%-nin isə evə göndərildiyi, 15, 5%-nin isə hərbi xidmətə cəlb edildiyi bildirilir. Ölüm hökmləri nadir idi. 7 iyul 1945-ci ildə SSRİ Ali Sovetin fərmanı ilə faşistlərlə əməkdaşlıq etməmiş bütün keçmiş hərbi əsirləri rəsmən əfv edildi. 1955-ci ildəki başqa bir amnistiya görə işgəncə və ya qətlə görə məhkum olunanlar istisna olmaqla, bütün qalan əməkdaşları azad etdi [ 8].

Keçmiş hərbi əsirlər veteran kimi tanınmayıb və veteranların müavinətlərindən məhrum ediliblər; satqın və ya fərari olduqlarına görə tez-tez ayrı-seçkiliklə üzləşirdilər.

İkinci Dünya Müharibəsi zamanı və ondan sonrakı dövrdə azad edilmiş hərbi əsirlər NKVD-nin idarə etdiyi xüsusi “süzgəc düşərgələrinə” getdilər. Bunlardan 1944-cü ilə qədər 90% -dən çoxu təmizləndi və təxminən 8% həbs edildi və ya cəza batalyonlarında xidmət etməyə məhkum edildi. 1944-cü ildə onlar NKVD tərəfindən təmizlənmək üçün birbaşa ehtiyat hərbi birləşmələrə göndərildilər. Bundan əlavə, 1945-ci ildə repatriasiya edilmiş Ostarbayterlər, hərbi əsirlər və digər məcburi köçkünlər üçün 100-ə yaxın filtrasiya düşərgəsi quruldu ki, bu da 4.000.000-dan çox insanı emal edirdi. 1946-cı ilə qədər mülki əhalinin 80%-i və hərbi əsirlərin 20%-i azad edilmiş, mülki şəxslərin 5%-i, hərbi əsirlərin 43%-i yenidən hərbi xidmətə çağırılmış, mülki şəxslərin 10%-i və hərbi əsirlərin 22%-i əmək batalyonlarına, 2%-i mülki və hərbi əsirlərin 15%-i (cəmi 1.539.475-dən 226.127-si) QULAQ-a verildi [ 8].

Bəzi məlumatlara görə, əsirlikdən qayıdan 1.836.562 sovet əsgərindən 233.400 keçmiş sovet əsgəri düşmənlə əməkdaşlıqda təqsirli bilinərək QULAQ düşərgələrinə göndərilib. Digər tarix-

çilərin fikrincə, keçmiş hərbi əsirlərin 19,1%-i Qırmızı Ordunun cəza batalyonlarına, 14,5%-i məcburi əmək "yenidənqurma batalyonlarına" (adətən iki il müddətinə) göndərilib, 360.000 nəfər (təxminən 8%) QULAQ-da on ildən iyirmi ilə cəzaya məhkum edilib. Bu məlumatlara Sovet İttifaqına repatriasiya edilmiş (çox vaxt qeyri-ixtiyari) milyonlarla mülki vətəndaş daxil deyil və onların əhəmiyyətli bir hissəsi də QULAQ-a göndərilmiş və ya edam edilmişdir (məsələn, *kazakların xəyanəti*). Sağ qalanlar 1953-cü ildə Stalinin ölümündən sonra de-stalinizasiya dalğasında 1955-ci ildə bütün hərbi əsirlər və əməkdaşlar üçün ümumi amnistiya zamanı azad edildi .

Bəzi tarixçilər, demək olar ki, geri qayıdan sovet əsirlərinin hamısının əməkdaşlıqda və vətənə xəyanətdə günahlandırıldığını və müxtəlif növ məcburi əməyə məhkum edildiyini iddia edirlər, lakin eyni zamanda sovet hərbi əsirlərinin tarixini tam öyrənməyin çətin olacağını etiraf edirlər.

Müharibədə almanlara əsir düşən SSRİ vətəndaşlarına olan münasibət haqqında istər legionerlərin xatirələrində, istərsə də müxtəlif qaynaqlarda kifayət qədər yazılıb. Xüsusilə, asiyalı əsirlərə göstərilən davranış nasist ideologiyasının əsaslarına görə idi, çünki onlar ən aşağı kateqoriyaya aid edilirdilər.

Nasistlərin nəzərində Qırmızı ordunun əsgəri düşmən bolşevik rejiminin təmsilçisidir. 1941-ci ilin 30 sentyabrında sırf SSRİ əsirləri üçün hazırlanan "təlimat"da onlara pis davranılması və onlara qarşı silahdan istifadə olunması göstərişi verilmişdir. Buna görə də sovet əsirləri kütləvi şəkildə həlak olurdular. 1942-ci ilin 19 fevralında Almaniya İmperiyası Ticarət Palatasında keçirilən bir seminarda almanların əlindəki 3,9 milyon Sovet əsirindən sadəcə 1,1 milyonun həyatda qaldığını qeyd edilmişdir. Təkcə 1941-ci ilin noyabrından 1942-ci ilin yanvarınadək olan dövrdə 500 min Sovet əsiri həlak olub.

Sovet rəsmi məlumatına görə SSRİ üzrə 1941–45-ci illərdə 1,6 milyon nəfər vətəndaşın əsir düşməsi müəyyən edilmişdir. Lakin yuxarıda göstərilən faktlar bu məlumatın həqiqətə uyğun olmadığını göstərir. Əlbəttə bunların böyük əksəriyyəti mühari-

bənin ilk aylarında zəbt edilmiş ərazilərin dinc əhalisi və mühasirəyə düşən ordu hissələri hesabına olmuşdur [3, s.146].

Ölüm faizinin ən çox olduğu Czestochova əsir düşərgəsində 1941-ci ilin sentyabrı ilə 1942-ci ilin apreli arasında 90 min Sovet əsirindən 3 mini salamat qalmışdı.

Alman mənbələrinə görə 1941-ci ilin noyabrından öncə almanların əlindəki toplam Sovet müharibə əsirlərinin sayı 2.053.000 idi. Şərq naziri Alfred Rozenberqin bir məktubunda isə bu say 3.600.000 olaraq qeyd olunub. Tarixçi Aleksandr Dallin 1941-ci il üçün bu sayın 3.355.000, 1942-ci il üçün isə 1.653.000 kimi təqdim edib. Müharibədə əsir düşən türküstanlıların sayı isə 400 min nəfər idi [ 8 ].

Başqa bir mənbəyə görə SSRİ-dən 5,7 milyon nəfər əsir düşmüş, onlardan təqribən 3,3-3,5 miyon nəfəri həlak olmuşdur [9].

Almanların Sovet əsirlərinə qarşı sərt davranmalarının bir səbəbi də SSRİ-nin 1929-cu il Cenevrə anlaşmasını imzalamaması idi. Buna görə də almanlar beynəlxalq hüquqi öhdəlik daşımadıqlarını iddia edirdilər. Cenevrə anlaşmalarının ilki 1864-cü ildə, sonuncusu isə 1949-cu ildə imzalanıb. İkinci Cenevrə anlaşması Rusiya-Yaponiya müharibəsindən sonra 1906-cı ildə imzalanmışdı. Dəniz müharibəsindəki yaralı və xəstələrlə bağlı idi.

1929-cu ildə imzalanan Üçüncü Cenevrə anlaşması isə müharibə əsirləri ilə bağlı idi. Bu anlaşmaya görə, müqaviləni imzalayan dövlətlər müharibə əsirlərinə insani rəftar bəsləyəcək, onlara qarşı ayrı-seçkilik edilməyəcək, tibbi tələbatları qarşılanacaq. Əsir götürülən Qırmızı Ordu əsgərlərinin düşərgələrə doğru uzun yol qət etmələri, soyuq hava şərtləri, yorğunluq, tibbi ehtiyacların qarşılanmaması minlərlə əsirin yoldaca həlak olmalarına səbəb olurdu. Yorğunluqdan geridə qalan əsirlər isə yerindəcə güllələnirdilər.

Alman ordusuna əsir düşən azərbaycanlıların sayı ilə bağlı müxtəlif rəqəmlər irəli sürülüb. Belə məlumatlardan birində 1944-cü ilin oktyabr ayının 1-nə görə İkinci dünya müharibəsi dövründə Almaniya tərəfində vuruşan azərbaycanlıların sayının 37 913 nəfər olmuşdur. Bunlardan 10 975 nəfəri 11 müstəqil hərbi

piyada batalyonlarında, 927 nəfəri dağ-atıcı batalyonunda, 1824 nəfəri 353-cü alman diviziyasının tərkibində, 2990 nəfəri 162-ci türk diviziyasının tərkibindəki alayda, 3968 nəfəri legionlar yanında arxa piyada batalyonlarında, 4809 nəfəri fəhlə batalyonlarında, 2851 nəfəri Osttürk SS birliyinin tərkibində, 1090 nəfəri Qafqaz SS birliyinin tərkibində və sair xidmət edirdi. Müxtəlif hissələrdə xidmət edən könüllülər də nəzərə alınarsa, bütövlükdə onların sayı 38 598 nəfərə çatırdı ki, onların da 169 nəfəri polkovnik rütbəsinə qədər yüksəlmiş yüksək çinli zabitlər, 3721 nəfəri isə kiçik rütbəli zabitlər idi. Bundan əlavə 1944-cü ilin axırlarında 11 min azərbaycanlının əsir düşərgələrində saxlandığı, 275 nəfərin isə "etibarsız" könüllülər kimi düşərgələrə qaytarıldığı haqqında məlumatlar vardır. "Almaniya vermaxtında Qafqaz könüllü birlikləri haqqında" 1945-ci ilin martın 25-də hazırlanmış hesabatda göstərilirdi ki, legionlarda və piyada batalyonlarda 13 600, tikinti və təchizat hissələrində 4795 azərbaycanlı xidmət etmişdir. Bundan əlavə alman ordusunda xidmət edən 25, SS, SD və Lyuftvaffe hərbi hissələrində xidmət edən 7 min qafqazlı əsgər və zabitin də bir hissəsi azərbaycanlılar idilər. Ə. Fətəlibəyli isə bütövlükdə Almaniya tərəfində vuruşan azərbaycanlıların sayının 150 min nəfərə yaxın olduğunu bildirirdi [8].

Legioner Fərman Məmmədov alman əsirliyindəki günlərini xatırlayaraq bəhs edirdi ki, əsir düşən ya ölməli, ya da geri dönməməli idi. Əks-təqdirdə əsir düşmüş əsgərlərimizi Vətəndə onsuz da ağır cəzalar, dözülməz işgəncələr gözləyirdi. İki dəfə əsirlikdən qaçmağa cəhd göstərdim. Ələ keçdim. Tutub gətirdilər, qolumu-qıçımı sındırdılar. Ölümümü istəyirdim. Allaha yalvarırdım ki, nəfəsimə son qoysun. Növbəti qaçış cəhdində məni yaxalayıb Saksenhauzendəki əsirlər düşərgəsinə saldılar. Təqribən 6 ay yenə dəhşətli fiziki işgəncələrə, aclığa-susuzluğa məruz qaldım. Min bir müsibətdən sonra nəhayət azadlığa çıxa bildim. Alman ordusu nəzdində yaradılan Azərbaycan milli ordusunda qulluq etmək təklifini ürəkdən qəbul etdim.

Legioner Əli Həsənzadə (Aran) əsirlik həyatı haqqında

bunları xatırlayırdı: "…Müharibənin birinci qışında əsirlərin böyük qismi tablamayıb qırıldı. Mənim əsirliyim müharibənin ikinci qışına təsadüf etmişdi. Bizi Polşada – Radom şəhəri yaxınlığındakı Yedlina qəsəbəsində yaradılmış xüsusi düşərgələrdə yerləşdirdilər. Azərbaycan milli legionu da həmin qəsəbədəki düşərgələrdə idi…"

II Dünya müharibəsinin gedişatı və ondan sonrakı dövrdə əsir düşən azərbaycanlıların həyatlarının xilası, vəziyyətinin yaxşılaşdırılması üçün legionerlərin "köhnə mühacirlər" dedikləri siyasi xadimlərin önəmli rolları olub…

Müharibə qurtardıqdan sonra ölkənin rəhbəri İ.V. Stalin hesab etdi ki, Almaniyada və Avropanın başqa ölkələrində saxlanılan Sovet əsirləri SSRİ-yə qarşı mübarizədə istifadə edilə bilər. Buna görə də həmin əsirlərin xüsusi yük vaqonlarında ölkəyə qayıtmasına başlanıldı.

Müharibə qurtardıqdan az sonra, 1945-ci ilin 7 iyulunda ümumi əfv (bağışlanma) elan edildi və bu sənəddə göstərilirdi ki, Vətənə xəyanət olaraq cəbhələrdə düşmən tərəfə keçən hərbi hissələrdə qulluq edənlərdən başqa, Sovet ordusunun sıravi və serjant heyətində qulluq etmiş bütün hərbi əsirlər azad olunurlar və belə də edildi.

Lakin üç il sonra, 1949-cu ildə həmin əfv edilmiş hərbi əsirlərin hamısı SSRİ-nin şərq rayonlarındakı hərbi düşərgələrə yenidən sürgün edildilər. Bu isə ədalətsizlik və siyasi səhv idi. Böyük qələbədən üç il sonra bu keçmiş hərbi əsirlərin Sovet siyasi sistemi üçün qorxulu olması inandırıcı deyildi.

Azərbaycanlı hərbi əsirlərin həyatı haqqında bizə hələlik nə məlumdur?

1941-ci ilin 22 dekabrında Hitler hərbi əsirlərdən ibarət müsəlman legionlarının yaradılması haqqında sərəncam vermişdi və nəzərdə tutulurdu ki, Qafqazlı, Türküstanlı və Gürcüstanlı müsəlmanlardan ibarət üç legion yaradılaraq, gələcəkdə Sovet ordusuna qarşı mübarizədə istifadə edilsin. Bəzi məlumatlara görə, sonra azərbaycanlı əsirləri Şimali Qafqazda əsir müsəlmanlardan ayıraraq ayrıca bir legionda birləşdirmişdilər.

Mətbuatda dərc edilən məlumatlarda deyilir ki, legionun ayrı-ayrı bölmələrinə mayor Əbülrəhman Fətəlibəyli, Bəydulla Babayev, eləcə də Əlibəyov və digərləri başçılıq edirdilər. Əlbəttə ümumi rəhbərlik faşist zabitləri tərəfindən həyata keçirilirdi. Bəzi məlumatlara görə azərbaycanlıların yerləşdiyi legionda 70 minə yaxın əsir olmuşdur. Bu legionaların qərargahı Polşada yerləşirdi [6 ,s.224].

Azərbaycan Xalq Cümhuriyyətinin siyasi lideri M.Ə.Rəsulzadənin müharibə zamanı A.Hitlerlə görüşərək azərbaycanlı hərbi əsirlərin həyatı ilə maraqlanması, onların yəhudilərlə birlikdə soyqırıma məruz qalmasından xilas edilməsi müharibədən sonra azərbaycanlı legion üzvlərinin taleyinə biganə qalmayaraq onlara dəstək olması...kimi faktlara müasir tarixşünaslığımızda daha çox rast gəlinir. Almaniyada 116 min müsəlman hərbi əsiri M.Ə.Rəsulzadə ölümün pəncəsindən xilas etdi.

Həmin dövrdə Türkiyədə yaşayan Məhəmməd Əmin Rəsulzadə Almaniyaya köçəcək "Şərq Nazirliyi"nin (Nazir Rozenberq idi) siyasi bölməsində Qafqaz şöbəsinin başçısı professor Fon Mende ilə görüşərək azərbaycanlı əsirlər məsələsini müzakirə etmişdi [ 3,s.148 ].

Azərbaycanlı əsirlərdən ibarət yaradılmış legion haqqında M.Ə. Rəsulzadə "Çağdaş Azərbaycan tarixi" mövzusunda Ankarada 1950-ci ilin 28 mayında etdiyi məruzədə belə demişdir: İkinci Dünya müharibəsi illərində "Azərbaycanlı hərbi əsirlərlə təmasda ola bildik. 1942 və 1943-cü illərdə Almaniyanın Xarici İşlər Nazirliyinin dəvəti ilə digər Qafqazlı siyasi emigrantlarla birlikdə Berlinə getdiyim zaman biri mənfi, digəri müsbət iki şeyə şahid oldum. Hitler Almaniyasının mövqeyi Qafqaziyaya məsələlərinə olan münasibətdə... mənfi idi... Lakin bu sırada fürsət taparaq Almaniyadakı azərbaycanlı hərbi əsirlər ilə təmasda olmağa çalışdıq və buna qismən müvəffəq olduq.

M.Ə. Rəsulzadə 1943-cü ildə Berlində "Azərbaycan" adlı qəzet nəşr edirdi və bu qəzetin nəşrində hərbi əsirlərdən də iştirak edirdi. 1948-ci ildən başlayaraq azərbaycanlı əsirlər Türkiyəyə gəlməyə başlamışlar. Azərbaycanlı hərbi əsirlərin burada yerləş-

məsinə M.Ə.Rəsulzadə geniş köməklik etmişdir. Bəzi mənbələrdə 1948-ci ildə Türkiyədə 3680 azərbaycanlı əsirin olması göstərilir. Türkiyəyə gəlmiş bu əsirlərə xidmət etmək üçün M.Ə.Rəsulzadə 1949-cu ilin 1 fevralında (Ankarada) "Azərbaycan Kültür Dərnəyi"ni təşkil etmişdi. Həmin dərnək 1952-ci ildə Ankarada "Azərbaycan" dərgisinin nəşrinə başladı. Bu dərgidə əsirlikdən gəlmiş mühacirlərin də məqalələri çap olunurdu [3,149-150 ].

Azərbaycanlı əsirlərin bölük bir hissəsi xarici ölkələrdə, ilk növbədə Almaniyada həlak olmuşdur. Nəşr olunmuş bəzi yazılarda göstərilir ki, müharibənin ilk illərində Almaniyaya gətirilmiş hərbi əsirlərin içərisində olan bütün yəhudilər Hitlerin əmri ilə məhv edildiyi dövrdə 1500 nəfərə qədər azərbaycanlı əsir də yəhudi hesab edilərək həmin dövrdə məhv edilmişdir.

Türkiyədə sığınacaq tapmış 143 nəfər müsəlman hərb əsir (onlardan 100 nəfərfən çox azərbaycanlı idi) Sovet Hökumətinin qəti tələbi ilə 1945-ci ilin sentyabrında İğdırdakı Baraltaç körpüsündə rus hrərbiçilərinə təhvil verilmiş və oradaca güllələnərək cəsədləri Araz çayına atılmışdır.

Ümumiyyətlə,1941-1945-ci illərdə milyonlarla sovet əsgərinin Faşist Almaniyasına əsir düşməsinin əsas səbəbi sovet rəhbərliyi olsa da, onlar bunu qəbul etməmişlər. Öz günahlarını heç böyük hissəsi taqsırsız olan bu insanların boynuna yükləmiş, alman əsirliyindən salamat qurtaran insanlara qarşı repressiya siyasəti apararaq həyatı onlara zindana çevirmişlər.Bu əsrlərə müna- sibətə görə kommunist diktator Stalin, heç də faşist diktator Hitlerdən fərqlənməmişdir.

**Закир Керимов**

**РЕЗЮМЕ**

**СЛОМАННЫЕ СУДЬБЫ**

Исполнилось 80 лет со дня начала самой страшной и разрушительной войны в истории человечества — Второй

мировой войны и ее органической части — войны 1941–1945 годов. В азербайджанской историографии написаны различные труды по различным аспектам этой войны. Однако есть моменты этой войны, которые сохранились в памяти ветеранов. Несмотря на запреты советской системы, реалии войны стали известны общественности благодаря этим воспоминаниям. Статья посвящена судьбе военнопленных — одной из самых болезненных проблем войны — в свете как воспоминаний, так и письменной исторической литературы. Сведения об этом были услышаны как из уст ветеранов войны, так и почерпнуты из исторической литературы. В статье показано, что истинной причиной пленения советских солдат стала некомпетентность высшего военно-политического руководства СССР во главе с И.В. Сталина, своевременно принять необходимые меры по защите страны и стратегические ошибки, допущенные советским командованием в начале войны. и тактические ошибки. Миллионы советских солдат пострадали от последствий этого, подвергаясь пыткам как в немецких, так и в большевистских лагерях для военнопленных. Многие погибли.

**Ключевые слова:** война, советский солдат, пленный, наказание, амнистия

**Zakir Kerimov**

## SUMMARY

## BROKEN FATES

The 80th anniversary of the Second World War, the most terrible and destructive war in the history of mankind, and its organic part, the war of 1941-1945, is coming to an end this year. Various works have been written in Azerbaijani historiography on different aspects of this war. However, there are moments about this war that have survived in the memories of war veterans. Despite the prohibitions of the Soviet system, the realities of war have become known to the public through these memories. The article is devoted to the fate of prisoners of war, one of the most painful problems of the war, in the light of both memoirs and

written historical literature. Information about this is provided both from the words of war veterans heard, as well as collected from historical literature. The article shows that the real reason for the capture of Soviet soldiers was the failure of the top military-political leadership of the USSR, led by I.V. Stalin, to take timely measures to defend the country, and the strategic and tactical mistakes made by the Soviet command at the beginning of the war. Millions of Soviet soldiers tasted the bitterness of this, they were tortured in both German and Bolshevik prison camps, and many lost their lives.

**Keywords:** war, Soviet soldier, prisoner, punishment, pardon

## ƏDƏBİYYAT

1.Azərbaycan tarixi VII cilddə, VII cild (iyun 1941-2002-ci il). Bakı: Elm, 2003, 676 s.

2.Əmrahov M. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Ali məktəblər üçün dəslik. Bakı: ADPU-nun nəşriyyatı, 2009, 402 s.

3.İsamayılov İ. Z. Azərbaycanlıların II Dünya müharibəsində iştirakı. Bakı: Qızıl Şərq mətbəəsi, 2000. 192 s

4.Ştemenko S.M. Baş ştab müharibə illərində.Bakı: Azərnəşr, 1973. 414 s.

5.Yaqublu N. Məhəmməd Əmin Rəsulzadə. Bakı: 1991, 270 s.

6.История СССР : Учеб.для 11 кл .сред.школ./В.П.Остроский и др./,Просвещение,1990, 224 с .

7.https://qafqazinfo.az "Bağırov komandiri alnından güllələdi." Tədqiqatçı A.Məmmədovla müsahibə

8.https://az.vikpedia.org Sovet İttifaqının keçmiş müharibə əsrlərinə qarşı repressiyası

9.https://azloqos.euStalinin270№-li əmri əsirləri güllələyin

10.https:// az.vikpedia.org Əhmədiyyə Cəbrayılov

**VÜSALƏ ƏLLƏZOVA***

# İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ QƏRBİ AZƏRBAYCANLILARIN İŞTİRAKI

## XÜLASƏ

Məqalədə İkinci Dünya Müharibəsində azərbaycanlıların SSRİ-nin tərkibində faşizmə qarşı mübarizədə fəal iştirakı, müharibə dövründə Azərbaycan neftinin strateji əhəmiyyəti, arxa cəbhədə Azərbaycan xalqının ordunun təminatına böyük töhfələr verdiyi, həmçinin, 1941-1945-ci illər müharibəsi dövründə Sovet İttifaqının tərkibində olan Ermənistan SSR-də yaşayan azərbaycanlıların da digər sovet vətəndaşları kimi müharibəyə cəlb edilmələri qeyd edilib.

İkinci Dünya müharibəsində azərbaycanlıların yığcam yaşadığı Göyçə gölü ətrafından, Ağbaba və Şörəyel bölgələrindən (Amasiya inzibati rayonundan) cəbhəyə aparılan azərbaycanlıların hansı diviziyaların tərkibində vuruşması, müharibədə ölənlərin sayı, döyüşlərdə qəhrəmanlıq göstərmiş döyüşçülərimizin Sovetlər Birliyinin ən yüksək orden və medalları ilə təltif olunmaları haqqında məlumatlar öz əksini tapmışdır.

Həmçinin, məqalədə Qərbi azərbaycandan olan Sovet İttifaqı Qəhrəmanları Xıdır Mustafayev, general-mayor Akim Abbasov, Mehdi Hüseynzadənin komandiri olmuş Cavad Həkimli haqqında qısa məlumat verilmişdir.

**Açar sözlər:** İkinci Dünya Müharibəsi, Qərbi azərbaycanlılar, Göyçə gölü hövzəsi, Ağbaba-Şorayel, Sovet İttifaqı Qəhrəmanı

İkinci Dünya müharibəsi bəşər tarixində ən dəhşətli və ən genişmiqyaslı müharibə olmuşdur. Müharibə 1939-cu il sentyabrın 1-də nasist Almaniyasının Polşaya hücumu ilə başlamış və 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması

* AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu.

ilə sona çatmışdı. Müharibənin əsas hissəsi 1941-ci il iyunun 22-də faşist Almaniyasının SSRİ üzərinə hücuma keçməsi ilə başlamış, 1945-ci il mayın 9-da Hitler Almaniyasının məğlubiyyəti ilə nəticələnmişdi. İkinci Dünya müharibəsi Sovet tarixşünaslığına Böyük Vətən müharibəsi, 9 may isə Faşizm üzərində Qələbə Günü kimi yazılmışdır.

Müharibə on milyonlarla insanın həlak olmasına, yaralanmasına, itkin düşməsinə, gətirib çıxarmışdır və bu itkilər tarixdəki ən böyük insan tələfatlarından biri hesab olunur. İkinci Dünya müharibəsi 1 milyard 700 milyon əhalinin yaşadığı 40-dan çox ölkənin ərazisində getmiş və 110 milyondan çox insan səfərbər olunmuşdur. Bu müharibə 50 milyon insanın həyatına son qoymuş, 100 milyondan çox insan yaralanmış və ya şikəst qalmışdır. Sovetlər birliyi bu müharibədə 29 milyon nəfər itki vermişdir. Hərbçilərin itkiləri 33%, mülki əhalinin itkisi isə 67% olmuşdur. Həmçinin, SSRİ-nin işğal olunmuş ərazilərində 72 min kənd və qəsəbə, 1710 şəhər, 32 min sənaye müəssisəsi və 65 min km dəmir yolu xətti məhv edilmiş və sıradan çıxarılmış, 35 milyon Sovet İttifaqı vətəndaşı evsiz-eşiksiz qalmışdı. Ölkəyə dəyən zərər 679 milyard rubl təşkil etmişdi [5, s. 5]. Bütün bu göstəricilər onu deməyə əsas verir ki, müharibə zamanı ən çox zərər çəkən yerli əhali olmuşdur və bu dövlətdə yaşayan çoxsaylı xalqlar maddi, mənəvi, psixoloji, iqtisadi cəhətdən ağır ziyan görmüşdür.

1941-1945-ci illər İkinci Dünya müharibəsində Hitler Almaniyası üzərində qələbə qazanılmasında Azərbaycan Respublikasının da böyük rolu olmuşdur. Müharibənin uğurla aparılması üçün ən mühüm amillərdən biri Azərbaycan Respublikasının ən qiymətli təbii sərvəti olan Bakı nefti olmuşdur. Bakı nefti təmənnasız və fasiləsiz olaraq cəbhəni təmin edərək bütün texnikanı hərəkətə gətirmişdir. Həmin dövrdə Sovetlər İttifaqında hasil edilən 110 milyon ton neftin 75,2 milyon tonu, yəni, 70 faizi Azərbaycan Neft Sənayesinin payına düşürdü [5, s. 460]. Bu qədər neft Azərbaycan neftçilərinin fədakar əməyi sayəsində istehsal olunurdu.

Müharibənin uğurla aparılmasında və düşmən üzərində qələbə

çalınmasında əsas və başlıca amillərdən biri də insan amili idi. Müharibənin ilk günlərindən Azərbaycan vətəndaşları könüllü olaraq cəbhəyə getməyə yazılmış, döyüşlərdə vuruşmuş, böyük qəhrəmanlıqlar göstərmişlər. Həmin illərdə Azərbaycan Respublikasından 700 000 nəfərdən çox azərbaycanlı cəbhəyə səfərbər olunmuşdur. Onlardan 698.237 nəfəri kişi, 11.266 nəfəri qadın olmuşdur [2, s. 6]. Ordu sıralarına səfərbər olunmuş azərbaycanlıların 350 mindən artığı həlak olaraq və ya itkin düşərək geri qayıtmamışdır. Həm neft amili, həm də insan amili baxımından Azərbaycan xalqının faşizm üzərində qələbəyə verdiyi bütün bu töhfələrə baxmayaraq, Moskva, Leninqrad və digər şəhərlərə "qəhrəman şəhər" fəxri adı verilsə də, faşizm üzərində qələbədə həlledici rol oynayan Bakı şəhərinə bu ad verilmədi. [5, s. 461]. Halbuki, Bakı müharibədə dünya xalqlarının xilaskarı rolunu oynamışdı. Əgər Bakı nefti olmasaydı, Sovet İttifaqının müharibədə qələbəsi sual altında ola bilərdi.

Respublikadan cəbhəyə gedənlər igidliklə vuruşmuş, qəhrəmanlıq nümunələri göstərərək qələbənin əldə olunmasına öz paylarını vermişlər. Əsgər və zabitlərimiz Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna. Belarus, Pribaltika cəbhələrində qəhrəmanlıqlar göstərmişlər. Azərbaycandan cəbhəyə getmiş, döyüşlərdə qəhrəmanlıq göstərmiş 200 mindən çox Azərbaycan döyüşçüsü orden və medallarla təltif olunmuş, 121 nəfər SSRİ dövlətinin ən ali hərbi mükafatı olan Sovet İttifaqı Qəhrəmanı adına, 30 əsgər "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülmüş, yüzlərlə Azərbaycan döyüşçüsü Fransa, İtaliya və digər dövlətlərin orden və medallarına layiq görülmüşlər [2, s. 6]. Bir sözlə, Hitler faşizminə qarşı müharibədə Azərbaycan xalqı, respublikamızın vətəndaşları qəhrəmanlıq, şücaət göstərərək tariximizə çox dəyərli səhifə yazmışlar.

1941-1945-ci illər müharibəsi dövründə Sovet İttifaqının tərkibində olan Ermənistan SSR-də yaşayan azərbaycanlılar da digər sovet vətəndaşları kimi müharibəyə cəlb edilmişlər. Ermənistan SSR-də keçirilən siyahıyaalmanın nəticəsinə görə 1939-cu ildə azərbaycanlıların sayı 131 min nəfər olmuşdur. Bu da ümumi

əhalinin 10,2 faizini təşkil etmişdir. Erməni tarixçilərin yazdıqlarına görə İkinci Dünya müharibəsi zamanı Sovet Ermənistanı əhalisinin 20-23 faizi müharibəyə səfərbər edilmişdir. Azərbaycanlı əhali üçün həmin say nisbətini nəzərə aldıqda, aydın olur ki, 30 mindən artıq azərbaycanlı müharibəyə göndərilmişdir [6, s.53].

Müharibə dövründə Ermənistan ərazisində təşkil olunan diviziyalar əsasən ermənilərdən ibarət olsa da, tərkibində azərbaycanlılar da var idi. 1941-1942-ci illərdə Ermənistanda yaşayan azərbaycanlılar əsasən Gümrüdə və İrəvanda formalaşdırılan 61-ci, 89-cu, 320-ci, 408-ci, 409-cu atıcı diviziyaların, 76-cı dağatıcı diviziyanın tərkibinə cəlb edilirdilər. 16 sentyabr 1942-ci ilə aid məlumata görə, Leninakanda (indiki Gümrü şəhəri) formalaşdırılan 320-ci atıcı diviziyasının tərkibindəki 9124 nəfər şəxsi heyətin 7972 nəfəri ermənilərdən, qalan 1152 nəfəri isə Gümrü ətrafında yaşayan azərbaycanlılardan ibarət olmuşdur. 1941-ci ilin dekabrında İrəvanda formalaşdırılıan 61-ci atıcı diviziyanın tərkibinin 70 faizi ermənilərdən, yerdə qalan 30 faiz kontingent isə əsasən İrəvanın özündə və ətrafında yaşayan azərbaycanlılardan təşkil edilmişdir. 76-cı dağatıcı diviziyanın 16 min nəfər döyüşçüsündən 14 mini erməni olmuşdusa, qalan 2 mini əsasən azərbaycanlılardan ibarət olmuşdur [6, s.53].

Sovet İttifaqı dövründə, xüsusilə 1920-1940-cı illərdə SSRİ-nin müxtəlif yerlərində, o cümlədən Zaqafqaziya (Cənubi Qafqaz) respublikalarında milli tərkibli hərbi hissələr mövcud olmuşdur. 1939-cu ildə İrəvanda yerləşən hərbi hissələrdən biri də milli tərkibinə görə əsasən azərbaycanlılardan təşkil olunmuşdu və bu hərbi hissə yerli əhali arasında “1 nömrəli azərbaycanlı alayı kimi” kimi tanınırdı. Bu alayda latın əlifbası ilə yazılan “Nizamnamə”lərdən istifadə edilir, hərbi əmr və sərəncamlar Azərbaycan dilində verilirdi. Zabit heyyətinin hamısı azərbaycanlılardan ibarət idi. Amasiya rayonundan Qasımov İskəndər (Göllü kəndi), Həsənov Nağı (Çivinni), Səfərov Hümbət (Güllübulaq), Bayramov Əhmədxan (Kiçik Təpəköy) ilk dəfə Qızıl Ordu sıralarına çağırılmış və İrəvandakı 1 nömrəli azərbaycanlı alayında xidmət etmişlər. 1939-cu ildə azərbaycanlılardan

ibarət olan bu alayı Qərbi Ukraynanın alınması üçün eşalonla ora aparmışlar. Lakin, həmin dövrdə SSRİ ordusunda etnik mənsubiyyətinə görə alayların saxlanılması tədricən ləğv olunurdu və onun yerinə qarışıq milli tərkibli bölmələr yaradılırdı. Bu səbəbdən azərbaycanlılardan ibarət olan həmin alaya da müxtəlif xalqların nümayəndələri daxil edilərək beynəlmiləşdirilmişdir. 1941-ci ildə bu alayda hərbi xidmət keçmiş əsgərlər Krıma = döyüşən orduya göndərilmiş, ağır və məşəqqətli döyüş yolu keçmişlər [1, s.12].

İkinci Dünya müharibəsində cəbhəyə aparılan azərbaycanlıların təqribən yarısı müharibədən qayıtmamış, döyüş meydanlarında, əsir düşərgələrində həlak olmuş və ya itkin düşmüşdür. Məsələn, müharibə ərəfəsində azərbaycanlıların yığcam yaşadığı Göyçə gölü ətrafındakı dörd inzibati rayonda (Basarkeçər, Çəmbərək, Aşağı Qaranlıq (Martuni), Nor Bəyazid) təqribən 31 min azərbaycanlı yaşamışdır. Onlardan 6 min nəfərə yaxın soydaşımız müharibəyə aparılmış, 2368 nəfəri geri qayıtmamışdır [4, s. 5].

Göyçə gölü ətrafındakı rayonlardan səfərbər olunmuş Azərbaycanlıların daha çox Gürcüstan SSR-də dislokasiya olunmuş 20-ci, 35-ci, 38-ci, 124-cü, 145-ci, 802-ci, 810-cu atıcı alayların, Azərbaycan SSR-də: Gəncədə dislokasiya olunmuş 3-cü ehtiyat kavaleriya alayının; Ermənistan SSR-də: Leninakanda (Gümrü) yerləşən 3818 saylı hərbi hissənin, Dilican şəhərində dislokasiya olunmuş 45-ci yol-istismar alayının, 136-cı atıcı alayların tərkibində döyüşmüşlər. Müharibənin gedişində Azərbaycan SSR çağırışçılarından milli hərbi hissələr təşkil olunanda Ermənistan SSR-in Göyçə rayonlarından səfərbər olunmuş Azərbaycanlıların bir çoxunu 416-cı, 223-cü, 77-ci və s. diviziyaların sıralarında yer almışlar [4, s. 8].

Göyçə hövzəsindəki rayonlardan səfərbər edilən lakin, müharibədən geri dönməmiş əsgər və zabitlərimiz döyüşlərdə qoşunların uğur qazanmasına rəvac verən, şəxsi rəşadət və igidliyə, döyüş əməliyyatını uğurlu təşkil etdiyi və ona bacarıqla rəhbərlik etdiyinə görə Sovetlər Birliyinin ən yüksək əsgəri nişanı

olan Qırmızı Ulduz ordeni ilə təltif olunmuşlar. Onlardan 23 düşmən əsgərini əsir götürmüş İsrafil Həsənov (1945, Sarıyaqib), Qara Ələkbərov (1944, Kəsəmən), Əli Quliyev (1944, Şaulyay şəhəri ətrafında gedən döyüşlərdə göstərdiyi igidliyə görə, ölümündən sonra, Kəsəmən), Orucalı Əhmədov (1944, ölümündən sonra, Qanlı), kiçik leytenant Məhəmməd Mustafayev (1945, Qaraman), kəşfiyyatçı starşina Məlik Rzayev (1944, Qaraman), Şəki Bayramov (1944, Şişqaya), Qurban Rəhimzadə (1945, Zağali), rota starşinası Hümbət Cahangirov (1944, Böyük Məzrə), Qurban İlyasov (ölümündan sonra, Babacan) və b. adlarını qeyd etmək olar [4, s. 8].

Qərbi Azərbaycanın Ağbaba və Şörəyel bölgələrində İkinci Dünya müharibəsi ərəfəsində (Amasiya inzibati rayonunda) 10140 nəfər azərbaycanlı yaşamışdır. Müharibənin ilk illərindən etibarən Amasiya rayonunda yaşayan azərbaycanlıların təqribən 2500 nəfəri İkinci Dünya müharibəsinə getmiş, onlardan 892 nəfəri geri qayıtmamışdır. Onların bir çoxlarının həlak olduqları və itkin düşdükləri yerlər bu günə qədər məlum deyil. Dəfn olunanların isə məzarlarında adları, soyadları, bəzən rütbələri və doğum tarixləri düzgün göstərilməmişdir. Bu onların kimliyini bu gün də dəqiqləşdirməyə imkan vermir. Belə vəziyyətin yaranmasının əsas səbəbi qeyri-rus millətlərə laqeyd yanaşma tərzi, hər şeyi ruslaşdırma praktikası, hərbi komissarlıqda çalışan ermənilərin qəsd-qərəzliyi idi [3, s. 13-14].

Azərbaycanlılar müharibədə göstərdikləri qəhrəmanlıq və fədakarlıqla yanaşı, həm də ağır və faciəvi itkilərə yol açan strateji səhvlərin, acı və qəddar hadisələrin də qurbanı olmuşlar. Belə ki, Sovet Ordusunun rəhbərliyi 1942-ci ilin yazında Xarkov şəhərini almanlardan azad etmək üçün hərbi əməliyyata başlamışdır. Döyüşə cəlb edilən 9-cu Ordunun tabeliyində olan 341-ci atıcı diviziyanın şəxsi heyətinə 1063 nəfər azərbaycanlı əsgər də daxil edilmişdi. Bu əsgərlərin əksəriyyəti rus dilini bilmirdi və ilkin hərbi təlim keçməmişdilər. Lakin buna baxmayaraq, onlar diviziyanın alayları arasında şəxsi heyətlərin tərkibinə daxil edilmiş və döyüşə göndərilmişdilər. Xarkov

şəhərinin almanlardan azad edilməsi zamanı azərbaycanlıların qəsdən ölümə göndərilməsi, Sovet İttifaqının müharibə dövründəki ən acı və qəddar hadisələrindən biri olmuşdur. Sovet rəhbərliyi Almanların Xarkov şəhərini işğal etməsindən sonra, şəhərin azad edilməsi əməliyyatı zamanı müəyyən qrupları, xüsusilə etnik azərbaycanlıları və digər millətlərdən olan insanları ölümə göndərmək üçün istifadə etmişdir [3, s. 358].

Məğlubiyyətlə başa çatan Xarkovun geri alınması uğrunda gedən döyüşlər sovet-alman müharibəsində SSRİ-nin ən uğursuz əməliyyatlarından biri hesab edilir. Bu uğursuzluğun əsas səbəbkarlarından biri də ermənilərin mifləşdirdiyi İvan Xristoforoviç (Hovanes Xaçaturoviç) Bağramyan olub ki, məhz həmin ərəfədə o, Cənub-Qərb Cəbhəsinin qərargah rəisi vəzifəsində xidmət edib. Baqramyanın qeyri-peşəkarlığı nəticəsində Xarkov əməliyyatı zamanı Sovet Ordusunun 180 minə qədər döyüşçüsü, 900-dən artıq texnikası məhv edilib. 250 min nəfər əsir götürülüb. Bu itkilər arasında həlak olmuş və ya əsir düşmüş həmin 1063 nəfər azərbaycanlı da var. Onların əksəriyyətinin döyüşlərdə öldürüldüyü, meyitlərinin döyüş meydanlarında qaldığı, yaralananların isə əsir düşdüyü göstərilir. Qeyd edək ki, Xarkovun azad edilməsi uğrunda gedən döyüşlərdə Amasiya rayonundan səfərbər edilmiş döyüşçülərin də əksəriyyəti həlak olmuş (60 nəfər), ağır yaralanmış, yaxud əsir düşmüşdü [3, s. 359-361].

Ümumiyyətlə, İkinci Dünya müharibəsi zamanı Qərbi Azərbaycandan səfərbər edilən azərbaycanlıların təqribən yarısı ya həlak olmuş, ya da itkin düşmüşdür. Qərbi azərbaycanlılar Şimali Qafqazdan başlamış, Berlinə qədər döyüş yolu keçmişlər. Qərbi Azərbaycanın Hamamlı rayonunun Gözəldərə kəndində anadan olan, Sovet İttifaqı Qəhrəmanı Xıdır Mustafayevin, Qarakilsə nahiyəsinin Ərikli kəndində anadan olan general-mayor Akim Abbasovun, Barana rayonunun Ləmbəli kəndində anadan olan, əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin komandiri olmuş Cavad Həkimlinin, 1945-ci il aprelin 30-da sovet qoşunlarının Berlinə daxil olan döyüşçüləri arasında Reyxstaqa ilk bayraq sancan vedibasarlı Mirzə Hüseynovun adları Azərbaycan hərb

tarixinə qızıl hərflərlə yazılmışdır [6, s. 54].

II Dünya Müharibəsi zamanı göstərdiyi igidliyə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş azərbaycanlı döyüşçü Xıdır Həsən oğlu Mustafayev 1905-ci ildə Qərbi Azərbaycanın Hamamlı rayonunun Gözəldərə kəndində anadan olmuşdur. 1937-1941-ci illərdə Tiflis Ali Piyadalar Məktəbində hərbi təhsil almışdır. Müharibənin ilk günlərində motoatıcı batalyonun komandiri olmuşdur. Stalinqrad, Kiyev, Jitomir, Kazatin, Berdiçev, Prokursov, Ternopol uğrunda gedən döyüşlərdə iştirak etmişdir [7].

1943-cü ilin noyabrında Kiyevin faşistlərdən azad edilməsi uğrunda gedən döyüşlərdə qvardiya mayoru Xıdır Mustafayev böyük bacarıq və igidlik göstərərək xüsusilə fərqlənmişdir. 1943-cü il noyabrın 5-dən 6-na keçən gecə o, 3 qvardiya tank ordusunun zərbə batalyonuna komandir təyin edilmişdir. Strateji plana əsasən batalyonun qarşısına qəflətən düşmənin arxasına keçib Kiyevin 70 kilometrliyində yerləşən Fastov şəhərini tutmaq, əsas ordu hissələri gələnədək onu əldə saxlamaq vəzifəsi qoyulmuşdur. Noyabrın 6-da axşam Xıdır Mustafayevin tankçıları şəhərə daxil olaraq dəmiryol vağzalını ələ keçirmişlər. Küçə döyüşləri nəticəsində sovet tankçıları alman qarnizonunu darmadağın edərək Fastov şəhərini onlardan tamamilə təmizləmişlər. Düşmən döyüş meydanında 64 zenit topu, 43 tank, 16 eşalon, 40 min tona yaxın yanacaq, 5 saz lokomotiv və 40 silah ambarını qoyaraq qaçmışdır. Düşmənə qarşı mübarizədə göstərdikləri misilsiz qəhrəmanlıq və cəsarətə görə, tank batalyonu şəxsi heyyətinin 80 faizdən çoxu orden və medallarla təltif edilmiş, batalyon komandiri Xıdır Mustafayev isə SSRİ Ali Sovetinin 1944-cü il 10 yanvar tarixli əmri ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür [5, s. 204-205]. Xıdır Mustafayevin bu yüksək adı alması onu yalnız Azərbaycan xalqının deyil, bütün Sovet İttifaqının qəhrəmanlarından biri etmişdir.

Azərbaycanın hərb tarixinə adını qızıl hərflərlə yazdıran Sovet İttifaqı Qəhrəmanlarından biri də Akim Əli oğlu Abbasovdur. O, 1911-ci ildə anadan olmuşdur. Valideynlərini

erkən yaşda itirən Akim Abbasov uşaq evində tərbiyə almış və gənc yaşlarından həyatını hərbi peşəyə həsr etmişdir. O, 1927-ci ildə Zaqafqaziya hərbi hazırlıq məktəbinə daxil olmuş, təhsilini davam etdirmək üçün Zaqafqaziya Quru Qoşunları hərbi kursunu bitirmişdir. 1932-ci ildə 77-ci diviziyada dağatıcı tağımın, 4-cü dağatıcı alayının komandiri təyin olunmuşdur. Daha sonra 76-cı diviziyanın əməliyyat şöbəsi və qərargahının rəisi vəzifələrində xidmət etmişdir [8]. Böyük Vətən müharibəsinin ilk günlərindən Cənub-Qərb cəbhəsində döyüşlərə qatılmış, xüsusilə Donbas yaxınlığında özünü qorxmaz, igid və şücaətli qəhrəman kimi göstərmişdir. 1942-ci ilin mart ayında Şimali-Qafqaz cəbhəsinin komandanlığına göndərilmişdir. Bir aydan sonra isə Zaqafqaziya cəbhəsinin komandanlığına göndərilərək 402-ci Azərbaycan atıcı diviziyasında əməliyyat şöbəsinin rəisi təyin edilmişdir [8]. Qafqazın müdafiəsində 402-ci Azərbaycan atıcı diviziyasının alay komandiri kimi fərqlənmiş və qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlmiş, düşməni ağır itkilər verməyə vadar etmişdir. Kapitan Akim Abbasovun komandir olduğu batalyon 1942-ci ildə sovet qoşunlarının Belqorod ətrafındakı əks-hücumunda fəal iştirak etmişdir. O, 17 yaşayış məntəqəsini faşistlərdən azad etmişdir. Döyüşdə göstərdiyi yüksək əsgəri xidmətə görə Akim Abbasov mayor rütbəsi ilə təltif edilmiş, qiymətli hədiyyələrlə mükafatlandırılmışdır [5, s. 87].

Almanlar Qafqazda Sovet silahlı Qüvvələrinin müqavimətini sındırmaqda öz tank hissələrinə çox güvənirdilər. Ona görə də mayor Akim Abbasovun komandir olduğu hissənin müdafiə mövqelərinə 100-ə qədər tank göndərmişdilər. Bir günlük döyüşdə qəhrəman müdafiəçilər düşmənin 13 həmləsini dəf etmiş, 16 tankını sıradan çıxarmış və onların hücumlarını pozmuşlar. Döyüşdə yüksək komandirlik, şəxsi qəhrəmanlıq göstərən Akim Abbasov Qırmızı Bayraq ordeni ilə təltif edilmişdi. Bir nüansı da qeyd etmək lazımdır ki, 1944-cü ildə gedən döyüşlərdə mayor A.Abbasovun batalyonu alman faşistlərinin 79 tankını məhv etmişdir. Cənubi Qafqaz Cəbhəsi komandanlığı tərəfindən "Lenin ordeni"nə təqdim olunur. Lakin, ona bu mükafat verilmir.

A.Abbasov SSR rəhbəri M.C.Bağırova məktub ünvanlayır. Erməni-daşnakları və rus şovinistləri bu məktubun M.C.Bağırova çatmasına mane olurlar [5, s. 118]. Akim Abbasov xüsusilə cəsarət və igidlik göstərərək tanındığı Stalinqrad döyüşlərində bir neçə düşmən tankını məhv etmiş və bir çox döyüşçü yoldaşını xilas etmişdir. Bu qəhrəmanlıqlarına görə, 1944-cü ildə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Ümumilikdə Akim Abbasovun döyüş rəşadəti və əmək xidmətləri 2 dəfə Qırmızı Bayraq ordeni, 2 dəfə Qırmızı Ulduz ordeni, və 1-ci dərəcəli Böyük Vətən müharibəsi, Şərəf nişanı ordenləri və çoxlu medallarla, fəxri fərmanlarla qiymətləndirilmişdir [8].

Xalqımızın adını dünya antifaşist hərəkatının şərəfli səhifələrinə yazdıran əfsanəvi komandir, Sovet İttifaqı Qəhrəmanı Cavad Həkimli Vətəndən uzaqlarda - İtaliya və Yuqoslaviyada partizan hərəkatında faşizmə qarşı mübarizədə cəsarətlə iştirak etmişdir. Onun adı, həmçinin əfsanəvi partizan Mehdi Hüseynzadənin (Mixaylonun) komandiri kimi hərb tariximizin qızıl səhifələrinə həkk olunub. Cavad Ataxəlil oğlu Həkimli 1914-cü il oktyabr ayının 28-də Barana rayonunun Ləmbəli kəndində anadan olmuşdur. O, 1936-cı ildə sovet ordusunda xidmətə başlayıb, 1938-ci ildə Tbilisi Ali Hərbi məktəbini bitirmişdir. Vzvod komandiri, rota komandirinin müavini, batalyon qərargahının rəisi olmuşdur. 1941-42-ci illərdə Krımda gedən döyüşlərdə iştirak etmiş, 1942-ci ilin mayında ağır yaralanaraq, əsir alınmış, Almaniya, İtaliya və Yuqoslaviyanın hərbi əsirlər düşərgəsində saxlanılmışdır. Düşərgədəki əsirlərin içərisində Cavad Həkimli digərlərindən xarakterinə, davranışına, zarafatcıllığına görə xüsusi seçilən və sonradan əfsanələşən qəhrəman Mixaylo - Mehdi Hüseynzadə ilə tanış olur, və onlar həqiqi dosta çevrilirlər [9]. 1944-cü ilin fevral ayında Mehdi Hüseynzadə, Cavad Həkimli və alman zabiti Hans Frits əsir düşərgəsindən 15 italyan karabin tüfəngi, xeyli patron və s. hərbi ləvazimat götürüb partizan dəstəsinə qaçmışlar. Alman əsarətindən qaçan azərbaycanlı döyüşçülər İvan Qradnik adına birgə italyan – yuqoslav partizan diviziyası nəzdində xüsusi sovet partizan taborunda

birləşdirilmişdilər. Taborun komandiri Cavad Həkimli, komissarı isə ilk zamanlar Mehdi Hüseynzadə idi. Sovet partizan taboru elə ilk döyüş əməliyyatlarında onlara göstərilən etimadı doğrultmuşdu. Partizanlar çiyin-çiyinə bir neçə kəndi faşistlərdən azad edirlər və komandanlığın təşəkkürünü alırlar. Mehdi Hüseynzadə, Cavad Həkimli, C.İsmayılov və təşkilatın başqa üzvləri faşist əsarətində olan sovet əsgərlərini xilas etmək üçün ciddi fəaliyyət göstərmişlər [5, s. 409-410]. Ümumilikdə, kapitan Cavad Həkimli İkinci Dünya müharibəsinin iştirakçısı, əfsanəvi partizan Mehdi Hüseynzadənin komandiri, İtaliya və Yuqoslaviya azadlıq hərəkatının qəhrəmanı, 162-ci "Türküstan" diviziyasının legioneri, "Ruskaya Çeta" rotasının rəhbəri olmuşdur [9]. Cavad Həkimli Mehdi Hüseynzadənin qəhrəmanlığından bəhs edən "Uzaq sahillərdə" filminin məsləhətçisi olmuşdur.

Azərbaycan hərb tarixinə adını yazdıran digər bir qəhrəmanımız isə Qərbi Azərbaycanın Vedi bölgəsindən olan leytenant Mirzə Hüseynovdur. 1945-ci il aprelin 30-da sovet qoşunları faşistlərin son müqavimətini qıraraq Reyxstaqa daxil olurlar. Mirzə Hüseynov Reyxstaqa ilk qələbə bayrağını sancır. Lakin sovet zabitlərindən biri onu güllə ilə vurur. Çünki bu addım Moskvanın planına uyğun deyildi. Stalinin göstərişinə görə qələbə bayrağını rus ya da gürcü sancmalı idi. Bunun üçün Mixail Yeqorov adlı rus və Meliton Kantariya adlı gürcü tapırlar. May ayının 1-nə qədər 40-a qədər qələbə bayrağı sancılmasına baxmayaraq, onların heç biri nəzərə alınmır. Cəbhə kinooperatoru R.L.Karmen may ayının 2-də M.Yeqorov və M.Kantariyanın Reyxstaqa qələbə bayrağını sancmalarını lentə alıb sənədləşdirir. İlk qələbə bayrağı sancanların taleyi isə acınacaqlı olur, bəziləri məhv edilir, bəziləri isə repressiyalara məruz qalır, sürgün edilir [5, s. 450].

Müharibədə iştirak edən azərbaycanlı qəhrəmanların şücaəti xalq və dövlət tərəfindən layiqincə qiymətləndirilmiş, onların şərəfinə çoxsaylı obelisklər, abidələr ucaldılmış, küçə və meydanlara onların adı verilmişdir. Lakin 80-ci illərin sonlarında deportasiyadan sonra erməni millətçiləri Qərbi Azərbaycanda

olan qəhrəmanların abidələrini, obelisklərini dağıtmış, sanki bu tarixi torpaqların azərbaycanlılara məxsus olduğunu göstərən bütün sübutları yer üzündən silməyə çalışmışlar. Məsələn, Amasiya rayonunun Güllübulaq kəndində İkinci Dünya Müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidə 1988-ci ildə azərbaycanlıların deportasiya edilməsindən sonra yer üzündən silinmişdir [3, s. 8].

Təəssüflə qeyd etmək lazımdır ki, İkinci Dünya müharibəsində həlak olan və ya itkin düşən Qərbi Azərbaycanda yaşamış soydaşlarımızın taleyi haqqında Sovet hakimiyyəti illərində araşdırmalar aparılmamışdır. Müstəqil Azərbaycanda 1997-ci ildən etibarən işıq üzü görən "Xatirə kitabı" seriyasının nəşrlərinə isə pərakəndə halda Qərbi Azərbaycandan olan bir neçə soydaşımız haqqında məlumatlar daxil edilmişdir. Qərbi Azərbaycanda yaşamış və İkinci Dünya müharibəsi zamanı cəbhəyə göndərilən, lakin qayıtmayan (həlak olan və ya itkin düşən) soydaşlarımızın aqibəti barədə ilk sistemli iş iqtisadiyyat üzrə fəlsəfə doktoru Lütfiyar Nəsibov tərəfindən aparılmışdır.

Aradan uzun müddət keçməsinə baxmayaraq, İkinci Dünya müharibəsindən qayıtmayan əsgər və zabitlərin taleyinə aydınlıq gətirmək işi bitmiş sayıla bilməz. Keçmiş hərbi dövrə aid tarixi mənbələrə müraciət edərək İkinci Dünya müharibəsində Qərbi azərbaycanlıların iştirakını, göstərdikləri qəhrəmanlıqları, ölən və itkin düşənlərin bütün siyahılarını sübut edən çoxsaylı qiymətli mənbələri, arxiv materiallarını araşdırmaq zərurəti yaranır. Bu sahədə araşdırma aparmaq isə hər bir tədqiqatçının vətəndaşlıq borcudur.

**Вюсала Аллазова**

**РЕЗЮМЕ**

**УЧАСТИЕ ЗАПАДНЫХ АЗЕРБАЙДЖАНЦЕВ ВО ВТОРОЙ МИРОВОЙ ВОЙНЕ**

В статье рассматривается активное участие азербайджанцев в борьбе против фашизма в составе СССР во время Второй мировой

войны, стратегическое значение азербайджанской нефти в годы войны, а также значительный вклад азербайджанского народа в обеспечение армии на тыловом фронте. Также подчеркивается, что в период войны 1941-1945 годов азербайджанцы, проживающие в Армянской ССР, которая входила в состав Советского Союза, были призваны на фронт наравне с другими советскими гражданами.

В статье приводится информация о том, в каких дивизиях сражались азербайджанцы во время Второй мировой войны, мобилизованные из окрестностей озера Гейча, из областей Агбаба и Шорейель (административный район Амасия), где они компактно проживали, указано число погибших, а также сведения о награждении высшими орденами и медалями Советского Союза наших воинов, проявивших героизм в боях.

Кроме того, в статье содержится краткая информация о Героях Советского Союза, родом из Западного Азербайджана: Хидыре Мустафаеве, генерал-майоре Акиме Аббасове, Джаваде Хакимли, который был командиром Мехди Гусейнзаде.

**Ключевые слова:** Вторая мировая война, западные азербайджанцы, окрестности озера Гёйча, Агбаба-Шорейель, Герой Советского Союза.

**Vusala Allazova**

**SUMMARY**

## PARTICIPATION OF WESTERN AZERBAIJANIS IN WORLD WAR II

The article highlights the active participation of Azerbaijanis in the fight against fascism within the USSR during World War II, the strategic importance of Azerbaijani oil during the war, the great contribution of the Azerbaijani people to the army's supply in the rear, and the involvement of Azerbaijanis living in the Armenian SSR, which was part of the Soviet Union, in the war of 1941-1945, like other Soviet citizens.

The article reflects information on which divisions Azerbaijanis who were taken to the front from the areas around Lake Goycha, Agbaba and Shorayel regions (Amasya administrative region), where

Azerbaijanis lived densely, fought in during World War II, the number of those who died in the war, and the fact that our fighters who showed heroism in battles were awarded the highest orders and medals of the Soviet Union.

The article also provides brief information about Heroes of the Soviet Union from Western Azerbaijan: Khidir Mustafayev, Major General Akim Abbasov, and Javad Hekimli, who was the commander of Mehdi Huseynzade.

**Keywords:** World War II, Western Azerbaijanis, around Lake Goycha, Aghbaba-Shorayel, Hero of the Soviet Union

## ƏDƏBİYYAT

1.Bayramov A. Tarixi yaddaş: repressiya və rus-alman savaşında təpəköylülərin iştirakı // -Vedibasar qəzeti, №07-08, 01-30 aprel -2025, -16 s.

2.Əmrahov M.İ. Azərbaycan SSR İkinci dünya müharibəsində (1939-1945-ci illər) / M.İ.Əmrahov. -Bakı: İdeal-Print MMC, -2021, -970 s.

3.Nəsibov L.Q. Ağbaba-Şorayel II Dünya savaşında: həlak olanlar və itkin düşənlər / L.Q. Nəsibov. -Bakı: Apostrof-A, -2023, -404 s.

4.Nəsibov L.Q. Göyçə mahalı II Dünya savaşında: həlak olanlar və itkin düşənlər / L.Q.Nəsibov. -Bakı: ABBA design group, -2021, -784 s.

5.Mədətov Q.Ə. Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində. (Yenidən işlənmiş və təkmilləşdirilmiş nəşri) / Q.Ə.Mədətov. -Bakı:Turxan NPB, -2018, - 544 s.

6.Mustafa N.Y. Qərbi Azərbaycan: faktlar, sənədlər, reallıqlar / N.Y.Mustafa. -Bakı: Orxan NPM, -2025, -108 s.

7.https://az.wikipedia.org/wiki/X%C4%B1d%C4%B1r_Mustafayev 25.03 2025.

8.https://az.wikipedia.org/wiki/Akim_Abbasov;https://mod.gov.az/az/news/gorkemli-serkerde-akim-abbasovun-xatiresi-yad-edilib-video-35027.html 26.03.2025.

9.https://az.wikipedia.org/wiki/Cavad_H%C9%99kimli 26.03.2025

**NAZİM MƏMMƏDOV***

# QARABAĞ DÖYÜŞÇÜLƏRİ İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ


## XÜLASƏ

Məqalə İkinci Dünya müharibəsinin müxtəlif cəbhələrində qəhrəmancasına mübarizə aparmış döyüşçülərin qəhrəman hərəkətləri Qarabağ döyüşçülərinə həsr edilir. Məqalə onlarla fədakar döyüş yolunu ön plana çıxarır. Müəllif nəticəyə gəlir ki, bu əsgərlərin qəhrəmanlığı, Qarabağlılar faşizmin üzərindən qələbədə vacib rol oynamışdı.


**Açar sözlər:** Döyüşçü, İkinci Dünya müharibəsi, faşizm, qələbə, cəbhə Qarabağlılar, Azərbaycan, qəhrəmanlar

**Giriş.** Qarabağ Azərbaycanın ən qədim tarixi Vilayətlərindən biridir. Dünyanın qədim tarixi məskənlərindən olan Qarabağın Azərbaycan tarixində özünəməxsus rolu və yeri vardır. Bütün XX yüzillik ərzində Qarabağın tarixi erməni ideoloqlarının saxtalaşdırma obyektinə çevrilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarından birində göstərmişdir ki, tarix elmləri ilə bağlı olan məsələlər daim diqqət mərkəzindədir… Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur… Ona görə də Qarabağın tarixi həmişə tədqiq və təhlil olunmalıdır… Gənc liderimizin bu tarixi çıxışı tarixçilərimiz üçün bir mesaj oldu. Qarabağın tarixinə dair minlərlə əsərlər yarandı və bu gün də davam etməkdədir. Tədqiqi vacib olan

* AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, tarix elmləri doktoru, dosent.

məsələlərdən biri də Qarabağın 1939-1941-ci illər tarixidir.

1941-ci il iyunun 22-də Almaniya SSRİ üzərinə hücum etdi. Nasizm vəbasına qarşı mübarizədə Qarabağ əhalisi böyük təkrarlıq göstərdi. Onlar bütün imkanlarını düşmən üzərində qələbəyə yönəldərək möhkəm arxa cəbhə yaratdı və onun ahəngdar işləməsi üçün var gücü ilə çalışdı. Müharibənin ilk günündən bütün Azərbaycan xalqı [20], o cümlədən Qarabağ əhalisi nasist işğalçılarına qarşı mübarizəyə qalxdı və 11 mindən çox Qarabağlı cəbhəyə könüllü getmək üçün ərizə verdi [19]. Yüzlərlə qırıcı batalyonlar, özünümüdafiə və hərbi hava hücumundan müdafiə dəstələri yaradıldı. Müharibənin ilk günlərindən minlərlə Qarabağ vətəndaşları cəbhələrdə faşizmə qarşı mərdliklə vuruşdu. Onlar cəsarətlə döyüşərək düşmənə güclü tələfatlar verdilər. Azərbaycanlıların mərdlikləri Brest qalasından, Novqoroddan, Mozdokdan, Qafqazdan, Kerçdən, Sevestapoldan, Stalinqraddan, Smolenskdə, Ukraynadan, Fransadan, Yuqoslaviyadan, İtaliyadan, Yaponiyadan, Berlindən – bir sözlə müharibə gedən hər yerdən gəlirdi. Göstərdikləri şücaət və igidliklərə görə İsrafil Məmmədov, Hüseynbala Əliyev, Qafur Məmmədov, Həzi Aslanov, Ziya Bünyadov, Yusif Sadıqov, Mehdi Hüseynzadə və digər 130 nəfər xalqımızın mərd oğulları o dövr üçün ən yüksək ada «Sovet İttifaqı qəhrəmanı» adına layiq görülmüşlər [1]. Ölkəmizi nasizm bəlasından qurtarmaq üçün böyük hərbi təşkilatçılıq qabiliyyəti və əsgəri rəşadətə görə vətənimizin mərd oğullarından 30 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə, 176 nəfər isə müxtəlif orden və medallarla təltif edilmişdi [28]. Müharibə dövründə Azərbaycanlı partizanlar müqavimət hərəkatında fəal iştirak etmiş mərdlik və şücaət göstərərək düşməndən intiqam almışlar. Xalqımızın müharibədə göstərdiyi şücaət, aldıqları yüksək rütbələr xain erməni lobbisini çox narahat edirdi.

Yüksək mundir sahibi olan ermənilər açıq və gizli yollarla azərbaycanlıların irəli getməsinin qarşısını almağa çalışırdılar. O dövrdə SSRİ generallarından olan İ.X.Baqramyan belələrindən idi. Həzi Aslanovun 1945-ci il yanvarın 24-də döyüş əməliyyatları getməyən bir yerdə, müəmmalı şəkildə həlak olması

yuxarıda deyilənlərə əyani misaldır. Erməni lobbisinin ölkə və cəbhə rəhbərliyinə göstərdiyi təzyiqlərin təzahürlərindən biri də ondan ibarət idi ki, azərbaycanlı döyüşçülər cəbhənin ən təhlükəli yerində döyüşür, çox hallarda isə onları cəbhə boyu səpələyirdilər. Bütün bunlar azərbaycanlı döyüşçülərin şücaətinə mane olmurdu.

İkinci Dünya müharibəsi dövründə Qarabağdan 196 min nəfər oğlan və qız cəbhəyə getmiş, Vətənə hədsiz sədaqət, mərdlik, fədakarlıq və igidlik nümayiş etdirmişlər. Qarabağ sakinlərindən 65 min nəfər vətənin azadlıq və istiqlaliyyəti uğrunda döyüşlərdə qəhrəmanlıqla canını qurban vermişdi. Onlar Sovet Ordu hissələrində, partizan dəstələrində, müqavimət hərəkatı sıralarında hitlerçilərə qarşı vuruşmuşlar. Qarabağda anadan olmuş 46 min döyüşçü döyüş orden və medalları ilə təltif edilmiş, 30 nəfəri Sovet İttifaqı qəhrəmanı kimi yüksək ada layiq görülmüşlər [12]. Onlardan bir neçəsinin döyüş yolunu xatırlatmaq yerinə düşərdi. Smolensk meşələrində fəaliyyət göstərən Partizan dəstəsində "Partizan Aliyə" adı ilə tanınan Aliyə Fətulla qızı Rüstəmbəyova 1907-ci ildə Qarabağın tacı Şuşada dünyaya göz açmışdır. Tibb İnstitutunu bitirən Aliyə Böyük vətən müharibəsinin elə ilk günündən öz ərizəsi ilə könüllü olaraq alman faşizminə qarşı müharibəyə getdi. Müharibənin ilk günlərində böyük bacarığa malik olması aşkar edilmiş və qeyrətli azərbaycanlı qızı Tibb-sanitariya batalyonuna rəis təyin edilmişdir. Dərin zəkaya malik cərrah Aliyə minlərlə insanı ölümün pəncəsindən xilas etmişdir. 1941-ci ilin yanvarında yaralanaraq əsir düşən Aliyə, 1942-ci ilin fevralında əsirlikdən qaçmış və Smolenskdə partizanlara qoşulmuşdur. Cəmi 35 bahar yaşayış həssas, nikbin, qeyrətli vətən övladı 1942-ci ildə qəhrəmancasına həlak olmuşdur [22, s.27]. Təlim, tərbiyə və təhsilini Şuşada alan və ölümündən sonra "Böyük Vətən müharibəsi Qəhrəmanı" adına layiq görülən "Partizan Aliyə" ilə bütün Azərbaycan xalqı fəxr edə bilər.

Sovet İttifaqının donanma admiralı Qarabağlı İ.S.İsakov Böyük Vətən müharibəsi illərində qoşunlara bacarıqla rəhbərlik etdiyinə, igidlik və qəhrəmanlıq göstərdiyinə görə Sovet İttifaqı

Qəhrəmanı adı almış, 6 Lenin ordeni, 3 qırmızı Bayraq Ordeni, 2 dəfə Birinci Dərəcəli Uşakov ordeni, birinci dərəcəli Vətən müharibəsi və Qırmızı Ulduz ordenləri ilə, bir çox medallarla, habelə bir sıra xarici dövlətlərin ordenləri ilə təltif olunmuşdur [23].

Müharibə başlayan ilk günlərdə nasizmə qarşı mərdliklə vuruşmuş Qarabağlı döyüşçülərdən Yaqub Allahqulu oğlu Quliyevin (1900-1942) adını xüsusi qeyd etmək lazımdır. O, Şimali Qafqazın azad etmək əməliyyatlarında böyük rəşadət göstərmiş və qəhrəmancasına həlak olmuşdu. Ölümündən sonra Yaqub Quliyev "Qırmızı Ulduz" medalı ilə təltif edilmişdir.

Rostov şəhərinin xatirə lövhəsində bir igid Qarabağlının da adı həkk olub: "Qaraşov Aslan Məmməd oğlu (10.XI.1919, Şuşa – 12.02.1943, Rostov)". Aslan 1939-cu ildə ordu sıralarına çağırılmış və Böyük Vətən müharibəsində artilleriya batare-yasının komandiri təyin edilmişdir. O, Şimali Qafqazın azad edilməsində böyük igidlik göstərmişdir. Rostovun Semernikova kəndində gedən döyüşlərdə cəsur döyüşçü Aslan düşmənin 8 tankını yandırmış və özü də həlak olmuşdur. Möhkəm əqidəli şuşalı balasına Böyük Vətən müharibəsi qəhrəmanı adı verilmiş "Qırmızı Bayraq" ordeni və çoxlu medallarla təltif edilmişdir [27].

1945-ci ildə Sovet İttifaqı qəhrəmanı adına layiq görülmüş Vəzirov Aslan Fərhad oğlu 1910-cu ildə Bərdə rayonunun Zümurxaç kəndində anadan olmuşdur. O, Qvardiya Polkovniki rütbəsinədək yüksəlmiş, döyüşlərdə çox böyük mərdlik nümayiş etdirmişdir. Təhsilini Leninqrad və Moskva hərbi məktəbində alan A.F.Vəzirov İkinci Dünya müharibəsi illərində Zaqafqaziya cəbhəsi Şimal ordu qrupunun 5-ci dağ minaatan – mühəndis briqadasının, 3-cü Ukrayna cəbhəsinin Qırmızı Bayraq Ordenli 51-ci mühəndis-istehkam briqadasının tərkibində olmuş və sonra briqadaya komandirlik etmişdir. Polkovnik A.F.Vəzirov göstər-diyi şücaətə görə Sovet ittifaqı qəhrəmanı adına layiq görülmüş, iki xarici ölkə ordeni, 4 Qırmızı Bayraq Ordeni, II dərəcəli Boqdan Xmelniski ordeni və medallarla təltif olunmuşdur [17].

Xocavənd rayonunda anadan olmuş M.A.Parseqov 1940-cı ildən artilleriya diviziyasına komandirlik etmişdir. O, Manneyheym xəttinin dağıdılmasında, Kiyevin müdafiəsində, Yapon militaristlərinin darmadağın edilməsində fəal iştirak etmiş və öz zabit borcunu şərəflə yerinə yetirmişdir. Göstərdiyi xidmətlərə görə general-polkovnik M.A.Parseqova Sovet İttifaqı qəhrəmanı adı verilmişdir [16].

Mozdok, Şimali Qafqaz, Rostov, Stalinqrad əməliyyatlarında Azərbaycan diviziyasının döyüşçüləri böyük əsgəri rəşadət göstərir, həmin ərazilərin düşməndən azad edilməsində fəal iştirak edirdilər. Belə döyüşçülərdən biri də, 1920-ci ildə Ağdam rayonunun Gülablı kəndində anadan olmuş Quliyev Murtuz Heydər oğlu idi. O rabitə qoşunları general mayoru olmaqla Sovet hərbi xadimi idi. M.Quliyev müharibədə Tank Batalyonunda rəis, rota komandiri və Zaqafqaziya cəbhəsi 15-ci süvari korpusun rəis müavini olmuş və özünün dəyərli planları ilə Mərkəzin nüfuzunu qazanmışdır. O, göstərdiyi xidmətlərə görə "İkinci dərəcəli Vətən müharibəsi", "Qırmızı Ulduz", "Şərəf Nişanı" və digər orden və medallara layiq görülmüşdür.

Bütün Azərbaycan xalqının fəxri sayılan Quliyev Yaqub Allahqulu oğlu 1900-cü ildə Şuşada dünyaya göz açmışdır. 1920-ci illərdə vzvod komandiri, rota komandiri, Türkmən Süvari Polk qərargahının rəisi, 1938-ci ildə Türküstan dağ-süvari briqadası qərargahının rəisi, 1939-cu ildə Orta Asiya hərbi dairə qərargahının rəis müavini, 1942-ci ildə 97-ci süvari diviziyasının komandiri vəzifələrində işləmişdir. Dərin düşüncəli Yaqub sovet hərbi xadimi adına layiq görülmüş və general mayor rütbəsi almışdır. İgid şuşalı Stalinqrad vuruşmasında qəhrəmancasına həlak olmuşdur. Xalqımız ölməz qəhrəmanı ilə fəxr edə bilər. Onun adı Mamay təpəsindəki xatirə ansamblında yazılmış, Türkmənistanda Yaqubun adına abidə qoyulmuş və bir məşhur küçəyə Y.Quliyevin adı verilmişdir. Ölümündən sonra Y.A.Quliyevə Lenin ordeni, sağlığında isə 2 dəfə "Qırmızı Bayraq" ordeni ilə təltif olunmuşdur. Lenin ordenli generalın adına Şuşada da küçə vardır [22, s.28].

Qarabağın Hadrut rayonunun Böyük Tağlar kəndində anadan olmuş S.A.Xudyakov (1902-1950) general və aviasiya marşalı rütbəsinədək yüksəlmişdir. O, Moskva ətrafında gedən döyüşlərdə, Kursk, Oryol Belqrad və Solsahil Ukraynasının azad olunması, Yassı-Kişinov əməliyyatlarında fəal iştirak etmişdir. Aviasiya marşalı rütbəsinədək yüksələn Xudyakov Sovet Qoşunları Hərbi Hissəsinin qərargah rəisi vəzifəsində işləmişdir. İgidlik və mərdlik nümayiş etdirdiyinə görə S.A.Xudyakov Lenin Ordeni, 2 Qırmızı Bayraq Ordeni və 1-ci Süvari Ordu Ordeni, 1-ci dərəcəli Kutuzov Ordeni, Qırmızı Ulduz Ordeni və digər orden və medallarla təltif olunmuşdur [28].

Dərin düşüncəsi, möhkəm iradəsi, qibtə olunan vətənpərvərliyi ilə xalqımızın sevimlisinə çevrilmiş, həm zahirən, həm də mənən əsl azərbaycanlı və türk oğlu adına layiq olan Xəlil Məmməd oğlu Məmmədov 1916-cı ildə gözəlliklər diyarı Şuşada dünyaya göz açmışdır. 1940-cı ildə tank batalyonunun alay məktəbini bitirən Xəlil tank komandiri təyin edilmişdir. Böyük vətən müharibəsində rota və batalyon komandirləri vəzifəsində işləyən X.Məmmədov Kerç, Krım, Şimali Qafqaz, Ukrayna, Moldava, Rumıniyanın azad edilməsində qəhrəmanlıqlar göstərmişdir. Göstərdikləri qəhrəmanlıqlara görə Xəlil Məmmədova 1945-ci ildə Sovet İttifaqı qəhrəmanı adı verilmiş və general-mayor rütbəsinədək yüksəlmişdir. X.Məmmədov Qırmızı Bayraq, Aleksandr Netski, 2 Qırmızı Ulduz, Şərəf Nişanı ordenləri və medallarla təltif edilmişdir. Qəhrəmanın həyatı bugünkü gəncliyimizə gözəl örnəkdir [2, v.174].

Ağır döyüşlərdə əsr düşmüş və nasist əsr düşərgələrinə salınmış azərbaycanlıların əksəriyyəti həmin düşərgədən qaçaraq partizanlara qoşulurdular. Onlardan biri də Ağdam rayonunda anadan olmuş Ənvər Məmmədov (1917-1975) idi. O 1942-ci ildə ağır yaralanaraq əsr düşmüş və çətinliklə də olsa əsirlikdən qaçıb Yuqoslaviya partizanlarına qoşulmuşdur. Hitlerçilərə qarşı mübarizədə qəhrəmanlıqlar göstərən Ə. Məmmədov hərbi əsrlərin azad edilməsində fəal iştirak etmiş və onlarla alman zabitini məhv etmişdi. O, göstərdiyi igidliklərə görə Qırmızı Bayraq

Ordeni, Qırmızı Ulduz Ordeni, Yuqoslaviyanın “Hərbi Şücaətə görə” medal və digər orden və medallara layiq görülmüşdü.

Bütün Taqanrok sakinləri arasında “məğlubedilməz” ləqəbi ilə tanınan Şuşa rayonunun Zarıslı kənd sakini Əli Rza oğlu Bədəlov müharibə başlayan vaxtdan öz ərizəsi ilə cəbhəyə getdi. Cəsur topçu Ə.R.Bədəlov Mozdok, Taqanrok, Melitopol, Kişinyov ətrafında, Macarıstan və Polşada gedən döyüşlərdə yüzlərlə alman tankını məhv etmişdir. Ali Baş Komandanlığının imzaladığı təşəkkür əmrində onun adı həmişə birinci çəkilmişdir [7, v.116].

Şuşalı Əmir Məmmədoğlu Rüstəmov müharibə dövründə azərbaycanlılar arasında birinci texnik-mühəndis olmuşdur. 1942-ci ildə Qafqaz uğurunda gedən döyüşlərdə düşən obyektlərinin yerini və hücum üçün planı Ə.Rüstəmov çox dəqiqliklə çəkmişdir. Kapitan Ə.Rüstəmov 1942-ci ilin yanvarında 56-cı orduya, sonra isə 25-ci mina axtaranlar briqadasına komandirlik etmişdir. General-mayor rütbəsinədək yüksələn komandir çoxlu orden və medalların sahibidir [8, v.117]. Böyük Vətən müharibəsi dövründə Qarabağdan onlarca döyüşçü Sovet İttifaqı qəhrəmanı A.S.Qasparov, Bəylər və Əşrəf Cahangirovlar, Musa, Baxış və Alyoşa Hüseynov qardaşları, Məhəmməd Nəzərov, Əliqulu Xəlilov, Ağa Şirinov, Kamran Məmmədov və başqaları fövqəladə mərdlik göstərmişdilər [21, s.15-16].

Sovet Ordusunun Şimali Qafqazı azad etmək əməliyyatlarında Azərbaycan diviziyalarının döyüşçüləri böyük əsgəri rəşadət göstərmişlər. Belə döyüşlərdən biri də Birinci Şahsevən kəndində dünyaya göz açmış Gəray Lətif oğlu Əsədov (1923-1944) olmuşdur. O, 402-ci diviziyanın tərkibində Mozdok ətrafında 10 yaşayış məntəqəsinin düşməndən təmizlənməsində fəal iştirak etmişdir. Onun döyüş yolu Mozdokdan Rumıniyayadək ərazini əhatə edirdi. Qəhrəman əsgər Ukraynanın, Moldaviyanın və Rumıniyanın faşist işğalından azad edilməsində cəsarətlə vuruşmuşdu. 1944-cü il Mergita (Rumıniyada şəhər) döyüşündə Gəray Əsədov çox böyük fədakarlıq nümayiş etdirərək öz bədəni ilə düşmənin atəş nöqtəsini örtmüş, yoldaş-

larını pulemyot mərmisindən xilas edərək, onların hücuma keçməsinə şərait yaratmışdır. Ölümündən sonra qəhrəman əsgər "Qırmızı Bayraq" ordeni ilə təltif edilmiş, doğulduğu kənddə qəhrəmanın ev muzeyi yaradılmış, abidə ucaldılmışdır.

Beləliklə, Böyük vətən müharibəsi SSRİ-nin qələbəsi ilə başa çatdı. Qələbənin əldə edilməsində bütün Azərbaycan xalqının, o cümlədən Qarabağ əhalisinin böyük xidmətləri olmuşdur. Ümummilli liderimiz Heydər Əliyev çıxışlarından birində qeyd etmişdir: "1941-1945-ci illər Azərbaycan xalqının tarixində çox görkəmli yer tutur və xalqımızın tarixində parlaq səhifələrindəndir… İkinci Dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır. Faşizm üzərində qələbədən sonra xalqımızın keçdiyi yol Azərbaycanın gələcək milli azadlığına müstəqilliyinə gedən yol olmuşdur… Azərbaycan yüksək inkişaf yolu keçdi və böyük iqtisadi, intellektual potensial topladı. Bunların əsasında xalqımız öz müstəqilliyini əldə etdi və dünya birliyində öz yerini tutdu" [18, s.267].

**Назим Мамедов**

**РЕЗЮМЕ**

**ВОИНЫ – КАРАБАХЦЫ ВО ВТОРОЙ МИРОВОЙ ВОЙНЕ**

Статья посвящена подвигам воинов – карабахцев, героически сражавшихся на различных фронтах Второй Мировой войны. В статье освещается самоотверженный боевой путь, пройденный ими. Автор приходит к такому заключению, что героизм воинов – карабахцев сыграл важную роль в победе над фашизмом.

**Ключевые слова:** Воины, Второй Мировой войны, фашизм, победа, фронт, Карабахцы, Азербайджан, героический

**Nazim Mammadov**

**SUMMARY**

**WARRIORS – KARABAKHIANS IN WORLD WAR II**

The article is devoted to the heroic deeds of warriors – Karabakhians, who heroically fought on the various fronts of the Second World War. The article highlights the selfless battle path traversed by them. The author comes to the conclusion that the heroism of these soldiers – Karabakhians had played an important role in the victory over fascism.

**Keywords:** Warriors, World War II, fascism, vietory, fronts, Karabakhians, Azerbaijan, who heroically.

## ƏDƏBİYYAT

1.Azərbaycan Böyük Vətən müharibəsi illərində. Bakı, 1969.
2.Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivində (ARPİİİSSA), F.1, s.153, i. 143, v.174.
3.ARPİİİSSA, F.2, s.280, i.3, v.439.
4.ARPİİİSSA, F.1, s.129, i. 2, v.8.
5.ARPİİİSSA, F.1, s.153, i. 32, v.12-13.
6.ARPİİİSSA, F.1, s.169, i. 6, v.52.
7.ARPİİİSSA, F.1, s.280, i. 6, v.116.
8.ARPİİİSSA, F.1, s.280, i. 6, v.117.
10.ARPİİİSSA, F.2, s.84, i. 107, v. 4.
11.ARPİİİSSA, F.2, s.84, i. 91, v.11.
12.ARPİİİSSA, F.2, s.84, i. 91, v.12.
13 AMEA TİEA, F.1, s.158, i.91, v.90.
14.Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), F.16, s.2, i.67, v.45.
15.ARDA, F.2, s.84, i.91, v.12.
16.Azərbaycan Sovet Ensiklopediyası. II cild. Bakı, 1977, s.503.
17.Azərbaycan Sovet Ensiklopediyası. III cild. Bakı, 1979, s.287
18.Azərbaycan Sovet Ensiklopediyası. X cild. Bakı, 1987, s.267
19.Azərbaycan tarixi. Yeddinci cild. Bakı, 2003.

20.Bəhramov C.Ə. “Azərbaycan oğulları Qafqaz uğrunda döyüşlərdə”. Bakı, “Elm”, “2010;

21.Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı, 2001, s. 15-16.

22.Qardaşlıq ailəsində. Bakı, 1973, s.27.

23.Məmmədov N.R. “Şuşa və şuşalılar”. Bakı, 2004, s.82.

24.Məmmədov N.R. Azərbaycan SSR DQMV-i Böyük vətən müharibəsi illərində. ADPU-nin Xəbərləri (Humanitar elmlər seriyası). Bakı, 2005, №15, s.234-239.

25.Orucov Q. Azərbaycan Qafqaz döyüşlərində. Bakı, 1984.

26.Siyasi tarix. II hissə. Bakı, 1998.

27.Sovet Dağlıq Qarabağı. Bakı, 1983, s.60.

28.SSRİ tarixi. Moskva, 1960, 734 s.

29 Всемирная история» Москва, 2001, с.373.

**RAHİM HƏSƏNOV***

# ŞƏKİ BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İLLƏRİNDƏ

## XÜLASƏ

Bəşəriyyət tarixində ən dəşşətli müharibə hesab edilən İkinci Dünya Müharibəsindən 80 il ötməsinə baxmayaraq, mütəxəssislərin-sosioloqların, tarixçilərin, iqtisadçıların, politoloqların hələ də təqiqiqat obyekti olaraq qalmaqdadır. Çünki bu müharibədə dünyanın böyük bir hissəsi döyüşən cəbhə halına gəlmiş, müharibədə iştirak etməyən dövlətlər belə müharibənin açısını uzun müddət çəkməli olmuşlar. İştirakçı dövlətlərin əksəriyyəti isə qalib və yaxun məğlub olmasından asılı olmayaraq, sosial-iqtisadi və siyasi cəhətdən iflic vəziyyətə düşmüşlər. Çünki bu mühaibədə 70 milyondan çox insan tələf olmuşdur.

Müharibə illərində SSRİ-nin tərkibində yer alan vətənimiz Azərbaycan həm ön cəbhədə həm də arxa cəbhədə həllledici rol oynamışdır. Bakı nefti ilə bərabər ölkənin bütün təbii sərbətləri, insan resusrları müharibənin ixtiyarına verilmişdir. Bakı ilə bərabər sənaye şəhəri olan Şəkidə də hər şey müharibə şəraitinə uyğunlaşdırlmışdır. Məqalədə Böyük Vətən müharibəsində Şəkidə ictimai, iqtisadi, vəziyyət, şəkililərin ön cəbhədə faşizmə qarşı mübarizəsindən bəhs edilir.

**Açar sözlər:** Şəki, Vətən müharibəsi, faşizm

**Giriş.** Brinici Dünya Müharibəsinin dəşşətlərini görən və 21 milyon insanın məhvinə görə şok vəziyyəti yaşayan bəşər insanı əfsuslar olsun ki, bu şoku tezliklə unutmuş, daha böyük bir müharibənin baş verməsinə səbəb olmuşdur.

İkinci Dünya Müharibəsi illərində vətənimizin də tərkibində olduğu Sovetlər birliyi çox ağır bir sınaqla qarşı qarşıya qalmışdı. Nəzər alsaq ki, müharibədən elə bir neçə il qabaq ölkədə kütləvi repressiyalar həyata keçirilmiş, SSRİ-nin bir sıra

* AMEA Şəki Regional Elmi Mərkəzi, tarix üzrə fəlsəfə doktoru.

tanınmış hərbiçiləri, alimləri, ziaylıları məhv edilmişdir. Belə bir dövrdə ölkənin böyük miqyaslı müharibəyə daxil olması ciddi sıxıntlara səbəb oldu.

Müharibənın ilk iki ilində SSRİ əsasən Baltikyanı ölkələr və Finlandiya ilə müharibə aparırdı. Lakin Hitler Almaniyasının 22 iyun 1941-ci ildə Molotor- Ribbentrop paktını pozaraq ( 1939-cu il 23 avqus tarixində imzalanmışdı) Belarusiyaya hücum etməsi ilə SSRİ konkret olaraq, müharibənin mərkəzinə çevrildi. Həmin tarixidən 1944-cü il ikinci cəbhənin açılmasınadək müharibə yükünün böyük bir hissəsi SSRİ-nin üzərinə düşmüş oldu.

Müharibə illərində vətənimiz Azərbaycan da başqa müttəfiq respublikalar kimi əzab-əziyyətlərin içərisində olmuş , həm ön cəbhədə həm də arxa cəbhədə öz qəhrəmanlığı və şücaəti ilə seçilmişdir. Müharibə ərəfəsində Azərbaycan SSRİ də 3 milyon-dan çox adam yaşayırdı (1941-ci ildə 3,331,8), 600 mindən çox insan səfərbərliyə alınmışdır. Arxa cəbhədə 260 min nəfər istehsalata cəlb edilmiş, Bakı, Şəki, Gəncə kimi böyük şəhərlərdə istehsal tam hərbiləşdirilmişdir. Müharibənin demək olar ki, bütün yanaçağını məhz Azərbaycan verirdi. Müharibə illərində Azərbaycan SSR dən 300 mindən çox insan həlak olmuşdur

Azərbaycanlı əsgərlər "Böyük Vətən Müharibəsi" nin elə ilk günündə öz şücaətlərini Brest qalasının müdafiəsində göstərmiş-lər. Belə ki, 22 iyun 1941-ci ildə nasist Almaniyasının qoşunları Belarusiya istiqamətində hücuma keçərkən Brest qalasının müdafiəsində döyüşən əsgər və zabitlərin içərisində azərbaycan-lılar da var idi. Ümumiyyətlə istər ön cəbhədə, istərsə də arxa cəbhədə fəaliyyət göstərən soydaşlarımızın müharibənin qələbə ilə başa çatmasında böyük xidmətləri vardır.

Məqalədə Azərbaycan SSR-in böyük şəhərlərindən biri və sənaye şəhəri hesab edilən Şəkinin ictimai vəziyyəti və şəkililərin müharibə illərində şücaətlərindən bəhs edilir. Müəllifin məqsədi ölkənin tarixi araşdırmalarını bölgələrə bölmək xarakteri daşımır. Araşdırmanın məqsədi Şəki

bölgəsindən müharibəyə yollanan və tədqiqatlarda diqqətdən kənarda qalan bir neçə vətənpərvər şəkilinin döyüş yolu tarixinə işıq salmaqdır.

**Şəkinin müharibə illərində ictimai-iqtisadi durumu**. Müharibə illərində respublikanın başqa bölgələrində olduğu kimi Şəkidən də minlərlə əsgər və zabit səfərbərliyə alınmışdır. Müharibədən 11 il əvvəl ərazidə böyük bir üsyanın baş verməsi, hətta şəhərin üsyançılar tərəfindən ələ keçirilməsi, mərkəzi hökümətin bölgəyə qarşı həssaslığını artırırdı. Nəzərə alsaq ki, hətta XX əsrin 40-cı illərinin ortalarınadək bölgədə narazı qaçaqlar fəaliyyət göstərmişlər. Lakin buna baxmayaraq, ölkəmizin digər bölgələrində olduğu kimi şəkili əsgərlər də ön cəbhədə öz hünər və fədakarlıqları ilə seçilmişlər.

Bir milyard 700 milyon nəfər əhalisi olan 61 dövlətin iştirak etdiyi bu müharibədə 70 milyon insanın həyatına son qoyulmuşdur [17, s.65]. Bu itkilərin 29 milyon nəfəri Azərbaycanın da daxil olduğu SSRİ-nin payına düşür. Nəzərə alsaq ki, müharibədən bir neçə il əvvəl kütləvi repressiyalar həyata keçirilmiş və minlərlə insan məhv edilmişdi və əlbəttə ki, bu repressiyalar ordudan da yan keçməmişdir. Belə ki, müharibədən əvvəl orduda 43 min nəfər represiyaya məruz qalmışdır. Bu hərbiçilərin 1800 nəfəri ali hərbi rütbəli zabitlər idi [2.28]. Bu döyüşlərin ilk günlərindən ciddi surətdə hiss edilirdi. Peşəkar hərbçi kadr çatışmazlığı hökm sürürdü.

Altı yüz mindən çox vətəndaşını müharibəyə yola salan Azərbaycan SSR dən 40 min nəfər könüllü olaraq iştirak etmişdi [11, s.28]. Ümumittifaq müdafiə fonduna bütün müttəfiq respublikalardan ianələr edilməyə başlamışdır. Müharibə boyu azərbaycanlılar müdafiə fonduna 15,5 kq qızıl, 952, 5kq gümüş, 295 milyon manat nağd pul, 15 mln manatlıq qızıl istiqraz vermişlər [8,s.25], əlavə olaraq ölkənin faşizmdən azad edilmiş bölgələrinə 200 ton sement, 25 min pud taxıl, 287 kq yağ, 1500 kotan vermişlər [1,s. 56].

Hitler Almaniyasının elan etmədən müharibəyə başlaması, SSRİ ilə bağladığı sülhü pozması, Kremldə müəyyən çaşqınl-

ıqlara səbəb olmuşdu. Həmdə əzazisi böyük olan və xalqlar həbsxanası hesab edilən ölkədə ideoloji təbliğatların aparılması əsas şərt idi. SSRİ Xalq Komissarları Söveti ümumittifaq Kommunist Partiyası Mərkəzi Komitəsinin 29 iyun 1941-ci il tarixli direktivində deyilirdi: “Bu hücumun məqsədi sovet quruluşunu məhv etmək, Sovet torpaqlarıənı işğal etmək, Sovet ittifaqı xalqlarının birliyini parçalamaq, dağıtmaq, qarət etməkdir. Faşist Almaniyası ilə olduğumuz müharibədə sovet dövlətinin olum və ya ölüm məsələsi həll olunur [10, s.413].

Müharibə ərəfəsində Şəki rayon tipli şəhər statusu daşıyırdı. Ümumittifaq əhalinin siyahıya almasına görə 1939-cu ildə Şəki əhalisi 32225 nəfər idi. Fəhlələrin ailələri ilə birlikdə sayı 15916 nəfər, qulluqçular ailələri ilə birlikdə 8293 nəıfər, kolxozçular 3053, koperativ kustarlar 1237 nəfər, adi kustarlar 2306 nəfər təşkil edirdi [16,s. 224].

Müharibə başlayan kimi ön cəbhədə ağır döyüş əməliyyatlartı gedir, sovet ordusu demək olar ki, bütün cəbhələrdə məğlub olaraq geri çəkilmək məcburiyyətində qalırdı. Belə bir zamanda səfərbərlik olduqca sürətli aparılır, düşmənin müasir texnika və silahına qarşı canlı sədd çəkmək cəhdi göstərilirdi. Şəki Hərbi Komissarlığından 1941-1945-ci illər ərzində 14 min nəfərdən çox hərbi xidmətə cəlb edilmişdi.

Əsgəri yaşı uyğun gələn kişilərin hərbi xidmətə çağırılması işçi qüvəsinin azalmasına gətirib çıxarmışdı. Buna görə də Azərbaycan SSR Xalq Komissarları Soveti 3041 № li qərarında deyilir ki, məktəblərdə 7-10 cu sinif şagirdlərinin sovxoz və kolxozlarda işləməsi təmin edilsin. Sənədddə şagirdlərin 6-8 saat işləməsininn vacibliyi qeyd olunur. Nuxada da orta ümumtəhsil məktəblərində göstərilən sinif şagirdləri işə cəlb edilirlər[ 5].Zavod və fabriklərdə də ölkənin başqa yerlərində olduğu kimi iş saatı artırılmışdı. Azərbaycan SSR Xalq Komissarları Sovetinin Azərbaycan K(b) Partiyasının Mərkəzi Komitəsinin 1440 № li qərarında qeyd edilir: Müəyyən edilsin ki, əmək qabiliyyətli əhalidən qulluqçulardan 14 yaşından 55 yaşına qədər olan kişilər və 14 yaşından 50 yaşına qədər olan

qadınlar kənd təsərrüfatı işlərinə səfərbərliyə alinsınlar. Südəmər uşaqları olan qadınlar, ailə üzvləri olmadıqda 8 yaşına qədər uşağı olan qadınlar səfərbərlikdən azad edilsinlər. Məktəbliləri oğlan və qızlar müəllimlər başda olmaqla ayrı ayrılıqda göndərsinlər [5].

Nuxa İpək kombinatı iş fəaliyyətini artırmış, bütün işçi qüvvəsinin iş saatları müharibə şəraitinə uyğunlaşdırılmışdır. Müəssisə ipək parça ilə bərabər , ipəkdən başqa məmulatların istehsalına da başlamışdı. Belə ki, müharibə şəraitində modul qospitallarda səhra şəraitində cərrahi əməliyyatların aparılması qaçılmaz fakt idi. Bunun üçün Nuxa İpək Kombinatında xüsusi ipək saplar istehsal olunurdu. Tanınmış cərrah Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü professor Mustafa Topçubaşov dəfələrlə Şəki İpək kombinatına bu cür sapların hazırlanması üçün sifariş vermişdir [6] .

Müharibənin ilk aylarında Nuxada düşmən hücumlarına qarşı tədbirlər də görülürdü. Hava hücumu, hava kimya hücumuna qarşı tədbirlərin görülməsi ilə bağlı Nuxa Rayon İcraiyyə Komitəsinin iclasında qəbul edilən qərarda deyilirdi:

1. Nuxada hava kimya hücumundan müdafiə tədbirləri pis vəziyyətdədir. Bunu düzgün təşkil etmək lazımdır. Yerli əhaliyə təlimatlar verilməli, məşqlərə təhrik edilməlidirlər.
2. Ərazidə yanğın qarı tədbirləri görülməlidir.
3. Əhalini xalq qoşunlarına cəlb etməli, döyüş bacarıqları öyrədilməlidir.
4. Müharibə ilə bağlı sovet informasiya bürosunun mətbuat-da dərc etdiyi məlumatlar kəndin kolxozçu zəhmətkeşlərinə oxunmalı və başa salınmalıdır [5].

15 sentyabr 1941-ci il Nuxa Rayon Zəhmətkeş Deputatları Sovetinin iclas protokolunda özünümüdafiə tədbirlərinin ürəkaçan olmaması barəsində məlumat verilir. Həmin protokolda qeyd edilir ki, fabriklərdə və məktəblərdə 12265 nəfər cəlb edilməli idi, lakin bunların yarı hissəsi kurslarda iştirak etməyib [5]. Hava Kimya hücumu və özünümüdafiə tədbirlərinin ciddi bir vəzifə olduğu orada görünür ki, ərazidə

çoxlu sayda sığınacaqlar hazırlanmışdır. 1941-ci il sentyabr ayı üçün verilən məlumatda şəhərin 22 rayonu üzrə 1665 sığınacaq qazılmış, bunlardan 360-ı tamamilə istifaədəyə verilmişdir [5].

Nuxada sovet hakimiyyəti qurulduqdan sonra sovet təhsilinin inkaişaf etdirilməsinə baxmayaraq, əhali arasında rus dilinin öyrınilməsi səviyyəsi Bakı və Gəncə kimi ( o dövrdə Kirovabad) şəhərlərin əhalisindən zəif idi. Buna görə də Nuxa Rayon Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsi qərara alır ki, “ Orduya çağırılanlara savadlanmaq üçün kurs təşkil edilsin. Kursa ana dili , rus dili və erməni dili müəllimləri cəlb edilsin [6].

Ön və arxa cəbhədə müxtəlif məhsulların, silahların daşınması əsas logistika rolunu at da oynayırdı. Əsasən də keçilməz yerlər, dəmir yollarının salınması mümkün olmayan ərazilərdə at ən yaxşı daşıma vasitəsi rolunu oynayırdı. Nuxa rayonu da cəbhəni atla təmin edən rayonlarıdan biri idi. 1941-ci ilin yayında ərsazidə “Manqo” xəstəliyinin yayilması cəbhəyə at verilməsində müəyyən problemlər yaratmışdı. Buna görə də Nuxa Rayon İcraiyyə Komitəsi sərt qərarlar qəbul ertmiş, xəstəliyin aradan qaldırılması üçün ciddi tədbirlər görülmüşdür [5]. 13 sentyabr 1941-ci ildə rayon İcraiyyə komitəsinin 84 saylı iclas protokolunda qeyd edilir:

Qərar. 1. Qızıl orduya gələcəkdə at vermək üçün at rezervləri təşkil edilsin və həmin qərarın icrası üçün aşağıdakı göstərilən yoldaşlardan ibarət komissiya təşkil edilsin.

2. Komissiyanın sədrliyinə tex. intendant birinci ranq yoldaş Muradov Suren, Baş baytar həkim Cəlalov, komissiyanın katibliyinə Sədiyev Kamal, komissiyanın üzvlüyünə Çələbiyev İbrahim təyin edilsinlər.

3. Komissiya 25 sentyabrdan işə başlayaraq, 6 oktyabra kimi bütün uçastoklarda işin qurtarmasını təmin etməlidir [5].

İttifaqın başqa respublikalarında olduğu kimi Azərbaycan SSR-də də cəbhəyə yollanan əsgər və zabitlərin ailələrini dövlət himayə edirdi. Ailələrə ərzaq , müxtəlif iş ləvaziumatları və onların işlə təmin edilməsi ciddi tapşırıq olaraq yerinə yetirilirdi.

Hətta ailələrə az miqdarda olsa da təqaüd verilirdi. Nuxada da Rayon icraiyyə komitəsinin qərarlarında cəbhəyə yollanmış vətəndaşların ailələri ilə bağlı bütün iclaslarda demək olar ki, məsələ qaldırılırdı. Cüzi bir yanlışlıq bağışlanmır, ciddi tədbirlər görülürdü. Məsələn, 1941 ci il 23 oktyabr Rayon İcraiyyə Komitəsinin iclasında qeyd edilir ki, müharibəyə gedən əsgər və zabitlərin ailələrinə təqaüd verilməsində ciddi nöqsanlar var. "Məsuliyyətsizlik qayğısıqzlıq nəticəsi olaraq, Aşağı Küngüt, Baş Layski, Babaratma və Aşağı Şabalıd kəndlərində hələ də iş həll edilməyib". Sənəddə göstərilir ki, həmin kəndin rəhbər vəzifəsində çalışanlara töhmət verilir. Komissiya sədri və şöbə müdürünə isə şiddətli töhmət elan edilir[6].

Həmin dövrün sənədlərini incələdikdə şahidi oluruq ki, Nuxada cəbhədə olanların ailələrinə yardım məsələsində sui istifadə hallarına da rast gəlinmişdir. 26 noyabr 1941-ci il SSRİ Baş Sovetinin qərarına uyğun olaraq, sıravi və naçalnık heyətindən olan qulluqçıların ailələrinə müharibə zamanı təqaüd verilməsi haqqında qanuna uyğun Nuxada yoxlama aparılmışdır. Həmin yoxlamanın qərarında göstərilir ki, " Aşağı Küngüt, Aşağı Şabalıd, Babaratma, Cəyirli, Aşağı Göynük, Zəyzid kəndlərində "qızıl ordu" sıralarına çağrılanların ailələrinə yardım olunması üçün müraciətlərə baxılmamışdır (1019 ailənin). Səhlənkarlıq var. Posobie komissiyasının sədri bir dəfə də olsun yerlərə gedib izahat işləri aparmamışdır. Təqaüdlərin verilməsində qanunsuzluqlar var. Əsgər ailələrinə qohumlarını artırıb əlavə pul vermişlər. Müəyyən pul silinmələrində saxta familiyalar artırılıb. Oxud kəndində ( Kommunizm adına kolxoz) bir nəfər əsgər ailəsinə iki yerdə posobiye təyin edilib" [5].

**Ön cəbhədə fəaliyyət**. Səfərbərliyə cəlb edilərək müharibədə aktiv iştirak edənlərdən bir neçə nəfəri qeyd etmək olar ki, onlar başqa sahələrdə tanınmış insanlar idi. Belə ki, fizika-riyaziyyat sahəsində tanınmış alımlərdən olan, SSRİ məkanında xüsusi ad qazanmış Məcid Rəsulov "Böyük Vətən Müharibəsi" də aktiv döyüşmüşdür. Hətta o Vətən müharibəsindən bir neçə il

əvvəl sovet-fin müharibəsində də zabit olaraq iştirak etmişdir. Böyük Vətən müharibəsində baş leytenent rütbəsində iştirak etmiş, bir sıra orden və medallarla təlitif olunmuşdur [13,s.284].

Tarix elmləri doktoru professor Azərbaycan SSRİ EA müxbir üzvü Mahmud İsmayılov da Böyük vətən müharibəsinin iştirakçısı olmuşdur. "Vətən Müharibəsi" ordeni, "Faşizm üzrəində qələbə" medalı, "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif edilmişdir [13,s.284].

Şəkinin tanınmış ziyalılarından biri, uzun müddət Azərbaycan Dövlət Pedaqoji Universitetində müəllim işləmiş Məmməd Rəşidov Oryol, İjev uğrunda döyüşlərdə iştirak etmişdir. "Qafqazın müdafiəsinə görə medalı", "İkinci dərəcəli Vətən Müharibəsdi ordeni" ilə təltif edilmişdir [18,s.80].

"Haronnaya gəlin gəlir", "Təmkin", "Bir yay günü" , "Zoğal ağacları" kimi əsərlərin müəllifi Məmməd Çələbiyev də Böyük Vətən Müharibəsinin iştirakçısı olmuşdur. 1941 22 dekabr ordu sıralarına daxil olan Məmməd Çələbiyev, Stalino, Mateyevka, Cənubi Ukrayna cəbhələrində vuruşmuş, 1942-ci ildə ağır yaralanaraq ordu sıralarından təxris olunmuşdur [13,s.101].

1960-1969 cu illərdə Azərbaycan SSR Hərbi komissarı olmuş Məmmmədşərif Həmidov 1940-cı ildən hərbi xidmətə çağrılmış, Böyük Vətən Müharibəsində zabit kimi iştirak etmişdir. "Qırmızı ulduz" ordeni, "İkinci dərəcəli "Vətən müharibəsi" ordeni, "Almaniya üzərində qələbəyə görə" medalı, "Moskvanın müdafiəsinə görə" medalı, "Könisberqin alınmasına görə" medalı ilə təltif edilmişdir [12,s.432].

Uzun müddət Nuxa rayon Xalq Maarif şöbəsinin müdiri işləmiş, Azərbaycan SSR-in əməkdan müəllimi Hüseyn Rəsulov da Böyük Vətən Müharibəsinin iştirakçısı olmuşdur. O, 1942-ci ildə zabit kimi ordu sıralarına daxil olmuş, 416-cı diviziyada bölük və vzvod komandiri kimi xidmət etmişdir. Hüseyn Rəsulov birinci dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olunmuşdur [14, s.266].

Tanınmış həkim , uzun müddət Nuxa rayon xəstəxanasında fəaliyyət göstərmiş Abbasəli Əliyev 1942-ci ildən ordu

sıralarına çağırılmış, 1943-cü ildə İkinci Ukrayna cəbhəsində döyüşən 40-cı ordunun, Kiyevdə 50-ci atıcı korpusunun 134-cü briqadası tərkibindəki 74-cü atıcı diviziyanın həkimi olmuşdur. “Qırmızı ulduz” ordeni və “Döyüş xidmətinə görə” medalı ilə təltif edilmişdir [18,s.487].

1960-1981-ci illərdə V.I. Lenin adına Şəki İpək İstehsalat Birliyinin direktoru işləmiş Tacəddin Əfəndiyev də Böyük Vətən Müharibəsində iştirak etmişdir. 1941-ci ilin fevralından Novqorodda yerləşmiş DKAMHM-nın (Diviziya Kiçik Aviasiya Mütəxəssisləri hazırlayan Məktəb) kursantı olub. Həmin ilin 22 iyun tarixində Böyük Vətən Müharibəsinin başlanmasından sonra məktəb Voronejə köçürülüb və avqust ayında məktəbin növbədənkənar buraxılışında təyinatla 7-ci uzağauçan aviasiya alayının 4-cü avio-eskadriyasına atıcı-radist göndərilib. Stalinqrad, Leninqrad əməliyyatlarında, Ukraynada, Pribaltikada vuruşmuş, müharibənin dörd ilində 200-dən artıq uçuşda olmuşdur [9,s.2-3]. 9 may 1945-ci ildə Almaniya üzərində qələbədən sonra isə Yaponiya ilə müharibədə iştirak etmişdir. “Leninqradın müdafisinə görə”, “Stalinqradın müdafiəsinə görə”, “Qırmızı ulduz” ordeni, “Yaponiya üzərində qələbəyə görə” medalı ilə təltif olunmuşdur [7].

Görkəmli Sovet və Azərbaycan hərbçisi, general-polkovnik, Sovet dövründə general-polkovnik rütbəsi almış yeganə azərbaycanlı Tofiq Ağahüseynov 1 fevral 1923-cü ildə Şəkidə doğulmuşdur. Böyük Vətən müharibəsində (1941 – 1945) Birinci Belorusiya cəbhəsində vzvod-komandiri, əlahiddə zenit artilleriyası divizionu qərargah rəisininköməkçisi olmuş, Visla-Oder və Berlin əməliyyatlarında iştirak etmişdir. 1942-ci ildə Arxangelsk vilayəində Tağım komandiri, 1943-Zenit artilleriya-sının batareya komandiri, 1944-cü ildə Polşa və Almaniyada fəaliyyəti zamanı Əlahiddə Zenit-artilleriya divizionu qərargah rəisinin köməkçisi vəzifələrində xidmət etmişdir. “ Qırmızı ulduz “ ordeni, “ Vətən müharibəsi” ordeni, “ Varşavanın azad edilməsinə görə” medalı, “ Berlinin alınmasına görə” medalı ilə təltif olunmuşdur [4,s.160].

Tanınmış tibb işçisi "Azərbaycan SSR əməkdar səhiyyə işçisi", "Florens Naytingel" medalı ilə təltif olunmuş cəmi 12 azərbaycanlı tibb bacısından biri, Dürrə Məmmədova Böyük Vətən Müharibəsi başlayan zamandan könüllü olaraq ordu sıralarına daxil olmuşdur. İlk öncə Novorosiysk şəhər 43 №-li hərbi-dəniz hospitalında xidmətə başlamış, Sovet qoşunları Novorossiysk şəhərini tərk etdikdən sonra isə Gəlincik və Karbardinkada döyüş meydanlarında fəaliyyət göstərib. Dəfələrlə Moskvada qələbə meydanında keçirilən paradda iştirak edib. "Fasist Almaniyası üzrəində qələbəyə görə", "Qafqazın müdafiəsinə görə" medalları, "Qırmızı ulduz" ordeni ilə təltif edilmişdir [12, s.355].

Məşhur cərrah Azərbaycan SSR əməkdar həkimi, tibb polkovniki Şəki rayon Mərkəzi xəstəxanasının baş həkimi işləmiş Fərrux Həmidzadə Vətən müharibəsi başlayandan etibarən aktiv döyüşlərdə iştirak etmişdir. Şəxsi işində 2678 əsgər və zabitə tibbi yardım göstərildiyi qeyd edilir. Şimali Qafqaz cəbhəsində fəaliyyətinə görə "Qırmızı ulduz" və "Vətən müharibəsi" ordenləri ilə təltif edilmişdir [12.s.342].

Görkəmli din xadimi 1969-1986-cı illərdə Zaqafqaziya Ruhani İdarəsinin sədr müavini işləmiş Hacı İsmayıl Əhmədov da Böyük Vətən Müharibəsi iştirakçısı olmuşdur. 23 iyun 1941-ci il tarixdə Nuxa Hərbi Komissarlığından orduya çağırılıb. Orduda sanitar-daşıyıcı olub və bütün müharibə boyu 2000 nəfərdən artıq yaralını döyüş meydanından çıxarıb. Bundan başqa, həm də bərbər kimi fəaliyyət göstərib. "Stalinqradın müdafiəsinə görə" medalı ilə və "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunub [13,s.187].

Tanınmış həkim-cərrah uzun müddət Şəki rayon Mərkəzi Xəstəxanasının cərrahiyyə şöbəsinin müdiri olmuş Vəhyəddin Səlimov 6 iyul 1941-ci il tarixdə Bakı şəhər hərbi komissarlığından hərbi xidmətə qəbul edilib. Tibb xidməti həkimi rütbəsi ilə 81-ci atıcı diviziyanın 323-cü atıcı alayında xidmət edib. 6 sentyabr 1941-ci il tarixdə Çerniqovda (Ukrayna SSR) itkin düşmüş elan olunub (əslində almanlara əsir düşmüşdü). 1942 –

1944-cü illərdə Polşa, Fransa və Almaniyada hərbi əsirlərinin olduğu hərbi xəstəxanada,1944-cü ilin avqust ayından isə partizan dəstəsində Fransanın Liypi şəhərində həkim-cərrah işləyib. 1944 – 1945-ci illərdə Fransada SSRİ vətəndaşları üçün həkim-cərrah və hərbi xəstəxanada rəis vəzifəsində çalışıb [15,s.164].

Ümumiyyətlə müharibə illərində Şəkidən cəbhəyə 14 mindən artıq əsgər və zabit yola salınmış, onlardan 2 mindən çox döyüşçü qəhrəmancasına həlak olmuş, 5 minə yaxın döyüşçü itkin düşmüşdür. Müharibədə qələbədən 80 il keçməsinə baxmayaraq, hər il müharibə iştirakçıları dövlət səviyyəsində anılır.

Xalqımızın övladlarının vətən sevgisi, onların döyüş müydanlarında qəhrəmanlıqlarına tartixin bütün dövrlərində rast gəlinir. Əbəs yerə deyil ki, 2020-ci ildə Aəzrbaycan əsgəri Ali Baş Komandanın rəhbərliyi altında vətən torpaqlarını azad etməyə müvəffəq oldu və 2022-2023-cü illərdə vətənimizdə təxribaçılıq yaratmaq istəyən bütün düşmən ekstremist dəstələri zərərsizləsdirildi və ərazi bütövlüyümüz təmin edildi.

**Рагим Гасанов**

## РЕЗЮМЕ

## ШЕКИ В ГОДЫ ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЫ

Несмотря на то, что со времен Второй мировой войны, считающейся самой страшной войной в истории человечества, прошло уже 80 лет, она по-прежнему остается объектом исследования специалистов — социологов, историков, экономистов и политологов. Потому что в этой войне большая часть мира стала фронтом боевых действий, и даже государствам, не участвовавшим в войне, пришлось долгое время нести на себе основную тяжесть войны. Большинство государств-участников, независимо от того, победили они или потерпели поражение, были парализованы в социально-экономическом и политическом плане. Потому что в этой войне погибло более 70 миллионов человек.

В годы войны наша родина - Азербайджан, входивший в состав СССР, сыграл решающую роль как на передовой, так и в тылу.

Вместе с бакинской нефтью в распоряжение войны были отданы все природные и людские ресурсы страны. В Шеки, промышленном городе, как и Баку, все было приспособлено к военным условиям. В статье рассматривается социально-экономическое положение Шеки в годы Великой Отечественной войны, борьба шекинцев с фашизмом на передовой.

**Ключевые слова:** Шеки, Отечественная война, фашизм

**Rahim Hasanov**

**SUMMARY**

**SHEKI DURING THE YEARS OF THE GREAT PATRIOTIC WAR**

Despite the fact that 80 years have passed since the Second World War, considered the most terrible war in the history of mankind, it still remains the object of research by specialists - sociologists, historians, economists and political scientists. Because in this war, most of the world became a frontline, and even the states that did not participate in the war had to bear the brunt of the war for a long time. Most of the participating states, regardless of whether they won or lost, were paralyzed in socio-economic and political terms. Because more than 70 million people died in this war.

During the war, our homeland - Azerbaijan, which was part of the USSR, played a decisive role both on the front lines and in the rear. Along with Baku oil, all natural and human resources of the country were given over to the war. In Sheki, an industrial city, like Baku, everything was adapted to military conditions. The article examines the socio-economic situation of Sheki during the Great Patriotic War, the struggle of Sheki residents against fascism on the front lines.

**Keywords:** Sheki, Patriotic War, fascism

**ƏDƏBİYYAT**

1.Azərbaycan tarixi VII cilddə. VII cild (1941-2002). Bakı: Elm. 2008.

2.Azərbaycan tarixi II hissə ( XIX_XXI əsrin əvvəlləri) Bakı: “Bakı Dövlət Universiteti nəşriyyatı”, 2010

3.Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə. Bakı, 2009.

4.Azərbaycan Respublikası Dövlət Arxivinin Şəki filialı, f.13

5.Azərbaycan Respublikası Dövlət Arxivinin Şəki filialı, f.14

6.Atıcı radist/”İpəkçi” qəzeti. 20 iyun 1975, № 20.

7.Böyük qələbə -75. Azərbaycanda Vətəndaş cəmiyyətinin inkişafına yardım fondu Asossasiyası – Bakı, 2020 .

8.Çətin yolun yolçusu/”İpəkçi” qəzeti. 15 aprel 1975, № 12

9.Əmrahov. M.İ. İkinci Dünya Müharibəsi. 1939-1945/ M.İ Əmrahov.- Bakı: Mütərcim,- 2010. – 552 s.

10.İsmayılov. İ.Z. Azərbaycanlıların İkinci Dünya müharibəsində iştirakı/ İ.Z İsmayılov. -Bakı,-2000. 192 s.

11.Mete Ə. O torpağın övladları/Ə. Mete.-Bakı: Nurlan.–2006, 608 s.

12.Şəki: alim və ziyalılar. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2002. - 2 cilddə. I cild, 583 s.

13.Şəkidən gələn səslər. - Bakı: Elm və təhsil, 2018.- I cild, 841 s.

14.Şəkidə məhəllə adları soyadalar və ləqəblər. I Kitab . Bakı, 2004, 345 s.

15.Таирова А. История города Шеки (1920-июнь 1941 гг.) / А.Таирова. -Баку, изд-во Elm və təhsil. - 2014, 204 с.

16.Turan Babaş . İkinci Dünya Müharibəsi illərində Azərbaycanda siyasi-ideoloji mühit // Dövlət və din jurnalı.- 2020, № 2, s. 102.

17.Unudulmaz illər. -Bakı: “Qismət” mətbəəsi, 2007

18.https://www.shaki.info/wiki/Abbas%C9%99li_%C6%8Fliyev

**İKRAM AĞASİYEV***

# AZƏRBAYCANDA HƏRBİ ƏSİR DÜŞƏRGƏLƏRİ VƏ ƏSİR MƏZARLIQLARI HAQQINDA

## XÜLASƏ

Məqalə 1945-1950-ci illərdə Azərbaycan SSR-də əsir düşərgələrinin yaradılması və fəaliyyəti tarixinə həsr olunub. Müəllif qeyd edir ki, nəzərdən keçirilən dövr ərzində Azərbaycan ərazisində 11 əsir düşərgəsi fəaliyyət göstərirdi. Onlar funksiyalarına görə bir neçə kateqoriyaya bölünürdülər.

Müharibə əsirlərinin əksəriyyəti almanlar idi. Onların işlərindən müxtəlif sahələrdə istifadə olunurdu. Əsirlər əsasən tikinti sahələrində və ağır metallurgiyada istifadə olunurdu. Məhkumların bəziləri xəstəlikdən və ağır işdən öldü və düşərgələrin yaxınlığında basdırıldı.

Bu gün Azərbaycan Respublikasında İkinci dünya müharibəsi qurbanlarının xatirəsi ehtiramla yad edilir, eyni zamanda, hərbi əsirlərin dəfn olunduğu yerlər dövlət tərəfindən qorunur.

**Açar sözlər:** müharibə, almanlar, əsirlər, düşər, repatriasiya

**Giriş.** İkinci Dünya Müharibəsi tarixə məlum olan ən böyük, ən dağıdıcı və ən qanlı müharibə kimi yadda qaldı. O, öz humanitar fəlakət miqyasına görə keçmişin bütün müharibələrini xeyli üstələmiş, təqribən 55-57 milyon insanın məhvinə səbəb olmuşdur. Onların böyük əksəriyyətini döyüş əməliyyatları zamanı həlak olan mülki əhali və hərbçilər təşkil etsə də, əsir götürülərək sonralar əsir düşərgəsində həyatını itirənlərin də sayı nəzərə çarpacaq dərəcədədir.

Təqdim olunan məqalədə İkinci Dünya müharibəsi illərində və müharibədən sonrakı illərdə SSRİ-də, o cümlədən Azərbay-

---

* AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, tarix elmləri doktoru, professor.

canda mövcud olan hərbi əsir düşərgələrində saxlanılan hərbi əsirlər, onların yerləşməsi, məşğuliyyəti, eyni zamanda həyatını itirənlərin dəfn olunduğu məzarlıqlar haqqında araşdırılma aparılır.Qeyd etmək yerinə düşər ki, döyüş əməliyyatlarında ələ keçirilən mülki əhalidən ibarət əsirlər, eyni zamanda SSRİ-yə xəyanət edən və düşərgələrə yerləşdirilən Sovet vətəndaşları məqalənin araşdırma obyekti deyildir, məqalədə işlədilən "hərbi əsir" anlayışı dedikdə yalnız SSRİ-yə qarşı vuruşan hər hansı ölkənin Silahlı Qüvvələrində xidmət edən və əsir götürülənlər nəzərdə tutulur.

Araşdırma göstərir ki, SSRİ-yə əsir düşən düşmən ölkə hərbçilərinin sayında vahid bir rəqəm göstərmək çətin məsələdir. Bu da təbiidir, çünki müharibə illərində hərbi əsirlərin qeydə alınmasında müəyyən problemlər, qarışıqlıq mövcud olmuşdur və hərbi əsirlərin say dinamikası da çox dəyişkənliyi, oynaqlığı ilə seçilir. Beləliklə, o dövrün rəsmi dövlət sənədlərinə müraciət edək. Belə ki, Xalq Daxili İşlər Komissarı (XDİK) L.P.Beriyanın Molotova göndərdiyi tam məxvi məlumat görə 1945-ci ilin iyunun 4-ə SSRİ-də olan hərbi əsirlər hərbi rütbə və milli tərkibinə görə aşağıdakı kimi bölünürdü [15]:

***Cədvəl 1.*** **SSRİ-də olan hərbi əsirlərin hərbi rütbə və milli tərkibinə görə tərkibi (1945-ci ilin iyunu).**

| **Hərbi rütbə və etnik kimliyi** | **sayı** |
|---|---|
| Generallar | 166 |
| Zabitlər | 73996 |
| Unter-zabitlər və əsgərlər | 2 567 084 |
| almanlar | 1 855 038 |
| Macarlar | 422145 |
| Polyaklar | 34 329 |
| italyanlar | 20 501 |
| rumınlar | 120275 |
| fransızlar | 15023 |
| başqaları | 173935 |
| **Ümumi sayı:** | 2. 641.246 |

Əsirlərin ümumi sayından 1 366 298 nəfər döyüş meydanlarında deyil, Almaniyanın kapitulyasiyasından sonra əsir götürülmüşlər [15]. 1946-cı ilin yazında minlərlə keçmiş alman zabiti dramatik aqibətlə üzləşdi: Qərb Müttəfiqləri tərəfindən əsirlikdən azad edilən və Almaniyanın Sovet işğalı altındakı zonaya döndükdən sonra sovetlər tərəfindən tutuldular, rəsmi olaraq siyasi məhbuslar siyahısına salındılar, SSRİ-yə deportasiya edildilər və sonrakı illərini Sovet İttifaqında müxtəlif hərbi əsir düşərgələrində keçirdilər [18].

Qeyd edək ki, cədvəl 1-də başqaları dedikdə avstriyalılar, çexlər, slovaklar, serblər, slovenlər, rusinlər, xorvatlar, moldovanlar, yəhudilər, norvejlər, bolqarlar, danimarkalılar, amerikalılar, ingilislər nəzərdə tutulurdu [16, s.68]

1956-cı ilin 22 aprel tarixinə olan son rəsmi məlumatlara görə isə İkinci Dünya müharibəsi dövründə Sovet Ordusu tərəfindən ümumilikdə 3 mln. 486 min 206 nəfər hərbi əsir götürülmüşdür ki, onların da 2 mln. 388 min 443 nəfərini almanlar, qalanlarını isə müxtəlif xalqların nümayəndələri – yaponlar, macarlar, rumınlar, avstriyalılar, ispanlar, qaraçılar və s. təşkil edirdilər [5, s.46].

***Cədvəl 2.* 1956-cı ilin 22 aprel tarixinə olan son rəsmi məlumatlara görə İkinci Dünya müharibəsində əsir götürülənlərin sayı və etnik tərkibi**

| | **Qeydə alınan əsirlərin ümumi sayı** | **Azad olunan və öz ölkəsinə qaytarılanlar** | **Əsirlikdə ölənlərin sayı** |
|---|---|---|---|
| almanlar | 2 388 443 | 2031743 | 356 700 |
| avstriyalılar | 156681 | 145790 | 10 891 |
| çex və slovaklar | 69 977 | 65 954 | 4023 |
| fransızlar | 23 136 | 21 811 | 1325 |
| Yuqoslaviya xalqları | 21 830 | 20 354 | 1476 |
| polyaklar | 60 277 | 57 149 | 3128 |

| | | | |
|---|---|---|---|
| hollandiyalar | 4730 | 4530 | 200 |
| macarlar | 513 766 | 459 011 | 54 755 |
| rumınlar | 187 367 | 132 755 | 54 612 |
| italyanlar | 48 957 | 21 274 | 27 683 |
| başqaları | 11042 | 7315 | 3727 |
| **Əsir götürülənlərin ümumi sayı:** | **3.486.206** | **2.967.686** | **518 520** |
| **Faizlə:** | **100%** | **85,1%** | **14,9%** |

II Dünya müharibəsi dövründə mərhələli şəkildə Cənubi Qafqaza, o cümlədən Azərbaycana minlərlə hərbi əsirlər gətirilmişdir. Tədqiqatçı T.Behbudovun araşdırmasına görə II Dünya müharibəsi dövründə və müharibədən sonrakı illərdə Azərbaycana gətirilən hərbi əsirlərin ümumi sayı 42 min olmuşdur [3, s.11]. Müharibə əsirləri, təbii ki, Azərbaycan SSR-ə RSFSR ərazisindən gətirilirdi. Azərbaycana gətirilən əsirlərin böyük əksəriyyəti yaralı əsirlər olurdu və onların bir çoxu müəyyən dövrdən sonra ölürdülər.

İkinci Dünya müharibəsi illərində və sonrakı dövrdə SSRİ ərazisində 3100 hərbi əsri düşərgələri olmuşdur [19] və onlar 5 kateqoriyaya bölünürdülər.Gətirilən hərbi əsirlər Kalininqraddan tutmuş Sibir çöllərinədək bütün SSRİ ərazisi üzrə yerləşdirilmişdirlər. Cənubi Qafqaza gətirilən əsirlər Azərbaycan, Gürcüstan və Ermənistan üzrə aşağıdakı qaydada paylanmışdılar:

***Cədvəl 3.*** **Cənubi Qafqazda Hərbi əsir düşərgələrinin və onların filiallarının yerləşdiyi yerlər haqqında məlumat**

| **İkinci Dünya müharibəsi illərində və sonrakı dövrdə SSRİ ərazisində hərbi əsir düşərgələrinin kateqoriyayaları** | **Yerləşdiyi şəhərlər və nömrəsi** | **Filialların yerləşdiyi yerlər** |
|---|---|---|

| | | |
|---|---|---|
| **1.İnternat düşər-gələri və qadın dü-şərgələri** [22, s.1] | 1250 - Borjomi (Gürcüstan) | |
| **2.Xəstəxanalar, reablitasiya düşərgələri** [22, s.2,3] | №1552**Xanlar(Göygöl)**<br>№1583– Tiflis<br>№1474 –Leninakan<br>№2061 – Borjom | |
| | №5030 –**Mingəçevir** | №5030 -**Şəkidə** filialı |
| **3.Əmək batal-yonları** [22, s.4] | **№6168 – Bakı**<br>№6196 – Tiflis<br>**№6498 – Gəncə**<br>№6503 – İrəvan<br>**№6509– Salyan** | |
| **4.Qəbul və toplanış düşərgələr** [22, s.1] | **Yoxdur** | **yoxdur** |
| **5.Əmək düşərgələri** [22, s.4-14] | **7328 – Sumqayıt** | 1 – Sumqayıt;<br>2 – Bakı;<br>3 – Bakı;<br>4 – Bakı;<br>5 – Bakı;<br>6 – Salyan;<br>7 – Bakı;<br>8 – Bakı;<br>9 – Bakı;<br>10 – Bakı ətrafı;<br>16 – Sumqayıt;<br>18 – Bakı. |
| | **7444 – Mingəçevir** | 1 – Mingəçevir<br>2 – Mingəçevir<br>3 – Mingəçevir<br>4 – Mingəçevir<br>5 – Mingəçevir |
| | **7223-Gəncə** | Gəncə-1;<br>Gəncə-2;<br>Gəncə-3;<br>Gəncə-4; |

| | | |
|---|---|---|
| | | Gəncə-4a;<br>Gəncə-5;<br>Gəncə-6;<br>Gəncə-7;<br>Gəncə-8;<br>Gəncə-9;<br>Gəncə-11;<br>Gəncə-12;<br>Gəncə-13;<br>Gəncə-14;<br>Gəncə-15;<br>Gəncə-16;<br>Gəncə-17;<br>Gəncə-18;<br>Gəncə-21;<br>Gəncə-22;<br>Gəncə-23;<br>Gəncə-24;<br>Gəncə-27;<br>Gəncə-41;<br>Gəncə-45;<br>Gəncə-49;<br>Gəncə-81;<br>Gəncə-83. |
| | **7333 – Kutais** | 1 – Kutais<br>2– Kutais |
| | **7115 – İrəvan** | 1 – İrəvan;<br>8 – İrəvan;<br>9 – İrəvan;<br>2 – Amanlı;<br>3 – Sevan;<br>4 – Artik<br>6 – Sevan;<br>7-Ararat;<br>10 –Kirovakan |
| | **7146 – Suxumi** | 1 – Barjomi;<br>2 – İnquri;<br>3 – Miseri<br>3b–Pelinkovo (Suxumi); |

| | | |
|---|---|---|
| | | 4 – Suxumi<br>5 – Akamara (Suxumi);<br>6 – Kvesan (Suxumi);<br>7 – Oçamçiri ;<br>8 – Suxumi<br>9 – Oçamçiri;<br>10 – Suxumi;<br>11 – Suxumi;<br>16 – Suxumi;<br>36 – Suxumi |
| | **7181 – Rustavi** | 1,2,3,4,5,6,7 – Rustavi;<br>8 – Tiflis<br>9 – Rustavi;<br>10 – Kolxoz “Roza Lüksemburq” – Rustavi; 11 – Rustavi;12 – Rustavi; 13 – Rustavi;14 – Rustavi; 15 – Rustavi |
| | **7238 – Tiflis** | 1,2,3,4,5,6,7,8,9 – Tiflis<br>11 – Tiflis ətrafı;<br>13 – Tiflis |
| | **7461 – Suxumi** | 1 – Suxumi<br>2 – Suxumi |
| | **7461 – Suxumi** | 1 – Suxumi |
| | **7518 – Tkibuli** | 1 – Tkibuli<br>2 – Tkibuli<br>3 – Kvesan<br>4 – Akamara<br>5 – Kutaisi ətrafı |

Cədvəl 3-dən göründüyü kimi, ümumilikdə Azərbaycanda 11 əsir saxlanılan düşərgə var idi ki, onlar 3 kateqoriyaya bölünürdülər.

**7328/1 – Sumqayıt** – Əmək düşərgəsi

**7328/3– Bakı -**Əmək düşərgəsi

**7328/3 –Salyan-** Əmək düşərgəsi

**7444 – Mingəçevir** - Əmək düşərgəsi

**7223 – Gəncə** -Əmək düşərgəsi

**6468 – Bakı -**əmək batalyonu

**6498 – Gəncə -**əmək batalyonu

**6509 – Salyan -** əmək batalyonu

**1552 –Xanlar (Göygöl) -**Xəstəxana, reablitasiya düşərgəsi

**5030 – Mingəçevir -** Xəstəxana, reablitasiya düşərgəsi

**5030 -Şəki (Mingəçevir** Xəstəxanası və reablitasiya düşərgəsinin filialı)

Bakıdakı düşərgə "Şəhər düşərgəsi", Cəncədəki, Şəkidəki və Sumqayıtdakı "Filial düşərgələr", Göygöldəki "Gil-gil dağ düşərgəsi", Mingəçevirdəki "Kür su anbarı düşərgəsi", Salyandakı isə "səhralıqda düşərgə" adlanırdı [22, s.1]. Azərbaycanda 1-ci ("İnternat düşərgələri və qadın düşərgələri") və 5-ci kateqoriya düşərgələr ("Qəbul və toplanış düşərgələri") olmamışdır. Bunlardan savayı, Azərbaycan ərazisində (Daşkəsən, Zərdab, Saatlı, Quba və s.) tikinti və sair təsərrüfat işləri ilə məşğul olan hərbi əsirləri saxlamaq üçün daha 17 müvəqqəti saxlama yerləri təşkil edilmişdi.

Bu düşərgələrdə saxlanılan əsirlərin əməyindən tikinti meydanlarında, kənd təsərrüfatında, dəmir yolları tikintisində, mədənlərdə və sair sahələrdə istifadə olunmuşdur. 1947-ci ilin yanvarına Azərbaycan SSR-də 23266 nəfər hərbi əsir olmuşdur. Onlardan 3555-alman, 2115-macar, 660-avstriyalı idi [3, s.11].

II Dünya müharibəsi başladığı gündən əsirlərin qəbulu, yerləşdirilməsi və onlardan istifadə olunması ilə bağlı məsələlər SSRİ Daxili İşlər üzrə Xalq Komissarlığına (НКВД) həvalə edilmişdi. Bu məsələlərlə məşgul olmaq üçün Nazirliyin nəzdində Hərbi əsir və internat olunanlarla bağlı Baş idarə yara-

dılmışdı (УПВИ). Bu idarəyə general-mayor M.Krivenko rəhbərlik edirdi. Eyni zamanda, ittifaq respublikalarında, eləcə də Azərbaycan SSR-də bu idarənin şöbəsi yaradılmışdı. Bu şöbə özü iki hissəyə bölünürdü:1-ci şöbə – operativ şöbə, 2-ci – siyasi şöbə adlanırdı. Ümumilikdə, şöbədə 25 əməkdaş çalışırdı.Düşərgələr üzrə Baş idarə (ГУЛАГ) də XDİK-ə tabe idi və 1946-cı ilin yanvarın 1-nə olan məlumata görə hərbi əsirlərin saxlanılması ücün onun tabeliyində 273 düşərgə var idi. Onlardan 11 düşərgə əsir zabitlər üçün idi. 199 – alman ordusundan əsir düşənlər üçün, 49 düşərgə – Yapon ordusundan əsir düşənlər ücün, 8 qarışıq və 6 operativ düşərgə idi [3, s.11].Bütün bu 273 düşərgədə ümumilikdə 1651030 əsir saxlanılırdı ki, onlardan da almanlar – 1103233 nəfər, macarlar – 233851 nəfər, avstriyalılar – 68166 və rumınlar – 52491 nəfər təşkil edirdilər. 1947-ci ildə XDİK-nin əmri ilə və əsirlərin idarə olunmasında qayda yaratmaq məqsədilə bütün düşərgələr 4 qrupa bölündü:

1) ciddi rejimli sərhadyanı düşərgələr;

2) ümumi rejimli arxa düşərgələr. Qeyd edək ki, burada yalnız alman əsilli əsirlər saxlanılırdı;

3) nisbətən yüngül rejimli düşərgələr. Burada başqa millətlərdən olan hərbi əsirlər saxlanılırdı.

4) xüsusi rejimli düşərgələr ki, burada əsir düşmüş SS, SD və gestapoda xidmət etmiş əməkdaşlar saxlanılırdı. Onları xüsusi konvoy mühafizə edirdi. Azərbaycanda yalnız 1-ci, 2-ci və 3-cü kafeqroyaya aid düşərgələr var idi. Yəni, xüsusi düşərgələr Azərbaycanda yox idi.

Azərbaycan SSR-də əsirlərin saxlanma sistemi SSRİ-nin başqa regionlarındakı sistemdən fərqli idi. Azərbaycanda əsirləri saxlayan idarənin (УПВИ) əsas vəzifəsi düşərgələrin maddi-texniki bazasını təmin etmək, hərbi əsirlərin təcrid və mühafizə olunması, repressiv funksiyaların həyata keçirilməsi idi. XDİK-nin hərbi əsirləri fiziki olaraq cəzalandırmaq kimi funksiyası yox idi. Əsirlərə fiziki güc tədbiq edən əməkdaş ciddi şəkildə cəzalandırılırdı [11].

UPVİ-nin ən çətin vəzifəsi düşərgəni ərzaqla təmin etmək idi.

Çünki bu illərdə ölkədə ərzaq qıtlığı hökm sürürdü, kartoçka sistemi tətbiq olunurdu.

Əsirlərin saxlanılması ilə bağlı məsələlər XDİK-nin (НКВД) qəbul etdiyi qərarlar əsasında həyata keçirilirdi.Bu sənədlər aşağıdakılardı:

1)1941-ci ilin 1 iyul tarixində qəbul edilən "Hərbi əsirlər haqqında" məxfi Əsasnamə";

2)1941-ci il 1 avqust tarixində təsdiq olunan "Hərbi əsirlərin saxlanılması qaydaları haqqında" məxfi təlimat;

3)1944-cü il 29 dekabr tarixli (№7252) SSRİ Dövlət Müdafiə Komitəsinin "Hərbi əsirlərin əməyindən istifadə haqqında" Qərarı.

Azərbaycan XDİK-i hərbi əsirlərlə iş zamanı bu sənədləri əsas götürürdü. Sənədlərdən göründüyü kimi, əsirlərə qarşı qaydalar çox sərt olmuşdur.

**Əsirlərin qidalanması.** Əsirlərin qidalanmasına gəldikdə, 1945-ci ildə SSRİ DMK SSRİ vətəndaşlarının ərzaqla təminatı barədə qərar qəbul etdi və bu qərara görə SSRİ-dəki bütün əsir düşərgələrində ərzaq norması müəyyən olundu. Hərbi əsirlərin qidalanmasını o dövrün sosial-iqtisadi vəziyyətinə görə gənaətbəxş hesab etmək olar. Belə ki, bir əsirə sutka ərzində 90 qram vermişel, 10 qram balıq, 15 qram sala, 15 qram yağ, 30 qram duz, 600 qram kartof və 320 qram tərəvəz verilirdi. Böyük tikinti obyektlərində işləyənlərə əlavə payok ayrılırdı. Bəzən əsirlərin sağlamlığını nəzərə alaraq onları qida və meyvə-tərəvəz anbarlarına işə göndərirdilər ki, onlar orada əlavə qidalana bilsinlər [3, s.11].

Qidalanma və tibbi xidmət, xüsusən də yaşayış yerləri sanitar normalara cavab vermirdi və bu səbəbdən, əsirlər arasıda yolxucu xəstəliklər – vərəm, dizenteriya, plevrit və sair xəstəliklər geniş yayılmışdı.Bəzən yerli əhali, düşərgələrin yerləşdiyi şəhər və rayonların sakinləri alman əsirlərini yedizdirirdilər, baxmayaraq ki, bu qanunla qadağan edilmişdi və əhali özü ərzaq cəhətdən əziyyət çəkirdi.

**Əsirlərin əməyindən istifadə.** 1941-ci il iyulun 1-də SSRİ

XKS “Hərbi əsirlər haqqında Əsasnamə”nin təsdiqi barədə Qərar (№ 1798-800c) qəbul etdi [11].

1944-cü ilin 29 dekabr tarixində isə SSRİ Dövlət Müdafiə Komitəsi “ Hərbi əsirlərin əməyindən istifadə haqqında” 7252 saylı qərar qəbul etmişdir [3, s.11] və qərara əsasən hərbi əsirlərdən müxtəlif tikinti və təsərrüfat işlərində istifadə olunmağa başlanmışdır.

Əsirlərin böyük əksəriyyəti SSRİ DİN-nin obyektlərində çalışırdılar. Bütün SSRİ üzrə belələrinin sayı 1 milyon 851 min 210 nəfər təşkil edirdi. Azərbaycandakı əsrlərin 70%-dən çoxu (11200 nəfər) ağır işlərdə - dağ-mədən sənayesində, ağır sənaye və tikintidə çalışırdılar. Məsələn, Mingəçevir SES-in tikintisində 6000, Sumqayıt boru-prakat zavodunun tikintisində – 2600, Daşkəsən dəniz filizi mədənlərində – 1600, 108 saylı məxfi obyektin tikintisində – 4300, “Başnefttikinti” idarəsində – 1500 əsir çalışırdı. Ümumillikdə göstərilən 17000 əsirdən 11200 əsirdən orta və ağır işlərdə istifadə olunmuşdur.Alman əsirlərinin əməyindən yeni şəhərlərin tikintisində də geniş istifadə olunmuşdur. Məsələn, Mingəçevir və Sumqayıt kimi şəhərlərdə 2 və 5 mərtəbəli yaşayış binalarının tikintisində, parkların, küçələrin salınmasında, mədəniyyət sarayının, müxtəlif dövlət idarə binalarının inşasında istifadə olunmuşdir. Alman əsirlərinin əməyi nəticəsində Qubada kinoteatr və Qubanı Qırmızı Slobada ilə birləşdirən 40 pillədən ibarət pilləkən tikilmişdir. Bakıda hərbi əsirlərin inşa etdiyi obyektlər bunlardır: Hökumət evi, “Bizovna-neft” trestinin yaşayış evi, Bakıxanov küçəsində aktyorlar üçün yaşayış evi, İnşaatçılar prospektində “Böyük Həyət” adlı yaşayış massivi. Hökumət evinin tikintisində 150-yə yaxın alman əsiri iştirak etmişdir. Almanlar bu tikintidə həm fəhlə qismində, həm də inşaatçı-mühəndis kimi iştirak etmişlər. Tikintidə iştirak edənlər Qara şəhərdəki düşərgədə saxlanılırdılar və oradan iş yerinə piyada aparılıb gətirilirdilər [3, s.11]. Düşərgələrdə əsirləri idarə etmək üçün əsirlərin sıralarından köməkçi komandalar yaradırdılar.Hər 15 əsirə 1 nəzarətçi götürülürdü.Nəzarətçilər sınanmış, etibar qazanmış əsirlərdən təyin olunurdular. Onlara

silah verilmirdi, yalnız bayraq və yaxud fit çalmaq üçün svistok verilirdi [12, s.67].

Əsirlər arasında elm və texnika üzrə yüksək ixtisaslı kadrlar da var idi və onların intellektindən də istifadə olunurdu. 1946-ci ilə olan məlumata görə, əsirlər arasında 111 fizika-riyaziyyat, texniki və kimya elmləri doktorları, 572 nəfər maşın-cihaz qayırma üzrə mühəndis, 275 nəfər tikinti üzrə mühəndis və memar, 216 elektrik, 156 kimyaçı və s. ixtisas sahibləri var idi. SSRİ DİN-nin bütün düşərgələrində umumilikdə 2 min yüksək ixtisaslı kadrdan istifadə olunub və onlar 350 yenilikçi texniki təklif irəli sürmüşlər [7, s.601-602].

**Əsirlər arasında ideoloji iş.** Arxiv sənədlərinə görə, əsirlikdə olmasına baxmayaraq bəzi əsirlər hələ də keçmişindən dərs almamış və nasional-sosializmdən əl çəkməmişdi. 1947-ci ilin aprelində Sumqayıtda yerləşən 7328 saylı düşərgədə əsirlər "Reyn-Festfall ittifaqı" adlı gizli faşist təşkilatı yaratmışdılar. 22 nəfər üzvü olan bu təşkilat Daxili İşlər Nazirliyi tərəfindən ifşa edilmiş, NKVD qoşunlarının Hərbi Tribunalının qərarı ilə onlardan 12 nəfər 25 il həbs cəzasına, 5 əsir – 10 il və daha 5 əsir 8 il azadlıqdan məhrum olunmuşlar. 1947-ci ildə Azərbaycanda daha bir gizli əsir təşkilatı ifşa olundu: "Gizli məhkəmə" adlanan və 6 nəfərdən ibarət olan bu təşkilata keçmiş gestapo zabiti, ober-yefreytor Hans Heff rəhbərlik etmişdi. Bundan savayı, Daxili İşlər orqanları tərəfindən hərbi cinayətlərdə iştirak edən və yaxud bu cinayətlərin şahidi olmuş əsirlər üzə çıxarılmış, onlardan Azərbaycandan kənarda – Bryansk, Smolensk, Minsk, Leninqrad, Riqa, Nikolayevsk, hətta Nürnberq məhkəmələrində, hərbi tribunalların məhkəmə proseslərində istifadə edilmişdir. Ümumilikdə, Azərbaycanın Daxili İşlər orqanları əsirlər arasından əvvəllər III Reyxin xüsusi xidmət orqanlarında xidmət etmiş120 nəfəri üzə çıxara bilmişlər [3, s.11].

Azərbaycanın Daxili İşlər orqanlarının vəzifəsi təkcə əsirlərə nəzarət etmək, onları işlətmək deyildi. Əsirlər arasında siyasi təbliğatın aparılmasına xüsusi diqqət verilirdi. Çunki onları əsirlikdən sonrakı həyata hazırlamaq lazım idi. Bu məqsədlə

əsirlər arasında geniş iş aparılırdı. 1947-ci ilə olan rəsmi məlumatlara görə, bu vaxtadək artıq Azərbaycanda olan əsirlərlə siyasi iş istiqamətində 249 yığıncaq, 73 mitinq keçirilmiş, 442 mühazirə və məruzə edilmiş, hərbi əsirlərlə 1348 dəfə qrup şəklində və 8341 dəfə fərdi şəkildə söhbətlər aparılmış, onlar arasında "Faşizm-insanlığın düşmənidir", "Sosializm və demokratiya", "Yeni sosialist Almaniyası", "Şərqi Avropa ölkələrində xalq demokratiyası" mövzularında tədbirlər keçirilmişdir [3, s.11].

Hərbi əsirlərin istirahət vaxtından da səmərəli istifadə olunurdu.Azərbaycandakı hərbi əsir düşərgələrində 61 dram dərnəyi, 26 xor, 28 orkestr təşkil edilmişdir ki, onların failiyyəti siyasiləşdirilmişdi. Siyasət məktəbləri yaradılmışdı və bu məktəblərdə Daxili İşlər orqanlarının əməkdaşları əsirlərlə "Marksizm-Leninizim ideyalarının əsasları haqqında", "Avropa ölkələrində kommunist dəyişiklikləri" mövzularında məşğələlər təşkil edirdilər. Əsirlər daimi və müvəqqəti saxlanıldıqları düşərgələrdə ümumən 256 divar qəzeti buraxmışlar. Azərbycan Daxili İşlər orqanlarının əsirlər arasında apardığı siyasi təbliğat işi öz bəhrəsini verirdi. Belə ki, 1947-ci ildə artıq 750 alman, 223 macar, 190 avstriyalı və 170 rumın əsir antifaşist mövgelərə keçmiş və sosializm tərəfdarına çevrilmişdi. Hərbi əsirlər arasında antifaşist və sosializm məzmunlu təbliğat aparılırdı. Bu işdə əsas məqsəd hərbi əsirlərin yeni ruhda tərbiyə olunması və onların ən sadiqlərindən yeni Almaniyanın qurulmasında və ümumiyyətlə, Şərqi Avropanın xalq-demokratik rejimlərinin dayaqlarının möhkəmlənməsində istifadə etmək idi. Aparılan təbliğat işi öz bəhrəsini verdi – 1947-ci ilin məlumatına əsasən SSRİ əsir düşərgələrində antifaşistlərin sayı 92771 nəfər təşkil etmişdir ki, onlardan da 25670 nəfəri fəal antifaşist sayılırdı [3, s.11].

1945-ci ildən SSRİ-də və Avropa ölkələrində hərbi cinayətkarlar üzərində məhkəmə prosesləri başladı. Azərbaycan SSR DİN əməkdaşları da əsirlərlə iş aparır, onların sıralarından hərbi cınayətkarları və yaxud bu cinayətlərin şahidi olmuş şəxsləri üzə çıxarır [8], onları lazım olduğunda başqa şəhərlərə,

məhkəmə proseslərinə göndərirdilər.

**Əsirlərin repatriasiyası.** 1945-ci ilin 13 avqust tarixində SSRİ Dövlət Müdafiə Komitəsi "708 min sıravi əsgər və unter-zabit heyətindən ibarət 708 min hərbi əsirin azad olunaraq öz vətəninə qaytarılması haqqında" qərar qəbul etdi.Qərara görə öz vətəninə qaytarılacaq əsirlər siyahısına yalnız xəstələr və əlillər daxil edilmişdi [6]. Əsirlərin kütləvi azad olunması 1947-ci ildən başlanmışdır. Bu məsələ ilə bağlı hələ 1946-ci ilin 13 fevral tarixində BMT Baş Asambleyasının 32-ci plenar iclasında "Hərbi canilərin təhvil verilməsi və cəzalandırılması haqqında" qətnamə qəbul edilmişdi [14]. Eyni zamanda, 1947-ci ildə Paris konfransında antihitler koalisiyası ölkələri İtaliya, Finlandiya, Rumıniya, Macarıstan və Bolqarıstanla sülh razılaşması imzaladılar ki, bu da əsirlərin öz vətəninə qayıdışını sürətləndirdi.

Amma əsirlərin qaytarılmasına təkan verən əsas sənəd 1949-cu ildə qəbul edilən və 11 maddədən ibarət olan Cenevrə konvensiyası oldu [10]. Cenevrə Konvensiyasına görə tərəflərdən biri məğlub olarsa və qarşıdurma dayanarsa, o vaxtdan başlayaraq hərbi əsirlər azad olunmağa başlaya bilərdi. Qeyd edək ki, bu Konvensiya ilə həm də hərbi əsirin statusu müəyyən olunmuşdu [10].

Bundan sonra SSRİ-də hərbi əsərlərin kütləvi şəkildə azad olunaraq öz ölkələrinə və hərbi canilərin cinayət törətdiyi ölkələrə göndərilməsi prosesi başlandı. Bu işdə əsirlərə differensial şəkildə baxılırdı.Birinci növbədə, antifaşist və sosializm mövgelərinə keçən əsirləri buraxırdılar. Ondan sonra əzmlə, vicdanla çalışanları, xroniki xəstələri və əməyə yararsızları azad edirdilər.

1950-ci ilin 1 yanvar tarixinədək SSRİ-də əsirlikdən ümumilikdə 3 milyon 465 min 399 nəfər azad olmuşdur. Baxmayaraq ki, 1945-ci ildə SSRİ hökuməti əsirlərdən 1970-ci illərədək istifadə etməyi planlaşdırırdı. Qeyd edək ki, azad olunanların 2 mln.041 min 610 nəfərini alman ordusunun hərbçiləri təşkil edirdi.1951-ci ilin yanvarın 1-nə olan məliumata görə SSRİ əsir düşərgələrində cəmi 20 min 958 hərbi əsir qalmışdı. Bunlar xüsusi hərbi cinayətlər törədən şəxslər idi və onları katorqa şəraitində saxlayırdılar. Onların həbsdən azad olunması 1960-cı illərin sonu – 1970-

ci illərin əvvəllərinə gözlənilirdi. Ancaq dünyada və xüsusən, SSRİ-də 1950-ci illərin ortalarında baş verənlər fonunda bu canilər 1955-1956-cı illərdə öz ölkələrinə təhlil verildilər [6].

Azərbaycanda da əsirlərin öz vətəninə göndərilməsi hələ 1945-ci ildən başlamışdı. Lakin o vaxt bu epizodik xarakter daşıyırdı. 1946-ci ildən bağlayaraq bu proses daha fəal hayata keçirilməyə başladı. Təkcə 1947-ci ilin fevral-aprel ayları arası dövrdə Azərbaycandan 2000 əsir öz ölkəsinə yola salınmışdı. Qeyd edək ki, onların əksəriyyətini artıq zəifləmiş, işə yararsız və xroniki xəstəliyi olanlar təşkil edirdilər. 1947-ci ilin 15 oktyabr tarixində SSRİ DİN Sergey Kruqlovun əmrilə Azərbaycandan daha 1750 hərbi əsir öz ölkəsinə göndərilməli idi [12, c.855-856]. Onların 1000 nəfəri əmək düşərgəsində saxlanılanlardan, 400 nəfər işçi batalyonu dəstələrindən və 350 nəfərin isə xüsusi hospitallardan aparılması nəzərdə tutulurdu. Bundan savayı, SSRİ Daxili İşlər Nazirinin 27 fevral 1948-ci il tarixli qərarına əsasən 300 min alman mənşəli hərbi əsir azad olunaraq vətəninə göndərilməli idi [6] və müvafiq olaraq Azərbaycan SSR-də yerləşən əsir düşərgələindən 3500 alman hərbi əsir azad olunmalı idi. Onların hamısı distrofiyadan əziyyət çəkirdilər və fiziki işə tam yararsız idilər. Elə həmin 1948-ci ilin may-avqust ayları ərzində Mingəçevir əsir düşərgəsindən 1800 nəfər, Sumqayıtdakı əsir düşərgəsindən isə 550 nəfər, Daşkəsəndən – 300, Bakıdakı düşərgədən isə 950 nəfər hərbi əsir öz vətəninə göndərilmişdi [3, s.11].

Məlum olduğu kimi, Xarici İşlər Nazirləri Şurasının 2 aprel 1947-ci ildə keçirilmiş Moskva sessiyasında Sovet nümayəndə heyəti bəyanat vermişdi ki, alman hərbi əsirlərinin repatriasiyası 1948-ci il dekabrın 31-dək başa çatdırılacaqdır. 1948-ci ilin sonunda alman hərbi əsirlərinin repatriasiyası başa çatmadığından bəzi radikal hərbi əsirlər düşərgələrdə düşmənçilik işləri aparmağa və bu məqsədlə başqalarını da öz ətrafında qruplaşdırmağa çalışdı. Müharibə əsirlərinin bir qismi arasında düşmənçilik təzahürləri haqqında məlumata malik olan SSRİ Daxili İşlər Nazirliyi 1948-ci ilin noyabr və dekabr aylarında yerli hakimiyyət orqanlarına tapşırıqlar verdi ki, hərbi əsirlər arasında

siyasi və kəşfiyyat-əməliyyat işini gücləndirsin, düşmənçilik hərəkətləri olan hərbi əsirlər ifşa edilib məhkəməyə verilsin. SSRİ Daxili İşlər Nazirliyi bildirirdi ki, 1948-ci ilin dekabrından 1949-cu ilin martına qədər olan müddətdə 338 hərbi əsir ifşa edilmiş və məhkum edilmişdir. Onlardan təxribat və iş yerində dağıntılara görə - 13, təxribata görə - 161 və düşərgə qaydalarının qəsdən pozulmasına görə - 164 nəfər məhkum edilmişdir [9, s.869]. Sənəddə göstərilir ki, 1949-cu ilin yanvarında Azərbaycan SSR Daxili İşlər Nazirliyinin 444 saylı düşərgəsində bir qrup hərbi əsir - Möller Paul, Dargetz Sigmund, Glaub Johann və Vidrinka Karl ifşa olunmuşdur. Onlar 1948-ci ildə repatriasiyanın başa çatdırılmamasına etiraz olaraq istehsal tapşırıqlarını sistematik olaraq yerinə yetirməkdən boyun qaçırmış və digər hərbi əsirləri də təxribata təhrik edərək normaları yerinə yetirməməyə çağırmışlar. Mellerin və qrupun digər üzvlərinin düşmənçilik təbliğatı nəticəsində hərbi əsirlər briqadası işlədikləri müəssisədə 10 gün ərzində istehsal normasını cəmi 10-15% yerinə yetirmişlər. Hərbi tribunalın qərarı ilə Meller 25 il, Dargetz, Qlaub və Vidrinka isə 10 il müddətinə azadlıqdan məhrum edilmişlər [9, s.871]. Görülən tədbirlər nəticəsində müharibə əsirləri tərəfdən hər hansı aktiv düşmənçilik hərəkətləri tamamilə yatırılmışdır və 1949-cu ilin yanvarında hərbi əsirlərin repatriasiyasının yeni tarixləri haqqındaməlumatın nəşri əsirlər arasında sakitliyin yaranmasını təmin etdi [9, s.871].

**Əsir məzarlıqları.** Əsir məzarlıqlarnın və orada dəfn olunanların sayı haqqında məlumatlar ziddiyyətli xarakter daşıyır və müxtəlif rəqəmlər göstərilir.

Bu gün Azərbaycanın müxtəlif yerlərində hərbi əsir qəbirstanlıqları vardır. Bu qəbirstanlıqlar hərbi əsirlərin işlərə cəlb edildiyi və yaxud müalicə aldıqları yerlərdə yaranmışdır. 1995-ci il dekabrın 22-də Azərbaycanın xarici işlər naziri Həsən Həsənov və Almaniyanın xarici işlər naziri Klaus Kingel alman hərbi əsir məzarlıqlarının qorunması haqqında 11 maddədən ibarət razılaşma imzaladılar [1, s.21]. Arxiv sənədlərinə əsasən, ümumilikdə, Azərbaycan Respublikası ərazisində saxlanılan hərbi əsirlərdən

2986 əsir dünyasını dəyişmiş və onların dəfn olunduğu aşağıdakı bölgələrdə hərbi əsir məzarlıqları vardır [1, s.14]:

Bakıda Yasamaldakı məzarlıq 1995-ci ildə bərpa edilmişdir. Burada 80 nəfər əsir dəfn edilmişdir. Məzarlığın ərazisi 620 kv. metrdir. Məzarlıqda hər qəbrin üstündə plitə qoyulmuşdur. Burada əsas abidə – hündürlüyü 2,5 metr olan dəmir xaçdır. Abidə üzərində yazılmışdır: "Burada II Dünya müharibəsində qurban olmuş hərbi əsirlər uyuyur";

Bakıda Keşlədəki məzarlıqda 71 nəfər, Qaradağ rayonunda (Ələt məzarlığında) 12 əsir , Şəkidəki məzarlıqda isə 17 nəfər əsir dəfn edilmişdir [1, s.14].

Daşkəsən məzarlığı 2001-ci ildə bərpa edilib. Burada 17 əsir bəfn edilib. Məzarlığın sahəsi 150 kv. metrdir. Qəbirlər üzərində xaç qurulmuşdur. Abidə üzərində yazılmışdır: "Burada II Dünya müharibəsində qurban olmuş hərbi əsirlər uyuyur";

Gəncədəkı mənzarlıq 1995-ci ildə bərpa olunmuşdur. Burada 601 əsir dəfn edilib. Məzarlığın ərazisi 1190 kv. Metrdir və Qırıqlı kəndinə yaxındır. Məzarlıq təpəlik yerdədir, qəbirlərin üzərində metal lövhəcik qoyulmuşdur. Əsas abidə hündürlüyün 5,5 m olan metal xaçdır. Üzərində "Burada II Dünya müharibəsində qurban olmuş hərbi əsirlər uyuyur" sözləri yazılmışdır;

Mingəçevir məzarlığı 1999-cu ildə bərpa edilib. Burada alman mənbələrinə görə 828 [16], Azərbaycan mənbələrinə görə isə 822 əsir dəfn edilmişdir [1, s.14]. Ərazisi 8125 kv. metrdir. Məzarlıq kiçik təpə üzərindədir. Qəbirlər üzərində metal lövhə vardır. Qalan şeylər Gəncədə olduğu kimidir, yəni əsas abidə hündürlüyün 5,5 m olan metal xaçdır. Üzərində "Burada II Dünya müharibəsində qurban olmuş hərbi əsirlər uyuyur" sözləri yazılmışdır [19].

1947-ci ilin əvvəlində Mingəçevirdəki 5030 saylı xüsusi xəstəxanada qonşu düşərgələrdən olan bütün ağır və xroniki xəstələr qəbul olunurdu. M.Qasımlının araşdırmasına əsasən burada vəfat edən 89 nəfər yaxınlıqdakı qəbirstanlıqda basdırılmışlar. Mingəçevirdə düşərgədə olan və sağ qalan əsirlər isə xatirələrində yazırlar ki, 5030 saylı qospitalda guya ki, hər ay 60 əsir dünyasını dəyişirdi və görülən tədbirlər nəticəsində 1947-ci

ilin martında ölüm sayı xeyli azalmışdı. 7444/1 saylı Mingəçevir əmək düşərgəsində 1946-cı ilin yanvarından 1949-cu ilin avqustunadək 1700 əsir ölmüşdür. 20 yanvar – 1946 – 5 sentyabr 1948-ciilədək 7444/1 düşərgəsində 1700-dən 1800 kimi əsir ölmüşdür. Almanların xatirələrində Mingəçevirdə bir neçə qəbirstanlığın olduğu bildirilir. İddia edildiyinə görə, onlardan biri 7328/1 düşərgəsindən 1 km aralıqda yerləşirdi. 2-ci məzarlıq birbaşa orada tikilən və sahəsi 200 m x 150 m olan fabrikin bəndində yerləşirdi. Burada 450 əsir basdırılmışdır. Qəbirlərə yaxşı qulluq edilirdi. Lakin bəndin tikintisi davam etdikcə, qədirstanlığın tədricən yox olacağından qorxurdular. 7444/2 və 7444/3 düşərgələrində cəmi 6000-ə yaxın əsirin basdırıldığı başqa qəbirstanlıqlar da vardır [19]. Elektrik stansiyasının yaxınlığındakı qəbirstanlıqda 2000 əsir dəfn edilmişdir [19]. Doğrusu, göstərilən faktlar və rəqəmlər Azərbaycanda əldə olan arxiv mənbələrilə təsdiqlənmir.

M.Qasımlının əsərində adı çəkilməyən məzarlıqlardan biri də Saatlı rayonunda yerləşir [1, s.14]. Müharibədən sonrakı dövrdə Cəfərxan kəndində "Laboratoriya" adlı yerdə alman əsirləri saxlanılmışlar və ölən 237 əsir burada dəfn edilmişdir [2]. Məzarlıq 2001-ci ildə bərpa edilib. Məzarlığın ərazisi 1840 kv. metrdir. Qəbirlər üzərində xaçlar qoyulmuşdur. Əsas abidə hündürlüyü 5,5 m olan metal xaçdır. Üzərində "Burada II Dünya müharibəsində qurban olmuş hərbi əsirlər uyuyur" sözləri yazılmışdır;

Göygöldə də 2 alman əsir məzarlığı vardır. Birinci əsir məzarlığı 1997-ci ildə bərpa edilib. Burada 909 əsir dəfn edilib. Onlardan 546-sı alman millətindəndir. Bu məzarlıqda almanlarla birgə daha 8 millətin nümayəndəsi (çex,polyak, macar, isveç, slovak, italyan, fransız və avstriyalı) dəfn edilmişdir. Ərazisi 15000 kv. metrdir. Qəbirlərlər üzərində metal lövhələr qoyulmuşdur. Əsas abidə hündürlüyü 5,5 metr olan metal xaçdır. Üzərində "Burada II Dünya müharibəsində qurban olmuş hərbi əsirlər uyuyur" sözləri yazılmışdır.

Göygöldəki 2-ci əsir məzarlığı da 1997-ci ildə bərpa edilib. Burada 51 alman əsiri dəfn edilib. Ərazisi 1100 kv. metrdir. Qə-

birlər dəmir xaçlar vasitəsilə işarələniblər. Əsas abidə hündürlüyü 5,5 metr olan metal xaçdır. Üzərində "Burada II Dünya müharibəsində qurban olmuş hərbi əsirlər uyuyur" sözləri yazılmışdır;

Azərbaycan ərazisində mövcud olan hərbi əsir düşərgələrindən biri də Sumqayıt ərazisində mövcud olmuşdur. Sumqayıtda yaradılan 7-328/1 saylı düşərgədə 2600 hərbi əsir saxlanılmışdır və onların əməyindən Sumqayıt boru - prokat zavodunda və salınmaqda olan gənc Sumqayıt şəhərinin müxtəlif tikinti obyektlərində istifadə olunmuşdur. Bu hərbi əsirlər Sumyayıt əsir düşərgəsində 1946-1949-cu illər ərzində saxlanılmışlar. Hərbi əsir düşərgəsi boru-prokat zavodundan 1 km aralıqda, Corat kəndinin ətraf ərazilərində yerləşirdi.Əsirlər hər gün piyada qaydada işə aparılıb geri gətirilirdilər.

Azərbaycana gətiriləndə əksəriyyəti yaralı vəziyyətdə olan hərbi əsirlər ağır işlərdə çalışır, baraklarda çətin sosial şəraitdə yaşayırdılar. Nəticədə, 1950-ci ilədək Sumqayıt əsir düşərgəsinin sakinlərindən 311 nəfər dünyasını dəyişmiş [1, s.14] və onların cəsədləri düşərgədən 500 metrə aralıqda elə Sumqayıt ərazisində dəfn olunmuşdur. Ölən 311 əsirdən 269-nun Almaniya, 21-nin Avstriya və 21-nin Macarıstan vətəndaşı olduğu isbat edilmişdir. Hal-hazırda hərbi əsir məzarlığı Sumqayıt şəhərinin Yeni Kotej adlanan qəsəbəsində yerləşir. Məzarlığın sahəsi 2700 kvadrat metrdir.

1995-ci il dekabrın 22-də Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında 11 maddədən ibarət "Azərbaycan ərazisində alman hərbi əsirlərinə aid məzarlıqların qorunması haqqında razılaşma" [20] imzalandıqdan sonra Azərbaycan Respublikası dövlət orqanlarının qayğısı sayəsində əsir məzarlığı abadlaşdırılmış, Rusiya Federasiyasında saxlanılan arxiv sənədləri əsasında dəfn olunanların adları və soyadları müəyyənləşdirilmiş, hər məzarın üstünə mərmər plitə qoyulmuş və məzarlıqda 1995-ci ildə inşa edilən xatirə lövhəsində onların adı və soyadları yazılmışdır. Eyni zamanda, məzarlığın həyətində hündürlüyü 5,5 metr olan qara xaç şəklində bir xatirə abidəsi də inşa edilmişdir.

Beləliklə, deyə bilərik ki, Azərbaycanda sənədlə sübut olunmuş hərbi əsir məzarlarının sayı 2986-dır [1, s.14], lakin

reallıqda bu rəqəm daha çox ola bilər, çünki yeri məlum olmayan məzarlıqlar da ehtimal edilir.Məsələn, Dərnəgül şosessi ətrafında da əsir məzarlığı olmuşdur, lakin polatəritmə zavodu inşa edilən zaman bu məzarlıq torpaqla örtülmüşdür. Eyni zamanda, Quba və Xaçmazda da əsir məzarlıqlarının olduğu söylənsə də, ancaq onların yeri dəqiq bilinmir.

**Nəticə.** Beləliklə, araşdırmaya yekun vuraraq deyə bilərik ki, İkinci Dünya müharibəsi dövründə SSRİ Silahli Qüvvələri tərəfindən ümumilikdə 3,5 milyona yaxın hərbi əsir götürülmüşdür ki, onların da yarıdan çoxunu almanlar təşkil edirdilər.SSRİ hökuməti hərbi əsirlərin əməyindən istifadə etmək məqsədi ilə 3 mindən artıq əsir düşərgəsi yaratmışdı ki, onların da coğrafiyası Kalininqraddan Sibirə qədər olmaqla çox geniş idi.Araşdırma göstərir ki, Azərbaycana gətirilən əsirlər ümumi hərbi əsir kütləsinin 1,2%-ni təşkil edirdi və əsasən böyük yaşayış məntəqələrində - Bakıda, Şəkidə Gəncədə, Sumqayıtda, Mingəçevirdə, Xanlarda (Göygöldə), Salyanda yerləşdirilmişdilər. Ümumən, Azərbaycandakı hərbi əsir düşərgələrinin daxili fəaliyyət sistemi Ümumittifaqda mövcud sistemdən fərqlənmirdi və fərqlənə də bilməzdi.Amma əsirlərlə davranış, əsirlərə münasibətdə fərqlər var idi: Azərbaycanda istər düşərgə nəzarətçiləri, istər yerli əhali hərbi əsirlərə qarşı qatı amansızlıq nümayiş etdirməmişlər, əksinə əhali imkan düşəndə onlara ərzaqla, yeməklə köməklik göstərmişlər. Azərbaycandakı hərbi əsir məzarlıqları onunla fərqlənirdi ki, ölən əsirləri qardaşlıq məzarında deyil, hər birini ayrılıqda və məzarın üzərində onun identifikasiya nişanı göstərilməklə dəfn edirdilər.

Azərbaycan SSR İkinci Dünya müharibəsində, faşizmə qarşı savaşda 300 mindən artıq vətəndaşını itirdi.Bu Respublika əhalisinin təqribən 10%-i deməkdir və bu miqyasına görə böyük itkidir.Ancaq bu ağrılı itkilərə baxmayaraq Azərbaycan xalqı hərbi əsirlərə münasibətdə insanlığını, mərhəmət hissini itirmədi və o qanlı müharibənin yaddaşı kimi əsir məzarlarını bu günədək qorudu və qoruyur. Qoruyur ki, onlara baş çəkən hər kəsə bir daha xatırlatsın- faşizm hansı formada baş qaldırır qaldırsın, onun sonu iflasdır.

**Икрам Агасиев**

## РЕЗЮМЕ

## ЛАГЕРЯ И КЛАДБИЩА ВОЕННОПЛЕННЫХ В АЗЕРБАЙДЖАНСКОЙ ССР

Статья посвящена истории создания и функционирования лагерей для военнопленных в Азербайджанской ССР в 1945-1950 годах. Автор отмечает, что в рассматриваемый период на территории Азербайджана действовало 11 лагерей для военнопленных. Они делились на несколько категорий в зависимости от своих функций.

Большинство военнопленных были немцами. Их труд использовался в различных областях. В основном военнопленных использовали на стройках и в тяжелой металлургии. Некоторая часть заключенных умерла из-за болезней и тяжелого труда и были похоронены недалеко от лагерей.

Сегодня в Азербайджанской Республике с уважением чтят память жертв Второй мировой войны, и в то же время захоронения военнопленных охраняются государством.

**Ключевые слова:** война, немцы, пленные, лагерь, репатриация.

**Ikram Agasiyev**

## SUMMARY

## POW CAMPS AND POW CEMETERIES IN THE AZERBAIJAN SSR

The article is devoted to the history of the creation and functioning of camps for prisoners of war in the Azerbaijan SSR in 1945-1950. The author notes that 11 camps for prisoners of war operated on the territory of Azerbaijan during the considered period. They were divided into several categories depending on their functions.

Most of the prisoners of war were Germans. They worked in various fields. Mostly prisoners of war were used on construction sites and in heavy metallurgy. Some of the prisoners died due to illness and hard

work and were buried not far from the camps.

Today, in the Republic of Azerbaijan, the memory of the victims of the Second World War is honored with respect, and at the same time, the burial of prisoners of war is also protected by the state.

**Key word:** war, germans, prisoners, camp, repatriation.

## ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasının diplomatiya tarixi / M.C.Qasımlı. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. – Bakı: Mütərcim, 2015, 604 s.

2.Azərbaycanda ölən Alman əsirləri. http://turan. az/az/aktual-reportaj/azerbaycanda-olen-alman-esirleri MÜR.TAR.10.03.25.

3.Бехбудов Т. История с продолжением. Немецкие военнопленные в Азербайджане // Газета «Каспи», №157, (11115), 29 августа 2009 года, с.11.

4.Военнопленные в СССР. 1939-1956: Док. и материалы / НИИ проблем экономической истории XX века Волгоград. гос. ун-та, Федер. арх. служба России, Гос. архив РФ, Центр хранения ист.-док. коллекций; Сост. М.М. Загорулько, С.Г. Сидоров, Т.В. Царевская. — М.: Логос, 2000. — 1120с., ил.

5.Галицкий В. П. Вражеские военнопленные в СССР (1941—1945 гг.) // Военно-исторический журнал. — 1990. — № 9. — С.46.

6.Гончаров С. Горечь плена. //https://zn.ua/ HISTORY/ gorech-plena-_.html Müraciət tarixi-16.04.2025.

7.Директива МВД СССР № 285 о выявлении военных преступников среди военнопленных и интернированных немцев. Москва. 3 декабря 1946 г.// https://docs. historyrussia. org/ru/nodes/ 171178-direktiva-mvd-sssr-locale-nil-285-o-vyyavlenii-voennyh-prestupnikov-sredi-voennoplennyh-i-internirovannyh-nemtsev-moskva-3-dekabrya-1946-g Müraciət tarixi- 16.04.2025.

8.Директива НКВД СССР № 28/28 об использовании по назначению военнопленных-специалистов. Москва. 28 апреля 1945 г. // Женевская конвенция от 12 августа 1949 года об обращении с военнопленными. Принята 12 августа 1949 года Дипломатической конференцией для составления международных

конвенций о защите жертв войны, заседавшей в Женеве с 21 апреля по 12 августа 1949 года //https://www.un.org/ru/ documents/decl_conv/ conventions/ geneva _prisoners. shtml. mür. tarixi-16.04.2025.

9.Докладная записка С.Н. Круглова И.В. Сталину, В.М. Молотову, Л.П. Берии, Г.М. Маленкову, министру иностранных дел СССР А.Я. Вышинскому о враждебных действиях некоторой части военнопленных в связи с перенесением срока окончания репатриации на 1949 год. Москва. 27 мая 1949 г. // ГА РФ. Ф. 9401, оп. 2, д. 235, л. 37-41.

10.Женевская конвенция от 12 августа 1949 года об обращении с военнопленными. Принята 12 августа 1949 года Дипломатической конференцией для составления международных конвенций о защите жертв войны, заседавшей в Женеве с 21 апреля по 12 августа 1949 года //https://www.un.org/ru/ documents/decl_conv/ conventions/ geneva _prisoners. shtml. mür. tarixi -16.04.2025.

11.Постановление СНК СССР № 1798-800с об утверждении Положения о военнопленных. Москва. 1 июля 1941 г., s.66. // Военнопленные в СССР. 1939-1956: Док. и материалы. — М.: Логос, 2000, с.65-68. Документ публикуется по: ГА РФ. Ф. 9401. Оп. 1. Д. 619. Л. 297—299. Типографский экз.

12.Приказ НКВД СССР № 0172 об организации вспомогательных команд в лагерях НКВД для военнопленных. Москва. 27 июня 1945 г. // Военнопленные в СССР. 1939-1956: Док. и материалы / НИИ проблем экономической истории XX века Волгоград. гос. ун-та, Федер. арх. служба России, Гос. архив РФ, Центр хранения ист.-док. коллекций; Сост. М.М. Загорулько, С.Г. Сидоров, Т.В. Царевская. — М.: Логос, 2000. — 1120с., ил.; с.67.

13.Приказ МВД СССР № 001078 о репатриации 100 тыс. нетрудоспособных военнопленных немцев. Москва. 15 октября 1947 г.// Военнопленные в СССР. 1939-1956: Док. и материалы / НИИ проблем экономической истории XX века Волгоград. гос. ун-та, Федер. арх. служба России, Гос. архив РФ, Центр хранения ист.-док. коллекций; Сост. М.М. Загорулько, С.Г. Сидоров, Т.В. Царевская. — М.: Логос, 2000. — 1120с., ил.; с.855-856.

14.Резолюция ООН от 13 февраля 1946 года « О выдаче и наказании военных преступников» // https://docs. un.org/ru/ A/RES/

3(I) Mür.tarixi-16.04.2025.

15.Сообщение Л.П. Берии В.М. Молотову о количестве, национальном и кадровом составе военнопленных на 4 июня 1945 г.// Военнопленные в СССР. 1939-1956: Док. и материалы. — М.: Логос, 2000. (504)

16.Справка начальника 2 отдела ГУПВИ НКВД СССР А.Н. Бронникова на имя заместителя начальника ГУПВИ НКВД СССР Н.Т. Ратушного о количестве, национальном и кадровом составе военнопленных, попавших в лагеря гупви в ходе Великой Отечественной войны 1941-1945 гг. // Военнопленные в СССР. 1939-1956: Док. и материалы. — М.: Логос, 2000. (504) с.68.

17.DenkFried – Denkmale und Friedhöfe – Eine Seite zum Andenken und Gedenken // Mingetschaur. DenkFried – Denkmale und Friedhöfe – Eine Seite zum Andenken und Gedenken.Müraciət tarixi-25.04.2025.

18.Ernst Helmut Segschneider (Hrsg.) Bogislav von Heyden, Ulrich Waterstraat, Klaus Wendel Gefangenschaft im Kaukasus 1946-1950. Drei Zeitzeugen erinnern sich 2002, Erinnerungen, Band 5, 198 Seiten, E-Book (PDF).

19.Liste sowjetischer Kriegsgefangenenlager des Zweiten Weltkriegs. https://www. google. com/ search?q= google+ translate&rlz=1C1GGRV_enAZ833AZ833&oq=&aqs=chrome.0.35i39i362l6j46i39i175i199i362j35i39i362.4038046j0j15&sourceid=chrome&ie=UTF-8

20.Kriegsgefangenenfriedhof. Mingetschaur. https://de. wikipedia.org/wiki/ Kriegsgefangenenfriedhof_Mingetschaurmür. Mür.tarixi-25.04.2025.

21.Kriegsgräberstätten Orte der Erinnerung, des Gedenkens und des Lernens // Kriegsgräberabkommen: Aserbaidschan - Bau, Pflege und Instandsetzung | Volksbund.de Müraciət tarixi-25.04.2025.

22.Verzeichnis der Kriegsgefangenenlager in Russland. Herausgebenen vom Hilfsdienist fwr Gefangene und Vermiste. Stuttsgart-S, Charlottenplatz 17, 2003, 18 s.

**DİLQƏM ƏHMƏDOV***

# AZƏRBAYCAN MİLLİ BİRLİK MƏCLİSİNİN ORDENLƏRİ: AZƏRBAYCAN İSTİQLAL YILDIZI VƏ BOZQURT

## XÜLASƏ

II Dünya müharibəsində almanlara əsir düşən azərbaycanlılardan ibarət legionların yaradılması, mühacirlərin qurduğu milli komitənin fəaliyyəti, eləcə də Əbdürrəhman Fətəlibəyli Düdənginskinin sədrliyində Azərbaycan Milli Birlik Məclisinin qurulması mühüm tarixi əhəmiyyətə malikdir. 6 noyabr 1943-cü ildə Berlində keçirilən Milli Azərbaycan Qurultayı nəticəsində formalaşan Azərbaycan Milli Birlik Məclisi faktiki mühacir hökumət funksiyasını yerinə yetirib, müharibədən sonra da fəaliyyətini davam etdirib. Bu dövrdə Fətəlibəyli həm ilk Azərbaycan Respublikasının xadimlərini, həm də müharibə nəticəsində əsir düşən insanları ətrafında birləşdirib, almanların nəzdində əsas siyasi, hərbi fiqura çevrilib. Buna görə də Fətəlibəyli Azərbaycan Milli Birlik Məclisi adına Azərbaycanın azadlığı uğrunda çalışan, vuruşan insanları təltif etmək məqsədilə ordenlər təsis edib. "Azərbaycan İstiqlal Yıldızı" və "Bozqurt" ordenləri bu baxımdan əhəmiyyət daşımaqdadır.

Almaniya arxivlərində, eləcə də Berlində çıxan jurnallarda bu ordenlərin təsisi və mükafatlandırılmalarla bağlı bəzi məlumatlar mövcuddur. Bu məqalədə ordenlərin təsis edilməsi, kimlərə veriləcəyinin nəzərdə tutulması, bəzi təltif olunanlar haqqında məlumatlar verilib, eləcə də Azərbaycan Milli Birlik Məclisinin yaradılması barədə bilgilər təqdim olunub.

**Açar sözlər:** Azərbaycan Milli Birlik Məclisi, Fətəlibəyli, orden, Bozqurt, İstiqlal Yıldızı, Berlin

II Dünya müharibəsində almanlara əsir düşmüş Sovet

* İstanbul Universitetinin doktorantı, Türkiyə

əsgərlərindən ibarət legion ordularının yaradılması və milli komitələrin formalaşdırılması döyüşün gedişatına xüsusi təsiri olmasa da, bolşevik işğalına qarşı milli azadlıq hərəkatının növbəti dalğasının mövcudluğu baxımından əhəmiyyətli bir hadisə olmuşdur.

2 dekabr 1941-ci ildə Almaniya rəsmi şəkildə Türküstan, Gürcüstan, Ermənistan və Qafqaz legionlarının yaradılmasını təsdiqləyib [4, s. 652]. 1942-ci ilin mart ayında Polşanın Radom şəhərinin Edlina adlı ərazisində Sovet hərbi əsirləri və döyüşçüləri arasında alman general-mayoru *Dr.Ridel*in idarəçiliyində və Azərbaycan mühacirlərinin təmsilçisi *Məhəmməd Tuğay Seyidəliyev* ilə hərbi əsirlərin təmsilçisi *Beytullah Babayev*in rəhbərliyində Azərbaycan legionu formalaşdırılıb. 1943-cü ilin sonunadək legionun hazırlığı tamamlanıb və ordu Fransanın Rodos şəhərinə göndərilib [4, s. 654]. Ramiz Abutalıbovun yazdığına görə, ilk legionlar – Türküstan və Qafqaz-Məhəmmədi – (*azərbaycanlılar, dağıstanlılar, inquşlar və çeçenlər*) – 1942-ci il 13 yanvar tarixli əmrə əsasən, Polşa ərazisində yaradılmağa başlanıb. 1942-ci il 2 avqust tarixində bu birləşməyə Azərbaycan legionu adı verilib, dağlı millətlərin nümayəndələri isə Şimali Qafqaz legionunda birləşiblər [6, s. 7]. Əsgərlərin mənəvi-döyüş ruhunu yüksəltmək üçün Azərbaycan legionunun hər batalyonuna milli adlar verilib: 804-cü piyada batalyon – "*Aslan*", 806-cı batalyon – "*İgid*", 819-cu batalyon – "*Cavad Xan*", 1/111-ci – "*Dönməz*", 2/111-ci batalyon – "*Qorxmaz*" və sair [6, s. 14].

Avropada olan keçmiş Rusiya mühacir hökumətləri zəminində milli komitələr yaratmaq ideyası Şərq naziri və nasist partiyasının ideoloqu *Rozenberq*ə məxsus olub [2, s. 284]. Rozenberq 14 dekabr 1941-ci ildə Hitlerlə görüşündə bu məsələni gündəmə gətirib. Daha öncə Rozenberqin verdiyi raport əsasında 1941-ci ilin 30 dekabrında alman ordusu türküstanlı, erməni, gürcü və müsəlman Qafqaz xalqlarından ibarət legionların qurulması ilə bağlı təlimat verib. Müsəlman Qafqaz legionu daha sonra Azərbaycan və Şimali Qafqaz legionlarına ayrılıb [5, s. 201]. Rozenberqin təyinatı ilə eyni gündə Azərbaycan mühacir-

lərindən bir qrupunun da təmsil olunduğu *Qafqaz Konfederasiya Şurası* Almaniyaya rəğbətini ifadə edib. Azərbaycan adından müraciətə *Adəm Əlibəy* qoşulub. 1941-ci ilin avqust ayında *Rozenberq*in nazirliyinin nəzdində hərbi əsirlərin işi üzrə komissiya yaradılıb, Azərbaycan hərbi əsirləri ilə işləmək üçün *Məhəmməd Tuğay* təyin edilib. Azərbaycanlılardan ibarət olan ilk "könüllülər" 1941-ci ilin avqust ayında Almaniya ordusuna cəlb edilib və onlar daha çox cəbhə bölgəsində alman kəşfiyyatının xüsusi komandanlığında xidmət ediblər [2, ss. 284-285]. Daha sonra milli komitələr yerinə irtibat heyətləri yaradılıb ki, Azərbaycan İrtibat Heyətinin sədri Əbdürrəhman Fətəlibəyli olub.

**Əbdürrəhman Fətəlibəyli və Milli Azərbaycan Qurultayı.** 1943-cü ildə almanlara könüllü şəkildə əsir düşən Sovet mayoru Əbdürrəhman Fətəlibəyli (Düdənginski) Milli Azərbaycan Qurultayı təşkil edib və nəticədə II Dünya müharibəsi dövründə faktiki milli hökumət rolunu ifa edib. *Abo Düdənginski* kimi də tanınan Əbdürrəhman Əli oğlu Fətəlibəyli 1908-ci ildə Naxçıvanın Şərur rayonunun Düdəngə kəndində doğulub. 1923-1926-cı illərdə Bakıda hərbi məktəbdə, 1926-1929-cu illərdə Leninqrad Hərbi Mühəndislik Ali Məktəbində təhsil alıb. 1929-cu ildə Bakıda zabit kimi fəaliyyətə başlayıb. 1933-cü ildə Moskva Hərbi Mühəndislik Akademiyasında təhsil aldıqdan sonra 1938-ci ildə mayor rütbəsi ilə Kalinin hərbi bölgəsinə xidmətə göndərilib. 1939-1940-cı illərdə 7-ci orduda Finlandiyaya qarşı vuruşaraq Qırmızı Ulduz nişanı alıb. Almaniyanın SSRİ-yə hücum etdiyi ilk ildə - 1941-ci ilin sentyabrın 28-də 27-ci ordunun komandan vəkili olaraq qarşı tərəfə keçib. 8 ay müddətində əsir düşərgəsində saxlanıldıqdan sonra Almaniya ordusunun tərkibində qurulan Azərbaycan legionuna qatılıb. Düdənginskinin Almaniya tərəfə keçmədən öncəki son vəzifəsi Sovet Şimal-Şərq Cəbhəsi 27-ci ordunun arxa birliklərində şose şöbəsi rəisi idi [4, s. 660].

1943-cü il noyabrın 6-da Berlində "Kayserof" mehmanxanasında Ə.F.Düdənginskinin təşkilatçılığı ilə Milli Azərbaycan Qurultayı keçirilib. Qurultay saat 10-da 300 nəfər azərbaycanlının iştirakı ilə baş tutub. Qurultayın Berlin nümayəndələrindən

Məhəmməd Tuğayın təklifi ilə tədbiri 1920-ci il Gəncə üsyanının rəhbərlərindən *Cahangir bəy Kazımbəyli* açıb. Cahangir bəydən sonra *Abbas bəy Atamalıbəyov* çıxış edib. Ardınca mayor Fətəlibəylinin 1 saat 10 dəqiqəlik çıxışı dinlənilib. Düdənginski genişhəcmli çıxışında Azərbaycan Cümhuriyyəti tarixindən, ruslarla olan mübarizədən, Qafqaz birliyi məsələlərindən bəhs edib. Qurultayda *Azərbaycan Milli Birlik Məclisi* formalaşdırılıb. Nitqinin sonunda Fətəlibəyli Azərbaycan Milli Birlik Məclisinin vəzifələrini bu şəkildə izah edib:

1. Bolşevizmin məhvi və müttəhid Qafqaza daxil olan müstəqil Azərbaycan dövlətinin bərpası;
2. Bütün Qafqaz xalqları və böyük Almaniya ilə dostluqda bolşeviklərsiz və istismarçılarsız yeni Azərbaycan yaratmaq [7, s.3].

6 noyabr axşamı qurultayda legioner andı içilib. Milli Azərbaycan Qurultayı 6-8 noyabr günlərində baş tutub. 7 noyabrda Fətəlibəyli yüksək alman zabitləri ilə birgə şəhid əsgər abidəsinə çələng qoyub. Ogünkü tədbirdə alman zabitləri, müfti *Əmin əl-Hüseyn* iştirak edib. Azərbaycan legionunun alman komandanı oberst leytenant *Böhme*nin çıxışından sonra Fətəlibəyli rus dilində nitq söyləyib. Tədbirdə həmçinin Fuad Əmircan, polkovnik İsrafil bəy, Baş molla Axundov, İdil-Ural Tatar Milli Komitəsinin başçısı Əbdürrəhman Şəfi Elmas, Türküstan Milli Komitəsinin prezidenti Vəli Kayyumxan, Şimali Qafqaz Milli Komitəsinin sədri Əhmədnəbi Maqoma və zabitlər çıxış ediblər. [8,s.2]. Qurultayın yekununda Azərbaycan Milli Birlik Məclisinin siyasi proqramı qəbul edilib. Məclis Azərbaycan legionunun bütün hissə və bölmələrindən, eləcə də siyasi mühacir təşkilatlarının nümayəndələrindən seçilmiş 50 nəfərdən ibarət idi [3, s. 398]. Qurultay barədə Cabbar Məmmədovun redaktorluğunda 1944-cü ildə *"Birinci Azərbaycan Birlik Qurultayı"* adlı broşür çap olunub. Azərbaycan Milli Birlik Məclisi təsis edildikdən sonra onun Parisdə və Varşava şəhərlərində şöbələri fəaliyyətə başlayıb. 1944-cü ilin yanvarın 24-də Parisdə yaşayan azərbaycanlılarla Fətəlibəylinin görüşü baş tutub.

Milli Azərbaycan Qurultayında alınan bu qərarların

Azərbaycanın ruslardan alındıqdan sonra Almaniya tərəfindən qəbul ediləcəyi mümkünsüz idi. Çünki Almaniyanın işğal ediləcək ərazilərlə bağlı həyata keçirəcəyi siyasi addımlar arasında müstəqillik vədi olmayıb. Azərbaycan məsələsi ən yaxşı halda Türkiyə ilə siyasi bazarlıq mövzusu ola bilərdi. Digər tərəfdən Fətəlibəyli legionda önə keçdiyi zaman artıq müharibə almanların əleyhinə çevrilmişdi. Eyni zamanda almanlar da ruslar kimi türk legionlarını kiçik qruplara bölmüş, ruslar kimi fərqli əlifbada jurnal və qəzet çıxarmalarına, radioda xəbərlərə icazə vermişdilər. “Çınaraltı” dərgisində çıxan bir məqaləsində Əhməd Cəfəroğlu buna etirazını bildirib [10, s. 5]. Eləcə də Rozenberqin ulduzunun sönməsindən sonra legionlar Gestaponun nəzarətinə keçdikdən sonra Fətəlibəylinin fəaliyyət imkanları tamamilə daralmışdı.

1944-cü ildə Azərbaycan legionunun iki illiyi münasibətilə Fətəlibəyli legionerlərə təbrik ünvanlayıb. Bu münasibətlə Fətəlibəyli Hitler tərəfindən könüllülərə məxsus ən yüksək ordenlə təltif edilib. [9, s.2]. 1944-ci ilin mayın 17-də Azərbaycan Milli Birlik Məclisinin rəhbərliyi Berlinin “Esplanad” otelində Alfred Rozenberqlə görüşüb. Görüş zamanı Fətəlibəyli *“Əgər biz bilsək ki, rusların yerinə almanlar Azərbaycanda ağalıq edəcəklər, biz sizinlə bir addım da atmayacağıq. Biz yalnız Azərbaycanın müstəqilliyi uğrunda vuruşuruq”* deyib. Rozenberq *“Reyx öz sözünü tutmalıdır, müstəqillik sədəqə deyil, onu mübarizə və qanla qazanırlar”* cavabını verib. [2, s.314]. Müharibənin sonlarına yaxın Milli Birlik Məclisi müstəqillik tələbəni tədricən səsləndirməyə başlayıblar. Bu məqsədlə legion hissələrinin Qafqaz qərargahının rəhbərləri 1944-cü ilin avqust ayının 28-də A.Rozenberqin adına kollektiv müraciət göndəriblər. Eyni zamanda Qafqaz xalqları rus generalı Vlasovun rəhbərliyində qurulan *Rusiya Xalqları Azadlıq Komitəsi*nə daxil olmaqdan imtina ediblər, özlərinin Rusiyanın müstəmləkəsi olmayacaqlarını bildiriblər. [3, ss. 400-406]. Bu etiraz bəhrəsini verib, nəticədə rus mühacirlərin qurduğu bu qrupa alternativ olaraq 1944-cü ilin noyabr ayının 18-də *Rusiya Tərəfindən Əsarət Altına*

*Alınmış Xalqların Məclisi* yaradılıb. Bura Ukrayna, Belorusiya, Qafqaz, Türküstan, Krım və Volqa tatarlarının nümayəndələri daxil olublar. Digər tərəfdən müharibə dövründə Qafqaz və Türküstan xalqları Almaniya uğrunda minlərlə itki verib. İsmayıl Əkbər 36 səhifəlik arayışında 1945-ci ilin aprel ayının 1-nə qədər Azərbaycan könüllü hissələrinin 1943-1945-ci illərdə həm cəbhələrdə, həm də partizanlara qarşı yerli döyüşlərdə 13 100 nəfər itki verdiyini, o cümlədən 2810 nəfərin öldüyünü, 7350 nəfərin yaralandığını, 2940 nəfərin isə itkin düşdüyünü yazıb. [2, s.317]. Ona görə də Almaniya bu itkilərin qarşılığını gec də olsa verməli idi. 1945-ci ilin mart ayının 17-də Alfred Rozenberq Almaniya hökuməti adından gələcək müstəqil Azərbaycanın müvəqqəti hökuməti kimi Azərbaycan Milli Birlik Məclisini tanıyıb. Bu münasibətlə Fətəlibəyli yazıb: *"Bu tanınma aktının imperiyanın məhvindən ay yarım və ya 5 dəqiqə əvvəl baş verməsi prinsipial əhəmiyyətə malik deyil. Məsələ bundadır ki, oğullarının qanı və zəhməti hesabına əldə edilmiş bu tanınma Azərbaycan xalqının böyük nailiyyəti idi".* [2, s. 323].

**Azərbaycan Milli Birlik Məclisinin təsis etdiyi ordenlər.** Azərbaycan Milli Birlik Məclisinin sədri Əbdürrəhman Fətəlibəylinin 10 iyul 1944-cü ildə Berlində imzaladığı qərara əsasən iki ordenin hazırlanmasına qərar verilib. Qərarda yazılıb: "Azərbaycanın bütün tarixi boyunca əcdadlarımız, vətənimizin müstəqilliyini qoruyaraq daim qabaqcıl ölkələr arasında yer alması üçün bütün fiziki və mənəvi güclərini həsr etmişlər. Bu yolda nə həyatlarını, nə də güclərini əsirgəmədilər. Xalqımızın bir çox oğulları, siyasi, ictimai və hərbi fəaliyyətləri ilə bu qanlı və şanlı mübarizənin tarixində şərəfli bir yer tutmuşlar. Gənc nəslimizin mübarizəsi, əcdadlarımızın mübarizəsinin davamıdır. Gənc nəsil də, vətənin müstəqilliyi üçün güclərini və həyatlarını əsirgəmədən mübarizə aparır və bu mübarizəni zəfərlə nəticələndirəcəkdir. Gənc nəsil bu mübarizə müddətində qorxmaz siyasi, ictimai və hərbi döyüşçülər yetişdirmişdir. Bu görkəmli şəxsiyyətlərin xatirəsini layiqincə qiymətləndirmək və əbədiləşdirmək, Azərbaycanın milli azadlıq hərəkatının ən yüksək orqanı

olan Milli Birlik Məclisinin borcudur. Buna əsasən, Milli Birlik Məclisi xalqın iradəsinin daşıyıcısı olaraq "Azərbaycan İstiqlal Yıldızı" və "Bozqurt" ordenlərini təsis edir". [1, s. 3].

**1**."Azərbaycan İstiqlal Yıldızı". Qərarda "Azərbaycan İstiqlal Yıldızı" ordeninin Azərbaycanın istiqlal mübarizəsində həm keçmişdə, həm indi önəmli rol oynayan şəxslərə, eləcə də döyüşçülərə, ictimai xadimlərə verilməsi nəzərdə tutulub. "Bozqurt" ordeninin də döyüşçülərə və Azərbaycanın müstəqillik mübarizəsində özünü göstərən şəxslərə verilməsi təsdiqlənib. 15 sentyabr 1944-cü islədək Məclisin Mükafat Komissiyasının ordenlərin statusunu hazırlaması və təsdiqi tapşırılıb [1, s. 3].

"İstiqlal Yıldızı" ordeni rəsmi şəkildə 6 noyabr 1944-cü ildə, yəni Azərbaycan Milli Qurultayının ildönümündə təsis edilib. Fətəlibəylinin imzaladığı Məclis qərarnaməsində bu ordenin həm azərbaycanlılara, həm xaricilərə verilməsi nəzərdə tutulub:

a) Azərbaycanlılar - Azərbaycanın müstəqilliyi uğrunda keçmişdə və bu gün göstərilən misilsiz xidmətlərə görə, həm siyasi mübarizlərə, həm də ictimai həyatda özünü göstərmiş şəxslərə, xalqın maariflənməsinə, birliyinə və müstəqillik uğrunda mübarizəsinin təşkilinə həsr olunmuş fəaliyyət nəticəsində Azərbaycanın müstəqilliyinin 28 may 1918-ci ildə əldə olunmasına səbəb olanlara, fəaliyyəti xalq tərəfindən ümumilikdə tanınanlara, həmçinin silahla Azərbaycanın müstəqilliyi uğrunda döyüşənlərə və qeyri-adi qəhrəmanlıq və fədakarlıq göstərənlərə verilir.

b) Xaricilər - Azərbaycan xalqının müstəqillik mübarizəsini dəstəkləyən və fəaliyyətləri Azərbaycan xalqı tərəfindən tanınanlara, həmçinin Azərbaycan Milli Ordusunun sıralarında silahla döyüşən və qəhrəmanlıq göstərənlərə, əsgərlər tərəfindən tanınanlara verilir.

Bu ordenə sahib olan şəxslərin hüquqları isə bu şəkildə təsbit edilib:

"Orden Daşıyıcısının Hüquqları

a) Azərbaycanlılar - Orden daşıyıcısı Azərbaycan dövlətində şərəfli şəxsiyyət hesab olunur.

Orden daşıyıcısının şəxsi seçiminə uyğun olaraq, Azərbaycan

ərazisində dövlət hesabına onun və ailəsinin yaşayacağı “Müstəqillik sarayı” tikiləcəkdir.

Orden daşıyıcısının büstü dövlətin paytaxtı Bakıdakı “Milli Birlik Məclisi”nin şərəf zalında yerləşdiriləcəkdir.

Ayrı-ayrı dövlət müəssisələrinə və təhsil ocaqlarına orden daşıyıcısının adı veriləcəkdir.

Orden daşıyıcısına eyni zamanda “Azərbaycan İstiqlalının Qəhrəmanı” adı veriləcəkdir.

b) Xaricilər - Orden daşıyıcısı Azərbaycan dövlətinin fəxri vətəndaşıdır.

Orden daşıyıcısının şəxsi seçiminə uyğun olaraq, Azərbaycan ərazisində və ya onun vətənində dövlət hesabına “Dostluq sarayı” adlanan bir saray tikiləcəkdir.

Orden daşıyıcısının xatirəsinə Bakının paytaxtında bir küçə onun adı ilə adlandırılacaqdır.

Eyni zamanda, orden daşıyıcısına “Azərbaycan xalqının dostu” adı veriləcəkdir.

Lazım olduğu halda, orden daşıyıcısı və onun ailəsi dövlət tərəfindən pensiya ilə təmin olunacaq və ailə üzvləri dövlət hesabına təhsil alacaqlar.

Orden daşıyıcısının Azərbaycanda müvəqqəti və ya daimi yaşaması halında, o, Azərbaycan xalqının fəxri qonağıdır və bütün mədəni-təhsil müəssisələrindən, kurortlardan, yaşayış yerlərindən, ailə və ictimai yerlərdəki qida təminatından, istər özəl, istər dövlət nəqliyyat vasitələrindən pulsuz istifadə edəcəkdir [1, ss. 4-5].

**2**.“Bozqurt Ordeni”. “Bozqurt” Ordeninin Nizamnaməsində ordenlə bağlı əsas məlumatlar verilib:

A. Ümumi Müddəalar

“Bozqurt” Ordeni, Azərbaycan Milli Birlik Məclisinin ali orqanı tərəfindən Azərbaycanın müstəqilliyi uğrunda həlledici döyüşlərin baş verdiyi günlərdə, yəni Bakının bolşeviklərdən milli qoşunlar tərəfindən azad edildiyi günün ildönümü olan 15 sentyabr 1944-cü ildə təsis edilmişdir. Orden Azərbaycan türklərinə, Azərbaycanın müstəqilliyi uğrunda döyüşçülərə və həm-

çinin xaricilərə, Milli Birlik Məclisinin qərarı ilə təqdim olunur.

Orden Azərbaycan türklərinə və xaricilərə döyüşlərdə birbaşa iştirak edən və rəhbərlik edənlərə, onların görkəmli döyüş fəaliyyəti və qəhrəmanlıqlarına görə verilir.

B. "Bozqurt" Ordenini Daşıyanların Hüquqları:

a) Azərbaycan türkləri -

Orden daşıyıcısı Azərbaycan dövlətində fəxri şəxsiyyət hesab olunur.

Orden daşıyıcısının büstü onun vətənində - şəhər və ya kənddə qoyulacaqdır.

Orden daşıyıcısının ailə üzvləri təhsillərini dövlət hesabına alırlar.

Orden daşıyıcısı bütün nəqliyyat vasitələrindən, mədəni-təhsil və kurort müəssisələrindən pulsuz istifadə edir.

İş qabiliyyətinin itirilməsi halında, orden daşıyıcısı və onun ailəsi dövlət tərəfindən pensiya ilə təmin olunur.

b) Xaricilər -

Orden daşıyıcısı Azərbaycan dövlətinin fəxri vətəndaşıdır.

Orden daşıyıcısının xatirəsinə Azərbaycanın bir şəhərində bir küçə onun adı ilə adlandırılacaqdır.

Lazım olduğu halda, orden daşıyıcısı və onun ailəsi dövlət tərəfindən pensiya ilə təmin olunacaqdır.

Orden daşıyıcısının seçimi əsasında Azərbaycanda onun və ailəsi üçün bir köşk tikiləcəkdir.

Orden daşıyıcısının Azərbaycanda müvəqqəti və ya daimi yaşaması halında, o, Azərbaycan xalqının fəxri qonağıdır və bütün mədəni-təhsil müəssisələrindən, kurortlardan, yaşayış yerlərindən pulsuz istifadə edəcəkdir. Bütün ailə və ictimai yerlərdə, istər özəl, istər dövlət, bütün nəqliyyat vasitələrindən pulsuz istifadə edəcəkdir [1, ss. 6-7].

Fətəlibəyli ordenlərin alman məqamları tərəfindən təsdiqi üçün də ardıcıl şəkildə çalışıb. İlkin vaxtlarda Almaniya rəhbərliyi bu ordenlərin verilməsinə qarşı çıxıb. Müvafiq sənəddə yazılıb: "Siyasi baxımdan milli qruplara öz mükafatlarını təqdim etməyə icazə vermək məqsədəuyğun görünsə də, Milli Komitə-

lərin tanınmasından əvvəl, bu ordenlərin daşınmasına dair müvafiq alman xidmətlərinin razılığını əldə etmək mümkün olmayacaq. Könüllü generalı ilə məsləhətləşmələrdə məlum oldu ki, Vermaxt tərəfindən könüllülərin Alman uniformasında Azərbaycan qəhrəmanlıq mükafatı daşımasına icazə verilməyəcək. Vermaxt tərəfindən bu ordenin tətbiqi üçün heç bir imkan mövcud deyil, yalnız Milli Komitənin yaradılması ilə siyasi yeni bir vəziyyət yaranarsa, öz ordenlərinin qəbuluna nail olmaq mümkün ola bilər... Təklif edirəm ki, bu məsələ Milli Komitələr yaradılana qədər təxirə salınsın, lakin sonra ordenlərin qəbul olunmasına təkid edilsin. - Əlavələr yenidən təqdim olunur" [1, s. 18].

Başqa bir sənəddə isə ordenlərin verilməsi təsdiqlənib: "23 noyabr 1944-cü il tarixli telefon danışığına istinadən, əlavə olaraq Şərq Nazirliyinin Azərbaycan orden məsələsi ilə bağlı mövqeyini yazılı şəkildə təqdim edirik və qərarınızı xahiş edirik. SS Baş İdarəsi bu kontekstdə qeyri-rus könüllülərə müəyyən güzəştlərin, ən azı formal xarakterli, edilməsi zərurətini vurğulayır və bu səbəbdən OKW tərəfindən orden məsələsinin müsbət şəkildə həll olunmasını alqışlayar" [1, s. 21].

**Cümhuriyyət xadimlərinin təltif edilməsi.** Azərbaycan Milli Birlik Məclisinin rəsmi orqanı olan "Milli Birlik" məcmuəsinin 6-cı sayında "Bozqurt" Ordeni ilə təltif edilən Azərbaycan Cümhuriyyəti dövrü xadimlərindən iki şəxsin təsviri verilib. Belə ki, Məclis tərəfindən Azərbaycan Cümhuriyyəti zabitlərindən, 1920-ci il Gəncə üsyanının rəhbərlərindən, daha sonra Polşa ordusunda xidmət etmiş və milli qurultayın iştirakçılarından Cahangir bəy Kazımbəyliyə və 10 yanvar 1920-ci ildə Azərbaycanı Parisdə de-fakto tanıdan nümayəndə heyətinin üzvü Abbas bəy Atamalıbəyova "Bozqurt" Ordeni verilib. Təsvirin altında bu şəxslərin mövcud vəzifələri haqqında da bilgi verilib. Abbas bəy qərargahın diplomatik-siyasi işlərindən məsul şəxs kimi, Cahangir bəy isə irtibat qərargahının rəhbərliyinə gətiriləcək şəxs kimi təqdim olunublar. [11, s. 4].

Dərgidəki "İstiqlal yolunda bir şəhid" adlı məqalədə isə Azərbaycan Milli Birlik Məclisinin qərarı ilə feldvebel Əsədovun da

"Bozqurt" Ordeninə layiq görüldüyü yazılıb. [11, s. 17].

**Nəticə.** II Dünya müharibəsi dövründə mayor Əbdürrəhman Fətəlibəyli Düdənginskinin sədrliyi ilə fəaliyyət göstərmiş Azərbaycan Milli Birlik Məclisi faktiki mühacir hökumət rolunu oynayıb, nəticədə Almaniya müharibənin sonlarında olsa da, Azərbaycanın müstəqilliyini tanıyıb. Fətəlibəyli mühacir hökumət lideri kimi dövlət atributlarının, eləcə də nişanların istifadəsinin vacibliyini başa düşüb, bu məqsədlə legionda və Məclisdə aktiv fəaliyyət göstərən siyasi xadimlərin, əsgər və zabitlərin mükafatlandırılması üçün bəzi addımlar atıb. "Azərbaycan İstiqlal Yıldızı" və "Bozqurt" ordenlərinin təsis edilməsi bu baxımdan əhəmiyyətli hadisə olub. Fətəlibəyli mücadilənin davamlılığı baxımdan həm ilk cümhuriyyət xadimlərinin, həm də müharibədə əsir düşən şəxsləri mükafatlandırıb. Bu şəxslərin Azərbaycan azad olunduqdan sonrakı sosial statusları ilə bağlı verilən qərarlar da legion əsgərləri üçün motivasiya qaynağı olub.

Təsis edilən ordenlərin təsviri ilə bağlı material əldə edə bilmədiyimiz üçün bu barədə sadəcə ehtimal irəli sürmək mümkündür. İlk Azərbaycan Cümhuriyyətinin bayrağından istifadə edən Azərbaycan Milli Birlik Məclisinin "Azərbaycan İstiqlal Yıldızı" ordenində səkkiz guşəli ulduzun olacağı mümkündür. "Bozqurt" ordenində isə türk xalqının mifologiyasında önəmli yer tutan bozqurtun təsvirinin olacağını ehtimal edirik.

**Dilgam Ahmadov**

**SUMMARY**

**ORDERS OF THE AZERBAIJAN NATIONAL UNITY COUNCIL: AZERBAIJAN INDEPENDENCE STAR AND BOZKURT**

The establishment of legions composed of Azerbaijanis captured by the Germans during World War II, the activities of the national committee formed by emigrants, and the formation of the Azerbaijan National Unity Council under the chairmanship of Abdurrahman Fatalibeyli Dudanginsky hold significant historical importance. The

Azerbaijan National Unity Council, formed as a result of the National Azerbaijani Congress held in Berlin on November 6, 1943, effectively functioned as an émigré government and continued its activities after the war. During this period, Fatalibeyli united both the figures of the first Azerbaijani Republic and those who were captured as a result of the war around him, becoming a key political and military figure under the Germans. Therefore, Fatalibeyli established orders on behalf of the Azerbaijan National Unity Council to honor individuals who worked and fought for the freedom of Azerbaijan. The "Azerbaijan Independence Star" and "Bozkurt" orders are significant in this regard. Some information about the establishment of these orders and the awards is available in German archives and journals published in Berlin. This article provides information about the establishment of the orders, the intended recipients, some of those awarded, and the creation of the Azerbaijan National Unity Council.

**Keywords:** Azerbaijan National Unity Council, Fatalibeyli, order, Bozkurt, Independence Star, Berlin.

**Дилгам Ахмедов**

**РЕЗЮМЕ**

**ОРДЕНЫ АЗЕРБАЙДЖАНСКОГО НАЦИОНАЛЬНОГО СОВЕТА ЕДИНСТВА: ЗВЕЗДА НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА И БОЗКУРТ**

Создание легионов из азербайджанцев, попавших в плен к немцам во время Второй мировой войны, деятельность национального комитета, сформированного эмигрантами, а также формирование Азербайджанского Национального Совета Единства под председательством Абдуррахмана Фаталибейли Дудангинского имеют важное историческое значение. Азербайджанский Национальный Совет Единства, сформированный в результате Национального Азербайджанского Конгресса, состоявшегося в Берлине 6 ноября 1943 года, фактически выполнял функции эмигрантского правительства и продолжал свою деятельность после войны. В этот период Фаталибейли

объединил вокруг себя как деятелей первой Азербайджанской Республики, так и тех, кто попал в плен в результате войны, став ключевой политической и военной фигурой при немцах. Поэтому Фаталибейли учредил ордена от имени Азербайджанского Национального Совета Единства для награждения людей, работавших и сражавшихся за свободу Азербайджана. Орден «Звезда Независимости Азербайджана» и орден «Бозкурт» имеют в этом отношении особое значение. Некоторая информация о создании этих орденов и награждениях имеется в немецких архивах и журналах, издававшихся в Берлине. В данной статье представлена информация о создании орденов, предполагаемых получателях, некоторых награжденных, а также о создании Азербайджанского Национального Совета Единства.

**Ключевые слова:** Азербайджанский Национальный Совет Единства, Фаталибейли, орден, Бозкурт, Звезда Независимости, Берлин

## ƏDƏBİYYAT:

1. Bundesarchiv. Kaukasicher-Waffen-Verbänd der-SS - Azerbaijanis, Order "Azerbaycan Istiklal Yildizi", "Bozkurt" (statutes and correspondence). https://www. historycaucasus. com/archives/ kaukasicher-waffen-verband-der-ss-azerbaijanis-order-azerbajcan-istikal-jildizi-bozkurt-statutes-and-correspondence.

**Kitablar:**

2. Həsənli Cəmil. İkinci Dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945) – Bakı: Yazıçı, - 2015. – 540 s.
3. Mamulia Giorgi, Abutalıbov Ramiz. Odlar Yurdu. Azadlıq və müstəqillik uğrunda mübarizədə. Bakı: Teas Press, - 2015.-464 s.
4. Qasımlı Musa. Azerbaycan Türklerinin Milli Mücadele Tarihi. 1920-1945. İstanbul: Kaknüs, - 2006. – 704 s.
5. Sakal Halil Burak. Başka Bir Dünya Savaşı. İkinci Dünya Savaşı Sırasında Almanya Tarafında Savaşan Türkistanlılar 1941-1945. İstanbul: Ötüken, - 2013. – 404 s.
6. Абуталыбов Рамиз. Свои среди чужих, чужие среди своих.

История. №1 (25), Москва, 2007.

**Mətbuat:**

7. “Azərbaycan” qəzeti, say 45 (73), 7 noyabr 1943.
8. “Azərbaycan” qəzeti, say 46 (74), 14 noyabr 1943.
9. “Azərbaycan” qəzeti, say 10 (89), 13 mart 1944.
10. Caferoğlu A. “Yeni Dünya Mecmuasına Bir Hatırlatma!”, “Çınaraltı”, say 33, 1942.
11. “Milli birlik”, say 6, Berlin, (tarix yoxdur).

**AQİL ƏHMƏDOV***

# II DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCANLILARIN HƏRBİ-SİYASİ EMİQRASİYASI

**XÜLASƏ**

İkinci Dünya müharibəsi illəri bütün ittifaq respublikalarında miqrasiya və demoqrafik proseslərin qeyri-sabit inkişafına şahidlik edir. Əhalinin miqrasiya proseslərində iştirakı ilə bağlı statistik məlumatlara həm müharibədən əvvəl, həm də müharibədən sonrakı ittifaq siyahıyaalmalarında rast gəlinir. Bu səbəbdən, təqdim olunan elmi-tədqiqat işi Azərbaycan tarixşünaslığında zəif öyrənilən, aktual mövzuya həsr olunmuşdur.

Girişdə mövzunun aktuallığı və tarixşünaslığı ilə bağlı məsələlər açıqlanır. Məqalədə Azərbaycanın müharibədə yaxından iştirakı və respublika daxilində miqrasiya proseslərinin qeyri-müəyyənliyi qeyd olunur. SSRİ-də aparılan siyahıyaalmalar müharibə dövründə Azərbaycanda miqrasiya və demoqrafiyanın ölçülməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. İşin son hissəsində məqalənin nəticələri ümumiləşdirilir və əldə olunan elmi yeniliklər göstərilir.

**Açar sözlər:** Azərbaycan, II Dünya Müharibəsi, əhali, miqrasiya, sosial-iqtisadi vəziyyət

**Giriş.** Müharibə dövrü miqrasiya və emiqrasiya mövzuları Azərbaycan tarixşünaslığında yetərincə tədqiq olunmayan, yaxud az müraciət olunan mövzular sırasında diqqət çəkir. Bu baxımdan, məqalə çərçivəsində II Dünya müharibəsi illərində azərbaycanlıların hərbi-siyasi emiqrasiyasının bəzi vacib məqamları tədqiqat işinə cəlb edilmişdir.

Miqrasiya ilə sinonim təşkil edən "mühacirət" (emiqrasiya),

---

* AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, tarix üzrə fəlsəfə doktoru

“mühacir” (emiqrant), “köç” (miqrasiya), “köçkün” (miqrant) kimi ifadələr tarixçilər tərəfindən daha çox istifadə olunur və əsərlərində də miqrasiya az işlədilən termin kimi qarşımıza çıxır. Miqrasiya həm termin, həm də elmi-tədqiqat sahəsi kimi regional və beynəlxalq səviyyədə son yüz, yüz əlli ildə araşdırılmağa başlandığı üçün Azərbaycanda mövcud sahənin tarixi, hərbi və siyasi aspektləri yeni öyrnilən istiqamət kimi milli tarixşünaslıq üçün aktuallıq kəsb edir.

Nəzərə alsaq ki, miqrasiya eləcə də ümumilikdə mövzu olaraq çoxistiqamətli tədqiqat sahəsidir, onun hərbi-siyasi aspektinin bir arada araşdırılması bu baxımdan aktual olaraq qalır.

1939-cu ildə başlayıb, 1941-ci ildə alovlanan müharibə milyonlarla insanın həytaına son qoymuş, bir çox ailələr başsız və övladsız qalmışdır. Məhrumiyyətlər və ağır müharibə illəri dövrün ittifaq respublikaları sırasında Azərbaycandan da yan keçməmişdir. İnsanlar siyasi təqiblərə məruz qalaraq mühacirət, yəni emiqrasiya etmək məcburiyyətində qalmışlar. Ya tək başına, ya da ailələri ilə qonşu ölkələrə, eləcə də Avropaya sığınan azərbaycanlılar müharibədən sonra da həmin ölkələrdə yaşamağa davam etmiş, dövrün təqibləri uzun müddət səngiməmişdir. Həmçinin müharibə bitməmiş almanlar tərəfə keçərək sovetləşməyə qarşı mübarizə aparan azərbaycanlı legionerlərin də sayı az olmamışdır. Onların əksəriyyəti müharibə qurtardıqdan sonra üçüncü ölkələrə emiqrasiya edərək həyat uğrunda mübarizələrini davam etdirmişlər. Yalnız 1991-ci ildən sonra, bəziləri ahıl yaşlarında Azərbaycana dönə bilmiş, bir çoxları isə qürbət ellərdə ömürlərini başa vurmuşlar.

Müharibə dövründə Azərbaycan aydınları təqiblərdən qurtulmaq üçün daha çox siyasi emiqrantlar kimi yadda qalmışlarsa, əsir düşənlər hərbi emiqrantlar kimi Almaniya tərəfdə əks mübarizəyə qoşulmuşlar.

Hərbi-siyasi mühacirət zəngin tarixşünaslığa əsaslansa da sırf bizim tədqiq etdiyimiz mövzu ilə bağlı olmasa da dolayı yollarla mövcud mövzuya yaxın əsərlərdən bəziləri tədqiqat işinə cəlb olunmuşdur. Əhali miqrasiyası sahəsində tədqiqatları ilə tanınan

Lətifə Həsənovanın "Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında (sovet siyahıya almaları əsasında)" monoqrafiyası mövzunun öyrənilməsində diqqət çəkən mühüm mənbələrdən biridir. Kitabda II Dünya müharibəsi illərində Azərbaycan əhalisinin vəziyyətindən bəhs edən müəllif, sovet dövrü miqrasiya proseslərinin statistik təhlillərini apararaq respublika ilə bağlı maraqlı məlumatlar vermişdir. L.Həsənovanın əsərində diqqət çəkən məqamlardan biri ittifaq dövrü siyahıya almaları ilə bağlıdır. Həmin siyahılar 15 respublikada gedən emiqrasiya və immiqrasiya proseslərinin öyrənilməsi baxımından elmi-nəzəri əhəmiyyət daşıyan mənbələrdir.

Mövzuya yaxın əsərlərdən digəri, dövrün mütəxəssisi professor Mais Əmrahovun elmi-tədqiqat işləri nəzərdən keçirilmiş, bəzi kitablarından istifadə olunmuşdur. Müəllifin N.N.Əsədov ilə həmmüəllifi olduğu "İkinci Dünya müharibəsinin yekunları və dərslər" adlı metodik vəsait, "XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı" adlı ali məktəblər üçün dərsliyi, həmçinin, "İkinci Dünya müharibəsi. 1939-1945" adlı qələbənin 65 illiyinə həsr olunmuş geniş həcmli monoqrafiyası, yaxud 2023-cü ildə Türkiyənin nüfuzlu jurnallarından birində nəşr olunmuş "Azərbaycan legionları: saxtalaşdırılan tarix və reallıqlar" mövzulu məqaləsində II Dünya müharibəsi illərində mühacirət həyatı yaşamış, əsir düşmüş, legionerlər sırasında sovetləşməyə qarşı vuruşmuş, bir sözlə hərbi-siyasi emiqrasiya həyatı yaşamış soydaşlarımız haqqında məlumatlara rast gəlinir.

Azərbaycanın sovet dövrü tarixində tədqiqat baxımından mühüm rol oynayan müharibə və onun Azərbaycan xalqı üçün müsbət və mənfi nəticələri ilə bağlı öz əsərlərində faktoloji materiallara geniş yer verən M.Əmrahov "XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı" kitabının "6.6. Azərbaycan mühacirəti müharibə illərində" adlı paraqrafında azərbaycanlı emiqrantlarla bağlı maraqlı statistik və arxiv materiallarını təhlil etmişdir.

Mövzuya yaxın tədqiqat aparan tədqiqatçılardan biri mərhum professor Nəsiman Yaqubludur. Daha çox Cümhuriyyət irsinin tədqiqatçısı kimi tanınan N.Yaqublu II Dünya müharibəsi

illərində mübarizə aparmış azərbaycanlılar haqqında əsərlərində diqqət çəkən arxiv materiallarından istifadə etmişdir. Müəllifin ön sözünün müəllifi, materiallarını hazırladığı və elmi redaktoru olduğu "Azərbaycan mühacirət irsi" və "Azərbaycan legionerləri" kitabları, həmçinin N.Yaqublunun "Azərbaycan milli istiqlal mübarizəsi və mühacirət mətbuatı (1923-1991-ci illər)" mövzulu 2013-cü ildə uğurla müdafiə etdiyi tarix elmləri doktoru dissertasiyası təqdim olunan mövzunun araşdırılmasına işıq tutmuşdur. Hər iki tarixçinin dövrün mütəxəssisləri kimi qələmə aldıqları əsərlər dövrü araşdıran gənc tədqiqatçılar üçün əvəzsiz elmi mənbələr sırasına daxildir.

Bununla yanaşı mövzunun araşdırılmasında İ.İsmayılovun "Azərbaycanlıların II dünya müharibəsində iştirakı" və N.Məmmədovun "SSR Dağlıq Qarabağ Muxtar Vilavəti iyun 1941-dekabr 1950-ci illərdə" adlı monoqrafiyalarından da bəzi məqamlar məqalədə təhlil öz əksini tapmışdır. Hər iki əsər mövzuya birbaşa bağlı olmasa da tədqiq olunan problemlə bağlı müəyyən məqamlara diqqət yetirilmişdir.

Aparılan təhlillər və istifadə olunan faktiki materiallar mövzunun bununla bitmədiyini, sadəcə bəzi məqamlarının tədqiqat obyektinə çevrildiyini və bir məqalə çərçivəsinə sığmadığını göstərir. Bu səbəbdən, gləcəkdə mövzunun genişləndirilməsi və yeni məqalələrin yazılması davam etdiriləcək.

**Hərbi-siyasi emiqrasiya, yaxud mühacirət və əsirliyin nəticələri.** II Dünya müharibəsi dövrü Azərbaycan sovet tarixşünaslığında geniş tədqiq olunan ümumi mövzu kimi miqrasiya proseslərinə diqqət çəkir. Yüzlərlə yox, minlərlə azərbaycanlının qatıldığı faşizmlə mübarizə cəbhəsində qəhrəmanlıq göstərmiş babalarımızın əksəriyyəti artıq həyatda deyil. Bununla yanaşı, həmin illərdə hərbi-siyasi emiqrasiya, digər adıyla mühacirət və əsirlik həyatı yaşamış soydaşlarımızın da sayı az deyil. Belə olduğu təqdirdə, SSRİ dövründə Azərbaycanın daxilində və xaricində baş verən miqrasiya proseslərinin öyrənilməsi mövzunun hələ uzun illər öyrənilməsinin tarixçilər üçün əhəmiyyət kəsb etdiyini göstərir. Miqrasiya proseslərinin dəyərləndirilməsində

rəqəmlər və faiz dərəcələrinin ölçülməsi kimi məsələlər, müharibə dövrü statistikası mövzunu anlamağa kömək edir.

Azərbaycan SSR 114.314 nəfər (0,8 %) miqrant verirdi. Bu miqrantların 58.769 nəfəri (Azərbaycan üzrə miqrantların 51,4 %-i) respublikanın öz payına aid idi. Qalan 55.545 nəfər (48,6 %) digər respublikaların payına düşürdü. Azərbaycana gələnlər 85819 nəfər qeydə alınmışdı. Bu SSRİ üzrə miqrantların 6,1 %-ni təşkil edirdi. Azərbaycana gələnlərin təmsil olnduğu respublikalar arasında RSFSR birinci yerdə dururdu (13335 və ya 15,5 %) [6, s.217]. Azərbaycanın daxili və xarici miqrasiya proseslərinin sovet dövrü məhdud çərçivədə olsa da bu haqda bəzi məlumatlar günümüzə qədər gəlib çatmışdır. Göründüyü kimi, sovet dövründə emiqrasiya faizi yüksək olmuşdur. O dövrdə Azərbaycanın Qərb və Avropaya əsas çıxışnın olmadığı üçün daxili miqrasiya proseslərində ittifaq respublikaları ilə əlaqələr əsas götürülmüşdür. Hazırda müasir və müstəqil Azərbaycanda immiqrasiya (ölkəyə giriş) prosesləri daha aktiv rol almağa başlamışdır. Bu isə Azərbaycan Respublikasının 1991-ci ildən 2025-ci ilə qədər keçdiyi dövr ərzində dünya birliyi ilə qurduğu sıx əlaqələr, iqtisadi siyasətini yüksəltməsi, ordu quruculuğunda və s. mühüm sahələrdə regionun lider dövlətinə çevrilməsi ilə birbaşa bağlıdır.

İkinci Dünya müharibəsinin başlanması ilə Azərbaycan legionerlərinin Almaniyada müxtəlif mətbuat orqanlarını yaradıb tariximizi, ədəbiyyatımızı, mədəniyyətimizi təbliğ etmələri böyük əhəmiyyətə malikdir. Azərbaycanlı mühacirlər ABŞ dövlətinin yaratdığı “SSRİ-ni Öyrənmə İnstitutu”nda çalışmış, institutun nəşr etdiyi “Dərgi” jurnalında maraqlı yazılarla çıxış etmişlər [1, s. 8]. Hərbi-siyasi emiqrasiyanın nəticəsində Qərb və Avropaya səpələnən azərbaycanlılar məskunlaşdıqları ölkələrdə milli dəyərlərimizi yaşatmağa çalışmışlar. Müxtəlif sahələrdə ədəbiyyatını, mədəniyyətini təbliğ edən soydaşlarımız müharibə illərində, getdikləri ölkələrdə Azərbaycan diaspor təşkilatlarının inkişafına əhəmiyyətli təsir göstərmişlər. Mövcud fakt onu göstərir ki, müharibəyə göndərilən azərbaycanlılar arasında

kifayət qədər ali təhsilli, yüksək intellektli insanlar var idi. Onların arasında əsir düşənlər, mühacir həyatı yaşamağa məcbur olmuşlar. Yəni, əksəriyyəti əsir düşdükləri ölkələrdə birdəfəlik qalaraq üçüncü ölkələrə emiqrasiya etmiş və həyat uğrunda mübarizələrini davam etdirmişlər.

Azərbaycanın sovet dövründəki əhali siyahıya almalarını xronoloji baxımdan iki yerə bölmək olar: 1941-1945-ci illər müharibəsinədək olan ümumittifaq əhali siyahıya almaları və müharibədən sonrakı əhali siyahıya almaları müəyyən edilən xronoloji bölgü həmin siyahıya almalar arasındakı varisliyi inkar etmir, əksinə müharibədən sonrakı əhali siyahıya almalarının daha dərindən tədqiqinə kömək edir [6, s. 35]. Miqrasiya proseslərinin tədqiqini siyahıya almalarsız və ya demoqrafik dəyişikliklərsiz araşdırmaq mümkün deyil. Bu baxımdan, sovet dövründə, istər müharibədən əvvəl, istərsə də müharibədən sonrakı illərdə rəsmi siyahıya almalar məskunlaşma və köçürülmə proseslərinin hesablanmasında vacib rol oynayan statistikalardır. Müharibə illəri Azərbaycanda miqrasiya proseslərinin tənzimlənməsində böyük çətinliklər törətmişdir. Kütləvi hərbi çağırışlar, kənd və şəhərlərin demoqrafik vəziyyətinə mənfi təsir göstərmiş, ailələr başsız qalmış və bir çox nəsillər yox olmaq həddinə çatmış, yaxud yox olmuşdur.

1939-cu il əhali siyahıya almasının ilkin yekunlarının "Pravda" qəzetinin 2 iyul tarixli buraxılışında nəşr edilməsilə Azərbaycan SSR əhalisinin sayı haqqında məlumat Azərbaycan XTQİ və XTQMİ arasında yazılmalara səbəb oldu. İlkin məlumatda Azərbaycan əhalisinin ümumi sayı 3.209.727 nəfər (1160 723 nəfər şəhər, 2049 004 kənd əhalisi) göstərir. Azərbaycan XTQİ, XTQMİ-nin digər cədvəllərində bu rəqəmin 3.205.150 nəfər (yəni 4577 nəfər) az olduğunu aşkar edir. Araşdırmalar göstərir ki, yalnız müəyyən qarışmalardan sonra Azərbaycan əhalisi haqqında sonuncu rəqəm qəbul edilir. 1940-cı ildə və sonralar nəşr olunmuş statistik məcmuələrdə məhz bu rəqəm göstərilir [6, s. 39-40]. Müharibənin başlandığı ilk il və sonrakı illərdə əhalinin sayının müəyyən olunması kimi mühüm

məsələlər mürəkkəb şəraitdə baş vermiş, aparılan araşdırmalar əslində Azərbaycan əhalisinin göstəriləndən daha çox olduğunu və burada rejimin ideoloji prinsipləri əhalinin sayının az göstərilməsinin məqsədli olduğunu deməyə əsas verir. Əhalinin məskunlaşması və say tərkibinin müəyyən olunması emiqrasiya və immiqrasiya kimi məsələlərin aydınlaşdırılması, həmçinin sosial vəziyyətinin tədqiq olunmasının tarixçilər üçün diqqət çəkici olduğunu əks etdirir.

1941-ci ilin 22 iyunundan sonrakı ilk günlərdə Azərbaycanda könüllü olaraq cəbhəyə getmək üçün 40 min nəfərdən çox ərizə verilmişdi. Həmin ilin avqustunda könüllülük əsasında yerlərdə təşkil edilmiş 87 döyüş batalyonlarının tərkibində 186704 nəfər hərbi təlim keçirdi. Respublika ərazisində 28 tabor yaradılmışdı [7, s. 28]. Aparılan hərbi-siyasi maariflənmə işi könüllü orduya qoşulma məsələsində, göründüyü kimi rol oynamışdır. İstər könüllü olsun, istərsə də əsgər yaşı tamam olmuş şəxslərin, yaşı əlliyə qədər olanlar ordu sıralarında təmsil olunmuşlar. Onların əksəriyyətinin taleyi naməlum qalsa da aralarında hərbi-siyasi mühacirət, yəni emiqrant həyatı yaşamış insanların sənədlər əsasında üzə çıxarılması azərbaycanlıların ağır və məhrumiyyətlərlə dolu müharibə illərində böyük sınaqlarla üz-üzə qaldıqlarını təsdiq edir.

Müharibə zamanı 1941-ci ilin iyunundan 1944-cü ilin yanvarına qədər Azərbaycan SSR-dən 553 min 910 nəfər aparlmışdır. Onlardan – müharibənin başlanğıcından 1943-cü ilin noyabrına qədər qızıl orduya 473 min nəfər göndərilib [9, s. 75-76]. Göstərilən rəqəmlər müharibənin nə qədər böyük miqyas əhatə etdiyini və faşizmə qarşı amansız müharibədə ittifaq xalqları ilə yanaşı azərbaycanlıların qəhrəmanlıqlar göstərdiyini bəyan edir. Onların arasında emiqrasiya etməyə məcbur qalmış şəxslər, əsirlər, yaxud alman tərəfində işğalçı sovetə qarşı könüllü vuruşmaq üçün keçən əsgərlərin həyatı məlum olsa da bir çoxlarının qəbirləri belə tapılmamışdır.

Türkiyənin, Almaniyanın, Polşanın arxivlərində saxlanan Azərbaycan mühacirət mətbuatı və milli Azərbaycan nəşriyyatı

nümunələrinin tədqiq edilməsi mövzunun aktuallığı ilə bağlı daha yeni fikri və tendensiyanı formalaşdırır [10, s. 4-5]. Müharibə dövrü azərbaycanlı emiqrantların yaşadıqları ölkələrdə yaratdıqları ədəbi və mədəni nümunələr hələ yetərincə araşdırılmamış qalır. Dövlət müstəqilliyinin bərpasından ötən otuz ildən yuxarı vaxt ərzində az sayda olsa da azərbaycanlı emiqrantlarla bağlı tədqiqatlar aparılmışdır. Hazırda Avropa arxivlərində onlarla bağlı sənədlər hələ də öz tədqiqatçılarını gözləyir. Burada azərbaycanlı emiqrantların, yəni mühacirlərin nəşrlərinə xüsusilə diqqət yetirmək lazımdır. Jurnal və bülletenlərdə, ədəbi nümunələrdə, povest, roman və şeirlərdə Azərbaycan həsrəti, vətənin bütövlüyü, xalqın birliyinə çağıran digər fəaliyyətlərdə müharibə dövrü emiqrasiyası tədqiq etdiyimiz mövzuya elmi-nəzəri yanaşma tələb edir.

Müharibə dövründə minlərlə insan əsir həyatı yaşamış Stalin "düşüncəsinin" nəticəsi olaraq SSRİ ərazisində yaşayan xalqlar, xüsusilə türkdilli xalqlar "terrorçu qruplar aşkar olundu", "bandalar müəyyənləşdirildi" kimi bəhanələrlə bir gecənin içində yurdundan-yuvasından didərgin salınmış, deportasiya olunmuşdu [4, s. 13]. İkinci Dünya müharibəsinin Azərbaycan xalqı üçün gətirdiyi məhrumiyyətlərin və bəlaların başında Stalin təqibləri birinci yerdə dururdu. Respublika həm orduya əsgər göndərir, ordunu ərzaq, yanacaq, tibbi ləvazimatlarla təmin edir, həm də daxildə repressiya və milli ruhlu insanların rejim tərəfindən məhv olunmalarına şahidlik etmişdir. Belə bir şəraitdə siyasi mühacirət, yəni siyasi emiqrasiya kimi məsələlər yüzlərlə azərbaycanlı ziyalının həyatını xilas etmişdir. Hərbi, siyasi, milli məsələlər dövrün hakim rejiminin diqqətindən yayınmamış azərbaycanlılara qarşı işgəncə və repressiya maşınları işə salınmışdır.

Müharibə dövründə Vilayətin ən böyük müəssiəsi olan Qarabağ İpək Kombinatının kollektivi xüsusilə fərqlənirdi. Ağır illərdə onlar ehtiyacı olan ailələrə 421 min kubmetr odun daşımış və 473 ton metal toplayıb Stavropol vilayətinə göndərmişlər. Sənayedə əhəmiyyətli müvəffəqiyyətlər qazanılmışdı. Belə ki, 1944-cü ildə 1940-cı ilə nisbətən sənayenin ümumi məhsulu 9

faiz artmışdı [8, s. 57]. Həmin illərdə Azərbaycanın bütün regionları kimi etnik baxımdan həssas tarixi bölgəsi Qarabağ da orduya dəstək məsələsində fəal iş aparmışdır. Bir tərəfdən müharibənin ağrı-acısı, digər tərəfdən erməni vandallarının Qarabağ ərazisində törətdikləri cinayətlər də İkinci Dünya müharibəsi dövündə Azərbaycan xalqının hərtərəfli mübarizəyə qoşulduğunu göstərirdi. Bu baxımdan 1941-1945-ci illər hərbi-siyasi emiqrasiyasının araşdırılmasında belə mühüm tarixi faktların nəzərdən keçirilməsi tədqiqat işində diqqət yetirilən vacib məqamlardandır.

Müharibə başlayanda M.Ə.Rəsulzadə və H.Münşi Berlində Milli Azərbaycan Komitəsi yaradırlar. Komitə Azərbaycan legionlarının formalaşdırılmasında mühüm rol oynayır. Almaniya tərəfdə vuruşan və alman forması geyinən "xilsivillige" adlandırılan "xivi"lər arasında azərbaycanlılar da var idi. Azərbaycanlılar daxil olmaqla 1943-cü ilin əvvəllərində "xivi"lərin ümumi sayı 400 minədək idi. Müharibə illərində alman ordusunda yaradılan 90 batalyonun 15-i Azərbaycan (36,6 min nəfər) əsgər və zabitlərindən təşkil edilmişdi. Vermaxtın döyüş hissələrinin tərkibində kadr batalyonları da təşkil edilmişdi. Onların 21-i azərbaycanlılar idi. Beləliklə, əsas hissəsini sovet əsirləri təşkil edən türk və Qafqaz xalqlarından formalaşan hərbi hissələrdəki adamların ümumi sayı 150 min nəfərə yaxın idi [3, s. 287-288]. Cümhuriyyətin qurucuları sırasında parlaq milli fəaliyyəti ilə tarixdə iz qoyan M.Ə.Rəsulazadənin II Dünya müharibəsi illərində Almaniyada qısa vaxt ərzində apardığı ideoloji mübarizə bu gün XX əsr Azərbaycan milli azadlıq salnaməsinin araşdırlmasında siyasi emiqrasiyanın mühüm əhəmiyyəti ilə seçildiyini göstərir. Həmin dövrdə milli komiə yaratmaq heç də asan məsələ deyildi. Burada hərbi emiqrasiya etmiş, yaxud əsir düşmüş azərbaycanlıların vahid mərkəzdə Azərbaycan naminə fəaliyyətə cəlb edilməsi yalnız yüksək erudisiyalı, intellektual potensialı yüksək olan şəxslərin görə biləcəyi bir iş idi. Bu baxımdan, M.Ə.Rəsulzadənin azərbaycanlılardan ibarət müharibə dövrü hərbi-siyasi emiqrasiyanın formalaşdırdığı ziyalı

təbəqənin başında yer alması manidar və mövzunun araşdırılması baxımından aktual səsləndiyini göstərən vacib məqamdır. Sayı yarım milyona çatan "xivi"lərin sırasında yer alan azərbaycanlıların milli azadlıq hərəkatına qoşulması işğalçı sovet-bolşevik rejiminə qarşı qısa, lakin şərəfli mübarizə aparıldığını tarixə yazmışdır. Azərbaycana məxsus 15 batalyonun fəaliyyətə keçməsi böyük bir ordu olacaq qədər yüksək qiymətləndirilir. Beləcə azərbaycanlı hərbi-siyasi emiqrantlar yaşadıqları ölkədə vətən həsrəti çəkmiş, onun düşməndən azad olunması üçün iş aparmışlar.

Almaniya tərəfinə keçən azərbaycanlıların sayı 150 min, bütün türklərin və başqa qafqazlıların sayı isə milyona yaxın idi [5, s. 1209]. Mövcud rəqəm M.Əmrahovun iki tədqiqatında fərqli, həm "türk və Qafqaz xalqlarının ümumi sayı 150 minə yaxın, həm də azərbaycanlıların sayı 150 min idi" şəklində qeyd olunur. Bütün hallarda göstərilən rəqəmlər azərbaycanlı legionerlərin sayının az olmadığını, həmçinin onların milli məsələlərdə birləşə biləcəyindən xəbər verirdi.

1943-cü ilin noyabrın 6-9-da Berlində I Milli Azərbaycan Birliyinin qurultayı keçirilir. Tədbiri 1920-ci il Gəncə üsyanının başçılarından biri olmuş Cahangir Kazımbəyov açmış, Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginski məruzə etmişdi. Qurultay 5 maddədən ibarət qətnamə qəbul etmişdi. Qurultay mühacirlərin vahid təşkilatda birləşməsinə və birgə fəaliyyət göstərməsinə kömək etmişdi [3, s. 292]. Azərbaycanın müharibə dövrü hərbi-siyasi mühacirətinin, yəni emiqrasiyasının formalaşmasında qurultayın qəbul etdiyi qətnamə növbəti illərdə həyata keçiriləcək iş prosesinin prinsiplərini və istiqamətlərini müəyyən etmişdir. Sovetləşmənin ilk ilində ona qarşı çıxanlardan biri C.Kazımbəyov da bir müddət Berlində yaşamağa məcbur olmuşdur. Həmin illərdə hərbi və siyasi emiqrasiyalar bir daha Azərbaycan xalqının birliyini və gücünü düşmənə göstərmişdir. Ə.Düdənginskinin məruzəsi isə vətən nisgili ilə yaşayan soydaşlarımızın vahid cəbhədə mübarizə aparmaq əzmini gücləndirmişdir. Azərbaycanlıların birlik və bərabərliyinin güclənməsinə və genişlənməsinə həsr olunmuş I Qurultay uzun illər fəaliyyət göstərə bilməsə də ətrafına kifayət

qədər milli düşüncəli ziyalıları toplamışdı. Onların Azərbaycanın azadlığı və bütövlüyü naminə göstərdikləri mücadilə yeni mütərəqqi düşüncəli nəslin formalaşması və vətənpərvərlik ruhunda tərbiyə olunması baxımından az əhəmiyyət daşımamışdır.

M.Ə.Rəsulzadənin "Stalinlə ixtilal xatirələri", M.S.Aranın "Hürriyyətə uçan türk", Sürəyya Ağaoğlunun "Bir ömür böylə keçdi", Ə.Yurdsevərin "Azərbaycan istiqlal savaşından xatirələr", Nağı Şeyx Zamanlının "Azərbaycan istiqlal mücadiləsi xatirələri" və s. əsərlər nəşr olunmuşdu. M.Ə.Rəsulzadənin "Azərbaycan kültür gələnəkləri", "Azəpbaycan Şairi Nizami", "Çağdaş Azərbaycan tarixi", Ə.Yurdsevərin "Mirzə Fətəli Axundzadənin həyatı və əsərləri", "Azərbaycan dram ədəbiyyatı", "Sabirin Azərbaycan ədəbiyyatındakı yeri", "Azərbaycan şairlərindən Vaqif və Vidadinin yaradıcılığı", "Azərbaycan istiqlal mücadiləsi tarixi", M.B.Məmmədzadənin "Qafqaz tarixində türk Albaniya", Kərim Odərin "Azərbaycan" və başqa ədəbi tənqidi və publisistik tədqiqatları bu dövrün məhsuludur [3, s.295]. Mürəkkəb hərbi-siyasi şəraitdə Azərbaycan aydınlarının silah kimi qələmə sarılması milli ruhu özündə daşıyan əsərlərin meydana çıxmasına gətirib çıxarmışdır. Belə səpkili elmi-ədəbi, tarixi çalışmalara həmçinin müharibə dövrü Azərbaycan mühacirət ədəbiyyatı və tarixi də deyilir. Dövrün Azərbaycan hərbi-siyasi emiqrasiyasının tanınmış simalarının öz əsərləri ilə göstərdikləri şücaətlər indi tədqiqat işlərində, gənclərin milli ruhda tərbiyə olunmasında əvəzsiz qaynaqlar hesab oluna bilər. Ümumilikdə sovet dövrü siyasi mühacirətinin formalaşması və onların yaşadıqları ölkələrdə Azərbaycan diasporunun inkişafına göstərdikləri dəstək öz bəhrəsini verir və yeni azərbaycanlı simaların üzə çıxarılması, həyat və yaradıcılıqlarının öyrənilməsinin vacib olduğunu göstərir.

1943-cü ilin avqustunda Azərbaycan legionları arasında çıxış edən M.Ə.Rəsuzlzadə demişdir: "...Müstəqil dövlətləri işğal edib özünün köləsinə çevirən bir ölkənin, köləlik altında qəhr olan bir məmləkəti azad edəcəyinə bel bağlamaq sadəlövhlükdür" [2, s. 29]. Bir müddət Berlində yaşadıqdan sonra təqiblər nəticəsində

oradan ayrılan düşüncə insanı M.Ə.Rəsulzadənin çıxışı sovet-bolşevik rejiminin işğalının hələ uzun illər davam edəcəyindən xəbər verirdi. Rəsulzadə həmçinin, Almaniyanın da Azərbaycanı azadlığına qovuşdura biləcəyinə o qədər də ümid bəsləmirdi. Bunun Azərbaycan xalqının birlik və bərabərliyi, vahid bir cəbhədən çıxış etməsi ilə mümkün ola biləcəyini qeyd edirdi. Bunun üçün təhsilli, dünya görüşlü və milli ruhlu soydaşlarımızın birlikdə fəaliyyətinin xarici ölkələrdə, xüsusilə Avropa və Qərbdə müəyyən qədər effekt verə biləcəyinə ümid bəsləyirdi. Lakin dünyanı maraqlar idarə etdiyi üçün iqtisadi, siyasi və hərbi maraqlar Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpasının uzun illərdən sonra, XX əsrin sonlarına doğru mümkün ola biləcəyindən xəbər verirdi.

Çexslovakiya ərazisində fəaliyyət göstərən partizan dəstəsinin tərkibində 500 nəfər azərbaycanlı döyüşçü var idi. Əsir düşərgəsindən qaçıb müqavimət hərəkatına qoşulan Ə.Baxışov, Ə.Əlimərdanov döyüşlərdə xüsusilə fərqlənmişlər [2, s. 28]. Burada əksinə əsir düşərgəsindən qaçıb, yenidən faşizmə qarşı mübarizə aparan azərbaycanlıların olduğunu da görmək mümkündür. Bu faktın özü də müharibə dövründə azərbaycanlıların hərbi-siyasi emiqrasiya proseslərində iştirak dərəcəsinin öyrənilməsində mənbə rolunda çıxış edir.

**Nəticə.** “Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində” mövzusunda keçirilən respublika elmi konfransına təqdim olunan “II Dünya müharibəsi illərində azərbaycanlıların hərbi-siyasi emiqrasiyası” mövzulu elmi-tədqiqat işi Vətən tarixşünaslığı üçün aktuallıq kəsb etməklə yanaşı, yetərincə öyrənilməyən orijinal mövzudur.

Burada hərbi-siyasi emiqrasiyadan danışarkən – həm siyasi mühacirət, həm də hərbi mühacirət, yəni emiqrasiya məsələləri gündəmə gətirilir. Minlərlə azərbaycanlının iştirak etdiyi II Dünya müharibəsi ittifaq xaqlarının genofonduna mənfi təsir göstərəcək qədər miqyası geniş və acınacaqlı nəticlərlə yadda qalmışdır. Müharibədə yaxından iştirak edən babalarımız cəbhələrdə böyük hünər göstərərək faşizmə qarşı qələbənin əldə

olunmasında yaxından iştirak etmişlər.

Bununla yanaşı dövrün sovet rejiminin işğalçı mövqeyi də unudulmamalıdır. Digər dövlətlərin hesabına genişlnənən sovet-bolşevik hökuməti iştirak etdiyi müharibənin mürəkkəb nəticələrindən biri kimi hərbi-siyasi emiqrasiyaların yaranmasına səbəb olmuşdur. Qələbədə Bakı neftinin mühüm rol oynamasına baxmayaraq, Azərbaycan SSR-nin paytaxtına qəhrəman şəhər adının verilməməsi başqa bir araşdırma mövzusudur.

Məqalənin nəticə hissəsində tədqiqat işinə yekun vurularaq alınan elmi yenilikləri aşağıdakı kimi sıralamaq olar:

- SSRİ-nin dağlmasından yarım əsrə yaxın vaxt keçsə də II Dünya müharibəsində ittifaq xlaqlarının yaxından iştirakı və mübarizə meydanlarında göstərdikləri şücaətlərlə dolu qəhrəmanlıq məktəbi hələ də öyrənilməyə davam edir;
- Milyonlarla itki, insan kapitalı, tonlarla ərzaq və sənaye məhsulları hesabına qazanılan ümumi qələbədə Azərbaycan xalqının rolu böyük olmuşdur;
- Həmçinin, 1941-1945-ci illər Azərbaycanda ziyalı, milli düşüncəli nəsillərin təqibinin davam etməsi, bunun nəticəsində hərbi-siyasi emiqrasiyaların baş verməsi ilə yadda qalmışdır;
- Əsir düşən azərbaycanlılar arasında alman tərəfində vuruşan legionerlər əslində sovet işğalı ilə barışa bilməyən aydınlar olmuşlar;
- Yaxud siyasi təqiblərdən yaxa qurtarmaq üçün qonşu Türkiyə, eyni zamanda Avropa ölkələrinə sığınan azərbaycanlılar yaşadıqları ərazilərdə diaspor təşkilatlarının yaranması və inkişafına dəstək vermişlər;
- Eləcə də Azərbaycandan kənarda müharibə dövrü mühacirət ədəbiyyatı, tarixi, mədəniyyəti yaranmışdır;
- XX əsr Azərbaycan mühacirət tarixində iz qoyan ziyalı azərbaycanlıların üzə çıxarılması müharibə dövrü soydaşlarımızın emiqrasiyasının tədqiqində mühüm məqamlardan biridir.
- Sadalanan məqamlar mövzunun müasir dövrdə aktuallığını itirmədiyini, hələ də gənc tədqiqatçıların diqqət mərkəzində olduğunu əks etdirir.

**Агиль Ахмедов**

## РЕЗЮМЕ

## ВОЕННО-ПОЛИТИЧЕСКАЯ ЭМИГРАЦИЯ АЗЕРБАЙДЖАНЦЕВ В ГОДЫ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

Годы Второй мировой войны свидетельствуют о неустойчивом развитии миграционных и демографических процессов во всех союзных республиках. Статистические данные об участии населения в миграционных процессах встречаются как в довоенных, так и в послевоенных союзных переписях. Поэтому, представленная научно-исследовательская работа посвящена актуальной теме, слабо изученной в азербайджанской историографии.

Во введении раскрываются вопросы, связанные с актуальностью и историографией темы. В статье отмечается тесное участие Азербайджана в войне и неоднозначность миграционных процессов внутри республики. Переписи, проведенные в СССР, имели важное значение с точки зрения измерения миграции и демографии в Азербайджане во времена войны. В заключительной части работы подводятся итоги статьи и указываются полученные научные новшества.

**Ключевые слова:** Азербайджан, Вторая мировая война, население, миграция, социально-экономическое положение

**Agil Ahmadov**

## SUMMARY

## MILITARY AND POLITICAL EMIGRATİON OF AZERBAIJANIS DURING THE SECOND WORLD WAR

The years of the Second World War testify to the unstable development of migration and demographic processes in all the Union republics. Statistical data on the participation of the population in

migration processes are found in both pre-war and post-war Union censuses. Therefore, the presented research paper is devoted to a topical topic that has been poorly studied in Azerbaijani historiography. The introduction reveals issues related to the relevance and historiography of the topic. The article notes Azerbaijan's close involvement in the war and the ambiguity of migration processes within the republic. The censuses conducted in the USSR were important in terms of measuring migration and demography in Azerbaijan during the war. In the final part of the paper, the results of the article are summarized and the scientific innovations obtained are indicated.

**Key words:** Azerbaijan, World War II, population, migration, socio-economic situation

## ƏDƏBİYYAT

1.Azərbaycan mühacirət irsi/materialları hazırlayan, ön sözün müəllifi və elmi redaktor: N.Q.Yaqublu. – Bakı: Elm və təhsil,-2011,-232 s.

2.Əmrahov, M.İ., Əsədov, N.N. İkinci Dünya müharibəsinin yekunları və dərslər. Metodik vəsait / M.İ. Əmrahov, N.N. Əsədov. – Bakı: Mütərcim, – 2006. – 76 s.

3.Əmrahov M.İ. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Ali məktəblər üçün dərslik / M.İ. Əmrahov. – Bakı: ADPU-nun nəşriyyatı, – 2009, – 371 s.

4.Əmrahov M.İ. İkinci Dünya müharibəsi. 1939-1945. Qələbənin 65 illiyinə həsr olunur / M.İ. Əmrahov. – Bakı: Mütərcim, – 2010, – 552 s.

5.Əmrahov M. Azərbaycan Legionları: Saxtalaşdırılan Tarix və Reallıqlar // Akademik Tarih ve Düşünce Dergisi, 10 (4), 2023, s. 1207-1228.

6.Həsənova L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında (sovet siyahıya almaları əsasında) / L.L. Həsənova. – Bakı: BDU, – 2003, – 302 s.

7.İsmayılov İ.Z. Azərbaycanlıların II dünya müharibəsində iştirakı / İ.Z. İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, – 2000, – 128 s.

8.Məmmədov N.R. Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilavəti iyun 1941-dekabr 1950-ci illərdə / N.R. Məmmədov. – Bakı:

Elm, – 2006, – 182 s.
9.Yaqublu N.Q. Azərbaycan legionerləri / N.Q. Yaqublu. – Bakı: Çıraq, – 2005, – 336 s.
10.Yaqublu N.Q. Azərbaycan milli istiqlal mübarizəsi və mühacirət mətbuatı (1923-1991-ci illər) / tarix üzrə elm. dok. disser. avtor. Bakı, 2013, 54 s.

**QAŞQAY RAMAZANOV***

# 1941–1945-Cİ İLLƏR MÜHARİBƏSİ DÖVRÜNDƏ AZƏRBAYCANDA HƏRBİ MƏTBUATIN FƏALİYYƏTİ

## XÜLASƏ

Təqdim olunan məqalədə 1941–1945-ci illər müharibəsi (Böyük Vətən müharibəsi) dövründə Azərbaycan Sovet Sosialist Respublikasında (SSR) hərbi mətbuatın fəaliyyəti, eyni zamanda SSRİ-də ümumən mətbuatın istiqamətlərindən bəhs olunur. Araşdırma zamanı Azərbaycanda hərbi mətbuatın tarixinə nəzər yetirilir, Azərbaycan Xalq Cümhuriyyətinin bolşeviklər tərəfindən süquta uğradılması və 1922-ci ildə Sovet İttifaqına qatılmasından sonrakı dövrdə Azərbaycan dilində nəşr olunan hərbi mətbuatın yaranması, inkişafı və Böyük Vətən müharibəsi zamanı fəaliyyətinə diqqət yetirilir. Məqalədə, eyni zamanda alman faşizminə qarşı mübarizə aparan ölkədə həmin dövrdə kütləvilik cəhətdən, habelə kəmiyyət və keyfiyyət etibarilə özünün ən yüksək inkişaf dövrünü yaşayan Azərbaycan hərbi mətbuatının təbliğat və təşviqat sahəsində gördüyü işlərə, vətənpərvərliyin aşılanması və düşmənə qarşı müqavimətin artırılması naminə cəbhə bölgələrinə, hətta səngərlərə qədər uzanan fəaliyyəti tədqiq olunur. Bu kontekstdə respublika üzrə fəaliyyət göstərən kütləvi informasiya vasitələri ilə yanaşı, yaradıcı insanların da hərbi mətbuatda təbliğat və təşviqat işinə cəlb olunması faktları, bu istiqamətdə fəaliyyətin cəbhədə soydaşlarımızın döyüş ruhunun artırılması və qələbənin əldə edilməsində əhəmiyyəti nəzərdən keçirilir.

**Açar sözlər:** azərbaycanlı döyüşçülər, cəbhə qəzetləri, döyüş ruhu, hərbi mətbuat, mətbəə işçiləri.

**Giriş.** 1941–1945-ci illərdə SSRİ-də hərbi jurnalistikanın inkişafı ilə bağlı tədqiqat aparılıb, kitablar nəşr olunsa da, sonrakı

---

* Müdafiə Nazirliyi Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu, siyasi elmlər üzrə fəlsəfə doktoru

dövrlərdə və hazırda Rusiyada bir sıra araşdırmalara rast gəlinsə də, Azərbaycanda milli hərbi mətbuatın həmin illərdə fəaliyyəti müstəqillikdən sonra geniş tədqiqat obyekti olmamışdır. Bu səbəbdən məqalənin yazılmasında 1941–1945-ci illərdə Azərbaycanda milli hərbi mətbuatın, o cümlədən cəbhə qəzetlərinin oynadığı rolun araşdırılması qarşıya məqsəd kimi qoyulmuşdur.

1920-ci ilin aprelində baş verən çevrilişdən sonra qurulan Azərbaycan Sovet Sosialist Respublikasında ilk dövrlərdə yüksəkrütbəli azərbaycanlı hərbi kadrların hələ də silahlı qüvvələrdə xidmətini davam etdirməsi sayəsində milli hərbi mətbuatın fəaliyyətinə və inkişafına imkan yaranmış, sovet hakimiyyətinin ilk illərində hərbi xidmətdə olan soydaşlarımızın maarifləndirilməsi üçün mətbuat sahəsində mühüm tədbirlər həyata keçirilmişdi. Sovet hakimiyyəti qurulduqdan sonra respublikada hərbi sahədən yazan mətbu orqanlar nəşr edilməyə başlasa da, hərbi mətbuat, əsasən, mərkəzin tabeliyində olan və bolşeviklərin hərbi-siyasi istiqamətinə uyğun orqanlardan ibarət olmuşdur.

Azərbaycanda ilk hərbi qəzetin tarixi 1920-ci ildən nəşr edilən "Qırmızı Əsgər"lə başlanmış, atıcılıq diviziyasının siyasi şöbəsinin orqanı olan bu qəzet sonradan "Qızıl Əsgər" adı ilə on ildən çox nəşr edilmişdi. Diviziya və alay qəzetlərini öz ətrafında birləşdirən qəzetin baş redaktoru yazıçı Hacıbaba Nəzərli olmuşdur. Bu sahədə Əliağa Şıxlınskinin, Cəvşid Naxçıvanskinin aparıcı fəaliyyətlərini qeyd etmək vacibdir. Bu baxımdan, əsgərlərin savadlanması üçün nəzərdə tutulan jurnal və qəzetlərin fəaliyyəti döyüş hazırlığı, silaha qulluq qaydaları, eyni zamanda ordudakı vəziyyətlə bağlı ictimai məlumatlandırma xarakteri daşıyırdı. Azərbaycanda hərbi jurnalistikanın sonrakı inkişafına nəzər yetirəndə məlum olur ki, 1934-cü ildə bölük və alay qəzetlərinin ümumi sayı səksənə yaxın idi. "Qızıl Əsgər" qəzeti ilə yanaşı, "Dəmir mübariz", "Qızıl topçu", "Döyüşçü səsi", "Qızıl bayraq" və s. çoxsaylı alay qəzetləri nəşr olunurdu [3, s.23]. Bütün bu mətbu orqanlar hərbi sahədə informasiya əldə etmək istəyində olan ictimaiyyət üçün bir növ mənbə hesab edilirdi.

**Böyük Vətən müharibəsinin hərbi jurnalistikanın inkişafında rolu.** 1941-ci ildə müharibənin başlanması SSRİ-də hərbi jurnalistikanın inkişafında mühüm rol oynadı. Faşist Almaniyasının SSRİ-yə hücumu, döyüş əməliyyatlarının Qafqaz dağlarında aparılması mövcud hakimiyyəti hərbi maarifləndirmə, təbliğat və təşviqat sahəsində ciddi və genişmiqyaslı addımlar atmağa sövq etdi. Məcburiyyət qarşısında milli hərbi mətbuatın fəaliyyətinin genişləndirilməsinə imkan verilməsi sözügedən sahənin inkişafına təsirsiz ötüşmədi.

Böyük Vətən müharibəsinin başlanması ilə mətbuatın tipologiyasında da dəyişikliklər baş vermişdi. Dövlət informasiyasına daha etibarlı nəzarət etmək məqsədilə müharibə başlayandan cəmi iki gün sonra "Sovinformbüro" (Sovet İnformasiya Bürosu) yaradılmışdı. Dövlətin rəsmi informasiyası da ilk növbədə "Sovinformbüro"dan yayılırdı. Sovet qəzet tipində hərbi mətbuatın çəkisi artmışdı. Hətta cəbhə bölgələrində milli dildə hərbi mövzunu işıqlandıran qəzetlər yaradılmışdı. Hərbi qəzet şəbəkəsinin artırılması mülki qəzet tiplərinin sayını azaltmağa gətirib çıxarmışdı. Milli respublikalarda gənclər mətbuatı ləğv edilmişdi. Gənclərin problemlərinin işıqlandırılması partiya qəzetlərinə həvalə olunmuşdu. Sovet İttifaqında radionu və mətbuatı rəsmi məlumatlarla "Sovinformbüro" təchiz edirdi. Müharibə illərində "Sovinformbüro"nun bütövlükdə 2 mindən artıq məlumatı efirə getmişdir. 2300 "son xəbərlər" buraxılışının, 7 mindən artıq korrespondensiyanın, 8 mindən artıq "Cəbhədən məktub"un və "Cəbhəyə məktub"un, demək olar ki, hamısında "Sovinformbüro"nun materiallarından istifadə edilmişdi [2, s.102].

Əslində həmin dövrdə faktiki hakimiyyəti həyata keçirən kommunist partiyası hər bir sovet vətəndaşının vəzifəsini kütlələrə izah etməyə, cəbhədə şücaət və igidlik, arxada isə əmək qəhrəmanlığı göstərməyə çağırdı və "Hər şey cəbhə üçün! Hər şey qələbəmiz üçün!" şüarını irəli sürdü. Belə ki, partiya mərkəzi komitəsi və sovet hökuməti qızıl ordu qarşısında müqəddəs vəzifə qoymuşdu: vətənin hər qarış torpağını qorumaq, şəhər və kəndlərimiz uğrunda son damla qanımızadək vuruşmaq, döyüş meyda-

nında alman faşist ordularını taqətdən salıb zəiflətmək, onları darmadağın edib sovet torpağından qovmaq, faşist boyunduruğundan xilas olmaqda Avropa xalqlarına kömək etmək [1, s.6].

Azərbaycanın oğulları sovet ittifaqında yaşayan bütün xalqların nümayəndələri ilə çiyin-çiyinə indiki Ukrayna və Belarus torpaqlarında, Kuban və Don düzənliklərində, Moskva və Leninqrad yaxınlığında Stalinqrad ətrafında, Sevastopol və Odessa sahillərində mərdliklə vuruşurdular. 1942-ci ilin yay və payız aylarında Qafqazda vəziyyət olduqca ağırlaşmışdı. Alman faşistləri Kuban torpağını və Şimali Qafqazın xeyli hissəsini işğal edib, onun mühüm siyasi və iqtisadi əhəmiyyətə malik olan həyat mərkəzlərini ələ keçirməyə can atırdılar. Bu zaman Tbilisidə (1942-ci ilin avqust ayında) Zaqafqaziya xalqlarının antifaşist mitinqi çağırılmışdı. Həmin mitinqdə Azərbaycanın xalq şairi Səməd Vurğun da çıxış edərək demişdir: "Qədim Azərbaycan məsəllərindən birində deyilir ki, "İgidi bərk ayaqda sınarlar". Biz ağır imtahan qarşısında olsaq da, ondan yüksək qətiyyətlə çıxacağıq" [1, s.26].

Kommunist partiyası və sovet dövləti ölkəni vahid döyüş düşərgəsinə çevirmək məqsədilə həm cəbhədə, həm də arxada böyük təşkilatçılıq və siyasi iş apardılar. Başqa tədbirlərlə yanaşı, döyüş vəzifələrini müvəffəqiyyətlə yerinə yetirmək üçün cəbhə və ordu qəzetlərinə olduqca böyük əhəmiyyət verilirdi. Bu qəzetlərin hər nömrəsi 4 səhifəlik və yarım standart formatda buraxılırdı. Onların tirajı cəbhədə vəziyyətdən asılı olaraq müəyyən edilirdi. Orta hesabla hər 5 nəfər əsgərə 1 nüsxə qəzet düşürdü. Bu qəzetlər döyüşçülərin beynəlmiləl ruhda sovet vətənpərvərliyi və xalqlar dostluğu ruhunda tərbiyə olunmasında, onların döyüş bacarığının yüksəldilməsində böyük iş aparırdılar.

Böyük Vətən müharibəsi illərində Ukrayna, Belarus, Azərbaycan, gürcü, qazax, özbək, tacik, tatar, moldav və s. dillərdə cəbhə qəzetləri çıxırdı. Orduda cəbhə qəzetlərində başqa, hərbi dairə qəzetləri də nəşr edilirdi. Dairə qəzetləri hərbi hissələrdə və birləşmələrdə partiya-siyasi işlərin mühüm mərkəzi idi. Dairə qəzetlərinin məqsədi vətən qarşısında hərbi borcunu şərəflə

yerinə yetirən qorxmaz mübariz və bacarıqlı döyüşçülər hazırlamaq işinə kömək etməkdən ibarət idi.

Qeyd edildiyi kimi, Vətən müharibəsi illərində SSRİ xalqlarının dillərində, o cümlədən Azərbaycan dilində hərbi dairənin "Həyəcan" qəzeti çap edilirdi. Qəzetdə sistematik olaraq hərbi andda və nizamnamədə təsadüf edilən bu və ya digər komandanın və ayrı-ayrı sözlərin mənasını izah edən lüğət guşəsi verilirdi. Beləliklə, əsgərlərimiz bu və ya digər komandanın mənasını, nizamnamə tələblərini yaxşı başa düşmək üçün müəyyən söz ehtiyatına malik olurdular. "Həyəcan" qəzeti oxucuları arxa cəbhədəki əmək nailiyyətləri ilə tanış etmək üçün məqalələr dərc edirdi. Qəzetdə dərc edilən "Azərbaycan Böyük Vətən müharibəsi günlərində", "Azərbaycanlı döyüşçülər öz həmyerlilərinə layiq olmalıdırlar" adlı məqalələr diqqəti cəlb edirdi [9, s. 286].

Cəbhə və ordu qəzetlərindən başqa, Vətən müharibəsi təcrübələrini dərindən öyrənmək məqsədilə qoşun növləri üzrə məcmuələr də nəşr edilirdi. SSRİ Müdafiə Nazirliyinin Baş Siyasi İdarəsi tərəfindən rus dilində və SSRİ xalqlarının dillərində "Qızıl Ordu agitatorunun bloknotu" jurnalı buraxılırdı. Azərbaycan, gürcü, özbək və tatar dillərində 65 min tirajla nəşr olunurdu" [9, s.199]. Azərbaycan dilində nəşr edilən "Qızıl Ordu agitatorunun bloknotu" jurnalı (məsul redaktoru N.Burıçev, redaktor və mütərcimi X.Vəzirov idi) ayda bir dəfə, bir çap vərəqəsi həcmində buraxılırdı. Jurnalda sistematik olaraq döyüş əməliyyatı barədə materiallar verilirdi [1, s. 109].

**Azərbaycan dilində nəşr olunan cəbhə qəzetlərinin 1941–1945-ci illər ərzində fəaliyyət istiqamətləri.** II Dünya müharibəsi illərində cəbhə bölgələrində vuruşan azərbaycanlı əsgərlərin döyüş ruhunu qaldırmaq və arxa cəbhə ilə əlaqələri saxlamaq naminə Azərbaycan dilində bir çox cəbhə qəzetləri buraxılmışdı. Azərbaycan dilində "Fəhlə-Kəndli Qızıl Ordusu döyüşçüsü", "Qızıl Ordu", "Sovet döyüşçüsü", "Həyəcan", "Suvorovçu", "Vətən eşqi", "Hücum", "Vətən qəhrəmanı", "Vətən yolunda", "İrəli" adlı cəbhə, ordu və diviziya qəzetləri

nəşr edilirdi [1, s.6]. Repressiyadan sonrakı vaxta təsadüf etsə də, həmin dövrün mühitini və cəbhədəki vəziyyəti nəzərə alsaq, sözügedən mətbu orqanların Azərbaycandan olan hərbçilərin və onların ailələrinin həyatına hansı dərəcədə təsiri və rolu olduğunu təsəvvür etmək mümkün olar. Çünki bu qəzetlər döyüşçüləri vətənpərvərlik ruhu aşılamaqla, onlari məğlubiyyət, bədbinlik hisslərindən xilas edirdi.

1941-ci ilin dəhşətli iyun günlərində "Qızıl Əsgər" qəzeti öz döyüş postunu tutmuşdu. Qəzet gündəlik materiallarında hissənin əsgərlərini və zabitlərini döyüşlərə hazırlayır, düşmənin hiyləsi və taktikası, texnikası, qızıl ordunun döyüş əməliyyatları təcrübəsi ilə tanış edir, dinc sovet əhalisinə hitlerçilərin vəhşicəsinə divan tutduqları faktlarını geniş işıqlandırırdı [1, s.116].

Zaqafqaziya cəbhəsində günaşırı nəşr edilən "FKQO döyüşçüsü" qəzetinin redaktoru Cəfər Xəndan Hacıyev idi. Qəzet ardıcıl olaraq döyüşçüləri yeni igidlik göstərməyə çağırırdı. Qəzetin işçiləri çəldlik, təşəbbüskarlıq göstərərək, maşınlarla, təyyarələrlə, hərbi qatarlarla cəbhəyə gedib döyüş vərəqələri buraxırdılar. Müxbirlər Novorossiysk, Mozdok ətrafında gedən döyüşlərdən redaksiyaya telefonla, hərbi sahə poçtu vasitəsi ilə məlumatlar çatdırırdılar [2, s. 102]. Krım döyüşləri müəyyən dairələrdə milli diviziyaların təşkilinin sürətləndirilməsi qənaətini daha da gücləndirdi. Artıq 1941-ci ilin sonunda Krım ətrafında olan diviziyalardakı azərbaycanlılarla işin az-çox yaxşı qurulması üçün Krasnodara Azərbaycandan 50 nəfər partiya və siyasi işçilər seçilib göndərildi ki, diviziyalara siyasi vəzifələrə təyin edilsinlər. Bundan başqa, cəbhə xəttinə qəzet buraxılması üçün Azərbaycandan mətbəə, lazımi həcmdə şrift və mətbəənin işinin canlandırılması üçün 23 nəfər mütəxəssis və jurnalist göndərildi" [6, s. 587].

1942-ci ilin yayında düşmən Qafqaz üzərinə çoxlu qoşun tank və təyyarə göndərmişdi. Əhalinin başına faşistlər təyyarədə minlərlə bomba, top gülləsi və mina yağdırırdı. Qafqaz uğrunda mübarizədə qafqazlılar özləri də vuruşaraq düşmənin canlı qüvvəsinə və texnikasına böyük tələfatlar verdirirdilər. Cəbhə qəzetləri döyüşçülərin qoçaqlığını və vətəni müdafiə etmək

yolunda şücaət göstərməyə hazır olduğunu göstərən döyüş epizodlarını təsvir etməklə kifayətlənmirdi. Məsələn, "FKQO döyüşçüsü" qəzetinin hər bir məqaləsi və yazısı qızıl ordunun üzərinə düşən müqəddəs vəzifədən sadə və aydın dil ilə bəhs edirdi. Döyüşçülər və komandirlər bu qəzetdə fəal iştirak edirdilər. Onlar öz məktublarında döyüş əməliyyatının gedişi barədə, döyüşçülərimizin rəşadəti haqqında ətraflı məlumatlar verirdilər [1, s.27].

Müharibə dövründə azərbaycanlı əsgərlərin ən sevimli qəzetlərindən hesab edilən "Vətən eşqi" qəzeti döyüş əməliyyatlarının gedişini gündəlik olaraq işqlandırırdı. Qəzeti oxuyanlar onun arxa cəbhə ilə yaxından əlaqə saxladığının şahidi olurdular. Qəzetdə "Vətəndən məktublar, "Sovet İttifaqı" və "Sovet Azərbaycanı" guşələri əsas yer tuturdu. Elə bir mühüm hadisə olmazdı ki, qəzet döyüşçülərin nəzər-diqqətini bu hadisəyə cəlb etməsin. Qəzet döyüşçüləri düşməni darmadağın etməyə, vətən torpağını düşməndən təmizləməyə və bütün mütərəqqi bəşəriyyəti "faşizm taunu"ndan xilas etməyə çağırırdı. Qəzetin "Vətən eşqi" adını daşıması heç də təsadüfi deyildi. Onun səhifələri həqiqətən vətənə hədsiz məhəbbət hissi ilə yazılmış materialla dolu idi. Qəzet döyüşçülərin içərisində olan gənc yazıçı və şairləri öz ətrafına toplamışdı. Gənc şair Əlizadənin Azərbaycan oğluna şeiri doğrudan da vətən eşqi ilə səslənirdi: "Mən səni tanıram əzəldən bəri, Sıldırım dağların qartalı kimi, Adınla açılan vətən səhəri, Döyüşə çağırır cavan qəlbimi..." [7].

"Vətən eşqi" bir çoxlarının fədakarlıq və qəhrəmanlıq nümunələri əsasında öz oxucularını tərbiyə edirdi. Bunlardan bir neçəsini göstərmək olar. Nişançı yefreytor M.Məmmədov iki döyüşdə düşmənin 6 tankını və "Ferdinant" markalı motorlu topunu məhv etmişdir. Pulemyotçu Həsən Yusubov özbək Mahmudxanla birlikdə gün yarım müddətində öz bölmələrini sağ cinahdan müdafiə etmiş və 4 dəfə düşmən hücumunun qarşısını almışdır. Döyüşçü Qərib Orucov bir döyüşdə 10 hitlerçini məhv etmişdi; nişançı Mehdiyev düşmənin 3 tankını sıradan çıxarmışdı [1, s.116-117]. "Vətən eşqi" qəzeti Ukrayna torpaqlarında gedən

vuruşmalar zamanı böyük işlər görürdü. Qəzet döyüş əməliyyatlarının gedişinə dair xəbərləri olduqca operativ surətdə verə bilirdi [2, s.103]. Bu operativlik isə hərbi mətbuatın təmsilçilərinin yorulmadan çalışması və əzmkarlıq nümayiş etdirməsi sayəsində mümkün olurdu.

"Vətən uğrunda, irəli" qızıl əsgər qəzeti döyüşçülərin mərdlik və qəhrəmanlıqlarını işıqlandırmaqla bərabər arxadan döyüşçülərin adına göndərilən çoxlu məktublara yer verirdi. Qəzetin səhifələrində Azərbaycandan döyüşçülərə göndərilən məktublar dərc edilirdi [1, s.32].

Cəbhə qəzetlərinin ən yaxşı və diqqətəlayiq təşəbbüslərindən biri də kollektiv məktublarla yanaşı, arxadan ata və analardan öz oğullarına və qızlarına gələn fərdi məktubların çap edilməsi idi. Bu cəhətdən "Sovet döyüşçüsü" qəzetinin işi daha maraqlı idi. Bu qəzet 1943-cü il dekabr nömrələrindən birində Mərdəkan kəndində yaşayan ağbirçək Ziba xala Xəlilova öz qızı tibb bacısı Səlimə Xəlilovaya yazdığı təsirli məktubu dərc etmişdir. Ziba xala bu məktubda öz qızına yazır: "Əziz qızım Səlimə, sənin Qırmızı Ulduz ordeni ilə təltif edilməyin xəbərini eşitdikdə, ürəyim dağa döndü. Gözlərimə işıq gəldi. Saf ol, qoca ananın ağ saçlarını ləkələmədin. Onun başını ucaltdın [5].

"Vətən yolunda" 223-cü diviziyanın siyasi şöbəsinin orqanı idi. Bu qəzet Qafqaz və Kuban uğrunda gedən vuruşmalarda ən təhlükəli, həlledici yerlərdə əsgərlərin, serjantların və zabitlərin ən yaxın köməkçisi və sirdaşı olmuşdur. Komandanlığın həyata keçirdiyi bütün operativ tədbirlərdə bu qəzet fəal iştirak etmiş və təşəbbüs göstərmişdir. Qəzetin səhifələrində döyüşün ən mürəkkəb məsələləri – gecə vuruşmaları yaşayış məntəqələrində keçilməz bataqlıq və meşəliklərdə necə vuruşmaq qaydaları və təcrübələri geniş surətdə işıqlandırılırdı. Qəzetin işçiləri və mürəttibləri düşmənin mərmiləri və gülləleri altında öz fəaliyyətini bir dəqiqə də olsun dayandırmır, öz vəzifələrini layiqincə yerinə yetirirdilər [1, s. 37]. Cəbhə qəzetlərinin işçiləri mətbəə avadanlığının kifayət qədər olmadığına baxmayaraq, döyüş şəraiti ilə ayaqlaşmalı idilər. Əlbəttə, bu hal qəzet işçilərindən

daha gərgin işləmək, təşkilatçılıq və bacarıq tələb edirdi.

Belə bir fakt da diqqəti cəlb edir. Hərbi hissə Dalinovkanın yanında düşmən tərəfindən dağıdılmış bir körpünü cəld qurmaq və çaydan hərbi ləvazimatı keçirmək üçün çalışırdı. Burada bütün əsgər və zabitlər səy göstərirdilər. Bu zaman mətbəə və redaksiya işçiləri havanın şaxtalı və soyuq olmasına baxmayaraq, soyunub suya girdilər və belə bir dərin çaydan maşına yerləşdirilmiş mətbəəni müvəffəqiyyətlə çayın o biri tərəfinə keçirdilər, qəzet materiallarının yığılması, oxunması və çap olunması işini davam etdirməyə başladılar [1, s. 39].

**Əsgərlərin döyüş ruhunun artırılması üçün cəbhə qəzetlərində istifadə olunan üsullar.** Cəbhədə vuruşan əsgərlərin döyüş ruhunun qaldırılması üçün cəbhə qəzetlərində ictimaiyyət nümayəndələrinin, digər xalqların təmsilçilərinin, döyüşçü yaxınlarının məktub və çağırışlarından da istifadə olunurdu. Məsələn, rus xalqının döyüşçülərinin Azərbaycan xalqına yazdığı və 1943-cü ilin əvvəllərində "Vətən yolunda" qəzetində dərc olunmuş məktubu diqqəti cəlb edir. Bu məktubda müharibə günlərində Azərbaycanlı döyüşçülərin qəhrəmanlığından bəhs olunur: "Biz qocaman Qafqaz dağlarının zirvələrindən yaralı alman-faşist canavarlarının mağarasına qədər keçdiyimiz döyüş yoluna vüqar və sevinc hissi ilə baxırıq. Biz müharibənin çalpaşıq yollarından dönməz bir əzmlə qəlbimizdə ana vətənə oğul məhəbbəti, alman-faşist işğalçılarına qarşı sinəmizdə alovlu nifrət gəzdirərək irəliləyirik. Ruhumuz qırılmaz və qələbəyə olan iradəmiz möhkəmdir. Vuruşmalarda mübariz birlik və mütəşəkkillik, durmadan artan əsgəri məharət və qəhrəmanlara məxsus qoçaqlıq nümunələri göstəririk. Biz qələbəyə zəfər yolları ilə irəliləyib Berlinə gedəcəyik və qəti qələbə bayrağını onun üzərinə sancacağıq [8].

Cəbhə bölgəsində "Vətən yolunda" qəzetinin əməkdaşları da vardı. Onlar ön xətdən məqalə və oçerklər yazaraq redaksiyaya çatdırırdılar. Bu məqalələrdə faşistlərin etdikləri saysız-hesabsız cinayətləri göstərirdilər. Bununla da düşmənə qarşı kin oyadırdılar. İşersk yaşayış məntəqəsi sovet əsgərləri tərəfindən alındıq-

dan sonra düşmən təyyarələri buranı arası kəsilmədən bombardman etməyə başlamışdı. Lakin belə bir ağır şəraitdə qəzetin işçiləri bir dəqiqə də olsun öz işini dayandırmırdılar. Mətbəə işçiləri axşamlar balaca bir şam işığında qəzetin materiallarını yığır, onun vaxtında çap olunmasını və hissələrə göndərilməsini təmin edirdilər. [1, s. 39].

"Vətən Qəhrəmanı" qəzeti də hərbi birləşmələrdən birinin orqanı idi. Qəzetin Azərbaycan dilində ilk nömrəsi 1942-ci ilin mart ayının 10-da çıxmışdır. Qəzetin qarşısında məsul və şərəfli vəzifə qoyulmuşdu: əsgərlərin mübariz təşkilatçısı və təbliğatçısı olmalı. Bu mübariz vəzifənin yüksəkliyində durmaq üçün qəzet birinci nömrədən başlayaraq, sovet əsgərlərini vətənə məhəbbət və düşmənə kin ruhunda, intizam və qayda-qanuna, komandir və rəislərin əmrlərinə dönmədən əməl etmək, döyüşlərdə igidlik və qəhrəmanlıq göstərmək ruhunda tərbiyə etməyə başladı.

Cəbhə qəzetlərində Azərbaycan döyüşçülərinin göstərdikləri igidlikləri təsvir edən məqalələri saymaqla qurtarmaz. Bu qəzetləri oxuyarkən həmin qəzet işçilərinin şəxsində sovet mətbuatı ordusunun həmişə, istənilən şəraitdə səmərəli çalışmağa qadir olduğunu, qəzetdə müxtəlif yazı janrlarından məharətlə istifadə etdiyini, kütlələri, o cümlədən döyüşçüləri təşkil, tərbiyə və səfərbər etmək işində böyük rol oynadıqlarını görmək heç də çətin deyildir [1, s. 37].

Beşillik planda Azərbaycan SSR iqtisadiyyatının qarşısında duran vəzifələr sırasında neft və qaz istehsalını artırmaq ilk yeri tuturdu. Azərbaycanda neft hasilatını 28,2 faiz artırmaq, 27,4 milyon ton neft, yaxud ölkədə çıxarılacaq neftin 50 faizindən artıq neft istehsal etmək planlaşdırıldı. Bu 1938-ci ildəkindən 6 milyon ton artıq neft demək idi. Burada SSRİ-nin neft ehtiyatının 28 faizinə Azərbaycanın maddi ehtiyatlarından israfçılıqla istifadəyə yol açılması daha aydın görünür. Digər tərəfdən, “İkinci Bakı” nın yaradılması barədə qurultayın qətnaməsindəki qeydlər qarşıdakı beşillikdə Azərbaycan SSR Neft Sənayesinə Mərkəzin diqqətinin azalacağından xəbər verirdi.

Respublikanın neft sənayesinin ixtisaslı kadrlarla təminatı, texniki təchizatda, əmək intizamı və təsərrüfat-texniki rəhbərlikdə problemlər qalırdı. 1937-1938-ci illərdə neft sənayesi işçilərinin əsassız repressiyası iqtisadiyyatın bu sahəsinə xeyli ziyan vurdu. SSRİ XKŞ və ÜİK(b)P MK-nın 1938-ci il yanvarın 28-də “Azərbaycan SSR-də neft çıxarılması və neft emalını artırmaq üçün əsaslı tədbirlər haqqında” xüsusi qərarı da əhəmiyyətli dəyişikliklər yaratmadı.

1940-cı ildə Azərbaycan SSR-də 3.429 kolxoz və 50 sovxoz

vardı. 1940-cı ilin əvvəlində respublikada 2000-dək ixtisaslı kənd təsərrüfatı mütəxəssisi-aqronom, zootexnik, baytar həkimləri, mexanizatorlar çalışırdı. Kənd təsərrüfatında irəliləyişlərə nail olunmasında ixtisaslı kadrlara ehtiyac duyulurdu.

Kənd təsərrüfatında mühüm dayaq məntəqəsi olan MTS-lərin sayı artaraq 67-yə, traktorların sayı 6,1 minə çatdı. Bununla belə müharibə ərəfəsində kənd təsərrüfatı texnikası ləng artır, müdafiə məqsədləri üçün metala tələbat artdığından texnikanın tətbiqi ləngiyirdi.

Respublikada çayçılıq və digər sitrus bitkiləri təsərrüfatları yenə də Lənkəran-Astara və Zaqatala-Balakən zonasında qalırdı. Bu sahələrin inkişafı üçün Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK 1938-ci ilin avqustunda qərarlar qəbul etdi, nəticədə Azərbaycan neft və pambıqdan sonra sitrus bitkiləri bazasına çevrilməyə başladı. Lakin kənd təsərrüfatı məhsulları istehsalında geridə qalma halları davam edir, maddi maraq prinsipləri pozulurdu. Kolxoz torpaqlarının həyətyanı sahələr kimi satılması və icarəyə verilməsi halları kolxoz üzvlərinin ictimai təsərrüfatdan yayınmasına səbəb olurdu. Kənd təsərrüfatında ictimai torpaqların dağıdılması hallarına son qoyulmasında ÜİK(b)P MK və SSRİ XKS-nın 1939-cu ilin mayında qəbul etdiyi "Kolxoz ictimai torpaqlarının dağıntılardan müdafiə olunması haqqında" qərarı mühüm rol oynadı. Qərara uyğun olaraq partiya və sovet işçiləri yerlərə göndərildi, 92 min hektardan artıq torpaq sahəsi kolxozçulardan alınaraq kolxozlara qaytarıldı. Əmək intizamının möhkəmləndirilməsinə diqqət artırıldı. 1940-cı ilin may ayınadək işə çıxmayan 40 mindən artıq kolxozçu işə qaytarıldı. Beləliklə, inzibati rəhbərlik yolu ilə kənd təsərrüfatı planları çətinliklə yerinə yetirildi.

Müharibə ərəfəsində maldarlıq üzrə bir sıra tədbirlər həyata keçirildi. Xırdabuynuzluların sayı artsa da, iribuynuzluların sayı azaldı. Bunun əsas səbəbləri sırasında maldarların əməyinin aşağı olması, maddi maraq yaradılmaması, heyvandarlıq üçün münasib həyətlərin, otlaq sahələrinin olmaması və yemin

çatışmaması, ictimai maldarlıqda məhsuldarlığın aşağı olması dayanırdı.

Müharibəyə qədər ki, dövr milli siyasətdə cinayət tərkibli hadisələrlə müşayiət olundu. Müharibə tarixinə dair ədəbiyyatda göstərilir ki, 1940-cı ildə sovetlər birliyində yaşayan xalqlar arasında faktiki olaraq mədəni gerilik aradan qaldırılmışdı. Bu hal milli respublikalarda və vilayətlərdə rus dilinin məcburi öyrənilməsi, latın əlifbasından kiril əlifbasına keçidlə əlaqələndirilirdi. Araşdırmalar göstərir ki, bu faktlar reallıqdan uzaqdır. Azərbaycanda müharibəyə qədər 3 dəfə əlifba dəyişilməsi nəticəsində üç nəsil xalqın tarixindən ayrı düşmüşdü. Xalqımız ərəb qrafikasını bilmədiyi üçün 20-ci illərədək yazılanları, 20-80-ci illərin nəsilləri latın qrafikası, yeni nəsil isə ərəb və kiril qrafikası ilə yazılanları oxuya bilmir. Müharibə ərəfəsində mədəni quruculuq sahəsində əldə olunanlara gəldikdə isə 30-cu illərdə təhsil sahəsində həyata keçirilən tədbirlər müharibə ərəfəsində öz nəticəsini verməkdə idi. İkinci beşillikdə - 1932/33-cü dərs ilində 439.408 nəfər uşağı əhatə edən 2.907 ümumtəhsil məktəbi fəaliyyət göstərirdisə, 1937/38-ci tədris ilində 587.158 uşağı əhatə edən 3.320 məktəb var idi. Məktəblərdə 16.392 nəfər müəllim çalışırdı.

Hakimiyyət Mərkəzin əlində cəmləşməyə başladı, rus xalqının SSRİ xalqlarının taleyində “roluna“ üstünlük verildi, ölkənin digər millət və xalqları partiya vasitəsilə ona tabe edildi. Mərkəzin şovinist siyasəti Azərbaycanda “müvəffəqiyyətlə həyata keçirilməyə başlandı”. Respublikada burjua millətçiləri, pantürkçülər, “terror akt”ları hazırlayan təşkilatlar, ziyankarlar, təmayülçülər, o cümlədən Xəzər gəmiçiliyində, “Azneftkombinat”da, Bakı şəhər komsomol təşkilatında əksinqilabçı və təxribatçı-casus özəkləri, Şamaxı, İsmayıllı, Əli Bayramlı (indiki Şirvan şəhəri), Cəbrayıl, Astraxanbazar (indiki Cəlilabad rayonu) və başqa rayonlarda “üsyançı dəstələr” “aşkar edildi”.

Müharibə ərəfəsində əhalinin maddi-mədəni vəziyyətində az da olsa dəyişikliklər baş verməkdə idi. Respublikada əməkçilərin sağlamlığının qorunması, bədən tərbiyəsi və

idmanın inkişafı üçün tədbirlər həyata keçirilirdi [14, s,236].

Mədəni quruculuq sahəsində əldə olunanlara gəldikdə isə, müharibə ərəfəsində savadsızlığın və azsavadlılığın ləğv edilməsi sahəsində uğurlar qazanılmış, 1940-cı ildə respublikada əhalisi arasında savadsızlığın ləğv edilməsi əsasən başa çatdırılmışdı. 1939-cu il siyahıyaalma yekununa görə respublikada 7-49 yaşlı əhalinin 82,2 faizi savadlı idi [16, s,43].

Müharibəyə qədərki dövrdə “Kommunist”, “Bakinskiy raboçiy” qəzetləri ilə yanaşı “Yeni yol”, “Gənc işçi”, “Şərq qapısı”, “Azərbaycan pioneri” və b. qəzetlər nəşr olunmağa başlamışdı. “Azərbaycan müəllimi”, “Maarif və mədəniyyət”, “Təbliğatçı”, “Pioner”, “Azərbaycan qadını”, “Molla Nəsrəddin”, rus dilində nəşr olunan “Нефтяная хозяйства”, “Народное хозяйство”, “Экономическая жизнь” jurnalları kütləvilik qazanmışdı. Respublikada kitab çapı sürətlənir, kitabxanaların sayı artır, kitab fondu zənginləşirdi. 1940-cı ildə respublikada olan 1.383 kitabxanada 2,6 milyon nüsxə kitab vardı. Müharibə ərəfəsində respublikada 1633 klub, 22 muzey, 31 teatr [17, s,14-15], 426 kinoqurğusu fəaliyyət göstərirdi [20, s,23]. “Almas” (1935), Bakılılar” (1938), “Kəndlilər” (1939), “Yeni üfüq” (1940) filmləri əhali tərəfindən rəğbətlə qarşılanmışdı.

Müharibəyə qədərki dövrdə Azərbaycan musiqisində qazanılan uğurlarda Ü.Hacıbəyovun xidmətləri misilsiz idi. Rəssamlardan Ə.Əzimzadə, Q.Xalıqov, Ş.Şərifzadə, heykəltəraşlar P.Sabsay, F.Abdurahmanov, C.Qaryağdı yeni əsərlər yaradırdılar.

1940-cı ildə respublikada 60 elmi müəssisə vardı. SSRİ EA Azərbaycan Filialında 21 elmlər doktoru və professor, 161 elmlər namizədi çalışırdı.

Bununla belə müharibə ərəfəsində əldə olunmuş uğurlarda, xüsusilə yaradıcılıq sahəsində “sosializm realizmi”, elmdə “dialektik materializm” ideologiyası hakim idi. Yaradılan əsərlərin baş qəhrəmanı İ.Stalin idi, əldə olunan uğurlar onun adı ilə bağlanırdı.

30-cu illərdə milli kadrlara qarşı davam etdirilən siyasi terror

və repressiyalar, Azərbaycan SSR XDİK yanında xüsusi üçlüyün ziyalılari uydurma ittihamlarla ən ağır cəya məhkum etmələri xalq arasında ciddi narazılıqla qarşılanırdı. 1937-ci ildə siyasi cinayət üzrə 2.846 nəfəri azadlıqdan məhrum edilmiş, 2215 nəfər güllələnmişdi. Yalnız “antisovet təbliğatı və təşviqatına görə” 1108 nəfərə güllələnmə cəzası verilmişdir. 1937-ci ildə “əksinqilabçı millətçi-burjua” təşkilatının üzvü kimi Azərbaycan SSR-də 22 xalq komissarı, 49 rayon partiya komitəsi katibi, 29 rayon icraiyyə komitəsi sədri, 207 sovet və həmkarlar təşkilatının işçiləri, 57 zavod və mədən direktoru repressiyaya məruz qalmışdı. Repressiyaya məruz qalan 400-ə yaxın məsul vəzifəli şəxs arasında MK katibləri, müxtəlif vaxtlarda Azərbaycan SSR-də və ZSFSR-də yüksək partiya və hökumət vəzifələri tutmuş şəxslər var idi[4]. Ümumuilikdə 1937-1938-ci illərdə əhalisi üç milyona qədər olan Azərbaycanda 20 mindən çox adam güllələnmiş, hər 12-13 nəfərdən biri repressiyanın qurbanı olmuş, 200 mindən çox adam sürgün edilmişdir [6, s,107]

1938-1939-cu illərdə orduda aparılan “təmizlik” Azərbaycandan da yan keçmədi. Diviziya komandiri Q.Vəzirov hərbi qiyama cəhddə təqsirləndirilərək güllələndi [13;15, s.177]. Azərbaycan diviziyasının briqada komandiri Cəmşid Naxçıvanski, Həsən Rəhmanov, briqada komissarı Cabbar Əliyev repressiya qurbanı oldular [18, s,199]. 1937-ci il ərzində Azərbaycanda 110 hərbi qulluqçu həbsə məruz qaldı [19].

1937-ci ildə “əksinqilabçı millətçi-burjua” təşkilatının üzvü kimi Azərbaycan SSR-də 22 xalq komissarı, 49 rayon partiya komitəsi katibi, 29 rayon icraiyyə komitəsi sədri, 207 sovet və həmkarlar təşkilatının işçiləri, 57 zavod və mədən direktoru repressiyaya məruz qaldı. Repressiyaya məruz qalan 400-ə yaxın məsul vəzifəli şəxs arasında MK katibləri, müxtəlif vaxtlarda Azərbaycan SSR-də və ZSFSR-də yüksək partiya və hökumət vəzifələri tutmuş şəxslər var idi.

Əhalinin hər min nəfərinə düşən repressiyaya məruz qalanların sayına görə Azərbaycan birinci yeri tuturdu. 1937-

1938-ci illərdə əhalisi üç milyondan bir az çox olan Azərbaycanda 20 mindən çox adam güllələnmiş, 200 mindən çox adam sürgün edilmişdir, başqa sözlə hər 12-13 nəfərdən biri repressiyanın qurbanı olmuşdur. Repressiya nəticəsində xalqımız zehni sərvətindən və intellektual potensialından məhrum edildi.

Repressiyaya məruz qalanlar içərisində elm və mədəniyyət xadimləri də var idi. Azərbaycan elmi öz faciəli dövrünü yaşamışdı. 1937-1938-ci illərin repressiyaları Azərbaycan elminə və mədəniyyətinə böyük zərbələr vurdu. Repressiya illərində 50 mindən artıq adam güllələnmiş, 100 mindən çox insan Sibir və Qazaxıstana sürgün edilmişdi. Hüseyn Cavid, Mikayıl Müşfiq, Tağı Şahbazi, Salman Mumtaz kimi böyük şəxsiyyətlər məhv edilmişdi.

1937-ci ildə 12493 nömrəli iş ("alimlərin işi") üzrə B.V.Çobanzadə, X.S.Xocayev, A.M.Tağızadə, A.R.Zifeldt, İ.M.Həsənov, Q.K.Bağırov, H.B.Zeynallı, M.Ə.Ələkbərli, Əli Nazim, Salman Mumtaz, T.A.Şahbazi, V.M.Xuluflu, Q.S.Qubaydullin, C.M.Məmmədzadə və b. repressiya olundular.

Alimlərin çoxu xarici dövlətlərin (İran, Türkiyə, İngiltərə və b.) xeyrinə casusluq etməkdə günahlandırıldı. 1937-ci ildə "üsyançı, terrorist, ziyankar-təxribatçı və millətçi təşkilatın fəal üzvlərindən" olduğuna görə V.Xuluflu həbs olundu. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar Sessiyası V.Xuluflunu bütün şəxsi əmlakı müsadirə olunmaqla, ən ağır cəzaya – güllələnməyə məhkum etdi.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının Səyyar Sessiyasının bağlı məhkəmə iclası (iclas saat 11.20-də başlanmış, 11.40-da qurtarmışdır) keçirildi. Əmlakı müsadirə edilməklə B.V.Çobanzadə ən ağır cəzaya-güllələnməyə məhkum olundu. Hökm 1937-ci il oktyabrın 13-də dərhal yerinə yetirildi.

Kütləvi repressiya dalğasının yeni qurbanları sırasına Q.Qaraqaşlı, etnoqraf və dilçi Cavad Bağırov (Bağırzadə), Naxçıvan Muxtar Respublikanın ictimai, dövlət və maarif xadimi, diyarşünas Vahab Həsənzadə (1890-1960), tarixçi,

türkoloq, ədəbiyyatşünas, şair Əli Mirzəağa oğlu Hüseynzadə (1906-1982), ADU-nun 1926-1937-ci illərə qədər rektorları olmuş Tağı Şahbazi (1926-1929), Maqsud Məmmədov (1929-1930), Məmmədkazım Ələkbərli (1934-1935), Balabəy Həsənbəyov (1935-1937), ADU-nun Tarix fakültəsinin dekan müavinləri dosent Baba Əsgərov və dosent Hüseynəli Biləndərli, "SSRİ xalqları tarixi kafedrası"nın müdiri, professor Ə.Qubaydullin və digərləri də günahsız yerə həbs edilərək güllələndilər.

30-cu illərdə ADU-nun müəllimlərindən Ağamir Məmmədov, Əhməd Kazımov, Heydər Verdiyev, Ədil Abdullayev, Abbas Yusifov, Cavad bəy Rəfibəyov, Mirzə Məmmədov, Əsgər Quliyev, Əbülfəz Quliyev, Əşrəf Quliyev, Əbülfəz Axundov, Məcid Həmzəyev, Nikolayev, Belyayev, Drabkin və b. repressiyaya məruz qaldılar.

Arxiv sənədlərinin təhlili göstərir ki, 1937-1938-ci illər repressiyalarının təşkilinin kökündə qeyri-azərbaycanlılar dayanırdı. İstintaq-əməliyyat aparatının əsasını ermənilər təşkil edirdi. Respublikanın 51 rayonundan 31-də XDİK rayon şöbəsinin rəhbəri erməni idi. Oxşar vəziyyət XDİK aparatının yüksək eşelonunda da vardı.

**Халида Ибрагимова**

## РЕЗЮМЕ

## ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ ЖИЗНЬ В АЗЕРБАЙДЖАНСКОЙ ССР НАКАНУНЕ ВОЙНЫ

В статье описываются события в Азербайджанской ССР накануне войны 1941-1945 годов. Были рассмотрены изменения, происходящие в политической, экономической, социальной и национальной структуре, а также новшества, происходящие в жизни Баку как ее политического, экономического и культурного центра. Установление тоталитарного режима в Азербайджанской

ССР, ущерб, нанесенный административно-командной системой экономической, политической и культурной жизни республики, состоянию промышленности и транспорта, производству сельскохозяйственной продукции, успехам, достигнутым в области культурного строительства, а также изменениям, происходящим в национальной политике. Политический террор и репрессии против национальных кадров, продолжавшиеся в 1930-е годы, были оправданы фактами.

**Ключевые слова:** Азербайджан, война, экономика, Бакинская нефть

**Xalida Ibrahimova**

**SUMMARY**

**SOCIAL-POLITICAL AND SOCIAL-ECONOMIC LIFE IN THE AZERBAIJAN SSR ON THE EVE OF THE WAR**

The article examines the changes in the political, economic, social and national structure of the Azerbaijan SSR on the eve of the 1941-1945 war, the innovations in the life of Baku as its political, economic and cultural center. The introduction of a totalitarian regime in the Azerbaijan SSR, the damage caused by the administrative-command system to the economic, political and cultural life of the republic, the state of industry and transport, the production of agricultural products, the successes achieved in the field of cultural construction, as well as changes in national policy. The political terror and repressions continued against national cadres in the 1930s are substantiated by facts.

**Keywords:** Azerbaijan, war, economy, Baku oil

**ƏDƏBİYYAT**

***Azərbaycan dilində***

1. Azərbaycan Respublikası Dövlət Arxivi, Fond №412, siyahı №1, vərəq –7.

2. Azərbaycan Respublikası Dövlət arxivi, Fond №2511, siyahı №3, iş № 385, vərəq – 1-6.

3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, Fond №1, siyahı №4, iş№4, vərəq – 83.

4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, Fond №1, siyahı. 46, iş №33, vərəq – 112

5. Azərbaycan tarixi: [7 cilddə]. c.6 (aprel 1920 – iyun 1941). Bakı: Elm, 2000. 568 s.

6. Cəfərov, C. Azərbaycan kəndi: kollektivləşmə illərində (1920-ci illərin sonu-30-cu illər). Bakı, 2008.

7. Əlizadə, Nizami Əli oğlu. Azərbaycan dəmiryolu nəqliyyatı Böyük Vətən müharibəsi illərində (1941-1945-ci illər). Tarix elm. nam. alimlik dərəcəsi almaq üçün dis…Bakı, 1997, 134 s.

8. Məmmədov, N.Z. Sovet hakimiyyət orqanlarının 1937-1939-cu illərdə Böyük terror siyasəti (XDİK-nin 00447 №-li əmri ilə) // Bakı Universitetinin Xəbərlər. Humanitar elmlər seriyası, 2016, №1, s.98- 109.

***Rus dilində***

9. Азербайджан в цифрах. Крат. стат. сб. / ЦСУ при Совете Министров АзССР. -Баку: 1974. 126 с.

10.Бакинский рабочий, 1926, 6 июль.

11. Баку за 40 лет в цифрах: статистический сборник. Баку: Азернешр, 1960, 116 с.

12.Безугольный А.Ю. Народы Кавказа и Красная Армия. 1918-1945 годы. М.: Вече, 2007, 512 с.

13.Везиров, Гамбай Мамед оглы (1899) // rus. openlist. wiki;

14.Достижения Советского Азебайджана за 40 лет в цифрах. Стат. сб. Баку: Азербайджанское Государственное Издательство, 1960, 259 с.

15.Зейналов Р. Военное строительство – военно-патриотическая и оборонно-массовая работа в Азербайджанской ССР в период строительства социализма (1920 – июнь 1941 г.). Баку, 1990, с. 177.

16.Итоги Всесоюзную переписи населения 1959 г. Азербайджанской ССР. М.: Госстатиздат, 1963, 151 с.

17.Культурное строительство Азербайджанской ССР. Стат. сб. Баку, 1961

18.Мильбах, Владимир Спартакович, Ларькин В.В.

Командующие войсками Закавказского военного округа в 1937-1938 гг. и их роль в процессе массовых политических репрессий командно-начальствующего состава // Новейшая история России. Москва, 2016, №2, с.189-216.

19.Наджафов, D. Как Азербайджан пережил “большой террор”. Интервью с ученым-историком Эльдаром Исмайловым**.** news.az. 9 avqust 2007;

20.Народное хозяйство Азербайджанской ССР k 60-летию образования СССР (Юбилейный стстистьический ежегодник). - Баку: Азернешр, 1982, 352 с.

21.Обзор деятельности правительства за 1929 г. Отчет VII Всеазербайджанскому съезду Советов. Баку, 1931, с. 185

22.Очерки истории рабочего класса Азербайджанской ССР. Т.1. (1917-1940 гг.). Баку, 1974, 303 с.

23.Транспорт и связь СССР. Стат. сб. Москва: Госстатиздат, 1967, 331 с.

**AFAQ PİRİYEVA***

# AZƏRBAYCAN İQTİSADİYYATI CƏBHƏNİN XİDMƏTİNDƏ

## XÜLASƏ

Məqalədə Azərbaycanda iqtisadiyyatın müharibənin tələblərinə uyğun olaraq qurulmasından, arxa cəbhədə respublika zəhmətkeşlərinin qələbə naminə əmək qəhrəmanlığından bəhs olunur.

**Açar sözlər**: müharibə, iqtisadiyyat, arxa cəbhə, əmək qəhrəmanlığı

Azərbaycan xalqı müharibənin ilk günündən faşizmə qarşı mübarizədə bütün qüvvələrini səfərbər edərək möhkəm arxa cəbhə yaratdı. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsalına keçdi.

YİK(b)P MK və SSRİ XKS 1941-ci il 29 iyun tarixli direktivi ilə faşist təcavüzkarlarına qarşı mübarizəni təşkil etmək sahəsində dövlətin tədbirlər proqramını elan etdi. 1941-ci il iyunun 30-da isə həmin ilin III rübü üçün xalq təsərrüfatının səfərbərlik planı, avqustun 16-da isə IV rüb isə 1942-ci il üçün hərbi təsərrüfat planı təsdiq edildi. Bu planlar xalq təsərrüfatının hərbi qaydada yenidən qurmağı və faşist işğalçıları ilə mübarizədə maddi-texniki üstünlüyə malik olmağı təmin etməli idi.

Lakin müharibənin əvvəllərində aydın oldu ki, müdafiə tədbirləri çox gec görülməyə başlanılmış və onlar faşist ordusunu dəf etmək üçün kifayət deyildir.[4, s.17]

Azərbaycanın vahid hərbi düşərgənin üzvi hissəsinə çevrilməsində ümumxalq çağırışı olan "hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı səfərbəredici rol oynadı. Respublikamız

* Azərbaycan Dövlət Pedaqoji Universiteti, tarix üzrə fəlsəfə doktoru, dosent.

döyüşən ordunun yanacaqla, hərbi sursatla, ərzaqla təchizatının ən güclü cəbbəxanalarından biri oldu. Çünki ölkənin digər yanacaq rayonlarında hərbi əməliyyatlar gedirdi, belə şəraitdə isə Bakı yanacaq rayonunun üzərinə mühüm vəzifələr düşürdü. Bütün bunları nəzərə alaraq qısa müddət ərzində respublikanın xalq təsərrüfatı hərbi qaydada yenidən quruldu.Xalqın böyük mətanəti, vətəpərvərliyi və birliyi sayəsində cəbhə ilə arxa birləşib qüdrətli zərbə qüvvəsinə çevrildi. Azərbaycan zəhmətkeşləri gecə-gündüz neft çıxarmış, yüksək keyfiyyətli benzin və sürtkü yağları istehsal etmiş, silah və hərbi sursat hazırlamış, taxıl və pambıq becərmiş, cəbhənin və arxanın müxtəlif növ ərzaq məhsulları ilə təchiz olunmasına kömək göstərmişdir. “Hər şeyi cəbhənin mənafeyinə və düşmənin darmadağın edilməsinin təşkili vəzifəsinə tabe etməklə bütün işimizi hərbicəsinə yenidən quraq” çağırışı Azərbaycan fəhlələrinin güclü vətənpərvərlik dalğasına və əmək yüksəlişinə səbəb olmuşdu.

Müharibənin üçüncü günü neft şəhəri Bakının 50 mindən artıq əhalisi hökumətdən iş gününün bir saat uzadılması xahişi ilə müraciət etdilər. Vətənpərvərlərin xahişi yerinə yetirildi və bu, cəbhəyə daha çox məhsul göndərməyə imkan verdi.

Müharibənin ilk günlərindən Azərbaycan neft sənayesi öz işlərini hərbi qaydada, cəbhənin tələbatına uyğun şəkildə yenidən qurmalı oldu. Neft sənayesi sahəsində mühüm tədbirlər həyata keçirildi. Cəbhənin yüksək keyfiyyətli yanacaqla, sürtkü yağları və başqa müdafiə məhsulları ilə təchiz edilməsi neft sənayesinin rolunu son dərəcə artırdı. Azərbaycan ölkənin əsas neft ehtiyatı mərkəzi, ordunu yanacaqla təmin edən başlıca mənbə oldu. Cəbhəni neft və neft məhsulları ilə təchiz etməkdə Bakı böyük rol oynayırdı.

Sənədlərin təhlili göstərir ki, neft sənayesində xeyli çətinliklər var idi. İlk gündən Bakı neftçiləri ciddi çətinliklərlə qarşılaşmalı oldular. Ən başlıcası kadr çatışmazlığı idi. Peşəkar neftçilərin və mütəxəssislərin yarıdan çoxu müharibənin hələ ilk aylarında cəbhəyə getdilər. Təcrübəli kadrların və yüksək ixtisaslı mühəndis texniki işçilərin cəbhəyə getməsi ilə əlaqədar olaraq

neft sənayesində briqadalar yarıbayarı azaldı.

Cəbhəyə gedənlərin əvəzinə neft işinə bələd olmayan adamlar cəlb edildi. Onlar vaxtla, iş şəraiti ilə hesablaşmadan 2-3 nəfərin yerinə işləyirdilər. Gün ərzində 10-12 saat, bəzən daha çox işləmək lazım gəlirdi. Evdar qadınlar, yeniyetmələr, təqaüdə çıxmış yaşlı adamlar istehsalatda çalışmağa başladılar. Müharibə qadın əməyindən istifadəni ön cərgəyə çıxardı. 1941-ci ilin təkcə dekabr ayında 10 min nəfərdən çox qadın əvvəllər kişi peşəsi hesab olunan sahələrdə işə daxil olmuşdular. Müharibənin ilk aylarında neft sənayesinə 11 min nəfər qadın gəldi. 1941-ci ilin sonunda isə neft mədənlərində qadınların sayı bütün işçilərin təqribən yarısını təşkil edirdi.1941-ci ildə neft sənayesində 23.420 nəfər qadın işlədiyi halda, 1943-cü ildə 29.460 nəfər, 1944-cü ildə isə 32.330 nəfər qadın çalışırdı. Bu da 1943-cu ildə neft sənayesindəki fəhlə və qulluqçularının 47,5 faizini, 1944-cü ildə isə 48 faizini təşkil edirdi. Ümumiyyətlə, müharibə dövründə neft sənayesinə gələn qadınların ümumi sayı 30 min nəfərdən çox idi.[5, s.81]

1940-cı ildə xalq təsərrüfatında 165 min nəfər qadın çalışırdısa, 1945-ci ildə onların sayı 195 min nəfər çatmışdı. 1940-cı ildə onlar fəhlə və qulluqçuların 34 faizini təşkil etdikləri halda, 1945-ci ildə bu göstərici 48 faizə çatmışdı.

Fəhlələrin cəbhəyə getməsi ilə əlaqədar müəssisələrdə işçi qüvvəsi çatışmazlığını aradan qaldırmaqüçün qısa müddətdə yeni ixtisaslı kadrlar hazırlamaq tələb olunurdu.

Müharibə şəraiti sənət-peşə məktəblərinin işinin yenidə qurulmasını zəruri edirdi. Bunu nəzərə alaraq SSRİ XKS-nin qərarı ilə 1941-ci il iyulun 15-dən avqustun 1-dək təhsil almaq üçün gənclərin sənət və dəmiryolu məktəblərinə çağırışı keçirildi. Təkcə iyul ayında Azərbaycan SSR-də həmin məqsədlə 10 min nəfər səfərbər edilmişdi.[8, s.330]

Sənədlərdən aydın olur ki, bəhs olunan dövrdə orta məktəbin yuxarı sinif şagirdləri kütləvi şəkildə fabrik-zavod şagirdliyi məktəblərinə daxil oldular. Müharibənin təkcə ilk ayı Sabunçu qəsəbəsindən 100 nəfərdən çox, iyul ayında Lökbatan orta

məktəbindən 37 nəfər, Bakının 50-dən çox məktəblərindən 2 min nəfərdən artıq şagird texniki-peşə məktəblərinə daxil oldular.

1941-ci ildə respublikada 28 fabrik-zavod təhsili məktəbi, 12 sənət məktəbi, 2 dəmiryol məktəbi gənc fəhlə kadrları hazırlığı ilə məşğul olurdu. Bu məktəvlərin çoxunda neft sənayesində üçün ixtisasları ilə məşğul olurdu. Bu məktəblərin çoxunda neft sənayesi üçün ixtisaslı fəhlə kadrları hazırlanırdı.

SSRİ XKS-nin qərarına uyğun olaraq 1942-ci il yanvarın 15-dən fevralın 1-dək olan müddətdə gənclərin fabrik-zavod təhsili məktəblərinə çağırışı keçirildi. İxtisaslı fəhlə kadrlarının hazırlanması sahəsində müvəffəqiyyətə nail olundu. Gənc fəhlələr böyük ruh yüksəkliyi ilə istehsalı mənimsəyir, müəyyən olunmuş normanı artıqlaması ilə yerinə yetirirdilər.

Əsasən neft sənayesi üçün avadanlıq buraxan maşınqayırma zavoldlarının hərbi istehsala keçməsi ilə əlaqədar çətinliklər yaranmışdı. Maddi-texniki təchizat kəskin surətdə azalmışdı. İxtisaslı fəhlə kadrlarının cəbhəyə keçməsi ilə əlaqədar yeraltı təmir işlərinin keyfiyyəti pisləşmişdi. Bakı neftçiləri bu çətinliyin də öhdəsindən ləyaqətlə gəldilər. Öz daxili ehtiyatlarından isttifadə edərək, cəbhəni və arxanı fasiləsiz olaraq neft və neft məhsulları ilə təmin edirdir.

Cəbhənin yanacağa olan ehtiyacını nəzərə alan Bakı neftçiləri öz istehsal planlarının artırılması ilə yerinə yetirərək var qüvvələri ilə işləyir və yüksək əmək göstəriciləri əldə edirdilər.

“Neftçilərin fədakar əməyi ilə illik plan vaxtından 12 gün əvvəl, 1941-ci il dekabrın 19-da yerinə yetirildi. Bakı neftçiləri Vətənə 23 min 541 ton neft verdilər. Aviasiya benzini istehsalı planı daha əvvəl – noyabrın 27-də yerinə yetirildi.

1941-ci ilin sonunda Donbas daşkömür mədənləri, Maykop, Qroznı neft yataqları cəbhə zonasına çevrildiyindən ölkənin yanacaq ehtiyatı kəskin dərəcədə azaldı. Ön cəbhə, arxa cəbhədən hər an yanacaq tələb edirdi. Qələbənin taleyi cəbhənin yanacaqla təchiz olunmasından asılı idi. Belə bir çətin dövrdə Azərbaycan neftçiləri əmək növbəsinə durdular. Cəbhəyə daha çox yanacaq göndərmək üçün mümkün olan bütün vasitələrə əl atdılar. Bakı

ön cəbhənin ən böyük və ən etibarlı neft yanacaq bazası vəzifəsini şərəflə yerinə yetirdi.

1942-ci ilin yazında düşmən Qafqaz üzərinə hücuma keçdi. Həmin ilin yayında Azərbaycan cəbhəaltı zonaya çevrildi. Belə bir dövrdə neft quyularının qazılmasının əhəmiyyəti yox idi. Buna görə də Abşeronda neft quyuları basdırıldı. Çıxarılan nefti daşımaq çox çətin idi. Yüksək keyfiyyətli benzin və xüsusi təyinatlı sürtkü yağlarından başqa, istehsal olunmuş məhsullar nəqliyyat çətinlikləri üzündən Bakıda yığılıb qaldığına görə Dövlət Müdafiə Komitəsinin qərarı ilə Bakı rayonunda neft hasilatı planı aşağı salındı. 1942-ci ilin payızında Dövlət Müdafiə Komitəsinin qərarı ilə ölkənin şərq rayonlarında neft çıxarılmasını sürətlə inkişaf etdirmək üçün 81 dəst qazma avadanlığı, 100 nəfər buruq ustası, 500 nəfər çilingər, 250 nəfər mühəndis, 2300 nəfərlik kollektivi ilə Bakının 9 qazma kontoru, neft kəşfiyyatı və neft tikinti trestləri Başqırdıstan, Kuybışev, Perm, Orenburq vilayətlərinə, habelə Orta Asiyaya göndərildi. 10 min nəfərdən artıq Bakı neftçisi ailələri ilə birlikdə həmin rayonlara köçürüldü. Neft avadanlıqlarının təxminən yarısı, mühəndis-texniki kadrlar "İkinci Bakı rayonuna" göndərilmişdi.[1, s.242]

Ural-Volqa ərazisindəki neftçıxarma rayonu yeni neft bazası "İkinci Bakı" adlandırıldı. Müharibə illərində Ural və Volqa ərazisindəki neftçıxarma rayonunun inkişafına başlıca diqqət yetirilirdi.

Beləliklə, Azərbaycan neftçiləri nəinki cəbhəni neftlə təmin edirdilər, eyni zamanda, ölkənin şərqində neft çıxarılması işini təşkil edir və ona rəhbərlik edirdilər. Zəngin neft yataqlarının aşkar edilməsi və istismarında Bakı neftçilərinin misilsiz əmək hünəri sayəsində həmin neft rayonları müharibədən sonrakı dövrdə ölkə iqtisadiyyatının bərpasında və inkişafında mühüm rol oynayırdılar.

1942-ci il iyunun 1-nə olan məlumata görə Azərbaycanda 1941-ci ilin payızında təkcə qara metallurgiya sənayesi üzrə 1.418 vaqon avadanlıq gətirilmişdi. Neft sənayesinin təşkili üçün Şərqə göndərilən zavodların əvəzinə Zaqafqaziyaya köçürülmüş

maşınqayırma müəssisələrinin avadanlığının bazasında zavodların sürətlə tikintisi başlandı. Məhz buna görə də 1943-cü ildə neft avadanlığı buraxılması 1942-ci illə müqayisədə 4 dəfə artdı. Həmin ildə Azərbaycan neft sənayesi müəssisələrinin kollektivləri 99 dəfə Ümumittifaq yarışının qalibi olmuş, 26 dəfə Dövlət Müdafiə Komitəsininkeçici Qırmızı bayrağını almış və 29 dəfə birinci mükafata layiq görülmüşdü. Müharibənin son illərində neft istehsalı daha da artırıldı. 1944-cü il neft sənayesində qazma işlərinin geniş miqyasda bərpası ilə əlamətdardır.

Müharibə vaxtı neft sənayesi qarşısında duran məsələlərin həllində ixtiraçı və səmərələşdiricilər hərəkatının genişlənməsi böyük əhəmiyyətə malik idi. 1941-ci il dekabrın 25-dən 1 May zavodunda ixtiraçı və səmərələşdiricilər tərəfindən irəli sürülmüş 37 təklifdən 22-si həyata keçirilmişdi. Bunun nəticəsində ümumi qənaət 319 min manat olmuşdu. İxtiraçı və səmərələşdiricilərə 21 min manat mükafat verilmişdi.

Xammalın aztapılan və qiymətli növlərinin yerli ucuz materialla əvəz edilməsi sahəsində səmərələşdiricilər çox iş görmüşdülər. 1943-cü il ərzində təkcə Azərneft üzrə 2.900 səmərələşdirici təklif irəli sürülmüşdü. Onların 1.672-ci istehsalatda tətbiq olunmuş və 15,6 milyon manat qənaət etməyə imkan vermişdi. Müharibə dövründə “Leninneft” tresti üzrə 988 səmərələşdirici təklif olmuşdu. Bunlardan 592-ci istehsalatda tətbiq edilmişdi. Bu, dövlətə 3.500.000 manat qənaət etməyə imkan vermiş və neft çıxarılmasının artırılması ilə yerinə yetirilməsini təmin etmişdi. Ümumiyyətlə, müharibə dövründə Bakı neftçiləri tərəfindən 18.507 səmərələşdirici təklif verilmişdi ki, onlardan 9.631-i istehsalatda tətbiq olunmuşdu. Bunun nəticəsində 144 milyon 402 min manat vəsaitə qənaət olunmuşdu

Neftçilərimizin düşmən üzərində qələbəni yaxınlaşdırmaq yolunda tükənməz səyləri o günlərin “Vaxtla hesablaşmadan irəli!” şüarını doğurmuşdu. Onlar ön cəbhəni və arxanı fasiləsiz sürətdə yanacaqla təchiz edirdilər. N.Voznesenski haqlı olaraq qeyd edir ki, “Bakı cəbhəni və ölkənin xalq təsərrüfatını fasiləsiz neft məhsulları ilə təchiz etmişdir, yerdə və səmada yüz minlərlə

motoru hərəkətə gətirmişdir.[6, c.54]

Bakı neftayıranlarının əsas diqqəti yüksək oktanlı aviasiya benzini və xüsusi neft məhsullarının artırılmasına yönəldilmişdi. Neftayıranlar yeni, əlavə mənbələr də axtarıb tapırdılar. Neft məhsullarına və birinci növbədə motor yanacağına, sürtkü yağlarına və yüksək oktanlı benzinə cəbhənin tələbatını ödəmək məqsədilə qısa müddətdə geniş benin-liqroin fraksiyasını təkrar emal edən bir sıra qurğular istifadəyə verildi, aviasiya benzini alınmasına başlandı, xüsusi təyinatlı sürtkü yağlarının istehsalı xeyli yaxşılaşdırılırdı.

Müharibə dövründə bütün ölkədə çıxarılan neftin təqribən dörddə üç hissəsi Azərbaycanın payına düşürdü. Yanacaq və sürtkü yağları istehsalının ölkə üzrə ümumi həcminin 90 faizə yaxını, donanma mazutunun, demək olar ki, hamısı burada hazırlanırdı. Eyni zamanda, müharibə illərində Bakının neftayırma müəssisələrində təqribən 100 yeni növ neft-kimya məhsulları buraxılışı sahmana salınmışdı.

Beləliklə, Bakı neftçiləri müharibənin törətdiyi çox ağır şəraitdə ölkənin yanacaqla təmin olunmasında, düşmənin məğlub edilməsində əvəzsiz rol oynamışlar. Bu rolu neftçilərin ölkəyə verdiyi yanacağın timsalında görmək olar.

Azərbaycan neft mədənlərində 1940-cı ildə 22.175,6; 1941-ci ildə 23.418,8; 1942-ci ildə 15.709,5; 1943-cü ildə 12.691,9; 1944-cü ildə 11.839,0 min ton neft çıxarılmışdı.

1941-ci ildə 2.586,4 min ton qaz çıxarılmışdısa, 1944-cü ildə bu, 903,4 min ton olmuşdu. Müharibə illərində qaz çıxarılmasının aşağı düşməsinin səbəbi qazma işlərinin dayandırılması və istismar fondunun kəskin surətdə enməsi idi.

Azərbaycan neftçiləri texniki, kadr və təşkilati çətinlikləri aradan qaldıraraq, 1941-1945-ci illər ərzində 75 milyon ton neft çıxardılar, 22 milyon ton benzin və başqa neft məhsulları istehsal etdilər.

Azərbaycan cəbhəni təkcə yüksək keyfiyyətli neft məhsulları ilə deyil, həm də müxtəlif növ döyüş sursatı və silahla təchiz etdi. Belə ki, müharibənin ilk günlərindən başlayaraq Dövlət Müdafiə Komitəsinin 1941-ci il iyul tarixli göstərişi ilə respublikanın

bütün sənaye müəssisələri və xüsusilə maşınqayırma, metal emalı zavodlarının istehsal istiqamətləri yeniləşdirilərək müharibənin tələblərinə uyğun şəkildə yenidən quruldu. 1941-ci ilin payızında Bakının ən iri müəssisələrindən olan lt.Şmidt, Dzerjinski, Kirov, Volodarski, Budyonnı, Dmitrov adına, "Bakı fəhləsi" zavodları döyüş sursatı istehsalına başladı.

Bakı maşınqayırmaları istehsalı yeni şəraitə bacarıqla uyğunlaşdıraraq, plemyot, minomyot, müxtəlif hərbi sursatların istehsalına keçdilər. Bakı zavodları düşməni lərzəyə salan "Katyuşa"nı istehsal etdilər. Bakının sənaye müəssisələrində habelə təyyarə, tank, ağır top təmiri və quraşdırılması işinə başlanıldı.

Lakin bu sahədə də ciddi çətinliklər var idi. Başlıca çətinlik ixtisaslı kadrların çatışmazlığı idi. Yaranmış vəziyyəti aradan qaldırmaq üçün tələb olunan peşə ixtisasları üzrə mütəxəssislər hazırlanması, fəhlə və texniklərin ixtisas səviyyəsinin yüksəldilməsi, ikinci peşə öyrədilməsi, məqsədli kurslar təşkil olunması, sənət məktəbləri və fabrik-zavod peşə məktəbləri kimi müxtəlif yollardan geniş istifadə olunmuşdu. Müharibə illərində respublikanın maşınqayırma zavodlarında müxtəlif peşələr üzrə 10.236 nəfər kadr hazırlanmışdı. Azərbaycan fəhlə sinfi Vətən qarşısındakı müqəddəs borcunu yerinə yetirmək üçün zavodlarda əmək növbəsində duraraq bu şərəfli işin öhdəsindən ləyaqətlə gəlirdi. Yeniyetmələr, qadınlar və qocalar cəbhəni silahla təchiz etmək üçün lazım olan peşələrə məharətlə yiyələnir və yüksək əmək məhsuldarlığına nail olurdular. 1941-ci il iyulun 1-dən 5-dək olan müddətdə 35 evdar qadın lt.Şmidt adına zavoda gəldi və cəbhəyə gedənlərin əvəzinə dəzgah arxasına keçdilər. Müharibənin əvvəlində neftmaşınqayırma müəssisələrinin ilk cərgəsində lt.Şmidt adına zavodun kollektivi gedirdi. 1941-ci ildə cəbhəni döyüş sursatı ilə təchiz etdiyinə görə Lenin ordeni, 24 nəfər işçi isə orden və medallarla təltif olunmuşdu. Zavod sosializm yarışında qalib çıxmış, 22 dəfə DMK-nın Qırmızı bayrağını almışdı. 1941-ci ilin iyul-noyabr aylarında 1.523 müəssisə, o cümlədən 200-ə yaxın maşınqayırma və metal emalı müəssisəsi ölkənin şərq rayonlarına köçürülmüşdü. Həmin ilin ikinci

yarısında Azərbaycanın bir sıra maşınqayırma zavodları da şərq rayonlarına köçürülmüşdü. [7, c.148]

Bakıdakı Myasnikov, Qırmızı Proletari adına, Dzerjinski və Kirov adına maşınqayırma zavodlarının bəzi sexləri öz işçiləri ilə birlikdə Ural və Volqa arasındakı rayonlara köçürüldü. Myasnikov adına zavod Krasnokamska, Dzerjinski adına zavod Sarapula, Stalin adına zavod isə İşimbaya göndərilmişdi.[9, c.86]

1942-ci ilin ikinci yarısında Bakının sənaye müəssisələrində 130 adda müxtəlif növlü silah, döyüş sursatı, hərbi ləvazimat istehsal olunurdu.

Respublikanın maşınqayırma müəssisələri cəbhənin bütün sifarişlərini vaxtında yerinə yetirirdilər. Bütün müharibə illərində "Azneftmaş" tresti daim planı artıqlaması ilə yerinə yetirirdi. Həmin illərdə maşınqayırma sənayesi 700 milyon manat məbləğində hərbi ləvazimat istehsal etmişdi.

Müharibənin ilk günlərindən Azərbaycan dəmiryolu və Xəzər gəmiçiliyi vasitəsilə daşınan yüklərin növləri dəyişdi.

Müharibə illərində Xəzər gəmiçiləri cəbhəyə 2 milyon tondan çox benzin daşımışdılar.[10, c.92]

Müharibənin başlanması ilə Xəzər dənizçiləri ciddi sınaq qarşısında qalmışdılar. Onlar artan təsərrüfat daşınmaları ilə yanaşı, yüzlərlə müəssisə və yüz minlərlə adamı köçürməli idilər. Hərbi hissələr mürəkkəb döyüş texnikası ilə Orta Asiyadan Krasnovodsk vasitəsilə qərbə, köçürülən əhali, yaralılar Həştərxan və Bakı vasitəsilə Krasnovodska daşınırdı.

Sənaye müəssisələrinin Donbas və Şimali Qafqazdan ölkənin şərq rayonlarına köçürülməsi Bakı limanı vasitəsilə həyata keçirilirdi. Dəmiryolu ilə daşınan yük Xəzər dənizi vasitəsilə əvvəlcə Krasnovodska gətirilir və oradan Şərqə aparılırdı. 1942-ci ildə düşmən Qafqaza can atdığı zaman nəqliyyat işçilərinin vəziyyəti daha da ağırlaşdı. Bakıya avadanlıqla dolu yük qatarları gəlirdi. Köçürülən əhali və avadanlığın Krasnovodska daşınmasını sürətləndirmək üçün təcili tədbirlər görmək lazım idi. Bakı və Krasnovodsk limanlarının buraxılış imkanını artırmaq sahəsində işlər görüldü – xüsusi körpülər quruldu. Cəbhənin böyük ehtiyac

duyduğu neft məhsullarını Bakıdan Krasnovodska daşımaq ən mühüm vəzifə idi. Yeganə "həyat yolu" Krasnovodsk və Qaraqum səhrasından keçirdi.

Xəzər dənizçiləri öz fədakar əməkləri ilə ordu hissələrinə və hərbi-dəniz donanmasına döyüş əməliyyatlarını yerinə yetirmək-də kömək edirdilər. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı onların fəaliyyətinin əsasını təşkil etdi. Xəzər dənizçiləri var qüvvələri cəbhəni və müdafiə əhəmiyyətli tapşırıqları yerinə yetirən müəssisələri təchiz etmək üçün gərgin işləyirdilər. Onlar hər cür hava şəraitində daha çox yük daşımaq əzmi ilə çalışırdılar.

Volqa sahillərində və Qafqazın müdafiəsi uğrunda vuruşmalar dövründə Xəzər dənizçilərinin işi xüsusi rol oynamışdı. Ən ağır şəraitdə, çox zaman havadan düşmənin fasiləsiz atəşi altında onlar Vətənin müdafiəçilərinə yanacaq, döyüş sursatı çatdırır-dılar. O çətin günlərdə stalinqradlılar Xəzər dənizçilərinə öz məktublarında minnətdarlıq edirdilər.

Dövlət Müdafiə Komitəsinin qərarı ilə Xəzər donanması vasitəsilə ölkənin qərb rayonlarından milyondan artıq əhali və onlarla iri sənaye müəssisəsi Azərbaycana, bir hissəsi isə Orta Asiyaya köçürülmüşdü.

Rusiyanın, Ukraynanın, Belarusiyanın dağıdılmış şəhər və kəndlərindən Azərbaycana çoxlu sahibsiz uşaqlar gətirilmişdi. Valideynlərini itirən, doğma yurdlarından didərgin düşən bu uşaqlara qayğı göstərilməsi üçün tədbirlər görüldü. Təkcə 1942-ci ildə min nəfərdən çox uşaq, yeniyetmə bakılılar tərəfindən himayə edildi və hətta övladlığa götürüldü.1943-cü il martın 29-a olan məlumata görə Azərbaycanın rayonlarında 8.236 nəfərdən çox hərbi qulluqçu ailəsi yaşayırdı.1943-cü ilin avqustun 1-dən cəbhə xətti rayonlarından respublikaya 21.577 nəfər köçürülmüş-dü. Bunlardan 7.875 nəfəri Bakıda, 13.702 nəfəri isə respublikanın müxtəlif rayonlarında yerləşdirilmişdi.

Azərbaycan dəmiryolçuları da müharibə dövründə cəbhənin və arxanın tapşırıqlarını vaxtında yerinə yetirmək üçün əllərindən gələni əsirgəmirdilər. Dəmiryolçular qatarların hərəkət sürətini artırır, yanacağa qənaət edir, yolları, parovozları, vaqonları saz

saxlayırdılar. Dəmiryolçular vaxta, yanacağa qənaət etmək üçün yeni-yeni təşəbbüslər irəli sürürdülər. "Dəmiryolçu vəzifəsi – indi hərbi vəzifədir!", "Dəmiryolçular cəbhə qaydasında işləməli-dirlər!" şüarları onları daha da fədakar əməyə ruhlandırırdı. Dövlət Müdafiə Komitəsi adına parovozlar dəstəsi yaratmaq haqqında Cənubi Ural dəmiryolçularının çağırışına Bakı parovoz deposunun qabaqcıl maşinistləri də səs vermişdilər. Bakı parovoz deposunun qabaqcıl maşinistləri Dövlət Müdafiə Komitəsi adını almaq üçün gərgin mübarizə aparırdılar. Bakı parovoz deposunda 23 parovoz və bunlara xidmət edən briqadalar Ümumittifaq dəstəsi tərkibində olmaq hüququnu qazanmışdılar. Maşinistlər öz briqadalarında möhkəm intizam yaratmışdılar.

Sosialist Əməyi Qəhrəmanı Firudin Ağayev müharibə döyüşündə Azərbaycan dəmiryolunda bir sıra mütərəqqi iş üsullarının təşəbbüsçüsü olmuşdu. Onun idarə etdiyi parovozda təkcə 1943-cü il ərzində 60.000 kiloqram yanacağa qənaət edilmişdi.Müharibə illərində respublikanın yüngül, yeyinti sənayesi müəssisələrinin kollektivləri də fədakarlıqla çalışırdılar. İlk günlərdən başlayaraq yüngül sənaye müəssisələri bütün fəaliyyətini cəbhənin ehtiyaclarını ödəməyə yönəltmişdi.[2, s.220] 1941-ci ilin əvvəlindən sentyabr ayının axırınadək Əli Bayramov və Volodarski adına fabriklərin kollektivləri sifarişləri artıqlaması ilə yerinə yetirmiş, cəbhədəki döyüşçülər üçün plandan əlavə 300 min manatlıq paltar vermişlər. Ölkəyə plandan əlavə bir neçə milyon manatlıq mal verilmişdir. Azərbaycanın yüngül sənaye müəssisələri ordunun ehtiyacları üçün 30 növdən artıq məhsul istehsal edirdi. Yüngül Sənaye Komissarlığı müəssisələrinin işçiləri 1941-ci ilin plan tapşırıqlarını dekabrın 24-də yerinə yetirmişdilər.Döyüşən ordu üçün yerli xammal ehtiyatlarından lazımi məhsul istehsalı təşkil edilmişdi. Yeyinti məhsulları sənayesi 200 növə qədər məhsul hazırlayırdı. Müharibə illərində respublikanın yeyinti məhsulları müəssisələri cəbhəyə 1.800 vaqon konserv, 1.300 vaqon tütün və papiros, 1.260 vaqon suxarı, 1.100 vaqon makaron məmulatı, 350 vaqon bitki yağı və başqa məhsullar göndərmişdilər. Bakı ət kombinatı

1941-1944-cü illər ərzində tibb preparatları buraxılışını təqribən 6 dəfə artırmışdı. Respublikada insulin, adrenalin və bir sıra başqa qiymətli dərmanların seriya ilə buraxılışı sahmana salınmışdı, yaraların, habelə iltihab proseslərinin müalicəsi üçün asidofil pastası istehsalı təşkil edilmişdi. Böyük Vətən müharibəsinin ilk günlərindən Azərbaycan sənayesi hərbi döyüş tələblərinə uyğun olaraq əsaslı şəkildə yenidən quruldu. Yerli xammal, istehsal tullantıları və yarımtullantıları, habelə aşkara çıxarılmış yeni xammal növləri əsasında işləyən sənaye sahələri həlledici surətdə inkişaf edirdi. Cəbhə ilə arxanın ehtiyaclarının təmin edilməsi üçün Azərbaycan sənayesi yerli zəngin imkanlardan geniş istifadə edirdi.

Müharibənin əvvəlindən respublika sənayesi qarşısında məsul vəzifə qoyulmuşdu: geniş istehlak məhsulu istehsalı sürətini azaltmadan ölkənin müdafiəsi üçün zəruri olan məhsul buraxılışını geniş miqyasda təşkil etmək.

Azərbaycanın metal emaletmə sənayesi Qızıl Ordu üçün döyüş sursatı və silah istehsalının kütləvi buraxılışına başladılar. Respublikanın yüngül sənaye müəssisələri hərbi qaydada yenidən quruldu və ordunu təchiz etmək üçün bir sıra yeni məhsulun istehsalına başlandı.Yerli sənaye də öz işini hərbi relsə çevirdi.Cəbhə üçün 100-dən artıq müxtəlif məmulat istehsal edilirdi.

Əvvəllər yalnız geniş istehlak məhsulları buraxan bir sıra xırda müəssisələr bütünlüklə müdafiə əhəmiyyətli məhsul buraxılışına başladılar. Beləliklə, müharibədə qalibiyyət qazanılmasında Azərbaycan zəhmətkeşlərinin, ilk növbədə fəhlələrin rolu böyükdür. Fəhlələr öz fədakar əməkləri ilə xalq təsərrüfatını yanacaq, cəbhəni isə benzin, silah və döyüş sursatı ilə təchiz edirdilər. Müharibə illərində ön cəbhənin, ölkənin şəhər və kəndlərinin ərzaqla, digər kənd təsərrüfatı məhsulları ilə təchiz olunmasında Azərbaycanın kənd əməkçilərinin misilsiz xidmətləri olmuşdur.

Məlumdur ki, Böyük Vətən müharibəsi illərində respublikanın kənd zəhmətkeşlərinin, mütəxəssislərin orduya səfərbərliyə

alınması, kənd təsərrüfatının maddi-texniki bazasını zəiflətmişdi, kəndlə şəhər arasındakı iqtisadi əlaqələri pozmuş, ölkənin təsərrüfat həyatında ciddi çətinliklər yaratmışdı. Buna görə də kənd əməkçiləri ərzaq və zəruri xammal istehsalını yalnız əvvəlki səviyyədə saxlamaqla kifayətlənməməli, hər vasitə ilə cəbhənin ehtiyaclarını ödəmək kimi şərəfli vəzifəni ləyaqətlə yerinə yetirməli idilər. Bunlar ilə arxa cəbhədə çalışanlardan, o cümlədən Azərbaycanın kənd zəhmətkeşlərindən böyük hünər, qeyrət və fədakarlıq tələb edirdi.1942-ci ildə respublikada 5 mindən artıq traktorçu, 350 kombaynçı, yüzlərlə kolxoz sədri, briqadir hazırlanıb təsərrüfatda işə göndərilmişdi ki, bunların da əksəriyyətini qadınlar təşkil edirdi. [3, s.19]

Müharibənin ilk ilindən başlayaraq respublikada dənli bitkilərin əkin sahələrinin genişləndirilməsinə xüsusi diqqət verildi. 1943-cü ildə kənd əməkçilərimiz dövlətə plandan əlavə 1000 pud taxıl, 21,5 min pud ət, 48 min pud tərəvəz, 2,2 min pud yun təhvil vermişdilər. Beləliklə, həmin il 1944-cü ilin hesabına dövlətə 254min pud taxıl, 46 sentner ət, 8 min litr süd, 644 sentner pendir satılmışdır.

Ölkənin əsas taxıl mənbələrinin düşmən tərəfindən tutulmasına, işçi qüvvəsinin, texnikasının çatışmamasına baxmayaraq, Azərbaycanın kənd əməkçiləri ön cəbhəni və arxanı ərzaqla, sənayeni xammalla təmin edirdilər. Kolxozçular, sovxozların, maşın-traktor stansiyalarının işçiləri düşmənin darmadağın edilməsi üçün mümkün olan bütün vasitələrdən istifadə etdilər, məğlubiyyət təhlükəsinin aradan qaldırılmasında həlledici rol oynadılar. Araşdırılan məsələnin təhlili göstərir ki, müharibə başlanan kimi Azərbaycan vahid hərbi düşərgənin üzvi hissəsinə çevrildi. Azərbaycan xalqı faşizmə qarşı mübarizədə birləşdi. Xalqımızın maddi sərvətləri, iqtisadiyyatın bütün sahələri vahid məqsədə - düşmən üzərində qələbəyə səfərbər edildi.

**Афаг Пириева**

**РЕЗЮМЕ**

**ЭКОНОМИКА АЗЕРБАЙДЖАНА НА СЛУЖБЕ ФРОНТА**

В статье рассматривается строительство экономики Азербайджана в соответствии с требованиями войны, а также героический труд тружеников тыла во имя победы.

**Ключевые слова**: война, экономика, тыл, героический труд

**Afag Piriyeva**

**SUMMARY**

**THE ECONOMY OF AZERBAIJAN IS AT THE SERVICE OF THE FRONT**

The article discusses the construction of Azerbaijan's economy in accordance with the requirements of the war, as well as the heroic labor of the republic's workers on the home front for the sake of victory.

**Keywords**: war, economy, home front, labor heroism

## ƏDƏBİYYAT

1.Əmrahov M.İ. Azərbaycan tarixi (1939-1945-ci illər)/ Əmrahov M.İ. - Bakı: ADPU, - 2018. - 440 s.

2.İmanquliyev N. Zəhmətkeşlərin əmək qəhrəmanlığı uğrunda/ İmanquliyev N. - Bakı: Azərnəşr, - 1967. – 233 s.

3.Kərimov Ə. Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi/ Kərimov Ə. – Bakı: Azərnəşr, - 1962. -84 s.

4.Mədətov Q.Ə.Azərbaycan SSR 1941- 1945 – ci illər müharibəsində/ Mədətov Q.Ə. Bakı: Turxan NPB, - 2018. – 544 s.

5.Rəsulov A. Azərbaycan neft sənayesinin inkişafı tarixindən./ Rəsulov A.Bakı: Azərnəşr, - 1962. – 154 s.

6.Вознесенский Н. Военная экономика СССР в период Великой Отчественной войны. Москва, Госполитиздат, 1947-190 с.

7.История Великой Отечественной войны Советского Союза (1941-1945 гг). Москва, 1961, т 2

8.Митрофанова А.В. Рабочий класс Советского Союза в первый период Великой Отечественной войны (1941-1945 гг.) / Митрофанова А.В. Москва: Изд-во АН СССР, - 1960. – 486 с.

10.Промышленность Азербайджана за 40 лет (1920-1960 гг.). Баку, Азнефтеиздат, 1960. – 135 с.

11..Эдлинский С.Ф.Каспиискийтранспортний флот в Великой Отечественной войне Советского Союза 1941-1945 гг. Эдлинский/ С.Ф. Москва: Мор. Транспорт, - 1963. – 228 с.

**ƏZİZAĞA ƏLƏKBƏRLİ***

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCANDA NƏQLİYYAT VƏ RABİTƏ

## XÜLASƏ

Məqalədə İkinci Dünya müharibəsinin Sovetlər İttifaqının təsərrüfat həyatında yaratdığı ciddi dəyişikliklər öz əksini tapmışdır. Nəqliyyat bütün ölkə boyu olduğu kimi, Azərbaycanda da hərbi vəziyyətin tələblərinə uyğun yenidən qurulmuşdu. Çünki qoşunların vaxtında zəruri vasitələrlə təmin olunmasında, hərbi əməliyyat bölgəsindən əhalinin və müəssisələrin arxaya köçürülmsindəki məsuliyyət nəqliyyat işçilərinin çiynində idi.

Azərbaycan dəmiryolçuları Bakı limanının işçiləri də hərbi şəraitin tələbləri əsasında işlərini yenidən qurmuş və çətinlikləri aradan qaldırmağa nail olmuşdular. Hərbi əhəmiyyətli yollar salınmış, körpülər qurulmuş, nəqliyyat və rabitə, cəbhə ilə arxanın fasiləsiz, möhkəm və etibarlı əlaqəsi təmin edilmişdir.

**Açar sözlər:** müharibə, cəbhə, nəqliyyat, rabitə, faşist Almaniyası, dəmiryolçu

**Giriş.** İkinci dünya müharibəsi Sovetlər İttifaqının təsərrüfat həyatında ciddi dəyişikliklər edərək, iqtisadiyyatın bütün sahələrində, o cümlədən onun şah damarı sayılan nəqliyyatın işində hərbi vəziyyətin tələblərinə uyğun yenidən qurulması zərurətini irəli sürdü. Çünki nəqliyyat və rabitə işinin düzgün qurulması müharibədə qələbənin təmin olunmasında çox güclü təsir amilini özündə birləşdirirdi. Qoşunların ardıcıl və düzgün hərəkəti, ön cəbhənin zəruri vasitələrlə (silah, sursat, ərzaq və s.) məqamında təmin edilməsi, eləcə də hərbi əməliyyat bölgəsindən

* AMEA A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, tarix üzrə fəlsəfə doktoru, dosent.

əhalinin və müəssisələrin arxaya köçürülməsi, sənayenin xammalla bağlı tələbatının ödənilməsi nəqliyyatın ahəngdar işləməsi zərurəti ilə birbaşa bağlı idi.

**Hər şey müharibənin xidmətində, hər şey qələbə naminə.** Avropa və Asiya qitələrinin birləşdiyi məkanda yerləşən Azərbaycan, həm də dəmiryol və su nəqliyyatının çox əhəmiyyətli qovşaq nöqtələrindən biridir. Dəmir yollarında qatarların ardıcıl fəaliyyətini təmin etmək məqsədilə 1941-ci il iyun ayının 24-dən etibarən Azərbaycanda xüsusi hərbi cədvəl tətbiq edilmiş, vağzalların hava hücumundan qorunması, işıq və səs siqnalları olmayan xüsusi qatarlar yaradılmışdı. [6,v.168;11,s.26]. Sərnişinlərin daşınması məhdudlaşdırılır və sərnişin vaqonları sanitar vaqonlarına çevrilirdi.Təkcə, müharibənin iki günü ərzində Azərbaycanda Zaqafqaziya Hərbi Dairəsi Hərbi Sanitar İdarəsinin tələbi ilə 4 hərbi sanitar qatarı təşkil olunmuşdu. [6, v. 169].

Artıq iyunun 23-də Zaqafqaziya dəmir yolunda kütləvi hərbi daşınmalara başlanılmışdı. Nəticədə, təkcə iyunun 23-dən 30-dək keçən 8 gün ərzində bu yolda 6849 vaqonu olan 152 qatar, 1941-ci ilin iyul ayı ərzində isə ümumi sayı 17442 vaqon olan 201 qatar yola salınmışdı. Bakı dəmir yolu şöbəsinin işində əsas yeri sisternlərlə yanacağın daşınması təşkil edirdi. Artım yüksələn xətlə gedirdi. Belə ki, əgər 1941-ci ilin iyul ayında 1560 sistern daşınmışdısa, avqust ayında onların sayı 2325-ə çatmışdı. [17, s.16]

Düşmən qüvvələri SSRİ-nin içərilərinə doğru irəlilədikcə, arxaya yük və sərnişinlərin köçürülməsi də artırdı. ÜİK (b)P MK-nın Siyasi Bürosunun 1941-ci il 24 iyun tarixli qərarı ilə əhalinin, sənaye müəssisələrinin, idarə və təşkilatların təhlükəsiz yerlərə köçürülməsi məqsədi ilə "Köçürmə Şurası" yaradılmışdı. Onun sədri N.M Şvernik , müavinləri A.N.Kosıgin və M.Q.Pervuxin təyin edilmişdilər. [10,s.22] Müharibənin ilk vaxtlarından etibarən bu Şura çox böyük miqdarda xalq təsərrüfatı yüklərinin köçürülməsini həyata keçirməyə başlamışdı.Təkcə 1941-ci ilin iyul-noyabr aylarında SSRİ-nin işğal olunmuş ərazilərindən şərq rayonlarına ümumilikdə 1523 müəssisə köçürülmüşdü. Həmin müəssisələrdən 667 ədədi Urala, 22 ədədi Sibirə, 78 ədədi Şərqi

Sibirə 308 ədədi Mərkəzi Asiya və Qazaxıstana, 226 ədədi isə Volqaboyuna köçürülmüşdü.[19,c.148] Ümumilikdə isə, müharibə illərində insan və yüklərlə dolu 1,5 milyon vaqon arxa zonalara daşınmışdı. [28,c.322] 1941-ci ilin avqustundan etibarən ölkənin şimal rayonlarından Mərkəzi Asiyaya köçürülməsi nəzərdə tutulan müəssisələrin yükləri və sərnişinləri də Bakıya gəlməyə başlamışdı. Ancaq Bakı dəniz limanı onların daşınmasını normal təmin etmək imkanına malik deyildi. Yüklərsə axıb gəlir, məcburiyyət qarşısında vaqonlardakı yükləri liman ərazisindəki açıq meydançalara, eləcə də onun ətrafındakı yerlərə boşaltmaları lazım gəlirdi. Bu məqsədlə Bakı, Keşlə, Sumqayıt, Ələt, Salyan, Binəqədi, Puta və digər dəmir yolu stansiyalarında köçürülən yüklərin boşaldılması və saxlanılmasından ötrü ümumi sahəsi 22 min vaqon yükü üçün nəzərdə tutulmuş yeni meydançalar hazırlandı. Zərurət üzündən həyata keçirilən bu tədbirlər Bakı dəmir yolu şöbəsinin hərəkət çevikliyini azaldır, xüsusilə Bakı-Biləcəri sahəsinin işini xeyli çətinləşdirirdi. [10, s. 88]

1941-ci ilin oktyabrında DMK yüklərin artması ilə əlaqədar Bakı dəniz limanının gün ərzində yüz vaqondan az olmayaraq yük qəbul etməsi barədə qərar verdi. Gələn vaqonlardan gün ərzində yüklərin boşaldılması və gəmilərə yüklənməsi liman işçiləri üçün məcburi norma idi. Bunlarla bərabər, limanda avadanlıqların təmizlənməsi, yüklərin hesabının aparılması və onların saxlanılması da təmin olunmalı idi. Qərara əsasən, liman rəhbərliyi vaqonların və gəmilərin ləngiməsinə görə Hərbi tribunal qarşısında cavabdehlik məsuliyyəti daşıyırdı.

1941-ci ilin sentyabrında Bakı limanında yük axını o qədər çoxaldı ki, bütün dəniz nəqliyyat növlərini səfərbər etməli oldular. Hətta "Kaspflot"un rəhbərliyinin əmri ilə istismar müddəti bitmiş yararsız gəmiləri də yenidən təmir edərək yük daşınmasına cəlb etdilər.

DMK 1941-ci il oktyabrın 16-da Bakı limanından Krasnovodska (İndiki Türkmənbaşı) 82 min adamın aparılması haqqında əmr verdi. Bu vəzifənin həyata keçirilməsi üçün "Kaspflot"un balıqçı gəmilərindən də istifadə olunmuşdu. [14, c.20] Bu işdə "Profintern",

“Jdanov”, “Türkmənistan” və “Azərbaycan” gəmiləri xüsusi fəallıq göstərməklə, 82 min adamın qısa vaxtda daşınmasını təmin etməklə DMK-nın əmrini şərəflə yerinə yetirmişdilər.

Bakı limanında 1941-ci ilin noyabr ayında 1922 vaqon yük qəbul edilmişdisə, dekabr ayında 2989 vaqon qəbul olunmuşdu. Həmin ilin dekabr ayında liman yük vaqonları ilə işləmə planını 97 faiz yerinə yetirmişdi. Noyabr ayında liman orta hesabla gün ərzində 64 vaqon, dekabrda isə 96 vaqon boşaltmışdı. [6, v. 168, 20, s. 153-154]

“Pravda” qəzetinin 1941-ci il 26 oktyabr tarixli sayında çap olunmuş bir məktubda qeyd edilirdi ki, “... Buradan (yəni Bakıdan) relslərlə qatarlar dayanmadan gedir. Xəzərdə gəmi karvanları üzür. Onlar cəbhəyə “qara qızıl” aparırlar. Bakı neftçiləri... cəbhəni yanacaqla təchiz edirlər.. Onlar bu gün də ön cəbhələrin əsgərləri kimi çalışırlar və işləyirlər ki, ... bizim şahin təyyarəçilərimiz düşmənə şiddətli zərbə vursunlar, bizim tankçılarımız öz maşınlarını düşmən ordusunun içindən apara bilsinlər, qüdrətli gəmilərimizin yayılan atəşləri düşməni məhv etsinlər ki, ... biz azadlığımızı qoruya bilək...” [18, s. 357-358]

İkinci Dünya müharibəsinin 6 ayı ərzində Bakıdan Şərq rayonlarına 1.028 min adam, 11343 vaqon və çoxlu sənaye müəssisəsi avadanlığı daşınmışdı. [26, s. 175]

Bakı dəniz limanından qoşunların və hərbi strateji əhəmiyyətli yüklərin daşınmasında Xəzər Hərbi Donanması (XHD) da mühüm rol oynayırdı. XHD-nin müşayiəti ilə Stalinqrad və Şimali Qafqaz uğrunda gedən döyüşlərin ən qızğın vaxtında 434 mindən çox insan (mülki və hərbçi), 216 təyyarə, 791 tank, 346 zirehli maşın, 4 mindən artıq avtomobil, 222 traktor, 173 mindən çox at, 213 ton döyüş sursatı və digər mallar daşınmışdır. Bütövlükdə isə müharibənin birinci dövründə Xəzər dənizi vasitəsi ilə 804 min adam, 956 tank, 5427 top, 852 təyyarə, 390 mindən çox at, 6730 avtomobil və hərbi əhəmiyyətli digər mallar daşınmışdır. [23, c. 48]

Alman faşizminə qarşı mübarizədə SSRİ ilə birgə əməkdaşlığa dair 1941-ci il oktyabrın 1-də bağlanmış üçtərəfli

sazişlə, habelə ABŞ -ın “Lend-Liz” kredit və icarə haqqında qanununun ( ABŞ konqresi tərəfindən qəbul edilmiş “Birləşmiş Ştatların müdafiəsinin təmin olunması haqqında” Qanunu 1941-ci il martın 11-də prezident Franklin Delano Ruzvelt imzalamışdı -Ə.Ə.) həmin ilin noyabrında SSRİ-yə də aid edilməsi nəticəsində Böyük Britaniya və ABŞ İran körfəzi, habelə İran ərazisindəki dəmir yolları, sonra isə quru və dəniz yolları vasitəsi ilə müxtəlif təyinatlı yüklər göndərməyə başlamışdılar. Müharibə illərində ABŞ və İngiltərədən, sonralar isə Kanadadan SSRİ-yə 400 min avtomobil, 2,6 mln. ton neft və neft məhsulları, 9,6 min top, 10,8 min tank və 18,7 min təyyarə göndərmişdilər ki, bunlar da Azərbaycan dəmir yolu nəqliyyatı vasitəsi ilə təyinat yerinə çatdırılmışdı. [11, s.26-27] Hərbi yüklərin daşınması üzrə işlərə rəhbərlik edənlərdən biri də azərbaycanlı general-mayor Ə.M.Əzizbəyov idi [30, s. 28-29]

1941-ci ilin noyabrında DMK-nın göstərişi ilə Qroznı neft sənayesi zavodları da, Osipenko, Mariupol və digər sənaye şəhərlərindən köçürülən sənaye müəssisələrinin avadanlıqları da Bakı limanı vasitəsilə ölkənin şərq rayonlarına göndərilirdi.

1941-ci ildə şimaldan sisternlərin hərəkətində fasilələr yarandığından yükləmə planına əməl etmək mümkün olmadı. 1942-ci ilin əvvəllərində çətinlikləri aradan qaldıran dəmir-yolçular xalq təsərrüfatının bu mühüm sahəsinin işini tamamilə hərbi şəraitin tələbləri əsasında yenidən qurmağa nail oldular. [31, c. 88] Ancaq payızda Qafqaz uğrunda gedən döyüşlər nəqliyyatın ahəngdar işini yenidən çətinləşdirdi. Çünki Azərbaycan dəmir yolu cəbhəni yanacaq və döyüş ləvazimatı ilə təchiz edən yeganə xətt olduğundan, Maykop, Tuapse, Batumi neftayırma zavod-larının və Bakı-Batumi neft kəmərinin sökülmüş avadanlıqlarının Mərkəzi Asiyaya göndərilməsi ilə əlaqədar vaqonların vaxtında boşaldılıb yola salınmasında problemlər yaranırdı. Bu səbəbə görə, 1942-ci ilin avqust-sentyabr aylarında yükü boşaldılmayan vaqonların sayı müəyyən edilmiş normanı 4 dəfə ötürdü.[ 3, v. 74]Sentyabr ayında Azərbaycan dəmir yolu stansiyalarında xeyli parovoz və yüklə dolu 12 min vaqon yığılıb qalmışdı. [25, c. 144]

Bu çətin və gərgin vəziyyətdən çıxmaq üçün tez bir zamanda 20-dən çox yükboşaltma stansiyası, xeyli anbar tikilib istifadəyə verilmişdi. Bu tədbirlər nəticəsində respublikanın dəmir yolu stansiyaları və yollarında 11 min əvəzinə 60 min vaqonu qəbul etmək mümkün oldu. [25, c. 144]

Azərbaycan dəmiryolçuları 1500 parovoz təmir edərək ölkənin müxtəlif dəmir yolu xətlərinə göndərmiş, o cümlədən təmir olunmuş 925 parovoz Xəzər dənizi vasitəsi ilə şərqə yola salınmışdı. [12, c. 55]

Sovet qoşunlarının Stalinqrad ətrafında əks hücumu və müharibənin gedişində əsaslı dönüş yaradan qələbəsi, eləcə də Şimali Qafqazda müvəffəqiyyətli hücumu nəqliyyatın işinin yenidən qurulması zərurətini irəli sürürdü. Bir tərəfdən cəbhənin özünün, digər tərəfdən isə düşməndən azad edilmiş ərazilərin müxtəlif məhsullarla təchizi başlıca vəzifə kimi nəqliyyat işçiləri qarşısında dayanırdı.

Müharibənin yaratdığı çətinliklərə baxmayaraq, Azərbaycan dəmiryolçuları təkcə öz yol hissələrinin təhlükəsiz hərəkətini təmin etməklə kifayətlənmir, eyni zamanda tədricən azad olunmuş rayonların dəmiryolçularına da köməklik göstərirdilər. Depo və yol emalatxanalarının kollektivləri azad edilmiş rayonlara stansiyaların ehtiyacları üçün çoxlu miqdarda avadanlıq və alətlər göndərmişdilər. Bakı və Biləcəri depolarından Stalinqrad, Tixoretski, Minvod, Qafqaz və başqa stansiyalar üçün 36 adda 1000-dən çox alət, 2 kompleks “Bekker” qaldırıcı kranı, şpalları qaldırmaq üçün avadanlıq, 3 elektrik mühərriki, 4 çilingər dəzgahı, Kirovabad (Gəncə) deposundan Şimali Qafqaz dəmiryolçularına 5 dəst çilingər aləti, 100-dən çox müxtəlif parovoz borusu, 10 dəst ressor və s. materiallar yola salınmışdı. [9, v. 29; 17, s. 18, 4]

Müharibə illərində dəmiryolçularımız cəbhə dəmir yollarına da ezam olunurdular. Cəbhə yollarında qatar sürən Bakı deposunun maşinistlərindən B.Əhmədov, M.Qasımov və b. belələrindən idi. Biləcəri deposunun maşinisti, SSRİ Ali Sovetinin deputatı Y.Hüseynov öz xahişi ilə cəbhəyə gedərək, Qərb yoluna

göndərilmişdi. Smolenskdə düşmən təyyarələrinin bombardmanı nəticəsində əlindən yaralansa da, təcili tapşırığı yerinə yetirmişdi. Yartsevo rayonunda qovşaqda silah və sursatla dolu qatarların çıxarılmasını təşkil edərkən qəhrəmancasına həlak olmuşdu. [24, c. 257]

Cənubi Qafqaz respublikalarının, o cümlədən Azərbaycan dəmiryolçularının müharibədəki tarixi xidmətini yüksək qiymətləndirən ordu generalı İ.V.Tyulenov yazırdı: "Zaqafqaziya dəmiryolçuları və Xəzər dənizçiləri yorulmadan işləyirdilər. Köçürülməni həyata keçirərək, onlar eyni zamanda düşmən bombaları altında Qafqaza yüz minlərlə əsgər, minlərlə silah, yük maşınları, min tonlarla hərbi sursat, ərzaq daşımışdılar." [29, c. 176]

Azərbaycan dəmiryolunun stansiya, müəssisə və idarə kollektivləri Staxanov iş üsulu və səmərələşdirici tədbirlər tətbiq edərək, yeni-yeni istehsal nailiyyətləri əldə edirdilər.

Azərbaycan dəmir yolunda "ikiyüzçülər" və "beşyüzçülər" hərəkatı geniş yayılmışdı. Bakı bölməsində 4 "ikiyüzçü" briqada çalışırdı. Biləcəri stansiyasının qazan ustası Z.Bağırov növbə planını 600-700 faiz yerinə yetirirdi. Kirovabad (Gəncə) deposunun tokarı V.Həsənov növbə planını 500 faiz, çilingər A.Naydyonov isə 400 faiz yerinə yetirdilər. N.Sudakov eyni zamanda bir neçə dəzgah arxasında işləməklə, gündəlik normanı 2000 faiz yerinə yetirirdi. [26, s. 170]

Dəmiryolçuların əməyini yüksək dəyərtləndirən dövlətimiz 1943-cü ildə Zaqafqaziya dəmiryolu Bakı şöbəsinin bir qrup işçisini orden və medallarla təltif etmişdi. Bakı lokomotiv deposunun qatar sürücüsü Firudin Ağayevə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ad verildi. [24, c.257] 1945-ci ildə dəmiryolçulardan 36 nəfəri müxtəlif orden və medallarla, 116 nəfəri isə SSRİ Dəmir Yolları Komissarlığının Şərəf nişanı ilə təltif edildi. [26, s. 279]

Müharibə illərində Zaqafqaziya dəmiryolunun Bakı şöbəsi dəmiryolçuların böyük əməyi və bütün daxili imkanlarını səfərbərliyə alması sayəsində qarşısına qoyduğu çox mühüm əhəmiyyətli vəzifəni şərəflə həyata keçirdi. 1941-1945-ci illərdə

Bakı şöbəsinin stansiyasından cəbhəyə və və xalq təsərrüfatının ehtiyacları üçün 1 mln. 600 min vaqon, [11, s. 27; 31, c. 97] o cümlədən 480 min vaqona qədər quru yük və 500 min sistern neft məhsulları göndərildi. [5, v. 138 ]

Müharibə illərində Azərbaycanda yeni dəmiryolu xətlərinin çəkilişi də davam etdirilmiş, əhəmiyyətli yenidənqurma işləri görülmüş, ayrı-ayrı keçidlərdə avtoblokirovka quraşdırılmış və dəmiryolu sahələrinin buraxılış qabiliyyətinin yaxşılaşdırılmasına xidmət edən əlavə ikinci yollar inşa edilmişdir. [1, c. 50]

Bu dövrdə Culfa-Mincivan (125,7 km) dəmiryolu sahəsində bir sıra bərpa və yenidənqurma işləri aparılmış, Osmanlı-Astara, Salyan- Neftçala, Papanino-Hacıqabul yollarının (219,9 km) çəkilişi başa çatdırılmış, Yevlax-Stepanakert (Xankəndi) darxətli dəmiryolu (101 km) hissəsi inşa olunmuş, Bakı və Biləcəri stansiyalarında dairəvi dəmiryolu xətləri istifadəyə verilmişdi. Həyata keçirilən bütün bu tədbirlər nəticəsində Azərbaycanda dəmiryol xətlərinin ümumi istismar uzunluğu 1645, 5 km-ə, o cümlədən ikinci dəmiryolu xətlərinin uzunluğu 431 km-ə, avtoblokirovka quraşdırılmış dəmiryolu xətlərinin uzunluğu isə 181 km-ə çatdırılmışdı. [10, s. 90]

Müharibə illərində çox böyük tarixi xidmətlərinə görə SSRİ Müdafiə Komitəsinin qərarı ilə müstəqil Azərbaycan Dəmir Yolu İdarəsi yarandı. SSRİ Yollar Nazirliyinin 1945-ci il 28 iyun tarixli (№ 674 u) əmri ilə Azərbaycan Dəmir Yolu İdarəsi 1945-ci il oktyabr ayının 1-dən etibarən müstəqil oldu. [8, s. 1] Onun inzibati bölgüsü təsdiq edildi. Zaqafqaziya dəmir yolunun Azərbaycan bölməsinin təsərrüfatı və kadrları əsasında yaradılan müstəqil Azərbaycan Dəmir Yolu İdarəsinə Tbe olan ərazilərin sərhədləri baş yolda Qarayazı, digər tərəfdə Arazdəyən və şimalda Dərbənd oldu. [17, s. 23]

Azərbaycan dəmiryolunun müstəqil bir idarəyə çevrilməsinin əhəmiyyəti böyük idi. Çünki hər şeydən əvvəl, yükdaşımanın keyfiyyətini yüksəltməklə bərabər, həm də yol təsərrüfatını qaydaya salmağa və kadrların ixtisaslaşmasını genişləndirməyə imkan verirdi.

Azərbaycan dəmiryolu ilə 1940-cı ildə 8,1 mln. ton yük, 43,2

mln nəfər sərnişin daşınmışdırsa, 1945-ci ildə azalmaqla həmin rəqəmlər 6,0 mln. ton yük və 33,8 mln. nəfər sərnişinə enmişdi. [13, c. 157; 27, c. 192]Azalmaya səbəb həmin illərdə daşınmanın dəniz, boru və avtomobil nəqliyyatı ilə artması idi.

Azərbaycan dəmiryollarında SSRİ Xalq Müdafiə Komissarlığının yüklərini daşıyan hərbi qatarların fasiləsiz hərəkəti və təhlükəsizliyini Azərbaycan SSR Daxili İşlər Komissarlığının nəqliyyat şöbəsi təmin edirdi.

Azərbaycanın nəqliyyat sistemində Xəzər dəniz nəqliyyatı əhəmiyyətli yer tuturdu. Xəzər dəniz nəqliyyatını iki idarə- quru yük donanması ilə məşğul olan Xəzər Gəmiçiliyi İdarəsi (Kaspflot) və Neft daşıyan Xəzər Neft Gəmiçiliyi İdarəsi (Kasptanker) təmsil edirdi. Bunlarla yanaşı, müharibə dövründə Bakı limanı, gəmi təmiri zavodu da fəaliyyət göstərirdi.

1941-ci il iyunun 1-nə olan məlumata görə, "Kasptanker"in tərkibində ümumi yükgötürmə qabiliyyəti 205.720 ton olan 69 tanker və "Kaspflot"un tərkibində isə ümumi yük tutumu 79.330 ton olan 76 gəmi var idi. [22, s. 61]

SSRİ Dəniz Donanması Xalq Komissarlığının göstərişi ilə 1941-ci ilin avqustunda bu idarələrdən Xəzər Hərbi Donanmasına sərnişin daşımaq məqsədilə ümumi yük tutumu 14.718 ton olan 11 tanker ayrılmışdı. [14, c.20] Sərnişin teploxodlarından "Dağıstan", "Türkmənistan", "Qırğızıstan" gəmiləri yaralıları daşımaq üçün üzən qospitala çevrilmişdi.

1941-ci ilin avqustunda "Kaspflot" və "Kasptanker"in 30 gəmisi, o cümlədən "Dağıstan", "Baksovet", "Osetiya", "Kuybışev", "Spartak", habelə "Komintern" tankeri, 29 şalanda (dibi yastı barj) Xəzər sahilində mühüm döyüş əməliyyatlarında fəal iştirak etmişlər. [11, s. 28]

Müharibə illərində SSRİ, Böyük Britaniya və ABŞ arasında faşist Almaniyasına qarşı mübarizədə birgə əməkdaşlığa dair sazişə uyğun olaraq, müxtəlif təyinatlı məhsulların daşınması işi xeyli genişləndi. 1941-ci ilin oktyabrından İran vasitəsilə müttəfiqlərin göndərdikləri kauçuk, mis, qalay, kimyəvi məhsullar və s. idxalına başlandı. [10, s. 92] Lend-liz üzrə SSRİ-yə

verilən döyüş texnikası, silah, sursat və ərzağın bir hissəsi 1942-1945-ci illərdə İran körfəzindən ölkəmizə göndərilirdi. Bu sahədə bütün Azərbaycan nəqliyyatçıları, o cümlədən dəniz nəqliyyatı işçiləri xüsusi fəallıq göstərirdilər. [5, v. 226]Bakı dəniz limanı olduqca gərgin bir şəraitdə işləyirdi. Müharibənin ilk günlərindən başlayaraq, təkcə 1941-ci ilin sonuna qədər bu liman 4500 vaqon köçürülən yük qəbul etmişdi. [14, c 37] Ayrı-ayrı ünvanlardan gələn və yola salınan yüklərin kəsgin dərəcədə artması Bakı limanının yenidən qurularaq genişləndirilməsini, eləcə də onun yüksaxlama və yük buraxma qabiliyyətinin xeyli yaxşılaşdırılmasını tələb edirdi. Buna görə də Bakı limanının 18 və 19 saylı gəmi dayanacaqları yenidən qurulmuş, yardımçı elektrik stansiyasının inşası başa çatdırılmış, 700 metr uzunluğunda yeni yol salınmışdı. 1941-ci ilin ikinci yarısında Bakı dəniz limanı hər birinin yükqaldırma qabiliyyəti 7 ton olan 3 avtomat kranla təchiz edilmişdi.Həmin ilin dekabrında isə limanda hər birinin yükqaldırma qabiliyyəti 7 ton olan 2 özü hərəkət edən yükqaldırıcı kran quraşdırılmış, 500 metr uzunluğunda əlavə dəmir yolu xətti çəkilmiş, 13 min kvadratmetr sahə asfaltla örtülmüş və yükqaldırma qabiliyyəti 6 ton olan yeni yükqaldırıcı kran istifadəyə verilmişdi. [10, s. 92]

Bakı dəniz limanına Vladivostokdan 3 ədəd 7 tonluq avtomat qaldırıcı kran, Odessadan 5 ədəd ağır qaldırıcı kran gətirilmişdi. Mexaniki avadanlıqları işlədə biləcək kadrlar hazırlamaq üçün limanda ixtisas kursları açılmışdı. Azərbaycanın digər limanlarından Bakı limanına 500 nəfər yükvuran fəhlə, 30 nəfər inşaatçı səfərbər edilmişdi. 1942-ci ilin yanvarında DMK-nın qərarı ilə ordu hissəsindən 1000 nəfərlik fəhlə batalyonu göndərilmişdi. Həmin ilin yayında limanda işlərin artması ilə əlaqədar Həştərxandan əlavə olaraq 130 və Quryevdən 120 nəfər yük vuran fəhlə cəlb edilmişdi. Həyata keçirilən əhəmiyyətli tədbirlər nəticəsində ağır yüklərin yüklənib boşaldılması işlərinin 84 faizi mexanikləşdirilmişdi. [26, s. 177-178]

Lakin bu tədbirlər, təəssüf ki, güclü yük axını qarşısında yenə də istənilən nəticəni vermirdi. 1942-ci ilin əvvəllərində Orta

Asiyaya yola salınmaq üçün nəzərdə tutulmuş 13 min ton yük Bakı dəniz limanının anbarlarında yığılıb qalmış, ayrıca 13 min ton yük isə vaqonlarda boşaldılmadan saxlanılmışdı. Həmin vaxtda xaricdən dəniz yolu ilə idxal olunmuş müxtəlif təyinatlı məhsulların daşınması üçün 850 vaqona ehtiyac yaranmışdı.

Bakı dəniz limanının işçiləri bütün çətinlikləri dəf etməyə çalışır, Xəzər dəniz nəqliyyatçıları əsl qəhrəmanlıq hünəri göstərirdilər. 1942-ci ilin yayında Bakı dəniz limanının müxtəlif təyinatlı yüklə dolu olduğu, ixtisaslı kadrların ölkənin şərq rayonlarına köçürüldüyü bir vaxtda DMK-nın təcili tapşırığı əsasında cəmi 8 gün ərzində Bakıdan Krasnovodska 25 min ton marqans filizi, 2,5 min ton metal xəlitəsi və 3 min ton kükürdün yola salınması buna əyani sübutdur. [26, s. 93]

Xəzər dənizində 1942-ci ilin ortalarında vəziyyət xeyli mürəkkəbləşmişdi. Stalinqrad yaxınlığında döyüşlərlə yanaşı alman-faşist təyarələri dəmiryol və dəniz əlaqələrini də ardıcıl bombalayırdı. Xəzər dənizçiləri düşmən təyyarələrinin gəmilərə basqınlarını dəf etməli olmuşdular. 1942-ci ilin oktyabrında Həştərxana doğru hərəkət edən “Ağamalıoğlu” gəmisi, “Jdanov” tankeri havadan hücum nəticəsində zədə almış, ağacdan düzəldilmiş 21 saylı şalanda yanmış, həmin ilin noyabrında yenə həmin istiqamətdə hərəkət edən “Qulubəyov” tankeri və “Amerika” şalandası batırılmışdı. [5, v. 34; 11, s. 29]

1942-ci ildə Xəzər gəmiçiləri 46 dəfə faşist hərbi hava qüvvələrinin hücumuna məruz qalmış və nəticədə vuruşmada faşistlərin 2 bombardmançı təyyarəsini məhv etmişdilər. [26, s.180]

1942-ci ildə Xəzər dənizçiləri cəbhə və ölkənin ehtiyacları üçün 14. 960.ooo ton neft və neft məhsulları daşımışdılar. Həmin ildə onlar təkcə neftdaşıyan gəmilərlə 145 min döyüşçü və 6 min vaqon hərbi texnika daşımışdılar. [26, s.180]

Düşmən ölkənin mühüm neft mərkəzlərindən biri olan Qroznını təhlükə altına aldığı dövrdə Xəzər dənizçiləri benzin daşımağa uyğunlaşdırılmamış neftdaşıyan gəmilərlə Maxaçqa-ladan Həştərxana və Krasnovodska 329 min ton neft məhsulları, o cümlədən 135 min ton benzin aparmışdılar. [5, v. 138]

Müharibə dövründə Xəzər dənizçiləri dünya təcrübəsində ilk dəfə olaraq Bakı nefti ilə doldurulmuş sisternləri gəmilərln yedəyinə alıb aparırdılar. [7, s. 71] Neft daşıyan donanmanın Xəzərdə Bakıdan Krasnovodsk istiqamətində atdığı bu addımın, təşəbbüsün böyük təcrübəvi əhəmiyyəti var idi. Onlar bu üsulla Bakıdan Krasnovodska 35 neftdaşıyan dəmiryol sisternini, Maxaçqaladan Krasnovodska hər birinin 5 ton ağırlığı olan neft çənlərini daşımışdılar.

Müharibənin doğurduğu çətinlikləri mərdliklə dəf edən dənizçilər plan tapşırıqlarını və öhdəlikləri şərəflə, artıqlamasıyla yerinə yetirdilər. Hər bir tanker üçün 7500 ton yük vurulması nəzərdə tutulduğu halda, dənizçilər bu rəqəmi 1941-ci ildə 9500 tona, 1943-cü ildə 10500 tona qədər artırmışdılar. [5, v. 134]

“Kasptanker” və “Kaspflot” böyük çətinliklərə və işdəki bəzi nöqsanlarına baxmayaraq müharibə dövründə Xəzər dənizçiləri qarşısında qoyulmuş vəzifələrə ləyaqətlə cavab verdilər. Bu illərdə “Kasptanker” cəbhə üçün 2 mln. 400 min ton benzin daşımışdı. “Kaspflot”un gəmiləri 1942-ci ildən 1945-ci ilin avqustuna qədər İran limanlarından Krasnovodsk və Maxaçqaladan Bakıya müxtəlif təyinatlı 2.783 min ton mal gətirmişdi. [5, v. 49-50]

Müharibə dövründəki rəşadətli, böyük əməklərinə görə Xəzər gəmiçiliyinin 1534 gəmiçisi Sovet İttifaqının orden və medalları ilə təltif olunmuşdu. “Kasptanker”in kollektivi 14 dəfə DMK-nın Keçici Qırmızı Bayrağını, 4 dəfə ÜİHİMŞ və Dəniz Donanması Xalq Komissarlığının Qırmızı Bayrağını almışdı. “Kaspflot”un kollektivinə iki dəfə DMK-nın, 5 dəfə ÜİHİMŞ VƏ Dəniz Donanması Xalq Komissarlığının Qırmızı bayraqları verilmişdi. [11, s. 29-30; 22, s. 62; 5, v. 221]

Müharibə illəri Azərbaycan avtomobil nəqliyyatı üçün əsl sınaq illəri oldu. Cəbhənin ehtiyaclarını təmin etmək üçün həyata keçirilən səfərbərliklər nəticəsində respublikamızda avtomobillərin sayı kəsgin şəkildə azaldı. Təkcə, 1941-1945-ci illərdə Azərbaycan xalq təsərrüfatının bütün sahələrindən orduya 5457 yük, 371 minik və 301 başqa avtomobil səfərbər edilmişdi. [26, s. 40] Əgər 1941-ci il yanvarın 1-də Azərbaycan SSR Xalq

Avtomobil Nəqliyyatı Komissarlığının 635 avtomobili ( 296 yük, 164 avtobus, 104 sərnişin və 71 yük taksi avtomobilləri) var idisə,[ 2, v. 2] müharibəyə səfərbərlik nəticəsində onların sayı 3,4 dəfə azalaraq, 1946-cı il yanvarın 1-də 182-yə enmişdi. [16, s. 14; 2, v. 1-2]Nəticədə avtomobil nəqliyyatının yük dövriyyəsi xeyli aşağı düşərək 1945-ci ildə 1940-cı il səviyyəsinin cəmi 77 faizini təşkil etmişdi. [15, s. 35]

Sərnişin daşınması işinə də müharibə ağır təsir göstərmişdi. 1941-1945-ci illərdə avtobusların sayı 3 dəfə azalaraq, 164-dən 54-ə enmiş, sərnişin daşınması 2814,6 min nəfərdən 633,8 min nəfərə enməklə 4,4 dəfə və sərnişin dövriyyəsi 50815,1 min sərnişin/km-dən 22921,5 min sərnişin/km-ə düşməklə 2,2 dəfə azalmışdı. [16, s. 14 ;2, v. 1-3 ]

Müharibə dövrünün çətinliklərinə baxmayaraq, Azərbaycanda avtomobil nəqliyyatının inkişaf etdirilməsi istiqamətində də əhəmiyyətli addımlar atılırdı. 1942-ci ildə Bakıda 2 nömrəli Avtomobil təmiri zavodu və avtomobil ehtiyatı hissələri hazırlayan "Avtodetal" zavodu yaradıldı.[ 2, v. 5]

Azərbaycan SSR Xalq Avtomobil Nəqliyyatı Komissarlığının müəssisələri 1941-ci ildə 300 avtomobili, 433 mühərriki, 6730 akkumulyatoru əsaslı təmir etmiş, 862 akkumulyator hazırlamışdılarsa, 1945-ci ildə 365 avtomobili, 564 mühərriki, 3837 akkumulyatoru əsaslı təmir etmiş, 1943 akkumulyator və 747,7 min manatlıq ehtiyat hissələri hazırlamışdılar.[ 2, v. 17]

Yolların yük gərginliyinin artması və daşınılan müxtəlif təyinatlı məhsulların təciliIiyi magistral avtomobil xətlərinin təkmilləşdirilərək yenidən qurulmasını tələb etdiyindən yol işçiləri hərbçilərin köməyi ilə daha vacib magistralları tamamilə yenidən qurmuşdular. 1941-1945-ci illərdə qara çınqıldan örtük salınmış 919 km. yol istismara verilmişdi. Bunlar Bakı-Astara, Arazdayan-Culfa, Bakı-Şamaxı-Gəncə-Ağstafa-Qazax-Qırmızı körpü-Gürcüstan sərhəddinədək uzanan əhəmiyyətli yollar idi. [21, s. 62] Xüsusilə hərbi əhəmiyyətli yollar tikilib istifadəyə verilmişdi. Onlardan 23 km. Yardımlı-Demon, 26 km. Lerik-Kəlviyaz-Sərhəd məntəqəsinədək olan, Astara ərazisində

yaxşılaşdırılmış 80 km., 25 km. Xəzri-Zukul, 10 km. Qusarçay-Xudat məntəqələrarası yolları göstərmək olar. Eyni zamanda Şuşa-Laçın-Zabuq və Biçənək aşırımı, Naxçıvan yolları genişləndirilib, Culfa-Tbilisi-Orconikidze yolunun Azərbaycan hissəsində hərbi məqsədlə fasiləsiz hərəkət təmin edilmişdi. Salyanda Kür çayı üzərində salınan ən iri körpü ilə yanaşı, həmçinin Göyçay, Əlincəçay, Qumbaşı, Pensərçay və digər yerlərdə 500 paqonmetrə yaxın iri metal və dəmir-beton körpülər tikilmişdi. [22, s.51]

Respublikamızda 1945-ci ildə avtomobil yolları öz xidmət dərəcələrinə və əhəmiyyətinə görə üç növə - yerli, respublika və ittifaq əhəmiyyətli yollara bölünürdü. Azərbaycanda İttifaq əhəmiyyətli yollar, əsasən, onun SSRİ-nin başqa respublikaları ilə əlaqələrini yaradan (Bakı-Qazax-Gürcüstan sərhədi, Bakı-Astara-İran sərhədi, Bakı-Quba-Qusar-Dağıstan sərhədi və s.) yolları idi. Rayonlararası və daha gərəkli məntəqələri birləşdirən yollar respublika əhəmiyyətli yollar, digər yollar isə yerli əhəmiyyətli yollar idi. [22, s. 52]

Azərbaycan SSR-də 1945-ci ildə olan avtomobil yollarının 1596 km-i İttifaq, 1256 km-i Respublika və 8174 km-i yerli əhəmiyyətli yollar idi. [22, s. 53]

Azərbaycan SSR-in bütün rabitə vasitələri və təşkilatları ilk gündən öz işlərini müharibənin tələblərinə uyğun quraraq, cəbhə ilə arxanın fasiləsiz, möhkəm və etibarlı əlaqəsini təmin etməyə çalışırdılar.

Respublikamızda 1941-ci ildə 520, 1945-ci ildə 549 rabitə müəssisəsi fəaliyyət göstərirdi. [10, s. 98]1943-cü ilin ortalarından poçt daşınmasında Bakı-Puşkin (indiki Biləsuvar), Astraxanbazar (indiki Cəlilabad) - Prişib (indiki Göytəpə), Yevlax-Nuxa (indiki Şəki) - Zaqatala hava xətlərindən istifadə edilmiş, mövcud Bakı-Moskva, Bakı-Minvod-Stavropol, Bakı-Həştərxan magistral hava nəqliyyatı xətlərinin fəaliyyəti daha da genişləndirilmişdir. Bakı-İrəvan, Bakı-Krasnovodsk (su yolu) xətləri respublikamıza verildiyindən rabitə marşrutlarımızın uzunluğu 4558 km-ə çatmışdı. [4, v. 18]

Respublikamızda 1942-ci ildə müxtəlif rabitə kursları, fərdi şagirdlik briqadaları və Staxanov məktəblərinin təşkili yolu ilə cəbhəyə göndərilmiş ixtisaslı rabitə işçilərini əvəz edə biləcək 1194 nəfər rabitə işçisi hazırlanmışdı. [4, v. 17]

Müharibə illərində Bakı poçt kontorunun fəaliyyəti müsbət mənada daha çox diqqəti cəlb edirdi. Buna görə də onun kollektivinə fədakar əməklərinə görə ÜİHİMŞ və Xalq Rabitə Komissarlığının Keçici Qırmızı Bayrağı verilmişdi. Azərbaycan SSR-nin rabitə müəssisələri arasında genişlənən sosializm yarışında Tovuz, Quba, Jdanov ( indiki Beyləqan), Ağdam, Göyçay rayonlarının yaxşı texniki-iqtisadi göstəriciləri həmişə seçilmişdir. [10, s. 984]

Müharibə ərəfəsində rayonlarımızın hamısının Bakı şəhəri ilə telefon rabitəsi var idi. Müharibə illərində şəhər telefon stansiyalarının sayı 84-ə, abonentlərin sayı 20.489-a və telefon kabellərinin uzunluğu 510,9 km-ə çatdırılmışdı. [4, v. 17] 1941-1945-ci illərdə kənd telefon stansiyalarının sayı 105-dən 112-yə abonentlərin sayı isə 1214-dən 1345-ə yüksəlmişdi. 1945-ci ildə artıq 41 sovxoz, 165 kolxoz və 69 MTS telefonlaşdırılmışdı. [10, s. 99-100]

Radio rabitəsi kütlələrin ictimai-siyasi və vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığı üçün onun ardıcıl və keyfiyyətli verilişlərlə fasiləsiz fəaliyyət göstərməsinə xüsusi fikir verilirdi. Cəbhə yenilikləri ilə əhalini vaxtında məlumatlandırmaq üçün vağzallarda, təşviqat məntəqələrində radio nöqtələri quraşdırılmış, köçürülmüş hərbi xəstəxanalar radiolaşdırılmış, Moskva, Ufa, Aşqabad, Tbilisi şəhərləri ilə yeni radio rabitə əlaqəsi yaradılmış, Bakı radio mərkəzində yenidənqurma və təmir işləri görülmüşdür. [4, v. 41-42, 74 ]Siyəzən və Sumqayıtda yeni radio qovşaqları inşa olunmuş, Neftçala Saatlı, Mərəzə, Naftalan, Ağsu, Ağstafa, Xıllı, Xaldan və Xudatda radiolaşdırma işləri görülmüşdür. [4, i.67, v. 73; i.80, v. 44; i. 81, v.31, 34; i. 85, v. 13, 16 ]

Müharibə illərində respublikamızda radio qovşaqlarının sayı 74-dən 85-ə, radio nöqtələrinin sayı 42.939-dan 59.278-ə çatmışdı.[ 10, s. 101]

**Nəticə.** 1941-1945-ci illərdə Azərbaycan SSR-in nəqliyyat və

rabitəsi müharibənin sınaqlarından uğurla çıxdı. Xalqımızın möhkəm əzmi, yenilməz iradəsi, qələbəyə sonsuz inamı bütün sahələrdə olduğu kimi bu istiqamətdə də öz təsirini göstərdi.

Böyük öndər H.Əliyev 1998-ci il mayın 9-da Böyük Vətən müharibəsində-İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin 53-cü ildönümü münasibəti ilə keçirilən təntənəli mərasimdəki nitqində demişdir: " XX əsrin ən dəhşətli səhifələri olan İkinci dünya müharibəsi bizim üçün çoxlu qurbanla başa çatdı. Amma eyni zamanda, bu müharibə dünyada misli görünməmiş qələbə ilə başa çatdı və alman faşizminə qarşı müharibəyə qalxmış xalqlar, ordular 1945-ci ildə tarixi bir qələbə çaldılar. Zaman keçdikcə, illər ötdükcə bu qələbənin mənası, mahiyyəti və tarixi əhəmiyyəti daha da aydın olur, bütün dünya üçün daha da açılır."

Bəli, bu dəhşətli müharibədən 80 il ötsə də, biz onu qətiyyən unutmamalıyıq! Bu müharibə bəşəriyyəti məhvə sürükləyən alman faşizminin məğlubiyyəti idi. Xalqımızın bu müharibədə qəhrəmanlığı, ölməz hünəri idi. Biz 1418 gün davam etmiş müharibədən nəticə çıxardıb gələcək nəsillərimizi vətənpərvərlik, beynəlmiləlçilik ruhunda tərbiyə etməliyik ki, bəşəriyyətin sülh və əmin-amanlıq şəraitində yaşaması üçün xalqımızın da böyük töhfəsi olsun.

**Азизага Алекперли**

**РЕЗЮМЕ**

## ТРАНСПОРТ И СВЯЗЬ В АЗЕРБАЙДЖАНЕ В ГОДЫ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

В статье отражены серьезные изменения, которые принесла Вторая мировая война, в экономическую жизнь Советского Союза. Транспорт в Азербайджане, как и по всей стране, был реарганизован в соответствии с требованиями военной обстановки. Потому что ответсвенность за своевременное обеспечение войск необходимыми средствами, за предислокацию населения и

предприятий из районов боевых действий в тыл, легла на плечи транспортников.

Азербайджанские железнодорожники и работники Бакинского порта также реорганизовали свою работу с учетом требований военной обстановки и сумели преоделеть трудности. Строились военные дороги, возводились мосты, а транспорт и связь обеспечивали бесперебойную, прочную и надежную связь фронта с тылом.

**Ключевые слова:** война, фронт, транспорт, коммуникация, Фашистская Германия, железнодорожник.

**Azizaga Alekberli**

**SUMMARY**

## TRANSPORT AND COMMUNICATIONS IN AZERBAIJAN DURING THE SECOND WORLD WAR

The article reflects the serious changes that World War II brought to the economic life of the Soviet Union. Transport in Azerbaijan? As well as throu ghout the country? Was reorganized in accordance with the requirements of the militaru situation. Because the responsibility for the timely provision of troops with the necessary resources, for the redeployment of the population and enterprises from combat zones to the rear fell on the shoulders of the transport workers/

Azerbaijani railway workers and employees of the Baky port also reorganized their work taking into account the requirements of the military situation and managed to overcome difficulties. Military roads were built, bridges were erected, and transport and communications ensured uninterrupted, strong and reliable communication between the front and the rear.

**Keywords**: war, front, transport, communıkatıon, fascist germanu, raılwayman

# ƏDƏBİYYAT


1. Ахмедов Г., Кузьмин. Первая в СССР. Баку, 1966, с.50. 289 с.
2. ARDA, f. 2986, s. 1, i. 32.
3. ARDA, f. 1884, s. 46, i. 494.
4. ARDA, f. 1756, s. 2, i. 73.
5. ARPİİSSA, f. 1, s. 280, i. 4.
6. ARPİİSSA, f. 1, s. 318, i. 88.
7. ASE, X c., Bakı, 1987. 608 s.
8. Azərbaycan Dəmir Yolu İdarəsinin yaradılması barədə SSRİ Yollar Nazirliyinin əmri/“Kommunist” qəz., 1945, 29 iyun.
9. Azərbaycan MEA Tarix və Etnologiya İnstitutunun Elmi Arxivi, f. 1, s. 3, i. 4.
10. Azərbaycan SSR xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində. Bakı, Elm, 1985. 188 s.
11. Azərbaycan tarixi, Yeddi clddə, VII c. Bakı, Elm, 2003. 676 s.
12.Багиров А.М. Железнодорожники Азербайджана в Великой Отечественной войне 1941- 1945 гг. –«За технический прогресс» журн., 1975, № 5.
13. Достижения Советского Азербайджана за 40 лет в цифрах. Стат. Сборник. Баку, 1960. 258 с.
14.Эдлинский С.Ф. Каспийский транспортный флот в великой отечественной войне Советского Союза 1941-1945 гг. М., Морской транспорт, 1963. 227 с.
15.Əbdülsəlimzadə Q. Azərbaycan iqtisadiyyatı Böyük Vətən müharibəsi illərində. Bakı, Elm, 1985. 320 s.
16.Ələkbərov Əzizağa. Azərbaycan avtomobil nəqliyyatının bərpa və inkişaf etdirilməsi tarixi (1946-1960-cı illər). Tar. elm. nam. diss. avtoref. Bakı, 2001. 28 s.
17.Əlizadə N. Azərbaycan dəmir yolu nəqliyyatı Böyük Vətən müharibəsi illərində (1941-1945-ci illər). Tar. elm. nam. diss. aftoref. Bakı, 1997. 26 s.
18. Əmrahov Mais. Azərbaycan SSR İkinci Dünya müharibəsində (1939-1945-ci illər). Bakı, “İdeal-Print” MMC, 2021. 970 s.
19. История Второй Мировой войны. 1939-1945. в 12-Х. Т.2. М., Воениздат, 1973. 474 с.
20. Hüseyn Günay. Bakı dəniz limanı 1941-1945-ci illər müharibəsi dövründə. Bakı, “MM-S”, 2022. 204 s.

21. Hüseyn İ. Azərbaycanın yol tarixi. İ kitab. Bakı, Azərbaycan, 1995. 128 s.

22. Hüseyn İ. Azərbaycanın yol tarixi. II kitab. Bakı, Dünya, 1996. 176 s.

23. Кадурин Н. Зашита Каспийской флотилей морских перевозок. М., Военно-исторический журнал, 1978, № 4. 41-51 с.

24.Конарев Н.С. Железнодорожники в Великой Отечественной войны 1941-1945. М., Транспорт, 1985. 398 с.

25. Мадатов Г.А. Азербайджан в Великой Отечественной войне. Баку, Элм, 1975. 403 с.

26. Mədətov Q. Azərbaycan Böyük Vətən müharibəsində. Bakı, Elm, 1965. 504 s.

27. Народное хозяйство Азербайджанской ССР в 1975 году. Стат. Ежегодник. Баку, 1976. 281 с.

28. Советская экономика в период великой отечественной войны (1941-1945). М., Наука, 1970. 503 с.

29. Тюленов И.В. Через три войны. М., Воениздат, 1960. 176 с.

30. Vəkilov C.M. Azərbaycan Respublikası və İran: 40-cı illər. Bakı, Elm, 1991. 136 s.

31. Зейналов З.А., Керимбекова Б.Н. Стальной магистрали Азербайджана 100 лет (1880-1980 гг.). Баку, Азернешр, 1980. 164 с.

**GÜLŞƏN XALIQOVA***

# AZƏRBAYCAN SƏNAYESİ CƏBHƏNİN XİDMƏTİNDƏ


## XÜLASƏ

İkinci Dünya müharibəsi dünya tarixinin ən qanlı münaqişələrindən biri olaraq tarixdə iz qoymuşdur. Sənaye və kənd təsərrüfatını bütün istehsal gücünü cəbhənin ehtiyacları üçün səfərbər etmək , sənaye müəssisələrinin qısa müddətdə hərbi məhsul istehsalına keçməsini təmin etmək , yeni hərbi zavodlar tikmək , nəqliyyatın hərbi qrafik üzrə işləməsini təşkil etmək , bir sözlə bütün ölkəni döyüşən ordunun etibarlı cəbhəxanasının , tükənməz təchizat mənbəyinə çevirmək bütün SSRİ xalqları qarşısında duran başlıca təxirə salınmaz vəzifə idi.


**Açar sözlər:** Böyük vətən müharibəsi, İkinci dünya müharibəsi, faşist Almaniyası, sənaye mərkəzi

Müharibə başlayan kimi Azərbaycan Respublikasının sənaye müəssisələrindən orduya çoxlu sayda fəhlələr səfərbərliyə alındı. Onların yerini gənclər, təcrübəsiz insanlar tutdular. Təkcə Bakı sənaye müəssisələrinə 70 minə qədər gənc işə daxil oldu. Onlar gündə 10-12 saat işləyir, planı artıqlaması ilə yerinə yetirirdilər. Lvovu və Leninqradı müdafiə etmək çağırışına Azərbaycan fəhlələri əmək nailiyyətləri ilə cavab verirdilər. Məsələn, Vorovski adlı zavodda işləyən bir fəhlə Moskvanın müdafiəsi növbəsində dayanaraq cəbhə sifarişini yerinə yetirmək üçün 3 gün 3 gecə iş yerindən çəkilməmişdi.

Çox ağır hərbi – siyasi şəraitdə çıxış yolunu xalqın gücündə görən Sovet İttifaqı rəhbərliyi tükənməz maddi və mənəvi qüvvələrini hərəkətə gətirdi, bu qüvvələrdən alman faşist işğalçılarını darmadağın etmək üçün məharətlə istifadə etdi. [13, 105].

---

* Azərbaycan Dövlət Pedaqoji Universiteti .

1941-ci ilin dördüncü rübü və 1942-ci ilin iqtisadi tədbirlər planı işlənib hazırlandı. Həmin plana görə SSRi xalqları qısa müddət ərzində sənaye və nəqliyyatı hərbi tələblərə uyğun olaraq yenidən qurmalı, cəbhə xəttində və düşmən işğalı təhlükəsində olan rayonlardan sənaye müəssisələrini şərqə köçürüb orda işə salmalı, hərbi məhsul istehsal edən yeni zavodlar tikməli , sənayeni fəhlə kadrları ilə təmin etməli, kənd təsərrüfatını müharibənin ehtiyaclarını ödəmək üçün səfərbər etməli idi. [2, 15].

Sovet ordusu sıralarına səfərbərlik respublika iqtisadiyyatının müxtəlif sahələrindən on minlərlə ixtisaslı kadrları və çoxlu işçi qüvvəsini istehsalatdan ayırdı. 1941-ci ildə Azərbaycan SSR neftayırma sənayesi müəssisələrində işləyənlərin üçdə birindən çoxu vətəni müdafiə edənlərin sırasına getmişdilər. Səfərbərlik nəticəsində neftçıxarma sənayesində briqadaların sayı yarıdan çox azalmışdı. Respublikanı elektrik sənayesinin fəhlə qulluqçularının 40 faizi ordu sıralarına səfərbər edilmişdi. Respublikada kənd təsərrüfatında vəziyyət sənayedəkindən heç də yaxşı deyildi. [3, 11].

Sənaye müəssisələrinin kənd təsərrüfatı sahələrinin maddi-texniki bazaları əsaslı surətdə zəifləmişdi. 1941-1942-ci illərdə respublika iqtisadiyyatından orduya 5457 yük, 371 minik, 301 başqa avtomobil , 476 traktor , 500 min at səfərbər edilmişdir. [4, 258 ].

Azərbaycan SSR zəhmətkeşləri belə ağır mürəkkəb şəraitdə iqtisadiyyatı hərbi qaydada yenidən qurmalı, sovet ordusu üçün silah və hərbi sursat istehsalını qısa müddətdə təşkil etməli ölkəni və ordunu kənd təsərrüfatı məhsulları sənayeni işə xammalla təchiz etmək üçün misilsiz səy göstərməli , fədakarcasına çalışmalı idilər. Ölkənin iqtisadi potensialının artırılmasında xalq təsərrüfatı üçün ixtisaslı kadrların hazırlanması mühüm əhəmiyyətə malik idi. SSRİ miqyasında hərbi gücü artırmaq məqsədilə SSRİ Ali Soveti Rəyasət Heyəti 1940-cı il oktyabrın 2-də "SSRİ dövlət əmək ehtiyatları haqqında" fərman verdi. Fərmana görə fabrik-zavod və dəmiryol məktəblərində ildə 800

mindən bir milyonadək ixtisaslı fəhlələr hazırlanması planlaşdırılırdı. 1940-cı il oktyabrın 3-də Azərbaycan K(b)P MK SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını həyata keçirmək məqsədilə məsələ müzakirə etdi. [ 5].

Sovet dövləti iqtisadiyyatın hərbi qaydada yenidən qurulmasında düşmən üzərində qələbənin iqtisadi zəminin yaradılmasında sovet gənclərinin tükənməz qüvvəsinə böyük əhəmiyyət verirdilər. İstehsalçılardan cəbhəyə gedənlərin yerini gənclər və yeniyetmələr tuturdular. 1941-ci ildə respublikada 28 fabrik zavod təhsili məktəbi, 12 sənət məktəbi, 2 dəmir yol məktəbi, gənc fəhlə kadrlarının hazırlığı ilə məşğul idi. Bunlaraın çoxu ancaq neft sənyesi üçün ixtisaslı fəhlə kadarları hazırlayırdı [12, 52].

1942-ci ilin yazında Bakı Şüşə zavodu istifadəyə verildi. Qafqaz uğrunda döyüşlər zamanı zavod milyonlarla yandırıcı butulka və onun ampulu üçün şüşə boru hazırlamışdı. Zavod Hərbi Dəniz Donanmasının sifarişi ilə sualtı qayıqlar və hərbi gəmilər üçün izolyasiya diski və şüşə kobla istifadə etməyə başlamışdır.

Müharibə illərində cəbhənin neft tələbatının 70, yüksək oktanlı benzin və sürtgü yağına olan ehtiyacının 100 faizini Bakı ödəyirdi. Azərbaycan nefti öz yüksək keyfiyyətinə görə fərqlənirdi. 1940-cı il üçün SSRİ-də istehsal olunan yüksək oktanlı təyyarə benzininin 80 faizi avtotraktor və sənaye sürtgü yağlarının 90 faizi respublika neft sənayesinin payına düşürdü. Neftayıranlar illik neft planını 122, 8 %, benzin istehsalı planını isə 118% yerinə yetirməyə nail oldular.

438 №li zavodun kollektivi alimlərlə qarşılıqlı əməkdaşlıq sayəsində hərbi dəniz donanmasında mühüm əhəmiyyətə malik olan tüstü ilə maskalanma üçün, “PDA-ARS” və “PDA-ZİS” aparatları hazırladı. 1941-1942-ci illər müharibəsi başlanan kimi respublikanın yerli sənayesi müdafiə məhsulu istehsalına keçərək döyüş ləvazimatı hissələri, sovet ordusu üçün təsərrüfat şeyləri, isti çəkmə, kimyəvi maddə əleyhinə paltar, hərbi xəstəxanalar üçün mebel, paltar, yanğın əleyhinə avadanlıqlar

hazırlamağa başladı. [12, 72].

Müharibə dövründə Azərbaycan SSR, xüsusilə onun paytaxtı Bakı şəhəri öz çoğrafi mövqeyinə görə dəmir yol və su yolları ilə hərbi yüklərin daşınmasında müstəsna əhəmiyyətə malik idi [12, 59].

Müdafiə tədbirləri üçün xüsusi qatarlar düzəldildi. Azərbaycan əhalisinin fədakar əməyi nəticəsində 1941-ci ildə respublikada çox mühüm hərbi və xalq təsərrüfatı əhəmiyyəti olan Culfa-Mincivan, Salyan-Neftçala, Papanin-Hacıqabul dəmir yol xətləri çəkilib istifadəyə verildi. Yevlax –Xankəndi dəmir yol xəttinin çəkilişi sürətləndirildi. Biləcəri – Dərbənd və Ələt – Mincivan arasındakı yolların relsləri dəyişdirilib, əsaslı surətdə təmir edildi. Azərbaycan SSR-də yeni dəmir yol xətlərinin çəkilməsi qoşun və hərbi – sürsat daşınmasında böyük rol oynadı. [12, 60].

Müharibə dövründə qara və əlvan metal toplantısı toplamaq üçün 218 ümumrespublika iməcliyi keçirilmiş bu iməcliklərdə 319, 191 adam iştirak etmişdir. Republikamızda 255, 584, 8 ton əlvan və qara metal qırıntısı toplanıb metalurgiya zavodlarına verilmişdi. Bu qırıntıların çəkisi orta hesabla 2, 380 tanka və yaxud 3, 400 ədəd orta kalibrili topa sərf olunan metala bərabər idi. 1945-ci ilin əvvəlində təkcə Bakı sənaye müəssisələrində və dəmir yol nəqliyyatında 1, 257 gənclər briqadası işləyirdi. Müharibə illərində sənaye sahələrində olduğu kimi kənd təsərrüfatında da fədakarlıq nümunələri göstəridi. Kolxoz və sovxozlarda gənclər briqadlarının sayı artmağa başladı. 1942-ci ildə kənd təsərrüfatında cəmi 1230 gənclər briqadası olduğu halda, 1943 – cü ildə 2, 825 manqa, 1945-ci ildə isə 3, 165 manqa işləyirdi. Azərbaycan əhalisi öz şəxsi vəsaitini də əsirgəmirdi. [6].

Müharibə illərində respublikada iqtisadiyyatın mühüm sahəsi olan sənayenin hərbi qaydada yenidən qurulması sahəsində böyük işlər görüldü. Dinc dövrün tələbatını ödəyən sənaye sahələrində məhsul istehsalı azaldı. Müharibənin tələbatını ödəmək məqsədilə neft və onunla əlaqədar sahələrin inkişafı ön plana çəkildi. Bütün çətinliklərə baxmayaraq,

neftçilər əvvəlki dövrlərdə olduğundan daha fədakarlıqla çalışır, cəbhəni və iqtisadiyyatın bütün sahələrini yanacaqla təmin edirdilər. Elə müharibənin ilk illərindən Azərbaycan neftçiləri və neft-kimya sənayesində işləyən alimləri müharibəni yüksək keyfiyyətli neft məhsulları ilə təchiz etmək üçün səylə çalışırdılar. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə aviasiya benzini istehsalının yeni texnologiyası hazırlandı. Azərbaycanda yüksəkoktanlı benzin istehsalına başlandı. Neftçilərimizin fədakar və gərgin səyləri nəticəsində Azərbaycanda neft hasilatı İttifaqda çıxarılan neftin 71,4 faizini təşkil edirdi. Azərbaycan neftçiləri müharibə illərində ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları verirdilər. Faşizm üzərində qələbənin əldə edilməsində Bakı nefti həlledici amillərdən biri olmuşdu. Müharibənin ağırlığının böyük bir hissəsini öz üzərinə götürmüş Sovet ordusunun dənizdə, quruda və havada düşmən üzərində üstünlük qazanmasında Bakı nefti misilsiz rol oynamışdı. Təkcə bu faktı demək kifayətdir ki, o dövrdə hər beş təyyarə, tank və avtoma-şından dördü Bakı mədənlərində çıxarılan, onun neft emalı zavodlarında istehsal olunan yanacaqla işləyirdi. [7].

Sənayenin başqa sahələri də müharibənin tələbatlarını nəzərə almaqla yenidən quruldu. Yüngül sənayenin toxuculuq, tikiş, ayaqqabı istehsalı və yeyinti sənaye sahələri tamamilə cəbhə üçün məhsul istehsalına keçdi. Qısa müddət ərzində Bakı döyüşən ordunun mühüm cəbbəxanalarından birinə çevrildi. 1942-ci ildə Bakının sənaye müəssisələrində 130 növ müxtəlif silah, hərbi sursat istehsal edilirdi.

Müharibə dövründə Bakı zavodları cəbhə üçün hərbi texnika, silah-sürsat istehsal edirdi. Bu dövrdə Azərbaycanın əsas istehsal qüvvələri tamamilə hərbi ehtiyaclarını qarşılanmasına yönəlmişdir. Çünki Bakı nefti olmadan Sovet İttifaqının müharibədə qalib gəlməsi son dərəcə çətin olardı. Avtomobil, tank, təyyarə və gəmilərin yanacaq təchizatı böyük miqdarda neft tələb edirdi. Sovet ordusu üçün bu tələbatı əsasən Bakı qarşılayırdı. Bakı neftinin təmin etdiyi yanacaq,

müharibənin müxtəlif cəbhələrində Sovet ordusuna həlledici üstünlük qazandırdı. Bundan əlavə Azərbaycanın zavodları müharibə üçün çox vacib olan avadanlıqalar və ehtiyat hissələri istehsal edirdi. Müharibənin gedişində sovet təyyarələri və tankları məhz Bakı neftinə əsaslanaraq faşist qoşunlarına qarşı mübarizə aparırdı. Müharibə dövründə neft istehsalının 70 % - i Bakıya məxsus idi. Bakını yalnız neft mənbəyi kimi dəyərləndirən sovet rəhbərliyi bu resursların müharibədə qələbə üçün strateji şəkildə istifadə edirdi. Əlbəttə ki, Bakı nefti alman ordusu üçün böyük əhəmiyyət kəsb edirdi. Xüsusi ilə Hitler Cənubi Qafqaza, Azərbaycana xüsusui marqa göstərirdi. Almaniyanın Qafqazı tutmaq planı "Edelveys" adlanırdı. Amerika Birləşmiş Ştatları və Böyük Britanaiya dövlətləri də Qafqazı tutmaq üçün "Vilvet" planı hazırlamışdılar [8].

Sovet sıralarında vuruşan Azərbaycan əsgərləri qələbənin qazanılmasında fədakarlıq göstərmişdilər. Azərbaycanlıların fədakarlığı, cəbhəyə göstərdiyi maddi və mənəvi dəstək müharibənin nəticələrinə birbaşa təsir göstərmişdir.

Böyük Vətən müharibəsi dövründə Azərbaycanda yalnız kişilər deyil, həm də qadınlar və uşaqlarda böyük fədakarlıq nümunələri göstərmişdir. Müəssisələrdə və kolxozlarda işləyənlərin təxminən 70 faizi qadınlar idi. Müharibənin başlandığı gündən etibarən Azərbaycan qadınları fabrik və zavodlarda gecə-gündüz çalışaraq cəbhəyə göndərilən əsgərlərin silahlanmasına və ərzaq təminatına kömək edirdilər. Kişilərin cəbhəyə getməsi nəticəsində çoxlu sayda qadın istehsalat sahələrində çalışmağa məcbur olmuşdur. Azərbaycan qadınları neft mədənlərində və kənd təsərrüfatında da fəal iştrak edirdilər. Uşaqlar da cəbhəyə göndərilən məktubları, müxtəlif yollarla dəstək göstərirdilər. Bütün bunlar onu sübut edir ki, Azərbaycan bütövlükdə müharibənin yükü öz üzərinə götürmüşdür. Əhali şəxsi vəsaitlərindən müdafiə fonduna 15 kiloqram qızıl, 952 kiloqram gümüş, 320 milyon rubl verib. Müharibə zonasına 1, 6 milyondan çox zəruri mal və 125 vaqon st geyim göndərmşdilər. Leninqrad üçün 1942-ci ilin yay ayına qədər Bakı müəssisələri

2 vaqon qara kürü, 12 vaqon şirə, qaraciyər ekstraktı, hümalogen, jelafin və digər qida məhsullları , habrlə dərman və sarğı vasitələri göndərilb. Ölkə xəstəxsnslsrınds cəbhədə yaralanmış Ölkə xəstəxsnslsrınds cəbhədə yaralanmış 440 mni nəfər müalicə olunmuşdur. [9].

Bakıda Səttərxan adına zavodda müharibə üçün silah-sürsat istehsalı sürətlə həyata keçirilirdi. Burada "Katyuşa" raketləri, "Spakın" pulyemotları və "YAK-3" qırıcı təyyarələri kimi strateji əhəmiyyətə malik məhsullar istehsal olunurdu. Paytaxtın o vaxt Keşlə adlanan qəsəbəsində "168" və "458" saylı iki təyyarə zavodu fəaliyyət göstərərək, fasiləsiz olaraq UTI-4 və YAK-3 tipli qırıcı döyüş təyyarələri istehsal edirdi. Eyni zamanda Gəncə şəhərində böyük bir təyyarə təmiri zavodu fəaliyyət göstərirdi. Buradan 782 təyyarə, 1550-dən çox təyyarə mühərriki və digər ehtiyyat hissələri cəbhəyə göndərildi. [10].

Müharibədən sonrakı ilk illərdə iqtisadiyyatın başqa sahələri kimi sənaye də dinc quruculuq dövrünün tələblərinə uyğunlaşdırıldı və tədricən inkişaf etməyə başladı. Müharibə qurtarandan cəmi üç il altı ay sonra, 1948-ci ildə respublika sənayesi müharibədən əvvəlki səviyyəni üstələyən məhsul buraxılışına nail olmuş, Azərbaycan sənayesi müharibədən sonrakı beş il yeddi ay ərzində tamamilə dinc quruculuq dövrünün tələblərinə uyğunlaşdırılmış və xeyli irəliləyib inkişaf etdirilmişdi. [11].

İkinci Dünya müharibəsi illərində Azərbaycan Respublikasının böyük xidmətləri əvəzsizdir. Bunu öz çıxışında Ümummilli lider Heydər Əliyev söyləmişdir: "Əgər Bakının nefti olmasa idi Sovetlər İttifaqının qələbəsi mümkün deyildir" Heydər Əliyevin digər bir nitqində xalqımızın xidmətləri haqqında bildirmişdir. "Tarix bu gündə bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti , fəaliyyəti, rolu çox böyük olmuşdur. H.Əliyev 2003-cü ilin 25 fevralında Vaşinqtonda "Şərq-Qərb enerji dəhlizi reallıqdır" mövzusunda beynəlxalq konfransda nitqində qeyd etmişdir: "Çoxları indi də deyir ki, əgər Azərbaycan nefti olmasaydı, İkinci Dünya müharibəsində SSRİ-nin İngiltərə Amerika

koaliyasiyası ilə birlikdə alman faşizminə qalib gəlməsi mümkün olmazdı”. Həmçinin Prezident İlham Əliyev 2024-cü ilin oktyabrın 8-də çıxışı zamanı Azərbaycanın Böyük Vətən müharibəsindəki tarixi rolunu bir daha qeyd edərək bildirdi ki, Azərbaycan müharibə dövründə həm ön cəbhədə , həm də arxa cəbhədə göstərdiyi fədakarlıqla faşizm üzərində qələbəyə həlledici töhfə vermişdir. Bakı neftinin strateji əhəmiyyətini xüsusi olaraq qeyd edən prezident Azərbaycan xalqının dözümlüyünü və qəhrəmanlığını dünya miqyasında tanıtmaq zərurətini irəli sürmüşdür. Azərbaycan SSR iqtisadiyyatı 1941-1945-ci il müharibəsindən şərəflə çıxdı. Müharibədə göstərdiyi misilsiz kütləvi qəhrəmanlığın ayrılmaz hissəsi oldu [13].

Bakı nefti hələ də qlobal əhəmiyyətini qorumuş, dünyanın enerji xəritəsində mühüm yer tutur. Hal-hazırda Azərbaycan heç bir ölkədən enerji asılılığı olmayan, öz enerji imkanlarını öz hesabına ödəməyə qadir olan bir ölkədir. Cənubi Qafqazda lider, dünyada aparıcı dövlətlərdən biridir.

**Гюльшан Халыгова**

**РЕЗЮМЕ**

## ПРОМЫШЛЕННОСТЬ АЗЕРБАЙДЖАНА НА СЛУЖБЕ ФРОНТА

Вторая мировая война оставила след в истории как один из самых кровавых конфликтов в мировой истории. Мобилизация всех производственных сил промышленности и сельского хозяйства для нужд фронта, обеспечение перехода промышленных предприятий на производство продукции военного назначения в короткий срок, строительство новых военных заводов, организация работы транспорта по военному графику, словом, превращение всей страны в надежный фронт боевой армии и неиссякаемый источник снабжения было главной неотложной задачей, стоявшей перед всеми народами СССР

**Ключевые слова:** Великая Отчественная война, Вторая

мировая война, нацистская Германия, промышленный центр.

**Ghulshan Khaligova**

## SUMMARY

## AZERBAIJANI INDUSTRY AT THE SERVICE OF THE FRONT

The Second World War has left a mark in history as one of the bloodiest conflicts world history. Mobilizing all the production power of industry and agriculture for the needs of the front, ensuring the transition of industrial enterprises to the production of military products in a short period of time, building new militaryfactories, organizing the operation of transport according to the military schedule, in short, turning the entire country into a reliable frontline of the fighting army and an inexhaustible source of supplies was the main urgent task facing all the peoples of the USSR.

**Keywords:** Great Patriotic War, World War II, Nazi Germany, industrial center

## ƏDƏBİYYAT

**1.**Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə (XIX-XXI əsrin əvvəli) // Bakı: "Bakı Dövlət Universiteti" nəşriyyatı, 2010, 545 səh.

2.Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər) // Bakı: "Elm". 2008, 608 səh.

3.Bəhramov C.Ə. Azərbaycan tarixi. VII cild: Bakı, 2003.–I bölmə, Azərbaycan İkinci dünya müharibəsi dövründə. I fəsil, Böyük Vətən müharibəsinin başlanması. Azərbaycan SSR-də hərbi, iqtisadi və mənəvi səfərbərlik. s.11–17;

4.Əmrahov M.İ XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı / Bakı: 2009. -366

5.Əmrahov M.İ Azərbaycan mədəniyyəti İkinci Dünya müharibəsi illərində/ Bakı:2004.

6.Əmrahov M.İ. İkinci Dünya müharibəsi.1939-1945 / Bakı: “Mütərcim”, 2010, -552 səh.

7.https:// respublika-news.az/az II Dünya müharibəsində Azərbaycanın tarixi rolu -534 20.10.2024 11:36

8.https://azvision.az// news/258956/ news.html 30 aprel 2021 17: 05

9.XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik/ Bakı: “Təhsil”, 2009. - 560 səh.

10.İsmayılov İ.Z. Azərbaycanlıların II Dünya müharibəsində iştirakı / Bakı: 2000.

11.Mədətov Q. Azərbaycan Böyük Vətən müharibəsi illərində/ Bakı: 1965.

12.Mədətov Q.Ə.Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində. Bakı “Turxan” NPB, 2018, 544 s

13.Yaqublu N. Azərbaycan legionerləri / Bakı: “Çıraq”, 2005, 336 səh.

**ТАМИЛЛА КЕРИМОВА-КОДЖАЕВА***

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ НАУЧНЫХ ИССЛЕДОВАНИЙ НЕФТЕХИМИКОВ АЗЕРБАЙДЖАНА ПО БЕСПЕРЕБОЙНОМУ СНАБЖЕНИЮ ФРОНТА ВОЕННОЙ ТЕХНИКОЙ И БОЕПРИПАСАМИ В ГОДЫ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

## РЕЗЮМЕ

Musiqi və teatr kollektivləri yüksək vətənpərvərlik nümunəsi göstərirdilər. Bədii yaradıcılıqda əsasən tarixi ənənə, nəsillərdə süzülüb gələn irs, keçmişin və bu günün vəhdəti, vətən sevgisi böyük rol oynayırdı. Düşmənə nifrət, humanizm, ədalət, qələbəyə inam, azadlıq ideyası bu dövr əsərlərinin məzmunu üçün xas idi. Yaradıcı ziyalıların müharibəyə cavabı ləngimədi. Bu illərdə mahnı yaradıcılığı geniş vüsət aldı. L.Kumaç və A.Aleksandrovun "Müqəddəs müharibə" mahnısı sovet məkanında müharibəyə qarşı bir çağırış, bir üsyan oldu. Sovet bəstəkarları, o cümlədən, Azərbaycan bəstəkarları xalqı qələbəyə ruhlandırmaq üçün əl-ələ verdilər. Simfonik və kamera musiqisi dövrün ən böyük bəlasının iç üzünü musiqinin sehrli dili ilə açıb göstərirdi. Faşizmə qarşı mübarizə ümumxalq işinə çevrilmişdi. Bəstəkarlar Ü.Hacıbəyov, Q.Qarayev, F.Əmirov, C.Cahangirov, Ə.Bakıxanov, S.Rüstəmov və başqaları 400-dən çox mahnı, marş bəstələmişdilər. "İzvestiya" qəzeti yazırdı: "Bugünkü gənc bəstəkarların istedadlı nəsli təkcə hərbi dövrün musiqisini deyil, gələcəyin musiqisini də bəstələyir". [9, s.96]

F.Əmirov və Q.Qarayevin "Vətən" operası ən ali mükafata Dövlət mükafatına layiq görüldü. Azərbaycan opera sənətinin banisi Ü.Hacıbəyov da müharibə dövrünün ağrı acısıyla üzləşmişdi. Vətənpərvərlik ruhunda "Şəfqət bacısı","Yaxşı yol," mahnılarını, "Döyüşçülər" üverturasını,"Vətən və cəbhə" kantatasını bəstələmişdi.

Şifahi xalq yaradıcılığı-aşıq sənəti də müharibənin odundan alovundan keçmişdi. Bu illərdə Azərbaycan aşıqları 3650 konsert vermişdilər. Aşıq Teyyub, aşıq Əsəd, aşıq Qara əllərində telli saz cəbhəni dolaşaraq sovet döyüşçüsunün mənəvi gücünə çevrilirdilər. Aşıq Mirzə almanlara qarşı rəşadətlə döyüşmüşdür. O, öz döyüş dostu Kamal Qasımovun qəhrəmanlıqlarından bəhs edən "Kamal" dastanını yaratmışdı. Aşıq Kamalın dilindən yazırdı:

Mən gedirəm vuruşlara,
Düşmənləri çəkim dara.

Kürəyimdən alsam yara,
Sevgim mənə haram olsun.

Müharibə sosialist məfkürəsi və xalqlarımızın mənəvi sərvətləri üçün də çox ciddi bir sınaq idi. İctimai fikrin başqa sahələri kimi sovet ədəbiyyatı, o cümlədən də Azərbaycan xalqının bədii sənəti bu sınaqdan şərəflə çıxdı. Böyük Vətən müharibəsinə dair Azərbaycan ədəbiyyatının ilk nümunələri 1941-ci il iyunun 22-dən yazılmağa başlanmış, həmin günün səhəri çap olunmuşdur. V.Mayakovskinin dediyi kimi, söz ustaları qələmlərini süngü edərək düşmənə qarşı fəal mübarizəyə başladılar. Onlar müharibənin bədii salnaməsini, sovet xalqının tarixi qəhrəmanlığını əks etdirən qiymətli əsərlərlə ədəbiyyatımızı zənginləşdirmişlər. Müharibənin xalqlara, ailələrə qətirdiyi məhrumiyyətləri, məhv etdiyi milyonlarla insanın faciəsini bədii şəkildə əks etdirən əsərlər, bu fəlakətlərin bir daha təkrar edilməməsi naminə yeni nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsini ehtiva edir. [8, s.78]

Müharibənin əvvəllərində ilk həftələrin, ayların tələbindən doğan nida, çağırış, mübağiləli ritorika sonralar tamamilə aradan qalxmadısa da, getdikcə şairlərimizi insana onun mənəvi aləminə, hiss və duyğularına, psixikasına muharibənin təsiri məsələsi daha çox məşğul etdi. Şeirimizdə gurultulu sözlər, ifadələr yerini mürəkkəb bəşəri həyacanların bədii ifadəsinə, xalqın qəhrəmanlıq mübarizəsinin geniş əhatəli təsvirinə verdi. [6, s.47]

Faşizmə qarşı mübarizə ədəbiyyatda geniş əks olunurdu. Faşistlərin ayağı dəyən hər yerdə insanlığa, mədəniyyətə, hətta təbiətə qarşı çoxlu cinayətlər bədii ifadə vasitəsi ilə əks olunur, xalqın düşmənə nifrəti artırırdı. Səməd Vurğun yazırdı: "Qəhrəmanlıqla poeziya əkizdir. Hələ lap qədim zamanlarda insan öz azadlığı uğrunda mübarizə aparարkən yalnız ox, qılınc və toplarla deyil, həm də mahnılarla silahlanırdı. Bədii söz həmişə xalq bahadırlarının, qəhramanlarının əlində müqtədir silah olmuşdur". [8,s.13]

Əlində silah ön cəbhədə vuruşan yazıçı və şairlərin əksəriyyəti müharibənin məhrumiyyətlərini görmüş, bu dövrü əks etdirən samballı əsərlər yazmışdılar. İ.Şıxlı, B.Qasımzadə, Ə.Əlibəyli, H.Abbaszadə, Əbülhəsən, İ.Səfərli, C.Xəndan müharibənin odundan alovundan çıxmışdılar. Bu dönəmdə hər 3 janrda: poeziya, nəsr və dram janrında əsərlər yazılırdı. S.Vurgun, R.Rza, O.Sarıvəlli, S.Rüstəm, M.Rahim gələcəyə inamla düşmənə nifrət ruhunda sevirlər yazırdılar. S.Vurğun "Yanğın,Göyərçin" şeirində Qroznı şəhərinin bombard-manlardan sonrakı vəziyyətini təsvir etmişdir. Od tutub yanan şəhərdə tüstünün, alovların içində ayın, ulduzun boğulduğunu görür, yanan hər bir evin, hər bir küçənin insan əli ilə yaradılmış bir əsər olduğunu, faşizmin barbarcasına sivil dünyanı məhv etməsini pisləyirdi. Ukrayna tənqidçisi M.Rılski yazırdı: "S.Vurğun elə yazır ki, sanki, öz doğma şəhərini, torpağını tərənnüm edir". Bu dövrdə S. Vurğunun "Ananın öyüdü", “Moskva”, "Ukrayna partizanlarına", S.Rüstəmin "Hücum", "And", "Ana və poçtalyon", A.Faruqun "28 qvardiyaçı", O.Sarıvəllinin "Qan qardaşı" şeirləri cəbhədə Azərbaycan əsgərlərinin dilinin əzbəri olmuşdur. R.Rzanın "İntiqam" şeri balaları gözləri qarşısında süngüyə taxılan qadının saçlarının qəfil apardığını təsvir edir. [2, s.398]

Poeziyadan danışarkən Azərbaycanın cəsur oğlu – Mehdi Hüseynzadənin şeirlərini xatırlamaq yerinə düşər. O, həm iste-dadlı rəssam, həm də şair idi. Mehdi Hüseynzadə “Qürbətzadə” təxəllüsü ilə yazırdı.

Gecə ay üzünə salırkən işıq
Verir camalına hərdən yaraşıq.
Adria, bil, sənə olmaram aşiq
Mən öz Xəzərimə vurğunam,ey dost! [5, s.4]

Bu illərdə yazılmış nəsr əsərləri: S.Rəhimovun "Medalyon", Əbülhəsənin "Yaralı", "Oğullar və atalar", M.Hüseynin "Fəryad", Ə.Məmmədxanlının "Ulduz" əsərləri həm ön, həm də

arxa cəbhədə insanların vətən sevgisindən, sabaha ümidindən, xoşbəxt gələcəyə inamından bəhs edir. Mir Cəlalın "Ananın sovqatı", "Açıq kitab"ı müharibə mövzusunda yazılmış ən gözəl əsərlərdəndir. Bu dövrün dram əsərlərindən S. Vurğunun "İnsan", "Qızxanımın hünəri" və R.Rzanın "Vəfa" əsərləri arxa cəbhədə çalışan fədakar insanların həyatını əks etdirir. [1,s.154]

Poema janrı az inkişaf etmişdi. Sonralar S.Rüstəmin "Ildırım", R.Rzanın "Hilal" poemaları yazılmışdı. Gənc şairlərin şeirlərində fəlsəfi fikir özünü göstərirdi. Böyük roman və dastan yaratmaq işi böyük energiya və yaradıcılıq cəsarəti tələb edirdi [7,s.3].

Kino sənəti də müharibə illərində ümumxalq işinə səfərbər olmuşdu. Operatorlar ustalıqla, cəsarətlə, qorxmadan səngərlərdə, müharibənin odu alovu içərisində 3,5 mln.metr plyonka çəkmiş, kinoxronika yaratmışdılar. Bakı kinostudiyası tərəfindən siyasi məna daşıyan 1943 cü ildə "T-9 sualtı qayığı", "Bizim ailə" flimləri çəkilmişdi. Azərbaycan kinooperatorları qaynar nöqtələrdən kadrlar çəkərək kinoepopeyada real hadisələri göstərmişdilər. Ümumiyyətlə, müharibə illərində çəkilmiş kadrlar şanlı illərin salnaməsi idi.

Rəssamlıq xalqın həyatını, mübarizəsini əks etdirirdi. Sovet təbliğat maşını rəssamları da səfərbər etmişdi. "SİTA pəncərəsi", "Təşviqat pəncərəsi" plakatlar, vərəqlər, broşüralar çap edərək qələbəyə inam aşılayırdı. Müharibə dövründə Azərbaycan rəssamları 17 sərgi nümayiş etdirmişdilər ki, burada Ə.Əzimzadə, K.Kazımzadə, M.Rəhmanzadə, M.Həcəfova, heykəltəraşlardan P.Sapsay, F.Əbdürrəhmanov, C.Qaryağdının əsərləri böyük maraqla qarşılanmışdır. Ə.Əzimzadənin 1942-ci ildə karikatura janrında çəkdiyi "Oğru oğrudan oğurlayır" ,"Vurulmuş kartlar" rəsmləri ön və arxa cəbhədə əldən ələ gəzirdi.

Müharibə illərinin ən aktual təbliğat vasitələrindən biri də teatr idi. M.F.Axundov adına Azərbaycan Opera və balet teatrının səhnəsində M.İbrahimovun "Məhəbbət", R.Rzanın "Vəfa", M.Hüseynin "Gözləmə", Azərbaycan rus dram teatrının

səhnəsində İ.Əfəndiyevin "Cəbhə" əsəri səhnələşdirilmişdi. Ümumiyyətlə,1 944-1945-ci illərdə konsert briqadaları, orkestrlər, professional teatr truppaları əsgərlər qarşısında 980 səyyar tamaşalar göstərmişdilər. Bu da cəbhədə böyük bayrama çevrilirdi. [1,s.451]

II Dünya müharibəsi xalqın qəhrəmanlıq tarixinə yeni mərhələ kimi daxil oldu və çoxmillətli mədəniyyətdə ümumi məqsəd- Vətəni alman faşistlərindən azad etmək mənəvi həyatın əsas qayəsinə çevrilmişdi.Bu müharibədə Vətənin müdafiəsinə xalqı hazırlamaq, ön cəbhə ilə arxa cəbhənin vəhdəti, qələbəyə inam,vətənpərvər ruhunun inkişafında mədəniyyət və incəsənətin rolu danılmazdır. Bu müharibədə mədəniyyət mənəvi silaha çevrildi.

**Рейхан Аббасова**

## РЕЗЮМЕ

## КУЛЬТУРА АЗЕРБАЙДЖАНА В ГОДЫ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

Большинство стран мира поддержали борьбу с фашизмом во Второй мировой войне, что привело к бесчисленным катастрофам и разрушениям. С началом Великой Отечественной войны в войну вступил и Азербайджан, насильственно включенный в состав СССР. Для каждой нации, которая ценила свободу и независимость, эта борьба стала национальным делом. Азербайджанский народ не жалел сил для победы как на фронте, так и в тылу. В статье анализируются состояние, направления развития и социальные функции азербайджанской культуры в годы Второй мировой войны. В военное время сфера культуры выступала одновременно и идеологическим оружием, и моральной опорой народа. В статье отмечается, что в тот период азербайджанская литературная среда, театр и музыка играли роль моста между фронтом и тылом, активно мобилизовались для обеспечения морального духа воинов, сражавшихся на фронте, и тружеников тыла. Однако ни тогдашнее, ни нынешнее

правительство СССР не оценило жертв азербайджанского народа.

**Ключевые слова**: культура, искусство, наука, просвещение, театр и кино.

**Reyhan Abbasova**

**SUMMARY**

**AZERBAIJANI CULTURE DURING WORLD WAR II**

Most countries of the world supported the fight against fascism in World War II, which caused countless disasters and devastation. With the outbreak of the Great Patriotic War, Azerbaijan, which was forcibly annexed to the USSR, also joined the war. For every nation that valued freedom and independence, this struggle had become a national cause. The Azerbaijani people did everything they could for the sake of victory both on the front and in the rear. This article analyzes the state of Azerbaijani culture during World War II, its development directions and social functions. In wartime, the field of culture acted as both an ideological weapon and the moral support of the people. The article notes that during that period, the Azerbaijani literary environment, theater and music played the role of a bridge between the front and the rear, and were actively mobilized to ensure the morale of soldiers fighting at the front and workers working in the rear. However, neither the then nor the current authorities of the USSR appreciated the sacrifices of the Azerbaijani people

**Keywords:** culture, art, science, education, theatre, and cinema.

## ƏDƏBİYYAT

1.Azərbaycan sovet ədəbiyyatı tarixi, l cild, 468 səh.
2.Azərbaycan tarixi, 7 cilddə, VII cild, Bakı, 2003, 565 s.
3.Fərəcullayeva M. Akademik Yusif Məmmədəliyev. Bakı,”TUTU” nəşriyyatı, 2005, 45 səh.

4.Hacıyeva Z.Azərbaycan alimləri II Dünya müharibəsi illərində. Bakı, 2010 285 s.

5.Qulubəyov Q. O, həm də şair idi. // Ədəbiyyat qəzeti 12 may 1957.

6.Nəbiyev B. Böyük Vətən Müharibəsi və Azərbaycan ədəbiyyatı. Bakı, “ELM” nəşriyyatı, 1977. səh.47

7.Vurğun S. Müharibə və ədəbiyyatımız // “Ədəbiyyat” Qəzeti, 18 iyun, 1943

8.Вургун С. Война и поезия. // Сборник "Кафказ несокрушим", Москва, 1942,стр.13

9.Искусство Азербайджана, т.4, 238 с.

**NİGAR AXUNDOVA***

# ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT CƏBHƏNİN XİDMƏTİNDƏ

## XÜLASƏ

Vətən müharibəsi illərində ədəbiyyat və incəsənətin inkişafında bədii ziyalıların əhəmiyyəti və rolu qeyri-adi dərəcədə artdı. Müharibə illərində yaradıcı ziyalılar rəssamlardan Vətən naminə fədakar əmək, faşizmə qarşı mübarizəni tərənnüm edən əsərlər yaratmağı, qəhrəmanlıq, mərdlik, rəşadət nümunələri yaratmağı tələb edirdilər.

Sənətçilərimiz müxtəlif şəraitdə - ön və cəbhədə, səngərdə çıxış edərək düşmənə ölümcül zərbə vurur, əsgərlərimizi zəfər yürüşləri və mahnıları ilə döyüşə ruhlandırırdılar.

Vətən Müharibəsi illərində bədii ziyalıların fəaliyyəti, mədəniyyət, incəsənət və ədəbiyyat və incəsənət xadimlərinin yaradıcılığı faşizmə qarşı mübarizəyə, Azərbaycan xalqının vətənpərvərlik hisslərinin daha da güclənməsinə böyük töhfə vermişdir.

**Açar sözlər**: Vətən müharibəsi, Azərbaycan, ədəbiyyat, incəsənət, bədii yaradıcı ziyallılar

Vətən müharibəsi illərində bədii-yaradıcı ziyalıların rolu və əhəmiyyəti ədəbiyyatın və incəsənətin inkişafında son dərəcə artmışdı. Müharibə illərində bədii yaradıcı ziyalıların sənət ustalarından, Vətən uğrunda fədakarcasına işləmək, vuruşmaq, qəhrəmanlıq, igidlik, rəşadət nümunələri göstərmək kimi gözəl keyfiyyətlərini tərənnüm edən əsərlər yaradılmasını tələb edirdi.

İncəsənət xadimlərimiz düşmənə öldürücü zərbə vurmaq, döyüşçülərimizi qələbə marşı və qələbə mahnısı ilə döyüşə ruhlandırmaq üçün hər cür şəraitdə – arxada, cəbhədə, səngərlərdə

* AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, tarix üzrə fəlsəfə doktoru, dosent .

çıxış edirdilər.

Vətən müharibəsi illərində mədəniyyətin, bədii-yaradıcı ziyalıların, ədəbiyyat və incəsənət işçilərinin fəaliyyəti vətənpərvərlik hisslərinin daha da gücləndirilməsinə köməyi böyük olmuşdur.

Müharibənin birinci günündən başlayaraq mədəniyyətin bütün sahələri, ədəbiyyatın kütləvi növləri olan şerlər, oçerklər və publisist məqalələr döyüşə başladı. Bu mövzuda professor Mais Əmrahovun "Azərbaycan mədəniyyəti II Dünya müharibəsi illərində" (Bakı "Elm", 2004, 336 s.) əsərində mədəniyyətin bütün sahələrinə kompleks şəklində yanaşaraq elmin, təhsilin, səhiyyənin, ədəbiyyatın, kino sənətinin, musiqinin, Azərbaycan teatrının müharibə illərində tarixini işıqlandırmışdır. 2021-ci ildə Mais Əmrahov "Azərbaycan SSR II Dünya müharibəsində" (1939-1945-ci illər) ("İdeal-print" MMC Bakı: - 2021. – 970 səhifə) monoqrafiyasında 1939-1945-ci illər müharibəsində Dünya xalqlarının faşizm əsarətindən azad edilməsində Azərbaycan SSR-in rolu işıqlandırılmışdır.

Müharibə dövrü Azərbaycan ziyalılarının töhfələri mühüm rol oynamışdır. Ədəbiyyat cəmiyyətdə, insanda olan düşüncələri obrazlı əks edən sənət növüdür. Ədəbiyyat insanlari tərbiyə edir, düzgün yol göstərir. Müharibə zamanı ədəbiyyatın xüsusi yeri var.

1941-ci il iyunun 22-də, müharibənin elə ilk günündə məşhur Azərbaycan şairi Səməd Vurğun "Vətənin keşiyində" şerini yazdı. Elmlər Akademiyasının həqiqi üzvü, görkəmli elm və incəsənət xadimi, şair Səməd Vurğun (Səməd Vəkilov) təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da tanınırdı. Azərbaycan ədəbiyyatının mükəmməl bilicisi, iki dəfə Stalin mükafatı laureatı S.Vurğunun bir çox dillərə tərcümə edilmiş ecazkar şerləri, "Vaqif', "Xanlar", "Fərhad və Şirin" kimi yüksək bədii məziyyətlərə malik dram əsərləri, habelə Puşkindən və Rustavelidən tərcümələri şöhrət qazanmışdır. [3, f.166, s.15, v.10]

Müharibə dövründə o zaman gənc akademik olan, əməkdar elm incəsənət xadimi Mirzə Əjdər oğlu İbrahimov böyük populyarlıq qazanmışdı. O, həmçinin Azərbaycan ədəbiyyatı

tarixinin görkəmli tədqiqatçısı kimi də tanınırdı. Onun Azərbaycan maarifçisi Cəlil Məmmədquluzadənin ("Molla Nəsrəddin") yaradıcılığına həsr olunmuş "Böyük demokrat" adlı əsəri elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. [ 3, f.166, s.15, v.10]

Azərbaycanın şair və yazıçıları cəbhənin ən qaynar nöqtələrində döyüşür, siyasi işçilər kimi döyüş bölgələrinə yollanırdılar. Onların arasında Əbülhəsən Ələkbərzadə, Böyükağa Qasımzadə, Ənvər Əlibəyli, Əyyub Abbasov, Zeynal Cabbarzadə, İslam Səfərli, Əbil Yusifov, Hüseyn Abbaszadə, Oruc Qaşqarlı, Hüseyn Hüseynzadə, İosif Oratovski, B.İvanov, Fərrux Həsənli, Hüseyn Natiq, Ənvər Qazıyev və başqaları var idi. [7, s.167]

Bütövlükdə, Azərbaycan ədəbiyyatının 40-dan çox nümayəndəsi cəbhəyə getmişdi. [7, s.167] Müharibənin ilk günlərindən qəzet və jurnallarda şair və yazıçıların vətənpərvərlik mövzusunda poemaları, şerləri, povest və hekayələri çap edilirdi.

Müharibə illərində Azərbaycan ədəbiyyatçılarının aşağıdakı əsərləri çap edilmişdi: Səməd Vurğunun "Vətənin keşiyində", "Ananın öyüdü", "Şəfqət bacısı", "Moskva", "Partizan Babaş", "Göz aydınlığı" "Qızxanımın hünəri", "Uşaq bağçası" "Tarla nəğməsi; "Qəhrəmanın hünəri"; "İgid şahin" şerləri, "Fərhad və Şirin"; "Bakının dastanı" poemaları" Süleyman Rüstəmin "Gün o gün olsun ki", "Döyüşçüyə məktub", "Leninin şəhərinə", "Alınmaz qala", "Hücum", "And", "Gözlə", "Koroğlu", "Ana ürəyi", "Qəhrəmanın vəsiyyəti", "İldırım", "Ana və poçtalyon"; Rəsul Rzanın "Bəxtiyar", "İntiqam", "Leytenant Bayramın gündəliyi", "Əsgər anası", "Vətənə hədiyyə", "İşıqlar yandı", "Leninqrad" şerləri, "Vətən", "Ana Moskva", "Böyük Leninin qəhrəman şəhəri", "Metal qırıntılarını toplayaq", "Məhəbbət" adlı məqalələri; Məmməd Rahimin "Vətən sevgisi", "Üç qardaş", "Müqəddəs kədər", "İkiqat cinayət", "Onu Don qucaqladı", "Aslanım partizandır", "Tək məzar", "Sənsiz", "Səhərin nəğməsi", "Partizan qız", "Sevgilimin arzusu", "Sədaqət", "Müqəddəs kədər"; Əhməd Cəmilin "Yadigar", "Nişan üzüyü", "Əsgər qardaşıma", "Can nənə, bir nağıl de"; Z.Xəlilin

“Yəhərləyin atları”, “416”, “Döyüşçünün vəsiyyəti”, “13 dost” şerləri, Zoya Kosmodemyanskayaya həsr olunmuş “Tatyana” poeması; Nigar Rəfibəylinin “Eşq olsun”, “Zəfər nəğməsi”, “Balaca qəhrəman” E.Tələtin “Yanan qanadlar”, O.Sarıvəlli “Şairin hədiyyəsi”, “Gətir oğul, gətir”; M.Hüseynin “Nişan üzüyü”, “Fəryad”; “Çiçəklər”; Mirvarid xanım Dilbazinin “Vətənin keşiyində” “Krım”, “Xoşbəxtlik”, C.Xəndanın “İlk ayrılıq” poeması, Mir Cəlalın “Anaların üsyanı”, “Yollar”, “Vətən yaraları”, “Şərbət”, “Mərcan nənə”, “Havalı adam”, “Silah qardaşları” hekayələri, [1] S.Rəhimovun “Aynalı”, “Mehman”, “Natalya”, “Medalyon” povestləri, Əbülhəsənin “Atalar və oğullar”, “Müharibə”, “Sahildə” roman və povestləri, Ə.Məmmədxanlının “Buz heykəl” və s. əsərləri çap edilmişdir.

Müharibə və vətənpərvərlik mövzusu Azərbaycan dramaturgiyasında da ən mühüm mövzulardan biri idi. Araşdırılan dövrdə yazılmış pyeslərdən M.İbrahimovun “Məhəbbət”, R.Rzanın “Vəfa”, M.Təhmasibin “Aslanlar yatağı”, Z.Xəlilin “Qisas”, S.Vurğunun “Fərhad və Şirin”, M.Hüseynin “Nizami”, “Cavanşir”, A.Şaiqin “Nüşabə”, M.S.Ordubadinin “Dumanlı Təbriz”, Z.Xəlilin “Qatır Məmməd”, S.Rəhmanın “Hücum davam edir”, Mir Cəlalın “Torpaq eşidir”, S.Turabovun və Ə.Ələkbərovun “Qələbə”, K.Hüseynzadənin “Vətənpərvərlər”, E.Abbasovun “Qisas”, C.Cahanbaxşının “Ukrayna borşu” və s. göstərmək olar.

“Fərhad və Şirin” pyesinə görə görkəmli şair Səməd Vurğun 1942-ci ildə Dövlət Mükafatına layiq görülmüşdür. [7, s.182]

Xalqın döyüşkənlik ruhunun qaldırılması işində ədəbiyyatla musiqinin vəhdəti də mühüm əhəmiyyət kəsb edirdi. Belə əməkdaşlıq nümunəsi kimi, Üzeyir Hacıbəyovla Səməd Vurğunun, Səid Rüstəmovla Məmməd Rahimin, Niyazinin, Cahangir Cahangirovun Rəsul Rza ilə birgə yaradıcılıq fəaliyyətlərini göstərmək olar. Məhz bu əməkdaşlığın nəticəsində “Şəfqət bacısı”, “Cəbhəyə”, “Qırmızı donanmaçı”, “Bakı”, “Al bayraq” kimi sevilən mahnılar ərsəyə gəlmişdi.

Azərbaycan Yazıçılar İttifaqının Naxçıvanda, Gəncədə (Kiriovabadda), Şəkidə, Xankəndində (Stepanakertdə) şöbələri

bərpa edilmişdi. Azərbaycan XKS-nin 26 yanvar 1944-cü il tarixli qərarı ilə ədəbi əsərlərə görə qonorarların miqdarı artırılmışdı. Həmin qərarla yazıçılara Xəzər dənizi sahillərində 20 bağ sahəsi ayrılmış, onların maddi rifahının yaxşılaşdırılması üçün digər tədbirlər müəyyənləşdirilmişdi. [7, s.182]

Müharibə dövrünün çətinliklərinə baxmayaraq, Azərbaycan ədəbiyyatı klassiklərinin yubileyləri təkcə Bakıda deyil, blokadada olan Leninqradda da keçirilirdi. Böyük Nizaminin 800 illiyi 1941-ci il oktyabrın 17-də Leninqradda, Ermitaj sarayında təntənəli şəkildə keçirilmişdi. Müharibə illərində A.S.Qriboyedovun, M.F.Axundovun, İ.A.Krılovun, A.A.Bakıxanovun da yubileyləri qeyd edilmişdir. [ 7, s.182]

Müharibə qəhrəmanlarının obrazını vəsf edən yüzlərlə əsər xalqı vətənpərvərlik, vətənə məhəbbət, faşizmə nifrət ruhunda tərbiyə edir, Azərbaycan ədəbiyyatı tarixinə dəyərli töhfə verirdilər.

Müharibənin çətinliklərinə rəğmən, araşdırılan illərdə yeni teatrlar yaradılır, onların səhnələrində həm Azərbaycan müəlliflərinin, həm də dünya klassiklərinin - Şeksprin, Molyerin, Lope de Veqanın əsərləri tamaşaya qoyulurdu. Məsələn, Gəncədə üç yeni teatr: L.Beriya adına Azərbaycan dövlət dram teatrı, erməni dövlət dram teatrı və rus səyyar teatrı açılmışdı. Burada həmçinin uşaq tamaşaları da səhnəyə qoyulurdu. Gəncəli uşaqlar, məktəblilər, gənclər yeni tamaşalara – "Gənc partizan, "Timur və onun komandası", "Zoya Kosmedemyanskaya" tamaşalarına baxmışdılar. [ 3, f. 100, s.22, iş 1, v.80]

Beləliklə, yaşlılar üçün teatrların sayının artması ilə yanaşı, Gəncədə gənc tamaşaçılar teatrının, açılması üçün bütün şərait yaradılmışdı. Burada həmçinin filarmoniya (direktoru Fikrət Əmirov), musiqi məktəbi, rəsm məktəbi və mədəniyyət və istirahət parkı fəaliyyət göstərirdi.

Müharibə illərində aktyorların sayının azalmasına baxmayaraq, bu teatrların işinə təsir göstərməmişdi. Hər il 10 yeni quruluşda və 8 əvvəlki quruluşda tamaşalar qoyulurdu. [ 3, f. 100, s.22, iş 1, v.80] Azərbaycan dramaturqlarından Səməd Vurğunun, Süleyman Rüstəmin, Mehdi Hüseynin və başqalarının pyeslərinin tamaşaları

böyük maraqla qarşılanmışdı. Bu yazıçıların tarixi mövzulara olunmuş bir sıra dram əsərləri – "Vaqif", "Xanlar", "Qaçaq Nəbi", "Nizami" tamaşaçıların xüsusi rəğbətini qazanmışdı.

Vətən müharibəsi günlərində teatrlar öz işlərini müharibə dövrünün tələblərinə uyğun yenidən qurmuşdular. Müharibə illərində teatrlar sovet dramaturqlarının xalqın sovet vətənpərvərliyi və düşmənə məhəbbət ruhunda tərbiyə olunması işində mühüm əhəmiyyət kəsb edən müdafiə mövzularına həsr edilmiş pyeslərinə quruluş verərək tamaşaya qoymuşdular. Bu pyeslərdən Rəsul Rzanın "Vəfa", Tur qardaşları və Şeyninin "Fövqaladə qanun" əsərlərini göstərmək olar.

1943-1944-cü illərdə Mehdi Hüseynin "Nizami", N.B.Vəzirovun "Hacı Fərəc Lənətullah", Sabit Rəhmanın "Toy", sonrakı dövrdə Şekspirin "12-ci gecə", M.F.Axundovun "Hacı Qara", C.Cabbarlının "Oqtay" əsərləri tamaşaya qoyulmuşdu. Teatrların repertuarları zəngin və rəngarəng idi. Dahi şair Nizaminin həyat və fəaliyyətinin onun doğma şəhərindəki teatrda səhnələşdirilməsi, eləcə də Azərbaycan xalqının qəhrəman oğullarının Vətən müharibəsi cəbhələrində şücaətlərinin tərənnüm edilməsi Gəncənin teatr kollektivinin böyük uğuru idi.

Müharibə illərində teatrların nailiyyətlərindən biri də ondan ibarət idi ki, əgər müharibədən əvvəl teatrlar dövlətdən milyon manatdan artıq dotasiya alırdılarsa, müharibənin sonuna yaxın bu məbləğ 300 min manata enmişdi. [ 3, f. 100, s.22, iş 1, v.80]

Müharibə ərzində təkcə Beriya adına teatr Müdafiə fonduna 50.000 manatdan çox vəsait keçirmişdi. Gəncə (Kirovabad) səyyar Rus teatrı əsasən Gəncədə yerləşmiş hərbi hissələrə və hospitallara xidmət göstərirdi.

Bütövlükdə Sovet hökumətinin sosial-mədəni ehtiyaclar üçün ayırdığı xərclər hətta müharibə illərində respublikanın bütün dövlət büdcəsinin 75%-ə qədərini təşkil etmişdi, o cümlədən 1945-ci ildə xalq təhsilinin inkişafına 380 milyon manat vəsait ayrılmışdı.

SSRİ EA Azərbaycan Filialının Nizami adına Ədəbiyyat və Dil İnstitutunda (direktor M.A.Dadaşzadə) ədəbiyyat və dil

sahəsində bütün əsas elmi-tədqiqat işləri cəmləşdirilmişdi, burada Azərbaycan yazıçı və şairlərinin orijinal əlyazmalarından ibarət fondlar, eləcə də böyük elmi əhəmiyyət kəsb edən qədim şərq əlyazmaları toplanmışdı. [ 3, f. 100, s.l, iş 8, v.69]

Elmlər Akademiyası böyük elmi tədqiqat işləri aparırdı. Ədəbiyyat İnstitutu Azərbaycan dilinin canlı şivələrinin, Azərbaycanın zəngin folklorunun öyrənilməsi, klassiklərin əsərlərinin nəşrə hazırlanması ilə məşğul olurdu. Bu problemlərin tədqiqində Azərbaycan dilçiliyinin banilərindən biri olan Ə.A.Babazadə (1893-1943) mühüm rol oynamışdır. [ 3, f. 100, s.l, iş 8, v.77] Azərbaycan, rus, alman, ərəb, fars, özbək və tatar dillərini mükəmməl bilən alim Azərbaycan dilinin qrammatikasına və dialektlərinə həsr edilmiş mühüm əsərlərin müəllifi olmaqla yanaşı, lüğətlərin tərcüməsi və redaktəsi ilə də məşğul olmuşdur. [4, 3 sentyabr, s.4]

Dörd cildlik "Tam rus-Azərbaycan lüğəti"nin redaktə edilməsində və tərtib edilməsində də dilşünas-alim Ə.A.Babazadənin böyük xidmətləri olmuşdur. [5]

Azərbaycan ədəbiyyatşünasları tərəfindən elmi terminologiyanın tərtib edilməsi sahəsində də böyük işlər görülmüşdür. Ədəbiyyat İnstitutu bir sıra elm sahələrinə dair terminlər lüğəti nəşr etdirmişdi.

Azərbaycan dilçiliyi tarixində ilk dəfə olaraq Nizami adına Ədəbiyyat və Dilçilik İnstitutu tərəfindən Azərbaycan-rus fizioloji lüğəti tərtib edilərək çap edilmişdir. Bu lüğətin hazırlanması və nəşri Azərbaycan dilinin öyrənilməsinə böyük töhfə olmuşdur. İnstitut tərəfindən hazırlanmış bütün lüğətlər əvvəlki rus- Azərbaycan lüğətlərindən fiziologiyanın təsdiqlədiyi söz və işarələrin tamlığı ilə fərqlənirdi. [3, f.100, s.l, iş 8, v.72]

Akademiyanın Şərqşünaslıq İnstitutunun əsərlərində Azərbaycan xalqının qəhrəmanlığı və vətənpərvərliyi, həmçinin Sovet İttifaqı xalqlarının dostluğu işıqlandırılırdı. İnstitut əməkdaşları tərəfindən Azərbaycan xalqının yadelli işğalçılara qarşı qəhrəmancasına mübarizəsini əks etdirən yüzdən çox elmi-kütləvi broşür və məqalələr yazılmışdı.

Azərbaycan tarixi muzeyinin elmi işçiləri tərəfindən Vətən müharibəsi dövründə "Babəkin başçılığı altında azərbaycanlıların ərəb işğalçılarına qarşı mübarizəsi", "1812-ci il Vətən müharibəsi", "1918-ci ildə Ukrayna və Belorusiyada alman işğalçılarının darmadağın edilməsi", "Azərbaycan xalqının monqol işğalçılarına qarşı mübarizəsi" və s. mövzularda 10 səyyar sərgi təşkil edilmişdi. [3, f.100, s.l, iş 8, v.72] Bu tədbirlər Azərbaycan xalqının vətənpərvərlik ruhunun yüksəldilməsinə xidmət edən mədəni-tərbiyə tədbirlərinin mühüm elementi idi.

İncəsənət cəmiyyətdə, insanlarda olan fikirləri, hissləri, düşüncələri, şüuru rəsmdə, kətanda, memarlıqda, xalça sənətində də, həmçının incəsənətin ayrı-ayrı növlərində özünü təsvir edən vasitədir

Rəssamlar, heykəltəraşlar, incəsənət xadimləri də öz əsərləri ilə düşmənə nifrət, xalqda qələbəyə sarsılmaz inam hisslərini aşılayırdılar. Azərbaycanın 20-dən çox rəssamı düşmənlə döyüşmək üçün cəbhəyə getmişdi. Onlar arasında əfsanəvi Mehdi Hüseynzadə, Qafar Seyfullayev, HəsənHaqvediyev, Əyyub Məmmədov, Oqtay Sadıqzadə, sənətşünas Mürsəl Nəcəfov da var idi. [7, s. 202]

Müharibə illərində plakat və vərəqlər mühüm və səmərəli tərbiyə vasitəsi idilər. Məhz buna görə görkəmli fırça ustası Əzim Əzimzadənin təşəbbüsü ilə "Aqitkino" ("Təşviqat kinosu"), "Döyüşən karandaş", "Oğluna öyüd verən ana" mövzusunda plakatlar buraxılmağa başlanmışdı ki, onlar üzərində rəssamlar K.Kazımzadə, İ.Axundov, H.Xalıqov, A.Hacıyev, S.Salamzadə, A.Vlyasov, M.Rəhmanzadə, S.Şərifzadə, İ.Rıjenko, gələcək xalq rəssamı M.Abdullayev və bir çox başqaları işləyirdilər.

Müharibənin məşəqqətlərinə baxmayaraq təsviri sənət nümayəndələri Azərbaycanın Moskvada, Leninqradda keçirilmiş incəsənət dekadalarında, günlərində iştirak edirdilər. Rəssamların sərgiləri 15-dən çox şəhərdə, o cümlədən Moskvada, Tiflisdə təşkil edilmişdi. [2, s.271] "Vətən uğrunda", "Böyük Vətən müharibəsi", "Azərbaycanın qəhrəman oğulları", "Azərbaycan rəssamlarının əsərləri Böyük Vətən müharibəsi illərində" – bütün bunlar tematik sərgilərin heç də tam olmayan siyahısı idi.

Azərbaycan rəssamlarının əsərləri 1943-cü ildə Moskvanın Tretyakov qalereyasında nümayiş etdirilmişdi.

Azərbaycan rəssamları haqqında «Известия», «Труд», «Литература и искусство» kimi mərkəzi qəzetlər yazmışdılar.

Ə.Əzimzadənin, İ.Axundovun, Q.Xalıqovun, Ə.Hacıyevin, M.Rəhmanzadənin və S.Vlasovların, T.Tağıyevin, K.Kazımzadənin qrafik işləri, M.Abdullayevin, S.Şərifzadənin, B.Mirzəzadənin, S.Bəhlulzadənin, K.Xanlarovun, A.Kazımovun, S.Salamzadənin, Q.Salamovun, Ə.Məmmədovun, B.Əliyevin boya rəsmləri, F.Əbdürrəhmanovun, P.Sabsayın, C.Qaryağdinin, Z.Məmmədovun, H.Əhmədovun heykəltəraşlıq işləri və bir çox başqa rəssamların əsərləri fundamental, parlaq sənət əsərləri kimi müharibə dövrünün incəsənət tarixinə daxil oldular. Məşhur fırça ustaları M.Abdullayev, S.Şərifzadə və B.Mirzəzadə birlikdə "Babək hərəkatı" əsərini (1941), S.Bəhlulzadə "Bəzz qalasının alınması, K.Xanlarov "Cavanşirin ərəblərlə döyüşü", A.Kazımov "Qədim midiyalılar Makedoniyalı İskəndərlə döyüşdə" əsərini yaratmışdılar.

Rəssamların yaradıcılığında müharibə qəhrəmanlarına həsr edilmiş portret janrı da mühüm yer tuturdu. B.Mirzəzadə snayper İ.Süleymanovun, S.Şərifzadə təyyarəçi M.Abasovun, B.Əliyev S.Suprunun, T.Tağıyev H.Əliyevin portretini işləmişdilər. Elə bu dövrdə M.Abdullayev görkəmli dramaturq C.Cabbarlının, şair Səməd Vurğunun, bəstəkar Ü.Hacıbəyovun, yazıçı M.İbrahimovun, artist M.Davudovanın portretlərini çəkmişdir.

Məşhur heykəltəraş F.Əbdürrəhmanov təyyarəçi H.Əliyevin, snayper İ.Məmmədovun, Sovet İttifaqı Qəhrəmanı G.Əsədovun büstlərini, Cavanşirin, Babəkin, Koroğlunun barelyefini düzəltmişdir (1943). 1944-cü ildə P.Sabsay "Yenilməzlər", C.Qaryağdı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədova həsr edilmiş "Zamanəmizin Koroğlusu" kompozisiyalarını yaratmışdılar.

Müharibə illərində F.Əbdürəhmanov, K.Kazımzadə, P.Topçubaşov, Ə.Hacıyev Azərbaycan SSR Əməkdar incəsənət xadimi adına layiq görülmüşdülər. 40-dan artıq rəssam isə medallar və fəxri fərmanlarla təltif olunmuşdular. [7, s. 211]

Xalqın döyüş ruhunun qaldırılmasında musiqi sənətinin xüsusi yeri vardır. Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Tofiq Quliyev, Süleyman Ələsgərov, Məmməd İsrafilzadə, Adilə Hüseynzadə, Əfrasiyab Bədəlbəyli, Şəfiqə Axundova xalqın mənəvi dözümlülüyünün möhkəmləndirilməsinə, vətənpərvərlik hisslərinin yüksəldilməsinə dəyərsiz töhfə vermişlər.

Bir çox bəstəkarlar və musiqiçilər öz əsərlərini ordu sıralarında olarkən yaradırdılar. Onların arasında Fikrət Əmirov, Əşrəf Abbasov, Tofiq Quliyev, Məmməd İsrafilzadə, Zakir Bağırov, Abram Kabakov, Rauf Hacıyev, Andrey Babayev, H.Nemətov, musiqişünas İ.İsmayılov, X.Məlikov və başqaları var idi.

Müharibədə həlak olmuş qəhrəman musiqiçilər arasında M. İsrafilzadənin, H.Nemətovun, M.Srebniskinin və başqalarının adlarını çəkmək olar.

Musiqi sənətinin təbliğində M.F.Axundov adına Opera və Balet Teatrı (direktor – görkəmli rejissor İ.Hidayətzadə), Gəncə Filarmoniyası (direktor – görkəmli bəstəkar F.Əmirov) və digər musiqi kollektivləri mühüm rol oynayırdılar.

Burada musiqi səsləndirilir, qəhrəmanlıq dastanlarına, müharibə və milli azadlıq hərəkatının qəhrəmanlarına həsr edilmiş əsərlərdən (M.Qlinkanın "İvan Susanin", İ.Borodinin "Knyaz İqor", M.Musorqskinin "Boris Qodunov" və s.) parçalar ifa olunurdu.

Vətən müharibəsi illərində dahi bəstəkar Üzeyir Hacıbəyov özünün fundamental əsəri olan – "Azərbaycan xalq musiqisinin əsasları" kitabı üzərində çoxillik işini başa çatdıraraq 1945-ci ildə nəşr etdirdi.

İncəsənətin ən kütləvi növü kimi musiqiyə böyük tərbiyəvi əhəmiyyət verilirdi. O geniş xalq kütlələrinin həyatına üzvi sürətdə daxil olaraq, onların artmaqda olan mənəvi tələbatlarının ödənilməsində xüsusi rol oynayırdı. [6, s.88]

Dövrün musiqi sənətinin səciyyəvi cəhətlərindən biri bəstəkar və musiqiçilərin ustalığının və nailiyyətlərinin yüksəlməsi, onların dünya musiqi sənətinə töhfələrinin artması oldu.

Araşdırılan dövrdə aşağıdakı musiqi əsərləri yaradılmışdı:

Üzeyir Hacıbəyov – "Vətən və cəbhə" kantatası (1942), "Qələbə marşı", "Şəfqət bacısı", "Ana öyüdü", "Yaxşı yol", "Əsgər marşı", "Vətən ordusu" mahnıları, "Sevgili-canan" və "Sənsiz" romansları. Bəstəkar "Azərbaycan" simfoniyası, "Babək", "Firuzə" operaları üzərində işləyirdi, lakin xəstəlik və ölüm ona bu işləri başa çatdırmağa imkan vermədi. Q.Qarayev və C.Hacıyev "Vətən" operası (1945), Qara Qarayev – nəfəs alətləri orkestri üçün Azərbaycan marşı, F.Əmirov – "Ürəkaçanlar" musiqili komediyası, cəbhədə həlak olmuş bəstəkar M.İsrafilzadəyə həsr olunmuş simfonik poema, "Gülüm" mahnısı, Ə.Bədəlbəyli və B.Zeydman – "Xalq qəzəbi", Niyazi – ikihissəli "Qəhrəmanlıq" simfoniyası, "Xosrov və Şirin" operası, "1920-ci il" opera kantatası, S.Hacıbəyov – "Birinci simfoniya" , Ə.Abbasov – "Rəqs süitası", C.Cahangirov – "Dədə Qorqud", T.Quliyev – "Aktrisa" (1943), C.Hacıyev – Birinci simfoniya, M.Kriştul və M.Vaynşteyn – "Siqnal" operası, S.Rüstəmovun "Cəbhəyə", S.Ələsgərovun "Gözlə məni", , "Məhəbbət gülü" musiqili komediyası (1945), M.İsrafilzadə - Süita, Ağabacı Rzayeva – "Vətən", "Partizan oğlu", "Qəhrəman ananın qəhrəman oğlu", "Sevgilim əsgər gedir", "Gözləyəcəyəm, sevgilim", Ş.Axundova – "Yuxu", A.Hüseynzadə – "Vəslin həvəsi" romansı, H.Xanməmmədov – "Gözəl Pəri" mahnısı, xalq çalğı alətləri orkestri üçün "Qəhrəman" əsəri. Bu illərdə bütövlükdə 25 simfonik əsər bəstələnmişdir. [6, s.96]

Simfonik orkestrin, xalq çalğı alətləri orkestrinin, mahnı və rəqs ansamblının, dirijorlar və bəstəkarlar Niyazinin, S.Rüstəmovun, Ə.Həsənovun, Ə.Bədəlbəylinin, Ç.Hacıbəyovun, çıxışları, Bülbül Məmmədovun, Ş.Məmmədovanın, Ə.Bünyadzadənin, H.Həsənovanın, xalq musiqisi ifaçıları Q.Primovun, A.Bakıxanovun, B.Mənsurovun, S.Şuşiniskinin, S.Qədimovanın, Ə.Dadaşovun, H.Məmmədovun konsert fəaliyyəti musiqi sənətinin təbliğində mühüm yer tuturdu. Konsert proqramlarında həmçinin Azərbaycan Dövlət Konservatoriyasının müəllimləri – M.Benner, K.Səfərəliyeva, İ.Turiç, V.Kozlov, Üzeyr bəy Hacıbəyovun tələbələrindən R.Axundov və başqaları iştirak edirdilər.

Bəstəkar Sultan Hacıbəyov öz yaradıcılıq yolunda atdığı ilk addımlardan şöhrət qazanmış nadir gənc musiqiçilərdən biridir.

1944-cü ilin dekabrında Tiflisdə Zaqafqaziya respublikalarının musiqi sənəti dekadası keçirilmişdir. Musiqi dekadasında diyarın ən yaxşı musiqi kollektivlərini təmsil etmək şərəfinə nail olmuş bəstəkarlar və dirijorlar arasında özünün "Fa-minor" simfoniyasını ifa etmiş Soltan Hacıbəyov ən gənc dirijor idi. [3, f. 119, s4, iş 1, v.80]

Böyük simfonik orkestrin dirijor pultunun arxasında 25 yaşlı gəncin durması musiqi dünyasında demək olar ki, nadir hadisə idi.

Üzeyir Hacıbəyov, Respublika Bəstəkarlar ittifaqının sədri kimi ittifaqın bütün işinə istiqamət verirdi. Respublikada musiqi sahəsində elə bir tədbir olmurdu ki, bəstəkar onda yaxından iştirak etməsin.

O zaman bir çox bəstəkar və musiqiçilər də düşmənlə vuruşmaq üçün cəbhəyə yollanmışdılar. Fikrət Əmirov özü konservatoriyanın 3-cü kursundan cəbhəyə getmiş, lakin yararlanaraq ağır cərrahiyə əməliyyatı keçirmişdi.

Müharibə başlanan kimi teatrların repertuarları da müharibənin tələblərini ödəmək və qəhrəmanlıq və döyüş hisslərini əks etdirmək məqsədilə dəyişməyə başladı.

Beləliklə, göründüyü kimi (1941-1945) Vətən müharibəsi illərində Azərbaycan mədəniyyəti bədii-yaradıcı ziyalıları vətənpərvərlik tərbiyəsində və düşmənə qarşı ümumi mübarizədə və qələbədə mühüm rol oynamışdılar!

**Нигяр Ахундова**

**РЕЗЮМЕ**

## ЛИТЕРАТУРА И ИСКУССТВО НА СЛУЖБЕ ФРОНТА

В годы Отечественной войны значение и роль художественной интеллигенциив развитии литературы и искусства необычайно возросли. В годы войны творческая интеллигенция требовала от

художников создания произведений, воспевающих их прекрасные качества: самоотверженный труд во имя Родины, борьбу против фашизма, проявление примеров героизма, мужества и отваги.

Наши артисты выступали в самых разных условиях — в тылу, на фронте, в окопах, — чтобы нанести смертельный удар врагу и вдохновить наших бойцов на битву победными маршами и песнями.

В годы Отечественной войны деятельность художественной интеллигенции, культура, искусство и творчество деятелей литературы и искусства внесли большой вклад в борьбу против фашизма и дальнейшее укрепление патриотических чувств азербайджанского народа.

**Ключевые слова**: Отечественная война, Азербайджан, литература, искусство ,художественная интеллигенция

**Nigar Akhundova**

**SUMMARY**

**LITERATURE AND ART AT THE SERVICE OF THE FRONT**

During the Patriotic War, the importance and role of the artistic intelligentsia in the development of literature and art increased extraordinarily. During the war, the creative intelligentsia demanded from its artists to create works that glorified their beautiful qualities, such as selflessly working for the Motherland, fighting, showing examples of heroism, courage, and bravery.

Our artists performed in all conditions - in the rear, at the front, in the trenches - to deliver a deadly blow to the enemy and inspire our fighters to battle with victory marches and victory songs.

During the Patriotic War, the activities of the artistic intelligentsia, culture, art and creativity of literary and artistic figures made a great contribution to the fight against fascism and the further strengthening of the patriotic feelings of the Azerbaijani people.

**Keywords**: Patriotic War, Azerbaijan, literature, artistic intelligentsia

## ƏDƏBİYYAT


1.https://eres.preslib.az/site/historical/page/az/vdieubl

2.Azərbaycan incəsənəti. Bakı, 1991, s.271

3.Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi (bundan sonra MEA Tİ EA), f.166, s.15, v.10

4.Elm qəzeti, 1988, 3 sentyabr, s.4

5.Ə.A.Babazadə. "Türk dili (qramer və yazı qaydaları)" (iki hissədə. Bakı, "Azərnəşr", 1933, 1934, 1935; "Azərbaycan türk xalq şivələri lüqəti"nin (1931-1932); "İzahlı türk dili sözlüyü"nün "i", "ı", "j" hərflərinə aid hissələrinin tərtibçisi; "Azərbaycan türk dilinin imlası" layihəsinin (əlyazması hüququnda). Bakı, 1934; "Türk dili. Qrammatika və yazı qaydaları" (dərslik); "Azərbaycan dilinin orfoqrafiya lüğəti". Bakı, 1939; 1939-1942-ci illərdə "Azərbaycan dilinin ayrum dialekti" adlı dissertasiyanın müəllifi; "Azərbaycan dilinə daxil olmuş əcnəbi sözlər lüğətin"də ("k", "f", "h", "o", "t" hərfləri); "Rusca-Azərbaycanca lüğətdə (dörd cildlik), "Rusca-farsca-Azərbaycanca lüğət"lərin redaktoru idi.

6.Аббасова Э., Касимов К. Очерки музыкального искусства Советского Азербайджана 1920-1956 гг. Баку, 1970, с.88

7.Багирзаде А. Интеллигенция Азербайджана в годы Великой Отечественной войны, Баку, 1989 с. 167.

**QƏNİRƏ QAFARLI***

# AKADEMİK YUSİF MƏMMƏDƏLİYEVİN HƏYAT VƏ YARADICILIĞI MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ EKSPONATLARINDA

## XÜLASƏ

Xalqımızın dünya mədəniyyətinin yaranmasında çox böyük rolu olmuşdur. İstər zəngin ədəbiyyatımız, istər tarixi abidələrimiz, istərsə də incəsənətimiz və musiqi mədəniyyətimiz qürur və fəxarət yerimiz olmuşdur. Müsəlman Şərqində ilk teatr, ilk opera, ilk balet, ilk Elmlər Akademiyası Azərbaycanın adı ilə bağlıdır. Azərbaycan xalqı dünyaya Nizami Gəncəvi, Əcəmi Naxçıvani, Nəsirəddin Tusi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Mirzə Fətəli Axundzadə, Hüseyn Cavid, Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Yusif Məmmədəliyev kimi dühalar bəxş etmişdir.

Tanınmış azərbaycanlı alim Yusif Məmmədəliyev 1905-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olub. 1918-ci ildə ailəsi ilə birlikdə Təbriz şəhərinə köçmüş və burada 7 illik Rüşdiyyə məktəbində oxumuşdur. 1929-cu ildə Moskva Dövlət Universitetinə daxil olub. Təhsilini başa vurduqdan sonra universitetdə işini davam etdirib. Laboratoriyada neft qazlarından qiymətli kimyəvi məhsulların işlənməsi və onların praktiki tətbiqi prosesində iştirak etmişdir. O, 1942-ci ilin sentyabrında ölkə üçün ağır bir dövrdə Bakıda "Toluolun aromatik karbohidrogenlərinin alkilləşməsi və dekkilləşməsinin sintezi" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək müasir kimyanın ən mühüm problemlərindən birinə – toluolun sintezi probleminə toxunmuşdur. Bu sintezlərdən yaranan kompozisiyalar aviasiya və hərbi sənayedə motor yanacağının keyfiyyətinin yaxşılaşdırılması üçün vacibdir. 1945-ci ildə Yusif Məmmədəliyev Azərbaycan SSR EA-nın fəal üzvü, EA Rəyasət Heyətinin üzvü və Neft Akademiyası İnstitutunun direktoru təyin edilib. O, Azərbaycanda kimya sahəsində ilk akademik olub. Onun dünya elmi üçün əvəzsiz

* Milli Azərbaycan Tarixi Muzeyi.

xidmətlərindən biri 1950-ci ildə strateji raketlər üçün yanacağın yaradılmasıdır. Müharibə dövründə akademik Yusif Məmmədəliyevin yüksək oktanlı benzin kəşf etməsi isə xüsusilə qeyd olunmalıdır. 200-dən çox fundamental elmi əsərin və 6 monoqrafiyanın müəllifi kimi akademik Yusif Məmmədəliyev 36 elmlər namizədi və elmlər namizədi hazırlamışdır. Məqalənin yazılmasında məqsəd akademik Yusif Məmmədəliyevin həyat və fəaliyyətini muzey eksponatları əsasında tədqiq etmək, böyük alimin dünya elminə verdiyi töhfələri incələməkdir. Tədqiqat işinin yazılmasında analiz, sintez, induksiya, deduksiya, kontent təhlil metodlarından istifadə edilmişdir.

**Açar sözlər:** Yusif Məmmədəliyev, kimya, medal, fotoşəkil, kitab.

**Giriş.** Azərbaycanın qədim diyarı Naxçıvanın tarixi çox zəngindir. Bu diyarda zəngin yeraltı və yerüstü təbii sərvətlərlə yanaşı, elm və sənət də inkişaf edib. Bu torpaq dünya mədəniyyətinə görkəmli mədəniyyət, elm və dövlət xadimləri verib. Naxçıvan həm də böyük dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Vətənidir. Görkəmli şəxsiyyət Heydər Əliyev 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərmiş, taleyüklü tarixi qərarlar qəbul edərək Azərbaycanın xilasına və inkişafına bu qədim diyardan başlamışdır. Ulu öndər demişdir: "Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır". Naxçıvan diyarının görkəmli nümayəndələrindən biri də Yusif Heydər oğlu Məmmədəliyevdir. O, 1905-ci il dekabrın 31-də qədim Naxçıvanın Ordubad şəhərində anadan olub. Ordubadın mənəvi və intellektual ab-havası çoxşaxəli idi, türk dastanlarına dair biliklər burada fars poeziyası və ərəb fəlsəfəsi ilə birləşirdi. Y.Məmmədəliyev ərəb, fars, türk, rus (daha sonra ingilis) dillərini erkən mənimsəmiş, şəhər kitabxanalarında olan, demək olar ki, bütün elmi və bədii ədəbiyyatı yenidən oxumuşdu.

Ordubadda çoxlu ziyalı, savadlı insanlar, o cümlədən Yusifin atası Hacı Heydər bəy var idi ki, o, oğlunun istedadını dərk edərək

məqsədyönlü şəkildə onun təhsili ilə məşğul olurdu. Anası Gülsüm xanımın da Yusifə çox böyük təsiri olub. Balaca Yusif üçün dünyanı öyrənmək Ordubadın mavi səmasında parlaq ulduzları müşahidə etməklə başlayıb. O, kainatın dəyişməz nizamına heyran idi və əmin idi ki, orada, onun dərinliklərində varlığın böyük sirri gizlənir. Məmmədəliyevin sonradan elm yolunu seçməsi onun poetik təxəyyülünü və fəlsəfi bəsirətini azaltmadı. O, ömrünün sonuna qədər mütəfəkkir və sənətkar, şair və alim olaraq qalmış, müxtəlif hadisələr arasında dərin əlaqəni intuitiv şəkildə görmüş, mineralların və kimyəvi strukturların gözəlliyinə heyran qalmışdır.

**Əsas mətn.** Y.Məmmədəliyev tədrisin xüsusiyyətlərini erkən öyrənmişdir. 16 yaşında müəllim olmuşdur və akademik alim olmaqla yanaşı müəllim və pedaqoq olaraq da qalmışdır. O, elmlə təhsil arasında əlaqələrin intensivləşəcəyini, onlar arasında məsafənin azalacağının labüd olduğunu əvvəldən görürdü**.** [4] Y.Məmmədəliyev Azərbaycanda təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində çox işlər görmüş, ali təhsil müəssisələrinin keçmiş məzunlarının müxtəlif kurslar üzrə biliklərinin yenilənməsinə töhfə vermişdir.

15 dekabr 1961-ci ildə ən yaxşı Azərbaycan cərrahlarının keçirdiyi əməliyyatın ikinci günü o, vəfat etdi. Ölkə özünün akademikini itirdi. [1,s. 93] Çoxları alimə Moskvada, yaxud da xaricdə əməliyyat olunmasını məsləhət görsə də o əməliyyat üçün öz doğma yurdunu və respublikanın tanınmış cərrahlarını seçmişdi. Alimin qızı Sevda Məmmədəliyeva xatirələrində qeyd edirdi ki, onun üçün Azərbaycandan əziz heç nə yox idi. Atam tez-tez Moskvaya ezamiyyətə gedir və həmişə öz otağı olan Moskva otelində qalırdı. Və Moskvada oxuyan bütün tələbələr və aspirantlar bilirdilər ki, həmin günlər onlar üçün süfrə açılacaq və onlar hər şeyi istəyə bilərlər: yataqxana, pul, ondan diplomlarına cavabdeh olanlara dəstək məktubu, iş, dissertasiya və s. [15]

Yusif Məmmədəliyevin elm sahəsində misilsiz xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Alimin qızı Sevda Məmmədəliyeva müsahibələrinin birində deyib: "...atamın

xidmətləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin diqqətindən heç vaxt kənarda qalmırdı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə akademik Yusif Məmmədəliyevin abidəsinin açılışında dediyi sözləri heç bir zaman unutmaram: "Azərbaycanın həm alim, həm gözəl insan, həm ictimai-siyasi xadim kimi görkəmli simalarından biri Yusif Məmmədəliyevdir... Bu insan öz zəkası, biliyi, istedadı, fədakarlığı, elmi ixtiraları ilə, elmi əsərlər yaratmaqla, həm də ümumən Azərbaycan elmini təşkil etmək, inkişaf etdirmək sahəsindəki fəaliyyətilə Azərbaycan xalqının tarixinə daxil olmuşdu. Ona görə biz bu gün də Yusif Məmmədəliyevin xidmətlərini böyük məmnuniyyətlə xatırlayırıq və onun parlaq siması, əziz xatirəsi qarşısında baş əyirik". [16] Ümummilli lider Heydər Əliyev haqlı olaraq belə hesab edirdi: “Respublikada elmin bütün sahələrinin inkişafında Yusif Məmmədəliyevin xidmətləri var. Bu məziyyətlər isə unudulmazdır, indi də xatırlanır, gələcəkdə də xatırlanacaq.”[10]

Bəli, alimin xatirəsi unudulmur, onun anadan olmasının 100 illiyi Prezident İlham Əliyevin Sərəncamı ilə həm ölkəmizdə, həm də UNESCO xəttilə dünya miqyasında qeyd edilib. Parisdə YUNESKO-nun qərargahında akademik Yusif Məmmədəliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva öz çıxışında qeyd etmişdir: “Mən çox şadam ki, bu gün yubiley mərasimləri həm Azərbaycanda, həm də Fransanın paytaxtı Parisdə keçirilir. Yusuf Məmmədəliyevin 100 illik yubileyinin YUNESKO-nun təqviminə salınması onun elmi fəaliyyətinə verilən yüksək qiymətdir”. [2,s.21] Mərasimdə YUNESKO-nun baş direktoru adından onun müavini Valter Erdelen, o cümlədən Fransa Kimya Cəmiyyətinin prezidenti Arman Latt və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov çıxış ediblər**.** [16]

Yusif Məmmədəliyevin irsi bir çox muzeylərdə qorunur. Onlardan biri də Milli Azərbaycan Tarixi Muzeyidir. Milli Azər-

baycan Tarixi Muzeyi Azərbaycan tarixinin bütün dövrlərinə aid maddi və mənəvi mədəniyyət abidələrinin toplanılması, öyrənilməsi, nümayişi və təbliği ilə məşğul olan elmi tədqiqat və mədəni-maarif müəssisəsidir. Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında Yusif Məmmədəliyevin bir çox şəxsi əşyası və sənədləri qorunub saxlanılır. Muzeydə mühafizə edilən kolleksiya onun həyat və fəaliyyətini sənədlər və eksponatlar üzərindən əks etdirir. Bu kolleksiya muzeyin Sənədli mənbələr fondu, Köməkçi tarixi fənn materialları fondu və Hədiyyələr və xatirə əşyaları fondunda qorunur. Onun həyat və fəaliyyətini 1963-cü ildə ailəsi tərəfindən Muzeyə hədiyyə edilmiş sənədlər, fotoşəkillər, məktublar, müəllifik şəhadətnaməsi, əlyazmalar və digər eksponatlarla daha dərindən tədqiq etmək mümkündür.

**Sənədli mənbələr fondununda qorunan eksponatlar.** Sənədli mənbələr fondunun kolleksiyasında XIX əsrin əvvəllindən bu günədək olan uzun dövrü əhatə edən müxtəlif səpkili materiallar, o cümlədən, Azərbaycan mədəniyyəti və maarifinin, elm və ədəbiyyatının inkişafını, milli mətbuatının yaranmasını əks etdirən sənədlər və fotoşəkillər mühafizə olunur. Həmin sənədli mənbələr arasında məşhur ictimai xadimlərin mənalı ömür yolunu və fəaliyyətini əks etdirən materiallar da çoxluq təşkil edir. Bu materiallların içində də Yusif Məmmədəliyevə məxsus fotoşəkillər qorunur. Bu fotoşəkillər əsasən 1950-60-cı illərdə onun kimya laboratoriyasında çəkilmiş şəkilləri, tarixçi İsmayıl Hüseynov, ədəbiyyatşünas Məmmədcəfər Cəfərov, Azərbaycan EA-nın həqiqi üzvləri Mustafa Topçubaşov, Mirəli Qaşqay, SSRİ EA Dağıstan filialının sədri, Azərbaycan EA-nın akademiki Həbibulla Əmirxanov, Azərbaycan EA-nın akademiki Rüstəm İsmayılovla birlikdə çəkdirdikləri şəkillərdir. Bu fotoşəkillərdən biri də Azərbaycan EA-nın Prezidenti Yusif Məmmədəliyev (solda) və İsmayıl Hüseynov (sağda) Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında (1960-cı il) olan şəkildir. [7] Y.Məmmədəliyev tarix elminə də böyük önəm verirdi. O, öz monoqrafiyasında qeyd edirdi ki, inqilaba qədər Azərbaycanda ölkənin tarixi müntəzəm öyrənilmirdi. Mətbuatda dərc olunmuş

tarixə dair ayrı-ayrı əsərlər təsadüfi xarakter daşıyır, bu və ya digər müəllifin fərdi zövq və meyllərində uyğun gələn məsələlərə həsr olunurdu. Həm də bu əsərlər faktoloji xarakter daşıyır, onlarda tarixi prosesə düzgün və əsil materialist dünyagörüşü yox idi. Hətta bu əsərlərin ən yaxşılarında onların müəlliflərinin tarix elmi sahəsində biliklərinin məhdudluğu nəzərə çarpırdı. Amma 1923-cü ildə Bakıda Azərbaycanı tədqiq və tətəbbö cəmiyyəti təşkil edildi. Həmin cəmiyyətin tarix-etnoqrafiya bölməsində respublikanın tarixçiləri birləşdirilmişdi. Azərbaycan tarixinin öyrənilməsi sahəsində işlərin bir hissəsi hələ 1920-ci ildə yaradılmış Azərbaycan Dövlət Muzeyində görülürdü. [3, s.101-102]

Həmçinin bu fondda Azərbaycan EA-nın və Ali və Orta İxtisas Nazirliyinin keçirdiyi SSRİ EA-nın müxbir üzvü və Azərbaycan EA-nın akademiki Yusif Məmmədəliyevin anadan olmasının 80 illiyinə həsr olunan təntənəli gecəyə dəvətnamə (1986-cı il) və Azərbaycan Elmlər Akademiyasının təşkilatçılarından biri, akademik Yusif Məmmədəliyevin anadan olmasının 90 illiyinə həsr olunan yubiley gecəsinə Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Püstəxanım Əzizbəyovaya verilmiş dəvətnamə (10 sentyabr 1996-cı il) yer alır.

**Hədiyyələr və xatirə əşyaları fondunda qorunan eksponatlar.** Yusif Məmmədəliyevin ən çox şəxsi əşyasının qorunduğu fond isə muzeyin Hədiyyələr və xatirə əşyaları fondudur. Burada onun 40-a yaxın şəxsi əşyası qorunur. Hədiyyələr və xatirə əşyaları fondunda Yusif Məmmədəliyevin SSRİ Nazirlər Soveti yanında elm və texnika sahəsində Lenin mükafatları komitəsinin üzvü olması haqqında üzvlük vəsiqəsi (Moskva, 29 sentyabr 1959-cu il), onun Azərbaycan SSR EA-da fiziki-texniki elmlər və neft bölməsinin akademik-katibi vəzifəsində işləməsi haqqında vəsiqə, SSRİ Ali təhsil Nazirliyinin vəsiqəsi (S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsində işləməsi barədədir), Azərb. SSR Nazirlər Soveti tərəfindən verilmiş Y.Məmmədəliyevin həqiqətən Azərb.SSR EA-nın prezidenti olması haqqında vəsiqə, SSRİ Cənub Qərb rayonları Neft Sənaye

Nazirliyinin 35 saylı əmri ilə Y.Məmmədəliyevin Texniki şuranın sədri seçilməsi barəsində vəsiqə, SSRİ Xalq Komissarları Sovetinin 20 yanvar 1946-cı il 213 nömrəli qərarı ilə Y.Məmmədəliyevə III dərəcəli Stalin mükafatı laureatı adı verilməsi barədə vəsiqə, Azərbaycan SSR Nazirlər Sovetinin vəsiqəsi (Y.Məmmədəliyevin həqiqətən Azərb. SSR EA-nın prezidenti olması barədədir. 31 dekabr 1950-ci ilə qədər etibarlıdır), Y.Məmmədəliyevin Azərb.SSR Nazirlər Soveti yanında İncəsənət işləri idarəsinin bütün tamaşa müəssisələrinə daxil olmaq ixtiyarı verən vəsiqə (1949-cu il), SSR Xalq Təsərrüfatı nailiyyətləri sərgisinin baş komitəsinin 90-H nömrəli aprel 1960-cı il qərarı ilə SSR Xalq Təsərrüfatında nailiyyətlərinə görə Y.Məmmədəliyevin "Böyük Qızıl medalla" təltif olunması haqqında vəsiqələr qorunur. [8]

1941-ci ildə Dövlət Müdafə Komitəsi Y.H.Məmmədəliyevin neft qazlarının tətbiqi və kimyəvi emalı sahəsindəki dəyərli işlərini sınaqdan keçirdikdən sonra Bakıda izopropilbenzol istehsal edən xüsusi zavod tikilməsi haqqında qərar qəbul etdi. Bu zavod qısa zamanda tikildi və Sovetlər İttifaqı yüksəkoktanlı benzin komponenti almaq üçün imkan əldə etdi. Bu işinə görə Y.Məmmədəliyevə SSRİ Xalq Komissarları Sovetinin 20 yanvar 1946-cı il 213 nömrəli qərarı ilə verilmiş III dərəcəli Stalin mükafatı və Stalin mükafatı laureatı vəsiqəsi Hədiyyələr və Xatirə əşyaları fondunun dəyərli materialları sırasına daxildir. Müharibə ərəfəsində SSRİ-də yeni növ hərbi aviasiya texnikası— istifadəsi üçün yüksək oktanlı benzin tələb edən qırıcı YAK-1, MiQ-3, LAQQ-3, hücumçu İL-2 və d. təyyarələr istehsal edilmişdi [13, s. 631]. Müharibənin ən gərgin dövründə düşmən üzərində üstünlüyə sahib olmaq üçün qeyd edilən yeni nəsil təyyarələrin yüksək oktanlı benzinlə təmin edilməsi əsas prioritet məsələ idi. Lakin 1941-ci ilin əvvəllərində Sovet dövlətində B-78 aviasiya yanacağı ehtiyatının tələbatının yalnız 4 faizi təmin olunurdu. [11, s.46] Y.Məmmədəliyevin elmi fəaliyyətinin yüksəlişi məhz İkinci Dünya müharibəsi illərinə — sovet ordularının alman qüvvələrinə ard-arda məğlub olduğu

dövrə düşür. Almanlar ölkənin içərilərinə irəliləyərək Leninqradı mühasirəyə almış, Moskvaya gəlib çıxmışdılar. Qeyd etdiyimiz kimi, ölkədə toluolun qıtlığı çox kritik həddə idi, xaricdən idxal olunsa da (“Lend-Liz”) müharibə üçün tələbatın cüzi hissəsini təmin edirdi. 15 sentyabr 1941-ci ildə göndərilmiş “Azərb.SSR-nin zavodlarında aviasiya benzininin emalı barədə” Neft Sənayesi Xalq Komissarlığının məruzəsindən görürük ki, təkcə müharibənin başlanmasının 2 ayı ərzində Azərbaycanda aviobenzin istehsalında 38.5 faiz, aviayağ istehsalında isə 10.5 faiz artım olmuşdur. Lakin bu göstəricilər müharibə üçün qanedici deyildi. [5] Y.Məmmədəliyev isə tədqiqat obyektini məhz dövrün ən aktual probleminə yönləndirərək adını tarixə yazmış olur. SSRİ Dövlət Müdafə Komitəsi 1942-ci ilin 24 martında aviasiya benzini və aviasiya yağı istehsalını yüksəltmək üçün xüsusi qərar qəbul etdi. Bu dövlət əhəmiyyətli problemin aradan qaldırılması üçün 1942-ci ilin 3-8 mayında Sverdlovskda (Rusiya, indiki Yekaterinburq şəh.) bu məsələ ilə bağlı keçirilən SSRİ Elmlər Akademiyasının ümumi yığıncağında alimlərin elmi fəaliyyətlərinin gələcək istiqamələri müzakirə olundu. Bu əhəmiyyətli məsələlərin həlli ilə Serqey Semyonoviç Nemetkin, Aleksandr Nikolayeviç Nesmeyanov, Nikolay Nikolayeviç Semyonov, Aleksandr Dmitriyeviç Petrov və digər tanınmış kimyaçı alimlər məşğul olmalı idilər. [12, s.632] Lakin, bu mürəkkəb və həlledici problemin aradan qaldırılmasına Azərbaycanın görkəmli kimyaçı alimi Yusif Məmmədəliyev müvəffəq oldu. Əminliklə demək olar ki, onun hərbi sənayedə çevriliş edən kəşfi almanlar üzərində qələbə çalınmasında və dünyanın bu böyük fəlakətdən qurtuluşunda ən mühüm amillərdən biri oldu. 1942-ci ildə Y. Məmmədəliyev “Aromatik birləşmələrin alkilləşmə və dealkilləşməsi ilə toluolun sintezi” adlı doktorluq dissertasiyasını müdafə etdi. Bu dissertasiya ilə gənc alim dünya kimya elmində tədqiq olunmamış yeni bir üsul təklif etdi və metilxloridlə benzolun qarşılıqlı təsirindən toluolunun alınmasına nail oldu. Bu metodla Y.Məmmədəliyev 2 dəfə çox toluolun əldə edilmə yolunu irəli sürmüş oldu. Müharibə dövründə

belə bir göstəricili kəşf qeyri-real görsənirdi. Bu kəşf Böyük Vətən müharibəsində SSRİ-nin qələbə çalmasını təmin edən başlıca amillərdən biri oldu. Bu texnologiyanın tətbiqi aviasiya üçün aviabenzin istehsalını 30% artırmaq imkanı verdi. Belə ki, xaricdən aviabenzinin əlavə idxalı birdəfəlik olaraq sovet istehsalatı ilə (4 mln. 900 min ton) əvəz olundu. Bu kəşf 1943-cü ilin qışından İkinci Dünya müharibəsinin sonunadək sovet qırıcı təyyarələrinin hava hücumlarında hakimlik etməyə səbəb olan amillərdən başlıcası oldu. 1943-cü ildə SSRİ Ali Attestasiya komissiyası tərəfindən bu mühüm elmi əhəmiyyətli kəşfə görə Y.Məmmədəliyevə verilən kimya elmləri doktoru alimlik dərəcəsi və professor elmi adı vəsiqələri Milli Azərbayan Tarixi Muzeyinin Hədiyyələr və xatirə əşyaları fondunda mühafizə edilir.

Daha sonra Y.Məmmədəliyevə məxsus bir çox şəxsi əşya da bu fondun unikal eksponatlarındandır. Bunlar onun Stolüstü elektrik saatı (Açıq çəhrayı rəngindədir. ABŞ-da olarkən elektrik zavodu fəhlələri Y.Məmmədəliyevə bağışlamışlar), Kiçik xoşbəxtlik nalı (İspaniyada olarkən Y.Məmmədəliyevə bağışlanmışdır. 1950-ci illər), Eynəyi (Qabsızdır. Şəffaf şüşədəndir. Çərçivəsi qaradır. 1950-ci illər), avtomat qələmi (ABŞ-da istehsal edilmişdir. Üzərində qara, qəhvəyi və açıq qırmızı rəngdə zolaqlar vardır), şəffaf Kristal, (Kub şəklindədir. ABŞ-da olarkən Y.Məmmədəliyevə bağışlanmışdır. Üzərində qırmızı hərflərlə "TИOQUO" yazısı vardır. İçərisində sarı hərflərlə yazılmış "Polychem" sözü oxunur. Ağ qutu içərisindədir. Üzərində "Clearfloat trade mark" yazılmışdır), papiros qutusu (Taxtadandır. Qutunun üst qapağının ortası romb formasındadır. rombun içərisində iki papiros, üç tütün yarpağı şəkli vardır. Ətrafında qəhvəyi rəngli dairələr nəqş edilmişdir. dairələrin ətrafı yaşıl, açıq göy, qırmızı və açıq qəhvəyi rəngli naxışlarla bəzədilmişdir, qutunun içərisində ayrı-ayrı papiros dənələri üçün arakəsmələr və naxışlar vardır. Bolqarıstan tələbələri tərəfindən Y.Məmmmədəliyevə bağışlanmışdır. 1950-ci illər), çaxır çəlləyidir (üzərində üç iri haşiyə, dörd xırda qara rəngli həlqə vardır. Haşiyələr içərisində ağ, göy, qırmızı, sarı, qara və qəhvəyi rəngli nəbati və həndəsi naxışlar

vardır. Bolqarıstan hədiyyəsidir. 1950-ci illər). [8]

Y.Məmmədəliyevə aid kitab və kitabçalar da fondun maraqlı eksponatlarındandır. Bunlardan illüstrasiyalı, mətni 3 dildə- fransız, alman və ingilis dillərində yazılmış, ağ kartondan cildi olan, 80 səhifədən ibarət, ABŞ-da olarkən Y.Məmmədəliyevə bağışlanmış, üzərində "USA" yazılmış və hündür mərtəbəli binalar (göydələn) təsvir olunmuş (1955-ci il) kitab, Üzərində "Warszawa 1960" sözləri yazılmış, yazıları polyak və ingilis dillərinə olan kitab, Romada keçirilmiş Ümumdünya neft konqresində Y.Məmmədəliyevin və Ş.Vəliyevin "Получение галаидалкилбензолов и превращение их в галоидстиролы" mövzusunda məruzəsi haqqında kitabça (rus və ingilis dillərində. Moskva 1955-ci il), Y.Məmmədəliyev və M.Hüseynovun Parisdə keçirilmiş konqresdə (1960-cı il) etdikləri birgə məruzənin kitabçası (İngilis dilindədir. Paris, 1961-ci il), Y.Məmməd-əliyevin müəllifi olduğu kitab "Akademik Nikolay Dmitriyeviç Zelinskiy" adlı kitabı (Bakı 1951-ci il.Cildi qəhvəyidir. 85 səhifədən ibarətdir) misal çəkmək olar. [8]

Məmmədəliyevin sənədləri, fotoşəkilləri və digər materialları içərisində müəllimi N.D.Zelinskiyə həsr etdiyi monoqrafyası və bu monoqrafyaya görə N.D.Zelinskinin Y.Məmmədəliyevə xüsusi minnətdarlığını bildirən məktubunun surəti kolleksiyanın maraq doğuran eksponatlarından biridir. Onun və həmçinin Azərbaycan kimyaçılarının fəaliyyəti, xüsusilə də aromatik karbohidrogenlərin alkilləşdirilməsi sahəsində aktiv rolu müəllimi, dünya şöhrətli alim akademik N.D.Zelinskinin 90 illik yubiley təntənələri zamanı məxsusi qeyd olunmuşdu. Dövrünün məşhur alim və pedaqoqları B.A.Kazanski, A.N.Nesmeyanov və A.F.Plate yubilyarın neft kimyası sahəsində xidmətlərindən bəhs edən məqalədə yazırdılar: “Nikolay Dmitriyeviç və onun məktəbinə aid alimlər tərəfindən kəşf edilən və işlənib hazırlanan karbohidrogenlərin katalitik çevrilməsini nəzərdən keçirməyi yekunlaşdırarkən biz həmçinin olduqca vacib bir reaksiyanın üzərində dayanmalıyıq... Biz alkilləşdirmə reaksiyasını nəzərdə tuturuq...

Benzolun etilbenzol, izopropilbenzolun əmələ gəlməsi ilə alkilləşdirilməsi prosesinin işlənib hazırlanmasının bir hissəsi Y.H.Məmmədəliyevə məxsusdur. Böyük eksperimental işin nəticəsində ona bu reaksiyanın elə rahat şəraitdə aparılmasını işləyib hazırlamaq müəssər olub ki, artıq benzolun ali homoloqlarını əldə etmək olduqca asandır...” [14, s.42]

Fondda həmçinin onun fəxri fərmanları, əlyazmaları, deputat biletləri, döş nişanları, professorluq attestatı, diplomları, məktubları, fotoşəkilləri, medalları, qəzet parçaları, mandatları, orden kitabçaları, iştirak etdiyi kongreslərin proqramları da qorunur.

**Köməkçi tarixi fənn materialları fondunda qorunan eksponatlar.** Y.Məmmədəliyevin orden, medal və döş nişanları muzeyin Köməkçi tarixi fənn materialları fondunda mühafizə olunur. Bunlar “Qafqazın müdafiəsinə görə” medal №– 000143, “Böyük Vətən müharibəsində fədakar əməyinə görə medal №0199875, Lomonosov adına Moskva Dövlət Universitetinin 200 illiyi (1755-1955) münasibətilə buraxılmış medal, Əczaçıların Ümumittifaq Konfransının iştirakçısı döş nişanı (1961-ci il), Sovet Həmkarlar İttifaqının 50 illiyi döş nişanı, Nizami Gəncəvinin 800 illik yubileyi döş nişanı (1941-ci il), Azərbaycan SSR-in 40 illik yubileyi döş nişanı (1960-cı il), Neft sənaye nazirliyi. Sosializm yarışı əlaçısı döş nişanı, SSRİ Elmlər Akademiyasının 200 illiyi (1725-1925) döş nişanı, Gürcüstan SSR-in 40 illiyi döş nişanı, Beynəlxalq Geofizika ili (1957-1958) döş nişanı, VI Ümumdünya festivalının fəal iştirakçısı döş nişanı (Moskva, 1957), Azərbaycan müəllimlərinin IV qurultayının iştirakçısı döş nişanı (1960-cı il), “Şərəf nişanı” ordeni № 157672, “Qırmızı əmək bayrağı” ordeni № 251079, Osvensim (Polşa) hərbi əsir duşərgəsinə həsr edilmiş medal, Lenin ordeni № 14565, Döş nişanı “KA – 18”, M.V. Lomonosovun anadan olmasının 250 illiyinə həsr edilmiş medalıdır. [9]

Faşist Almaniyası üzərində SSRİ-nin qələbəsini təmin edən amillər haqqında müharibədən sonrakı illərdə də belə danışılır-

dı: “Müharibəni Mikulinin motorları, Yakovlevin təyyarələri, Məmmədəliyevin benzini hesabına udmaq mümkün oldu”. Y.Məmmədəliyevin müharibə illərində elm sahəsindəki görkəmli fəaliyyəti qiymətləndirilərək 18 sentyabr 1944-cü ildə “Qafqazın müdafəsinə görə” medalı ilə, 1944-cü ildə Lenin ordeni ilə, SSRİ Xalq Komissarları Sovetinin 20 yanvar 1946-cı il 213 nömrəli qərarı ilə III dərəcəli Stalin mükafatı və Stalin mükafatı laureatı adı ilə, 2 fevral 1946-cı ildə “1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə” medalı ilə təltif olunmuşdur. Bu materiallar sırasına daxil olan 2 fevral 1946-cı ildə “1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə” Д 0199875 №-li medalı və onun vəsiqəsi dövrün tədqiqi baxımından əhəmiyyətli mənbə hesab olunur. Müharibənin qurtarması ərəfəsində SSRİ Elmlər Akademiyası-nın prezidenti akademik V.L.Komarovun Bakıya gəlişi ilə İsmailliyə binasında Azərbaycan tarixində ilk Elmlər Akademi-yasının yığıncağı keçirildi. 1945-ci ilin mart ayında Azərbaycan Elmlər Akademiyası yaradıldı və onun ilk 15 həqiqi üzvlərindən biri görkəmli kimyaçı alim Yusif Məmmədəliyev oldu. [7]

Y.Məmmədəliyevin Milli Azərbaycan Tarixi Muzeyindəki kolleksiyası 2015-ci il 15 may, 2020-ci il 9 sentyabr tarixlərində Milli Azərbaycan Tarixi Muzeyində keçirilmiş “Azərbaycan II Dünya müharibəsi illərində” sərgilərində nümayiş etdirilmiş və ziyarətçilərin böyük marağına səbəb olmuşdur. Bu kolleksiya Y.Məmmədəliyevin timsalında Azərbaycan xalqının müharibə üçün misilsiz xidmətlərini sübut edir. [6, s. 78]

**Nəticə.**XX əsrdə Azərbaycanın həyatında çox böyük hadisələr baş vermişdir. XX əsr bəşər tarixində çox mürəkkəb, ziddiyyətli, böyük dəyişikliklər əsri olmuşdur, inqilablar, müharibələr, eyni zamanda elmin, mədəniyyətin sıçrayışla və sürətlə inkişaf etdiyi bir dövr olmuşdur. Azərbaycan xalqının da həyatında XX əsr bütün bu dəyişiklikləri əks etdiribdir. Biz bu gün fəxr edə bilərik ki, Azərbaycan xalqı XX əsrdə dünya elminə böyük töhfələr vermişdir. Azərbaycan ölkəsi elmlər ölkəsidir. Azərbaycan xalqı elmli, bilikli, yüksək təhsilli xalqdır.

Bunlar da Azərbaycanın istedadlı insanlarının elmi axtarışları, elmi ixtiraları, böyük elmi əsərləri ilə dünyada tanınmışdır.

Yusif Məmmədəliyevin həyatı, yaradıcılığı, əsərləri və qoyduğu böyük elmi irs Azərbaycan xalqının tarixinin böyük bir hissəsidir. O, öz zəkası, biliyi, istedadı, fədakarlığı, elmi ixtiraları ilə, elmi əsərlər yaratmaqla, həm də ümumən Azərbaycan elmini təşkil etmək, inkişaf etdirmək sahəsindəki fəaliyyəti ilə Azərbaycan xalqının tarixinə daxil olmuşdur. Ona görə biz bu gün də Yusif Məmmədəliyevin xidmətlərini böyük məmnuniyyətlə xatırlayırıq və onun parlaq siması, əziz xatirəsi qarşısında baş əyirik.

**Ганира Гафарлы**

## РЕЗЮМЕ

## ИССЛЕДОВАНИЕ ЖИЗНИ И ТВОРЧЕСТВА АКАДЕМИКА ЮСИФА МАМЕДАЛИЕВА НА ОСНОВЕ ЭКСПОНАТОВ НАЦИОНАЛЬНОГО МУЗЕЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

Наш народ сыграл огромную роль в создании мировой культуры. Наша богатая литература, исторические памятники, искусство и музыкальная культура были нашей гордостью. С именем Азербайджана связаны первый театр, первая опера, первый балет, первая Академия наук на мусульманском Востоке. Азербайджанский народ подарил миру таких гениев, как Низами Гянджеви, Аджами Нахчивани, Насиреддин Туси, Мухаммад Физули, Шах Исмаил Хатаи, Мирза Фатали Ахундзаде, Гусейн Джавид, Узеир Гаджибеков, Гара Гараев, Фикрет Амиров, Юсиф Мамедалиев.

Известный азербайджанский учёный Юсиф Мамедалиев родился в 1905 году в городе Ордубад Нахчыванской Автономной Республики Азербайджанской Республики. В 1918 году он вместе с семьей переехал в Тебриз, где проучился в школе Рущдия 7 лет. В 1929 году он поступил в Московский государственный университет. После завершения образования он остался в университете. Он участвовал в процессе разработки ценных

химических продуктов из нефтяных газов и их практическом применении в лаборатории. В сентябре 1942 года, в трудный для страны период, он защитил в Баку докторскую диссертацию на тему «Синтез алкилирования и деалкилирования толуоловых ароматических углеводородов» и обратился к одной из важнейших проблем современной химии - проблеме синтеза толуола. Композиции, полученные в результате такого синтеза, важны для улучшения качества моторного топлива в авиационной и военной промышленности. В 1945 году Юсиф Мамедалиев был назначен действительным членом АН Азербайджанской ССР, членом президиума АН и директором института Нефтяной академии. Он был первым академиком в области химии в Азербайджане. Одной из его неоценимых заслуг перед мировой наукой является создание в 1950 году топлива для стратегических ракет. Будучи автором более 200 фундаментальных научных работ и 6 монографий, академик Юсиф Мамедалиев подготовил 36 кандидатов наук и кандидатов наук. Цель написания статьи – на основе музейных экспонатов изучить жизнь и деятельность академика Юсифа Мамедалиева, рассмотреть вклад великого учёного в мировую науку. При написании исследовательской работы использовались методы анализа, синтеза, индукции, дедукции и контент-анализа.

**Ключевые слова:** Юсиф Мамедалиев, химия, медаль, фотография, книга.

**Ganira Gafarli**

**SUMMARY**

**RESEARCH OF THE LIFE AND CREATION OF ACADEMICIAN YUSIF MAMMADALIYEV ON THE BASIS OF THE EXHIBITS PRESERVED IN THE NATIONAL MUSEUM OF HISTORY OF AZERBAIJAN**

Our people played a great role in the creation of world culture. Our rich literature, historical monuments, art and music culture have been our pride. The first theater, the first opera, the first ballet, the first

Academy of Sciences in the Muslim East are connected with the name of Azerbaijan. The people of Azerbaijan gave the world such geniuses as Nizami Ganjavi, Ajami Nakhchivani, Nasireddin Tusi, Muhammad Fuzuli, Shah Ismayil Khatai, Mirza Fatali Akhundzade, Huseyn Javid, Uzeyir Hajibeyov, Gara Garayev, Fikret Amirov, Yusif Mammadaliyev.

The well-known Azerbaijani scientist Yusif Mammadaliyev was born in 1905 in the city of Ordubad, Nakhchivan Autonomous Republic of the Republic of Azerbaijan. In 1918, he moved to Tabriz with his family, where he studied at Rushdiyya school for 7 years. In 1929, he entered Moscow State University. After completing his education, he stayed at the university. He participated in the process of developing valuable chemical products from petroleum gases and their practical application in the laboratory. In September 1942, during a difficult period for the country, he defended his doctoral dissertation on "Synthesis of alkylation and dealkylation of toluene aromatic hydrocarbons" in Baku, and addressed one of the most important problems of modern chemistry - the problem of toluene synthesis. The compositions resulting from these syntheses are important for improving the quality of motor fuel in the aviation and military industries. In 1945, Yusif Mammadaliyev was appointed an active member of the EA of the Azerbaijan SSR, a member of the EA Presidium and the director of the Oil Academy Institute. He was the first academician in the field of chemistry in Azerbaijan. One of his invaluable services to world science is the creation of fuel for strategic rockets in 1950. As the author of more than 200 fundamental scientific works and 6 monographs, academician Yusif Mammadaliyev has trained 36 candidates of sciences and candidates of sciences. The purpose of writing the article is to study the life and activities of Academician Yusif Mammadaliyev on the basis of museum exhibits, to examine the great scientist's contributions to world science. Analysis, synthesis, induction, deduction, and content analysis methods were used in writing the research work.

**Keywords:** Yusif Mammadaliyev, chemistry, medal, photograph, book

## ƏDƏBİYYAT

1.Akademik. M.Fərəcullayeva. TUTU Nəşriyyatı Bakı-2005. .

2.Akademik Yusuf Məmmədəliyev. Biblioqrafiya. Tərtib edən: Aydın Kazımov. Bakı-2011.

3.Azərbaycanda elmin inkişafı.Y.Məmmədəliyev. Bakı-1960.

4.Əbədi parlayan ulduzun işığı. (Yusuf Məməmmədəliyevin 110 illiyinə həsr olunur) Nizami Məmmədov. İki sahil qəzeti (www.ikisahil.com).

5.Azərbaycan Respublikası Prezidentinin İşlər idarəsi. Siyasi Sənədlər Arxivi. Xüsusi qiymətli sənədlər siyahısı: s. 26, saxl. v.248

6.Milli Azərbaycan Tarixi Muzeyi – 2017. Bakı, "Elm", 2017

7.Milli Azərbaycan Tarixi Muzeyi. Sənədli mənbələr fondu. SMF 605/6, SMF 605/8, SMF 605/9, SMF 605/20, SMF MN, SMF 606/10, SMF 606/11, SMF 606/12, SMF 606/13, SMF 606/14, SMF 606/15, SMF 606/9.

8.Milli Azərbaycan Tarixi Muzeyi. Hədiyyələr və xatirə əşyaları fondu. HXƏF № 1440, HXƏF № 1444, HXƏF № 1445, HXƏF № 1454, HXƏF № 1452, HXƏF № 1453, HXƏF № 1449, HXƏF № 1455, HXƏF № 1456, HXƏF № 1458, HXƏF № 1459, HXƏF № 1460, HXƏF № 1461, HXƏF № 1462, HXƏF № 1463, HXƏF № 1479, HXƏF № 1480, HXƏF № 1481, HXƏF № 1482, HXƏF № 1483, HXƏF № 1484, HXƏF № 1485, HXƏF № 1493, HXƏF № 1494, HXƏF № 1498, HXƏF № 1499, HXƏF № 1500, HXƏF № 1501, HXƏF № 1502, HXƏF № 1448, HXƏF № 1503, HXƏF № 1504, HXƏF № 1505, HXƏF № 1506, HXƏF № 1507, HXƏF № 1508, HXƏF № 1511, HXƏF № 1512, HXƏF № 1513, HXƏF № 1515

9.Milli Azərbaycan Tarixi Muzeyi. Köməkçi tarixi fənn materialları fondu. KTFMF № 124, KTFMF № 126, KTFMF № 127, KTFMF № 128, KTFMF № 129, KTFMF № 130, KTFMF № 131, KTFMF № 132, KTFMF № 133, KTFMF № 134, KTFMF № 135, KTFMF № 136, KTFMF № 137, KTFMF № 138, KTFMF № 139, KTFMF № 140, KTFMF № 141, KTFMF № 143, KTFMF № 144, KTFMF № 145, KTFMF № 146, KTFMF № 147

10.Yusuf Heydər oğlu Məmmədəliyev biblioqrafiya. Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası. AMEA Mərkəzi Elmi Kitabxana. Azərbaycanın elm və mədəniyyət xadimləri. Bakı – "Elm"-2009, səh-6-18

11.Военная академия тыла и транспорта. Тыл Советской Армии в Великой Отечественной войне 1941—1945 гг. Ч. 1. Л., 1963.

12.Говорят сталинские наркомы. Смоленск: Русич, 2005 г.

13.Поспелов П.Н. и др. Великая Отечественная война Советского Союза. Краткая история. М., Воениздат, 1970.

14.Химические успехи, М., 1951, том 20, выпуск 1.

15.http://www.visions.az/en/news/909/9c3671df/

16.https://respublika-news.az/az/news/elm-tariximizde-silinmez-izi-var.https://heydar-aliyev-foundation.org/az /content/view/119/956/Solemn-ceremony-dedicated-to-the-100th-anniversary-of-the-outstanding-Azerbaijani-scientist%2C-academician-Yusif-Mammadaliyev-held-at-the-residence-of-UNESCO-in-Paris/

**MÜJKAN MƏMMƏDZADƏ***

# 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİ AZƏRBAYCAN FİLMLƏRİNDƏ

**XÜLASƏ**

Bu məqalədə İkinci Dünya Müharibəsinin Azərbaycan kinosundakı təsviri, müharibə illərində və sonrasında çəkilmiş əsas filmlər və onların təsir mexanizmləri araşdırılıb. Belə ki, Azərbaycan kinematoqrafçılarının çəkdikləri filmlər təhlil edilərək, cəmiyyətə, gələcək nəslin vətənpərvər ruhda böyüməsinə təsiri öz əksini tapır. Müharibə yalnız döyüş meydanında baş verən hadisələrlə məhdudlaşmır. O, insanların həyatını kökündən dəyişdirir, ailələri dağıdır və psixoloji travmalara səbəb olur. Azərbaycan kinematoqrafiyasında bu mövzu da xüsusi yer tutur.

**Açar sözlər:** film, müharibə, təbliğ, nümayiş

İkinci Dünya Müharibəsi (1941-1945) Azərbaycan tarixində böyük iz buraxmış və ölkənin müxtəlif sahələrində, o cümlədən ədəbiyyatında, teatrında və kinematoqrafiyasında dərin izlər qoymuşdur. Müharibə illərində və sonrasında çəkilən Azərbaycan filmləri dövrün hadisələrini, insanların fədakarlığını, qəhrəmanlıq dastanlarını və müharibənin sosial təsirlərini əks etdirmişdir. Azərbaycan kinematoqrafiyasında bu mövzu müxtəlif janrlarda – sənədli, bədii və təbliğat xarakterli filmlərdə öz əksini tapmışdır.

Müharibə illərində Azərbaycan kinosu SSRİ-nin ümumi ideoloji siyasətinin təsiri altında formalaşmışdır. Sovet hökuməti kinonu mühüm təbliğat vasitəsi kimi qəbul edir və onun

* Müdafiə Nazirliyi Milli Müdafiə Universitetinin Hərbi-Elmi Tədqiqat Institutu

vasitəsilə cəmiyyətə təsir göstərirdi. Azərbaycan kinostudiyaları da bu çərçivədə fəaliyyət göstərərək müharibəyə həsr olunmuş filmlər istehsal edirdi.

Müharibənin ilk illərində daha çox sənədli filmlər çəkilmişdir. Bu filmlər cəbhə xəbərlərini və Azərbaycan xalqının müharibəyə verdiyi töhfələri əks etdirirdi. "Vətən oğlu" (1941) və "Bakının müdafiəsi" (1942) kimi sənədli filmlər Azərbaycan kinostudiyasının ön cəbhədə və arxa cəbhədə çəkdiyi mühüm ekran əsərlərindən idi.

Müharibə dövründə çəkilən filmlərin əsas xüsusiyyətləri bunlardır:

- Sovet vətənpərvərliyini gücləndirmək məqsədilə hazırlanmışdır.
- Döyüş səhnələri və qəhrəmanlıq motivləri vurğulanmışdır.
- Müharibədə iştirak edən sadə insanların fədakarlığı göstərilmişdir.

1945-ci ildən sonra Azərbaycan kinematoqrafiyasında müharibə mövzusuna yenidən baxış müşahidə olunur. Bu dövrdə çəkilən filmlərdə artıq yalnız ideoloji və təbliğat aspektləri deyil, həm də müharibənin insan talelərinə təsiri, psixoloji problemlər və sosial reallıqlar əks etdirilməyə başlanmışdır.

Müharibənin ilk illərini təsvir edən “Bakının işıqları” tammetrajlı bədii filmi rejissorlar Aleksandr Zarxi, Rza Təhmasib və İosif Xeyfits tərəfindən 1950-ci ildə ekranlaşdirilmişdır. Bakı Kinostudiyasında istehsal edilmiş film Bakı neftçiləri haqqındadır. Bu film müharibə dövründə Bakı neftinin strateji əhəmiyyətini vurğulayır. Filmdə göstərilir ki, Bakı nefti Sovet ordusunun döyüş gücünü təmin edən əsas resurslardan biri olmuşdur. Ekran əsəri Azərbaycanın müharibə dövründə oynadığı rolu təbliğ edir və neft sənayesində çalışan insanların fədakarlığını ön plana çəkir.

Əsas rolları Mirzəağa Əliyev, Mərziyyə Davudova, Nikolay Oxlopkov, Rza Təhmasib və Nəcibə Məlikova ifa edirlər.

Hadisələr 30-cu illərdə başlayır və İkinci Dünya müharibəsi illərində daha da inkişaf edir. Bu vaxt Bakı neft mədənləri artıq

yeni texnika ilə təchiz edilmişdi, açıq dənizdə yeni qazma üsulları sınaqdan çıxarılmışdı. Neftçilər alman-faşist işğalçılarına qarşı döyüşən ordunu bol yanacaqla təchiz etmək və qələbəni yaxınlaşdırmaq üçün fədakarcasına çalışırdılar. Filmin sonunda görürük ki, müharibədən sonrakı ilk illərdə Bakıda yeni neft buruqlarının işıqları yandırıldı. Hadisələrin fonunda usta Əlibala (Mirzəağa Əliyev) və onun neftçilər briqadası üzvlərinin əmək qəhrəmanlığı, fədakarlığı, gündəlik qayğıları və şəxsi həyatı öz əksini tapmışdır.

Film 1958-ci ildə yenidən redaktə edilmişdir. Stalinin ölümündən sonra filmdən ayrı-ayrı epizodlar kəsilib götürülmüş və ekrana buraxılmışdır. Filmin orijinal variantının surəti 2001-ci ildə çıxarılıb Azərbaycan Dövlət Film Fonduna təhvil verilmişdir. Azərbaycan kinosunda ilk dəfə Stalin və Mir Cəfər Bağırovun obrazı da bu filmdə yaradılmışdır. Filmə baxış keçiriləndə Mir Cəfər Bağırov öz obrazının ifasından narazı qalaraq demişdir: "Təhmasib məni yaltaq eləyib. Mən yaltaq olmamışam" [5].

Bu dövrün ən məşhur filmlərindən biri "Uzaq sahillərdə" (1958) filmidir. Film Azərbaycanın milli qəhrəmanı Mehdi Hüseynzadənin (Mixaylo) faşistlərə qarşı apardığı mübarizəni təsvir edir. Mehdi Hüseynzadə 1941-1945-ci illər müharibəsində partizan kimi iştirak etmiş və böyük qəhrəmanlıq nümunələri göstərmişdir. Film həm tarixi hadisələri işıqlandırmış, həm də Azərbaycan kinosunda qəhrəmanlıq janrının inkişafına töhfə vermişdir.

Əsəri yazan İmran Qasımov və Həsən Seyidbəyli şahidləri dinləyib və əsəri yazıb. Azərbaycan-sovet hərbçisi, İkinci Dünya müharibəsinin iştirakçısı, müharibə veteranı Cavad Həkimli əfsanəvi partizan Mehdi Hüseynzadənin komandiri olub. Təbii ki, 2006-cı ildə vəfat etmiş Cavad Həkimlinin bu əsərin yazılmasında, filmin çəkilməsində bir şahid kimi böyük rolu olub. Hətta Cavad bəy filmdə də rol alıb [1].

Rejissor Tofiq Tağızadənin İkinci Dünya müharibəsindən bəhs edən filmi dünyanın 100-dən çox ölkəsində nümayiş

etdirilmişdir. Film 1959-cu ildə Kiyevdə Ümumittifaq kinofestivalının diplomuma layiq görülmüş və bəstəkar Qara Qarayevə filmin musiqisinə görə II mükafat verilmişdir. Film həmçinin Daşkənd kinofestivalının qalibi (1959) olmuşdur [4].

Bundan başqa, müharibənin sosial təsirlərini əks etdirən filmlər arasında "Əsl dost" filmi də xüsusi yer tutur. Film 1959-cu ildə lentə alınmışdır. Filmdəki hadisələr Xəzər dənizinin sahilində balıqçılıq qəsəbəsində cərəyan edir. Kinolentin mərkəzində Fərmanla (Nodar Şaşıqoğlu) Əsədin (Müxlis Cənizadə) taleyi durur. Uşaqlıq dostları vaxtilə məktəbə bir yerdə getmiş, orduda bir yerdə xidmət etmiş, hətta doğma qəsəbəyə də birlikdə qayıtmışlar. Filmdə dostların başına gələn qəzadan danışılır.

Bir il sonra Rza Təhmasibin quruluşunda (ssenarisi Məmmədhüseyn Təhmasibə aiddir) lentə alınan “Onu bağışlamaq olarmı” filmi detektiv janrlıdır, burada da qəhrəmanın hansı şəraitdə ailəsindən ayrı düşdüyü epizodda müharibə səhnələrini canlandıran bir neçə səhnələr salınıb.

Bu filmlərdə müharibədən sonra cəmiyyətin qarşılaşdığı çətinliklər, insanların bir-birinə olan dəstəyi və mənəvi dəyərləri qorumaq uğrunda apardıqları mübarizə göstərilir.

Müharibə yalnız döyüş meydanında baş verən hadisələrlə məhdudlaşmır. O, insanların həyatını kökündən dəyişdirir, ailələri dağıdır və psixoloji travmalara səbəb olur. Azərbaycan kinematoqrafiyasında bu mövzu da xüsusi yer tutur.

"Onun böyük ürəyi" filmi də arxa cəbhədə çalışan insanların həyatını əks etdirir. Müharibə dövründə fabriklərdə və təsərrüfat sahələrində çalışan mülki əhalinin əmək fəaliyyəti, onların fədakarlığı ekran əsərində ön plana çəkilmişdir. Kinopovest Azərbaycanın iri metallurgiya və kimya mərkəzi Sumqayıtın inşaatçılarına həsr olunmuşdur. Burada adamların yüksək mənəviyyatından, yaradıcı əməyindən, hər bir çətinliyə mətanətlə sinə gərmələrindən bəhs edilir və cəmiyyətdə özünə rahat yer, asan gəlir yolu axtaran bəzi əliəyri, yüngül xasiyyətli tiplər tənqid olunur. Film üç dövrü-müharibədən əvvəlki, İkinci Dünya müharibəsi və müharibədən sonrakı dinc quruculuq illərini əhatə edir.

Eyni ildə çəkilən hər iki filmdə arxa cəbhənin görüntüsü böyük ustalıqla həyata keçirilib və bədii sənət nümunəsi olaraq dəyərlidir.

“Bizim küçə” filmində isə müharibə dövründə itkin düşmüş bir qızın taleyindən söhbət açılır. Rejissor işi Əlisəttar Atakişiyevə aid olan filmin ssenarisini İmran Qasımov qələmə almışdır. Ssenariyə əsasən filmdə yalnız bir neçə epizodda – az yaşlı Saranın partlayış nəticəsində anasından ayrı düşməsi və sonrakı proseslərdə Mixaylo tərəfindən qorunaraq azərbaycanlıların yanına aparılması kimi kadrlarda müharibədən bəhs olunduğu aydın şəkildə hiss olunur.

Bizim küçə tammetrajlı bədii filmi rejissor Əlisəttar Atakişiyev tərəfindən 1961-ci ildə ekranlaşdırılmışdır. "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmişdir. Əsas rolları Rimma Məmmədova, Ətayə Əliyeva, Ağadadaş Qurbanov, Gündüz Abbasov və Giuli Çoxonelidze ifa edirlər.

"Bizim küçə" filmi Azərbaycan kino tarixində dərin məzmunu, güclü bədii-estetik həlli və sosial-psixoloji təhlilləri ilə seçilən əsərlərdən biridir. Filmin əsas üstünlükləri arasında reallığa yaxın təsvir tərzi, emosional təsir gücü və obrazların psixoloji dərinliyi yer alır.

Azərbaycan kinosunun klassik nümunələrindən biri kimi "Bizim küçə", müharibənin təkcə cəbhədə deyil, cəmiyyət daxilində də necə iz buraxdığını anladan, insan talelərini və kollektiv şüuru araşdıran bir əsərdir. Bu film həm tarixi baxımdan, həm də bədii dəyərinə görə Azərbaycan kinematoqrafiyasında öz əhəmiyyətini qoruyub saxlayır.

Məhz bu illərdə müharibə dövrünü özündə əks etdirən bir neçə film çəkildi. Öncə 1968-ci ildə lentə alınan “Mən ki, gözəl deyildim” filmindən bəhs etmək yerinə düşərdi.

“Azərbaycanfilm”in direktor vəzifəsinə yenicə təyin olunmuş Adil İsgəndərovun təşəbbüsü ilə Bayram Bayramovun müharibə mövzusunda qələmə aldığı ədəbi ssenarini ilin planına salır. Ədəbi materialın rejissor işi Ramiz Əsgərova həvalə edilir. Senariyə əsasən hadisələr əsasən müharibə səhnələri, xüsusən

Rostov uğrunda gedən döyüşlər üzərində qurulmalı idi, baxmayaraq ki, söhbət arxa cəbhədən gedirdi. Ancaq pirotexniklərin çox böyük səhvi ucbatından müharibə səhnələri çəkilərkən partlayış baş vermiş, nəticədə də çəkiliş qrupunun olduğu qayıq partlamışdı. Ramiz Əsgərov da başda olmaqla 4 nəfərin həlakı, bir neçə nəfərin isə yaralanması nəinki "Azərbaycanfilm" kinostudiyasının, eləcə də bütün Azərbaycan xalqının faciəsi idi. Ancaq həyat davam edirdi və plana salınan film tez bir vaxtda çəkilib təhvil verilməli idi. 4 həmkarının ölümünü görən yaradıcı heyət filmin tərkibindən uzaqlaşır. Yeni tərkibə isə heç kim könüllü gəlmək istəmir.

Filmin ikinci quruluşu əslən iranlı olan Sasanpur adlı rejissora tapşırılır. Rejissor köməkçisi kimi isə Ağarza Quliyev çəkiliş meydançasına gəlir. Rasim Ocaqov ilk çəkiliş vaxtı baş verən hadisədən yaralandığı üçün yaradıcı heyətdən uzaqlaşır. Bunun üçün də filmin ikinci çəkilişi zamanı operator işinə Moskvadan Aleksey Polkanov dəvət olunur.

Çəkiliş vaxtı Sasanpurun yarımçıq iş metodu Polkanovu qane etmədiyi üçün o bundan rəhbərliyi xəbərdar edir. Sasanpur rejissor işindən uzaqlaşır, artıq məsələ qəlizləşməyə başlamaqda idi ki, Adil İsgəndərov qəti tədbir görülməyin vaxtı olduğunu anlayır. O, hətta filmin maliyyə xərclərini belə öz üzərinə götürür və kinostudiyanın həmkarları ilə bir araya gələrək fikir mübadiləsi aparır. Digər rejissorlardan fərqli olaraq Tofiq Tağızadə rəhbərliyin etimadını doğruldaraq filmin çəkilişini öz öhdəsinə götürür və az bir müddət ərzində də onu tamaşaçıların baxışına təqdim edir [3].

Ramiz Əsgərov bu filmi çəkərək onu Böyük Oktyabr bayramına hədiyyə etmək istəsə də buna əcəl aman verməyib. Ancaq Tağızadə bu filmlə Moskva Bədii Şurasını sözün həqiqi mənasında da təəcübləndirib. Çünki "Azərbaycanfilm" kinostudiyası ilk dəfə olaraq məhz bu filmdə arxa cəbhəni olduğu kimi canlandırmağa nail ola bilib. Bu, Moskvanın fikri idi.

Filmdə hadisələr İkinci Dünya müharibəsi illərini (1939-1945) əhatə edir. Baş qəhrəman dağ kəndlərindən birində

yaşayan 15 yaşlı Səidədir. O, anasını itirib, müharibə başlayanda isə atasını cəbhəyə yola salır. Ekran əsərində, həmçinin arxa cəbhədəki insanların məişəti və dövrün mühiti göstərilir.

Əmisi Qurbanın himayəsində yaşayan Səidəyə hər kəs uşaq kimi yanaşır. Əhvalatın əvvəlində poçtalyon Şərif sərt gerçəyə hazır olmayan Səidəyə atasının ölüm xəbərini demir. Səidə poçtalyon işləyəndə böyüyür və güclənir. Onun bu xəbərə hazır olduğunu görən Şərif həqiqəti deyir.

Səidənin atasının ölüm xəbərini aldığı səhnə alınmırdı. Buna görə rejissor aktrisaya bacarıqsız olduğunu, Səidənin taleyini yaşaya bilmədiyini deməklə onu ağladır və beləliklə, səhnə alınır.

Filmə Xuraman Qasımova (Səidə), İsmayıl Osmanlı (Şərif), Sadıq Hüseynov (Qurban) gəncəli aktyorlar Şahmar Ələkbərov (Məzahir), Ələddin Abbasov (İmran) və digərləri çəkiliblər.

Film müharibə mövzusunda çəkilən ən yaxşı ekran əsərləri sırasına daxil edilib. 1969-cu ildə Kiyevdə kinofestivalda Xuraman Qasımova "Qadın rolunun ən yaxşı ifası"na görə birinci yerə layiq görülüb.

Filmdə Səidənin həyatı fonunda arxa cəbhədəki insanların məişəti, güzəranı, dövrün mühiti verilir. Dərindən olmasa da, qadına cəmiyyətdə münasibət məsələsinə də toxunulur. Səidənin Məzahirlə dostluğunun dedi-qodu yaratması, əmisi arvadı Gözəlin onu məhz qadın olduğuna görə təzyiq altında saxlama cəhdi və s.

Müəllif müharibənin törətdiyi faicəni göstərmək üçün oğul, əhvalatı ər, ata itkisinin yaşayan insanların naləsi ilə yükləyir. Üstəlik, Fikrət Əmirovun ayrılıqda mükəmməl olan musiqisi ilə filmi daha da ağırlaşdırır. Ona görə bəzi səhnələrlə musiqi artıq görünür. Çünki onsuz da təsvirlər danışaraq daha çox söz deyir. Hərçənd, Məzahir, Çingiz, Qurban obrazları bəzi hallarda ağırlığı yumorları ilə yüngülləşdirə bilir.

Ən maraqlı səhnələrdən biri oğlunun qara kağızını alan ananın ağlaması zamanı onu yox, məhz Səidənin, onun reaksiyasının göstərilməsidir. Bu halda ağrı daha ifadəli, təsirli

alınır. Yaxud Şərifin Səidəyə atasının ölüm xəbərini deyəndən sonra, gənc qızın kədəri poçtalyonun möhürü məktublara tez-tez, əsəbiliklə vurması ilə sinxronlaşır və bu maraqlı həll ilə vəziyyətin gərginliyini daha çılpaqlıqla hiss edirik.

"Mən ki, gözəl deyildim" filminin çəkilişləri üçün yaradıcı heyət filmdə gördüyümüz kəndə-Bayan kəndinə yola düşdüyü zaman anlaşılmaz bir məqamla üzləşib. Bildiyimiz kimi Qarabağ hadisələri başlanana qədər Azərbaycanın əksər kəndlərində ermənilər məskunlaşmışdı. Hətta bu məskunluq o dərəcəyə çatıbmış ki, ermənilər Azərbaycan tərəfin müdaxiləsinə belə imkan vermədən sırf erməni adət-ənənələri, qayda-qanunları ilə yaşayırmışlar. Tofiq Tağızadənin rəhbərliyi ilə filmin yaradıcı heyəti Bayan kəndinə çatan kimi ermənilər tərəfindən əhatəyə alınırlar. Təbii ki, ermənilər başda kolxoz sədrləri olmaqla yaradıcı heyətin çəkilişinə qarşı çıxırlar. Səbəb də onu göstərirlər ki, guya Bayan kəndində olan bütün tikintilər, bütün inkişaf prosesi məhz onların sayəsində ərsəyə gəlib. Buna dözməyən Tofiq Tağızadə bərk əsəbləşir və ermənilərə xitabən "sizə 3 saat vaxt verirəm, bütün tikililərinizi söküb maşınlara yükləyin və bizim torpaqlarımızı tərk edin" deyə sərt şəkildə tələb edir. Haqlı sözün qarşısında tab gətirmək çox çətindir, bunu başa düşən kənd camaatı kolxoz sədrinin üstünə hücub edərək onu öldürmək dərəcəsinə gəliblər. Sonrakı proseslərdə çəkiliş qrupu filmi rahatlıqla çəkib başa çatdırıblar. Və bu hadisəyə görə də(əslində burda ciddi heç nə olmayıb) Tağızadəyə gözün üstdə qaşın var deyən olmayıb. Ancaq hadisənin baş verdiyi ildə-1968-ci ildə, SSRİ adlı imperiyanın fəaliyyətinin ən qızğın çağında belə bir qarşıdurmanın yaranması bizlər üçün pis nəticələnə bilərdi. Bayan kəndi hər cəhətdən çəkiliş üçün əlverişli məkan olduğu üçün filmdəki arxa cəbhə mənzərələri təbii alınıb [3].

1969-cu ildə "Şərikli çörək filmi istehsalata buraxılıb. Filmdə İkinci Dünya müharibəsinin son günləri və müharibədən sonrakı ilk aylar uşaqların çətin həyat tərzi üzərindən öz hekayəsini danışır. Alla Axundovanın ssenarisi əsasında çəkilən film Şamil Mahmudbəyovun quruluşunda çəkilib. Arxa cəbhə,

paytaxt Bakı, müharibə çətinliklərinin bir tikə çörəklə insanları necə sınağa çəkdiyi və s. məqamlar düşündürüc təsir bağışlayır.

Filmin rejissoru və ssenari müəllifi bu ekran işinə görə dövlət mükafatına layiq görülüblər. Ekran əsəri İtaliyada da uğurla nümayiş olunub, hətta filmə çəkilmək üçün həmin ölkədən Fazil Salayevə dəvət gəlib.

Filmdəki hadisələr 1945-ci ilin mayında cərəyan edir. Çəkilişlər "Böyük qala" küçəsində, kinostudiyanın pavilyonunda, "Kubinka"da və Nalçik şəhərində baş tutub. Filmin çəkildiyi həyət isə "Səadət sarayı"nın yanında yerləşir. Bu məkanda "Bizim Cəbiş müəllim", "Gecə qatarında qətl" və digər filmlər çəkilib.

Filmdə uşaqların çörək növbəsində dayanması ən dramatik səhnələrdəndir. Çörək dükanının təsvir olunduğu yer rejissor tərəfindən təsadüfi seçilməmişdi. Həmin yerlə üzbəüz, həqiqətən də çörək dükanı olub. Camaatın növbəyə dayandığı səhnə "Böyük qala" küçəsində lentə alınıb. Satıcı rolunun ifaçısı Yusif Vəliyevin qəhrəmanı ilə alıcıların dialoq səhnəsi isə pavilyonda lentə alınıb. Vaqifə növbə çatarkən ekranda əsən bir əl görünür. O əl rejissor Şamil Mahmudbəyovun əlidir. İstədiyi kadrı tutmaq üçün rejissor bu epizodda məhz öz əlini çəkmişdi.

Filmdə uşaqlarla bağlı səhnələrin təbii alınması üçün kadrlar gizli çəkilirdi. Uşaq rollarından birinin ifaçısı Tuna Namazovanın ayağına rəsm çəkməsi öz ideyası olub. Belə ki, o qız rəssamlıq məktəbində oxuyub. Əslində, həmin səhnədə parçadan gəlincik düzəldilməli idi. Çəkiliş zamanı qız rejissora deyir ki, mən yaxşı şəkil çəkirəm, hətta dizimə də. Rejissor qızdan bunu əyani göstərməsini istəyir. O da ayağına yaylıq bağlayıb, dizində göz-qaş şəkli çəkir. Krantın başına yaylıq bağlamaq da azyaşlı aktrisanın öz ideyası olub.

Qırçı Məhəmmədlə Vaqif nahar edərkən eşidilən mahnının ifaçısı Bülbüldür.

Kadrların bəziləri gizli kamera ilə çəkilib. Uşaqlar danışarkən, oynayarkən rejissor filmə lazım olan kadrları lentə alıb [2].

"Bizim Cəbiş müəllim" filmi də eyni ildə istehslata buraxıldı. Maqsud İbrahimbəyovun "Müharibənin 1001-ci gecəsi" ssenarisi əsasında çəkilən filmə rejissor Həsən Seyidbəyli quruluş verdi. Bu filmdə də hadisələr II Dünya müharibəsi illərində Bakıda cərəyan edir. Filmdə qələbə naminə hər cür maddi çətinliklərə dözən, vətənin azadlığını hər şeydən yüksək tutan insanların mənəvi ucalığından söhbət açılır.

Bu məqamda istər-istəməz 1975-ci ildə lentə alınmış "Tütək səsi" filmi yada düşür. Zənnimcə, "Tütək səsi" filmində də arxa cəbhənin görüntüsünün təbii alınması heç də "Mən ki, gözəl deyildim" filmindən geri qalmır.

İsa Hüseynovun "Tütək səsi" və "Saz" povestləri əsasında yazılan ssenaridə hadisələr İkinci Dünya müharibəsi illərində Azərbaycan kəndlərinin birində mürəkkəb insan münasibətləri mühitində cərəyan edir. Bu kənddə hər bir evdə müharibənin nəfəsi hiss olunur. Müharibə fonunda cərəyan edən hadisələr dövrün ağrı-acısını əks etdirir. Və yaradıcı heyət arxa cəbhəni o qədər inandırıcı yaradıblar ki, sanki müharibə dəhşətləri hələ də bitməyib. Bəlkə də illər sonra Qarabağ müharibəsinin başlanması və uzun illər bu ağrı-acıyla yaşamağa davam etməyimiz bir mesaj olaraq verilir.

1985-ci ildə isə tarixi, döyüş, bioqrafik, müharibə janrında çəkilən "Sizi dünyalar qədər sevirdim" filminə Rasim İsmayılov quruluş verib.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun həyat və döyüş bioqrafiyasının səhifələrini canlandıran filmdə hadisələr I Pribaltika cəbhəsində axırıncı döyüş zamanı həlak olmuş qəhrəmanımızın son günlərindən bəhs edir.

Həzi Aslanovun müharibədəki şücaətinin məhz 1985-ci ildə, Sövetlər Dönəminin son illərində çəkilməsi bir qədər təəccüblü görünsə də, yuxarıda qeyd etdiyimiz kimi "Azərbaycanfilm" kinostudiyası hər zaman Moskvanın təzyiqində olduğu üçün qadağalar üzləşib ki, nəticədə də qəhrəman oğullarını asanlıqla ekrana gətirə bilməyib.

1945-ci ilin qələbəsindən sonra müharibə mövzusu öz aktuallığını gündəmdə uzun illər qoruyub saxladı. İstər "Mosfilm", istərsə də "Azərbaycanfilm" son illərə qədər müharibə mövzusunda filmlər çəkməkdə idi. Təsadüfi deyil ki, Qarabağ hadisələri başladıqdan sonra belə Böyük Vətən Müharibəsinə aid film çəkən rejissorlarımız olub. Rasim Ocaqovun 1989-cu ildə quruluş verdiyi "Ölsəm, bağışla", filmi buna canlı misaldır.

Qeyd edək ki, Azərbaycan kinematoqrafçıları dəfələrlə müharibə mövzusuna müraciət etmək istəsələr də güclü bir əl daima buna mane olub. Səbəb olaraq isə onu göstəriblər ki, əgər Azərbaycanın ərazisində döyüş olmayıbsa, onda sizlər hansı qəhrəmanlığı ekrana gətirəcəksiniz. O dövrdə onların bu fikrinə qarşı çıxmaq hər hansı bir kinematoqrafçının öz sevimli sənətindən ayrı düşməsinə gətirib çıxara bilərdi.

Bir məqamı da unutmamalıyıq ki, Moskvanın bizlərə qarşı olan təzyiqləri məhz özümüzünkülər tərəfindən həyata keçirilib. O dövrdə Azərbaycan kinosuna rəhbərlik edən bəzi şəxslər haqqı nahaqdan ayırmaqdansa, üstünlüyü Moskvanın istəkləri ilə razılaşmağa veriblər. Bütün bunlardan doğan intriqa ona gətirib çıxarıb ki, Azərbaycan kinosu daima zərbələrə məruz qalıb. Yəni, şəxsi münasibətlərdən yaranan zərbə kinomuza öz mənfi təsirini göstərib.

İkinci Dünya Müharibəsi dövründə Azərbaycan kinostudiyası (o vaxtkı adı ilə Bakı Kinostudiyası) fəaliyyətini davam etdirirdi. Lakin müharibə illərində əsas diqqət sənədli filmlərə yönəldilmişdi. Bu illərdə çəkilən sənədli və xronikal filmlər cəbhədə və arxa cəbhədə baş verən hadisələri əks etdirir, Sovet İttifaqının təbliğat siyasətinə xidmət edirdi.

Azərbaycan kinolarında müharibə mövzusunun işlənməsi əsasən Sovet ideologiyasına uyğun şəkildə təqdim edilmişdir. Əsas bədii və ideoloji xüsusiyyətlər aşağıdakılardır:

1. Qəhrəmanlıq və vətənpərvərlik – Müharibə filmlərində əsas obrazlar cəsur, fədakar və vətənə bağlı insanlardır. Onlar düşmənə qarşı qorxmadan mübarizə aparır və Sovet İttifaqının şərəfini qoruyurlar.

2. Arxa cəbhənin rolu – Müharibə yalnız döyüş meydanında deyil, arxa cəbhədə də davam edirdi. Azərbaycan kinolarında arxa cəbhədə çalışan insanların zəhməti də geniş şəkildə işıqlandırılmışdır.

3. İdeoloji və təbliğat xarakteri – Sovet dövrü kinolarında müharibə əsasən ideoloji çərçivədə təqdim olunurdu. Sovet əsgərlərinin rəşadəti, faşizmə qarşı mübarizə, dostluq və birlik ruhu əsas mövzulardan idi.

4. İnsan taleləri və psixoloji təsir – Müharibə insan həyatına böyük təsir göstərmişdir. Filmlərdə müharibənin yaratdığı faciələr, ailələrin dağıdılması, insanların psixoloji sarsıntıları da əks olunmuşdur.

İkinci Dünya Müharibəsi Azərbaycan xalqının tarixində mühüm iz buraxmış və bu hadisələr milli kinomuzda geniş şəkildə əks olunmuşdur. Müharibə illərində və ondan sonra çəkilmiş filmlər qəhrəmanlıq, vətənpərvərlik, insan taleləri və müharibənin sosial təsirləri kimi məsələləri ekranlaşdırmışdır.

Azərbaycan kinematoqrafiyasında bu mövzunun işlənməsi həm tarixi hadisələrin sənədli xronikasını yaratmış, həm də Sovet dövrü ideologiyasına xidmət etmişdir. Həmçinin, müharibə filmləri qəhrəmanlıq motivlərini tərənnüm etmiş, insanların çəkdiyi əzabları və dözümünü ekrana gətirmişdir. Bu filmlər bu gün də Azərbaycan kino tarixinin dəyərli nümunələri kimi aktuallığını qorumaqdadır.

1988-ci ildə başlayan və 1994-cü ilə qədər davam edən Birinci Qarabağ Müharibəsi, daha sonra 2020-ci ildə baş verən İkinci Qarabağ Müharibəsi, Azərbaycan xalqı üçün yalnız hərbi mübarizə deyil, həm də mənəvi-ideoloji savaş olmuşdur. Bu dövrdə 1941-1945-ci illər haqqında çəkilmiş filmlərində cəmiyyətin ruh yüksəkliyinin qorunmasına və əsgərlərdə döyüş ruhunun formalaşmasına mühüm təsir göstərmişdir. Belə ki, müharibə qəhrəmanlarının nümunə kimi qəbul edilməsi, həmçinin "Uzaq sahillərdə" filmində təsvir edilən Mehdi Hüseynzadə kimi qəhrəman obrazları Qarabağ döyüşçüləri üçün motivasiya mənbəyi olmuşdur. Düşmənə qarşı nifrət və müba-

rizə ruhu, İkinci Dünya Müharibəsi filmlərində təsvir edilən faşizmə qarşı mübarizə ideyası Qarabağ müharibəsində erməni işğalına qarşı müqavimət formasında öz əksini tapmışdır. Hətta illər öncə bu kinolardan ilhamlanıb övladlarına filmdəki qəhrəmanların adlarını qoyan oğullarımız Vətən müharibəsində qəhrəmanlıqla öz sözlərini dedilər.

Buna misal olaraq Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmiş Mixail Hamlet oğlu Həmidovu göstərə bilərik. Vətən müharibəsində silah yoldaşları tərəfindən "Mixaylo" ləqəbini qazanan qəhrəmanımız Füzuli döyüşləri zamanı şəhid olub.

1941-1945-ci illər haqqında çəkilmiş filmlər Azərbaycan xalqının yaddaşında mühüm yer tutmuş və Qarabağ müharibəsi dövründə vətənpərvərlik ruhunun qorunmasına təsir etmişdir. Bu filmlər Qarabağ döyüşçülərinin qəhrəmanlıq motivasiyasını artırmaqla yanaşı, cəmiyyətdə müharibənin mahiyyəti barədə ictimai şüurun formalaşmasına da kömək etmişdir. İkinci Dünya Müharibəsi qəhrəmanlarının obrazları, onların göstərdiyi şücaət və qurbanvermə ideyası Qarabağ müharibəsində döyüşən yeni nəslə örnək olmuşdur.

Bu gün Azərbaycan kinematoqrafiyasında Qarabağ müharibəsi və onun qəhrəmanları haqqında daha çox filmin çəkilməsi və bu prosesdə 1941-1945-ci illərin kino irsindən istifadə olunması vacibdir. Tarixi paralellər əsasında çəkilən filmlər cəmiyyətin milli yaddaşını qoruyaraq, gələcək nəsillərə ötürüləcək mühüm bir mədəni irs formalaşdırır.

**Мюжкан Мамедзаде**

## РЕЗЮМЕ

## ВОЙНА 1941-1945 ГОДОВ В АЗЕРБАЙДЖАНСКИХ ФИЛЬМАХ

В данной статье рассматривается изображение Второй мировой войны в азербайджанском кино, основные фильмы, снятые во время и после войны, и механизмы их влияния. Таким образом, анализируются фильмы, снятые азербайджанскими кинематографистами, отражается их влияние на общество и рост патриотического духа будущего поколения. Война не ограничивается событиями на поле боя. Оно радикально меняет жизнь людей, разрушает семьи и наносит психологические травмы. Эта тема также занимает особое место в азербайджанском кинематографе.

**Ключевые слова:** фильм, война, пропаганда, демонстрация

**Muzhkan Mammadzade**

## SUMMARY

## WAR 1941-1945 YEARS AND AZERBAIJAN FILMS

This article examines the depiction of World War II in Azerbaijani cinema, the main films shot during and after the war, and their mechanisms of influence. Thus, the films shot by Azerbaijani filmmakers are analyzed, reflecting their impact on society and the patriotic upbringing of the future generation. War is not limited to events on the battlefield. It radically changes people's lives, destroys families, and causes psychological trauma. This topic also occupies a special place in Azerbaijani cinema.

**Keywords:** film, war, propaganda, demonstration

# ƏDƏBİYYAT

1. "Uzaq sahillərdə" filmi: 26 yaşlı Mixayloya 105 illik sevgi, 65 illik ehtiram: [Elektron resursları] / - 22 dekabr 2023. URL:https://www.adalet.az/az/posts/detail/uzaq-sahillerde filmi-26-yasli-mixayloya-105-illik-sevgi-65-illik-ehtiram 1703238551

2. "Şərikli çörək" filmi haqqında: [Elektron resursları] / - 05 iyul 2022. URL: https:// aydinyol. aztc.gov.az/ newsview/ 2334/Sherikli-chorek-filmi-haqqinda-

3. 1941-1945-ci illər Azərbaycan kinosunda: [Elektron resursları] / - 09 may 2020. URL: https://aki.az/1941-1945-ci-ill%C9%99r-az%C9 %99rbaycan-kinosunda/

4. Vikipediya: [Elektron resursları] / - https:// az. wikipedia.org/ wiki/Uzaq_sahill%C9%99rd%C9%99

5. Vikipediya: [Elektron resursları] / - URL: https://az.wikipedia. org/wiki/Bak%C4%B1n%C4%B1n_i%C5%9F%C4%B1qlar%C4%B1

# “Azərbaycan 1941-1945-ci illər müharibəsində”

# RESPUBLİKA ELMİ KONFRANSINININ MATERİALLARI

Format: 60*84 $^{1}/_{16}$. Tiraj: 100.

Buraxılışa məsul: **Adilə Ağabəyova.**

Kompüter dizaynı və bədii tərtibat: **Esmira Kərimova.**